**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASIFOLKLOR İNSTİTUTU**

# USTA SÖYLƏYİCİLƏRİN REPERTUARI

## I KİTAB

**BAKI – 2015**

**AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ:** **AMEA-nın müxbir üzvü Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYIB TƏRTİB EDƏN, ÖN SÖZÜN MÜƏLLİFİ: fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**ELMİ REDAKTORU:** **fil.ü.f.d. Rza XƏLİLOV**

**NƏŞRİNƏ MƏSUL:** **fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Usta söyləyicilərin repertuarı, I kitab.** Bakı, "Elm və təhsil", 400 səh.

Kitabda təhkiyəsinə, sənətkarlığına və zəngin repertuarına görə seçilən dörd söyləyicinin şifahi irsindən örnəklər verilmişdir.

folklorinstitutu.com

U 4603000000 Qrifli nəşr N-098-2015

© Folklor İnstitutu, 2015

## ÖN SÖZ

Oxuculara təqdim olunan bu kitabda öz dəsti-xətti, söyləyicilik manerası, zəngin repertuarı ilə seçilən dörd söyləyicinin – Narış Bayramova (Ağcabədi), Musa Bayramov (Bərdə), Əli Süleymanov (Ağdam) və Abbas Abbasovun (Cəbrayıl) irsindən nümunələr cəmlənmişdir. Bu söyləyicilərin dördünü də bir ümumi cəhət birləşdirir: o da onların hələ erkən yaşlarından şifahi ədəbiyyata böyük maraq göstərmələridir. Musa Bayramovun dediyinə görə, ağsaqqallar olan məclisə uşaqları yaxın qoymazdılar, amma o, haradan olsa, özünü içəri salıb onların söhbətinə qulaq asarmış. Bacısı oğlunun Narış Bayramova haqqında "jurnalist xasiyyətli bir xalam var" deməsi də təsadüfi deyildir. Narış Bayramova hələ uşaqlıq illərindən jurnalist kimi hər şeylə maraqlanmış, onun kökünü axtarmağa həvəsli olmuşdur. Atasının dizinin dibində oturaraq onu danışdırar, dediyi sözləri yadında saxlamışlar. Bu söyləyicilər danışdıqları mətnlərin böyük əksəriyyətini məhz uşaqlıq və yeniyetməlik illərində eşidib hafizələrində saxlamışlar.

Bu insanlar həm də bildiyi nağılları evdə nəvə-nəticələrinə söyləyir, bununla da şifahi ənənənin yaşamasında, onun gənc nəslə ötürülməsində fəal iştirak edirlər. Musa Bayramovdan qeydə alınmış "Adamyeyən qız", "Quru kəllə" nağıllarını məhz nəvələri yadına salmışdı. Narış Bayramova Bəxtiyar adlı nəvəsinə, Əli Süleymanov kiçik oğlunun uşaqlarına bildiyi mətnləri söyləyir.

Bu söyləyicilər fərqli peşə sahibləridir. Əli Süleymanov bənna, Musa Bayramov mərsiyəxan, Narış Bayramova sınıqçı, Abbas Abbasov molladır. Onların hər biri öz işinin kamil ustasıdır. Əli kişi gözəl bənna kimi ad çıxarıb, Musa Bayramov gözəl səsə sahib mərsiyəxandır. Onun gözəl səsi olduğunu kənd sakinləri də söyləyirdi. Narış Bayramova Afşar camaatı arasında sınıqçı kimi tanınır. Onlar həm də mütaliəli insanlardır. Narış

Bayramova yaşının ahıl çağında da kitab oxumağı tərgitməyib və onun hər axşam mütaliə etdiyini gəlini də təsdiqləyirdi. Narış Bayramova, Musa Bayramov və Abbas Abbasov həm də bədii yaradıcılıqları olan şəxslərdir, toplama zamanı onların qələminə məxsus bəzi şeir nümunələri də yazıya alınmışdır.

Şifahi ənənənin qorunub saxlanmasında ailə ocaqlarının oynadığı rol folklorşünaslıqda müxtəlif tədqiqatçılar tərəfindən dəfələrlə qeyd olunub[1]. Adlarını çəkdiyimiz bu söyləyicilərin formalaşmasında, onların nağılçı kimi yetişməsində ailənin böyük rolu olmuşdur. Abbas Abbasovda nağıla marağı atası oyatmış və demək olar ki, o, bildiyi nağılların hamısını ondan eşitmişdir.

Bu söyləyicilərin yetişməsində ailə ocaqları ilə yanaşı, folkor məclislərinin də rolu danılmazdır. Bunların arasında ən geniş yayılanı *devranlar* (dövran) idi. Söyləyicilərin verdiyi məlumata görə, keçən əsrin 80-ci illərinə qədər kəndlərə aşıqlar gələr və devran keçirərdilər. Aşıq hər kəsin evinə deyil, kimin evi geniş idisə, ora düşərdi və kəndə xəbər yayılardı ki, axşam filankəsin evində devran keçiriləcək. Camaat axşam mal-qaranı tövləyə saldıqdan və yemək yedikdən sonra ora yığışardı. Damı işıqlandırmaq üçün sütunlardan çıraq asardılar. Aşıq devrana başlamazdan əvvəl bildiyi dastanları sayar və camaatdan hansı dastanı istədiklərini soruşardı. Hansı dastanı desəydilər, onu da danışardı. Belə məclislər gecəyarısına qədər davam edərdi, aşıq dastanı tamamlaya bilmədikə, onun davamını səhərə saxlayardı.

Aşıqların keçən əsrin səksəninci illərinə qədər kəndlərə gəlib devran keçirdiklərini kənd sakinləri də vurğulayırlar. Məsələn, Bərdə rayonunun Seyid Yusifli kəndinə bərdəli Aşıq İsmayıl, Aşıq Zeynal gələrmiş. Həmin kəndin sakini Musa Qasımovun dediyinə görə, kəndin ağsaqqalları qabaqcadan öz

---

[1] Малахова Е.П. Фольклор сибирско-белорусской семьи в ее поколений: конец XIX – начало XXI в. Дисс. …. Канд. филол. наук. Омск, 2008.

aralarında razılaşar və evi geniş olan bir şəxsin evində toplaşarmışlar. Belə məclislər bəzən səhərə qədər çəkərmiş. Musa Qasımovun dediyinə görə, axşamdan ağsaqqallar sözləşib pəncərələri elə qapadardılar ki, havanın işıqlaşdığını aşıq bilməsin. Qapını açanda məlum olardı ki, artıq günortadır. Belə məclislərdə dastanlar danışılar, aşıq çay fasiləsinə çıxdığı zaman və ya dastan arasında isə qaravəllilər söylənərdi.

Folklorun söylənildiyi əsas məclislərdən biri yun daramaq üçün evlərdə təşkil olunan *iməciliklər* idi. İməciliklər payız aylarında keçirilərdi. Bir gün qabaqcadan ev sahibi qonşulara xəbər verərdi ki, sabah onun evində yun daranacaqdır. Qonşudakı qız-gəlinlər ona köməyə gələrdilər. Səhər başqa bir evdə yun daranardı, bu dəfə həmin evə köməyə gedərdilər. Kimin əlçimi çox olardısa, ev sahibi ona nəmər verərdi. İş prosesini daha da yüngülləşdirmək üçün ev sahibi həmin məclisə xüsusi nağıl söyləyicilərini dəvət edərdi. Kəlbəcər rayonu Ağcakənd sakini Səfurə Alıyevanın dediyinə görə, belə məclislərə çox vaxt Əhliyyət adlı söyləyicini çağırardılar, o da maraqlı söhbətləri ilə camaatın başını qatardı. Bu cür məclislərdə qız-gəlinlər qırmızı kəlağayıdan gərdək qurar, ağ yundan qız fiquru, qara yundan oğlan fiquru düzəldərdilər. Oğlana qara bığ qoyardılar. Qız yun darayanların birini, oğlan isə ev yiyəsini təmsil edərdi. Gərdəyi düzəldib bəylə gəlini onun arxasına qoyardılar. Biri deyərdi, bəylə gəlini tağdan asmışam, ev yiyəsi gəlsin düşürsün. Ev yiyəsi də yaxşı yemək bişirər, orda işləyən qız-gəlinə yemək verərdi. Onda da hamı həvəslənərdi, yunu yaxşı darayardı.

Ümumiyyətlə, payızdan başlayaraq yaza qədər evlərdə qara nağıl gecələri, tapmaca gecələri təşkil olunar, bu məclislər bəzən səhərə qədər davam edərdi. Tapmaca gecələri daha maraqlı olardı, kim tapmacanın cavabını tapa bilməsə, o, borclu qalardı. Onda tapmacanı söyləyən deyərdi: "Satıram". Yerdən biri deyərdi: "Alıram". Soruşardılar: "Hansı cəzanı çəksin?"

Tapmaca deyən dillənərdi: “Qab götürsün, getsin filan bulaqdan bir qab su gətirsin, camaat su içsin”. Elə vaxt olurdu, tapmacanın cavabını tapa bilməyən gedib su gətirərdi, bu səfər deyərdilər ki, sənin şahidin yoxdu, bəlkə, suyu başqa yerdən doldurub gətirmisən. Onun yanına birini şahid qoşub təkrar su gətirməyə göndərərdilər. Tapmacanı tapmayan şəxsə digər cəzalar da verilərdi. Məsələn, səhərə qədər dik ayaq üstə durmaq və s. Bəzən tapmacanı deyən şəxs humanistlik göstərər, bir az ayaq üstə durduqdan sonra həmin şəxsi bağışlayardı. Yun daramaq üçün təşkil edilən iməciliklərdə də qızlar iki dəstəyə bölünər və qarşı-qarşıya duraraq bir-birinə tapmacalar deyərdilər.

Novruz bayramı ərəfəsində keçirilən *surmançaq* mərasimi də folklorun yaşandığı, ifa olunduğu məclislərdən biri idi. Usuncaq (Cəbrayıl), Uçuncaq (Füzuli), Surmançaq (Ağdaş), Kuft (Qubadlı) adı ilə tanınan bu mərasimə Azərbaycanın bir çox bölgələrində təsadüf etmək mümkündür. Ağdaş rayonunun Pirəzə kəndində bu adət keçən əsrin sonlarına qədər qorunub saxlanırdı. Digər bölgələrdən fərqli olaraq, Surmançaq mərasimi burada gəlin köçən qızın şərəfinə təşkil olunar və onun gəlin köçməsinə iki-üç gün qalmış keçirilərdi. Belə məclislər ya gəlin köçən şəxsin həyətində, ya da Kür qırağındakı meşədə keçirilər və bura gəlin köçən qızın həmyaşıdları dəvət olunardı. Meşədəki hündür ağaclardan birinə 15-20 metr uzunluğunda kəndir bağlanardı. Qızların arasından bir ataman seçilər və o, əlinə çubuq alıb surmançaqda yellənən qızdan nişanlısının, ya da istədiyi oğlanın adını deməsini tələb edərdi. Qızlar utandığından istədiyi oğlanın adını deməz, ya da yalandan başqa bir ad verərdilər. Bu zaman ataman əlindəki çubuqla onları vurar və istədiyi oğlanın adını düzgün deməsini tələb edərdi. Oğlanın adını öyrəndikdən sonra qızı sancmaq məqsədi ilə bayatılar deyərdilər. Məsələn:

Oğlan, adın Həmiddi,
Dağlara gün dəyifdi.

Sən verən qızıl üzük
Hindidən qəfləyifdi.

Oğlan, adın Mürşiddi,
Dağlara gün düşüfdü.
Sən verən qızıl üzük
Barmağımdan düşüfdü.

Pirəzə kənd sakini Şükufə Məmmədovanın dediyinə görə, o, sonuncu dəfə belə məclislərdən birini bacısı qızını gəlin köçürərkən təşkil etmişdi. Həyətdəki ağaclardan birində surmançaq qurmuş, bacısı qızının həmyaşıdlarını ora dəvət etmişdi. Ağdaşın digər kəndlərindən fərqli olaraq, Kürqırağı kəndlərdə bayatı janrının bu gün də aktivliyini saxlamasında[2] həmin bayatı məclislərinin böyük rolu olmuşdur.

Folklor nümunələrinin söylənildiyi məclislərdən biri də *çillə* gecələridir. Bu tip məclislər çillə girəndən başlayar və çillə qurtarana qədər davam edərmiş. Ağdaş rayonu Aralbir kənd sakininin dediyinə görə, çillə gecələri imkanlı şəxslərin evində keçirilərdi. Məsələn, kənddə iyirmi imkanlı ailə varsa, çillə gecələri də onların evinə salınar və hər iki gündən bir onların evinə toplanardılar. Kişi və qadınlar üçün ayrı-ayrı otaqlarda süfrə açılardı. Şuluqluq etməmələri üçün uşaqları qabaqcadan qonşuya göndərərdilər. Ev sahibi çillə üçün qabaqcadan qarpız ehtiyatı görərdi. Qarpızlar xüsusi olaraq seçilər, onların bir-birinə yaxın çəkidə olmasına diqqət yetirilərdi. Çillə gecəsi ev sahibi hər adamın adına bir qarpız kəsərdi – məclisdəki adamlardan birinin adına qarpız kəsilməsəydi, o, inciyə bilərdi. Ona görə də ev sahibi çox vaxt qarpızların sayına uyğun adam dəvət edərdi. Qarpız kəsiləndən sonra hərə ondan bir tikə dadar, ondan sonra həmin qarpızdan qadınlara, qohum-qonşuya pay göndərilərdi. Çillə

---

[2] Onu da qeyd edək ki, Ağdaşın Kürqırağı kəndlərində bayatı xüsusi avazla oxunur, ona görə də bu bölgənin sakinləri bayatını *mahnı* adlandırırlar.

qarpızından sonra ortaya plov gətirilərdi. Süfrənin sanballığı şərbətlərin sayına görə təyin edilərdi. Ona görə də ev sahibi süfrənin sanballı olması üçün ortaya limon, bal, almadan və s. hazırlanmış şərbətlər qoyardı. Axırıncı gün isə məclis ən imkanlı adamın evinə salınar və daha təmtəraqlı olardı. Ev sahibi ayrıca heyvan kəsər, o gün böyük-kiçik hamı o evə toplanardı.

Topluda repertuarı verilmiş söyləyicilərin, demək olar ki, hamısı hələ uşaq vaxtlarından bu tip məclislərin böyük həvəskarı olmuşlar. Həmin maraq, həvəs sonda onların bir söyləyici kimi formalaşmasına gətirib çıxarmışdır.

Yuxarıda sadalanan məclislər haqqında bu gün yalnız söyləyicilərin verdiyi məlumatlar əsasında təsəvvür əldə etmək mümkündür. Məclislərin böyük əksəriyyəti ya məişətdən çıxmış, ya da tədricən unudulmaq üzrədir. Təbii ki, folklor nümunələrini yaşadan, onları canlı saxlayan belə məclislər idi. Onların məişətdən çıxması folklorun tədricən öləziməsinə, əvvəlki işləkliyini itirməsinə səbəb olmuşdur.

Ənənəvi folklor məclislərinin məişətdən çıxması həm də söyləyici auditoriyasının daralmasına gətirib çıxarmışdır. Şifahi ənənənin daşıyıcıları indi ən yaxşı halda ailə ortamında yaxşı söyləyici kimi tanınırlar. Söyləyicilərlə söhbət zamanı bəzi kənd sakinlərinin hər gün qarşılaşdıqları bir adamın Şah Abbasdan, İsgəndərdən maraqlı əhvalatlar danışdığını görəndə təəccüblərini gizlədə bilməmələri də buradan qaynaqlanır. Məsələn, Bərdə rayonu, Şirvanlı kənd sakini Ələmşah kişi ilə çayxanadakı görüşümüz zamanı onun söhbətinə qulaq asanlar təəccüb edirdilər ki, Ələmşah kişi nə üçün indiyə qədər onların yanında belə söhbətlər etməyib. Füzuli rayonunun Bəhmənli kəndində olduğumuz zaman Seyid Əli Əzizov ilə bizi tanış edən kənd sakinləri də onun nağıl danışdığını ilk dəfə gördüklərini etiraf edirdilər. Bu səbəbdəndir ki, Qarabağ bölgəsində toplama fəaliyyətində olduğumuz zaman qarşılaşdığımız ən yaxşı söyləyiciləri bizə kənd

sakinləri nişan verməyib, onları təsadüf nəticəsində tapmışıq. Məsələn, Musa Bayramovun yaşadığı ünvanı adaşı Musa Qasımov nişan versə də, peşəkar bir söyləyici kimi deyil, yaşlı bir insan olduğu, həm də Seyid Yusif ağanın məclislərində iştirak etdiyi üçün onunla görüşməyi məsləhət görmüşdü. Narış Bayramova ilə tanışlığımız da sırf təsadüf nəticəsində baş tutmuşdu. Afşar kəndindən ayrılmaq üzrə idik ki, bizə bələdçilik edən bələdiyyə sədrinin müavini Nizami Cəfərov jurnalist xasiyyətli bir xalasının olduğunu söyləyərək ayaqüstü onunla da görüşməyi məsləhət görmüşdü.

Təbii ki, auditoriyanın itirilməsinin mətnə təsirsiz ötüşməsi mümkün deyil, çünki söyləyicinin repertuar seçimində, mətnin şəkillənməsində auditoriyanın rolu böyükdür. Şirvanlı kənd sakini Ələmşah kişinin "mən çoşanda daha gözəl söyləyirəm" deyərək söylədiyi mətnlərdən razı qalmamasının bir səbəbi vardır: onu çoşduracaq auditoriyanın yoxluğu. Ona görə də son illər qeydə alınan mətnlərin yığcam olması və təsvirin yoxluğu onların auditoriya qarşısında söylənilməməsi ilə bağlıdır.

* * *

*Usta nağılçı* adlandırdığımız söyləyicilərdən müxtəlif janrlara dair nümunələr yazıya alsaq da, nağıllar onların repertuarının əsasını təşkil edir. Onların ustalıq, sənətkarlıq keyfiyyətləri əsasən bu janrda özünü büruzə verir, ona görə də bundan sonrakı təhlillərimizi bu janr üzərində cəmləşdirəcəyik. Narış Bayramova təkcə ənənədən gələn süjetlər hesabına deyil, həm də mütaliə etməklə öz repertuarını xeyli zənginləşdirmişdir. Ondan qeydə alınmış nağılların 10-unu müəllimi Ələmşah kişidən, 1-ni qayınanasından eşitmiş, 2-ni – "Şah Abbas və Həsən Qara" və "Sarı donlu qız" nağıllarını isə kitabdan mənimsəmişdir. Nağılların hamısı məlum süjetlər olsa da, onların içərisində elələri vardır ki, ənənəvi variantlardan kifayət qədər fərqlənir. Məsələn, "Bacı həsrəti" nağılı-

nın indiyə qədər Ağdaşdan qeydə alınmış bir variantı məlum idi. Həmin variantda qeyd olunur ki, əcəli çatmış kişi uzun müddət görmədiyi bacısına baş çəkir. Bacısını sevindirib onun könlünü şad etdiyi üçün Allah-taala onun ömrünü uzadır. Narış Bayramovadan qeydə alınmış variantda isə süjet xəttinə əlavə gedişlər qoşulub. *Əcəli tamam olmuş kişi çarıq geyinmək arzusunu gerçəkləşdirmək üçün Allahdan üç gün möhlət alır. Ustaya çarıq sifariş verib bacısına baş çəkməyə gedir. Yolda ölü namazına durur, Qurana qulaq asır və uzun müddət görmədiyi bacısı ilə görüşüb onu sevindirir. Tutduğu savab işlərə görə Allah onun ömrünü uzadır.* "Həzrət Əli ilə qəssab" nağılında da Həzrət Əlinin sünnünün ona olan inamını yoxlamaq məqsədi ilə səfərə çıxması, ona inam bəsləyən qəssabın sünnü kimi qələmə verilməsi ancaq Narış Bayramovadan qeydə alınmış variant üçün xarakterik detallardır.

Keçirdiyi xəstəlikdən sonra Narış nənədə tələskənlik, başladığı bir mətni qısa zamanda söyləyib başa çatdırmaq kimi bir vərdiş yaranmışdı. Ona görə də nağılları çox sürətlə söyləyirdi. Məhz bu narahatçılığına görə, ilk görüşümüz zamanı xalası oğlu onu bir saatdan artıq danışdırmağa imkan vermədi. Sürətli söyləməsinə baxmayaraq, Narış Bayramova nağıl mətbəxinə kifayət qədər bələd bir insandır, ona görə də onun söylədiyi nağıllarda nağılçılığın qayda-qanunları, fəaliyyətlərin və ya gedişlərin üçlənməsi, ənənəvi epik məkanlar gözlənilir, final və təsvir formullarından, keçid formullarından geniş istifadə olunur.

Narış Bayramova nağılı bir qayda olaraq "Göydən üç alma düşdü. Biri mənim, biri Narış nənənin, biri də nağıl söyləyənin. Yerdə qalan da sizin, aparın bölüşdürün" formulu ilə tamamlayırdı. Söyləyicinin final formulunda öz adını işlətməsi Musa Bayramovdan qeydə alınmış nağıllarda da müşahidə olunur. Sanki söyləyici öz adını formula daxil etməklə onu əbədiləşdirməyə çalışır. Narış nənəyə zarafatla "almaların üçünü də

özünüzə götürdünüz" deyəndə onun bizə cavabı belə oldu: "O dünyada almaları məndən istəyəcəklər, onda mən sizi haradan tapacağam". Əslində bu cavab Narış nənənin özünə deyil, onun müəllimi Ələmşah kişiyə məxsusdur. Ələmşah kişi də nağılları həmişə bu formulla tamamlayarmış, uşaqlar şikayət edəndə həmin cavabı onlara verərmiş. Bu faktın özü onu göstərir ki, Narış Bayramova nağılların təkcə süjet xəttini deyil, eyni zamanda bir çox təsvir formullarını da müəllimindən mənimsəmişdir.

Narış Bayramova nağılları adətən dualarla tamamlayır. Ondan qeydə alınmış 13 nağılın 10-da dualara rast gəlmək mümkündür. Narış Bayramova duaların məzmununu nağılın finalı ilə əlaqələndirməklə mətnlə dua arasında üzvi bir bağ yaradır. Ona görə də onlar havada qalmır, nağılın daha təsirli alınmasında mühüm rol oynayır. Məsələn, "Narxatın" nağılı yeddi qardaşın ata yurduna qayıtması ilə tamamlanır. Söyləyici də buna uyğun olaraq duaya "cəmi ata-ananın yurdunda Allah-taala oğul evladın yurdçu eləsin..." deməklə başlayır. Yaxud "Tısbağa qız" nağılı kiçik qardaşın atasının yerinə taxta çıxması və firavan dövran sürməsi ilə tamamlanır. Buna uyğun olaraq, söyləyici də duaya "siz də bu dünyada devran sürün, Allah arzularınıza çatdırsın" deyə başlayır. Duaların məzmunu kifayət qədər genişdir. Narış Bayramova təkcə bizə deyil, qürbətdə çalışan oğlanlarını, yol üstə, səfərdə olanları və s. yada salıb onlara da dua eləyir.

Musa Bayramovun da özünəməxsus söyləyicilik dəstixətti var. Digər söyləyicilər nağılı söyləyərkən obrazların emosional durumunu çatdırmaq üçün səslərinin tonunu dəyişirdilərsə, Musa Bayramov nağılı sakit templə başlayır, həmin templə də axıra kimi davam eləyirdi. Musa Bayramov dastanı adi nağıldan fərqləndirir, birini aşıq nağılı, digərini isə qara nağıl adlandırırdı. Narış Bayramovadan fərqli olaraq, o, ənənəvi formullara o qədər də maraq göstərmir. Yalnız iki nağılın sonunda "Göydən üç alma düşdü. Biri mənim, biri

nağıl deyənin, biri də Musanın" formulunu işlədir. Onun fikrincə, bu cür formullar nağılın həcmini artırmağa xidmət edir, ona görə də onlardan istifadəyə ehtiyac görmür.

Musa Bayramovun repertuarı ilk növbədə yeni süjetlərin varlığı ilə diqqəti cəlb edir. Onun repertuarına məxsus "Qaraçuxasını yatırmış şəxs" (TR460*)[3], "Cins dəyişmə" (TR514*), "Tərs düşmüş sünnət" ( TR976*B) ilk dəfə qeydə alınan nağıl süjetləridir. "Qaraçuxasını yatırmış şəxs" süjetinin Bərdə rayonunun Yeni Əyricə kəndində sonradan başqa bir variantı qeydə alınsa da, Musa Bayarmovdan yazıya alınmış variant həm təfsilatlığına, həm də yeni motivlərə görə süjetin daha mükəmməl variantı hesab olunur. Bu varianta məxsus olan padşahın söhbətcil adam axtarması, varlının qaraçuxasını ağacın kölgəsində yatırtması kimi təsəvvürlərə Yeni Əyricə variantında rast gəlinmir.

Musa Bayramovdan qeydə alınmış digər süjetlər məlum variantlar olsa da, informativ yükünə və yeni motivlərə görə ənənəvi variantlardan fərqlənir. Məsələn, 934*+831C+895** nömrəli süjetlərdən təşkil olunmuş "Şah İsgəndər" nağılında İsgəndərin çoban olması, tapdığı xəzinə hesabına hakimiyyətə gəlməsi haqqında digər variantlarda rast gəlinməyən təsəvvürlər öz əksini tapıb. 559+653A+661*+976*A süjetləri əsasında formalaşan "Şah Abbasla məleykə" nağılında da digər variantlar üçün xarakterik olmayan cinlə məleykənin bir-biri ilə mübahisə etməsi, cinin tərəfini saxladığı üçün Şah Abbasın məleykənin qəzəbinə gəlməsi kimi təsəvvürlərə rast gəlinir.

Bu söyləyicilər Azərbaycan nağıl repertuarını təkcə yeni süjet və variantlarla zənginləşdirməmişlər, eyni zamanda yeni kontaminasiya tipləri də gətirmişlər. Narış Bayramovadan qeydə alınmış nağılların dördü kontaminsayalardan təşkil olunmuşdur. Bu kontaminasiyaların ikisi ənənəvi kontaminasiya-

---

[3] Nağılların süjet nömrəsi "Azərbaycan nağıllarının süjet göstəricisi" kitabı əsasında verilmişdir (Bakı, Elm və təhsil, 2013).

lardır, digər ikisi – 400*A+881, 875İ*+882 nömrəli süjetlərin kontaminasiyası məhz onun repertuarında müşahidə olunur. Musa Bayramovdan qeydə alınmış nağılların isə yarısı (14 nağıldan 7-si) kontaminasiyadan təşkil olunmuşdur. 911+924*+922**, 878*+432, 1406A*+514*+449+976*B nömrəli süjetlərin birləşməsinə məhz onun repertuarında rast gəlinir.

Hər bir söyləyicinin marağı, həvəsi onun repertuarının formalaşmasında əhəmiyyəli rol oynayır. Məsələn, Abbas Abbasovun molla olması onun repertuarında ibrətamiz məzmunlu nağılların daha ağırlıq təşkil etməsinə səbəb olmuşdu. Narış Bayramovanın repertuarında əsasən novellistik, Musa Bayramovun repertuarının böyük qismi isə sehrli və novellistik nağıllardan təşkil olunub. Onlardan fərqli olaraq, Əli Süleymanovun repertuarında lətifəvari (satirik) nağıllar (15 süjet) üstünlük təşkil edir. Göründüyü kimi, söyləyicilərin xarakterinin, maraq dairəsinin müxtəlifliyi onların repertuarında da özünü göstərir və heç birinin repertuarı digərinə bənzəmir, tamamilə fərqlənir.

Əli Rəmdar oğlu Süleymanov baməzə, gülərüz bir insan kimi bizim xatirimizdə qalıb. Məskunlaşdığı Ağdaş rayonunun Qumlaq kəndində də sakinlər onu baməzə söhbətlərinə görə tanıyır. Kənd sakinlərindən maraqlı söhbət edən, yaxşı lətifə, nağıl bilən insan tanıyıb-tanımadıqlarını xəbər aldıqda bizə Əli kişinin ünvanını göstərmələri də bunu təsdiq edir. Əli kişidən biz materialları 2001-2002-ci illərdə yazıya almışdıq. Tərcümeyi-halını daha geniş, ətraflı öyrənmək, həmçinin söylədiyi materialların yer aldığı kitabı ona hədiyyə etmək üçün on ildən sonra yenidən onunla görüşəsi olduq. Üstündən xeyli vaxtın keçməsinə, yaşlaşmasına, gözlərinin zəifləməsinə baxmayaraq, söhbətcilliyindən, zarafatından heç nə əskilməmişdi. Repertuarında satirik, yumoristik məzmunlu nağılların üstünlük təşkil etməsi də Əli kişimin deyib-gülməyə həvəsindən irəli gəlir. Əli kişidən sehrli, novellistik, heyvanlar haqqında nağıllara dair

nümunələr qeydə alsaq da, tərəddüdsüz deyə bilərik ki, o, özünü satirik nağıllarda daha çox tapırdı. Həmin nağılları söyləyərkən sanki daha da pərvazlanır, çoşurdu. Ona görə də ondan qeydə alınmış "Şərikli kömbə", "Keçəllə Kosa", "Yeddi kor", "Molla ilə Keçəl", "Üzlü qonaq" həm yeniliyinə, həm də söyləyici təhkiyəsinə görə gözəl satirik nağıl nümunələridir.

Əli Süleymanovun repertuarı yeni süjetlərlə zəngindir. Ondan qeydə alınmış 1618* (Kim uzağa tullanar), 1202 (Naşı biçinçi), 1577 (Yeddi kor), 1341A (Tövlədən qaçış), 1441B (Mollanın arvadına aşiq olmuş keçəl), 1525S* (Keçəllə kosa padşahın inəyini oğurlayırlar), 207A (Eşşək və öküz) süjetləri ilk dəfə qeydə alınan nağıl süjetləridir.

Nağıl söyləyicisi Abbas Abbasovu digər informatorlardan fərqləndirən cəhət onun mətnə professional söyləyici kimi yanaşmasıdır. O, mükəmməl bilmədiyi mətni qətiyyən söyləmirdi. Bu səbəbdən ilk görüşdə ondan, demək olar ki, heç nə yazıya ala bilmədik. Uzun müddət ifa etmədiyindən bəzi nağılları unutduğunu və ya qismən xatırladığını bildirərək daha yaxşı hazırlaşmaq və nağılı tam yada sala bilmək üçün bizdən möhlət istədi. Növbəti görüşümüzdə ondan "İsgəndər Zülqərnə", "Üç vəsiyyət", "Abid və çoban" nağıllarını, bir neçə gündən sonra təkrar görüşümüz zamanı daha üç mətn – "Üç məsləhət", "Yetim oğlan" və "Üç ölüm" nağıllarını yazıya aldıq. Həmin nağıllar bəlli süjetlər əsasında qurulsa da, təhkiyəsinə, yeniliyinə görə ənənəvi variantlardan xeyli fərqlənir. Məsələn, "Üç ölüm" nağılının Azərbaycanda indiyə qədər ancaq bir variantı məlum idi. Abbas kişidən qeydə alınmış variant isə süjetin təhlilində mühüm rol oynayacaqdır. "İsgəndər Zülqərnə" nağılı isə kontaminasiya baxımından xüsusi maraq doğurur. Nağıl İsgəndərin şimala, cənuba, şərqə və qərbə səfər etməsindən və başına gələn macəralardan bəhs edir. Söyləyici bu üsulla beş süjetin kontaminasiyasına nail olub ki, nəticədə bənzəri olmayan bir nağıl nümunəsi ortaya çıxıb.

Abbas Abbasov təkcə nağılı ifa etmir, həm də onu yaşayır: yeri gələndə obrazların roluna girir, səsinin tonunu dəyişir, onları yamsılayır. Ehtiyac üzündən dilənmək məcburiyyətində qalan qocanın durumunu çatdırarkən onun dilindən kəkələyə-kəkələyə danışır. Yaxud, Allahın iynənin deşiyindən dəvə keçirdiyini öyrənən mollanın verdiyi təpkini çatdırmaq üçün səsinin tonunu dəyişib mollanın dilindən danışmağa başlayır. "Yetim oğlan" nağılında adının Allahın kitabında olduğunu öyrənən gəncin dizini yerə ataraq Allaha dua etməsini deyərkən Abbas kişi o qədər həyəcan keçirmişdi ki, özünə gəlməsi, düşdüyü emosional vəziyyətdən çıxması üçün nağıla bir neçə dəqiqəlik ara vermişdi.

Abbas Abbasovun repertuarını səciyyələndirən bir cəhət də epik təsviri lirik tərənnümlə tamamlamasıdır, daha dəqiq desək, nağılın içərisində məzmununa, məqamına uyğun şeir nümunələrindən istifadə etməsidir. Məsələn, "Üç məsləhət" nağılında söyləyici, atasını itirmiş qəhrəmanın keçirdiyi hissləri çatdırmaq üçün ataya aid şeir söyləyir. Yaxud, üzdə Allahın yolunu tutan, amma batində ona inanmayan molladan bəhs edən "Molla və çoban" nağılını söyləyici məzmuna uyğun olaraq Aşıq Xaspoladın insanları əməldə, fikirdə düzgün olmağa səsləyən "Gərək" rədifli şeiri ilə tamamlayır. Söyləyicinin bu üsuldan istifadə etməsi nağılın məzmununun, qəhrəmanın keçirdiyi duyğuların daha təsirli çatdırılmasında mühüm rol oynayır.

Usta söyləyicilərin şifahi irsinin qısa səciyyəsindən də göründüyü kimi, Azərbaycanda nağılçılıq ənənəsinin yaşadılmasında və zənginləşdirilməsində söyləyicilərin rolu böyükdür. Onların irsinin bir kitabda cəmlənməsi bu sahədəki boşluğu qismən də olsa, dolduracağı və söyləyici probleminin öyrənilməsinə işıq tutacağı qənaətindəyik.

# NARIŞ İSA QIZI BAYRAMOVA

**Narış İsa qızı Bayramova** 1949-cu il dekabrın 30-da Ağcabədidə anadan olub. Özünün dediyinə görə, adını qardaşı İdris qoyub. Yanvarın birində buraxılış gecəsi ilə əlaqədar Ağcabədidə 11 saylı məktəbdə konsert təşkil olunur və həmin konsertə Bakıdan Nargilə adlı bir qadın xanəndə dəvət olunur. Xanəndənin səsi, gözəlliyi onun qardaşını o qədər valeh edir ki, onun şərəfinə bacısının adını Nargilə qoyur. Amma ailə üzvləri arasında daha çox Narış adı ilə çağrılır. Xocavənd rayonunda olduqları zaman sel evin bütün əşyalarını, o cümlədən sənədləri yuyub aparır. Yeni sənəd düzəldəndə adını Narış kimi sənədləşdirirlər.

Atası Molla Zeynal oğlu İsa tərəkəmə olub, çobançılıqla, qoyunçuluqla məşğul olub. Narış Bayramovanın dediyinə görə, atası el içində adlı-sanlı, səxavətli, aclara əl tutan bir kişi kimi tanınıb. Sənəti sınıqçı olub. O dərcədə işinin ustası idi ki, şüşəni qırıb salardı torbaya, torbanın içində onun qırıqlarını yerinə düzərdi. Narış nənənin özü də sınıqçılıq sənətinin sirlərini ondan öyrənib. Hürriyətçilik[4] dövründə çətinlik olanda, insanlar bir parça çörəyə həsrət qalanda İsa kişi Afşar camaatının əksəriyyətinə əl tutub. Ulağı olmayana ulaq verib, çörəyi olmayana çörək verib. Bir inək verib darı alarmış, darını üyütdükdən sonra obanı çağırarmış, çanaqnan bir o insanlara un verərmiş.

İsa kişinin səkkiz övladı olur: dördü oğlan, dördü qız. Ailənin sonbeşiyi isə Narış olur. Özünün dediyinə görə, cavan ikən həddən artıq gözəl olub. Hətta suya gedəndə qız-gəlin onun başına toplaşar, onun kimi gözəl olmalarını arzu edərmişlər.

Narış nənə 14 yaşında ikən ailə qurub. Özü ərə getməyini belə danışır: "O vaxtı qızın gözəlliyinə, göyçəkliyinə

---

[4] Yaşlı insanlar 1918-1920-ci illəri bu adla adlandırırlar.

fikir verən yox idi. Nəsil-nəcabətinə görə qız alardılar. Babam Molla Zeynal da Afşarda tanınmış, köklü nəsillərdən biri olduğundan hər yerdən onun qızlarına elçi gələrdi. Mənə də on üç yaşında nişan qoyulub, 14 yaşında isə gəlin köçmüşəm".

Həmin nigahdan Narış nənənin beş oğlu, bir qızı olur. Yoldaşı vaxtsız dünyasını dəyişir və ailənin bütün yükü Narış nənənin çiynində qalır. Böyük zəhmət hesabına uşaqlarını böyüdür, oxudur və evləndirir.

Narış nənə kənddə Sınıqçı Narış adıyla tanınıb. Bir tərəfinin iflic olmasına baxmayaraq, bu gün də öz sənətini davam etdirir, yanına gələn şəxslərə kömək edir. Qadın xəstəliklərini müalicə edir, illərlə uşağı olmayan bir çox qadın onun müalicəsi sayəsində övlad sahibi olub. Narış nənə həm də gözəl toxucudur. Bu sənətin sirlərini anasından öyrənib və toxuduğu gəbə, kilimin bir çoxunu qızına cehiz verib.

Narış nənə eşitdiyi nağılların böyük əksəriyyətini Xocavənd rayonunda ibtidai sinif müəllimi Ələmşah kişidən eşidib. Özü söhbət edir ki, afşarlar xırda-xırda obalar halında orada qalırdılar. Uşaqların oxuması, təhsil alması üçün yaxında bir məktəb yox idi. Ona görə də atası yüz nəfərin imzası ilə ərizə yazır və məktəb açmaq üçün icazə alır. Oba sakinləri qarğıdan bir daxal düzəldir, rayon təhsil şöbəsi də Ələmşah kişini ora müəllim təyin edir. Onda Ələmşah kişinin 45-50 yaşı olardı. Ələmşah müəllim iki ilə yaxın İsa kişinin evində qalır. Sonra oba sakinləri onun üçün ayrıca bir daxal tikir və o da öz ailəsini yanına gətirərək orada yaşayır. Narış nənənin dediyinə görə, Ələmşah kişi həddindən artıq söhbətcil, natiq adam idi: «Əvvəlcə bizdən dərslərimizi soruşar, sonra nağıl danışardı. Mən də nağıla maraqlı olmuşam. Əvvəlcədən şərt kəsərdim ki, kim dərsini əzbər desə, ona nağıl deyəssənmi? O da deyirdi "hə". Biz də dərsimizi deyirdik, sonra bizə nağıldan, bildiyindən danışardı".

İsa kişi yaşlaşdığından yaxınları ona mal-heyvanın dalınca dağ-arana az getməyi və afşarların yaşadığı kənddən torpaq alıb məskunlaşmağı məsləhət görürlər. Beləliklə, İsa kişi Ağcabədi rayonunun Afşar kəndindən torpaq alaraq ailəsini ora köçürür. Onda Narış nəninin 12 yaşı vardı. Təhsillərini davam etdirmək üçün bacısı ilə birlikdə valideynlərinə çox təsir edir, amma yaşları böyük olduğundan onların beşinci sinif şagirdləri ilə bir yerdə oxuması mümkün olmur. Birbaşa səkkizinci sinifdən təhsillərini davam etdirmək üçün məktəb direktoru bir neçə müəllimlə birlikdə onları imtahan edir və səkkizinci sinifə qədər haradan sual verirlərsə, bacılar onlara cavab verirlər. Ondan sonra direktor onlara təhsillərini səkkizinci sinifdən davam etdirmələrinə icazə verir. Amma həmin il İsa kişi rəhmətə getdiyindən və anasının onları təkbaşına oxutmaq imkanı olmadığından təhsillərini davam etdirə bilmirlər.

Narış Bayramova ilə ilk görüşümüz 2012-ci ilin iyun ayına təsadüf edir. Folklor İnstitutunun həyata keçirdiyi Qarabag layihəsi çərçivəsində Əfzələddin Əsgər, Tahir Orucov və mən Ağcabədi rayonuna ezam olunmuşduq. Rayon icra hakimiyyəti, xüsusən də, İctimai-siyasi partiyalarla iş şöbəsinin rəhbəri Rəhilə Şükürova yerli sakinlərlə görüşlərin təşkilində bizə yaxından kömək edir və onların tapşırığı əsasında kənd icra nümayəndələri və ya bələdiyyə sədrləri bizi öz kəndlərinə apararaq yaşlı sakinlərlə görüşdürürdülər. Belə səfərlərimizdən biri də Afşar kəndinə oldu. Kəndin bələdiyyə sədrinin mavini Nizami Cəfərov bizi kəndin bir çox ahıl sakinləri ilə görüşdürdükdən sonra artıq qayıtmaq üzrə ikən "jurnalist xasiyyətli bir xalasının" olduğunu söyləyib onunla da görüşməyimizi məsləhət gördü. Narış nənə ilə ilk görüşümüz bu cür baş tutur. Xəstə olduğu üçün bu görüşümüz çox uzun sürmədi. Söhbətimiz saat yarım çəksə də, ilk görüşdə biz ondan üç nağıl, Həzrət Əli haqqında iki rəvayət qeydə ala bildik. Toplanan mətnlər məlum süjetlər olsa da, söy-

ləyicinin nağılları özünəməxsus tərzdə dua və alqışlarla tamamlaması onun səriştəli söyləyici olduğunu və ondan daha çox nümunələr toplamağın mümkünlüyünü düşünməyə əsas verirdi. Ona görə də həmin ilin avqust ayında Ağcabədi rayonuna təşkil olunmuş ikinci səfər zamanı Narış nənə ilə görüşmək üçün ilk olaraq Afşar kəndinə yollandıq. Bu dəfə onunla söhbətimiz altı saat çəkdi və "Tacir oğlu", "Üç qardaş", "Narxatın", "Huri qızı", "Santır" nağıllarını, rəvayətlər, lətifələr, afşarlar, şahsevənlər, qaradolaqlarla bağlı maraqlı etnoqrafik materiallar topladıq.

## 1. NARXATIN

Bir arvadın yeddi oğlu varmış. Bu oğlannar bajı isdiyirmiş. Deyirmiş ki, ana, elə olsun, bizim bir bajımız olsun. Allahın izniynən kadın hamilə olanda, kadının vaxdı yaxınnaşanda oğlannarı deyir:

– Ana, biz gedirih səyahətə. Biz gəlincə əgər sənin qızın olsa, evin üsdünə bir ələk bağlıyarsan. Biləjeyih bajımız oluf, gələjeyih. Oğlun olsa, ox-yay bağlıyarsan. Oğlun olsa, gəlmiyəjeyih. Biz bajı isdiyirih. Bajımız olsa gələjeyih, olmasa gedəjeyih qərib diyara.

Bular gedənnən soora Allahın əmriynən bu arvadın bir qızı olur. Arvad durur evin üsdünə ələk bağladır. Allah heş bəndəyə xayın, paxıl qonşu qismət eləməsin. Bunun da bir paxıl qonşusu varmış. Bu arvad evə gəlif girən təki bu qonşu gedif ələyi açır, yerinə ox-yay bağlıyır. Bu oğlannar ovdan qayıdanda görür evin üsdündə ox-yay var. Deyir: "Hə, gənə qardaşımız olufdu. Tay biz getmirih evə". Burdan bu oğlannarın yeddisi də qoşulur, gedir uzax bir ölkədə, bir dev məkanında bir kahada məskən salıllar. Bir dənə qəşəh qızıləhmədi alma təmizdiyif, ipəh yaylığa büküf qoyullar bura. Günüz gedif gəzillərmiş, axşam gələndə

deyirmişdər: "Bajımızı gətirin, bir bajımızı qoxluyax, iyliyəh". Bu almanı bular bir-bir öpürmüş, iyliyirmiş, gənə büküf yaylığa aparıf qoyullarmış sandığa ki, bu, bizim bajımızdı. Bu almadan bajı iyi alırmışdar. Bir belə bajı həsrəti çəkirmişdər. Gündə buların biri qalıf yeməh-işməh hazırrıyırmış, altısı gedif ceyran-cüyür ovluyurmuş, burda belə günnərin keçirirmişdər.

Vaxt olur, bu qız böyüyür on beş-on altı yaşına çatır. Bunun anası da ölür, atası da ölür, qalır yetim. Bircə dənə danası qalır. Bu qız günün ancax bu danaynan keçirir. Səhərdən axşamatan bu dananı hamarrıyır, tumarrıyır, otarır, suyun verir, otun verir. Dədə yox, nənə yox, bajı yox, qardaş yox, tək bir qız bir evin altında günün danaynan keçirir. Qəfil gəlir bu dana yıxılıf ölür. Dana öləndə bu qız durur dananın qarnın aparıf suda ağlıya-ağlıya yuyur ki, Allah məni hər şeydən eləmişdi, bir danam vardı, danam da öldü. Deyəndə bir qarğa gəlir qonur bu bulağın başına, qarıldıyır. Qızın da adı Narxatın olur. Deyir:

– Narxatın, niyə ağlıyırsan?

Deyir:

– Ay qarğa, ağlamıyım neyniyim? Atam öldü, anam öldü. Bir danam vardı, o da öldü. Heş kimsəm yoxdu, – deyəndə deyir:

– Narxatın, sənin yeddi qardaşın var, heylə demə.

Deyir:

– Hanı mənim yeddi qardaşım?

Deyir:

– Sənin yeddi qardaşının yerin mən bilirəm. O vaxdı belə-belə oldu, sənin qardaşdarın bajı ujunnan başdarın götdülər qərif diyara getdilər.

Qarğa deyir ki, sən o qarnı ver mən yeyim, mən səni aparım qardaşdaru yanına. Deyəndə deyir:

– Əgər düz deyirsənsə, verərəm.

Deyir:

– Get bir torba buğda gətir. Torbanın da altınnan deşih qoy, torbanı bağla mənim ayağıma, ver o qarnı da mən yeyim.

Dananın qarnın verir, qarğa yeyir. Buğdanı bağlıyır bunun ayağına. Deyir:

– Mən göynən uçajam, buğda töküləjəh yerə. Buğdanın iziynən gəl, səni düz aparıf qardaşdarına çatdırajam.

Bu qarğa göynən uçur. Buğda töküldühcə buğdanın iziynən gedir, gəlir çıxır qardaşdarının yaşadığı kahaya. Deyir:

– Sənin qardaşdarın burda yaşıyır. Qardaşdaru altısı ova gedif, biri də budey, evdə yatıf. Daa burdan beləsi sənin öz işindi.

Qız deyir ki, birdən-birə gedif çıxmaxnan bular məni özünə bajı kimi qəbul eləməz. Qoy buları hələ bir yoxluyum, görüm bular gerçəhdən bajı həsrəti çəkir, yoxsa qarğa məni alladır. Bu gizdənir bir yerdə. Axşam oldu, altı dənə bir-birinnən boylu-buxunnu qardaşdarı gəldi töküldü. Baxırsan hərəsi bir cəngavər təki. Deyir: – “Allah, bular yanı mənim qardaşdarımdı?” Baxır, görür bular gəldi otdu. Bu yatan qardaş durdu surfa saldı, bulara çay-çörəh qoyanda böyüh qardaş dedi:

– Dayanın, əlizi saxlıyın. Hələ çörəh yeməmişdən dur bir bajımızı gətir, bajımızı qoxluyax, iyini ürəyimizə çəkəh, onnan sohra yeməyimizi yeyəh, – deyəndə, balaca qardaş getdi bir sandıxca aşdı, qırmızı yaylığın içinnən bir dənə qırmızı alma çıxartdı gətdi. Bular bir-bir bu almanı iylədi, öpdü, ötürdü ona. Bu yeddi qardaşın yeddisi də bu almanı iylədi, gənə bükdülər qoydular sandığa, başdadılar çörəhlərin yeməyə.

Deyir:

– Hə, doğurdan da, bu qardaşdarım bajı həsrəti çəkir.

Sabah olur. Gənə qardaşın altısı gedir, biri qalır. Bu gözdüyür, gözdüyür, görür ki, qardaşın yuxu tutdu, yatdı. Yuxu tutuf yatan təki gedif bu kahanı silir, süpürür. Kişi əliynən kadın əli bir deyil. Kadın əli dəyən yer gür-gümüş olur. Bu kahanı yu-

yur, təmizdiyir, silir-süpürür, ov ətinnən ləzətti bir yemək bişirir qoyur ojağın üsdünə. Özü də bir az yeyir, gedir gənə gizdənir.

Axşam olur, qardaşdar gələndə deyir:

– Ə qardaş, bu ev-eşih nə gözəldi, burdan gül-çiçəh iyi gəlir.

Deyir:

– A qardaş, mən təmizdəmişəm.

Deyir:

– Hələ indiyətən biz belə şey görməmişdih. Bu təmizdih, yeməhdə bu dad, bu nə olan şeydi?

Bu deyir ki, mən eləmişəm, bura dev məkanıdı, bura kim gəlif, kim gedə bilər? Nəysə, bular gənə gətirillər, bu almanı iyliyillər, yeyif-içif yatıllar. Səhəri gənə belə, üçüncü günü gənə belə. Dördüncü günü dördüncü qardaş qalanda deyir:

– Vallah, burda bir sirr var. Mən yatmıyajam, görüm bu nə sirdi. Qardaşdarım, doğurdan, özdəri bişirif, yoxsa yox? Axı yeməhdə bu dadı, ləzzəti indiyətən biz görməmişdih.

Bu oğlan özün yuxuluğa vurur, görür hə, yavaşcadan qapı açıldı. Evə bir gözəl-göyçəh qız girdi. Bu, evi-eşiyi yudu, sildi-təmizdədi, yeməyi bişirdi, qoydu ojağın üsdünə. "Özüm də çıxım" deyəndə, oğlan qalxır bunu tutur.

– De görüm, sən kimsən? – deyəndə deyir ki, mən sizin bajınızam. Mən dediyim təki nə var hamısını nağıl eliyir buna. Deyir ki, mən sizin bajınızam, atamız da öldü, anamız da öldü, məni bir qarğa gətirif bura çıxarıf. Sizin həris bajınız mənəm.

Deyir:

– Onda bajı, sən get gizdən, qoy qardaşdarım gələndə mən muşduluxluyum oları. Sən birdən-birə oların qavağına çıxma.

Deyir:

– Yaxşı. Mənim də gizdənməyimin məqsədi odur ki, birdən-birə sizin qarşınıza çıxmıyım.

Qız gənə gizdənir. Qardaşdarı gəlir, surfa salıllar. Böyüh qardaş deyir:

– Əlizi saxlıyın, gedin bajımızı gətirin.

Gətirir bu almanı iyliyə-iyliyə, qoxluya-qoxluya ötürüllər, nöybə gəlif qızı görən qardaşa çatanda bu, almanı dişdiyir. Dişdiyif yeyəndə qardaşdarın buna ajığı tutur ki, ə, vijdansız, adam da bajısın dişdiyər? Niyə dişdədin sən onu? Axı, o, bizim bajımızdı. Deyəndə deyir:

– Ə, qardaş, dəli olmuyun. Bu almadan bizə bajı olan dəyil. Bizim özümüzün bajımız var, gəlif çıxıfdı.

Durur gizdəndiyi yerdən qızın qolunnan tutuf gətirir. Deyir:

– Bizim bajımız budu. Qız başına gələn əhvalatı nağıl eliyir. Deyir ki, o vaxdı ələyi xayın qonşu dəyişdirifdi. Anam-atam öldü, məni də qarğa gətirif bura çıxarıfdı. Bular sevinir. Bajıların gözdərinin içi təki saxlıyıllar. Gedəndə deyillər ki, bajı, biz gedirih, bura dev qismidi. Birdən nə badə biz gəlməmiş qapını kiməsə açasan, nə də bir yana çıxasan. Dev vilayətidi bura. Səni görəllər, götürər gedəllər.

Bu qızın da bir pişiyi olur. Bir gün qız ət doğruyanda pişih gəlir onun yanında o tərəfə, bu tərəfə gedir. Bir tikə götürəndə qız pişiyin burnunun üsdünə vurur ki, tikəni niyə götürürsən, hər qardaşıma bir tikədir. Bu pişiyə ajıx gedir. O vaxdı da yanacax yoxuymuş. Közü küllə basdırıf od saxlıyırdılar. O odnan üfürə-üfürə ojax yandırarmışdar. Külün içində bircə dənə köz varmış. Pişiyin ajığı tutur, gedir külü eşəliyir, közün üsdünə işiyir, közü söndürür. Qız gəlir ojağı qalamağ isdiyəndə görür köz sönüf. – "Ay Allah, neyniyim, nətər eliyim? Qardaşdarım gələjəh, aj qalajax. Közü hardan alım, ojağı nətər yandırım?" Durur o tərəf, bu tərəfə baxır. Görür ki, uzaxdan bir tüsdü gəlir. Deyir: "Hə, gedim qardaşdarım gəlməmiş o tüsdüdən bir od gətirim ki, qardaşdarım gəlincə ojağı yandırım, yeməyi bişirim".

Durur gedir, gedir, gedir. Gəlir görür ki, bura bir devin məkanıdı. Qapını açır, görür burda bir qız saçınnan asılıdı. Bu qızı açır, yerə qoyur. Deyir:

– Ay bajı, bu nədi?

Deyir:

– Ay bajı, sən hara, bura hara? Bura bir devin məkanıdı. Dev mənə zulum verir, qaş, burdan canını qurtar. Dev gəlsə səni də mənim günümə salajax.

Deyir:

– Bajı, bəs mən gəlmişəm od aparam.

Deyəndə deyir:

– Vallah, bajı, dev közü sanıyır qoyur, mən onu verə bilmərəm. Get ordan bir balta gətir, o közün birin böyrünnən kəs götür. Da bütöy verə bilmərəm. Dev gəlif sanıyajax, köz kəm olsa, məni o köznən dağlıyajax ki, kim gəlif gedif.

Bu közdən bir az kəsir, qoyur əysin arasına. Alır, üfürə-üfürə düşür yola. Qızın civində də bir ip yumağı olur. Qapıdan çıxanda ip yumağının uju ilişir qapının kandarına. Qapını örtür, ipin uju qalır qapıda. Qız gedir, yumax çözələnir, qız gedir, yumax çözələnir. Tay gedir evə, ojağı yandırır, yemək bişirir.

Bu burda öz işində olmaxda olsun, görəh dev nağayrır? Dev gəlir bura, deyir:

– Burdan adam-badam iysi gəlir, yağlı badam iysi gəlir. Qız, de görüm, bura kim gəlif?

Qız deyir:

– A dev, sənin qorxunnan bura quş gəlsə, qanad salar, qatır gəlsə, dırnax salar.

Bu gedir, közü sanıyır, görür köz hamısı düzə-düzdü. Amma bir közün böyrünnən kəsilif. Deyif:

– Bura kim gəlif, de! Közün böyrünnən kəsilif.

Dev ora-bura baxanda görür qapıda ip yumağının uju. Bu yumağı alır əlinə, sarıya-sarıya gəlir. Gəlir bu yeddi qardaşın

kahasına. Qapını döyür. Qapının yeri varmış. Qız burdan baxır ki, devdi. Deyif, ay dadi-bidad, qapını aşsam, dev məni yeyəjəh. Deyir ki, yox, qardaşım gəlmiyincə qapını aşmaram. Dev deyir ki, qız, qardaşdarınnan səə məytuf gəlif. Bax, bu üzüyü qardaşdarın sənin üçün göndərif. Barmağu çıxart, bu üzüyü taxım barmağuna qardaşdarınnan nişanədi. Deyəndə qız barmağını qapının deşiyinnən çıxardanda dev bu qızın barmağın salır ağzına, o qədər çeyniyir, sorur, qızın bütün bədənin qanın sorur. Qız huşun itirir, yıxılır qalır burda.

Axşama qədər qız qalır elə heylə ölü vəziyyətdə. Axşam qardaşdarı gəlir, qapını açıf görüllər nə! Bajıları behuş halda yıxılıf bunnan ona. Ay Allah, nətər eliyəh, nejə eliyəh? Nəysə, bajılarını ayıldıllar.

– A bajı, sənə noldu?

Qız başına gələn əhvalatı qardaşdarına deyir. Deyir:

– Bajı, bəs sənə demədih bura dev məkanıdı, burdan sən heş yana çıxma?

Deyir:

– Qardaş, nə bilim, sizə qıymadım da. Gələrdiz, aj-susuz qalardız.

Deyəndə deyir ki, yaxşı, belə oldu, oldu. Evin içinnən bir quyu qazıllar. Bu quyunun içinə oxdan-qılışdan o qədər doldurullar ki, üsdünü də örtüllər, gəvəynən, xalıynan bəziyillər. Deyillər, devi qonax çağırax. Bu devi qonax çağırıllar. Ay burdan otur, ordan otur. Dev ayağını atan təki düşür quyuya. Bu quyuda nizələr batır bunun qarnına. Qılış bunu doğruyur, burda ölür. Devi burda basdırıllar. Deyillər ki, bajı, elə elə bu dev basdırılan yerə su damcısı düşməsin. Əgər bir damcı su düşsə, bu dev diriləjəhdi.

Nəysə, bu qız bir müddət burda ehtiyatnan işdiyir. Bir gün qız evə su çiliyəndə gedir dev basdırılan yerə iki damcı su düşür. Su düşəndə hər damcının yerinnən bir dənə qəşəh gül bitir. Bu

gülləri qopardır, deyir: "Nə gözəl güldü, gələndə verərəm qardaşdarıma". Gətirir gülləri saxlıyır. Qardaşdarı gələndə deyir:

– Qardaş, burda hərrənirdim. Daşın divində qəşəh güllər bitmişdi.

Bunun hərəsin verir bir qardaşına. Birin böyüh qardaşına, birin kiçih qardaşına. Bular gülü alır, iyliyən təki bu gülün hərəsi çevrilir olur gözəl bir qız. Bajıları deyir ki, madəm qardaş, belədi, bu qızdarnan evlənin. Bu qardaşdar devdən əmələ gəlmə qızdarnan evlənillər.

Bular bir müddət belə dolananda həmən gəlinnər – dev cinsinnəndi axı, – başdıyıllar qıza düşmançılıx bəsləməyə. Neyniyəh, nejə eliyəh bu qıza? Bu qız da hər axşam mənim təki qurtum-qurtum su içərmiş. Bir gün bu gəlinnər qavdaqaşığda nə qədər su var hamısın boşaldıllar, qoymullar qavda su qala. Narxatın yatır. Gejə bərk susduyur.

– Susunnan dilim yanır, – deyəndə gəlinin biri deyir ki, Narxatın bajı, durum su gətirim saa. Deyir:

– Hə.

Durur gedir çömçəquyruxlu sudan qavı doldurur, gətirir verir. Narxatın içir. Bu qurbağalar gedir bunun qarnında böyüyür. Qarın şişir, eybəcər hal alır. Qardaşdarı deyir:

– Bajı, de görəh hamiləsən, nədi?

Bu and-aman eliyir ki, ay qardaş, vallah, mən dünyada sizdən başqa naməhrəm üzü görməmişəm. Heş mən hamilə də deyiləm. Nəysə, bu belə bir dərtdi. Bu arvatdar qardaşdarın başın yeyir. Bular da deyir:

– Bajımız onsuz da nə ölüdü, nə diri. Öldürə də bilmirih. Bunu götürəh aparax uzax bir yerə tulluyax, ölsə də, orda ölsün, gözümüz görməsin.

Nəysə, durullar, bu bajılarını qoyullar atın belinə, aparıllar. Yeddi yolun ayrıcında qoyullar yerə, deyillər:

– Bajı, sən otur burda, biz gedəh ovluyax-quşduyax, gətirəh.

Bular oraynan hərrənif qayıdıf gəlillər öz yerrərinə. Qız bir gün, iki gün qalır. Nəysə, bu yolnan bir çoban keçirmiş, qoyun otarırmış. Görür bir zarıltı gəlir. Elə belə hərrənəndə görür gözəl bir qızdı, bunun qarnı şişif oluf təpə. Bunun başı da təbabatdan çıxırmış. Qızı götürür gətirir, bunun qarnın yarır. Görür nə? Qızın qarnında ilan-qurbağa balalıyıf. Bu qızın qarnında nə var tamam boşaldır, təmizdiyir, dərmannıyır, tikir. Qızı sağaldır. Qız olur əvvəlki Narxatın. Qız burda tamam sağalır. Çoban ona deyir ki, Allah səni mənim qismətimə yetirif. Elə gəl mənnən evlən. Mənim də bu gen dünyada tək canımdı, bu qoyunnan, malnan günümü keçirirəm. Qız baxır görür ki, tay əlacı yoxdu, razılığ verir. Cobannan evlənir. Gəlir çobannan bunun bir dənə oğlu olur.

Qız bir gün çıxıf qəlvi yalda oturmuşmuş. Görür qardaşdarı odurana, yeddi atdı gedir ova. Deyir, hə, demək mənim qardaşdarım bu səhralara gəlir. Uşax gəlif dörd yaşına çatmışmış. Bir gün bu, çobana deyir:

– O gedən atdılar kimdi?

Çoban deyir:

– Bu səmtdə yeddi qardaş yaşıyır. Həmişə gəlillər buralarda ceyran-cüyür ovluyuf gedillər.

Qavaxlarda uşaxlar aşıx-aşıx oynuyurdular. Bu, iki dənə aşıx qayırır, verir oğluna, deyir:

– Gedərsən o yeddi yol ayrıcında oturuf aşığ-aşığ oynuyarsan. O yeddi qardaş gələndə deynən gəl aşığ-aşığ oynuyax. Oynuyanda deynən:

Aşığım, toxan dur,
Aşığım, toxan dur.
Yeddi dayının kimsəsiyəm,
Narxatının törəməsiyəm.

Bu sözü yadında saxla. Onda sənnən soruşajaxlar, deyərsən mənim yeddi dayım var, Narxatın addı anam var. Olar görəh səə nə deyəjəhlər.

Nəysə, bu uşağı örgədir, yola salır. Uşax gedir yolun ortasında oturur, başdıyır aşığ-aşığ oynamağa. Yeddi qardaş da gələndə uşağa həvəsiyir.

– A oğul, kimin oğlusan, nə iş görürsən?

Deyir ki,

Aşığım, toxan dur,
Aşığım, toxan dur.
Yeddi dayının kimsəsiyəm,
Narxatının törəməsiyəm.

Deyəndə olar deyir:

– Ay oğul, onu bir də de görüm.

Bir də deyəndə deyillər:

– Bala, Narxatın kimdi, yeddi dayın kimdi?

Deyir:

–Mənim yeddi dayım olur, anamın başına bu müsibəti açıllar. Anam yaşıyır, bir çovannan evlidi, mən də onun oğluyam.

Bular deyir:

– Bizi anaan yanına götürərsənmi?

Bu deyir:

– Götürərəm.

Bu, dayılarını gətirir. Baxıf görüllər ki, həmən bajılarıdı, sappasağlam, nə şişi var, nə köpü. Bunnan hal-əhval tutullar. Qız başına gələni deyir. Deyir:

– Qardaş, bəs o güllər devin qavrında bitmiş güldü. O qızdar həmən güldən əmələ gəlif. O qızdar məə düşmançılıx elədi, məə qurbağa çəmi olan su verdilər. Onnan da qurbağa mənim qarnımda böyüdü, şişdi. Çovan gətdi qarnımı aperasiya elədi, təmizdədi, onnan da evlənmişəm, o da mənim oğlumdu, – deyəndə deyillər hə, demək o devin duşmançılığı bizdən get-

miyif də. Qardaşdar gəlif bu arvatdarın öldürüf aparıf kənar bir yerə tulluyullar. Bu qızdarın qanınnan dağa-daşa sıçrıyır. İzin alıf bajıların gətirillər. Bajı-qardaş burda başdıyıllar dolanmağa.

Yazın tayçıx vaxdıymış. Ot, pencər bitən vaxdında qız görür daşın divində bir topa göy pencər bitifdi. Yığır deyir: "Allah haqqı, bunu aparıf bişirəjəm, qardaşdarım yesin. Nə gözəl pencərdi bu". Bu şomunu yığır, gətirir bunu qəşəh doğruyur, qavırır, qoyur qardaşdarına. Az olur deyənə bunnan heş dilinə vırmır. Deyir dəyməyim, qoy qardaşdarım yesin doysun, mən yavan çörəh də yeyərəm. Axşam olur, bunun qardaşdarı gəlir. Gəlir oturullar, gətirir buların qavağına qoyur. Bu pencərdən qardaşdarı yeyən təki hamısı dönür olur qoyun. Bu qız başdıyır ağlıya-ağlıya: "Ay dadi-bidad, bu devin qanı hələ burdan getmiyif". Günüz axşama qədər ağlıya-ağlıya bu qoyunnarı qatır qavağına, aparır otarır, axşam gətirir yığır kahaya. Bir müddət belə-belə. Bir gün də aparıf qoyunnarı otardığı yerdə bir nurani şəxs, başına döndühlərimdən, hər vaxdı səması gözümüzə görüksün (söyləyici salavat çəkir – top.), gəlir buna deyir:

– A qızım, niyə ağlıyırsan?

Deyir:

– Bəs, ay ağa, Allahdan gizdi deyil, bəndədən nə gizdin. Bu yeddi qoyun mənim qardaşımdı. Bulara bir pencər bişirmişəm, yeyən təki hamısı oldu qoyun.

Deyir:

– Qızım, dinmə, mən sənin qardaşdaru öz halına qaytarajam. Amma mən qardaşdarın hərəsin belinə bir agaj vurajam, sən qəti uf eləmə. Uf eləsən, olmuyajaxdı.

Ağacı götürüf bu qoyunnarın belinə vuran təki çörükür adam olullar. Ən balaja qardaşın o qədər çox isdiyirmiş ki, balaja qardaşın vuranda qız deyir:

– Uf, elə bil öz belimə dəydi, – deyəndə elə helə də qoyun qalır. Ağa qıza deyir:

– Gözu yum.

Qız gözün yumur, bunu ikinci dəfə bir də vurur. Bu yeddi oğlanın yeddisi də gənə heylə öz halına qayıdır. Bajıların da götürüf gəlillər öz ata yurtdarına.

Cəmi ata-ananın yurdunda Allah-taala oğul evladın yurdçu eləsin, sizi də öz ataza-anaza gözü dolusu versin mənim oğlannarımnan birlihdə. Allah heç atanın yurdun oğulsuz, heç ananın gorun qızsız eləməsin. Cəmi bəndənin evladın versin, taysızdarın tayın versin, paysızdarın payın versin. Ramazan ayı xatirinə, cəmi bəndələrin arzu-diləyin hasil eləsin, yol üsdündə olannarı yolların qəzasınnan qorusun, səfərə gedənnəri Allah-taala Museyi Kazımın zamınına versin, qəriblikdəkiləri qərib İmam Rzanın zamınına versin, hamının urzasın bol, canın sağlam eləsin.

## 2. ÜÇ QARDAŞ[5]

Bir şah olur. Bu şahın devrində belə bir adət varmış ki, evlənməh vaxdı çatanda qızdarı yığıf meydan açırmışdar. Qızdara alma verərmişdər ki, hansı oğlanı sevsə, almanı o qapıya atarmış, onnan evləndirərmişdər. Oğlannara ox-yay verərmişdər, kimi isdəsə, o qapıya atarmış, onnan evləndirərmişdər. Bir padşahın da üç oğlu vardı. Deyir ki, oğlannarımın evlənməh vaxdıdı. Buları gərəh evləndirəm. Meydan açır, car çəkdirir, bütün camaatı yığır. Böyüh oğluna ox-yay verillər. Böyüh oğlu atır, vəzirin qapısına düşür. Ortancıl oğlu atır, vəkilin qapısına, kiçih oğlu yayı dartır, oxu boşduyanda ox gedir, gedir, dənizin qırağında bir qazdıx[6] yerə düşür. Deyillər, yox, ox səyf getdi. O vaxd üş dəfə atarmışdar. Üşdən nə artıx olmazdı, nə əysik.

---

[5] Bu nağıl "Qarabağ: folklor da bir tarixdir" toplusunun II cildində "Tısbağa qız" adı ilə verilib. Topluda "Üç qardaş" adlı başqa nağıl olduğuna görə ad dolaşıqlığı yaranmaması üçün onun adı dəyişdirilmişdir. Burada həmin nağılı söyləyicinin verdiyi adla təqdim edirik.

[6] Qazdıx – qazılmış

Üş dəfə oxu atıllar, üçüncüdə də gedir kiçih oğlun oxu düşür bu qaznağa. Deyillər ki, belə oldu, bunun qisməti budu. Padşah camahatı dəvət eliyir, toy məclisi qurulur. Yeddi gün, yeddi gecə toy eliyir. Böyüh oğlunu vəzirin qızıynan, ortancıl oğlunu vəkilin qızıynan evləndirir. Bulara da deyir ki, indi ki belə oldu, hərəəzin ayləsi bir gün kiçih qardaşuza xidmət eliyəjəhdi. Yeməyin, işməyin verər, palın-paltarın yuyar.

Nəysə, bu gəlinnər hərəsi bir həftə, iki həftə buna qulluğ eliyillər. Yavaş-yavaş yaddan çıxır. Bir dəfə oğlan gəlir görür yatağını nətər qoyuf gedifsə, yatağ yığılmıyıf, elə heylə qalıf. Bir dəfə görüf paltarın nətər soyunuf qoyufsa, elə heylə qalıf. Bir dəfə gəlif görür yemək buz təki. Bir dəfə gəlir yeməh heş yoxdu.

Bir gün durur gəzməyə çıxanda, deyir: "Əşi, gəlmişəm gəlmişəm, bir görüm bu nətəri şeydi? Allah-taaladan mənim qismətim nə idi? Boş yerə mənim oxum niyə getdi? Heş kasıbın, nökərin də qapısına düşmədi. Mənim qismətim niyə yoxdu? Gedif, vallah, ora baxajam". Gəlif ora baxanda görür ki, bu qaznağın içində bir dənə tısbağa var. Deyir, ey Allah-taala, madam ki mənim talehim bu tısbağadı, vallah, bu tısbağanı götürüf aparajam. Götürür bu tısbağanı, qoyur heyvəsinə, gətirir evə. Keşmiş evlərdə buxarı olurmuş. Buxarı yerinə qoyur, qavağına da yer-yeməyini qoyur.

Bir gün oğlan gedir, qayıdıf gələndə görür, ay allah, bunun evi nətəri təmizdənif, yığılıf, yığışdırılıf, gülab səpilif. Evə girirsən adamı müşkü-ənbər iyi bürüyür. Elə yeməh bişif ki, tay bu ləzzətdə yeməh görmüyüf. Para da qızıl alma qoyuluf bunun yeməyinin yanına. O diyarda da qızıl alma olmazmış. Deyif:

– Hə, yəqin atam bilifdi ki, qardaşım arvatdarı məə qullux eləmədi. Atam özü mənim evimi-eşiyimi belə təmizdədif. Bu yeməh də atamın mətbəxinnən gəlif, bu qızıl alma da hardasa atama hədiyyə gəlif, bunun parasın məə verif.

Nəysə, bu yeyir-içir. Gənə həmişəki təki durur yatır. Sabah ertədən durur gedir. Qayıdır gəlir, görür gənə heylədi, eyni vəziyətdi. Məhətdəl qalır. Deyir, balam, atamnan indiyətən çıxmayan iş. Bu, nətər ola bilər? Pusajam görüm bunu kim eliyir. Üçüncü günü durur evdən çıxır, gedir gizdənir. Başdıyır pusmağa ki, görüm mənim evimin şərayitini belə eliyən kimdi. Atamın vilayətində bu müşkü-ənbər iyini mən hələ almamışam. Bu qızıl alma olmuyuf. Bunu bir dəfə atam mənim üçün eləsin. Axı hər gün, hər gün eləməz. Bu pusur, görür ki, yavaşcadan buxarının qapağı düşdü yerə, tısbağa çıxdı çölə. O tərəfə, bu tərəfə boylandı, gördü heş kəs yoxdu. Qınınnan sivrildi çıxdı, oldu dünya gözəli bir qız. Oğlan bunu görəndə az qalır huşunu itirə. Hannan-hana özün ələ alır. Görür bu qız getdi qavaxcan girdi hamama, yuyundu, darandı, bəzəndi-düzəndi. Elə bir gözəl oldu ki, günə, aya bərabər. Gözdüyür, görür ki, bişmişi də bu bişirdi. Özü də qoynunnan bir alma çıxartdı, parasın böldü öz yeməyinin üsdünə qoyuf özü yedi, parasın da bu oğlanın surfasına qoydu. Yedi, işdi, sildi, süpürdü, getdi girdi qınına, oldu tısbağa. Dedi, hə, mənim demək qismətim buymuş.

Bu gün keçir, səhəri gənə pusur. Qız çıxanda qızı tutur. Deyir:

– Ey zalım qızı, neçə vaxdı məni dəli-divanə eləmisən. Mən deyirəm mənim qismətim yoxdu. Mənim qismətim heş demə sənsən. Bəs niyə gizdənirsən?

Qız buna yalvarır, deyir:

– Oğlan, məni boşda. Gənə, bax, bu qayda ömrümüzün axırına qədər sənə xidmət eliyəjəm. İntaası mən pərilər qızıyam, məni bəni-insan görsə, mənim üsdümdə sənə çox bəlalar gələr. Məni boşda gedim.

Deyir ki, burda heç kim olmaz. Evdən çölə çıxmıyessan. Tısbağanın çanağını götürür, pencərədən atır çilihliyir, qırır. Qız qalır naəlac. Nəysə, bular başdıyır burda ömür sürməyə.

Bir gün sübh tezdən qız duruf küləfirəngidə saçın daradığı yerdə bu nəhlətdəmə qayınatası tezdənnən duruf dəsdamaz üçün çıxıf. Görüf kiçih oğlunun işığı yanır. Buna tərəf baxır ki, balam, kiçih oğlumun niyə işığı yanır, bu yatmıyıfdımı? Baxıf görür ki, kiçik oğlunun küləfirəngisində bir qız var ki, vallah, deyirsən aydı, gündü. Padşah bunu görəndə huşun itirir, yıxılır. Hannan-hana vəzir-vəkil tökülür:

– Ay padşah, bu nə idi, nədi?

Padşah deyir ki, vəzir, ölürəm. Kiçih oğlumun küləfirəngisində bir qız görmüşəm, ona aşiq olmuşam. Bilmirəm, nətər eliyirsən elə, o qızı məə almalısız. Vəzir deyir ki, padşah, gözdə görüm o qız nədi, onu sənin oğlun hardan gətirif. Yəqin sənin oğlun hardasa o qızı görüf, bəyənif, gətirif. O sənin oğlunun arvadı ola bilər. Bütün şahlar, bütün ölkə səə nifrət eliyər, əgər sən arvadı oğlunun əlinnən alsan. Qoy görəh bir yönnən birtəri eliyə bilərihmi.

Nəysə, vəzir örgənir ki, bu bunun kiçih oğlunun arvadıdı. Gəlir deyir:

– Padşah sağ olsun, o sənin kiçih oğlunun arvadıdı, onu sən zornan ala bilməzsən.

Deyir:

– Bilmirəm vəzir, tez bir tədbir görginən. O qızı məə çatdırmasaz, çatdıyıf öləjəm.

Deyir:

– Onda padşah sağ olsun, sən özünü vur xəsdəliyə. Devlər diyarında bir qazan var. Oğluna deynən get, o qazanı məə gətir, o qazanda su qızsın, mən çimim. Əgər çimməsəm mən öləjəm. Əgər oğlun sənin sözünnən çıxsa, qəzəflənif boynun vurdurarsan. El sənnən nifrət eləməz. Deyəllər atasının sözün-

nən çıxdı, atası qəzəflənif elədi. Yox, gedərsə, ölər, qız qalar səə. Gənə də heş kəs səə bunu noksan tutmaz. Dul qalmış gəlindi.

Padşah özün vurur azarrığa. Car çəkdirir oğlannarım gəlsin. Oğlannarı gəlir.

– Ay ata, noluf, nədi?

Deyir:

– Oğlannarım, bəs devlər diyarında bir qazan var, gərəh o qazan gələ, onda su qıza, mən çiməm, yaxşı olam. Yoxsa təbiblər deyir öləjəm.

Bu oğlan məlil-müşkül deyir:

– Ay ata, mən devlər diyarını hardan tapım?

Deyir:

– Mən bilmirəm. Səə möhlət verirəm, əgər gətdin, gətdin. Gətirməsən, boynu vurdurajam.

Oğlan məlil-müşkül qayıdır evə. Qız deyir:

– Oğlan, nədi, de görüm atan səni nə işə buyuruf? Səə dedimmi mən sənin başına bəla açajam. Bu mənim ujumnandı. Sənin atan məni hardasa görüf, mənə aşiq oluf. İndi de görüm, atannan möhlət aldınmı?

Deyir:

– Yox.

Deyir:

– Get üş gün möhlət al.

Qayıdıf gedif atasınnan üş gün möhlət alır. Üş günü bular yeməhdə-işməhdə, kefdə-damaxda. Üçüncü günü deyir:

– Oğlan, dur get məni gətirdiyin həmən o çalada "nənə", "nənə" deynən çağır. Nənəm gələjəh. Ona deyərsən qızın deyir ki, balaja qazanımı versin, lazımdı. Sənin sohrasıynan işin yoxdu.

Durur gəlir. Həmən çalada çağırır:

– Nənə, nənə.

Burdan bir qara örpəhli qarı çıxır.

– Can bala, nədi, de görüm qızımın nə ehtiyacı var?

Deyir:

– Nənə, qızın deyir ki, balaja qazanımı versin, gərəyimdi, – deyəndə deyir ki, oğlum, məni burda gözdə, gələjəm. Bir də görür əyə, balaja qazan nə qazan. Dünyanın yarısı boyda qazan. Yeddi öküzün qatarına qoşuf heçə-heçnən sürüyə-sürüyə gətirir. Gətirdi verdi bunu oğlana. Dedi:

– Get bala.

Oğlan dünyanın yarısı boyda tiyanı sürüyə-sürüyə gətdi şəhərdən qıraxda saxladı. Gəldi atasına dedi ki, ata, bəs qazanı gətirmişəm. Padşah bir gün axşamatan su daşıtdı ki, bu qazanı suynan doldura. Padşah xəsdeydi? Padşahı azar başqa yerinnən tutmuşdu. Padşah çimir, ayılır. Deyir:

– Vəzir, işimiz baş tutmadı, oğlan sağ-salamat qayıtdı gəldi.

Dedi:

– Padşah sağ olsun, gənə özünü azarrığa vur. Deynən, oğlun getsin devlər diyarında qarpız var, onu gətsin.

Nəysə, bir də oğlun çağırır. Deyir:

– Oğlum, bəs indi də həkimlər deyir ki, devlər məkanında bir qarpız bitir, gərəh o qarpız gələ, onnan yeyəsən. Əgər o qarpızdan yeməsəm, öləjəm.

Oğlan nə qədər eliyir, deyir:

– Yox ey, getməsən, boynu vurdurajam.

Əlacı olmur, oğlan gənə məlil-müşkül qayıdır. Qız deyir:

– Hə oğlan, de görüm, indi atan səni hara göndərir?

Deyir:

– Bəs indi də atam elə yerə göndərir heç olmuyan. Deyir Ağ devin diyarında bir qarpız var, onu gətir. Mən nə bilim Ağ devin diyarı haradı? Ordan gedib qarpız gətirənəm mən?

Deyir:

– Onu qəm eliyirsən? Onu özüvə qəm eləmə. Get, atannan bir həftəlih möhlət al.

Gedir, atasınnan bir həftəlih möhlət alır. Gəlir, bu bir həftəni də gənə burda kefdə-damaxda keçirillər. Həfdə tamam olanda deyir:

– Oğlan, gedərsən, gənə nənəmi çağırarsan. Deyərsən ki, qızın deyir ki, mənə bir dənə balaja qarpız qırsın versin. Sohrasıynan işin yoxdu.

Bu durur gedir, burda çağırır:

– Nənə, nənə.

Həmən arvad çıxır:

– Nədi bala, qızım səə nə əziyət verif gənə?

Deyir ki, nənə, qızın deyir bosdannan mənə balaja bir qarpız qırsın versin. Deyir:

– Oğlum, burda dur, gəlirəm.

Bu gedir. Görür gənə yeddi kəldi, dağ boyda bir qarpızı sürüyə-sürüyə gətirir. – "Ay Allah, bu nədi, bu hara gedəndi?"

Deyir:

– Oğlum, ala apar. Qızıma deynən səni bir də belə əziyyətdərə salmasın.

Gedir. Bu qarpızı heçə-heçnən gətirir, şəhərin qırağında saxlıyır. Gəlir atasına xəbər verir ki, bəs ata, qarpızı gətdim. Dəhrəynən, baltaynan qarpızı çapıllar. Bütün şəhər darışır bu qarpıza, ye ki yeyəsən. Qarpız hara qutarandı? Bunnan bir az yeyir, zəhəri olsun. Bunun azarı qutarır. Azarı vardı? Deyir:

– Vəzir, tədbir gör, indi neyniyim? Oğlum gənə salamat qayıtdı.

Deyir:

– İndi şah sağ olsun, bu dəfə oğluu elə yerə göndərəjəm ki, heş gəlməsin.

Deyir:

– Nədi?

Deyir:

– Deyərsən ki, bəs oğlum, görürəm hər şeyə sən bajarıxlısan. Anan öləndə mənim padşah nişanası olan üzüyüm onun barmağında gedif. Anaa tapıf mənim üzüyümü gətirərsən. Əgər üzüyüm gəlməsə, Misir padşahı mənnən davaya çıxajax. Ona da güjüm çatan deyil, bizi yernən yeksan eliyəjəh. Ya padşahlıx nişanam olan üzüyü verəm, ya da davaya girəm. Onda getməzsə, əlində bəhanən olar, öldürərsən. Gedərsə də, ölər qalar.

Nəysə, bu oğlunu çağırır. Bir də deyəndə deyir:

– Ay ata, insaf elə, mürvət elə. Anamın sümühləri də çürüyüf. Mən nə bilim, anam hardadı? Anamın qavrının da yerin bilmirəm.

Deyir:

– Yox ey, əgər getməsən, boynu vurdurajam.

Nəysə, oğlan qəm dəryasına batmış gənə qayıdır. Qız deyir:

– Oğlan, de görüm, indi atan səni hara göndərir?

Deyir ki, atam deyir get, anaan barmağında mənim padşah nişanam olan üzüyüm qalıf, onu gətir. Mən neyniyim? Mən anamı hardan gedim tapım?

Deyir:

– Oğlan, qəm eləmə. Get bir aylıx möhlət al, gəl.

Gedir bir aylıx möhlət alır, gəlir. Bu bir aylıx möhlətin on beş gününü gənə burda kef eliyillər. On beşinci gün deyir:

– Oğlan, dur get. Nənəmi çağır, nənəmə deynən səni aparsın, gətsin.

Oğlan durur halallaşır, hümmətləşir, gedir. Çağırır:

– Nənə, nənə.

Nənə çıxır. Deyir ki, nənə, bəs məni apar, gedim nənəmin barmağında üzüh var, onu alım gətirim. Deyir:

– Ay oğul, Allah səni göndərənə nəhlət eləsin. Səni göndərənin nəsə məqsədi var, səni ölümə göndərir. Sənin atan sənin düşmanındı. Səni aparajam, amma bilginən ki, atan sənin ölümüvə çalışır. Deyir, oğul, min dalıma, yum gözdəru. Mən havaxt deyəndə onda gözü açarsan.

Bu oğlan minir nənənin dalına, gözün yumur. Nənə bunu gətirir. Ayağı yerə dəyəndə deyir:

– Oğlum, aş gözü.

Oğlan gözün açır. Görür elə bir məkandadı ki, bu yerrəri bu görmüyüf. Deyir:

– Oğul, burdan belə mən gedə bilmərəm. Buraynan belə get, nənəə tapeysan. Gələndə gənə burda məni çağırarsan, səni çıxardajam işıxlı dünyaya.

Oğlan bir az gedir, görür bir qapı var. Bu qapını açır, keçir gedir. Görür gənə bir qapı var. Bunu da açır. Görür bir nəfər lüt adamdı, bir az yumurta yığıfdı. Bu, yumurtanı qujağına yığır, aşır tökülür. Torbası yox, heyvəsi yox, paltarı yox. İpin arasına yığır, aşır tökülür. Bu yumurtanı yığıf topalıyıf götürə bilmir. Əl-ataş oluf.[7] Topalıyır, dağılır, bir də topalıyır, bir də dağılır. Deyir:

– Ay qardaş, bu nədi? Bir heyvən yox, bir torvan yox, bir qavın yox. Bu nə zulumdu sən çəkirsən?

Deyir:

– Qardaş, dinmə, get, gələndə deyərəm. Bu mənim öz ejirimdi, çəkirəm.

Nəysə, bunnan aralanır gedir. Görür, bir qapı var. Bu qapını da açıf keçəndə görür, bir çılpax adamdı, qaratikan kolunu yığıf, bu kolu bir-bir qoyuf üsdə, qujağına ala bilmir. Lüt adamdı, ipi yox şələ çəkə. Elə bu kolu yığır, tökülür, yığır, tökülür. Əsir-yesir oluf. Deyif:

[7] Əl-ataş olmaq – nəfəsi kəsilmək

– Ay qardaş, bu nə zulumdu çəkirsən? İpin yox, kəndirin yox, bir ulağın yox.

Deyir:

– Qardaş, dinmə, bu mənim ejirimdi çəkirəm. Get, gələndə deyərəm.

Bunnan da aralanır gedir. Bir qapı açır, keçəndə görür bir nəfər lüt adamdı, saşdarınnan bağlıyıflar göydən, əyağının altında bir ojax yanır. Əyağının altına bir dənə isdəkan qoyuflar, od vurduxca davanınnan damcı-damcı yağ əriyif düşür isdəkana. Düşən təki yox olur. Deyir:

– Ay bajı, bu nə zulumdu səə verilif?

Deyir:

– Dinmə, a qardaş, öz ejirimdi, çəkirəm. Get, gələndə deyərəm.

Bunnan da aralanır gedir. Bir qapı açanda görür burda da bir dənə taxt quruluf. Bir dənə cavan oğlandı, oturuf bu taxdın üsdündə, bir dənə qara ilan sallaşıf, bunun barmağını ağzına salıf sorur. Bir dənə də pis, eybəcər, cəhcəki qancıxdı, üzdən irağ, bax bunun taxdının ayağında "həy-həy" eliyə-eliyə ağzını atır ki, bunu tuta, tuta bilmir. Cəh-cəh cəngildiyir. Day səsinnən-küyünnən bezar olur. Deyir:

– Ay qardaş, bu nə işdi, bu qancıx nədi? Bunu vur, aralanıf getsin. Bu ilan nədi sənin barmağını sorur?

Deyir:

– Qardaş, qardaş, bu mənim ejirimdi. Get, gələndə deyərəm.

Nəysə, bunnan da aralanır, keçir gedir. Bir qapı açanda görür nənəsi oturuf. Nənəsi bunu görəndə qalxır:

– Ay oğul, xoş gəldin, beş gəldin. Niyə gəlmisən?

Deyir ki, ay nənə, bəs dədəmin padşahlıx nişanası olan üzüyü səndə gəlif, gəlmişəm üzüyü aparam. Bu, barmağınnan üzüyü çıxardıf verir. Deyir:

– Bala, dədəə deynən ki, nənəm dedi ki, üş günətən mənim yanıma donquz sifətində anqıra-anqıra gələjəh. Atan sənin ölümüvə çalışır. Nəyə bir belə sənə əziyət verir?

Nəysə, bu anasıynan halallaşır, hümbətləşir. Üzüyü alır, qayıdır geri. Gəlir həmən o barmağınnan ilan sallaşan oğlanın yanına. Deyir:

– De görüm qardaş, bu nə cəzadı?

Deyir:

– Qardaş, o dünyada sağ vaxdı mən çox dostpərvər, tanış tutan, yeyən-içən bir oğlan idim. Görürsən, bu qancıx da mənim anamdı. Mən hər dəfə gedif dosdarımnan gəzif gələndə bu anam mənim günümü qara eliyirdi. Danışırdı, danışırdı, məni canımnan bezdirirdi. Bir gün mən gedif dosdarımnan gəzif gələndə bu nənəm başdadı mənnən dalaşmağa. Anam mənnən deyişən vaxdında dosdumun biri gördüm barının dalında məni çağırır. Mən anamın qorxusunnan səsimi çıxartmadım, barmağımnan belə elədim ki, belə gəl, xəlvətcə gedərəm. Anamnan gizdin elədiyim işə görə Allah-taala bu barmağımın cəzasın verir. İndi mən ölüf gəlmişəm bu dünyaya, mən gələn günnən bu ilan sallaşıf. Anamnan xəlvət belə eləməyimin cəzasıdı. Anam da ölüf, gəlif. Nə o dünyada mənə irahatdıx vermiyif, nə də bu dünyada. İndi o mənim anamdı. Nə onu döyə bilirəm, nə vura bilirəm. Get qardaş, sənə dediyim odu ki, nə yaxşılıx bajarırsan o dünyada elə, bu dünyaya yamannıxnan gəlmə. O dünyanın ejirin bu dünyada alallar.

Burdan da gəlir həmən o saçınnan asılan kadının yanına. Deyir:

– Ay bajı, dərdin nədi, səni niyə odduyullar?

Deyir:

– Qardaş, bəs o dünyada mən qonşudan bir isdəkan yağ borc aldım. Nətər oldusa, onu qaytara bilmədim. Ajal gəldi, öldüm. İndi yağ yiyəsi gəlif bu dünyada yağın isdiyir. Mənə bu

ejiri veriflər. Mənim davanımdan o yağ damcı-damcı süzülür tökülür, töküldühcə də yoxa çıxır. İndi neçə ildi ölüf gəlmişəm, nə isdəkan dolmur, nə də mənim canım azad olmur. O dünyanın ejirin bu dünyada çəkirəm. Get, səə nəsihətim budu ki, o dünyada kimnən nə borc alsan, lap bir ibişka da olsa, qaytar. Bu dünyaya özünnən borc gətirmə.

Bunnan da halallaşır, düşür yola. Gəlir kol daşıyana. Deyir:

– Ay qardaş, bu nədi?

Deyir:

– Qardaş, o dünyada mən elə bir bəzzad uşağıdım ki, tay bir qonşunun qoymurdum çalı-çəpəri qala. Buyünnəri kolu qırırdılar, gətirirdilər, çəpərrərin çəpərriyirdilər. Ayna gedən təki odduyurdum, dağıdırdım, qonşu yenidən bir də qayırırdı. Qoymazdım bir qonşunun çəpərində bir kol-kos qala. İndi də ölüf gəlmişəm, çəpər yiyəsi gəlif kolun isdiyir. Yığıf topalamışam, apara bilmirəm. O dünyanın ejiridi, bu dünyada çəkirəm. Sənə də nəsiyətim budu ki, o dünyada bir bəndənin kolun-kosun tərpətmə.

Bunnan da ayrılır, gəlir yumurta daşıyana. Deyir:

– Ay qardaş, sənin dərdin nədi?

Deyir:

– Qardaş, mənim dərdim odur ki, o dünyada mən qoymurdum yeddi evli qonşunun biri bir toyuğunnan yumurta götürə. Pusurdum, toyuğ yumurtduyan təki yumurtasını oğurruyurdum. İndi də ölmüşəm, bu dünyada yumurta yiyəsi gəlif boynumun dalın kəsif, yumurtasın isdiyir. Mən yığıf topalamışam, indi bunu apara bilmirəm. Bunun hamısın gərəh birdən aparam. İndi o dünyanın ejirin bu dünyada çəkirəm. Səə də vəsiyətim budu ki, o dünyada bir bəndənin bir yumurtasın oğurrama. Nə yeyirsən halallıxnan ye. Haram tikə boğazınnan keşməsin.

Bunnan da halallaşır gəlir. Çıxır həmən qapıya.

– Nənə, nənə.

Nənəsi hazır olur.

– Bala, gəldin çıxdın?

Deyir:

– Hə.

Deyir:

– Oğlum, min dalıma, yum gözü.

Minir nənənin dalına, gözün yumur. Deyir:

– Oğlum, gözü aç.

O vaxt gözünü açır ki, gəlif çıxıfdı işıxlı dünyaya. Gətirif üzüyü verifdi atasına. Atası görüf üzüh gəldi. Gənə də əlacı kəsilir. Deyir:

– Bala, anan nə dedi?

Dedi:

– Ata, anam dedi ki, gedif deyərsən atan sənin ölümüvə çalışır. Üş günə qədər donquz sifətində anqıra-anqıra mənim yanıma gələr.

Elə Allahın izniynən üş günətən atası pis sufatnan, əzab-əziyətnən ölür. Cəhənnəm olur gedir. El-oba da yığılır, bu balaja oğlu şah qoyullar. Ömürrərinin axırına qədər heylə şad-firavan devran keçirillər. Siz də bu dünyada devran sürün, arzularuza Allah çatdırsın. Sizi şərdən, böhtannan, namərtdərin pis zavalınnan qorusun. Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narış nənənin, biri də nağıl danışanın. Yerdə qalan da sizin. Aparın bölüşdürün.

## 3. TACİR OĞLU

İsfahan şəhərində bir tacir varmış. Tacir çox varrı-hallı tacir imiş. Bunun da var-qərəl tək bircə dənə evladı – oğlu varmış. Deyirmiş, gəzəjəm bütün dünyanı. Oğluma gərəh elə qız alım həm gözəl olsun, həmi də ağıllı. Gəzirmiş hər tərəfi. Nə qədər gəzirmiş, dolanırmış, rasdına belə bir qız çıxmırmış. Bir gün gənə ticarətdən gələndə bir isdi gündə, susuzdux yerdə bərk

sussuyur. Dili yanır, quruyur. Bu zonalarda su tapmır. Ayna-bayna baxır ki, harda bir şinnih tapa. Baxır görür ki, düzəngahın ortasında bir koma görükür. Bu, atın çaparaxlıyır gəlir ki, yağın o komada nəsə bir insan olar. Bura gəlir.

– Ay ev yiyəsi, ay ev yiyəsi, – deyəndə evdən bir dənə gözəl-göyçəh qız çıxır. Deyir:

– Ağa, nədi?

Deyir ki, qızım, bəs su olarmı, imam ehsanınnan?

Deyir:

– Olar.

Bu qız gedir evdən bir qavı doldurur suynan, gətirir. Gətirir bu tacirə uzadanda görür bu tacir elə isdilənif, elə pörtüf ki, tərriyif, suya batıf. Bu suyu alıf içən təki başına çıxajax, bunu eliyəjəh xəsdə. Qız əlinnən qavı salır, suyu tökür yerə. Deyir:

– Ağa, bağışda, qoy gedim birin də doldurum gətirim.

Deyir, bir də gedif gələnə qədər bunun təri soyuyar da. Bu gedir ikinci dəfə. Bir az ləngiyir. Qavı yuyur, dolduruf gəlincə bunun təri bir az soyuyur. Gətirif bir də verəndə görür ki, təri hələ tam soyumuyuf. Bir də əlinnən vuruf tökür yerə. Tacir deyir:

– Ay qızım, sənnən bir isdəkan su isdədim. Bunu verir-sən ver, vermirsən bu nədi?

Deyir:

– Bağışda baba, həyəcannan əlimnən düşdü, bilmədim. Bu saat gətirərəm.

Qız gedir üçüncü dəfə. Suyu dolduruf gətirincə gəlir görür ki, tacirin tamam təri soyuyuf. Verir suyu, bu içir. Deyir:

– Qızım, mən bir işə şübhəli qaldım. Suyu sən qəsdən tökdün. Niyə tökdün? Məni bu sirrdən agah elə.

Deyir:

– Tacir baba, sən bura gələndə o qədər bərk susdamışdın ki, elə tərrəmişdin ki, o suyu mən səə versəydim, içən təki o sənin başıva çıxıf səni xəsdələndirəjəhdi. Mən onu yerə saldım ki, mən gedif ikinci dəfə gələnə qədər bir az sənin tərin soyusun, höfsələn genəlsin. İkinci dəfə gətirəndə gördüm hələ tərin tam soyumuyuf. Üçüncü dəfə gələndə gördüm hə, sənin tərin soyuyuf, o suyu nə qədər işsən də səə ziyan vermiyəjəh, – deyəndə tacir deyir:

– Ey dadi-bidad, axtardığımı tapmışam. Elə bunu mən alajam oğluma.

Deyir:

– Qızım, burda sən təhcə qalırsan?

Deyir:

– Yox. Atam gündə gedir dənizdən bir yük balıx tutur, aparır şəhərdə satır, gəlir. Mən də burda oturuf atamın çayını-çörəyini qayırıram. Atam satır, çörəh alır, şəhərdən də içməli su gətirir.

Nəysə, bunnan hal-əhval oluf gedir. Gəlir çıxır elinə-obasına. Oğlunu çağırır, deyir:

– Bəs filan yerdə qız tapmışam, ona elçi düşüf sənə alajam.

Bir dəvə yükü də qızıldan, puldan, paltardan yüklüyür, tacirbaşısı varmış, buna verir, deyir:

– Apar bunu, o qıza elçi düş, al gətir.

Tacirbaşı qızın atasınnan Allahın əmriynən, peyğəmbərin qanunuynan qızı alır, götürür qoyur dəvənin belinə. Bu varı-döyləti də verir bu qızın atasına, çıxır gəlir.

Gətirir elində, ovasında yaxşı toy eliyir. Da bu qız ağlıynan, kamalıynan, fərasətiynən bu İsfahan şəhərində ad alır, san çıxardır. O qədər mərhəmətdi, təmiz qəlbli olur, tay nə forma. Bu oğlan da arvadını o qədər isdiyirmiş ki, bir çətinniyə düşəndə arvadının başına and içirmiş.

Bir gün bunu atası çağırır ki, ay oğul, mən qojalmışam, yaşım keçir. İsfahanda ən böyüh tacir mənəm. Yanıma bütün camaat gəlir, belə getsə, bütün varımız-döylətimiz əlimizdən çıxajax. Gəl bir qəflə-qatır hazırrıyım. Mən tay qojalmışam, güjüm çatmır, uzax yol gedə bilmirəm. Tacirbaşını da qoşum sənin yanuva, get Misirdə sat, sav, gəl. Camaat gəlir, əliboş qayıdır.

Deyir:

– Yaxşı, nə deyirəm, ata.

Bu gəlir arvadıynan halallaşır, hümbətləşir, bir qəflə-qatır hazırrıyır. Durur tacirbaşını da alır yanına, gəlir. Gəlir çıxır bir şəhərə, onu satır, bunu alır.

Nəysə, bu şəhərdə bir qırxlotu başçısı varmış. Bu qırxlotu başçısı gəlir, nəysə bir şey danışdırır:

– Qardaş, bunun qiyməti nədi?

Deyir, bu qədər. Bunun üsdündə sözdəri çəpləşir. O deyir, qiyməti budu, bu deyir, bu deyil. Deyəndə bu oğlan qayıdır deyir ki, qardaş, arvadımın başı üçün bunun qiyməti budu. Bu qiymətə alınıf, bu qiymətə satılır.

Deyir:

– Əşi, bu nətər arvatdı, sən onun başına and içirsən?

Deyir:

– Mənim arvadım belə ağıllıdı.

Deyir:

– İndi ki belədi, gəl mərc gələh. Sənin arvadıynan mən ünsiyət qurdum, onu gördüm ələ aldım, sənin nəyin var – bu qəflə-qatırın, varın-döylətin hamısı mənim. Özün də ömrünün axırınatan qalıf mənim yanımda nökərçilih eliyəssən. Yox, əgər heyləsə, qırx ildi yığdığım varım-döylətim sənin, özüm də ömrümün axırınatan sənin nökərin olajam.

Belə bunuynan şərtdəşir. Yazıllar, imzalıyıllar. Barmaxbasdı olurmuş o vaxdı. Barmaxların basıllar, sənəd imzalanır. Qırxlotu başçısı gəlir bir xurcun da qızıldan-gümüşdən, puldan-zaddan

götürür, aşırır atın belinə, tərpənir İsfahan şəhərinə. Gəlir çıxır bu oğlanın olduğu şəhərə. Kimi dindirirsə, bu gəlinnən söypət açıllar. Ay bu gəlin heş yerə getməz, heş kim onu görməz. Bu qalır mat-məhətdəl. Üş gün burda hərrənir, bu gəlinə səmt düşə bilmir. Buna qonax olmağ isdiyir. Bunun barısınnan qıraxda qonax yerrəri varmış. Qonax burda rahat olsun deyə tikdirmişdər.

Məlil-müşkül gəzəndə görür bir küpəgirən qarı, Allahın nəhlətinə gəlsin, küpəsinin belində yumalana-yumalana gedir. Kəsir bunun qavağını. Deyir, bir şey çıxsa, bu qarılardan çıxajax. Deyir:

– Ay qarı nənə, bəs mənim dərdimə əlac.

Deyir:

– Nədi?

Deyir:

– Bəs filan tacirin gəlinin görməliyəm.

Deyir:

– Ay oğul, nə danışırsan, o gəlinin üzün bu şəhərdə hələ görən yoxdu. O gəlinin səmtinə düşməh olmaz. Qəti o fikirdən daşın. Dünyanı verəsən, o gəlinə yaxın dura bilməzsən. Üzün görməh nədi, heş barısınnan içəri keçə bilməzsən. Onun bir belə qoruxçuları var.

Deyir:

– Yox ey, gəl.

Arvadın ətəyinə bir xısma qızıl tökəndə arvad imanın əldən verir. Deyir:

– Onda mən sənə bir yol gösdərəjəm. Gedərsən dülgərin yanına, özün boyda bir sandıx bağlatdır, kilidin də içəridən qoydurarsan. Mən səni aparajam qoyajam o qızın evinə. Onu görə bilsən, heylə görəssən, yoxsa başqa cür o qızın səmtinə düşə bilməzsən.

Bu deyir, yaxşı. Durur arvada puldan-paradan verir. Arvad gedir, bunun biçimində bir sandıx qayıtdırır gətirir. Bu girir

sandığa, ağzını içəridən kilitdiyir. Qızıl-gümüşü də tökür qarının ətəyinə. Qarı iki dənə hambal tutur. Bunu yüklüyür hambalın belinə. Ha-ha-haynan gəlir.

– Ay qızım, qapını aç, qapını aç.

Bu qız deyir ki, gedim görüm qarının dərdi nədi. Deyir ki, beyjə quldurrar gəldi, çaldı-taladı, nəyim vardı varımı-yoxumu apardılar. Bircə qalan bu sandıxdı, bunun da üsdünə yıxıldım. Qızımın cehizi, olanım-olmazım budu. Mən gedif bir yer-yurd tapana qədər bu sandığı gərəh sən gizdiyəsən.

Qız deyir:

– Ay qarı nənə, gətmisən, o tikililərin arasına qoy. Bu həndəvərə heş kəs gəlməz.

Deyir:

– Yox ey, olmaz. Bunu aparıf sənin yatağ otağa qoymasam, ürəyim rahat olmaz. Əgər yiyə deyilsənsə, aparım gedim.

Qız buna nə qədər eliyir: “Ay nənə, barının içinə qoy”. Deyir:

– Yox ey, olmaz. Öz yatağ otağa qoymasan, qızımın ceri-cehizi hamısı bunun içindədi, getmərəm.

Qızın əlacı kəsilir, deyir:

– Dəymiyin, qoyun gətirsin.

Qarı nəhlətdəmə bunu qoyur qızın yataq otağına, çıxır gedir. Axşam olur. Görür ki, ay allah, qızın başında qırx dənə əli qılışlı qaroolçu var. Gejəni sabaha qədər qız yatdı, bular yatmadı. Sabahı dik aşdılar. Buna mümkün olmadı. Bir gün, iki gün. Üçüncü gün artıx vaxt-vədə tamamdı. Gəlif qarı bunu aparasıdı. Ay Allah, neyniyim, nejə eliyim, məə bir imdad. Qız sabah ertə tezdənnən bu kənizdərə deyir ki, durun, ərimin gəlməh vaxdı yaxınnaşıfdı. Bu günnəri çarhovuza çimməyə gedəjəm. Gəlif yeməh-işməh hazırrıyajam, bəs yoldaşım gələjəh. Bunu bu eşidir. Deyir, hə, Allah mənimkini düzəltdi. Qız durur bilərziyini açır, qoyur yatağ otağına, qızıl boyunbağısın da açır

qoyur bura, gedir çarhovuza qızdarnan çimməyə. Bu ayna gedən təki sandığı içəridən açır, çıxır. Pəncərədən baxır, görür pəncərə düz houza açılır. Qız qızdarnan burda çimir. Qızın başdan-ayağa bütün əzasını gözdən keçirir. Bu qızın da anadangəlmə sol budunda şir şəklində halı varmış. Bunu da tamam yerbəyer eliyir. Qızın bazubəndini də, boyunbağısını da, yaylığını da götürür, qayıdır girir sandığa, qapısın kilitdiyir. Qız qayıdır gəlir, görür bazubəndi yoxdu.

– Ay qızdar, bazubəndim hanı?

Qulluxçular deyir:

– Ay xanım, sənin otağa kim girər, kim aparar? Yağın yerin dəyişih salmısan, axtarıf taparıx.

Qız daa fikir vermir. Deyir harasa yağın qoymuşam da. Bir də görür qarı budu hambalları götdü gətdi. Gətirif o sandığı götürür, gedir. Sandığı açır, deyir:

– Hə, oğlum, nə gördün, nə götdün, bir şey əldə eliyə bildinmi?

Deyir:

– Hə, qarı nənə, hər bir şeyini örgəndim. Ala, bu xurcundakı qızıl-gümüş də sənin, mən getdim.

Minir atın, tərpənir gəlir Misirə. Oğlan görür gəlir.

– Ə nədi, sənin tərifli arvadın belə imiş? Bir həftədir onnan kefdəyəm, belə qonaxlıx, belə yeməh, belə işməh. Ay sənin tərifli arvadın buymuş?

Oğlan deyir:

– İnanmaram.

Deyif:

– İnanmazsan, ala, bu bazubənd sənin arvadınındımı, bu boyunbağı arvadınındımı, bu yaylıx arvadınındımı? Buları da məə verifdi ki, ayağın nə vaxdı bu tərəfə düşsə, sorğu-sualsız mənim yanıma gəl. Hələ bunnan qane olmasan, arvadu sol budunda bir dənə şir şəklində xalı var. Buna sözün nədi?

Bu oğlanın nə qədər varı-döyləti var əlinnən alır, oğlanı da yanında nökər eliyir. Bu da sefillənir[8] ki, Allah, neyniyim, nejə eliyim? Oğlan tacirbaşına deyir ki, tacirbaşı, sən get bir ordan əhval bil, görəh bu nə işdi? Mənim güvəndiyim arvadım niyə bu işi elədi? Əgər helədirsə, gedif atama deyərsən, onu mən gələnə qədər tikə-tikə doğruyar, hər şəhər darvazasınnan bir tikəsini asdırar.

Bu deyir:

– Yaxşı, gedim.

Bu gəlir. Qızın da gözü yollarda imiş. Hər yola bir keşikçi qoydurmuşdu ki, ərim gələjəh, onun pişvazına çıxım. Qız bir də baxır görür ki, axşamçağı budu ha sefillənə-sefillənə piyada bir adam gəlir. Gəlhagəl görür bu tacirbaşı. Nökərrərə deyir:

– Gedin tacirbaşını yanıma gətirin, görüm bu nə işdi, bu nə gəlişdi.

Bunu gətirəndə qızın yanına, deyir:

– Cəhənnəm ol, mən getmirəm. Onun üzünə baxmaram, o hayasızın, o ləçərin. O, bizim başımıza nə oyun aşdı.

Qız deyir:

– Ay tacirbaşı, bu nə olan işdi? Niyə belə deyirsən? Bəs sənin ağan hanı, qəflə-qaturuz hanı?

Deyir:

– Ay səni öleydin, vay xəbərin gedərdi, biz bu xabarnan gəlmiyərdih.

Mən dediyim təki əhvalatı buna deyəndə qız qalır matməətdəl. Deyir:

– Hə, demək mənim başıma nə gəldisə, o sandıxdan gəldi. Gedin o qarını tapın gətirin.

Gedillər bu qarını tapıf gətirillər. Deyir:

---

[8] Sefillənmək – veyillənmək

– Qarı, düzünü de görüm, o sandıxda nə əmma vardı?

Qarı bir az ayna-bayna eliyir, bir xışma qarının ətəyinə qızıl tökən təki qarı imanını əldən verir. Əhvalatı açır danışır. Deyir:

– O, bir qırxlotu başçısı idi. Sənin əriynən bir sözdəşməsi olmuşdu. Sən çarhovuza çimməyə gedəndə o, pəncərədən səni görüf.

Deyir:

– İndi tacirbaşı, inandın?

Deyir:

– Hə, inandım. İndi nağayrax, onu ordan nətər qutarax?

Deyir:

– Sən dinmə, mən deyənə əməl elə. Dur pul götür, get zərgərin, dəmirçinin yanına, Misir padşahına layax bir dənə tac qayırtdır gətir mənə, bir də Misir padşahının adı yazılmış qılınc-qalxan qayırtdır gətir.

Bu gedir, puldan aparır verir, Misir padşahının adı üsdündə həkk olunan tac bağlatdırır, qılınc-qalxan bağlatdırır gətirir. Deyir:

– Tacirbaşı, dur məni apar həmən vilayətə.

Hərəsi bir at minir, gəlir Misirə. Şəhərin kənarında dayanıllar. Deyir:

– Gedərsən padşaha xəvər verərsən ki, İsfahan padşahının oğlu buralara səyahətə gəlif, sənin şəhərivə qonax gəlməh isdiyir.

İsfahan padşahı da bu devlətdərin içində addı-sannı padşah imiş də. Bütün padşahlar onnan qorxarmış. Bu adam naməni gətirif Misir padşahına verəndə padşah əl-ayağa düşür. Ay neyniyim, nejə eliyim? Qoşun-ləşkər göndərir, gedin onun pişvazına çıxın. Özü durur pişvazına. Bunu gətirir qonaxlıx verir. Deyir:

– Bizim üçün nə qulluğun?

Deyir:

– Mən bir iş üçün gəlmişəm. Üşcə günnüyə şəhəru bütün ixdiyarın verəssən məə. Bütün əhalini səqirdən kəbirə topalıyassan bu meydana. Burda mənim bir görüləsi işim var. O işi görüf, sənin vilayatuva ziyan vuran deyiləm, çıxıf gedəjəm.

Bu deyir:

– Bütün ölkəm, canım, taxdım-tacım hamısı sənin qulluğunda hazırdı. Nə isdiyirsən, eliyərsən.

Bu car çəkdirir. Bütün ölkədə qadınnan kişiyə nə qədər adam var, yığdırır meydana. Qız baxır, görür ki, budaha, qırxlotu başçısı da gəldi, əri də sail kökündə, sakqal basıf, gəldi məclisin bir tərəfində durdu. Qız özüynən gətdiyi qızılı-gümüşü aja-kasıba paylıya-paylıya gəlir. Hamı çıxıf gedir, qalır axırda bular. Deyir:

– Padşah, sən sorğu-suala bax. Lotubaşçısı İsfahan tacirinin gəlnini nə qayda gedif görüf bu camaatın içində özü aşsın desin. Deməsə, onun cəzasın mən verəjəm.

Padşah əmr eliyir. Gətirillər dar ağacının divinə. Deyir, de görüm, İsfahan mahalında filan tacirin gəlninə necə yaxınnaşmısan, onnan nətəri görüşmüsən, onnan bazubəndi nə yolnan almısan. Bu, mən sizə dediyim təki hamısın açır nağıl eliyir: "Mən onu dolayı yolla ələ keçirdim. Heç o qızın üzünü də görə bilmədim. Axırdan-axıra çarhovuzda çiməndə mən onda onu görmüşəm. O bazubəndi də oğurruyuf gətmişəm".

Deyir:

– Camaat, inanduz?

Oğlana deyir:

– İnandın?

Oğlan deyir:

– Mən inanmışdım, arvadımda heylə şey olmaz. İntaası əsas oldu, qaldım belə.

Qız deyir:

– Padşah, bunun cəzasın mən yox, sən ver.

Padşah qırxlotunun qırx ildə yığdığı var-döyləti də alır, verir oğlana, oğlanın öz var-döylətin də özünə qaytarır. Qız deyir:

– Bunu mən özümnən aparmıyajam. Öz elində ən qəddar bir adama nökər verərsən ki, gündə bircə öynə çörəh verər, bir isdəkan da duzdu su verər, gündə də yüz qamçı vurar. Bu, ömrünün axırına qədər orda heylə zulum çəkər.

Qız ərini də götürür, var-döylətnən qayıdır ölkəsinə. Şadxürrəm ömürrərinin axırınatan gün keçirillər, yeyillər, yerə keçillər. Siz də yeyin dövran sürün, muradınıza çatın. Arzularuzu Allah hasil eləsin. Heylə şərdən, böhtannan Allah qorusun. Heylə şeytan əməlinnən Allah uzax saxlasın bizi. Düzgün əməlimiznən, düzgün əqidəmiznən Allah-taalanın hüzuruna qavuşax. Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri nənənin, biri Narışın, biri nağıl danışanın. Yerdə qalanı da sizin. Da nətər bölürsüz, özüz bilərsiz.

## 4. HURİ QIZI

Bir gün bir vilayətdə kasıf bir oğlan varmış. Bu oğlanın da var-qərəl bircə anasıymış, bir özü. Bu oğlan da elə kasıfmış... Bir daxalı varmış, qarğu daxal. Bura yüz sərçəni qısnasan biri qalmazmış. Hamısı uçux-söküh. Bircə dənə qırıx təhnəsi, bir dənə də qara hisdi qazanı, bir-iki dənə kəfrəm mitili varmış. Gün üzü gedif orda-burda kəndin keçisin, danasın otarırmış, bircə belə çörəh tapıf gətirif anasıynan yeyif-yatırmış.

Bir gün durur deyir:

– Ay ana, gedif mən də balıx tutum gətirim, qoy dişimizi dəyişəh.

Anası deyir:

– Yaxşı.

Bu gedir balıx tutanda görür çayda gözəl bir qız çimir. Bu qızın paltarın götürür gizdiyir. Qız çıxanda, gəzif paltarını tapmıyanda deyir:

– Kimdi mənim paltarımı oğurruyan?

Oğlan çıxır deyir ki, sənin paltarını mən oğurramışam, nətər olur olsun, mənnən evlənməlisən. Bu qız deyir:

– Mənnən sənə yar olmaz. Mən pəri qızıyam, mənnən əl çək.

Deyir:

– Yox ey. Mələk qızı olma, lap – əstafirillax, – Allahın qızı ol, sənnən əl çəkən deyiləm.

Bu qızın da paltarına naməhrəm əli dəydiyi üçün deyir:

– Mənim paltarıma sənin əlin dəyif, mənim əlacım yoxdu, heş yana gedə bilmərəm.

Qız razı olur bunnan evlənir. Gəlir görür nə? Ev dəyil bura. Qız evin uçux-söküyün palçıxnan, daşnan tutur, hisdi qazanı sürtür, pencərdən-əncərdən bişirir.

Bir az burda gün keçirillər. Bir müddətdən sohra bu oğlanın anası Allahın verdiyi ömrü bitirif ölür. Öləndə bu qız qaçır, taxça varmış, çıxır bu taxçanın üsdünə. Oğlan baxır:

– Ay Allah, bu nətər olan şeydi! Mənim anam ölüf, arvadım taxdın belinə minif. Bu nətər şeydi?

Arvadın cinazasını yerdən qalxızanda bu qız bərkdən qaxqanax çəkif gülür. Güləndə bu oğlan lap pərt olur.

– Anam öldü, anamın meyidinə əl vurmadı, getdi taxdın üsdündə oturdu. İndi də anamın cinazası qalxır, əlini əlinə vuruf gülür. Gedim, qayıdıf gələndə bunun hesabın çəkəjəm.

Gedir nənəsin dəfn eliyir. Qayıdıf gələndə deyir:

– Gəl burda otur, görüm sən nəyə görə mənim nənəm öldü, taxdın belinə çıxdın? Mənim nənəmin cinazası qalxdı, niyə güldün?

Deyir:

– Oğlan, mən sənə dedim ki, sənnən mənimki tutan deyil. Mən mələk cinsiyəm. Sənin anan öləndə Azreyil o qədər əzab-əziyətnən onun canın aldı ki, onun qanı hər tərəfə çiləndi. Mən qaşdım qırağa durdum ku, onun qanı mənim üsdümə dəyməsin. Onun qanı sənin gözüvə görükmədi, mənim gözümə görükdü. Sənin nənən bir belə ömür sürüf, bir adama bir şey vermiyif. Tək bircə cüt köhnə çarıx dilənçiyə verif, bir də qonşuya bir dənə qırıx süpürgə kötüyü verif. Nənənin cinazası qalxanda o çarıxnan süpürgə gəldi sallaşdı onun cinazasınnan. Mən ona güldüm ki, bu adamın bir belə yaşında elədiyi yaxşılıx bir cüt çarıx oluf, bir də qırıx süpürgə.

Oğlan deyir:

– Düz deyirsən, nənəm əli göy adam oluf.

Bir müddət belə ömür sürəndə qız deyir oğlana ki, hamı gedir alver eliyir, özü üçün bir bəlgə topluyur. Sən oturmusan burda, heş-zad yox. Sən də get bir qazaş gətir.

Bu deyir:

– Bəs, səni tək qoyum?

Deyir:

– Mənnən niyaran olma, sən get.

Bu gedir bir yerdən sələmə pul götürür. Gəlir əmisi oğlannarına deyir ki, əmioğlu, məni də götürün, mən də gedim siznən qırağa alverə. Əmisi oğlannarı deyir: “Biz getmirih, ala atımızı verəh, sən get”. Bu əmisi oğlannarının atın alır, azdan-çoxdan yüklüyür ata, çıxır gedir başqa bir ölkəyə qazaş dalınca.

Bu qız gedirmiş birinin paltarın yuyurmuş, birinin qapısın süpürürmüş, belə dolanırmış. Nəysə, günnərin bir günündə şər qarışan vaxdı, qız görür qapı döyülür. Qız qapını açanda görür nurani bir kişidi, tay qojalıxdan az qalır ağzı yerə dəyə. Deyir:

– Ay qızım, məni Allah qonağı...

Qız da o qədər ürəyi təmiz, Allaha yaxın bəndeymiş ki. Deyir:

– Ay baba, Allaha qurban olum, qonağına da. Amma özün bilirsən, bu kəndin camaatı bir cürədi. Evimdə kişi xeylağı yoxdu, evdə tək kadın mənəm. Səni qonax saxlasam, mənim adıma yüz şey deyəllər. Get, qonşuda ərimin əmisi uşaxları var, olarda qonax qal.

Deyir:

– Ay qızım, bütün şəhəri gəzmişəm, məni qonax saxlıyan yoxdu. Mən səə nağayranam? Varın-döylətin yoxdu, duram oğurruyuf aparam. Mən özüm nəyəm? Bir yerdə itələsən beş yerdə başım yerə dəyər. Elə beyjəlih burda daldalanım, sabah ertə çıxıf gedəjəm.

Qız baxıf görür elə gerçəhdən də bunun nəyini oğurruyuf aparandı? Nə də ki bu kişidə nə hərəkət var, buna heş bir şey eliyən deyil. Deyir:

– Baba, nə deyirəm, gəl.

Bunu gətirir, evində olan kəfrəmnən-zaddan[9] buna yaxşı yer düzəldir. Gün üzü işdiyif gətdiyi çörəyi gətirif bunun qavağına qoyur. Yeyir-içir, durur yer qayırır. Kişini rahat eliyir, kişi yatır. Qız da kəfrəmə bürünür, başını söyküyür divara elə burda bunu yuxu tutur, yatır. Gejənin bir aləmində görür ki, bu qoja əlini bunun üsdündə-başında gəzdirir. Qızın ürəyinə başqa şey gəlmir də. Deyir:

– Baba, nədi? Çölə getməh isdiyirsən, yolu tapmırsan?

Deyir:

– Hə, qızım, çölə getməh isdiyirəm, qarannıxdı, qapını tapmıram.

Qız durur bunun əlinnən tutur, aparır çölə. Haftafasını verir, deyir:

– Get, baba.

Bir azdan qızı bir də yuxu tutanda görür bir də.

---

[9] Kəfrəm – yorğana, döşəyə salınan ilk üz

– A baba, nədi, gəlmisən, yeru tapmırsan?

Deyir:

– Hə, qızım, gəlmişəm, qarannıxdı, yerimi tapmıram.

Qız durur bunu aparır yerində simsar eliyir, yatırdır gəlir.

Nəysə, sabah açılır. Qız tezdənnən durur gedir ojağın qalıyır, üsdünə haftafanı qoyur ki, qaynadım, bu kişiyə bir tikə çörəh verim, yol adamıdı. Bunun çöldə başı qarışanda – bu, Allah-taala tərəfinnən gəlmiş adamdı, – yox oluf gedir. Qız qayıdır görür ki, bu kişi yoxdu. Ay Allah, bu kişi hara getdi, buna çay qaynadırdım. Ay baba, nejoldun? Ora-bura, kişi yoxa çıxır. Bu gəlir evini-eşiyini yığışdırır. Yeri yığışdıranda görür bu kişinin başının altında bir belə kisə dolu qızıl qalıf. Durur bu kəndi qaçır bu tərəfə, o tərəfə: "Ay Allah, bu kişi yadınnan çıxdı qızılını qoydu, getdi". Görür kişi yoxdu. Deyir, qoy dursun, yadına düşüf qayıdıf gələrsə, verərəm.

Axşam olanda bu durur kişinin torbasın boşaldır, boş torbanı qoyur öz başının altına, yatır. Sabah ertə duruf yerin yığanda görür torba gənə doluf qızılnan. Deyir:

– Hə, bu məə urza verməyə gələnmiş. Bu elə-belə yolçu deyilmiş, başına döndühlərimdənmiş.

Bu qız hər axşam torbanı boşaldır başının altına qoyur, səhər ertə duruf götürəndə görür doluf qızılnan. Bu qız deyir da belədi, mən niyə bu qızılı sərf eləmirəm? Usda gətirir, imarat başdadır. Padşahlara layax imarat tikdirir, barı çəkdirir, darvaza asdırır. Nökər tutur, qulluxçu tutur. Daa şahlara layax güzaran yaradır.

Oğlanın əmisi oğlannarı başdıyır buna xayınnıx eləməyə. Bu qızı nə qədər pusullar, görələr bu qız nə yolnan bu pulu qazanır, bu qızda bir xəyanət görmüllər.

Vaxt gəlir, oğlan gələndə gəlir düşür, məsəlçün, Ağcabədidə. Ordan sifariş göndərir əmioğlannarına ki, at gətirin,

gəlin məni aparın. Bunun əmisi oğlannarı qaşdı-qavaxlı gedəndə deyir:

– Əmioğlannarı, niyə beləsiniz?

Deyir:

– Əmioğlu, heş demə. Kaş elə öləydin qalaydın, gəlmiyəydin bu vilayətə. Belə bir hayasız, belə bir pozğun bir ləçər gətirif qoymusan. Sən gedənnən qırxlotuları yığır başına. Qırxlotunun puluynan belə imarət tikdirif, belə dəm-dəsgah yaradıf. Heş getmə ora.

Deyir:

– Mən inanmaram, mən ora gedəjəm, onu gözümnən görəjəm.

Gələndə baxır görür burda bir dəmdəsgah yaranıf, heş padşahlarda yoxdu. Qalır belə. Nətər eliyim? Daa qıza açıf demir. Əmisi oğlannarı da bunu gündə örgədir: "Əmioğlu, bu arvadı öldür, namusumuzu təmizdə". Bunun ta gejəsin-gündüzün qara eləmişdər. Bu, nəysə, gəlir bir gün qıza deyir:

– Neçə vaxdı getmişdim, yerimnən-yurdumnan ötrü çox darıxmışam. Bir gedəh gəzəh, dolaşax.

Qız deyir:

– Madam heylədi, nökər-nayib çağırım, dəsdə-tifağlı gedəh.

Deyir:

– Yox, bir sən, bir də mən getməliyih. Mənə heş kəs lazım deyil.

Qız deyir:

– Nətəri ürəyin isdiyir heylə.

Qız durur bunnan gəlir. Bir dərə varmış, bura Quru dərə deyirmişdər, bunun diviynən bir karvan yolu gedirmiş. Yaranannan bura su-zad görmüyən bir yer imiş. Gəlillər, bu dərənin döşündə oğlan deyir:

– Burda oturax.

Qız deyir:

– Ay oğlan, gözəl meşələr, gözəl bulaxlar qalıf, su yox, sel yox, quru torpağın üsdündə nə edəssən?

Deyir:

– Yox, nəysə buraları ürəyim çox isdiyir. Elə burda oturax.

Qız deyir:

– Sən nətər bilirsən, elə olsun.

Oturur burda. Yeyillər-içillər, ordan-burdan bir az söypət eliyənnən soora qız deyir:

– Yaman yoruldum, yuxum gəldi.

Deyir:

– Yuxun gəldi, yat, bir az dincəl, onnan sohra gedərih.

Qız başın qoyur oğlanın dizinin üsdünə, yatanda oğlan fürsəti vermir. Xançalını çıxardır, qızın ürəyinin başınnan vurur, öldürür. Deyir:

– Bunu öldürdüm, qayıdıf gedim, o vara-döylətə başımı söyküyüf yeyəjəm ömrümün axırına qədər.

Qayıdıf gəlir, görür nə? Lələ köçüf yurdu boşdu. Nejə gedəndə cırıx daxmanı qoymuşdu, qırıx təhnə, hisdi qazan, iki-üş də kəfrəm. Qalan hər şey yoxa çıxıf. Bir başına döyür, bir gözünə, gəlir.

– Ay əmioğlu, Allah tifağuzu dağıtsın. Bu nə iş idi? Mənim arvadım hüri idi, məni niyə şeytan təki yoldan çıxartduz? Mənim başıma nə oyun aşduz?

Da başına-gözünə döyməhdən nə çıxar? Gedən da getdi.

İndi görəh qızın başına nə oyun gəlir. Allah-taala tərəfinnən qızın ürəyinin başınnan, bu xançalın yerinnən su fəvvarə verir. Allahın hökmüynən burdan bir bulax açılır. Su dərəynən sel olur axır. Buz kimi sərin, dupduru bir su qaynıyır xançalın yerinnən. Yolnan da bir tacir ticarətə getmiş imiş. Qayıdanda görür ə, bu dərədə su yox idi, indi bu dəreynən su

axır. Qəflə-qatırı açır, bunun dəvəsi, qatırı, eşşəyi su içir. Nökərrərə bir qav verir, deyir:

– Biz gedənnən sohra kimsə burda quyu qazıfdı, su gəlif burdan axıfdı. Gedin bu suyun yuxarısına, görün bu suyun gözü hardadı, onnan doldurun gətirin. Özümüz də onnan içəh, düşəh yola.

Bu adamlar bir az yuxarı qalxır, belə keçəndə görür nə? Bulax nədi! Burda bir gözəl qızı öldürüflər, bu su da onun ürəyinin başınnan fəvvarə verif dünyanı götürüf. Bular mat-məətdəl qalıllar. Qızın gözəlliyinə tamaşa eliyillər. Bu gözdü-yür, bular gəlmiyəndə iki nəfər də göndərir:

– Ə, bular getdi, harda itdi-batdı? Gedin görəh bular nejoldu?

Bu adamlar gəlif bu vəziyyəti görəndə elə bular da qu-ruyuf qalır. Axırda bu tacir deyir:

– Balam, bu olan iş deyil. Bu bulağın sahibi var, gedən ilişir qalır. Bir özüm gedim.

Tacir gəlir. Bir aşırım aşanda görür nə? Burda bir qızın ürəyinin başınnan bulax pıkqıldıyır qalxır. Tacir deyir:

– İlahi-pərvərdigara, çox şükür. Allah elə bunu bizdən ötrü yaradıf.

Bu sudan içillər, əllərin-üzdərin yuyullar, sərinniyillər. Bu qızın ürəyinin başına, suyun yerinə bir qapax qayırır tacir, qapıyır. Deyir:

– Elə bunu özümüznən götürəh. Harda susduyanda açarıx, malımız-heyvanımız, özümüz içərih, genə yolumuza davam edərih.

Nəysə, bu qızı da götürüllər, dəvənin üsdünə sarıyıf gəlil-lər çıxıllar bu tacirin vilayətinə. Tacir gedir həkim gətirir, deyir:

– De görüm, bu qızın yarasın sağalda bilərsənmi?

Həkim deyir:

– Mən sağalda bilərəm, amma bunu dirildə bilmərəm.

Gedir bir molla tapır gətirir. Deyir:

– Bu qızı sağaltsalar ruhunu bədəninə qaytara bilərsənmi?

Deyir:

– Hə, Quranda belə bir ayə var. Namaz qılıf oxusam, bunun ruhu bədəninə qayıdar.

Həkimi gətirir. Pul-zad verir, yarasın sağaldır. Molla oturur iki rükət namaz qılır, "Ayətül-kürs" oxuyur, bu qızın üzünə üflüyən təki qız asqırır yerinnən qalxır. Tacir deyir:

– Qız, səni mən diriltmişəm, mənnən evləneyssən. Səni Allah mənim qismətimə gətirif.

Qız nə qədər eliyir:

– Ay tacir baba, mən sənin tayın deyiləm, tuşun deyiləm. Sən mənim atamsan. Ömrüm boyu da sən mənim atam ol, mən sənin qızın.

Deyir:

– Heylə şey yoxdu.

Qız baxır görür ki, bunnan canın qutaran deyil. Deyir:

– Yaxşı, onda get bir qazı tap, gətir kəbinimizi kəssin. Bir dənə də heyvan kəs, yüngülvarı süfrə açax, evlənəh. Nə deyirəm.

Tacir durur gedir şəhərdən qazı gətirməyə. Qız durur aranı xəlvət eliyir, qaçır. Tacir gəlir görür qız yoxdu, qaçıf. Atı minir, and içir səni harda tutsam tikə-tikə doğruyajam, sən elə belə əməlin sahibisən ki, səni öldürüflər.

Qız piyada, tacir atdı, gəlir yeddi yolun ayrıcında bu qıza çatır. Qızı tutur yıxır yerə. Qızı doğruyur, qol-bud eliyir. Cəsədin qalaxlıyıf yeddi yolun ayrıcına, özü çıxır gedir.

Tacir getməhdə olsun, görəh qızın cəsədinin başına nə iş gəlir. Bu yolnan da üş nəfər gedirmiş. Biri paltar tikən maşınçı, biri dülgər, biri də molla yoldaş oluf gedirmiş. Gəlif bular çıxır bu qızın cəsədinə. Qızın cəsədinə baxıllar. Baxanda maşınçı deyir:

– Nə gözəl qız imiş. Əgər bu qızın əzaları sağalmış olsa, buna elə bir paltar tikərəm ki, geyinəndə əyninə kip durar.

Dülgər deyir:

– Əgər helədirsə, mən bu qızın əzaların elə yığaram, elə düzərəm, bunun əzasının biri birinnən sərpməz, – deyəndə molla deyir:

– Mən də bir "Ayətül-kürs" namazın qılaram, oxuyaram, bu qızın ruhu bədəninə gələr.

Dülgər bu qızın bəntdərini düzür öz yerinə. Maşınçı da maşınını qurur, başdıyır buna paltar tikməyə. Molla da namazını qılır, "Ayətül-kürs" oxuyur qıza üfürür, qızın ruhu gəlir yerinə. Qız asqırır qalxır. Bu qızı geyindirillər-kejindirillər. İndi bular başdıyıllar mübahisəyə. Maşınçı deyir, bu qıza paltarı mən tikmişəm, qız mənimdi. Dülgər deyir, onu mən düzməseydim, sən nətər paltar tikərdin? Qız mənimdi. Molla deyir, lap düzmüsüz. Mən o qızı diriltməsəm, sizə nə düşərdi? Mənimdi. Bular başdıyır mübahisəyə. Qız baxır görür bulardan canını qutaran deyil, deyir:

– Dayanın. Mən siznən bir şərt kəsəjəm. Mənim şərtimi kim yerinə yetirsə, mən onunam.

Deyir:

– Nejə?

Qavaxda bir qəlbi yal varmış. Deyir:

– Siz gedin çıxın o dağın başına. O dağdan kim tez yüyürüf gəlif məə çatsa, mən onunam.

Bular yoxuş yuxarı qaranəfəs dizdəri yerə dəyə-dəyə dırmaşıllar dağın başına. Ayannan bəri özdərin buraxıllar yüyürüf qıza tez çatmaxdan ötrü. Birinin qılçası sınır, birinin qolu sınır, birinin başı dəyir yarılır. Qan götürür, huşun itirir. Daa buların heş biri gəlif bu qızın yanına çata bilmir. Qız duruf "Allah, Məhəmməd, ya Əli" deyif burdan tərpənir.

Gəlir çıxır bir dənizin kənarına. Görür qoja nurani balıxçıdı. Balxıçı buna bir tikə çörəh verir, qız yeyir. Görür balıxçı ikicə dəfə tor atdı. Hər dəfə də bircə dənə balıx düşdü toruna. Buları götdü, qoydu qavına, durdu ulağın minə, gedə. Qız dedi:

– Ay baba, elə bu iki balıxdan ötrü gəlmişdin?

Deyir:

– Hə, qızım.

Deyir:

– Baba, bir də tor atginan, bəlkə biri də düşər.

Deyir:

– Qızım, yaranan günnən bəri qismətim bu iki balıxdı. Yüz dəfə də tor atsam, bu iki balıxdan başqa qismətim yoxdu. Bunun birini bazarda satıf çörəyə verirəm, birini də aparıf arvadnan bişirif çörəyimizə yavannıx eliyif yeyirih. Bax, yaşımız bura çatıf, bu iki balıxadan artıx məni zəhmətə salma. On dəfə yox, yüz dəfə tor atsam, qismətim yoxdu.

Qız deyir:

– Baba, onda bircə dəfə də mənim qismətimə at, bir balıx da mənim qismətimə düşər. Mən də gedərəm sizə, olaram sizin qızınız.

Deyir:

– Qızım, vallah, evladım yoxdu, gözüm üsdə. İntaası biz səni dolandıra bilmərih.

Deyir:

– Bircə dəfə də mənim qismətimə at.

Bu, bir dəfə toru atır. Ay Allah, toru çəkir ki, tor gəlməh nədi, tora o qədər balıx mıxlanıf ki. Qız da kömək eliyir, bir zornan toru çəkir qırağa. Kişinin əli üzündə məhətdəl qalır: “İlahi-pərvərdigara, çox şükür. Qızım, sən Allahın necə bəndəsisən ki, mən bu yaşa gəlmişəm, bura tor atmışam, bu

dənizdə qızıl balıx olmazdı. İndi sənin baxdıva bu qədər balıx düşdü, özü də hamısı qızıl balıx".

Deyir:

– Baba, apar bu balığı sat, çörəhdən-yeməhdən al gətir.

Bu kişi durur bu qızın başına fırrana-fıranna: "Ay Allah, səni məə yetirən Allaha çox şükür". Gətirir bunu verir arvada. Deyir:

– Arvad, Allah-taala bizə bir evlad qismət eliyif.

Bu kişi hər gün gəlirmiş, iki dəfə öz talehlərinə atıf iki balıx tuturmuş, bir dəfə də bu qızın qismətinə atıf tor dolusu qızıl balıx çıxırmış. Aparırmış satırmış, ehtiyacların alıf gəlirmiş. Bu qız da hər axşam gənə torbanı qoyuf başının altına yatırmış. Bu qız qızıldan verir, deyir:

– Baba, sən elə gündəlih o bir yük balığı apar sat, kim soruşsa deynən balığın puluynan qayırmışam bu işi. Sənin sohrasıynan işin yoxdu.

Gətirir əvvəlkinnən də yaxşı imarat tikdirir. Bu qojalara geyim, yeməh-işməh, qulluxçu tutmax. Dünyaynan varı-döyləti. Bu qız bir gejə yatanda Allah-taala tərəfinnən buna agah olur ki, elə bir ajdıx olajax ki, insannar ajınnan bir-birinin ətin yeyəjəh. Sən də özün üçün bir illik azuqə yığ indidən. Qız durur anbarrar tikdirir boyu iyirmi metr, otuz metr. Ta dünyada taxıl demir, buğda demir, düyü demir, nə qədər azuqə var, yığır doldurur bu anbarrara. Anbarrarı doldurur, gözdüyür. Kişi də vərdişkar imiş, nejə mən hər axşam bir isdəkan suynan yaşıyan təki. Hər axşam bir belə başının altına çörəh qoydurarmış. Gejə ajırmış, oyananda bu bir loxma çörəyi yeyif yatarmış. Qıza agah olur ki, beyjə göydən yerə ajdıx endi, ta ruza qıtdaşdı. Nətər eliyim, bunu atama-anama nejə bildirim? Deyir:

– Ay ata, çörəh yoxdu.

Deyir:

– Qızım, çörəh yoxdu nədi? Vallah, mən bu gejə dayana bilmərəm. Birjə belə sajın üsdündə qayır, başımın altına qoy. Özün bilirsən ki, mən gejə oyandım, çörəh olmasa, mən dözə bilmərəm.

Qız durur gətirir. Özü qəsdən bunnar ajdığın yendiyini bilsin deyə arpanın cadınnan birjə belə fətir qayırır. Arpanın cadı necə olar? Torpax təki. O üzün, bu üzün təpidir, qoyur kişinin başının altına. Gejə kişi oyananda, axı, bilmir ajdıx gəldiyini. Bunnan yeyəndə görür bu çörəh o qədər daddıdı, o qədər şirindi, hələ ömründə belə çörəh yemiyif. Bu çörəhdən bir az kəsir, qoyur başının altına ki, sabah açılsın, deyəjəm qızım, bu çörəh hansı taxıldandı, həmmişə bunnan bişir. Mən hələ belə daddı çörəh yeməmişəm. Bunu başının altına qoyur. Sabah ertə duruf götürəndə görür nə? Allaha ağır getməsin, bu çörəh deyil, elə bil kərpiş parçasıdır. Bunun qəlbi dolanır, deyir:

– Ay arvad, görürsənmi, bu bizim öz doğma qızımız olsaydı, belə eləməzdi. Gör bir belə dünya neməti qalıf burda, mənim başımın altına qoyduğuna bax. Bu nədi? Heş itə küt eliyif verməzdər, bu qız mənim başımın altına qoyur.

Arvad deyir:

– Əşi, əşi, əşi, qız eşidər, nə danışırsan? Allaha şükür eylə, dinmə.

Qıza agah imiş da. Qız girif içəri deyif:

– Baba, nədi?

Deyir:

– Ay qızım, Allahdan gizdin deyil, bəndədən nə gizdin. Çörəyə baxıram, nəysə qəlbim incidi ki, nəyə görə bir belə sarı buğdalar qalıf burda, arpanın cadını gərmə təki mənə qoymusan. Bunu insan yeyər?

Deyir:

– Baba, onu yedin, ağzında nə tam verdi?

Deyir:

– Qızım, o ağzımda elə tam verdi ki, hələ mən bir heylə şirin tamlı çörəh yeməmişdim. Elə ona görə də bu çörəyi qırdım saxladım ki, bunnan deyim bişir.

Deyir:

– Baba, mən özüm onu qəsdən heylə elədim. Onu biləsiz ki, beyjə Allah-taalanın izniynən göy üzünnən yer üzünə ajdıx gəldi. Elə bir ajdıx olajax ki, insan bir-birinin ətin yeyəjəh. Bir il başa gələnə qədər belə ajdıx olajax. Ona görə mən bunu belə elədim ki, sən də biləsən ki, göydən yerə ajdıx yendi, çörəh şirinnəşdi.

Arvad, kişi bunun əlinə-ayağına düşür:

– Ay bala, bizi bağışda, vallah bilmədih. Nəysə, qəlbimiz dolandı da.

Qız deyir:

– Baba, mən bunnan incimirəm.

Vaxt-vədə gəlir, bütün dünyaya ajdıx düşür. Ta kimin nəyi varsa köhnədən, təzədən yeyir. Ajdıx olur, insan insanın başın kəsir bir parça çörəhdən ötrü. Qız deyir hə, vaxt-vədə gəlif. Durur anbarrarın ağzın açır, gətirir qapan qoyur meydana. Deyir:

– Baba, elan verin, car çəkdirin bütün şəhərə, bəs taxıl paylıyıram. Hər aylə başına bir pud taxıl verəjəm, kim varsa gəlsin.

Car çəkillər ki, filan balıxçının qızı taxıl paylıyır. Kimi gəlir, məsələn, mən beş ayləyəm, aylə başına bir pud buğda, bir pud apra, bir pud darı, bir pud düyü. Bütün dünyaya bunun sədası gedir. Ərinin vilayətinə də bunun sədası çatır ki, filan vilayətdə belə bir insan var, bəs taxıl paylıyır. Bular da deyir, durax gedəh, biz də bir şey alax gətirəh, ayləmizi dolandırax. Gedəndə qız baxır görür ki, əridi, bir də ərinin əmisi oğlannarı, budu heyvə-torbaları çiyinnərində gəldilər. Bu çağırır adamlarına deyir ki, o üş nəfəri saxlıyarsuz, bütün camaat gedənnən soora oların payını verəjəm. Bütün gələnin hamısın yola salıllar. Bular deyir:

– Ay qardaş, bizi də yola sal, verirsizsə verin, vermirsizsə, gün batdı, gedəh, yolumuz uzaxdı.

Deyir:

– Ağamız deyir ki, olara axırda artıx verəjəm, dayanın.

Deyillər da gəlmişih, gözdüyəh görəh. Tamam hamı gedənnən sohra buları çağırır. Qız deyir:

– Deyin görəh kimsiz?

Deyir bəs belə-belə, biz əmioğluyux. Deyir:

– Əmiz oğlunun bir arvadı oluf. Deyin görüm o arvadın nə xəyanətini gördüz, bu əmiz oğluna nə dediz? Onu düzgün deduz sizin yüküzü polnu tutuf yola salajam, düzgün deməduz burda ölessuz.

Bular başına gələni deyir. Bu da kişi livasında oturuf orda.

– Vallah, biz o gəlinin nə bir naməhrəmnən kəlmə kəsdiyin gördüh, nə bir yerə çıxdığın. Elə onun varına-döylətinə xayınnıx elədih. Getdih əmimiz oğluna da dedih onu öldür, var-döylət sənə qalsın.

Deyir:

– Yaxşı, oğlan, əmin oğlannarı səni yoldan çıxartdı, neynədin arvadu?

Deyir:

– Bəs, apardım Quru dərənənin kənarında öldürdüm.

Deyir:

– Yaxşı, öldürdün, qayıtdın nə gördün?

Deyir:

– Öldürdüm, qayıtdım gördüm o var-döylətdən heş bir əsər-əlamət yoxdu. Elə qoyuf getdiyim cındır çoustan, hisdi qazan, qırıx təhnə, bir-iki də kəfrəm.

Deyir:

– İndi sən bildinmi sənin arvadın mələk cinsinnəndi? Onnan evlənəndə səə demişdi, deməmişdi?

Deyir:

– Demişdi.

Deyir:

– Bəs, sən şeytan sözünə niyə inandın?

Deyir:

– Vallah, nə bilim, çox peşman olmuşam. Da peşmançılıx bir fayda verməz. Neyniyim, əlacım nədi?

Deyir:

– İndi ki heylədi, həmən qız mənəm. Məni Allah öldürmədi. Allah o urzanı burda da mənə verdi. Həmən evim, həmən eşiyim, bir belə də taxıl-zad. Bunu mən yığmışam. Ölən günətən bu balıxçı mənim atamdı, arvadı mənim anamdı. Mən sizə elə cəza verərəm nətəri. Amma mən vermirəm: bir düzgün danışdığıza görə, bir də ərimin xatirinə. Mən ona söz vermişəm ki, sənnən ömür-gün çürüdəjəm. Onun xatirinə sizi öldürmürəm.

Buların yükün polnu tutur, yola salır. Oğlana da deyir:

– İndi madam ki peşmansan, buyünnən belə heş kəsin sözünə inanmadan mənnən ömür keçirməyə razısansa, qal yanımda.

Oğlan bunun əlinə-ayağına düşür, deyir:

– Peşman nədi, elə peşmanam ki. İsdiyirsən məni öldür, səni tərk etmərəm.

Qız bunu bağışdıyır. Yenidən kəbinnərin kəsdirir. Ömürrərinin axırınatan oturur burda, Allahın göndərdiyi ruzudan, nemətdən yeyif xoş ömür sürüf gün keçirillər. Olar yeyif yerə keçif mətləflərin hasil eliyif, muratdarına çatıllar. Siz də yeyin, devran sürün, muraduza çatın. Arzularuz yerinə yetsin. O bir qıza urza verən Allah-taala bizim də urzamızı heylə öz büdcəsinnən yetirsin. Şeytan əməlinnən Allah bizi qorusun. Heylə peyğəmbərlərin səmasını görməyi Allah-taala bizə də qismət eləsin (söyləyici salavat çəkir – top.). Nağılımız burda

bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narışın, biri də nağıl danışanın. Yerdə qalanı sizin.

## 5. ŞAH ABBAS VƏ HƏSƏN QARA

Şah Abbas fəxri-libas oluf məmləkəti gəzməyə çıxanda elan verirmiş ki, bütün şəhərdə işıx yanmasın, görüm mənim əmrimə tabe olmuyan varmı. Vəzir Allahverdi xan car çəkdirir bütün şəhərə ki, bəs bu gejə işıx yanmejax, şahın əmridi.

Şah durur gejə fəxri-libas olur çıxır. Şəhərdən qırağa çıxanda baxır görür bir imarət var, bax belə şah imarəti təki, burda işıx yanır. Deyir, vəzir Allahverdi xan, bir de görək bu nə olan şeydi, bu kimdi? Mənim niyə əmrimə tabe olmuyuf? Nəysə, xəlvətcə bular keçir, baxıllar, görüllər ki, burda heç kəs yoxdu. Çalmax, oxumax, oynamax səsi gəlir. Baxıllar ki, burda bircə dənə cavan oğlandı, bir dənə də gözəl qızdı. Taa bular bir nəşədədi, bir nəşədədi ki, vallah, qız çalır, oxuyur, oğlan oynuyur. Oğlan çalır, oxuyur, qız oynuyur. Taa bir kefdədilər ki... Vəzir Allahverdi xan deyir:

– Şah, girim buların nəşəsin pozummu? Bular sənin əmrivə tabe olmuyufdu.

Deyir:

– Vəzir Allahverdi xan, onların nəşəsin pozmax heç insafdan dəyil. Dəymə, qoy gözdüyək, görək axırı nə olajax?

Tay ki, bular o qədər gözdüyür ki, gejə yarıya gələndə bu oğlan deyir ki, mənim yuxum gəldi. Qız deyir, canım-ciyərim, gəl uzan, başu qoy dizim üstünə, yat. Oğlan gəlir uzanır, başın qoyur qızın dizinin üstünə. Qız bunun telini sığallıya-sığallıya bu yuxuya gedir. Yuxuya gedən təki, qız durur bunun başın qoyur yerə, göydən xançalı alır, iki dəfə qıjanır bunun üstünə, görür bu gerçəkdən yatıb, elə bil daşdı. Üçüncü dəfə bunun burdan boğazın kəsir. Gətirir nəşinin üstün örtür, kəlləsin qoyur

qızıl məcməhiyə, üstünə qızıl örtük salır. Bir məcməhi də yeməh-işməh, aş, plov götürür. Vəzir Allahverdi xan deyir:

– Şah, girim bunun cəzasın verim?

Deyir:

– Yox, dayan Vəzir Allahverdi xan. Bunu izdiyək, görək bunun axırı hara çıxajaxdı? Nə üçün bu oğlannan sabahdan oynadı, güldü kefnən-damağnan? Bunun başını niyə kəsdi? Bunun səbəbini bilək.

Görür ki, qız bu kəlləni də götdü, bu biri məcməyidəki aşı da götdü, aldı başına, çıxdı şəhərdən. Bunu qarabaqara izdiyillər. Görüllər ki, tamam şəhərdən çıxdı, getdi girdi bir qəbirsannığa. Qəbirsannığın bir tərəfinnən yeddi qəbir sanadı, səkkizinci qəbirin üstünnən sinə daşın belə qalxızdı, girdi bu qəbirin içinə. Bular da bu gedənnən soora gəlillər daşı qalxızıllar, görüllər ki, nə? Bu qəbirin içinə pilləkən yenir. Bular da səssiz-küysüz buraynan yenillər. Görüllər ki, bura böyük zirzəmidi, tuneldi. Birəz gedillər, görüllər qapı açılır. Neçə qapı açannan soora görüllər ki, burda nəsə çalmax, oxumax səsi gəlir. Gəlib pusullar yavaş-yavaş, baxıb görüllər ki, nə! Bura qırx həramilərin məkanıdı. Burda, vallah, oxumax, oynamax, yeməh-işməh, bir kef-damağ var ki, gəl görəsən. Bir dənə də yekə bədheybət qara həraminin biri oturuf taxtın üstündə baş tərəfdə, qılçasın aşırıb qılçasının üstünə, taa məlül-müşküldü. Bu qız girdi qapıdan, yavaş-yavaş gəldi bu mejmahını qoydu bu hərami başçısının qabağına. Bu hərami başçısı heç qayıdıf qızın üzünə baxmadı. Bu qız başdadı buna yalvarmağa:

– Ağa, bəs rəhmin gəlsin, vallah, neyniyim, əmim oğlu yatmırdı, indicə yatırtmışam. Əmim oğlunu yatırdıf gəlmişəm, amma birdəfəlik gəlmişəm, bir də getmiyəjəm, – deyəndə, deyir bu başını belə qalxızdı, dedi:

– Necə getmiyəjəm?

Qız dedi ki, ağa, əmim oğlunu birdəfəlik öldürdüm, kəlləsin də səə gətirmişəm. O, bir də bizim kefimizə mane olmujax. Həmmişəlik, gejə-gündüz sənin yanında qalajam. Deyəndə, həramibaşı qalxdı oturdu, dedi, gətirin görüm o oğlanın başın. Bu oğlanın başı olan məcməhini gətirib örtüyü götürəndə, bu həramibaşı baxdı ki, bu oğlan bir oğlanımış ki, buna heç Azreyıl qıymazımış. Deyəndə, deyir, qalxdı, qıza bir şapalax vırdı. Dedi:

– Çəpəl, sən nə hədnən bu cür oğlanın başın kəsmisən? Bu cür oğlanın başın kəsən, məni tikə-tikə doğruyar. Sənnən məə məşuqə olmaz.

Əmr elədi quldurrarına. Bunu da Şah Abbasnan Vəzir Allahverdi xan gözüynən görür, şahidi olur. Dedi:

– Aparın bunu tikə-tikə, bənd-bənd doğruyun, belə kadınnarın yaşamağına dəyməz. Bənd-bənd doğruyun, tökün bunu zirzəmidə bir quyuya ki, heç bunun məzarı da olmasın. Gedif həmin oğlanın da meyidin gətirin, kəlləsini üstünə qoyuf aparıf dəfn eliyərsiz.

Bunun adamları çıxdı getdi, həmən oğlanın nəşini gətirdi, başın qoydu üstünə, onu el adətiynən yudu, kəfənnədi, apardı qəbirsannığın yaxşı bir yerində basdırtdı. Gəldi əmr verdi ki, qırx gün mənim məkanımda eyş-işrət olmujax. Bu oğlanın qırx gün yasın saxlıjeyih.

Bunu Şah Abbas gözüynən gördü. Dedi:

– Vəzir Allahverdi xan, gedək.

Gedir, səhər ertə qırmızı geyinib taxtına çıxır. Deyir:

– Vəzir Allahverdi xan, yaraxlı-yasaxlı bir dəstə götür, get o qırx həramini tut gəti.

Vəzir Allahverdi xan durur, bir dəstə yaraxlı-yasaxlı adam götürür, gedir həmən tunelə girir, buları tutur gətirir. Gətirəndə deyir ki, de görüm sən kimsən, nəçisən, nə karasan, ora haradı, sənin orda nə işin var? Deyəndə deyir ki, şah sağ olsun, mən qırx ildi hərami başıyam. Olar da mənim adamla-

rımdı. Elə gündüz orda-burda çapıram, talıyıram o şəhərdən, bu şəhərdən, əlimə keçən qəniməti gejə aparıram, yeyirəm, içirəm, kef eliyirəm. Yurdum yox, yuvam yox. Elə-belə sərgərdan devran sürənəm. Dedi:

– Düzün denən, bəs dünən gejə sənin məkanında nə hadisə baş verdi? – deyəndə, bu danmır. Nejə ki, mən demişəm, o qaydada danışır. Deyir ki, şah sağ olsun, mən bir gün atdılarımnan keçəndə gördüm bir imarətin külafirəngisində bir gözəl qız var. Bu qız məni görəndə məə yaylığ salladı, məni çağırdı yanına ki, bəs mən səə aşiq oldum. Mən bilmirdim siftə, daldan bildim ki, qız əmisi oğluynan evlidi. O günnən qız hər axşam helə əmisi oğlun yuxuya verif, gəlif mənnən sübh açılana qədər kef eliyərdi. Həmən gün də bizim əlimizə bir yaxşı yerdən çoxlu qənimət düşmüşdü. O qənimətin hesabına biz şadyanalıx təşkil elədik ki, əlimizə çoxlu mal, pul düşüfdü, bunun bir kefin çıxardax. Mən də qıza xavar verdim ki, bu axşam bizim kefimiz olajax, tez gəl. Qız da gej gəldi. Gələndə də, həmin qaydaynan əmisi oğlun öldürdü. Mən də o qızı doğratdım, tökdürdüm quyuya, oğlanı da dəfn elədim filan qavırsannığın filan yerində. Deyəndə, deyir ki, mən olların hamısın beyjə gözümnən görüf şahidi olmuşam. Mən eləmədiyim işləri sən elədin. Sağ ol. Mən helə cəza verməzdim, amma sən qızın cəzasını helə verdin. Bu günnən filan kəndin darğalığın saa verdim, məsəlçün, Afşar kəndin səə bağışdadım. Onun darğalığı sənindi. Azadsan. Azad yaşa, taa gizdənmə. – Bunnan da qavax Şah Abbasın öz kadını özünə xəyanət eləmişimiş, öz vəziriynən gəlib onu bir yerdə görüb boynun vurdurmuşdu. – Şah Abbas bunu deyənnən soora Vəzir Allahverdi xanı çağırdı, dedi:

– Bütün dünyada kadın qisminin cinsi kəsilməlidi. Kadın qisminə mən inanmadım da.

Vəzir Allahverdi xan deyir ki, Şah Abbas, dur gedək gəzək, dolanax.

Durur, nəysə, Vəzir Allahverdi xan Şah Abbası götürür, gedir. Dəniz qırağında görüllər ki, bir dənə ağaj var. Deyir, şah, burda oturax, bir az kölgələnək. Bular burda oturuf kölgələnəndə, Vəzir Allahverdi xanı yuxu tutur, Şah Abbası yuxu tutmur. Bir də görür ki, dəniz təlatümə gəldi. Bu dənizdən bir dənə dev çıxdı, çiynində bir dənə sandıx, gəldi oturdu bu ağacın divində. Sandığı açdı, içinnən bir dənə alma çıxartdı. Bir əfsun oxudu, bu alma oldu bir qız. Bu qıznan bu dev burda kefdə-damağda, nə qədər oynadılar, güldülər. Axır-axırı dev dedi, mənim yuxum gəlir. Dev başın qoydu qızın dizinin üstünə, yuxuya gedən təki qız devin başın qoydu yerə, bir əfsun oxudu, devi bərk yuxuya verdi. Durdu sandıxdan təkrar bir alma çıxartdı, bir əfsun oxudu, bu almanı bir oğlan elədi, başdadı bu oğlannan kefə-damağa. Taa ki, gün batana qədər. Gün batanda genə əfsun oxudu, oğlanı alma elədi. Özü də oturdu, devi yuxudan oyatdı. Dev oyandı, genə bir əfsun oxudu, qızı elədi alma, qoydu sandığa. Sandığın ağzın kilitdədi, atdı dənizə, özü də girdi dənizə. Şah Abbas dedi, bunu da gördüm, taa dünyada kadın qisminə nicat yoxdu. Gör, alma eliyif bunu dənizə atıf, genə də kadın öz bildiyin işdədir. Əmrim əmrdi, Vəzir Allahverdi xan. Kadın qismi olmujaxdı. Özü də bütün məmləkəti dolanarsan. Hər axşam bir dənə qız uşağı gətirərsən mənim hərəmxanama. Mən onnan səhərə qədər kefdə olajam, səhər açılanda onun boynu vurulmalıdı. Şah əmridi, verilib, yerinə yetirilməlidi.

Şah Abbasın atasının Həsən Qara addı bir dənə köhnə vəziri varımış. Daa bu qojalıf vəzirrihdən çıxıf, dağın divində bir məkan quruf özü üçün yaşıyırmış. Bunun da bir dəlibaş oğlu varmış. Çox yekəpər, belə qüvvətdi, zorru bir oğlanımış. Helə yaranannan ancaq qoyunun, malın dalına düşüf. Bir çomağı varmış ki, min put bunun topbuzun ağırrığı varımış. Deyir, gamışın belinə vırsan, gamışın belin qırarmış. Bu da qonşuluxda gözəl bir qıza aşiq olmuşumuş. Adı da Hüseyn imiş.

O qədər zorba imiş ki, adına Hüseyn Kürdü deyirmişdər. Deyir, arvatdar qarğış eliyəndə deyirmişdər ki, səni Hüseyn Kürdünün çomağına düçar gələsən. Belə bir qammaz adammış. Bu da hər səhər tezdən qoyunu aşmamışdan qavax gedif sevgilisinnən görüşüf, gəlif gedərmiş. Bir də hər axşam gələndə, qoyunu salmamış gəlif sevgilisinnən görüşüf, soora qoyunu rahat eliyif, gəlif oturuf çörək yeyərmiş.

Bu əmr gəlir bu qıza da çatır. Çatanda qız məlül-müşkül olur ki, mən bu qədər sevdim, bir-birimizə qovuşmamış şah məni aparajax, məni də öldürəjəh. Bir gün tezdənnən məlül-müşkül oturanda, Hüseyn Kürdü tezdənnən durur, gedir sevgilisinnən görüşməyə. Gedəndə görür ki, bəs sevgilisi məlül-müşküldü, qəm dəryasına batıf. Deyir:

– De görüm nədi?

Qız özü bilirmiş ki, sevgilisi qammazdı. Deyən təki, gedəjəh şahın yanına. Buna istiyif demiyə. Çox məjbur eliyif. Deyif:

– Yox, olmaz, deməsən keçmiyəjəm.

Deyif ki, bəs belə-belə. Şahın belə bir qəralı var. Deyəndə Hüseyn Kürdü deyif ki, o Şah Abbasdı, nədi, vallah, gedif onun təpəsinə bir çomağ vurajam, taxtı özünə qarışsın, özü də taxtına. Deyəndə qız buna yalvarır, yapışır. Bilir ki, bu nə desə elijək. Şah da bunu öldürər. Bu gedib şahnan müharibəyə girən deyil a. Deyir ki, atan ağsakqal kişidi, şahın yanında hörməti var. Get qavaxcadan bu sirri ataa de. Bəlkə atan gedər şahı bu qərəlindən dəyişdirər. Əgər şah bu qərəlinnən dəyişməzsə, gedib bildiyü eliyərsən. Bu, bunun ağlına batır. Gəlir atasının yanına. Deyir ki, ata, nətəər olur olsun, şahın belə bir qərəli var, gedərsən büyünnəri şahı qərəlinnən daşındırarsan. Daşındırmasan, mən gedəjəm, and olsun Allaha, o şahın təpəsinə bir dənə ağaj vurajam, özü taxtına qarışsın, taxtı torpağına. Mənim sevgilimin heç kəs qəlbin qıra bilməz.

Atası deyir:

– Yaxşı, oğul, sən get, mən gedib o şahı başa salajam.

Bu durur qoyunun, sürüsün haylıyır, çıxır dağlara. Bu Həsən Qara durur fəxri-libas geyinir, gedir Şah Abbasın yanına. Şah Abbasa deyillər ki, bəs Həsən Qara sənin yanına gəlib. Gəlir. Xoş gəlmisən, beş gəlmisən. Bəs sən indiyətən bizi yaddan çıxartmısan. Sən mənim atamın ən istəhli, ən başarıxlı vəziri olmusan. Niyə gəlmirdin?

Deyir:

– Vallah, nə bilim, şah sağ olsun, qojalmışam, gəlif-gedə bilmirəm. Nəsə, indi bir işim düşüf, – deyəndə deyir ki, Həsən Qara, nə üçün gəlmisən, gözüm üstə, başım üstə yerim var. Amma mənim bu kadınnarı öldürməyimə görə gəlmisənsə, o barədə heç ağzu açma. O qərəlim qətiyyən pozulmazdı. Deyəndə, deyir:

– Şah, mən səə qərəlinnən dön demirəm, amma səə bir söhbət eliyəjəm, mənim bu söhbətimə dəqiq-dəqiq qulağ as. Əgər onnan soora genə qərəlu dəyişməsən, dəyişmərsən. Mən səə demirəm, qərəlu dəyiş. Mən kiməm, səə deyim qərəlu dəyiş.

Deyir:

– Yaxşı.

Deyir:

– Şah sağ olsun, bir zamannar sənin özün də varıdın, bilirdin. Sənin atanın hər gejə bir vəziri yoxa çıxdı. Bu vəzirrərin nejə olduğun, öldüyün, qaldığın, kim apardığın heş kəs bilmirdi. Ta otuz dokquz vəzir yoxa çıxdı helə. Axırıncı – qırxıncı vəzir mən idim ki, bir gejə mənim də darvazam döyüləndə, mən qalxdım ki, çıxam, arvad kəsdi qapıda qavağımı ki, a kişi, kişi qapıdan belə çıxmaz. Bu alt tuman-köynəynən hara gedirsən? Qapıdakı, bəlkə, bir zənəndi, ya hər kəsdi, sənin darvazanı döyür. Al, libasu geyin, onnan soora get. Arvad məni məjbur elədi. Fikirrəşdim ki, arvad düz deyir. Lazımı paltarımı geyindim, kəmərimi qurşayıf çıxanda, arvad dedi ki, ay kişi, kişi evdən kişi kimi

çıxar. Arvad təki çıxmaz. Al yarağu, qılıncu da götü, qalxanu da götü. Yarağ-yasağu bağla, çıx. Dedim, ay arvad, darvazadı də. Dedi, a kişi, bəlkə, darvazadakı sənin düşmanındı. Deyəndə, ağlıma gəldi ki, ə, düz deyir, hər gejə bir vəzir yoxa çıxır, bəlkə, bu da olardandı. Mən bu gün sağ olmağıma görə arvadıma boşduyam. Arvad məjbur elədi, qılıncımı, qalxanımı, yarağ-yasağımı geyindim, qapıya çıxanda gördüm arvad atımı yəhərriyif qapıda hazırdı. Deyir, dedi, kişi, atı min, çıx. Dedim, ay arvad, darvazaya çıxıf bəri gəlirəm. Dedi, vəzirsən, xəlifə vəziri kimi çıx darvazaya. Nəysə, arvad məjbur məni ata mindirdi. Darvazaya çıxanda gördüm bir dənə yarağlı, yasaxlı cavan oğlandı. Pəhləvan cüssəlidi, duruf burda. Başında dəbilqəsi, qolunda qalxanı, qılıncı. Salam verdim, salam aldı. Bu elə bil məni tanıyırmış. Həsən Qara, xoş gördük, bu gejə məə yoldaşsan. Deyəndə, dedim, nə deyirəm, yoldaşam, yoldaşam. Gedək.

Bu atın başın çöördü, düşdü yol getməyə, mən də bunun arxasıncan. Bir az gedəndə şeytan məni dağdağa verdi ki, ə, elə bizim vəzirrəri yaqın bu aparıb. Görüm bu kimdi? Mən də cavan vaxtı çox qüvvətdi, yenilməyən adam idim. Özümə güvəndim, dedim, elə bunu tutum, elə bizim vəzirrəri öldürən budu. Daldan qəfil cumdum, bunun iki qolların arxadan belə tutanda, bu heç qayıdıb üzümə də baxmadan, nətəər zərbə vurdusa, onun atının ayağının altında arxası üstə çırpıldım yerə. Özü hoppandı, çökdü sinəmə. Dedi, Həsən Qara, mən sənnən heç zad istəmirəm, mənnən də səə bir ziyan gəlməz. Bircə gejəlik məə yoldaş lazımdı. Bir işim var, o işimi görənə qədər məə yoldaşdıx, himayədarrığ eləməlisən. Əyər gəlirsən gəl, yox, belə qorxaqlığ eliyəjəhsənsə, qayıt geri. Deyəndə bunu mən öz şanıma sığışdırmadım, dedim, yaxşı, gedək. Durdum, dinməz-söyləməzcə toz-torpağımı çırpdım, mindim atıma, düşdüm bunun arxasına. Bu tamam şəhərdən çıxdı, girdi bir meşiyə. Bu meşiyə girəndə məni şeytan bir də dağdağa elədi

ki, ə, bu məni öldürməyə aparır. Mən ağandaraz ölumə nəyə gedirəm bunun arxasıncan? Arxadan bir də qılıncımı çəhdim, atıma həmlə elədim ki, sürətnən gedim, bunu vurum yaralıyım. Bu elə bil məni arxadan görürmüş. Nətəəri əlin atdısa, qolumu göydə tutdu, nətəəri sıxdısa, əlimnən qılış düşdü yerə. Məni genə aldı çırpdı yerə. Məni dik qalxızdı başı üzərinə, dedi, indi səni yerə vuraram, parça-parça olarsan. Sən düz deyirsən, sizin vəzirrərin hamısı mənim güdazıma gəlib. Sizin vəzirrər hamısı alt paltarında çıxıb mənim qarşıma. İndi aparıf görkəzəjəm sənin vəzirrəru. Ancaq bircə kişi kimi sən çıxmısan, sən də kişi kimi sözün arxasında dur, məə beyjəlik yoldaşlığ eləməlisən gün çıxana qədər. Onnan soora azadsan. Deyir, axırı mənim əlacım kəsildi. Baxdım gördüm ki, nə buna güjüm çatandı, elə pənah Allaha dedim, düşdüm bunun arxasınca.

Nəsə, gəldik meşənin lap dərinniyinə girəndə gördük nə? Bir talada bizim vəzirrərin otuz dokquzun da ağ tuman-köynəkdə öldürüf, leş-leşə yığıf bura. Dedi:

– Görürsən, Həsən Qara, bax, sizin vəzirrər bu sifətdə mənim qarşıma çıxıf, bu sifətdə də mən buları öldürmüşəm. Məə bircə günortaya qədər yoldaşdıx lazımdı. Mənim bir düşmanım var. O düşanımnan qisas almağ üçün məə yoldaşdıx lazımdı. Dedi ki, yaxşı, indi burda yatax, beyjə dincələh, sübh tezdənnən duruf gedəjeyih.

Gejəni mən orda qarool çəhdim, o, bir az yatdı, dincəldi. Sübh tezdən gün çıxanda genə qalxdı. Dedi:

– Həsən Qara, gəl.

Mindik atımıza, çıxdıx meşədən. Gedəndə gördüm ki, bir qəlbi yalın başında böyüh bir qalaça var, böyüh bir imarət görsənir. Dedi, Həsən Qara, görürsən o qalaçanı? Mənim düşmanım ordadı. İndi sən burda dur, ala mənim atımı saxla, mənim bu xurcunumdakı hamısı dolu puldu, qızıldı, ləli-cəvahiratdı. Gözdə məni. Özüm tək getməliyəm. Məə kömək, qoşun-

ləşkər lazım dəyil. Mən düşmanımnan tək qisas almalıyam. Sən burda dur, məni gözdə. Əgər günortaya qədər mən gəldim, gəldim. Gəlmədim, bu qızıl, da götür, get. Taa sən mənim dalımcan gəlmək fikrinə düşmə. Mən gedəjəm, birinci barıdan aşanda bir nərəm gələjəhdi. Səsim gəlsə, bilginən ki, mən düşmanımı tapdım. İkinci nərəm gələndə, bilginən ki, mən düşmanımnan davaya girişmişəm. Üçüncü nərəmi tən günortaya qədər gözdə. Üçüncü nərəm gəldi, bilginən ki, mən düşmanımı məğlub elədim. Onda məni gözdə, yox, üçüncü nərəm gəlməsə, günortadan soora məni gözdəmə. Bilginən ki, düşmanım məni öldürdü. Onda bu at da, bu qızıl da halalın olsun, götü, çıx get. Taa mənimki bura qədərdi.

Nəysə, bunnan vidalaşdım, mən durdum burda gözdədim. Bu kəndirin də götürdü getdi. Bu getdi nizəsin atdı, qalanın başına bənd elədi, kəmənd atdı, dırmaşdı çıxdı kəməndnən. Qalanı keşdi o üzə. Bir az keçmiş gördüm bunun bir nərəsi gəldi. Gələndə dedim, hə, düşmanın tapdı. Bir-iki saat keçmiş ikinci nərəsi gələndə, dedim, hə, deməh bular davaya girişdilər. Allaha yalvardım, buna kömək dilədim. Dedim ki, bu düşmanını məğlub eləsin, gəlsin. Gün tən günortaya gələndə gördüm bunun üçüncü nərəsi gəldi, sevindiyimnən Allaha şükür elədim. Bildim ki, bu düşməninə qalib gəldi. Bir də gördüm ki, barının başınnan şəlpə bir mişoxda bir şey atdılar. Soora da həmən bu adam kəndirnən keşdi, düşdü bu üzə. Torbasını da aldı, gəldi yanıma. Gələndə torbadan belə eliyif başı salanda, gördüm bu bir bədheybət dev başıdı. Bu devi görəndə mənim tühlərim biz-biz durdu ki, gör bu nejə pəhlivanımış ki, bu boyda devi öldürüfdü. Bu nejə pəhlivandı, bu nejə qüvvə sahibidi? Deyəndə dedi, ey Həsən Qara, mənim düşmanım bax bu idi. İndi mən düşmanımı öldürdüm, qisasımı aldım. Taa bu günnən belə sənin məə, mənim səə ehtiyacım yoxdu. Götü çıx get, mənnən işin yoxdu. Deyəndə, deyir mən atı da götürdüm,

gəldim girdim meşiyə. Dedim, yox, bu, devi öldürüf öldürüf, bu başı hara aparajax? Atı da məə verdi, var-yoxunu da. Bunun fikri, xəyalı nədi? Qayıtdım, bunu izdiyə-izdiyə düşdüm bunun qarabaqara dalına. Gördüm bu həmən kəlləni də götdü, atdı çiyninə, düzü-biyabannıxnan getdi, getdi, bir təpəçənin başına qalxdı. Mən də yavaş-yavaş, orda-burda, çala-çuxurda gizdənə-gizdənə bunu izdədim. Gəldim, gördüm bu təpənin lap başında bir dənə sərdabə var. Bu kəlləni də götdü, getdi girdi sərdabəyə. Girənnən soora mən də yavaş-yavaş gedif sərdabənin pəncərəsinnən belə baxanda, gördüm burda bir həzin-həzin kadın ağlamağının səsi gəlir. Yanığlı-yanığlı ağlıyır. Nəysə, baxdım, gördüm ki, həmən bu mənim yoldaşımdı. Burda bir dənə qəbir var. Devin başın qoyuf qəbirin əyağ tərəfinnən, özü də duruf qəbirin baş tərəfində həzin-həzin ağlıyır. – "Əmioğlu, mənim indiyə qədər yaşamağımı sən məə nöqsan tutma. Mən sənnən ayrı yaşamıyajam. Mənim yaşamağımın səbəbi oydu ki, sənin qanu almaq. Sənin qanu aldım, bu günnən soora məə yaşamaq haramdı. Mən də gəlirəm sənin yanına". Bu belə deyə-deyə ağlıyır. Amma bu kadın səsiynən ağlıyır. Məhətdəl qaldım ki, bu nejə incə səsdi. Bəyaxdan mənnən danışan səs dəyil, bu nejə incə səsdi. Səs kadın səsidi. Bu, nejə olan şeydi? Gəldim, pusa-pusa lap qapının qavağında durdum.

Nəysə, bu tamam ağladı, sözün bitirənnən soora qılıncın belə yerə qoydu, özün belə elədi ki, qılıncının üstünə yıxıla, özünü qətlə yetirə. Mən tez gizdəndiyim yerdən çıxdım, qılıncı əlimnən vurdum belə saldım. Bunu belə eliyəndə bunun başınnan dəbilqə düşdü, saçlar açıldı, töküldü topuğa qədər. Baxdım gördüm nə? Bu gözəl bir kadınımış. Ay Allah, kadında bu qədər cəsarət olarmı, bu qədər qüvvət olarmı? Qeyrət olarmı? Mat-məhətdəl qaldım. Bu mənə dedi, ey Həsən Qara, səə demədimmi çıx get? Mən bu sirri özümnən qəbirə aparajeydim. Sən niyə mənim sirrimi aşdın? Deyəndə dedim, ey zənən, hər

kəssənsə, sirru mənə de görüm, sənin sirru mən bilim. Bu nə cəsarətdi, səndəki qüvvət, səndəki cəsarət nədi? Heç şahın bir qoşunu bu devin öhdəsinnən gələ bilməz, sən tək-tənha bunun öhdəsinnən nejə gəldin? Bu, nə sirdi? Bu qəbir nədi? Deyəndə dedi, ey Həsən Qara, madam ki, mənim sirrimi sən örgəndin, mən and içmişdim ki, bu sirri özümnən qəbrə aparajam. Örgəndin, indi qulağ as, gör mənim sirrim nədi. Bəs bu qəbirdə yatan mənim əmim oğludu, biz lap körpəlikdən bir yerdə böyümüşdük, bir yerdə bir-birimizi sevmişdik. Ta ki, on səkgiz-on dokquz yaşına, həddi-bulux vaxtımıza çatana qədər helə oldux. Daldan əmim oğlu getdi atamdan izin aldı, bizim toyumuzu elədi. Mən toy günü bəy otağına gələndə, əmim oğlu gəlib mənim duvağımı aşmamışdan darvaza qəfil döyüldü. Əmim oğlu dedi, bircə dəyqə məni gözdə. Elə məni o qaydada qoydu, çıxdı darvazıya. Nə qədər gözdədim, əmim oğlu gəlmədi. Taa səbrim tükəndi. Gejə yarıdan keçənnən soora səbrim tükəndi, durdum gəlinnik paltarımı soyundum, əmim oğlunun paltarını geyindim, darvazıya çıxdım ki, görüm əmim oğlu nejoldu? Bunun, bəlkə, ayrı sevdiyi var, ayrı gedəjək yeri var. Nə üçün məni qoydu getdi? Bəy otağında hələ biz əl-ələ verməmişik, mənim duvağımı aşmamış hara getdi? Deyir, belə çıxanda gördüm darvazanın ağzında əmim oğlunun başın kəsif aparıflar, nəşi qalıf orda. Əmim oğlunun nəşin götürdüm, gətirdim evə. Getdim atasının-anasının yanına ki, deyin görüm əmim oğlunun düşmanı kim imiş? Kimdi ki, bunu xəlvətcə gəldi öldürdü? Deyəndə, atası, anası dedi ki, ey qızım, sənin əmin oğlunun qırx həramilərnən iddiası var. Neçə dəfə olar gəliflər oğlumu öldürməyə, oğlum yaraxlı-yasaxlı çıxıf olara fürsat vermiyif. İndi demək oğlum sənnən utanıf yarax-yasax götürməyə. Əliyalın çıxdığına görə, düşmən fürsat tapıb onun başın kəsif. Deyir, bunu mən örgəndim harda olub, harda olmadığını. Nəysə, o günnən bəri əmim oğlunun bir dəst pal-

tarın geyindim, əmim oğlunun qılıncın, qalxanın götürdüm. And içdim ki, əmim oğlunun harda olsa, başın tapıf gətirif onu dəfn eliyəjəm. Getdim xəlvətcə qalaçıya girdim, əmim oğlunun başın o qalaçadan tapdım gətirdim. Öz üstünə tihdim, əmim oğlunu bax burda dəfn elədim. Onnan da bu qəbirin üstündə əhd eləmişəm, and içmişəm ki, düşmanı öldürməmiş ölmüyəjəm. Sənin düşmanı öldürənnən soora yaşamıyajam. İndi həmən əmim oğlunun düşmanını öldürdüm. Bu günnən belə mənim yaşamağım ehtiyac dəyil. Mən indi öləjəm. Mənə niyə mane oldun? Boşda məni, mən də ölüm.

Həsən Qara deyir, mən bu qıza yalvardım, yapışdım, ay qız, sən əmin oğlunun qannısın öldürdün, qanın aldın. Lap öldün getdin, əmin oğluna nə xeyri var? Gəl sən razı ol, mən sənnən evlənim, həyatu sür, taa sən əmin oğlunun qanın almısan, sənin arzun qalmıyıf. Deyəndə, qız çox fikrə gedir. Deyir, ey Həsən Qara, madam ki, sən mənim sirrimi bildin, yaxşı. Mərd adamsan, mən sənnən evlənəjəm. Mən həmən qızı gətidim, onnan evləndim. İndi həmən qızdan da mənim bir oğlum olub: çox qoçağ, cəsarətdi. İndi onun nişannısı belə-belə sözdər eşidif, bəs o bir az qammaz adamdı. Bəs mən onun xayişiynən gəlmişəm səə xayiş eləməyə. İndi, ey Şah Abbas, helə vijdansız kadınnarımız varsa, belə vijdannı, mərd kadınnarımız da var. Helə kadınnarın üzünnən bütün kadınnarın kökün kəsmək olmaz. Birinci dərəcədə mənim öz arvadım mənim həyatda qalmağımın səbəbi oluf. Mən də alt paltar-tumanda çıxseydim, məni də aparıf orda öldürərdi. Mənim arvadım qoymadı. Mən kişi sifətində, yaraxlı-yasaxlı çıxdım, ölmədim. İkinci dəfə də o kadının şahidi oldum ki, ölüf-gedən əmisi oğlunun yolunda canın qurban verifdi. Onun getdi qanın aldı. Belə qeyrətdi kadınnarımız da var. Deyəndə, Şah Abbas dedi ki, ey Həsən Qara, sənin bu söhbətin məni çox ayıltdı. Madam ki, helə deyirsən, mən taa bu kadınnarı öldürməhdən vaz keçdim.

Bunnan da Şah Abbas bu qərəli bağlıyır, kadınnarı öldürməkdən qutarır. Şah Abbas Həsən Qaraya deyir, sənin oğlun toyun özüm öz əlimnən eliyəjəm. Onun da toyun öz əliynən eliyir. Olar da muraddarına çatır.

## 6. SARI DONLU QIZ

Deyir ki, bir ölkənin bir padşahı olur. Padşahın da vəziri olur. Vəzirin bir gözəl qızı olur, həm qız çox gözəl olur, həm də oxumuş, savatdı qız olur. Bu qıza ta hər tərəfdən elçi gəldikcən bu qız elçilərin hamısın rədd eliyir. Deyir, kim mənim əlimə su töksə, mən o oğlannan evlənəjəm. Mənim əlimə su tökməyən oğlannan mən evlənmiyəjəm. Bunun sorağı gedir həmən bu padşahın oğluna da çatır. Deyir ki, bu, nətər şeydi, belə şey olar? Mən padşah oğlu ola-ola gedib o qızın əlinə su tökmüyəjəm, özü də o qızı mən alajam. Padşahmış da, məjburi surətdə vəziri çağırır, deyir:

– Vəzir, bu qızınnan mənim oğlum evlənməlidi.

Bu oğlan da bu qızı heç üzbəsurət görməmişmiş ki, bu qız ağdı, qaradı, dəlidi, ağıllıdı. Elə adın eşitmiş imiş ki, bu qız deyir mənim əlimə su tökmüyənnən mən evlənmiyəjəm. Bu oğlan burda interes eliyir, deyir, nətər olur-olsun onunla evlənəjəm. Oğlan gedir məjburi surətdə toy eliyir, padşah gedir gəlini gətirir evinə. Oğlan həmən gejə qız evinə gələndə qız buna qəti rəy vermir, deyir olmaz. Qapını üzünə açmır. Deyir, əlimə su tökməsən mən sənnən bir yastığa baş qoymaram. Oğlan nə qədər bunu hədəliyir, döyür, qorxudur, deyir olmaz e, mənim əhdim var. Əlimə su tökməsən sənnən evlənmərəm, bir yastığa baş qoymaram. Deyəndə oğlan qəzəblənir, evin içində bir quyu qazır, bu qızı salleyir bura. Gündə hər səhər ertə bir cürdək su, bir tikə də çörək verir. Deyir:

– Qız, indi razısan mənnən evlənməyə, səni quyudan çıxardım?

Qız deyir:

– Yox! Əlimə su tökürsənsə, razıyam, tökmürsənsə, yox.

Oğlan deyir:

– Yox.

Bunun suyun-çörəyin verir, çıxır gedir kefində, gəzməyində. Bu qız qalır bu quyunun dibində. Fikirrəşir ki, – çox oxumuş ağıllı qızımış, – neynim, nətər eliyim, bu quyunun dibində nə vaxtatan qalaram? Deyir, hə, bir plan tapdım. Mən bu plannan bu oğlanın gör başına nə oyun açajam. Bir sabah-ertə oğlan gətirif suyu-çörəyi verəndə deyir:

– Nətərdi vəziyyətin?

Deyir:

– Nətər olajam? Burda qalmışam quyunun divində bir tək adam, hava yox, işıx yox, nejə ola bilərəm? Heç olmasa məə bir şey ver, onnan başımı qatım.

Deyir:

– Nə istirsən?

Deyir ki, bəs məə bir külüng ver, bir çəkiş, bir torba ver, heç olmasa burda – quyuda evcikdən-zaddan qayırım, özümçün bir məşğulat olsun. Bu oğlan da o dərəcədə fikirrəşmir. Deyəndə gətirir quyuya bir torba, bir külüng, bir dənə də çəkiş sallıyır. Deyir, ala, burda başını qat, mən getdim. Özün bil, irazılıx verənə qədər mən səni burdan çıxartmeyjam. Bunnarı verəndə qız planlaşdırır ki, məsəl üçün, mənim atamın evi hardadı, padşahın evi hardadı. Hareynan lağım atsam, qazsam gedif atamın evinə çıxaram. – Qızdakı elmə bax. – Yerin altında – quyuda planlaşdırır, lağımı atır, quyunun diviynən düz gedir, anası mətbəxdə yeməy pişirdiyi yerdə bir də görür, bıy, ay Allah, bu nəyidi, yer tərpəndi, zəlzələ oldu. Bir də görür bıy, quyudan qızı çıxdı.

– Ay qızım, bu nədi? Bura hara, sən hara?

Qız başına gələn əhvalatı deyir.

– Nənə, dinmə, belə bir iş var. İndi mən oğlanın başına oyun açajam. Buyünnəri dümqırmızı ipəkdən eyni vəziyyətdə qırx dənə qız topala, hamısına paltar tik, qızılgül bağın bəzə, hər tərəfə də car çək ki, buyünnəri qızılgül bağına qızım səyahətə gedəjəhdi. Qoy hamı bunu eşitsin, padşahın oğlunnan belə. Bu zakazın burdan verir, qayıdır gəlir gənə quyuya. Oğlan gəlir axşam:

– Hə, qız, ala bu suyun, bu çörəyin. İcazə verirsən səni çıxardım?

Deyir:

– Yox! Əlimə su tökürsən çıxım, tökmürsən yox.

Oğlan gənə bunu quyuda qoyur, çıxır gedir işin dalıncan. Anası durur tezdənnən qırx qızı yığır, qırmızı paltar tikir. Eyni vəziyyətdə hamısın bəzəndirir-düzəndirir, qızılgül bağın qəşəng bəziyir-düzüyür, çalmax, oxumax, oynamax. Bu padşah oğlu da eşidir ki, bəs buyün gül bağında qız yığıncağı olajax. Deyir, elə gedim həm bunlara baxım, həm də görüm elə bir gözəl qız olsa, elə onnan evlənərəm. Nə vaxtatan o quyudakı qıznan günümü keçirəjəm, o da cəhənnəm, orda ölsün qalsın.

Bu qız elə özü qəsdən qızdarın hamısın başına yığır örgədir ki, vaxt olajax o oğlan bura gələjəhdi. Sizi dağıdajam, gedin. Əlimi palçığa batırajam, çağırajam, a qızdar, gəlin əlimə su tökün. Gəlmiyin. Görək bu oğlan mənim əlimə su tökəjəh, tökmüyəjəh. Oğlanı sınamağ üçün.

Nəsə, bular yeyillər-içillər, çalıllar, oxuyullar, oynuyullar deyəndə bu qız deyir ki, icazə verirəm, gedin gəzin dolanın, mən də yorulmuşam, bir az dincələjəm. Tamam qızdarı başınnan dağıdır, özü durur qəsdən belə gedəndə, su arxı varmış, qəfil elə bil sürüçür əlin salır palçığa. Çığırır:

– Ay qızdar, ay qızdar! Əlim palçığa batdı. Tez gəlin, əlim palçığa batdı.

Qızdarı örgədifdi, qızdar heç birisi çıxmır. Bu padşah oğlu kolun dalında durub baxırmış ki, yarəb Allah, bu nə qədər gözəldi. Nətər gözəl məxluqat yaradırsan. Heç oğlan evləndiyi qızı görməmişmiş. Bu qızın gözəlliyinə burda aşiq olur. Tez oğlan kolun dalından çıxır:

– Xanım, xanım, izin verirsən mən töküm? – deyəndə xanım da padşah oğlunu tanıyır da, deyir:

– Hə, gəl. Sən kimsən? Burda sənin nə işin var? Mənim bağımda sən nəzirsən? – deyəndə, deyir:

– Xanım, elə-belə quş qovanam. Sizin səsinizi eşitdim gəldim. İzin ver.

Deyir:

– Hə! Ode haftava-ləyən ordadı, gəti tök.

Bu oğlan bir haftava suyu tökür, bu qız əlin yuyur. Deyir:

– Hə, sağ ol! Çox yaxşı su tökürsən, get.

Nəsə, gedir. Qızdarı çağırır, qızdar gəlir. Qız özü qəsdən deyir:

– Qızdar, sabah da ağ gül bağına gəzməyə gedəjeyik.

Oğlan bunu da eşidir. Qız gəlir atasın-anasın evində soyunur paltarın, lağımnan keçir gəlir quyunun dibinə. Oğlan gəlir səsdənir:

– A qız, ordasan?

Deyir:

– Hə, burda olmuyanda hara gedənəm? Məni qarannıx quyuda qoyub çıxıf gedirsən, kefdə-damaxdasan.

Deyir:

– Nə bildin mən kefdə-damaxdayam?

Deyir:

– Mən yatmışdım, yuxuda gördüm ki, qızılgül bağında kefdə-damaxdasan. Hələ bir qızın əlinə də su tökdün.

Deyir:

– Sən yuxu görürsən, helə şey yoxdu.

Deyir:

– Nə deyirəm, olmasın.

Buna deyir:

– İndi icazə verirsən, səni çıxardam quyudan mənnən evlənəsən?

Deyir:

– Əlimə su tökürsənsə, çıxaram.

Gənə deyir:

– Yox! Onda elə ömrü axırınatan o quyuda qalessan.

Sabah açılır, qız gənə lağımnan keçir, gəlir anasının yanına. Ağ geyimli qızdar gəlir, ağ gül bağında çalmağ, oxumağ, oynamağ. Nə qədərdən soora bu qızdarı dağıdır. Deyir:

– Gedin, nə qədər çağırsam, gəlmiyin.

Qız bir də gedir, qəsdən əlin, əyağın palçığa batırır, çığırır:

– Ay qızdar, palçığa batdım, tez olun gəlin, ay nejolduz, hardasız?

Qızdar özdəri gəlmir. Oğlan çıxır kolun dalınnan:

– Xanım, izin ver, mən töküm.

Deyir:

– Sən kimsən, mənim bağımda nə işin var?

Deyir:

– Xanım, elə-belə quş qovanam. Elə sizin səsizi eşitdim.

Deyir:

– Hə, icazədi, gəti tök.

Suyu gətirir. Deyir, əyağıma da tök, əyağımı da yuyum. Suyu tökür qızın əlin də yuyur, əyağın da yuyur. Dəsmalın da çıxardır bunun əlin-əyağın silir. Qız dəsmalı bükür qoyur qoynuna. Deyir, hə, oğlan, yavaş-yavaş düşmüsən kəməndimə, gözdə. Qızdarı çağırır, deyir:

– Qızdar, sabah da sarı gülün bağına gələjeyih. Bilirsizmi? Hazır olun.

Özü qəsdən oğlana eşitdirir. Qayıdır gəlir burda gənə dəyişir, lağımnan gəlir quyunun divinə. Oğlan gəlir, daa bu səfər bunnan soyuq-soyuq danışır.

– Qız, nətərsən? – deyəndə bu deyir:

– Deyəsən elə mənnən söhbət eləməyə ərinirsən?

Deyir:

– Hə, helə olajam da, bilmirsən? İzin ver səni çıxardım.

Deyir:

– Əlimə su tökürsən?

Deyir:

– Yox!

Deyir:

– Hə, tökməzsən, gedib özgələrin əlinə su tökərsən. Ağ gülün bağında qızdarnan gəzərsən.

Deyir:

– Nə bilirsən?

Deyir:

– Mən yatmışdım, yuxuda gördüm səni. Ağ gül bağında qızın əlinə-əyağına su tökdün.

Deyir:

– Elə sən xəyalınnan yuxu görürsən. Helə şey olmuyuf, heç kəsin əlinə su tökmərəm.

Nəsə, buyün də keçir. Sabah açılır. Gedir gənə qız sarı geyinir. Qız sarı geyimdə ta elə bil günəş təki parıldıyır. Gedir bu sarı gülün bağında gənə gəzillər, dolanıllar. Yeyif-içif qızdarı dağıdır. Bu səfər bir də qız əlin palçığa batırır:

– Ay qızdar, gəlin əlim palçığa batdı, ay tez gəlin, haftava gətirin, su gətirin.

Qızdar gəlmir. Oğlan çıxır:

– Xanım, izin ver, mən töküm.

Deyir:

– Sən kimsən, nə işin var mənim bağımda?

Deyir:

– Xanım, elə-belə quş qovanam.

Gətirir, nəysə, bu oğlan su tökür, təmiz-təmiz yuyur, su qutarır. Qız qəsdən bir də əlin palçığa batırır. Deyir:

– Yox, təmiz yumadım, get bir də gətir.

Gedir, bir də gətirir. Bunun əllərin təmiz-təmiz dırnaxların divinətən belə yuyur, gənə başının çalmasın – ipək yaylığın açır, qızın əlin-əyağın silir. Qız bu dəsmalı bükür gənə qoyur qoynuna.

Gedir, qızdan soruşur:

– Nağayrırsan?

Qız deyir:

– Get öz kefində ol, neynirsən məni?

Deyir:

– Nə bilirsən kefdəyəm? Sən elə yuxuynan...

Deyir:

– Yuxuynan eləmirəm.

Qız həmən dəsmalı da, yaylağı da kəndirə bağlıyır, deyir, çək. Çəkəndə oğlan görür, ayə, sarı gülün, ağ gülün bağında qoyduğu dəsmal da, yaylıx da bu qızdadı. Deyir:

– Sən bunnarı hardan almısan?

Deyir:

– Mənim əlimə su tökmüsən, əlimi siləndə mən saxlamışam.

Deyir:

– Elə şey ola bilməz, sən hara, ora hara.

Deyir:

– Get vəzirin evinə, orda məni gözdə, görərsən.

Bu oğlan gedir vəzirin, qayınənəsinin evinə. Bu da lağımnan gedir, keçir yan otağa. Qavaxcan qırmızı geyimdə gələndə oğlan görür, ə, qızılgülün bağında gördüyü qız budu. Sonra ağ gülün geymin geyinib gələndə deyir, ay Allah, ağ

gül bağında olan qızdı bu. Bu səfər sarı gülün bağına geyindiyi paltarı geyinəndə, deyir: "Ay dadi-bidad, demək həmən gördüyüm qız sənsən?" Deyir:

– Hə, həmən qız mənəm. Külüng aldım, lağım atmışam anamın evinə. Onnan bəs sənin başına oyunnar aşdım. Bax mənim əlimə də su tökmüsən, əyağıma da. İndi mən sənnən ta evlənə bilərəm.

Onnan soora oğlanın sözü kəsilir, qıznan kəbinin kəsdirir, evlənir. Ömürrərinin axrınatan şad-xoşbəxt gün keçirirlər. Onlar yeyir yerə keçir, bütün mətləblərinə çatır. Siz də yeyin devran sürün, arzunuza çatın, arzu diləkləriniz hasil olsun. Allah ürəyinizdən keçənnəri yerinə yetirsin. Başuz uca olsun, ayləniznən, evlatdaruznan birlikdə xoş günnər keçirənnərdən olasuz. Nağılımız burda bitdi, göydən də üç alma düşdü. Biri mənim, biri nağılı eşidənin, biri də nağılı danışanın. Yerdə qalanı da sizin.

## 7. SAVABIN XEYRİ

Şah Abbas cənnətməkan həftədə bir dəfə vəzir Allahverdi xanı alıf yanına eli xəlvət dolaşırmış dərviş libasında ki, görüm elim, camaatım nə qayda dolanır, mənnən razı, narazı olan varmı? Bir gün də belə gedəndə eli hərrənir, bir kəntdə gejəliyəsi olullar. Neçə varrının qapısına gedillər, olara darvaza açan olmur. Bu da səfərə çıxmamışdan qavax əmr eliyir ki, bütün kəntdərdə işıx yanmıyajaxdı, tüsdü çıxmıyajaxdı. Nə ojax yanajax, nə çırax yanajax. Deyif, görüm mənim əmrimə kim tabe olmur. Görür şəhərdən kənarda bir işıltı gəlir, ordan tüsdü çıxır. Deyir:

– Ey Allahverdi, gedəh ora, görəh kimdi? Mənim əmrim niyə ona çatmıyıf, çatıfsa, niyə mənim əmrimə tabe deyil?

Gəlif görüllər ki, bir cındır kümədi. Kümənin qapısını döyəndə burdan mənim təki bir qoja ağaca dirənə-dirənə çıxır.

– Ay sizə qurvan olum, mənim də qapımı gejə vaxdı qonax döyərmiş. Kimsiz, ay dərviş baba?

Xoş-beş, buları evə keçirir. Azdan-çoxdan bulara verir, deyir:

– Bəs bir oğlum var, ay bala. Oğlum bir mülkədara çoban işdiyir altı ayı bir toğluya. İndi buyünnəri mənim oğlum üş dənə toğlu alıf gətirəjəhdi, bir ilin hakkiyətidi. Oğlum gedif ki, ala gətirə, sabah oları kəsəh, bazara çıxardax. Gəlinim hamilədi. Gəlinim bari-həmlini yerə qoyanda ona xaşdıx üçün. İndi oturun, oğlum gələjəh.

Bir də görüllər oğlu qavağında üş dənə toğlu gəldi. Oğlan deyir ki, ey qonax, mənim hələ indiyətən qapımı qonax aşmıyıfdı. Siz ki, Allah yolunda qonax gəlmisiz, nə yiyəssiz? Şah Abbas deyir ki, mən böyrəhdən başqa heş-zad yemərəm. Deyəndə bular çıxır ana-bala. Deyir:

– Ay bala, nağayrax, nətər eliyəh?

Deyir:

– Nənə, neyniyəjeyih. Bunu sabah bazara aparajeyih. Ya diri apardıx, ya ətini apardıx. Bunnarı kəsəh, böyrəhlərini bişirəh, qonax yesin. Allahın hüzurunda qapımızı qonağ açıfdı. Qonağın urzası özünnən gələr, nənə. Ətdərini də sabah çıxardax İsfahan bazarında satax, gənə elə həmən pulumuz puldu.

Nənəsiynən razılaşıllar, toğluları kəsillər. Böyrəyi gətirillər. Şah Abbas deyir ki, olara deynən mən kimsəninsə yanında yemərəm. Təh bişirif, təh yeyərəm. Bunu gətirillər, verillər. Ojağı qalıyıllar, manqalı qoyullar Şah Abbasın yanında, özdəri çıxıllar. Şah Abbas böyrəyin yağınnan bir az ojağa salır iyini çıxardır, bir az cızıldadır. Bu böyrəhlərin altısını da qoyur öz kaşlyokuna, ağzını bağlıyır. Bular gəlir.

Axşam olur, yatanda qarı bulara yalvarır ki, sizə qurvan olum, bir dənə komadı. Gəlinimin vaxdıdı, bari-həmlini yerə

qoyur. Elə bu qapıda sizə yer qayırım. Gəlinim bari-həmlini yerə qoysun, ayrı bir yerim yoxdu. Deyir:

– Eybi yoxdu.

Bunnara qapının ağzında yer qayırır. Bunnar yatanda Şah Abbas durur. Şah Abbas da elm adamımış da. Bilirdi ki, uşağ olanda onun taleyi yazılır. Durur düz gətirir qapının ağzına yorğan-döşəyini salır ki, burdan mələk gəlif keçəndə onu görüm, onu tutum, deyim bu uşağın baxdını yaxşı yerə yazsın. Bunu yuxu tutur.

Nəysə, həmlini yerə qoyur, gəlir bunun bir oğul evladı olur. Oğlan evladı olanda Şah Abbası yuxu tutur, yatır. Bir mələh bunun taleyini yazıf çıxanda Şah Abbas oyanır, bunun yapışır biləyinnən. Deyir:

– Ey mələk, hardan gəlirsən?

Deyir ki, bəs beyjə bu evin sahibinin bir oğlan evladı dünyaya gəldi, onun taleyini yazıram. Dedi:

– Nə yazdın?

Dedi:

– Beyjə Şah Abbasın bir qız evladı dünyaya gəldi. Bu oğlanın taleyini yazdım Şah Abbasın qızının taleyinə. Amma Allah-taalanın izniynən oların on səkkiz il ömrü var. Olar bir-biriynən əhdi-peyman eliyif gərdəyə girən gejəsi bir-birinə murad alıf murad verə bilmiyəjəhdi. Oları bir ilan çalıf ikisini də öldürəjəhdi.

Deyir:

– Yazıya pozu olarmı? Bunu poz.

Deyir:

– Yox, Allahın yazısına pozu yoxdu. Yazdım, getdi.

Mələk gedir. Bu durur, səhər açılır, gəlir çıxır taxdı-tacına. Deyir:

– Vəzir Allahverdi xan, bazara adam göndər, desin ki, xəsdəlih yayılıf, bazara kim ölü ət gətirsə, onu tutun gətirin.

Bu özü bilir ki, ət sabah bazara gedəsidi. Vəzir Allahverdi xan bazara çıxan təki görür qarıynan oğlu gətirir əti satır. Buları tutullar gətirillər. Bu nə qədər and-aman eliyir, vallah, sağlamdı, indi kəsmişəm. Deyir:

– Yox ey, şahın əmri var. Bazarda xəsdə ət satılır, camaata xəsdəlih düşür.

Bunu gətirəndə deyir:

– De görüm, bunu niyə satırsız?

Bu nağıl elədiyim təki deyir. Deyir:

– Vəzir Allahverdi xan, vəkil, gəlin görün inanarsuz bir adam bir il işdiyə, üş toğlu ala, üş toğlunu da bir qonağa kəsə. Buna kim inanar?

Hamı deyir heylə şey ola bilməz. Bu adamın buna ehtiyacı var. Deyir:

– Ola bilməz? Vəzir Allahverdi xan, mənim kaşlyokumu gətir.

Gətirir.

– Badnos gətir.

Böyrəhləri götürür, deyir:

– Bu neçə qoyunun böyrəyidi.

Deyillər üş qoyunun böyrəyidi. Deyir:

– Axşam bu qoyunnar məə kəsilif, bu da böyrəhləridi. Gedin bu adamların xurcununu doldurun qızılnan, gümüşnən, yola salın. O uşağı da gətirin, mən özüm böyüdəjəm.

Bu uşağı gətirir elə bir bina tikdirir ki, bu binaya adicə hava da dolmağa yer olmur ha. Bütöy beton-sement tökür ki, bu uşağı mən böyüdəjəm, görəh yazıya pozu varmı? Mən qoymuyajam, bu ilan hardan girəjəh?

Bu uşaxlar böyüyür. On beş-on altı yaşına keçənnən soora buları salır bir otağa. Bu uşaxların yeməyin də Şah Abbas özü aparır, işməyini də, yerrərini də axşam olanda özü əlinnən salır.

Səhər ertə özü gedir buların yeməyini öz əlinnən verir, buların yatağını da özü yığır ki, görüm bu ilan hardan gələjəhdi.

On səkkiz yaşdarı tamam olur. Həmin gejə buların kəbinnəri kəsilir. İndi bir-birinnən murad hasil eliyən gejədi. Gəlin gərdəyə gedir. Şah Abbas deyir:

– Heş kəs getmiyəjəh.

Həmən gejə özü çırağı aparır. Çırağı yandıranda ilan Allah-taalanın hökmüynən olur baş tükü, gəlir dolaşır Şah Abbasın biləyinə. Çırağın şüşəsinnən keçir, lalasınnan dolanır çırağın boynuna. Şah Abbas öz əliynən gətirir qoyur qızının otağına. Buların yerin döşüyüf salır, qapını bağlıyıf gedir. Buların da axşam azuqələrin gətirif qoyur stolun üsdünə ki, nə vaxt ajsaz yeyərsiz.

Bu iki cavan bir-birinə o qədər aşiqi-məşuq olur, oynuyur, gülür ki, tamam buların yemək yadınnan çıxır. Bu ilan da Allah-taalanın hökmüynən keçir buların yatağının altına ki, bular yatan təki ikisini də öldürməlidi. Allahın əmridi, yazı belə yazılıf. Bir də görüllər çöldən nəysə zarıncı bir səs gəlir:

– Ay ev sahibi, ay burda kim var, ay ajınnan ölürəm, mənə imdad.

Bular pəncərədən baxıllar ki, bir aj sayıldı, yıxıla-yıxıla sürünür. Deyir:

– De görəh nə isdiyirsən?

Deyir:

– Üş gündü dilimə taarı tamı dəymir. Məə bir tam verin, gedə bilmirəm, – deyəndə bular biri-birinə deyir ki, biz neynirih yeməyi, onsuz da bizim oynamağımız-gülməyimiz bizim üçün yeməhdi. Babam nə bilәjəh ki, bunu kimə vermişih. Bular bir torbaya töküllər yeməyi, pəncərədən sallıyıllar ki, götür, qaş get. Elə bir yerdə ye ki, səni padşah görməsin, görsə, doğruyajaxdı. Bu yeməyini götürür, aparır yeyir. Arvadı da təzə hamiləlihdən qutarmışmış. Yediyin yeyir, yemədiyin

aparır verir. Arvadı yeyir, döşünə süd gəlir, körpəsini mayalandırır. Allaha okqədər xoş gedir ki, əmr eliyir:

– Cəbrayıl, o ilana elə başağrısı verərsən ki, yatar, sabaha qədər yuxudan ayılmaz. O gəşdərin hərəsinə yüz il ömür verdim. Yüz il olar ömür sürəjəhdi. Bu dünyanın da padşahlığın olara qismət elədim.

Nəysə, sabah açılır. Şah Abbasın gejə yerinə od doluf axı, beyjə bular ölməlidi. Tezdənnən durur gəlir. Qapını açır, görür nə? Elə bil evə nur saçılır. Gəşdərin üzünnən gül açılır, evə elə bil nur yayılıf. – "Ey İlahi, yazıya pozu olarmı?"

Cuma günü imiş. Çölə çıxanda görür Cənabi Cəbrayıl Allah-taalaynan söypətə gedir. Deyir:

– Ya Cəbrayıl, hara gedirsən?

Deyir:

– Allah-taalaya istahazaya gedirəm.

Deyir:

– Cəbrayıl, min kəlmə danış, min birinci kəlmə mənim ərzimi Allah-taalaya ərz eylə ki, yazıya pozu olarmı?

Gedir Cəbrayıl Allah-taalaynan söypət edir min kəlmə, min birincidə deyir:

– Ya Allahım, bir şəxs dedi ki, de görüm, yazıya pozu olarmı?

Allah-taala deyir:

– Yazıya pozu olmaz, amma savabın xətrinə ola bilər. Get öz əlinnən o uşaxların yatdığı döşəyin altını qalxız. Onda görəssən yazıya pozu var, yoxdu.

Cəbrayıl qayıdıf gələndə Şah Abbas bunun yolunu kəsir:

– Ya peyğəmbər, canım saa fəda, Allah-taaladan mənim kalamımı aldınmı?

Deyir:

– Aldım.

Deyir:

– Allah-taala nə dedi?

Deyir:

– Allah-taala bir söz demədi. Gəl, görəjeyih.

Gedir uşaxların döşəyini qalxızanda görür nə? Burda bir ilan yatıfdı, inan ki, bu adamların beşini də birdən udar. Deyir:

– Görürsən? Get uşaxlardan soruş, görəh beyjə olar nə savaf eliyif ki, Allah-taalaya xoş gəlif, Allah-taala olara bir belə də ömür verif. Allah-taala bu ilana baş ağrısı verif, bu hələ də yuxudan ayılmıyıf.

Cəbrayıl bu ilanı götürür atır pencərədən, deyir:

– Allahın heyvanı, çıx get. De görüm, bura nə löyünnən gəldin?

İlan dil açır, deyir ki, bəs bir tük şəklində Şah Abbasın qoluna dolandım, çırağın şüşəsinnən keşdim, gəldim bura. Beyjə o uşaxların ikisini də mən zəhərriyif öldürməli idim, Allah-taala mənə bir dərd verdi, yatmışam, yuxudan ayılmamışam.

Uşaxlara deyəndə uşaxlar deyir:

–Vallah, ay ata, Allahdan gizdin olmuyan sözü sənnən niyə gizdədəh. Beyjəki tamımızı biz yemədik. Bir sayıl gəlmişdi. Onu tökdük torbaya, salladıx, o sayıl yedi, Allaha yalvara-yalvara getdi.

Deyir:

– Hə.

Həmən o sayılın arvadının döşündə maya yoxudu körpəsini mayalandıra. Uşağ ölüm ayağında idi. Üş cana bu uşaxlar can verdi, üş nəfəsi yaşatdı. Allaha xoş getdi, ona görə bulara yüz il ömür verdi. Yazıya da pozu yoxdu. Allah o savabı ofsanata saldı. Yazıya pozu yoxdu, amma ofsanat var. Oların gördüyü ofsanatdı. İndi Allah-taala o ofsanatdan bizim əlimizi əysih eləməsin. Heylə ofsanatdar daim bizim qarşımıza çıxannardan olsun.

## 8. HƏZRƏT ƏLİ İLƏ QƏSSAB

Bir gün Cənab Əli deyir:

– Xeyri, gedəh camaatı yoxluyax. Bir sünnü şəhərinə gedəh, görəh sünnülərdə islam dininə itaət eliyən var, yoxdu.

Durur gedir. Şəhərin kənarında deyir:

– Xeyri, mən qalajam burda, şəhərə girmiyəjəm. Sən get şəhəri, bazarı hərrən, məə bir bilgi topla gət.

Xeyri gedir bazarı hərrənir. Görür hər şey öz yerində. Bir dənə qəssabdı, qoyunu kəsir, biri, məsəlçün, on misqal ət isdiyirsə, "Əli başıçün almaram, Əli başıçün verməərəm", – deyif pıçağı belə çəkir, əti qoyur tərəziyə on misqal olur. Nə artığ olur, nə əysik. Bu məhətdəl qalır. Bir gün günortaya qədər buna fikir verir. Biri deyir bir girvəngə ver. Deyir: "Əli başıçün almaram, Əli başıçün vermərəm". Pıçağı vurur, kəsir qoyur tərəziyə, bir kilo gəlir. Ta nə artıx var, nə əysik. Bu məhətdəl qalır ki, bu sünnü bazarında sünnü Əlinin qədrini nə bilir ki, ona belə itayət edir. Məhətdəl qalır. Qayıdır, gələndə Əli deyir ki, ey Xeyri, nə gej gəldin?

Deyir:

– Ya imamım, elə bir şeynən qarşılaşdım ki, heş həqiqi gözünnən görməsən inanmazsan.

Deyir:

– Ey Xeyri, de görüm, nədi?

Deyir:

– Sünnü bazarında belə bir qəssabnan rastdaşdım.

Deyir:

– Onda qayıdıf gedərsən o qəssaba deyərsən axşam ona qonağıx. Gedif onu yoxluyajam.

Bu sünnün də gör Əliyə nə qədər inamı varmışsa, bir dənə meçit tikdirmişdi, ağzına da kilit vurmuşdu ki, nə vaxtsa Əli mənim torpağıma qədəm qoyarsa, bu meçidin qapısını

birinci Əliyə aşdırıf, onu bu evdə qonağ eliyəjəm. Bu qapını heç açan yoxumuş. Elə tikdirif, qapısını bağlıyıf qoymuşmuş.

Xeyri gəlif deyir:

– Ey qəssab, ağamnan biz Əli şiyəsiyik, sünnüdə qonax qalmağa yerimiz yoxdu. Bizi bu axşam qonağ eliyərsənmi?

Deyir:

– Əlinin özünə də qurvan olum, adına da, adınnan gələn qonağa da canım qurvandı. Gözüm üsdə yerim var. Gəlin, mən də burdayam.

Xeyri qayıdır gedir, Cənab Əlini götürür gəlir. Bu da bazarını yığışdırır, bağlıyır, gedillər. Gedəndə Cənabi Əli meçidə yeddi qədəm qalmış qapı öz-özünə şakqaşarax açılır. Qəssab məhətdəl qalır ki, bu qapını kim aşdı, bu nətər şeydi? Qayıdır bu adamın üzünə baxır ki, bu Əli ola bilər? Tanımır axı, görmüyüf Əlini. Əli də boydan alçax, cürəpərə adam idi. Çox cüssəli adam dəyilmiş. Əli keçir, Xeyri də keçir. Deyir:

– Heş çaşmaginən, bu qapı bizim üçün açıldısa, burda oturmalıyıx.

Cənab Əliyə hər şey agah idi. Keçillər, bular əyləşəndə bunun tək bir dənə evladı varmış. Deyir ki, qonax, deyin görüm sizə nə hazırrasın? Qoyun, quzu, nə isdəsəz hazırrasın. Əli şiyəsi gəlif, canım ona qurvandı, deyin görüm nə yiyərsiz?

Deyəndə Əli deyir ki, mənim dünyada yegim ancax böyrəhdi. Qoyunun böyrəyinnən başqa heş bir tam dadmaram. Deyəndə bu gətirir, – qapıda bir-iki dənə qoyunu varımış, – tez kəsir, böyrəhlərini verir. Arvad buları bişirir. Bişirir, qoyur belə bir vazaya. Bir dənə də yeddi yaşında körpə uşax varmış. Uşax gəlir böyrəyin birini götürür. Qalır burda üş böyrəh. Allahın möcüzəsinnəndi, Əlinin sirrini üzə çıxartmax üçündü. Arvad əlinin dalıynan uşağı vuranda uşax ölür. Arvad çığır-bağır eliyəndə kişi deyir:

– Heş qəti dinmə, evdə qonax var.

Uşağı çəkir aparır daldaxanada üzüün yaylıxlıyır, deyir:

– Dinmə, qonağ gedənnən soora nə qədər ağlıyırsan ağla.

Amma Cənab Əli gələndə uşağın qapıda hərrəndiyini görmüşmüş. Qəssab gəlir, deyir bə bu üş böyrəyi nejə aparım? Bu gəlir deyir ki, qonax, çörəh ye. Əli deyir:

– Yox. Burda bir uşax hərrənirdi. O uşax gəlməsə, mənnən surfaya oturmasa, mən çörəh yemiyəjəm.

Bu nə qədər eliyir:

– Ay qonax, o uşax qanmazdı, betəmiz olar.

Deyir:

– Yox ey, əgər məni isdiyirsənsə, Əli xətrinə, uşax gəlməlidi.

Deyəndə deyir ki, sən ki Əlinin adını çəkdin, Allahdan gizdin olmuyan sirri mən səə açajam. Hər kəssənsə, bilmirəm, bəs belə-belə, anası belə itələməhnən o uşağın başı dəydi yerə, uşax canın tapşırdı. Deyir:

– Hardadı uşax, məni aparın uşağın yanına.

Bu, Əlini aparır uşağ olan yerə. Uşağın meyidini gətirir. Cənab Əli iki rükət ayət namazı qılır, Allah-taaladan istahaza eliyir, uşağın üzünə üfürən təki uşax axsırır ayağa durur. Əlinin ayağınnan tutur, deyir:

– Əli, sənsən? Bəs indijə ağalarım maa dedi ki, Əli gəlif səni ayıldajax, yatmısan, yuxudan ayıl.

“Əli sənsən” deyəndə qəssabın ajığı tutur ki, Əli nədi. Bu adama sən Əli deyirsən? Deyir:

– Hə.

– Nətər gördün?

– İndijə gördüm ki, ağalarım məə dedi yatmısan, Əli gəlif səni yuxudan oyadajaxdı. Sizin evə gələn qonağ Əlidi. İndi bu Əlidi, ata, – deyəndə deyir:

– Hə, düz görmüsən, bala. Mən Əliyəm, bütün sirrər də məə agahdı. Bəs sən demədinmi bu qapı niyə bizim üzümüzə

açıldı? Mən Əliydim, o qapı mənim üçün bağlıydı. Mən gəldim, öz-özünə açıldı.

Da qəssab Əlinin ayağının altınnan öpür, başına fırranır. Əli gedir. Deyir: “O uşağa mən Allah-taalanın elimlərinnən o qədər qismət elədim ki, o uşax gələcəyin adnan deyilən bir adamı olajax”. Heylə də olur. Uşax islam dinini yüksəldən bir alim olur, çıxır üzə.

## 9. XEYRÜL-ƏMƏL

Peyğəmbər devrində bir nəfər atası rəhmətə gedəndə gətirir ehsan verir. Dünyanın nazını-nemətini verir. Çağırır addı-sannı, varrı adamları, bu adamlar bu ehsanda bişən yeməhdən gündə yeyillər. Bir tamarzı insan çağırmır da, özünə layağ adamları çağırır. Ehsanı tökür bunnan ona, yeyillər-içillər. Hamı durur, biri demir Allah bunun atasına rəhmət eləsin, qarnım doydu. Hamı deyir halal olsun, kişinin oğlu yaman ehsan verdi. Ə, halal olsun, Vaqif[10], vallah, nənəsinə bir ehsan verdi, da dünyanın nemətini ora töhmüşdü. Amma heş biri demədi Allah rəhmət eləsin Vaqifin nənəsinə. Nənəsinin ehsanında getdim yedim, qarnım doydu.

Bir dənə sail gəlir. Bu oğlanın da Xeyri addı bir xidmətçisi varmış. Qazanın böyründə deyir ki, üş gündü dilimnən tam addamır. Bu tamdan bir tikə verin, mən dadım. Qılçam yer tutmur. Ayağım yer tutsun, mən gedim. Ayləm evdə zahıdı, onun döşündə maya yoxdu ki, körpəni mayalandıra. Onnan bircə tikə aparam zahı yesin, döşünə süd gəlsin, körpəni mayalandırsın. Deyəndə bunu qavıllar ki, get, get, get. Tacir bunu bilsə, səni də, bizi də öldürəjəh. Xeyri buna

[10] Söyləyicinin oğlu

deyir ki, dayan. Xeyri özünün payına düşən azuqəsini çıxardır barıdan kənara, uzax bir yerdə deyir:

– Ala, bax yediyu ye, yemədiyu da nəyə tökürsən tök, apar. Amma qavı aparma, qav sannandı. Ağamız qutarannan soora sanıyajax, qav kəm qalsa, bizə cəza verəjəhdi. Qavı barının başınnan at içəri, yeməyi nətər aparırsan apar.

Sail oturur bunnan yeyir, qarnını doyurur. Qalanını neyniyim, nejə eliyim? Papağını belə çöyürür, arxasını belə çala kimi düzəldir, qalan aşı tökür bura. Döyrəni gətirir tulluyur bura, çıxır gedir. Aparır aşı verir. Arvadı bunu yeyir, döşünə süd gəlir. Körpəsini əmizdirir. Bu o qədər savaba düşür ki, bunun savabı gedir çatır dünyasın dəyişən tacirə.

Peyğəmbər devri imiş də. Oğlan gəlir atasının qəvri üsdünə, deyir:

– Ey ata, səə bir belə ehsan verdim, bunnan səə çatdımı?

Buna səda gəlir ki, ey oğul, vallah, sən nə verdin bilmirəm, papaxdakı aşdan başqa mənim gözüm heş-zad görmədi.

Bu qayıdır gəlir. Gedir peyğəmbərin yanına ki, ya peyğəmbər, bu nə olan işdi? Mən bir belə ehsan vermişəm, atam deyir papaxdakı aşdan başqa gözümə heş nə görükmədi. Papaxdakı aş nə olan şeydi?

Deyir:

– Get xidmətçilərdən soruş, gör "papaxdakı aş" nə deməkdi?

Gəlif deyəndə bu Xeyri deyir ki, ağa, belə bir hadisə baş verdi. Mən yemədim günorta naharımı, verdim sayıla. Demək o ofsanata keçif. Gəlif peyğəmbərin yanına:

– Ya peğəmbərim, belə iş oluf.

Deyir:

– Ya İlahi, xeyrül-əməl. Demək sənin əməlinnən Xeyrinin əməli beş dəfə savab oldu. Dünyanın savabını Xeyri qazandı, sən yox.

## 10. BACI HƏSRƏTİ

Deyir, bir kişi olur, naxırçı olur. Günü bir çörəyə kəndin malını-qoyununu otarırdı. Bir gün gedir, düzdə oturuf fikirrəşəndə bunun gözünə ağ bürüncəhli bir kişi görünür. Gəlir buna salam verir, salam alır. Deyir, bəs sənin ömrün yaxınnaşıf, mən gəlmişəm sənin canu almağa. Deyəndə bu yalvarır-yapışır. Deyir:

– Ay Azreyil, mənim canımı alma. Qoy gedim, həm çarığım köhnədi, arz eləmişəm ki, Allah, pulum olsun, bircə təzə çarığ alıf ayağıma geyinim. Qoy mən bircə təzə çarığ alım ayağıma geyinim. Həm də qərif diyarda bir bajım var, neçə ildi o bajımnan görüşməmişəm. Gedim onnan halallaşım, gəlim.

Buna Azreyil deyir:

– Səə üş gün möhlət verdim, get bajınnan halallaş, gəl.

Bu durur gəlir çarıxçının yanına. Çarıxçıya zakaz verir, ayağın ölçdürür. Çarıxçının böyründə suyun içində balıxlar varmış. Balıx baş qaldırır, başdıyır qalkqıldıyıf gülməyə. Bu deyir ki, bu nə olan şeydi, balıxlar niyə güldü? Bir dənə bilici tapıllar. Bilici deyir ki, a kişi, sənin üşcə gün ömrün qalıf, sən bir həftəyə zakaz vermisən, çarıx tikdirirsən. Balıxlar gülür ki, sən üş günə qədər ölüf gedəssən, o çarığı niyə tikdirirsən.

Deyir:

– Mən möhlət almışam.

Gəlir arvada deyir:

– Arvad, dur heyvəmə çörəh qoy, gedirəm bajımnan halallaşmağa.

Arvad deyir:

– A kişi, baju yanına bir aylıx yoldu. Gedərsən, yolda ölüf qalarsan. Qojalmısan, heydən düşmüsən. Bajın hardan yaduva düşdü?

Deyir:

– Yox ey, olmaz. Gedəjəm bajımnan halallaşmağa. Ölüm-itim dünyasıdı.

Nəysə, arvad durur bir az çörəh qoyur dəstərxanına, götürür gəlir. Yolda gələndə görür ki, bir meyid aparıllar basdırmağa. Bu meyitdən keşmir. Düşür bu meyidin arxasına, meyidin namazına durur, basdırılır, bunun fatihəsi verilir. Camaat dağılannan soora durur yoluna rəvan olur. Bu, Allah-taalaya xoş gəlir. Allah-taala onun ömrünü on il uzadır. Deyir: "Bu adam ki, ölüdən keşmədi, Qurannan, namazdan keşmədi, on il ona ömür verdim, Cəbrayıl".

Bu soora keçif gedir. Görür ki, heymədə bir nurani şəxs oturuf Quran oxuyur. Burdan da keşmir. Oturur, bu, Quranı qutarana qədər buna qulağ asır. Deyir: "Heç olmasa qulağ asım da, ömrümün axır çağıdı". Allaha bu da xoş gedir. Cəbrayıla əmr eliyir ki, o ki Qurannan keçif getmədi, on il ona ömür verdim, getsin yaşasın.

Gəlir bajısının yanına. Bajısınnan halal-hümmət eliyir. Bajısı deyir:

– Ay qardaş, gəlmişkən bir həftə qal.

Deyir:

– Yox ey, ay bajı, buyünnəri qayıtmalıyam.

Bajısıynan görüşəndə bajısı okqədər sevinir ki, Allah-taalaya xoş gedir. Allah-taala deyir:

– Cəbrayıl, bajısını sevindirdiyinə görə on il də ömür verdim, getsin yaşasın.

Bajısıynan görüşür, qayıdır gəlir. Kişi gəlir oturur, qüsulun verir, paklaşır. Yönü qivləyə uzanır, kəlmeyi-şəhadətin oxuyur ki, ta mən ölməliyəm də. Vaxdım üş gündü, o da tamam oldu. Ha gözdüyür, ölmür. Axşam olur, ölmür, sabah olur, ölmür. Deyir: "Bu nə olan şeydi?" Nə qədər gözdüyür, gözdüyür. Axırısı gəlir Azreyilnən görüşdüyü yerə. Deyir: "Gedim,

görüm nətər oldu. Bəlkə Azreyil özü öldü, gəlif mənim canımı almadı? Gedim, görüm oralarda var, yoxdu".

Gələndə bunun gözünə gənə bir şəxs görükür. Qurban olduğum peyğəmbərlərin səması bunun gözünə görükür. Deyir:

– Ya peyğəmbər, bu nejə olan şeydi. Bəs yazıya pozu varmı? Mən öləsi idim, niyə ölmədim?

Deyir:

– De görüm bajının yanına gedəndə haralarda nə görmüsən?

Deyir:

– Vallah, gedəndə yolda gördüm bir tabut aparıllar. Tabutdan keşmədim, o şəxsin namazına durdum. Onu qavıra qoyuf basdırana qədər gözdədim. Bunu görmüşəm. Bir də getdim gördüm bir nurani şəxs Quran oxuyur. Ona çox marağım oldu, Quran oxunuf qutarana qədər keşmədim. Soora da getdim bajımnan görüşdüm. Bajım da çox sevindi.

Deyir:

– Hə. Meyiddən keşmədiyin üçün Allah-taala səə on il ömür verdi. On il Qurana qulağ asdığına görə, on il də bajının ürəyini şad elədiyinə görə. Allah-taala səə otuz il ömür verif. Ruzanı da bol eliyəjəh, get yaşa.

Demək, yaxşılığına görə Allah-taala bunun yazısını pozdu.

## 11. BAXTINI GƏZƏNİN NAĞILI

Bir nəfərin bəxdi gətirmirmiş, əkirmiş, bitmirmiş, əkirmiş, bitmirmiş, suvarırmış, sel aparırmış. Bir gün deyir ki, dur, arvad, çörəh bağla görüm. Vallah, gedəjəm baxdımı gəzəm. Mənim baxdım harda yatıfdı görüm. Nətər şeydi, hamı əkir-biçir, mən əkdiyimi ya dolu döyür, ya sel aparır.

Gedir, gedir, görür ki, bir yeri sel basıf. Hamısının baxdı eşələnir, çalışır, bəndi tutur, selin qavağını alır, bir nəfər də bürünüf yatıf. Lıkkaya batıf, ancax qaraltısı görükür. Bu deyir:

– Sən öl, bu mənim yatan baxdımdı.

Əsasını götürür bunun belinə vurur:

– Ə, baxdım oğraş, burda nə yatmısan, qalx ayağa görüm.

Bu, yerinnən qalxır. Kişi qayıdır gəlir. Görür bir quru ağaş var. Bu ağaca belə söykənir ki, bir az yornuğunu ala, bu ağac şıkkıltıynan uçur. Durur deyir:

– Sən mənim baxdıma bax. Hələ baxdımı oyatmışam, quru ağaş mənə tab gətirmir, oyatmasam nejə olardı.

Ağacı kökünnən belə çıxardanda görür nə? Ağacın altında qızıl küpəsi. Götürür qızıl küpəsini, deyir:

– Hə, baxdım oyandı.

Ağacın divində küpə varmış, ona görə ağac ordan su içə bilmiyif quruyuf. O qızıl küpəsiynən o kişi varranır. Bütün kasıflara kömək eliyir, cütü olmuyana cüt verir, torpağı olmuyana torpax verir.

## 12. SANTIR[11]

Bir gün bir arvadın üç oğlu olur. Arvad bunları yetimçilihnən böyüdür, əlləri iş tutan olur. İş tutan olanda böyük oğul deyir:

– Ay nənə, çox kasıfçılıx çəkirih, əziyət çəkirih, da əlim iş tutandı, nə iş görsəm, görərəm. Qoy gedim bir kətdən qırağa çıxım, gedim başqa bir kətdə, şəhərdə nökərçilih eliyərəm, nə bilim fəhləçilih eliyərəm, çörəh qazanaram. Bu yönnən dolanışıx olmaz.

Deyir:

– Nə deyirəm, ay bala, get.

---

[11] Söyləyicinin dediyinə görə, qış olanda uşaqlar peçin qırağında pambıq artlayardılar. Qayınanası da onları həvəsləndirmək üçün deyərdi ki, bu gecə pambığı artlayıb çərdəkdən çıxartsanız, sizə nağıl danışacağam. Uşaqların “Santırın nağılı”ndan xoşu gəldiyi üçün qayınanası danışmağa başlayanda bir ağızdan deyərdilər ki, bizə “Santırın nağılı”nı danış. O vaxtdan da bu nağıl söyləyicinin hafizəsində qalır.

Bu durur gedir şəhərdə hərənnir. Görür ki, bazarın başında, bir qəlvi yerdə sarı sakqal kişi duruf: "Ay mənə nökər olan, ay mənə nökər olan?" – deyif çağırır, heç kəs buna nökər olmur. Deyəndə deyir:

– Vallah, mən gedif nökər olajam. Day indi bu kişi adam yeyən deyil ha. Məə bir tikə çörəh verəjəh.

Gəlir deyir ki, ay ağa, mən sənə nökərəm. Deyir:

– Hə, gedəh.

Bunu götürür gəlir. Deyir:

– Oğlum, indi mənim şərtdərim var. Mən nökəri şərtnən götürürəm.

Deyir:

– Nədi şərtin?

Deyir:

– Səni üş gün boşduyuram, üş gün burda ye, iç, yat, kef elə. Üş günnən soora səni işə buyurajam. Onnan soora bir sözümüz olajax. Günüz işdiyəssən, axşam gələndə sən mənnən soruşeysan, ağa, peşman olmadın ki? "Peşman oldum" desəm, mənim başımı kəseysən. Mən sənnən soruşajam bala, peşman olmadın ki? Əgər desən "peşman oldum", sənin başın kəsiləjəh. Sən mənnən soruşanda deyəjəm yox, nə qədər peşmançılığımız olsa da, sən də deməlisən yox. Belə elədih yaşadıx, belə eləmədih yox.

Nəysə, bu oğlan deyir, nə deyirəm. Üş gün burda yeyir-içir, yatır, dördüncü günü ağası durur:

– Ta iş zamanıdı, dur bala.

Gətirir cütü qoşur öküzə, yanına da bir tula qoşur. Deyir:

– Get bu tula harda yatsa, oranı ək, ala bu bağlancaxdakı da çörəkdi, çörəyi elə ye, paraya dəymə, bütöyə dəymə, doğra doyunca ye. Çörəyi elə kəs, qırağı kəsilməsin, qatığı elə ye, qaymağı tərpənməsin.

Bu götürür gəlir. Tula gedib daşdıxda, qayalıxda yatır. Bu gətirir kotanı daşa salan təki kotan bir yana qırılır gedir, cüt bir yana. Öküzün biri mayallağ aşır belə qayadan uçur, biri belədən. Qayıdır gəlir ki, bir tikə çörəh yeyə. Ay Allah, çörəyi nətər yeyim bunun qırağı tərpənməsin, bu qatığı nətər yeyim qaymağı tərpənməsin? Aj-susuz qayıdır gəlir. Deyir yaxşısı budur heş yemiyim. Gələndə deyir:

– Ay oğul, bəs nağardın, yeri əkdinmi?

Deyir:

– Ay ağa, yox. Bəs getdim daşdığa kotanı salanda kotan qırıldı, öküzün biri qayadan uşdu qılçası sındı, biri kanala düşdü boğuldu öldü.

Deyir:

– Çörəh yemisənmi?

Deyir:

– Yox.

Deyir:

– Niyə?

Deyir:

– Ay ağa, sən dedin elə ye qırağı tərpənməsin. Mən nətər yeyim o çörəyin qırağı tərpənməsin?

Deyir:

– Ağa, peşman oldunmu?

Deyir:

– Yox.

Deyir:

– Bala, sən peşman oldunmu?

Nökər deyir:

– Ay ağa, peşman oldum, bəs nətəri. Yer əkə bilmədim, öküzdər öldü, özüm də aj-susuz qaldım, – deyəndə, ağa bunun boynunu vırır, aparır tulluyur bir zirzəmiyə. Deyir şərtimiz budu.

Nəsə, aradan ay keçir, il keçir, bunnan səs-sorağ çıxmıyanda ortancıl oğlan deyir:

– Ay nənə, qoy mən gedim. Həm görüm qardaşımnan bir sorax taparammı, həm də bir az qazanc gətirim da, belə dolanışığ olmaz.

Bu gəlir. Gələndə görür həmən kişi gənə duruf: "Ay mənə nökər olan?" – deyif çağırır. Deyir, elə gedim buna nökər olum. Buna nökər olanda eyni şərti buna da qoyur. Burda qalır. Dördüncü gün buna da deyir get cütü filan yerdə ək, çörəyi elə ye, qırağı tərpənməsin, qatığı elə ye, qaymağı tərpənməsin.

Durur gəlir, kotanı salanda kotan qırılır bir tərəfə gedir, cüt bir tərəfə. Öküzün biri qayadan uçur, biri palçığa batır. Nəysə, gəlir: "Çörəyi nətər yeyim, ay Allah, qatığı nətər yeyim qaymağı tərpənməsin?" Aj-susuz qayıdır gəlir. Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Yox.

Deyir:

– Bala, peşman olmadın ki?

Deyir:

– Bəs, ay ağa, əlbətdə peşman oldum. Öküzdər öldü, özüm də aj-susuz qaldım, – deyəndə, bunun da boynunu vurur, aparır tulluyur. Üç qardaşın içində tək Santır qalır anasının yanında. Bir az keçənnən soora Santır deyir:

– Ay ana, qardaşdarımdan xəbər çıxmadı, qoy mən gedim.

Deyir:

– Ay bala, gözümün nuru sənsən, sən də gedərsən, mən kimnən dolanaram, mənim meyidimi kim götürər, məni kim dəfn edər? Getmə.

Deyir:

– Yox, ana, mən gedəjəm, qardaşdarımın başına nə qəza gəlif tapajam, özü də qazaş da qazanıf gələjəm, – deyəndə deyir:

– Nə deyirəm, ay bala, get, amma bir aydan artıx qalma. Bir aydan soora mənə xavar göndər, yoxsa çatdıyıf ölərəm.

Bu durur anasıynan halallaşır, hümmətdəşir, bir tikə heyvəsinə çörəh qoyur gəlir. Gəlir görür genə həmin bazarda kişi duruf: "Ay mənə nökər olan?" – deyir, heç buna nökər olan yoxdu. Deyəndə deyir ki, ağa, mən sənə nökər. Deyir:

– Gəl gedək.

Bunu gətirir evinə. Deyir:

– Ay oğul, mənim şərtdərim var.

Deyir:

– Şərtin nədi?

Deyir:

– Üş gün burda ye, iç, gəz, kef elə. Dördüncü günü səni işə buyurajam. Tula gedib harda yatsa, oranı əkəssən, bu çörəyi elə yeyəssən, qırağı kəsilmiyəjəh, qatığı elə yeyəssən, qaymağı tərpənmiyəjəh. Razısan?

Deyir:

– Hə, qardaşdarımın başına burda əmma gəlib, mənim qardaşdarım az bilmiş idilər, avam idilər, mən qardaşdarımın qanını bunnan almalıyam.

Nəysə, dördüncü gün bunu genə qoşur, gedir. Tula gedir daşdıxda yatanda Santırın bir çomağı varmış, vurur tulanın təpəsinə, tulanı burda öldürür, atır qayadan. Gətirir düz yerdən cütü salır, əkini əkir, gəlir oturur çörəh yeməyə. Axı, demişdi elə elə qırağı kəsilməsin. Pıçağını çıxardır, çörəyini laybalay beləjə kəsir ortasını çıxardır, yavaynan da qavın altını belə deşir, burdan qatıxdan sorur tamam yeyir, qatığın qaymağı lay yapışır qalır qavın divində. Yeyir, qarnını da doyurur gəlir. Gələndə ağa deyir:

– Ay bala, tula hanı?

Deyir:

– Ay ağa, tula gedif daşdıxda yatdı, oranı əkə bilmədim, vurdum tulanı öldürdüm.

– Yemisənmi?
– Hə.
– Görüm.
– Ağa, çörəyin qırağı tərpənmiyif, qatığın da qaymağı tərpənmiyif.
Deyir:
– Hə, mənim başımın bəlası gəlif, arvad.
Nəysə, deyir:
– Ağa, peşman olmadın ki?
Deyir:
– Yox.
– Bala, peşman olmadın ki?
– Yox.
Günnər keçir, bir gün arvadın gamışdarı vardı, deyif:
– Oğul, dur get gamışdarın başına qədər ot tök, gəl.
Santır gedir otdan qoyur gamışın başına, gamış başını belə eliyir, ot tökülür. Gamışın başında ot durandı? Axırısı gamışdarı dana-boyun eliyir basır yerə, hamısının başını kəsir basdırır axurun içində ota, leşdərin də sürütdüyür tuluyur çölə, gəlir. Deyir:
– Ay bala, gamışdarın başınatan ot tökdün?
Deyir:
– Ay ağa, vallah, gamışdarın başına nə qədər ot tökdüm, durmadı, başdarını kəsdim ota basdırdım.
Deyir:
– Ağa, peşman olmadın ki?
Deyir:
– Yox.
– Bala, peşman olmadın ki?
– Yox.
Şərt şərtdir. Yox, yox. Deyif:

– Hə, başımın bəlası gəlifdi, arvad, bu bizə artıx gələjəhdi. Arvad, çörəhdən-zaddan bişir, bunu burda qoyax qaçax, bu bizim başımıza bəla açajax.

Arvad durur, xamırı yoğurur, cörəh bişirir. Xamırı kündəliyəndə üş-dörd yaşında bir uşaxları varmış, gəlir əlini xamıra batıranda bu uşağa nə qədər deyir dinmə, dinmə, xeyri olmur. Qəfil Santır qapıdan girəndə deyir:

– Santır, Santır, götür bu uşağı qol-bud elə, bu itdərin ağzına tulla, – deyəndə Santır bu uşağı dartır qolunu bir yana, qılçasını bir yana, parça-para eliyir, tulluyur itdərə. İtdər yeyir. Arvad bir başına, bir gözünə döyür, çığırır, hay-küy. Kişi gəlir:

– Ay arvad, nədi?

Deyir:

– Allah tufağı dağıtsın, nolajaxdı? Gamış belə getdi, tula belə getdi, var-döylət bircə balamız vardı, onu da Santır qol-bud elədi, tulladı itdərə.

Deyir:

– Santır, niyə helə elədin?

– Ay ağa, xanım mənə dedi qol-bud elə tulla itə, mən də qol-bud elədim tulladım. Xanım dedi, mən də onun əmrinə tabeyəm.

Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Yox.

Deyir:

– Bala, peşman olmadın ki?

– Yox.

Xəlvətcə deyir:

– Arvad, xurcunu, farmaşı hazırla, gejə Santırı yuxuya verəh qaçax. Santır bizim başımıza bəladı.

Bunu Santır eşidir. Gejə durur arvad yığdığı farmaşı boşaldır. – Farmaş palazdan toxunma olurdu, içinə mir-mitilimizi

qavlıyıf yığardıx ki, batıb eləməsin. Axır vaxtlaratan o farmaşdan məndə dururdu. – Bunun ağzını gözəliyir, gejə durur:

– Arvad, dur, Santır yuxudan oyanmamış.

Durur farmaşın o biri tayını qoyur, bunu da götürəndə görür bu, yerdən qalxızmalı deyil.

– Arvad, Allah evu yıxsın, bunun içinə nə yığmısan?

Deyir:

– A kişi, vallah, bir az azuqə götürmüşəm, çörəhdi, yağyavannıxdı, götür gedək.

Nəysə, bir zornan bunu qalxızıf atın belinə qoyuf düşüllər yola. Gedillər, bir ovanın kənarınnan keçəndə ovanın itdəri tökülür buların üsdünə. Nə qədər eliyillər itdəri qooluya bilmillər. Arvad deyir:

– Ay Santır, hardaydın? Burda olsaydın bu itdərin hərəsini bir yana qavalamışdın, – deyəndə Santır farmaşdan qışqırır:

– Ağa, burdayam, aç məni. Ağa, burdayam, aç məni, – deyəndə ağa deyir:

– Arvad, tufağın dağılsın, bu, demək, Santırmış.

Bunu açır yerə qoyur. Santır durur ağacını götürür, bu itdərin hamısını bir tərəfə savalıyır qavır.

Gəlif bir dəryanın qırağında deyir:

– Arvad, beyjə burda gejəliyəh, bu Santırı bir təhər edək salax bu çaya. Çayın qırağınnan Santırın yerini qayırajam. Ordan bəri arvad, sən yat, sənnən də belə mən yatajam. Mən sənə deyəjəm "arvad, aana yat", sən də "Santır, aana yat", itəliyə-itəliyə Santırı yumalıyax salax çaya.

Santır da bijiymiş də, bilif. Gejə buları yuxuya verən təki durur gedir bir kötüh gətirir, qoyur öz yerinə, gəlir arvadnan kişinin arasına girir sivişicə, yatır. Kişi gejə deyir:

– Arvad, aana yat.

Santır deyir:

– Arvad, aana yat.

Arvad deyir:

– Santır, aana yat.

Birdən gupbultuynan kötüh düşür çaya. Kötüh çaya düşəndə Santır arvadı itəliyir, arvadı da salır çaya. Ağa qalxır:

– Arvad, arvad, qalx, Santırı saldım çaya, – deyəndə deyir:

– Ağa, mən də arvadı saldım çaya.

Ağa durur görür nə? Çaya düşən arvatdı, Santır burda.

– Santır, bu nədi?

Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Allah tufağı dağıtsın, peşman olmamaxlıx nə qaldı? Var getdi, döylət getdi, bala getdi, arvad getdi, peşman oldum, əlbətdə, – deyəndəjə durur vurur bu kişini öldürür, kişini sarıtdıyır bu atın birinin belinə, durur atdarı alır yedəyinə, gedir. Gedir görür bir suyun qırağında bostan var. Baxırsan bostanda qarpız, yemiş, xiyar taa lejan oluf tökülüb. Gəlir oturur, atdarı bağlıyır. Bir dənə xiyar qırır, gətirir verir bu ölmüş ağasının əlinə, belə ağzına qoyur ki, guya bu xiyarı yeyir. Özü də bu qarpızdan, yemişdən alır, kalını qırır tulluyur atdarın qavağına, hərəsinnən bir az yeyir. Nəysə, hay düşür, bostan yiyəsi gəlir: "Ayə, bizim bostanı niyə belə eləmisən, kimsən?" Santır qaçır gizdənir. Gəlir bu kişinin meyidinə bir ağac nətər vurursa – Kişi meyitdi, bu atın üsdündə durandı? Zornan sarıtdıyıf qoymuşdu, – kişinin meyidi yerə yıxılanda Santır çıxır:

– Ay tufağız dağılsın, mənim dədəmi öldürdüz, gedirəm qazıya sizi şikayət eliyəm.

Bostan yiyəsi bunun əlinə-ayağına baxır, görür gerçəhdən də kişi havaxdan ölüfdü. Yalvar-yapış eliyillər, bunun əl-ayağına düşüllər ki, bəs nə istəyirsən verək, bizi qazıya vermə. Bunun atdarını yüklüyüllər qarpıznan, yemişnən. Santır deyir:

– Dədəmin ağırrığında mənə qızıl pul verəjəhsən.

Dədəsinin ağırrığında da qızıldan-puldan alır, durur gəlir ağasının malikanəsinə. Qazandığı pulu buraya qoyur, gedir nənəsinin yanına. Deyir:

– Nənə, dur gedək, qardaşdarımın da qanın aldım, ağanın da varına-döylətinə sahib oldum.

Həmən o günnən millətin də canı qurtarır. Hamıya zülm edif çox adamları helə öldürürmüş, varına-mülkünə də sahib olurmuş. Gedir, yeyir yerə keçir, ağanın malının-mülkünün üstündə oturuf heyləjə xoş gün keçirillər. Siz də yeyin dövran keçirin, murad hasil eliyin. Allah-taala heylə namərtdərin urzasınnan sizə də qismət eləsin, ağlınızı başınızdan almasın, sıdqımızı düşmannara, namərtdərə yönəltməsin. Peyğəmbərin yolu ilə getməyi bizə qismət eləsin (söyləyici salavat çəkir – top.).

Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narışın, biri nağıl danışanın, yerdə qalan da sizin.

## 13. ƏZRAYILLA YOLDAŞLIQ EDƏN ŞƏXS

Bir oğlan çox kasıfçılıx çəkir. Bir gün deyir ki, yox ey, bu nə cür yaşamaxdı. Dururam başımı götürüf çıxıf gedəm. Gedir. Allahın hökmüynən Azreyil bunun qarşısına çıxır. Deyir:

– Qardaş, hara gedirsən?

Deyir:

– Qardaş, başımı götürüf bu dərdin əlinnən çıxıf gedirəm. Gedirəm, Azreyili harda tapsam, deyəjəm al mənim canımı.

Yol yoldaşı oluf gedillər. Bir suyun qırağında oturuf dəstərxana salıf çörəh yeyəndə deyir:

– Qardaş, de görüm kimsən?

Deyir:

– Mən Azreyiləm.

Bunun az qala qorxudan dili bata. Deyir:

– Nətər Azreyilsən ki, sabahdannan mənnən yoldaşdıx edirsən?

Deyir:

– Bəs Azreyili gəzmirdin, “gəl canımı al”. Mən də Azreyiləm, gəlmişəm indi alım canı.

– Yox, qurvan olum, onda maa möhlət ver, gedim əqrabalarımla halallaşım gəlim, onnan soora canımı alarsan.

Azreyildən möhlət alır, gedir. Məsəlçün, bir il keçir, beş il keçir. Allah-taalaya agahdı. – Kimə izn ola bilər? Mən də xəsdəyəm, deyirəm ölüm yaxşıdı, amma Azreyil gəlsə ki, canını alım, deyərəm yox, qurvan, balalarım Rusiyetdədi. Qoy Rusiyetdən gəlsinnər, onnan sora. Birdən heylə deyirəm. Deyirəm, Allah, sənnən möhlət isdiyirəm, balalarım gəlsin, balalarımı yollarda şəhid eləmə. Gəlinnər də gülüşüf deyillər: “Ey, ölümnən qorxursan, balalarına qıymamazdıx eləmirsən”. – Azreyil bir gün gəlir ki, bu gün vaxt tamamdı, gəlmişəm deyəndə bu qaçır. Bəhməz küpəsi varmış. Qaçır özünü salır bəhməz küpəsinə ki, Azreyil məni tapmasın. Bəhməz küpəsinin içində yadına düşür ki, birdən Azreyil gələr bəhməz alıf yeyər, məni tapar burdan. Bəhməz küpəsinin içinnən çıxır qaçır. Hara gedim? Gedir özünü salır tüh yasdığının içinə. Bəhməzdi bədən, yasdıx bütöy yapışar buna. Deyir:

– Ə, birdən Azreyil gələr yasdığa söykənər, məni tapar burda.

Yasdığdan da çıxır, qaçır özünü salır buxarıya. Buxarıya salanda deyir:

– Ay dadi-bidad, Azreyil gəlif ojağı yandıranda mən yanıf ölərəm.

Elə buxarıdan çıxım deyəndə Azreyil qapıdan girir. Azreyil bunu nə vəziyyətdə görürsə, başını götürür qaçır. Deyir:

– Ya Allah-taala, ordan elə bir Azreyil çıxdı ki, mən onnan qorxdum.

Allahdan hökm gəlir ki, mən ona ömür verdim, onçün sən onnan qorxdun qaşdın.

İndi Azreyilnən yoldaş olanın belə bir rəvayəti var. Demək, can o qədər şirin şeydi ki, özünü o timsallara saldı, Azreyil onnan qorxdu qaşdı.

## 14. HƏR KƏSİN ƏMƏLİ ÖZ QARŞISINA ÇIXAR

Mənim təki biri qojalır. Uzaq qulağımızdan. Allah heç helə gəlini mənə qismət eləməsin. Bunun bir gəlini olur, bircə dənə də madar, gözünün ağı-qarası bir oğlu olur. Bu gəlin ərinin günün göy əksiyə döndərif ki, dədənnən irgənirəm. Ya məni saxla, ya dədəni. Dözə bilmirəm daa. Qoja kişidi. Ay öskürdü, ay asqırdı. Bu oğlan canınnan bezir. Deyir:

– Mənim balalarım var, arvadı boşuyum balalarım anasız qalsın? Neyniyim? Deyir, bir löynən aparım atamı meşəyə tulluyum, qurd-quş yesin də. Öz əlimnən atamın başın kəsə bilmərəm.

Gedir bir yekə səbət alır gətirir. Deyir:

– Ay ata, dur səni qoyum bu səbətə, gedək bir az gəzək.

Deyir:

– Oğul, nə deyirəm.

Atasını qoyur səbətə, alır dalına, gəlir uzaq bir meşəyə. Meşənin lap dərinniyində atasın qoyur yerə. Deyir:

– Ata, sən düş otur burda. Mən gedim hərrənim meşədə, bir az almadan, alçadan yığım, gətirim yeyək, – deyəndə kişi deyir:

– Ay oğul, getmə, qayıt bəri.

Deyir:

– Nədi, ay ata?

Deyir:

– Səbəti də götür.

Deyir:

– Ata, səbəti neynirəm?

Deyir:

– Oğul, vaxt gələr, səbət səə də qismət olajax.

Deyir:

– Ay ata, nətəri?

Deyir:

– Mən də sənin tək cavan idim. Mənim də atam varıydı. Mən atamı səbətə qoyub meşədə azdırmamışam. Amma sən məni azdırdığın təki, səni də oğlun azdıranda əziyyət çəkməsin. Səbət orda hazır olsun, – deyəndə oğlu barmağın dişdiyir ki, ay dili-qafil, deməк mən nə qədər səyf eləmişəm. Atasının əlinə-ayağına düşür, atasından üzr isdiyir. Atasın gənə qoyur səbətə, gətirir. Arvadına deyir, atamı saxlıyırsan saxla, saxlamırsan, günü bu gün şər-şəpa yığ, ata evinə. Arvadın əlacı kəsilir, o günnən atasına yaxşı baxır. Belə qərələ gəlir ki, kişini zəhərriyim öldürüm. Gətirir kişinin südünün içinə zəhəri tökür, qoyur ora ki, kişi işsin. Kişi deyir, ay qızım, qoy ora, hələ işmirəm. İki istəkana tökür, qoyur ora ki, birazdan içsin. Gəlinin də iki dənə oğlu varmış. Uşaqlar qapıdan girir:

– Baba, bu süd nədi?

Deyir:

– Oğlum, südü anan mənim üçün qoymuşdu. İşmirəm, götürün için.

Uşaqlar bu südü götürüb içəndə uşaqlar partdamaya düşüb ölür. Ay noldu, ay bu uşaqlara nəəldi? Gəlin gəlir ki, balarının ikisi də partdıyıf ölüf. Gəlin bir başına döyür, bir döşünə ki, ay dadi-bidad, öz əlimnən öz balalarımın qatili oldum. Deyiflər, nejə? Gəlin deyir ki, südün içinə zəhər tökmüşdüm ki, kişi işsin ölsün, canım qutarsın. İndi o da gəldi mənim balalarıma. İndi görürsən, qəzavü-qədər budu. Sən ərün atasına yamannıx elədin, öz balarına düşdü. Hər küşdənin əməli öz qarşısına çıxır.

## 15. SÜLEYMAN PEYĞƏMBƏRLƏ QARIŞQA

Bir atdı qarışqa gedir, bir dənə buğda aparır ağzında. Deyir:

– Ey qarışqa, bu bir buğdanın çəkisi sənin özünnən ağırdı, sən bunu neynirsən?

Deyir:

– Bu bir buğdanın onda bir hissəsi mənim bir ilimin azuqəsidi. Mən bunu aparıram.

Deyir:

– Belədisə, sən bir buğdanı neynirsən?

Deyir:

– Elə vaxt ola bilər ki, mən bu bir buğdanı tapıb apara bilmərəm. İndi bu buğdanı aparıram ki, gələcəh yeddi ilim üçün ehtiyatım olsun. Bir buğda mənim yeddi ilimin azuqəsidi.

Süleyman peyğəmbər bunu götürüf qoyur bir qutuya, para da buğda qoyur. Deyir:

– İndi görüm bu buğda bir ilə bəs edərmi?

Bir ildə qarışqa para buğdanın parasını yemir. Deyir ki, həqiqi də Allah-taalanın möcüzəsinə bax ki, bunun ortasının incəliyi sap qədərdi, bu, bir ildə bir buğdanın dörtdə bir hissəsini yeyifdi.

## 16. MOLLA VƏ EŞŞƏYİ

Bir gün molla arvadına deyir, baltanı qoy çörəyimin yanına, gedim bir ayax odun qırıf gətirim. Molla gedir başını qoyuf yatanda arvad bağlancağı bağlıyır, qatıxlı çömçə qalır burda. Yadınnan çıxır baltanı qoymuyuf. Molla durur tezdənnən, namazın qılır, dəsdəmazını alır. Gəlir çörəyi götürəndə əlin atır çömçə gəlir əlinə. Elə bilir baltadı. Axı çömçə qatıxlıdı. Deyir:

– Halal olsun arvada, nətəri avxırrıyıfsa[12], baltanın ağzı par-par parıldıyır.

Götürür, ulağı qatır qavağına, gəlir meşəyə. Bir belə yekə ağaş bələtdiyir. Çömçəni alır əlinə. “Allah, Məhəmməd, ya Əli” – deyif bir balta vırır, ikisini vıranda çömçənin başı bir yana gedir, leşi bir yana. Düşür, gəzir, gəzir, tapmır. Deyir:

– Həzrət Abbas, səə bir çanax darı nəzir eliyirəm, mən bu baltanı tapım, burdan əliboş qayıtmıyım.

O vaxdı da çanax taxdadan qayırma ölçü qavıymış. Deyillərmiş, hər adambaşına bir çanax, beş çanax taxıl yığsam, il başına çatajax. Heylə ölçü qavı imiş. Bu hərrənəndə çömçənin çaloşu gəlir əlinə. Götürür belə baxır, deyir:

– Ə, Həzrət Abbas, bir qoyardın baltamı tapeydim. Bu çanağı böyrümdə nə tez çökəltmisən?

Durur kor-peşman qayıdır. Arvad deyir:

– A kişi, odun hanı?

Deyir:

– Ay arvad, bəs vallah, balta çıxdı, tapmadım. Həzrət Abbasa da bir çanax darı boşdu qaldım.

Arvad deyir:

– A kişi, Allah tifağu dağıtsın, çömçəni aparmısan balta əvəzinə. Qırılan çömçənin başıdı.

Aradan bir neçə gün keçir. Bir gün çörəh isdiyir. Arvad deyir:

– Çörəh yoxdu.

– Niyə yoxdu?

Deyir:

– Bəs yanacağ yoxdu bişirəm. Dur get bir az çırpı qır gətir, çörəh bişirim.

---

[12] Avxırrıyıfsa – itiləyibsə

Molla naəlaş qalır, durur. Molla da bir az tənbəl imiş. İndi naəlaj qalır, aj qalıf deyənə durur ulağı götürür, gedir ki, bir az çırpı gətirsin, arvad çörəh bişirsin, yesin. Biz yağtikan deyirih. El arasında sakqal odduyan da deyillər ona. Elə bir yanacaxdı ki, ipişkanı vuranda elə bil benzindi, cız eliyif başa çıxır. Gedir bu yağtikannan qəşəh iki tayça qayırır. Yühlüyür möhkəm eşşəyə. Hava da bərk soyuğmuş. Gələndə bu, yolda bərk üşüyür. Görür eşşəh də əsir. Deyir:

– Eşşəh qardaş, sən də üşüyürsən?

Eşşəh qulaxlarını tərpədir. Deyir:

– Hə, onda eşşəh qardaş, gəl tikanın birin odduyax qızışax, birin arvada aparsax bəsdi.

Eşşəh bir də qulağını çırpanda deyir:

– Hə, eşşəh qardaş, düz deyirsən.

Gətirir ipişkanı tayçanın birinə vuran təki pırr eliyir o biri tay da alışır. Eşşəyi od götürəndə eşşəh qaçır. Qavaxda da göl varımış. Daldan qışqırır:

– Eşşəh, özuu suya sal. Eşşəh, özuu suya sal.

Eşşəh nə qanır özünü suya salmağı. Bu hay-huy eliyif gəlif çatınca eşşəh ölür, qalır dişdəri ağara. Gəlir deyir:

– Ə, dişdəri nə ağardırsan? Səə deyirəm özü suya sal. Özü suya salmırsan, dişdəri ağardırsan məə sarı.

Qayıdıf gəlir. Arvad deyir:

– Ay kişi, odun hanı, eşşəh hanı?

Deyib belə-belə. Arvad başına vurur. Deyir:

– Ay kişi, başın batsın, eşşəyi də öldürdün. Eşşəh nə qanır özün suya salmağı.

Nəysə, çıxır bazara bir eşşəh də alır gətirir. Arvad deyir ki, a kişi, dur get bir tayça odun yığ gətir, sabah çörəh bişirəjəm. Nehrə çalxalıyıram, ayran cürüdüf şor qayırajam, odun yoxdu.

Deyir:

– Onda arvad, məə bir yağ yaxmacı veressən.

Deyir:

– Hə.

Durur bu eşşəyi götürür, gedir odunu qırır. Gətirəndə arada təpəçə varmış. Təpənin bu üzüynən dolaylama yol gedirmiş, bu üzüynən də kəsə yol varmış. Deyir:

– Eşşəh qardaş, gəl sən bu yolnan get, mən bu yolnan. Görəh kim tez gedif yağ dürməci alajax.

Eşşəyi burda qoyuf, kəsə yolnan gəlir. Deyir:

– Arvad, tez yağmacı məə ver.

Deyir:

– Ay kişi, eşşəh hanı?

Deyir:

– Eşşəyi qoymuşam, gəlif çıxmıyıf hələ? Tez yaxmacı məə ver, mən uddum.

Yaxmacı alıf yeyir. Deyir:

– Ay kişi, eşşəyi qoydun gəldin, çakqal-canavar eşşəyi dağıdajax.

Elə bu burdan gedən təki eşşəh özün verir kola-kosa, burda da ac canavar çıxır eşşəyi parçalıyır, yeyir. Eşşəyin bircə kəlləsi kolun dalınnan görünür. Gəlir, ora gəzir eşşəh, bura gəzir eşşəh. Gəlir görür kolun dalınnan eşşəyin başı görükür. Deyir:

– Ə, kolun dalında gizdənmisən, elə bilirsən görmüyəjəm? Yağ dürməci mən aldım yedim. Gizdənmə, çıx bəri.

Gedif görür nə? Eşşəyi canavar dağıdıf yeyif, qalıf tək kəlləsi. Gəlir arvadına deyir. Arvad başına-döşünə döyür.

Bu deyir bir eşşəh də alım, tay keçif. Bir eşşəh də alıf gətirir. Deyir:

– Arvad, bu günnən belə bu eşşəyi novatnan suvarıf otunu verəjeyih.

Arvad deyir:

– A kişi, işin yox, güjün yox, xalq mal saxlıyır, qoyun saxlıyır. Bir eşşəhdi. Mən çörəh bişirirəm, su gətirirəm, paltar yuyuram. Eşşəyi də novatnan eliyəh?

Deyir:

– Yox. Gəl qaradinməz olax. Kim sifdə danışsa, eşşəyin arpa-samanını o versin.

Bu, qaradinməz olur. Kişi oturur, nə yeyir, nə içir, nə danışır. Əlin qoyur qoynuna, oturur bir bujaxda. Arvad gedir kənarda yeyir-içir, işiynən-güjüynən məşğuldu. Eşşəh də qalır tolada aj-susuz. Arvad gətirir çörəh qoyur qavağına, bunu yemir, su qoyur yanına, çıxır gedir. Gəlir görür ki, dilinə də vurmuyuf. Üş gün keçir, dörd gün keçir. Bu gedir qonşuya. Görür qonşunun arvadı əriştə bişirif. Deyir:

– Ay qonşu, bəs başıma belə iş gəlif. Kişi ajınnan-susunnan öləjəh. Mən burda oturum, uşağ aparsın bu ərişdəni versin mollaya, bəlkə, molla içə. Mən olanda işmir.

Mənim Bəxdiyar nəvəm təki bir uşax varmış. Buna bir qav əriştə verillər ki, apar ver mollaya, işsin. Arvad çölə çıxan təki qırx lotular gəlir evə girir, görür molla dinməz-söyləməz oturuf. Bular girir evə, heş molla başını qalxızmıyıf. Deyillər:

– Ə, molla ölüf.

Mollanı nə qədər tərpədillər, molla tərpənmir. Deyillər oturduğuna baxma, molla ölüf. Evdə-eşihdə nə var yığıllar, götürüf aparanda görüllər molla dinmir. Mollanın başında bir qiymətdi papağı varmış. Papağını da götürüllər, çıxıf gedillər.

Uşax ərişdəni gətirir:

– A molla əmi, ala iş, – deyəndə molla dinmir. Əliynən belə eliyir ki, arvada deynən ki, qırx lotular evi apardı, başımnan da papağı. Uşağ elə bilir deyir ki, omacı başıma tök. Qaynar əriştəni əndərir mollanın başına. Qavı qaytarır gətirir. Uşağa deyillər:

– Bala, nağardı, işdi?

Deyir:

– Yox, molla dedi tök başıma, mən də tökdüm başına.

Arvad qışqırır:

– Ay tifağı dağılan canım, kişinin başı yandı.

Çığıra-çığıra gələndə deyir:

– Ehey, sən dilləndin, get eşşəyi suvar.

– Ay kişi, ev-eşih hanı? Başın yanıfdı, hələ deyirsən eşşəyə su ver.

Deyir:

– Yox, ay arvad, sən dilləndin, sən suvarassan.

Durur, bunun başın-gözün təmizdiyir, deyir:

– Ev-eşih hanı?

Deyir:

– Qırx lotular yığıf aparıf.

Deyir:

– Tifağın dağılsın, qaradinməzsən, barı gələnə "kiş" deyərdin də. Mən eşitmirdim ha.

Gedif görüllər eşşəh ajınan ölüf, dişdəri ağara qalıf.

## 17. MOLLA ÖZÜNÜ ÖLÜLÜYƏ VURUR

Bir gün deyir ki, ay arvad, gedim bir az odun qırım gətirim. Çıxır bir belə yekə ağaca, başdıyır üsdündə durduğu budağı kəsməyə. Mənim Bəxdiyar nəvəm təki bir ziynişka uşax gəlir, deyir:

– Ay molla əmi, o budağı kəsirsən, o qırılsa, yıxılıf ölessən.

Deyir:

– Ə, nə bilirsən öləjəm?

Deyir:

– Bəs ordasan da, budax yerə düşsə ölessən.

Molla düşür, yapışır uşağın xirtdəyinnən:

– De görüm, mən nə vaxt öləjəm? Sən mənim ölən günümü bilirsən.

Uşax deyir:

– Ay molla, vallah, mən nə bilim? Mən onu bilirəm ki, ağaş qırılsa, yıxılıf ölessən.

Əl çəkmir. Uşax da zineymiş də. Deyir:

– Ay molla, eşşəyin üş dəfə soncuxluyanda ölessən.

Durur eşşəyi qatır qavağına, gedir evə. Qavaxlar eşşəyi biznən belə bizdiyirmişdər. Eşşəh yerimiyəndə eşşəyi bizdiyir, eşşəh soncuxluyur. Soncuxluyanda deyir:

– Tay dizdərimətən öldüm.

Gəlir yoxuşa dirənəndə eşşəyi bir də bizdiyəndə eşşəh gənə soncuxluyur. Deyir:

– Hə, qurşağatan öldüm.

Tez eşşəyi dəhmərriyir[13] ki, evə tez çatsın. Evə bir mənzil qalmış eşşəyi bir də bizdiyir. Eşşəh bir də soncuxluyanda uzanır bərdən arı ki, öldüm. Gələn, gedən deyir: "Ayə, molla, molla". Nə qədər eliyillər, molla dinmir. Evə xavar aparıllar ki, molla ölüfdü. Arvad durur halva çalır ki, gedif mollanın meyidin götürüf gələ. Mollanın da balaja nəvəsi varmış. Halvadan beləjə yumurruyur, əlində gətirir camaata paylıyanda molla tutur uşağın əlinnən alır, basır ağzına. Uşax deyir:

– Molla ölmüyüf, vallah, halvanı yedi, – deyəndə yerinnən qalxır uşağa bir qapaz.

– Ə oğraş kopoğlu, molla o qədər ölü oldu bir ülüş halva yeyə bilmədi?

## 18. ÖZLƏRİ ÖZ DƏRMANINI BİLİRLƏR

Bir gün Loğman yolnan gedəndə görür ki, bir neçə çoban dağa təzə çıxıf. – Cojux deyirih, dağlarda bitir. Onu yeyəndə zəhərrənmə verir. Heyvan da onu çox yeyəndə görürdün zəhərrənir. Deyirdilər filankəsin malı cojuğa düşdü, öldü. Yaxşı tamlı

[13] Dəhmərrəmək – çubuqlamaq

bitkidi, amma tez zəhərrənmə verəndi. – Gedəndə görür ki, dağın başında çoban-çolux yığılıfdılar, bu cojuxdan yeyillər. Deyir:

– Hə, yeyin, yeyin. Mən gedif qayıdınca hamıız zəhərrənərsuz, mən də dərman hazırrıyıf verərəm, yaxşı pul yığaram.

Qayıdıf gələndə görür ki, bular, vallah, qoyunu dəyirmiliyif, hərəsinin əlində bir baydaça. Qara qoyunu tutuf ordan sağıllar, köpühlü-köpühlü südünü içillər. Deyir:

– Ay zalım uşağı, dərdizin dərmanın bilirmişsuz. – Deməк, onun zəhərini bu süd öldürdü getdi. Qara qoyunun südü zəhərrənmənin dərmanıdı. – Da sizə həkim-loğman lazım deyil. Sizin loğmanız elə özüzsüz.

Bir gün də gedirmiş. Görür ki, beş-on nəfər adam oturuf yulğunnan tonqal qalıyıf, özdərini yulğunun tüsdüsünə verir. Deyir:

– Hə, mən gedirəm, gəlincə yulğunun zəhərri tüsdüsü buların hamısının gözünü ağrıdajax, bular düşəjəh göz xəsdəliyinə. Gələjəhlər yanıma gözünə dərmana. Mən də yaxşı puldan qırıf bulara dərman verəjəm.

Gedir, qayıdanda görür həmən adamlar malın təzəyinnən beləjə dəyirmiliyif, qalıyıf oturuflar. Deyir:

– Hə, demək dərdizin dərmanını özüz bilirmişsuz. Bu mal dağlarda otduyur, yüz cür çiçəh yeyir. Hər çiçəhdən bir vitamin keçir buların təzəyinə. Buların təzəyinin tüsdüsü gözə dərmandı.

## 19. HALIMA BAX, AY MAHMUD[14]

[14] Narış Bayramovadan gəlin-qaynana münasibətlərindən bəhs edən lətifələri yazıya alanda auditoriyanın söyləyicinin repertuar seçimində nə qədər mühüm rol oynadığının bir daha şahidi olduq. İlk görüşümüz zamanı Narış Bayramova gəlin-qayınana haqqında lətifələri bizə söyləməkdən çəkinmişdi. Səbəbi də gəlinlərinin ondan narazı qalmasından ehtiyat etməsi idi. Xəstə, gəlinlərə möhtac olduğundan onları qızdıracaq bir söz söyləmək istəmirdi. Növbəti dəfə onun yanına gedəndə artıq özü söhbəti həmin lətifələrin üstünə gətirdi və gəlinlərin evdə olmamasını fürsət bilib onları bizə danışdı.

Bir gün bir arvadın gözünün ağı-qarası madar bir oğlu varmış. Bunu həvəsiyir tez evləndirir ki, gəlinim olsun, nəvəm olsun. Gəlin gələn günnən bu arvadın günü göy əysiyə dönür. Buna iy vermir, yedirtmir, içirtmir. Bu oğul çıxıf gedir sabah-ertə, bir də axşam gəlir. Görür bunun nənəsi günü günnən qupquru quruyur.

– Ay ana, dərdin nədi, xəsdəsən?

– Yox, ay bala.

Arvad da dərdin buna demir.

– Ay ana, de görüm nədi, niyə beləsən? Mən qazanıram, aj qalmırsuz, susuz qalmırsuz. Sizin ehtiyacız üçün mən günüz axşamatan çalışıram ki, mənim anam, aylәm aj qalmasın. Bax, sən niyə beləsən? Bu gəlin günü-günnən kökəlif şişif, ennən-dənnən çıxıfdı, amma sən beləsən.

Bu demir ki, gəlin məə zulum verir. Deyir:

– Ay oğul, vallah, nə bilim, surfaya qoyulanı görürsən. Sən də yeyirsən, mən də yeyirəm. Heş xəsdəliyim də yoxdu.

Demə, bu gəlin günü qara olmuş, oğul evdən çıxannan mütəkgəni qoyuf uzanırmış. Deyirmiş, nə iş var, qaynənə? Qapını süpür, quyudan su çək, heyvannarı sula, heyvanın altın təmizdə, xamır ajıt, çörəh bişir, yeməh qayır, paltar yu. Nə iş varmış hamısın arvada gördürürmüş. Arvad yoruluf taqətdən düşəndə gəlif deyirmiş:

– A bala, bir loxma çörəh ver, heç olmasa yeyim, taqətim olsun da.

Deyir:

– Onda mən lillili çalajam, sən oyna. Oyna, səə bir tikə çörəh verim.

Arvadın əlacı yoxuymuş da, nağarsın. Gəlin vedrənin dalına belə dumbadum eliyirmiş, arvadı oynadırmış, axırda buna bir tikə çörəh verirmiş, yeyirmiş. Buna görə də arvad günü-günnən sınıxırmış.

Bir gün bu oğlan sabah-sabah duruf qazanca gedəndə, bir qonşusu varmış bunun, qonşu bunun qabağına çıxır. Salam-kalam. Oğlanın adı da Mahmudmuş.

– Ay Mahmud, vəziyyətin-zadın? Evdə-eşihdə nə var, nə yox?

Deyir:

– Vallah, anam nəysə yaman geridi. Anamın bu halı məni heş rahat eləmir. Oların ujunnan gejəm-gündüzüm yoxdu. Çalışıram, gündəlih yeməklərin, yağların, çörəhlərin, ətdərin, azuqələrin gətirirəm, anam genə də qupquru quruyuf gedir. Bilmirəm anamın dərdi nədi. Mənə də heş-zad demir.

Deyir:

– Oğul, mən sənə bir söz deyim. Sən qayıt səfərdən. Get pus, anaan vəziyyətin gözünnən gör. Ananın nəysə bir sirri var, sənnən gizdiyir, – deyəndə bunun ağlına batır. Qayıdır gəlir evinin yaxın yerində gizdənir. Görür gəlin yıxılıf bərdən ayna, mütəkgəni qoyuf dizinin altına, nənə də pərvan-pərvan qulluxçu təki qapını süpürdü, quyudan su çəkdi, qapını suladı, heyvannarı suladı, paltarı yudu, çörəyi bişirdi. Gün günorta-dan addadı. Axşam olanda gəldi dedi:

– Ay gəlin, vallah, ürəyim getdi, bircə loxma çörəh ver, – deyəndə gəlin dedi ki, şərtimiz var, oyna, çörəh verim.

Başdadı vedrənin arxasını danqıldatmağa. Arvad girdi ortalığa,

Halıma bax, ay Mahmud,
Huluma bax, ay Mahmud.
Oynadıf əppəh verillər
Əhvalıma bax, ay Mahmud,

– deyə-deyə başdadı oynamağa. Mahmud çıxdı:

– Ay filan-filanın qızı, belə eliyirsən, onçün nənəm belədi.

Arvadın belinə bir-iki ağaş çəkir, arvad durur küsülü qaçır. Bir müddət qalannan soora arvad deyir:

– Bala, balalaru anasız qoyma.

Gedir özü yalvar-yapış eliyir, gəlini gətirir. Gəlin onnan soora and içir, tova eliyir. Qaynənəynən islah dolanır.

## 20. İZ EŞŞƏYİN, FİL[15] GƏLİNİN

Gəlinnərdən dedik, indi qaynənələrdən deyək. Birinin də bir gəlni olur. Bu gəlin hamilə olur. Kadınnarda deyillər də ağzı azır. Bunun dooğadan ötrü ürəyi gedir. İsdiyir ki, dooğadan ötrü ətini darta, yeyə. Bir günü bunun qaynənəsi bir qazan dooğa bişirir. Bunnan bir qaşıx gəlinə vermir. Bu gəlin dooğa sarıdan az qala hönkür-hönkür ağlıya.

– Allah, nətər eliyim, nejə eliyim, dooğadan ötrü ölürəm axı. Bir qazan orda dursun, mən də burda baxa-baxa qalım.

Arvad durur, qazanı qoyur evin ortasına, evi möhkəm sucux eliyir, sudan tökür. Özü də deyir ki, mən gedirəm qonşuya, axşam gələjəm. Bu gedənnən soora gəlin qalır. Axı ürəyi gedir, bu dooğadan işməlidi. Deyir: "Neyniyim, nejə eliyim? Ayağımı qoyan təki izi düşəjəh. Arvad gələn təki bilәjәh ki, mən gedif dooğanı işmişəm". Əlacı kəsilir, eşşəh vardı, durur eşşəyi minir, avgərdəni də götürür əlinə. Saxlıyır qazanın yanında. Avgərdənnən götürür bu dooğadan doyunca içir. Tamam nəfsi sönür. Qayıdır gətirir gənə eşşəyi boşduyur, gəlir oturur.

Arvad gəlir görür, vay evi yıxılan fələh, qazan yenif ortasına, evdə də heç iz yoxdu, eşşəyin izidi. Arvad məhətdəl qalır. İz eşşəyin izidi, fil gəlinin filidi. İşdi, işdi, yarəb, nəynən işdi? Arvad elə belə deyə-deyə canın tapşırır. Can verən anda deyir: "İz eşşəyin izidi, fil gəlinin filidi. İşdi, işdi, yarəb, nəynən işdi?" Gəlin gəlir deyir ki:

Eşşəyi mindi,
Avgərdəni götdü,

[15] Fil – fel, əməl

Getdi dooğanı işdi,
Səni də cəhənnəmə göndərdi[16].

Onnan soora arvad canını tapşırır.

## 21. ALTI DAŞ, ÜSTÜ AŞ

Biri də olur, bir tək oğlu olur. Bunu evləndirir. Oğul axşamatan çalışır-vuruşur, axşam evə az-çox azuqə gətirir. Gənə bunun da nənəsi günü-günnən geri gedir. Deyir:

– Ay nənə, dərdin nədi? Yeməhdən ehtiyacın yox, işməhdən ehtiyacın yox. Sizin ujuzdan mən gejə-gündüz çalışıram ki, siz aj qalmıyın.

Deyir:

– Ay bala, hez zad yoxdu. Gözün görür, surfadı, hərəyə bir tikə gəlir, məə də gəlir. Aj qalmıram, açıx qalmıram. Amma nədisə sınıxıram.

Gəlin boşqaba bir dənə lay daş qoyuf, üsdünə də bircə qaşıx yeməh səpəliyərmiş, guya boşqab doludu. Qoyurmuş arvadın qavağına. Arvad da bir loxma götürəndə daşa dirənirmiş. Bunnan da arvadın qarnı doyan deyilmiş ha.

Nəysə, arvad dözmür, bir qızı varmış, gedir qızının evinə. Gedir ki, bəlkə orda qarnı doya. Gedəndə bunun yeznəsi də gəlinnən bedahat olur. Qızının günün qara eliyif. Nənən nəyə gəlif, oğluna nə gəlif? Yeməyi nənənə verdin, o gələnnən bəri bizə baxmırsan. Daa bu arvad baxır görür ki, qızının günü qaradı. Deyir:

– Ay bala, altı daş, üsdü daş, genə də oğul yaxşıdı. Qoy qayıdım gedim oğlumun yanına.

Durur gəlir oğlunun yanına. Arvad hər surfa gələndə deyir:

– Altı daş, üsdü aş, gənə də oğul yaxşıdı.

Oğlu deyir:

---

[16] Sonuncu misra imanıva s..dı olmalı idi. Misranın yarısını deyən söyləyici arxası biədəb gəldiyi üçün onu dəyişdirir.

– Ay nənə, bu nə sözdü, bu nə əzbərdi, eləmisən? Bunun sirrinnən məni agah elə.

Deyir:

– Bala, altı daş, üsdü aş, gənə də oğul yaxşıdı. Neynirsən, bir sözdü deyirəm, sən xırdalama.

Nəysə, bir gün oğlu fikirrəşir ki, "altı daş, üsdü aş" nə olan şeydi. Deyəndə götürür nənəsinin boşqabını qoyur öz qavağına, özünün boşqabını qoyur nənəsinin qavağına. Bu oğlan bir tikə batıranda görür nə? Altı daşdı. Daşı götürüf arvadının kəlləsinə, arvad yıxılır bərdən ayna. Ay sənin dədən bı, nənən bı. Deməknənəmin altı daş, üsdü aş dediyi buymuş. Onnan soora o da heylə düzəlir.

## 22. YAMAN DƏRDDİ, BACI

Bir arvadın da üş gəlini olur. Bu arvad bu gəlinnərə zulum verirmiş. Bir gün arvad deyir ki, mən dururam gedəm qonşu kəndə, molla var, onun yanına. Gəlinnər tək qalanda deyillər ki, buyünnəri qaynənəmiz evdə yoxdu. Durax nəsə bişirəh, yeyəh. Nə bişirəh, nə bişirəh? Ay qazan bulaşajax, qaşıx bulaşajax, yağ olajax, arvad biləjəh. Deyəndə balaja qız deyir ki, gətir kömbə bişirəh. Qavaxlarda belə kömbə bişirirmişdər, külə basdırırmışdar, içinə ayın-oyun qoyuf soğannı-zaddı bişirirmişdər. Bular gətirir ojağı qalıyır, kömbənin xamırın yoğurullar. Salıllar, elə kömbəni bişirif ojaxdan çıxardanda qəfil arvad gəlir. Arvad gələndə deyillər, ay bajı, nağarax, gəldi? Deyillər kömbəni bağlıyax tumanın altınnan belimizə, suya gedəndə aparıf orda yeyəh. Bunu evdə harda gizdətsəh arvad iyinnən biləjəh. Kömbə soğannı-zaddı bişərmiş, iyi evə yayılan olurmuş. Gətirillər bunu büküllər bir yaylığa, bağlıyıllar böyüh bajının belinə. Qaynar kömbə bunu yandırdıxca gəlin ayna-bayna soncuxluyur.

– Vay, vay, vay, yaman dərtdi bajı, – deyəndə ortancıl bajı deyir:

– Qorxma, bağı bərhdi, bajı.

Yəni möhkəm bağlamışam da, açılmaz. Deyəndə balaja bajı deyir:

– Bilsə, yaman dərtdi, bajı.

Arvad bunnan annıyır, deyir:

– Deyin görün bu nə sözdü? Bir də deyin mahnuzu.

Böyüh bajı soncuxladıxca deyir:

– Baba, baba, baba, yaman dərtdi, bajı.

Ortancıl deyir:

– Qorxma, bağı bərhdi, bajı.

Kiçih deyir:

– Bilsə, yaman dərtdi, bajı, – deyəndə arvad deyir:

– Bura gəlin görüm sizin nə sirriz var?

Buları lütdüyəndə baxır görür kömbə gəlinin belində. Kömbəni alır özü yeyir, buların da hərəsinin belinə bir-iki dəfə vurur:

– Mən yox idim, deмək, belə eləmisiz?

## 23. YERİN-GÖYÜN AĞIRLIĞI

Bir gün Həzrət Əli durur xidmətçisini də götürür ki, Xeyri, dur gedəh bir el içində hərrənəh da. Bir çayın qırağın-nan keçəndə görür ki, bir qoja kişi yanında da bir zənbil yornux oturuf. Deyir:

– Ey qoja, niyə burda oturmusan?

Deyir:

– Ya Əli, yorulmuşam, zənbilim də ağırdı, götürə bilmirəm.

Deyəndə Xeyriyə deyir ki, düş bu qojanın zənbilini götür, qojanı qoy atın belinə, biznən getsin. Xeyri də çox qüvvəli imiş. Nə qədər güj verirsə, zənbili yerinnən qaldıra bilmir. Deyir:

– Ya Əli, vallah, bu, zənbilə nə yığıfsa, yerinnən tərpədə bilmirəm.

Həzrət Əli, deyir, qəzəbnən yerə nətəər tullanırsa, dizə qədər torpağa qərq olur. Zənbilə əl atır, görür həqiqi də zənbil yerdən qalxmadı. İki dəfə güj verir, üçüncü dəfə yönün çöyürür, iki rükət namazın qılır. “Ya Allah, maa güj ver” deyif yerdən nətər qaldırırsa, özü boyda qaldırıf nətər tulluyursa, zənbil düz yerin yeddi qatına qədər qaplanır yerə. Həzrət Əlinin gözdərinə qan damır. Qayıdır görür ki, qoja yoxdu. Deyir:

– Ey Cəbrayıl, sən idin gənə qabağıma çıxdın? Sən iki dəfə cəhənnəmdə yanmısan, qanad-quyruğun yanıf-ütülənmiş halda mən azad eləmişəm. Üçüncü dəfə əlimə keşsən səni azad eliyə bilmiyəjəm. De görüm, Cəbrayıl, nə vardı bu zənbildə?

Deyir ki, sənin anadan olduğunu mən gözümnən görməsəm, səə Allah deyərdim. Ona görə ki, Allah-taala yernəngöyün ağırrığın o zənbildə birrəşdirmişdi. Mən sənin qüvvəni yoxlamax üçün Allah-taala tərəfinnən gəlmişdim bura. Yernən göyün qüvvətin qaldırajax qədər Allah-taala səə güj-qüvvət verifdi. Ta bu günnən belə sənin qarşına mən çıxmaram, ya Əli.

## 24. ATIN ÜZƏNGİSİNƏ ÇIXAN QAN

Buyünkü gündə (Ramazan ayını nəzərdə tutur – top.) Cənab Əli Əleyhsalamı da yada salax. Cənab Əli Əleyhsalama Allah-taala o qədər qüdrət, səxavət vermişdi ki, o qüdrətə, qüvvətə görə onun bir o qədər də səxavəti, sədaqəti vardı. Cənabi Əlinin bir atı vardı, adı Düldül idi. Şəhadət barmağını belə götürəndə Düldül harda olsa gəlif pişih təki qarnını yerə verif elə uzanarmış ki, Əlinin bərabərində durardı. Əli əziyyətsiz suvar olarmış Düldülə. Düldül yerinnən elə qalxarmış ki, Əlinin başında əmmaməsi tərpənməzdi. Əlinin bir qılıncı varmış ki, bir arşın uzunnuğu, bir qarış da eni varmış. Arxası da kəsərmiş, ağzı da kəskin imiş. Cənab Əli müharibəyə gedəndə qılıncını bir dəfə hərriyəndə yeddi metr sağa, yeddi

metr sola, yeddi arxaya, yeddi önə bütün düşməni qırıf-töküf gedərmiş. Arvatdar qarğış edəndə deyərmiş “səni Əlinin qəzəbinə gələsən”, “Əlinin Zülfüqarına düçar olasan”. Allah cəmi bəndəsini Əlinin qəzəbinnən qorusun, Əlinin Zülfüqarınnan qorusun. Əlinin səxavətinə qismət eləsin.

Allah-taala Əlini Məhəmməd peyğəmbərimiz (salavat çəkir – top.) üçün canişin yaratmışmış. Məhəmməd peyğəmbər hər vaxt müharibəyə gedəndə Cənab Əliynən gedirmiş. Bir dəfə düşman gəlir peyğəmbərimizi müharibəyə çağıranda Əli uzax bir səfərdə oluf. Bu, Əlisiz gedif müharibəyə, çox böyüh itki verif. Peyğəmbərimizin adamlarının çoxu şəhid oluf, özü dörd-beş yerdən ağır yara alıf, qan itirif. Axır halında əl götürüf Cənab Əlini çağırır:

– Ya Əli, harayıma gəl, tək qalmışam meydanda, – deyəndə altı aylıx yoldan Əlinin qulağına səda gəlif. Qalxıf deyir:

– Qənbər, peyğəmbərimiz məni çağırır, getdih.

Qənbər də bunun sadiq qulu idi. Deyir:

– Ya Əli, nə bildin?

Deyir:

– Ağamın səsi qulağıma gəldi.

Altı aylıx yolu Cənab Əli bir su içim saatda gəlir, özünü yetirir peyğəmbərə.

– Ya peğəmbərim, nədi, məğlubiyətə uğramısan?

Deyir:

– Hə, ya Əli, bəs düşman güjdü oldu.

Deyir, Əli özünü vurur qoşuna. Orda nətəri qəzəflənirsə, and içir ki, qan atımın üzəngisinə qədər çıxmıyınca mən döyüşdən qayıtmıyajam. O qədər qırır insanı. Allah-taala görür Əli o qədər qəzəflənifdi, dünya üzündə insan qalmıyajaxdı. Əmr eliyir Mikayıla, deyir:

– Eylə bir yağış yağdırarsan ki, qana qarışar, Əlinin atının üzəngisinə qədər qannı su qalxar. Bəlkə, Əli bu yolnan qayıda. Yoxsa Əli bərk qəzəflənif, qayıtmıyajax.

Allah Əlinin qəzəbinnən qorusun cəmi bəndələrini. Cəbrayıl hökm eliyir Mikayıl mələyə. Göy üzünnən yağışı endirən odu. Elə bir leysan yağış yağır ki, sel-su qalxır düz Əlinin atının üzəngisinə qədər. Onnan soora Əli deyir "hə, da atımın üzəngisinə qalxdı", davadan qayıdır. Allah Əlinin qəzəzbinnən cəmi bəndəsini qorusun.

## 25. SAİLİ BORCDAN QURTARAN ƏLİ

Bir gün bir sayıl gəlir Əlinin qapısında ağlıyır. Əli deyir:

– Ey sayıl, nədi isdəyin?

Deyir:

– Ya Əli, canım sənə fəda olsun, var-qərəl, gözümün nuru bircə dənə evladım var. Bəs bir sələmçidən pul götürmüşəm, indi bir il tamam oluf, mən də düzəldif verə bilmədim. Sələmçi gəlif mənim oğlumu girov götürüf. Qalmışam belə. Nə pulu verə bilirəm, oğlumu da aparıf. Mən neyniyim?

Deyir:

– Gəl gedək.

Bu sayılın qavağına düşür, gəlir sələmçinin yanına. Deyir ki, de görüm, ey sələmçi, bu adamı niyə girov götürmüsən? Deyir ki, bir ildi mənnən pul götürüf, vermir. Mən də oğlun götürmüşəm, aparıf satıf qul bazarında pulumu çıxajam. Deyəndə Cənab Əli deyir ki, bunun evladını ver, mən bunun sələmini ödüyəjəm. Deyir:

– Nə vaxta qədər?

Deyir:

– Gün günortaya gələnə qədər mən bunun sələmini ödüyəjəm, bunun evladını ver.

Deyir:

– Onda sən mənim yanımda girov qoymalısan, mən girovsuz oğlanı azad etmərəm, – deyəndə Cənab Əli öz evlatdarı İmam Həsənnən İmam Hüseyni – yeddi yaşında uşaxmış – bunnarı qoyur bu sələmçinin yanında. Deyir:

– Saxla, mən günortaya qədər pulu gətirif evlatdarımı götürəjəm.

Bu uşaxlar qalır burda. Uşaxlar burda oynuya-oynuya keçir məhlənin divində bir xurma ağacının altında oynaşıllar. Bir dənə də ahu balası... Bu bir misaldı ki, günü günortadan qaytarıf, saili borcdan qutarıf, ahunu balasına yetirən kişi cəmi azru-diləhlərinizi yerinə yetirsin. Bir ahu balası da oynuya-oynuya gəlif xurma ağacının divinə. İmam Həsənnən İmam Hüseyn bu ahu balasını sığallıya-sığallıya buları yuxu tutur, yatır. Buları yuxu tutanda Allahın hökmüynən elə bir yağış yağır, elə bir leysan düşür ki, bütün dünyanı su götürür. Bağbosdanı sel aparır. Bu sələmçi deyir ki, tifağın dağılsın ay canım, girov götdüyüm uşaxları sel apardı, mən qaldım belə. Bu adam pulu gətsə, mən nə cavab verəjəm.

Cənab Əli gedir pulu hardan götürürsə elə olur ki, yarım saat pul gej çatır. Əli üzünü qivləyə çöyürür, bir rükət namazını qılır, Allah-taalaya deyir:

– Ey Allah-taala, məni yalan eləmə bəndənin yanında, gün yarım saat qayıtsın geri.

Allah-taalanın izniynən gün yarım saat qayıdır geriyə, düz durur tən ortada. Əli gəlir pulu verir. Deyir:

– Pulun düz oldumu? İndi mənim balalarımı gətir.

Belə deyəndə bu, hönkür-hönkür ağlıyır. Deyir:

– Ya Əli, yanında üzü qarayam. Bəs uşaxlar oynaşırdı bağda, qəfil yağış yağdı, sel gəldi, nə var hamısını yudu apardı. Yəqin ki, uşaxları da sel apardı.

Əli deyir:

– Mənim evlatdarımı sel aparmaz.

Bir dəfə çəliyini o üzə, bu üzə eliyir, sel yarılır, yol açılır. Cənab Əli gedir görür ki, balaları ikisi də qujaxlaşıf, ahu balası da buların qujağında yatıfdılar. Bu zonaya elə bil çəpər çəkmisən, bir damcı yağış belə düşmüyüfdü. Ahu da qalıf o üzdə məliyə-məliyə. Bu, uşaxlarını oyadıf. Cənab Əli əliynən işarə eliyir, yol açılır. Ahunun balası gedir öz anasına qavışır, Cənab Əli də öz balalarını götürür gəlir. Cənab Əlinin heylə səxavətdəri çox oluf.

## 26. GƏLİN QAYASI

Bəylih vaxdında bəyin qızını bir çoban sevir. Bular bir-birinə aşiq olur. Çoban qızı isdiyəndə bəy qızı vermiyif ki, yanımda saxladığım çobana mən qızımı verən deyiləm. Bular qızı başqasına vermək qərarına gəlillər. Qız oğlana deyifdi ki, məni özgəsinə verillər. Oğlan deyir: "Gəl qoşulax qaçax". Olar qaçıllar, düz gəlillər o qayanın başına. O qaya da elə bir qayadır ki, altında duranda elə bilirdin adamın üsdünə uçajaxdı. Başında da onun bir ojax yanır. Olar gəlif həmin qayanın başına çatanda bəyin atdıları gəlif buları tutur. Qız deyir ki, vallah, məni burda tutsalar, səni öldürəjəhlər, məni də aparıf həmən o isdəmədiyim oğlannan evləndirəjəhlər. "Belədi, belədi, mən özümü öldürürəm", – deyif qız özünü qayadan atır. Gəlif oğlanı tutullar, onu da orda öldürüllər. İkisini də, deyilənə görə, o yalın başında basdırıllar.

O ojağa mən getməmişəm, amma ora çox adam gedirdi. Qurban deyif, aparıf yalın başında kəsirdilər. Deyillər, orda iki

dənə baş daşı var. Hər iki qəbrin arasında necə ojax yanar, çırax yanar, hiss olar ha, o qayda hisli qara çuxur varmış. Deyirdilər ki, o oğlannan qızın sevgisidir orda yanır hər cuma axşamı. O yananı mən özüm də görmüşdüm. Hər cuma axşamı görürdün saat birə, ikiyə qədər nazik şam yanardı. Ulduz vardı, o ulduz-dar doğana qədər o şam yanırdı.

## 27. AXTAMAR GÖLÜ

Tamara addı bir erməni qızı olur. Bu, müsürman oğluy-nan sevişir. Din buların evlənməsinə icazə vermir. Tamaranın atası qızı öz dinnərinnən olan başqa birisinə verəndə gəlir sevgilisinə deyir ki, məni başqasıynan evləndirillər. Gedir çıxıllar Axtamar gölünə. – Bizim kəndimizdə Zülfü var, feld-şerriyi qutarıf. Bizi apardı Axtamar gölünə. Orda o söypət eliyirdi ki, burda belə bir əhvalat olufdu. – Axtamar gölünün başında bir dənə qəlbi qaya vardı. Deyir, bular qayanın başında oturuf söypət eliyəndə qız deyifdi ki, məni beyjə məjbur da olsa, verəjəhlər erməninin oğluna. Mən ona getmi-rəm. Erməni olduğumuza görə atam deyir səni müsürman millətiynən evləndirmərəm. Deyir, mən sənnən evləndim ev-ləndim, evlənmədim, özümü atıf bu gölə öldürərəm, o oğlana getmərəm. Tamara özünü qayadan atır o gölə, boğuluf ölür. Qız özünü atanda oğlan arxasınca çığırır. “Ah Tamara” de-yəndə bunun səsi qayada əks-səda verir. Oğlan da özünü atır, olar ikisi də nakam orda ölüllər. Orda hər kəs gəlif ah eli-yəndə o qayadan həmən əks-səda eşidilirdi. O sədaya görə o gölün adını Axtamar qoymuşdular.

## 28. QOTUR GÖLÜ[17]

---

[17] Sisyan rayonunda yerləşir.

Ermənistan tərəfdə bir təpənin başında su var idi, ona Qotur suyu deyirdilər. Eşitdiyimə görə, onu bir dəvə tapıf. Bir adamın bir dəvəsi oluf, bunu açıf boşduyuf. Deyif bu qoturdu, sürümə qotur salar. Bu dəvə gedif o gölü tapıf. Susuyuf, girif o gölə.

Bir aydan sohra kişi gedif baxanda görüf bu dəvə elə oluf gür-gümüş təki. Bu dəvənin bir dənə də qoturu qalmıyıf. Deyiflər, bu nədi. Gözdüyüflər, görüflər dəvə günüz otduyurmuş, günorta gün qızanda gəlif o göldə yatırmış. Demək, onnan o suyu tapıflar.

Dağa gedəndə yarası-xorası olannar, geyişməsi olannar orda çimirdi.

## 29. AŞIĞAM, VƏTƏN SARI

Aşığam vətən sarı,
Geymişəm kəfən sarı.
Başımı kəsən cəllad,
Üzümü qoy vətən sarı.

Deyirdim, ay dədə, daima bunu oxuyursan, ayrı söz bilmirsən? Deyirdi:

– Ay qızım, o sözdə böyüh məntiq var, ona görə onu oxuyuram.

Deyirdim:

– Nədi?

Deyirdi:

– Bizdən çox-çox irəli oğuz elinnən bir sərkərdə yadelliyə əsir düşür. Buların da qanunu buymuş ki, əsir düşəni edam eliyirmişdər. Edam edilən adamlara sarı keçinin qəzilinnən köynəh geydirirmişdər, başını qoyuf taxdanın üsdünə qılışnan boynunu vurallarmış. Padşah əmr eliyir cəllada ki, bunu aparar-

san meydana, edam edərsən. Bu adamı gətirillər meydana. Edam eliyəndə deyillər ki, son arzun nədi?

– Son bir ərzim bircə kəlmə sözüm var, izin verin deyim.

Deyir:

– De.

Deyir ki, ay cəllad qardaş,

Mən aşıx vətən sarı,
Geydirdin kəfən sarı.
Başımı kəsən cəllad
Üzüm qoy vətən sarı.

Cəllad deyir:

– Ay qardaş, o nə sözdü, mən onnan bir şey annamadım?

Deyir:

– Mənim boynumu sən vureyssan, mənim üzümü vətənimə sarı qoy.

Deyir, bu cəllad rəhmə gəlir ki, gör vətən bunun üçün nə qədər əzizdi ki, ölümlü günü deyir heç olmasa üzüm vətən sarı olsun. Deyir ki, mən padşahdan izin alıf səni vətəninə çatdırajam. Gəlir ağasınnan izin alır ki, bunun bizim elimizdə qanı tökülməsin. Aparım öz ellərində qətlə yetirim, qanı öz ellərinə tökülsün. Bu dilnən ağasınnan izin alır, götürür gətirir öz vətəninə. Deyir ki, qardaş, madəm ki sən belə dedin, ona görə mən səni bağışdadım, get.

Atam deyirdi, o bir kəlmənin üsdündə o əsir həm ölümnən azad oluf, həm də gəlif vətəninə qovuşuf. Ona görə mən həmmişə onu oxuyuram. Cəllad onun köynəyini alıf, bir dovşan öldürüf onun qanına buluyuf, gətirif ağasına verif ki, öldürdüm. Bu da azad oluf gedifdi öz elinə, öz obasına, öz torpağına qavışıf. O gün olsun ki, biz də öz Qarabağımıza, öz torpağımıza qavışax.

## 30. BEYLƏQAN VƏ BİLƏSUVAR HAQQINDA

Dəyirmançı seyid Mehdi ağa vardı, dədəmlə siğə qardaş olmuşdu. Əllərini kəsib qanlarını qarışdırıb qardaş olmuşdular. Ona görə o kişi atamı adıynan çağırmazdı, qardaşağa deyərdi, atam da ona müraciət edəndə qardaşağa deyərdi. Gəlif oturuf söhbətdəşirdilər. O kişi deyirdi ki, vaxtilə İrandan iki sərkərdə gəlir, biri Beyləqan ərazisində məskən salır, biri Beləsuvar ərazisində. Siftədən Araz çayı Beyləqandan axıb. Beyləqandan olan sərkərdə başdıyır əkinnən-biçinnən məşğul olmağa. Beləsuvardan olan da yad eldən gəlmə sərkərdə idi. Beyləqannıya deyifdi ki, sudan ver mənim də qoşunum əkin-biçinnən məşğul olsun. Deyif ki, yox, su mənim ərazimdən keçir, vermirəm. Nəysə, bunun üsdündə buların davaları düşüfdü. Onda Beləsuvardan olan sərkərdənin qoşunu atdı idi, Beyləqandan olanın qoşunu piyada. Beləsuvarlının suvarı qoşunu gəlib beyləqannının piyada qoşununu məhv eliyir, bütün dünya, yer-göy qan olur. Arazın suyunu da qırılan qoşunun üsdündən bağlıyıflar, Arazın suyu qan olufdu. Bir ustad aşıq sazı döşünə basıb deyir:

Mən aşığam, Beyləqan,
Belə qırğın, beylə qan.
Hər yerə qan töküldü,
Tökülmədi beylə qan.

Demək, Beyləqan sözü ordan qalıb. Gənə də aşıx keçif deyif:

Mən aşığ, beylə suvar,
Atdandı beylə suvar.
Gəldi yad suvarı,
Oldular beylə suvar.

Yəni yad qoşunu atın belinə suvar oldu, gəlif qırdı.

# MUSA ŞÜKÜR OĞLU BAYRAMOV

**Musa Şükür oğlu Bayramov** – 1934-cü ildə Bərdə rayonunun Seyid Yusifli kəndində andan olub. Təhsilsiz olmasına baxmayaraq, yazıb oxumağı bacarırdı. Vaxtilə kolxozda suçu işləmiş Musa Bayramovun həm də gözəl səsi var idi, yas yerlərində, məhərrəmlik axşamlarında mərsiyə ifa edərmiş.

Musa kişi hələ uşaqlıq illərindən şifahi ədəbiyyata böyük maraq göstərmişdi. Özünün dediyinə görə, vaxtilə qış aylarında kəndə aşıqlar gələr və devran keçirərdilər. O vaxtı ağsaqqallar iştirak edən məclislərə uşaqları yaxın buraxmasalar da, o, haradan olsa içəri girib onların söhbətinə qulaq asardı. Şifahi sözə olan marağının nəticəsidir ki, sonralar o, özü də evində devranlar təşkil etməyə başlayır. Hətta belə devranların birində onun başına maraqlı bir əhvalat gəlir. Musa Bayramovun dediyinə görə, Tərtər bazarında kartof satarkən iki cavan aşıqla qarşılaşır. Aşıqlar onun Bərdə rayonundan olduğunu öyrənib orada devran keçirmək istədiklərini bildirirlər. Aşıq sənətinin vurğunu olan Musa kişi də onların sözünü yerə salmır, öz ünvanını verir və nə vaxt istəsələr onun evində devran keçirə biləcəklərini söyləyir. Aşıqların gəlməsi münasibətilə Musa kişi bir toğlu kəsir, kəndin yaşlı, ağsaqqal adamlarını öz evinə devrana dəvət edir. Sonra baş verənləri Musa kişi belə nağıl edir: "Aşıqlar iki cavan oğlan idi. Yerdən döşəyi saldım, gələn oturdu. Çörəyi verdim, yedilər. Surfanı yığışdırandan sonra Seyid Yusif ağa aşığa dedi ki, bala, nağıl bilirsənmi? Dedi, hə, bilirəm. Dedi ki, dur, bildiyin nağılların adını de, bizim xoşumuza gələn olsa, mən deyəcəm filan nağılı söylə. Durdular sazı, balabanı kökl ədilər. Aşıq, Ələsgərin "Müşkünaz" şeirini oxuyanda Seyid dedi, a bala, onu çobanlar da bilir. Sənə nağıl deyirəm. Tez balabançı balabanı aldı. O çaldı, aşıq da Növrəs İmandan "Bir şə-

hərdə altı dərviş, onun pak əsası var” misralı şeirini oxudu. Seyid dedi, sağ ol, bala. Yaxşı sözdü. Bildiyin nağıllardan de. Deməynən bular nağıl bilmirmiş. Dedi, seyid baba, vallah, təzə öyrənirik, bizdə nağıl yoxdu. Elə aşıqların, şairlərin sözlərinə razı olsanız, deyərəm. Seyid dedi, şairin sözünü neynirəm, mən özüm də elə şairəm. Sənə mən aşıq nağılı deyirəm”. Bu hadisədən sonra ağsaqqallar məclisi tərk etmiş, Musa kişi də utandığından xəcalətli vəziyyətə düşmüşdü.

Bizim Musa Bayramovla görüşümüz 2012-ci ilə təsadüf edir. Həmin ilin iyun ayında folklor örnəkləri toplamaq üçün Bərdə rayonuna ezam olunmuşduq. Rayon Mədəniyyət Şöbəsində təşkil olunmuş görüşlərdən sonra Seyid Yusif ağa ocağı haqqında məlumat toplamaq üçün ağanın adını daşıyan kəndə yola düşdük. Əvvəlcə Seyid Yusif ağanın evində olduq, bu ocaq haqqında, ağanın kəramətləri haqqında onun nəvəsindən bir neçə mətn qeydə aldıqdan sonra kəndin ağsaqqalları ilə, o cümlədən Musa Bayramov ilə görüşdük. İki dəfə Musa Bayramovun evində olduq və ondan altı saatlıq folklor materialı topladıq. Ondan 14 nağıl mətni yazıya aldıq ki, bunun da ikisi – “Padşah oğlu” və “Qaraçuxasını yatıran şəxs” nağılları ilk dəfə qeydə alınmış süjetlərdir. Digər nağıllar isə məlum süjetlər əsasında qurulsa da, həm söyləyici təhkiyəsinə, həm də bəzi motivlərinə görə ənənəvi variantlardan fərqlənir. Məsələn, “Məlik Məhəmməd” nağılı məlum AT 301 nömrəli süjet əsasında qurulsa da, nağılın ekspozisiya hissəsi ənənəvi variantlardan tamamilə seçilir. Nağıl iki qonşunun Allahdan dilək diləməsi ilə başlayır. Qonşulardan biri evdəki bütün əşyalarının qızıla dönməsini, o biri isə 40 oğlunun olmasını arzulayır. Allah onların arzusunu yerinə yetirir. İkinci qonşu evə gəldikdə hamilə arvadının 40 uşaq doğduğunu görür və bu qədər uşağa baxa bilməyəcəyi üçün evi tərk edir. Daha sonra nağıl AT 301 nömrəli süjetə məxsus gedişlərlə davam edir.

Toplanmış nağıllar arasında "Quş dili bilən İsgəndər" nağılının isə indiyə qədər iki variantı məlum idi. Musa kişidən qeydə alınmış variant həmin süjetin yayılma arealını müəyyənləşdirmək, digər tərəfdən nağılın məzmununu daha yaxşı başa düşmək baxımından böyük əhəmiyyət kəsb edir.

Əslində Musa Bayramovun şifahi irsi topluya daxil edilmiş nümunələrlə məhdudlaşmır, o, daha zəngin repertuara malikdir. Özünün dediyinə görə, vaxtilə nəvələri maraq xatirinə onun bildiyi nağılların siyahısını tutmuş və otuza qədər nağıl adı qeyd etmişlər. Biz ondan həmin nağılların ancaq bir qismini yazıya ala bildik. 2013-cü ilin yazında bölgəyə növbəti folklor səfərimiz zamanı Musa Bayramovla yenidən görüşüb digər nağıl nümunələrini də yazıya almaq istəsək də, artıq onun dünyasını dəyişdiyini öyrəndik.

Musa kişinin dediyinə görə, vaxtilə "Alı xan və Pəri xanım", "Valeh və Zərnigar" və daha iki dastanı şeiriyyəti ilə bir yerdə bilirdi. Biz onunla görüşəndə həm yaşlaşdığından, həm də uzun müddət ifa etmədiyindən artıq onları unutmuşdur. Yalnız "Alı xan və Pəri xanım" dastanının məzmununu bizə nağıl edə bilmişdi.

## 31. ŞAH İSGƏNDƏR

Şah İsgəndər deyilənə görə, çoban oluf, camaatın qoyununa gedirmiş. Bir dağ var imiş, gətirir o dağın kölgəsinə yığırmış, özü də otururmuş qoyunun yanında. Oturuf ha belə baxırdı. Gördü bu keçi... Keçi həmişə yeri dırtmıxlıyır, soora yatır. Bir keçi yeri belə-belə dırnağıynan eşir. Baxdı ki, keçinin dırnağında bir kağız çıxdı. Kağız da saralıf, köhnədən qalıf. Durdu bu kağızı götdü, aşdı ki, mollacan yazı var. Belə yekə kağızdı, mollacan yazı var. Getdi orda mollalar vardı onnarın yanına. Dedi:

– Bu kağızı oxuyun, görəh burda nə yazılıf.

Aldılar oxudular. Oxuya bilirdilər, amma buna demədilər. Dedi:

– Oxuya bilmirəm.

Hara apardı, dedi oxuya bilmirəm. Dedi:

– Oxuya bilmirsən cəhənnəmə oxu.

Bunu götdü getdi İrana. Getdi orda bir axundun yanına. Dedi:

– Axund, bu kağızı oxu, görəh burda nə yazılıf. Bizim tərəfin mollalarına apardım, heş birisi oxuya bilmədi.

Bu da oxudu. Gördü ki, kağıza yazılıf ki, bu sirri kim aşsa, ölməlidi. Bildi ki, oranın mollaları bunun dərdinnən demiyif da. Kim isdiyər ki, ölsün. Dedi ki, ay qardaş, sizin mollalar da oxuya biləllər bunu, amma özdəri oxumuyuf. Dedi:

– Niyə?

Dedi:

– İndi dünya tameh dünyasıdı. Kağıza yazılıf ki, bunu açan ölməlidi.

Bura da xəzinədi. Qoyun yatan yer ki var, ora xəzinədi. O vaxt kim isə ora basdırıf, qalıf orda. Deyif:

– Qardaş, mən sənnən gedərəm, bu sirri açaram, amma gərəh mana da verəsən, məni yaxşı yola salasan.

Dünya tameh dünyasıdı da. Deyif:

– Əşi, niyə vermirəm, o nə sözdü. Gəl gedəh.

Bunu götürüf gəlir. Aparır gösdərir. Deyir:

– Bir kisə də götü.

Bir kisə də götürüf gedillər.

– Harda idi kağız?

Deyir:

– Dey, burda idi.

Buranı dırtmıxladılar, dırtmıxladılar ki, sementdən qayrılıf, yekə qapaxdı.

Dedi:

– Külüngü sal bunun arasına, qaldır baxginən.

Külüngü saldı bir az. Bu əyildi baxdı ki, ayə, burda dərya var, qutarası döylü. Xəzinədi ağzına qədər dolu. Dedi:

– Gördün?

Dedi:

– Hə.

Dedi:

– Qardaş, görürsən da nə qədərdi. Buna görə aşmırmışdılar sizin tərəfin mollaları. İndi elə elə, mana da bir şey olsun. Dünya tameh dünyasıdı dana, məni də yaxşı yola sal.

Dedi:

– Əşi, bir belə burda qızıl var, sən nə qədər isdəsən saa mən verəjəm.

Bunu götdü apardı. Dedi:

– Gedəh gejə qalax.

Daa bunu gejə çıxartmax olar da, günüz olmaz. Gejə fikirrəşdi ki, ə, bu İrannan gəlif. Heş bilən yoxdu bu bura gəlif, gəlmiyif. Yatan kimi baltanı gətdi bunun başını əzdi, yığdı meşoğa, apardı basdırdı.

İndi bu fikirrəşdi ki, mən nətər eliyim bunu yiyə bilim da. Bir gejə getdi bunnan xeylağ çıxartdı. Düşdü kəndin canına, gətdi bir onnuğ qızıl sana, bir onnuğ qızıl ona verdi ki, ə, məni padşah qoyun. Hamınız deyin ki, padşahınız mən olum. Maa nə lazımdı? Maa qızıl lazımdı. O dedi İsgəndər padşah olajax. İclas oldu, camaat İsgəndəri padşah seşdi. İsgəndər oldu padşah. Fikirrəşdi ki, mən bu qızılı nətər eliyim, bu qutarası döyül, çıxası döyül. Fikirrəşdi ki, aparım bunun üsdündə bir ev tikdirim, yığışım ora, yavaş-yavaş xaşdıyaram da qutarınca. Padşah idi dana. Gətdi bunun üsdündə bir yaxşı ev tikdirdi, gəldi yığışdı ora. Camaat da gəldi, böyrü-başı hamısı əv oldu.

Qızıl çoxdu hədinnən artıx, qutarası döylü. İsgəndər bunnan verdi özünə yaxşı saldat yığdı, tüfəng aldı. Çox oldu saldatı. Dedi ki, bu qədər qızılı neyniyəjəm. Bunnan verəjəm dünyanı özümə tabe eliyəjəm. Hamı maa tabe olsun.

Bura – Bərdəyə də gəlif. Bərdədə də Nüşabə xanım oluf. Nüşabə xanım da arvad xeylağıdı da. Gəlif Nüşabə xanıma deyif ki, sən mana tabe olmalısan. Sənin teritoriyanda olan adamlar mana tabe olmalıdı. Bu da deyif ki, İsgəndər, gəl mənə qonax qal bir-iki gün. Saldatın yeməyini-işməyini – hamısını verəjəm. Bir gün qonax qal, soora gənə get da.

Bu, qalır buna qonax. Nüşabə heyvan-zad kəsdirir, saldatdara yemək verir. İsgəndərin də qavağına gətirir bir boşqab qızıl qoyur. İsgəndər deyir:

– Bu nədi?

Deyir:

– Bə onnan ötəri düşməmisən bu çöllərə? Neynirsən bax onu? Yoxundu? Sən düşmüsən ki çöllərə, hamını özümə tabe eliyim. Nəyinə lazımdı? Get bir yerdə padşahlığı elə da.

Bu deyir:

– Yox, hamı maa tabe olmalıdı.

Burdan çıxır, ağzı belə ala-ala gedir. Bir münəccim çıxır bunun qabağına. Münəccimə deyir ki, de görüm mən havaxt öləjəm. Bu da baxır, deyir ki, İsgəndər, sən o vaxt öləssən ki, altın polad, üsdün polad olajağ, onda öləssən. Bu da dedi:

– Ə, mənim altım-üsdüm hardan polad olajax? Yatanda yorğan-döşəhdə yatıram.

Nəysə, getdilər. Qoşunnan ala-ala gedirdi. Bir yer olur, orda su olur, dirilik suyu olur. Onu içən adam cavannaşır. Bu isdiyir ki, gedə o sudan içə, cavannaşa. Ora da bərk isdi olan yer imiş. Gedillər, bir yerə düşüllər, isdidən dayana bilmillər. İsgəndər əmr eliyir ki, gətirin tüfəhləri baş-başa bağlıyın, üsdünə çadırı salın, girəh altına. Heylə eliyillər. Tüfəh də polatdı dana. Girillər, uzananda görüllər isdi o qədər quma vuruf ki, heş uzanmax mümkün döylü. Bir də gətirif tüfəngi belə çal-çarpaz düzüllər alta, üsdünə ayın-oyunu sərillər, uzanıllar. Elə İsgəndər ora uzanan kimi Azreyil çatdırır buna. Bunun müavini vardı. Çağırır deyir:

– Ə, bir kağız-qələm gətir bura, mən ölürəm. – Bir anası vardı İsgəndərin. Var-döylət də, qızıl da ki nə qədərdi. – Yaz mənim anama ki, İsgəndər deyir mənim ehsanımı dərdi olmuyana ver.

Yazır, bu da kağızı götürür. İsgəndəri qoyullar tabuta. Dəvənin belinə qoyuf çəkif gələndə bir də baxıllar ki, İsgəndərin sağ əli belə çöldədi. Endirillər yerə, qatdıyıf qoyullar tabuta. Bir az keçir, bir də çıxır. Gəlillər, yolda bir kişiyə rast gəlillər. Bu kişiyə məslahat eliyillər. Ağsakqallar bilir də, başına gəlif. Deyir:

– A bala, bu nə karvandı belə?

Deyir ki, Şah İsgəndərindi. Ölüfdü, aparırıx, amma baba, bunun əlini qoyurux tabuta, bir az dayanır, əli çıxır çölə. Deyir:

– Bala, onu qoyun yerə. Mən elə elijəm onun əli çıxmıjax.

Götdülər qoydular yerə. Bu kişi torpaxdan bir xısma götdü basdı bunun əlinə, bərk yumdu belə, qoydu tabuta. Deyir:

– Oğul, onun gözü torpaxdan doymamışdı. İndi çıxmıjax da, qorxmuyun, gedin.

Sürdülər getdilər. Gəldilər çatdılar. Vay-şüvən, ağlaşma. Müavin kağızı verdi arvada ki, oğlun belə-belə yazıf. Deyir ki, anam mənim ehsanımı dərdi olmuyana versin. Arvad gətdi kəsdi cöngələri, bişirtdi-elədi. Darvazaya qaroulçu qoydu. Dedi:

– Gələn adamdan soruş, dərdi varsa, qoyma gələ. Dərdi yoxsa, gəlsin.

Yasoullar durdu orda. Gələnnən xəbər alırdı dərdin var, yoxdu? Deyirdilər: "Var". Qardaşım ölüf, ya atam ölüf, anam ölüf, ya bajım ölüf. Deyirdilər: "Yox, sən gedə bilməzsən, qayıt". Bu minvalnan bir gün adam getmədi. Ehsan qaldı, yeyən olmadı. Dərdsiz insan var? Yoxdu. Hamının dərdi var. Gördülər ki, ehsan qaldı orda, yeyən olmadı. Bir ağsakqal kişi vardı, dedi:

– Ay arvad, oğlun sana təskinnih verməh üçün heylə yazıf. Dərdsiz adam yoxdu. Heylə yazıf ki, ana, mənim dərdimi çəhmə, hamının dərdi var.

Onnan soora icazə verdilər, hamı getdi yedi.

## 32. QUŞ DİLİ BİLƏN İSGƏNDƏR

Bir padşah olur. Bunun da bir ayləsi olur, bir də bir oğlu olur. Vaxt gəlir çatır, bunun uşağı körpə ikən ayləsi ölür. Oğlu qalır yetim, anasız. Vəzirə deyir ki, mən evlənmiyəjəm, bu uşağımı ögey ana əlinə vermiyəjəm.

Bir müddət evlənmir. Padşah idi da, qonağı-qarası çox olurdu. Vəzir-vəkil dedi ki, padşah sağ olsun, sən evlənməsən dolana bilməzsən. Qonağın-zadın çox olur sənin, evində aylən olmasa nətər olar? Nəysə, bunu evləndirillər. Arvad gələndə deyir ki, ay arvad, bax, mənim bircə oğlum var. Mən nə bilim sənnən mənim uşağım olajax, olmuyajax. Gözümün irax-

madarı[18] budur. Var-döylət də ki, çoxdur. Bunu öz balan kimi saxla, səni and verirəm Allaha. Bu da dedi:

– A kişi, maa neyniyəjəh, körpə uşaxdı, yanımda hərrənəjəh da.

Nəysə, arvad qaldı burda. Gədə də uşaxdı, amma Allah-taala ona verif, quşdarın dilini bilir. İki quş orda cırt-cırt eliyəndə bilirdi ki, nə deyir. Allah vermişdi dana.

Bir gün analığı dedi ki, gəl bu suyun altın qala, paltarı yuyum. Bu ojağı qalıyır, arvad da yuyurdu. Bir cüt göyərçin gəldi qondu ağaca. Biri-birinə dedi ki, a bajı, bu İsgəndər vaxt gələjəh yekələjəh, buranın padşahı olajax, analığı da onun əlinə su tökəjəh, əlini yuyajax. İsgəndər başa düşürdü da quşun dilin, güldü. Yanı mən padşah olam, analığım da əlimə su tökə. Güləndə arvad elə bildi ki, buna güldü. Kösöyü götdü, "tarap" bunun belinin ortasınnan vurdu. Birin-ikisin, analıxdı dana. Dedi:

– Qancığın küçüyü, sən mənim qarnımdan çıxmamısan a, maa gülessən da? – Elə bildi ki, üsdü-yazı açılıf, İsgəndər buna gülür. – Bu gün maa gülən, sabah başıma oyun açar. Qoy atan gəlsin, ya səni saxlasın, ya məni.

Padşah gəldi ki, ağlamaxdan gədənin gözü şişif.

– A bala, niyə ağlamısan?

Dedi:

– Vallah, anam məni döydü, ata.

– Ay arvad, bunu niyə döymüsən, körpə uşaxdı, tapşırmamışam saa?

Bu dedi ki, yox, sən deyən döylü. Ya oğlan oturajax burda, ya mən. Kef sənindi. Ya məni saxla, ya onu. Kişi qaldı belə. Bir gün, iki gün, gündə dava-dalaş.

Bir gün kişi dedi ki, əşi, bunu Allah vermişdi, anasın da verəydi də. İndi anasın aldı, bu anasız uşağı nətər saxlıyım?

---

[18] İraxmadarı – gözünün ağı-qarası

Getdi bir sandıx qayırtdırdı, gətdi gədəni qoydu içinə, müşəmbələdi, apardı Tərtər çayı kimi bir çaya gözün yumdu, tulladı. Çay sandığı götdü ağzı aşağı apardı, bu padşahın ölkəsinnən çıxartdı. Qabaxda su dəyirmannarı olurdu. Qol ayrılırdı ora. Bu düşdü bu qolun birinə, getdi ilişdi püştəyə. Amma o padşahın ölkəsinnən çıxıf ha. Püştəyə ilişəndə dəyirman yatdı. Tez dəyirmançı çıxdı gəldi ki, əyə, bir bəzəkli sandıx. Kişi bu sandığı götdü, dedi qızıldan-mızıldan olar içində. Apardı sandığın ağzını aşdı ki, bəh-bəh, bir gözəl oğlandı, yatıf xorhaxor. Bunu durğuzdu. Dəyirmançının da züryəti yoxudu. Tez bunu götürdü, tərpəndi evə. Getdi dedi ki, ay arvad, Allah bizə züryət vermədi, bir gözəl oğlanı su gətirif çıxarıfdı. Nə bilim hansı ölkədən gəlifdi, tanımıram, bilmirəm. Elə bunu Allah bizə görə gətirif. Bunu köynəyinnən keçir, oğulluğa götür. Arvad köynəyinnən tez keçirir. Gədə yaxşı oğlan imiş, həm də quş dilin bilirdi. İndi gedəni qoyullar məktəbə.

Buranın vəzirin bir oğlu varıydı. Elə o da buna oxşuyurdu, adı da İsgəndər idi. Bu gedəynən birrəşdilər, elə bir gedirdilər, bir gəlirdilər. Nəysə, on il oxudular. Məktəbi qutaranda vəzirin oğlu dedi ki, İsgəndər. Dedi:

– Hə.

Dedi:

– İsgəndər, sən mana oxşuyursan, mən də sana. Bizi seçən yoxdu. – Kamranın uşaxları kimi. – Gəl sən də get atana de, mən də gedim atama deyim, qardaş olax.

Bu da dedi:

– Nə deyirəm.

Dedi:

– Bax, mən gedirəm ha. Mən atama deyəjəm mollanızadı gətsin, hazırrasın. Sən də atanı-ananı götür gəl bizə.

Gəldi bu da anasına dedi. Dedi:

– Ay bala, get atana de.

Gədə tərpəndi gəldi dəyirmançının yanına ki, ata, halqəziyə belədi. Əl çəkmir mənnən vəzirin oğlu, deyir qardaş olax. Kişi sevindi. Dedi:

– Ayə, mən hara, vəzir hara? Ay oğul, bu nə hak-hesabdı?

Dedi:

– Vallah, özü əl çəkmir mənnən.

Kişi tor tulluyurdu, axşam olanda balıx gətirirdi evə. Dedi:

– Ay ata, gəl mənim baxdıma bir tor tulla bura, görək nə çıxır, əlimizdə apararıx.

Kişi getdi beş-altı dəfə tulladı çəkdi, tulladı çəkdi, bir qızıl balıx düşdü. Kişi qayıtdı yerə baxdı, göyə baxdı, dedi:

– Oğul, mən neçə ildi bura tor atıram, hər axşam evə balıx gətirirəm. Burda qızıl balıx yoxudu, bu hardan gəldi düşdü? Bu sənin baxdınadı.

Götdülər gəldilər, bir badnos bəzədilər. Elə səvinillər, elə səvinillər bu gedənin belə olmağına. Götdülər getdilər. Getdilər ki, onnar da hazırdı, mollanı gətirif. Vəzir durdu dəyirmançıynan salamlaşdı, xoş-beş. Yeməh-işməhdən soora dedi ki, uşaxlar qardaş olmağ isdiyir, razısanmı? Dəyirmançı dedi:

– Mənim əlimin ikisi də göydə.

Vəzir hara, dəyirmançı hara. O Allahdandı. Molla siğə oxuyur, çıxır gedir. Amma bu gedənin quş dili bildiyini heş kəs bilmir. Gədə də çox savatdı oğlandı. Məəllim bir yerə gedəndə uşaxları buna tapşırıf gedirmiş. O dərs verirmiş uşaxlara. Heylə savadı varmış. Amma oranın padşahının da bir qızı varıdı, oğluzadı yox idi. Qızı da zirzəmidə saxladırdı. Təyin eləmişdi, aşbaz bişirif hazırrıyırdı çörəyini qızın, qulluxçu da aparıf qoyurdu qavağına, qız yeyirdi, qavı götürüf gəlirdi.

Bu minvalnan bir müddət İsgəndər burda işdədi. Getdi gəldi, getdi gəldi. Günnərin birində qızın çörəyin-zadın verdi, nizamladı elədi, indi gəlir evlərinə. Elə nətər oldusa, yolda atasının vilayəti bunun yadına düşdü. Elə bil burnun qavağında iylətdilər

tüsdünü. Kor-peşman gəldi. Bir az da ağladı, gözündə yaş oldu. Gedəndə qardaşı çıxdı bunun qavağına, vəzirin oğlu. Dedi:

– A qardaş, səni vuruflar, nədi, niyə ağlıyırsan, niyə bekafsan?

Dedi:

– Heş-zad əşi.

– Qardaşın mənəm, maa dərdini deməsən kimə deyəssən?

Dedi ki, İsgəndər, mən sirrimi heş kəsə aşmamışam, sənnən qardaşam. Mən bura adamı döyüləm. Heş özüm də bilmirəm hardanam. Uşax vaxdınnan çıxmışam, heş yerimi-yurdumu bilmirəm. Amma elə yadıma düşüf ki, burnumun uju ütür. Dedi:

– Gedəh da. Beş-on adam götürəh gedəh, bizim əlimizdə döylü?

Dedi:

– Yox ey, heylə getmiyəh.

Dedi:

– Bə nətər gedəh?

Dedi:

– Mən axı padşahın qızının çörəyin aparıram, səni də tanımırlar. Gəl səni örgədim nətər aparmax lazımdı. Sən çörəyi apar ver, maa da bir yoldaş ver, adama bir at minəh gedəh. Soraxlıya-soraxlıya gedif tapajayıx.

Heylə də elədilər. Qardaşı İsgəndər getdi qızın çörəyin apardı, bu da getdi. Bir yoldaş aldı yanına, getdilər. Soruşa-soruşa, filan kənd haradı, filan şəhər haradı. Bunun da atası burda qojaldı, padşahlıxdan çıxartdılar. Padşahın binasının birin verdilər buna, arvadıynan orda olurdu. Bir üş-dörd keçisi var idi. Aparıf otarıf gətirir, onnan dolanırdı. Bura da bir padşah qoyuflar, amma tanıyan yoxdu ki, bu kadındı, yoxsa kişidi. Kadındı amma. Burda padşahlıx eliyir.

Bu İsgəndər oğlannan gəldi. Elçi daşı var idi, onun üsdündə oturullar. Kim nə isdiyirsə, gəlif həmin daşın üsdündə

oturururdu. Bular soraxlıya-soraxlıya gəldilər, həmin daşın üsdündə otdular. Dedilər köhnə padşahın binası buradı. Padşah adam göndərdi ki, get gör onnar kimdi, niyə gəlif. Qasid gəldi. Aralıdan gələndə İsgəndəri gördü, məhətdəl qaldı ki, kişi xeylağı ola, belə gözəl ola. Gəldi salamlaşdı.

– A qardaş, xeyirdimi? Padşah məni göndərif, nə isdiyirsiniz?

İsgəndər dedi:

– Bizə heş-zad lazım döyül. Burda gejəliyif qalmax isdiyirih, səhər gedirih.

Özü yalannan deyir e. Bu tərpəndi getdi padşaha dedi ki, padşah sağ olsun, orda bir oğlan görmüşəm, əşi, dünya gözəlidi. Padşah sağ olsun, icazə versən onu gətirərdim, burda qalardı. Dedi:

– Get, götür gəl.

Gəldi bu, dedi ki, padşah deyir gəlsin qonağım olsun, sabah gedər da. İsgəndər yoldaşına dedi ki, sən mənim atımı da götür, qayıt get. Orda mənim qardaşıma denən ki, halqəziyə belə-belə, qardaşın getdi ora. Bu atı götdü getdi. Bu da getdi, görüşdülər-elədilər, yaxşı çay-çörəh. Bu İsgəndər bilikli adam idi. Əlin elə bunun əlinə vuranda gördü kadın əlidi. Üsdün vurmadı. Çörəhdən-zaddan yedilər-elədilər. Yatı vaxdı bir otağa o getdi, bir otağda da İsgəndər yatdı. İsgəndər gejə durdu çıxdı balkona. Abışkadan baxdı ki, əyə, bu kadındı. Yatıfdı, saşdar tökülüfdü, üsdü-başı açılıfdı. Ayə, belə şey olarmı, kadın nətər gəlif padşah oluf?

Sabah açıldı. Gənə çörəh-zad yedilər. Dedi ki, padşah sağ olsun, indi maa icazə verirsənmi mən gedəm? Dedi:

– Yox, saa hara icazə verirəm? Səni buraxmaram.

Bir üş gün qaldılar burda. Söybət, ayan-bəri. Gördü ki, bu kadındı. Dedi ki, İsgəndər, gəlsənə sən elə burda qalasan. Mən kadınam.

Dedi:

– Bilirəm kadınsan. Sifdə sənnən salamlaşanda bildim ki, kadınsan, əlin əlimə dəyəndə.

– Gəl sən, – dedi, – mənim yerimə padşah ol, mən də sənin vəzirin olum. Məndə də elm var, bilik var, tilsim var. Mən də elə-belə adam döyüləm, burda dolanax.

Dedi:

– Nə deyirəm.

İsgəndər də elə bunu gəzirdi dana. Dədəsinin vilayətidi. Bular mollanı gətdilər, kəbini kəsdirdilər. İndi İsgəndər oldu şah, bu oldu vəzir. Dolanırdılar burda.

Bu burda dolansın, saa xəbər verim o biri İsgəndərdən. O biri İsgəndər də qızın çörəyin apardı gətdi, apardı gətdi. Qız dedi ki, ay oğlan, çörəyi gətirif qoyuf gedirsən bekaf-bekaf. Heş məni dindirmirsən, danışdırmırsan. Dedi:

– Ay xanım, mən sənnən nə danışa bilərəm? Sən padşah qızısan. Nə deyilməlisə, sən deməlisən.

Dedi ki, gedəndə anamı gör. Anama denən ki, qızın səni çağırır yanına. Anasın çağırır yanına. Deyir ki, ana, maa çörəh gətirən oğlanı sevirəm. Atama de, məni versin ona. Arvad kişiyə dedi. Kişi də hesabladı aşağı-yuxarı. Qızı verdilər buna. Bu oldu padşahın yeznəsi, padşah da qojalıf da. Başdadılar burda dolanmağa.

Günnərin birində başqa padşahdan qasid gəldi ki, ya maa yeddi ilin baci-xəracın verəssən, ya sənnən dava eliyəjəm. Padşah da qojeydi dana. İsgəndəri göndərdi ki, get oğlum, gör nə deyir. Bunnar da belə deyəndə bu qaldı belə. Bu İsgəndərin elə savadı yoxudu. Fikirrəşdi ki, mən elə gedim o qardaşımı göndərim gəlsin, o, açar da bunnarın cavabın. Bunnara dedi ki, gedin üş günnən soora gəlin, sizə bir söz deyəjəm.

Gəldi İsgəndərnən gedən oğlana dedi ki, ə, mənnən gedəh İsgəndərin yerin bilirsən dana, ora. Gəldilər burda düşdülər. Bu

İsgəndər getdi çıxdı ki, qardaşı yatıfdı. Yavaşcadan qapının cəftəsin xançalnan aşdı. Açan kimi İsgəndər qalxdı. Çıxdı çölə, görüşdülər-elədilər.

– Ə, xeyirdimi?

Dedi:

– Hal-qəziyə belə-belə. Gəlmişəm ki, gedəh onun cavabını ver.

Dedi:

– Sənnən məni ayıra bilmillər. Sən gir mənim arvadımın yanında yat, mən gedim.

O İsgəndər gəldi girdi bunun arvadının yanına. Bunun yanında uzanan kimi xançalı çıxartdı qoydu ortalığa. Dedi:

– Aaz, ayna yat, ətin ətimə dəyməsin.

Bu da bilikli idi, tilsimi vardı. Dedi:

– Ə, bu niyə belə elədi? İndicə mənim yanımdan çıxdı. İndi də gətirif araya xançal qoyuf.

Ha baxdı üzünə-gözünə, gördü elə həmən İsgəndərdi dana. Tanımadı. O da getdi orda onun arvadının yanına xançal qoydu. Sabah gəldilər. Durdu getdi. Dedi ki, nədi, xeyirdimi? Dedi:

– Gəlmişdih də bir dəfə. Ya yeddi ilin baci-xəracın ver, ya da davamız davadı.

Bu, qüvvəli adam idi. Həm də bilikli adam idi. Bunun birinin qulağının divinə nətər vurdusa, orda öldü. Birinin də qulağın çəkdi qopartdı, verdi o birisin əlinə, dedi:

– Apar ver padşaha.

Bunnarın hərəsi bir məna verir. Apardı verdi, dedi:

– Padşah sağ olsun, belə-belə.

Dedi:

– Əşi, tərgidin ayna, o xatadı, qandı.

Gəlmədilər. İndi bular gəldilər dəyişdilər yerrərini. Gecənin birində o gəldi, bu getdi. O da xançalı aradan götdü, bu da.

Bu padşah olan dedi ki, İsgəndər, bu nə sirr idi? Bunnan məni agah elə. Eləməsən, səni pis sifətə salajam.

Dedi:

– Aaz, get, sənin nə dərdinə qalıf, kef mənimdi.

Bir qədər belə cəhləşdilər. Bir tilsimi vardı köpəh qızının, bir gejə vurdu İsgəndərə, ayı şəklinə saldı. İsgəndər baxdı ki, bədheybət bir heyvana oxşuyur, bir ayı şəklindədi. Bunu gülləynən də ata biləllər, öldürəllər də. Kolnan-kosnan çıxdı düz-dərə. Ha burda, ha orda, gəldi çıxdı qardaşdığı İsgəndərin torpağına. O vaxdı gəldi ki, bunun qaynatası ölüf, padşah bunu qoyuflar. Bu, xeyrata adam göndərif ki, ulağnan meşədən odun gətsinnər. Bu da neçə günnən soora getdi çıxdı o meşəyə. Qızılca şəlin altında durmuşdu. Gördü odun yığannar var. Dedi:

– Ayə, qardaş, bura haradı, kimin torpağıdı?

Dedilər ki, İsgəndərin torpağıdı. İsgəndərin qaynatası ölüf, biz də odunu yığıf aparırıx onun xeyratına.

Adam kimi danışır, amma tilsimdədi. Dedi:

– Sizə bir söz desəm İsgəndərə deyərsinizmi?

Bular həm qorxur onnan, həm də görüllər adam kimi danışır da. Dedi:

– Gedin İsgəndərə deyin, and verirəm qardaşı İsgəndərin canına, məni aparsın qarnımı doyursun.

Bunnar tez odunu yüklədilər, gətdilər tökdülər. İsgəndəri çağırdılar, dedilər:

– İsgəndər, meşədə bir heyvan var, dedi ki, gedin İsgəndərə deyin, onu and verirəm qardaşı İsgəndərin canına, mənim qarnımı aparsın doyursun, ajam.

İsgəndər bunnarnan gəldi, gördü bir ayıdı, tüklü ayı. Bu dilləndi, dedi:

– İsgəndər, gəldin?

Dedi:

– Hə, gəldim.

– Səni and verirəm qardaşın İsgəndərin canına, mən neçə gündü ajam, mənim qarnımı doyur.

Dedi:

– Gəl.

İsgəndər özü də bunnan qorxur. Tüklü bir şeydi da, ayıdı. Bunu aldılar yanına, gəldi bunu ayrıca bir evə qoydu, gətdi o xeyratdan tökdü bunun qabağına. Yedi, aj idi. Dedi ki, İsgəndər, məni tanımadın, qardaş? Dedi:

– Sənin tanınmalı bir yerin qalıfmı səni tanıyam?

Dedi:

– Mən sənin ujunnan belə olmuşam, bilirsənmi onu? Sənin ujunnan arvad məni tilsimə salıf.

Dedi:

– Hə.

Padşah tez əmr verdi, axuntdarı, mollaları yığdı gətdi bura. Nə qədər elədilər, bunu aça bilmədilər. Bir qoja molla vardı. Dedi:

– İsgəndər, bunun tilsimin qırsa, keşiş qırajax. Keşişin get axundun gətir.

İsgəndər göndərdi adamı, getdi keşişi gətirdi. Bunun tilsimin qırdı. Baxdı ki, ə, nə vaxtdan çöldə, üz-göz tük, paltar tökülüf. Gətdi bunun üzün-başın qırxdırdı, təmizdədi, hamamlatdı, paltarın geyindirdi. Dedi ki, qardaş, nətər oldu? Dedi:

– Vallah, yatmışdım, durdum gördüm beləyəm.

Dedi:

– Da getmə. Sən gəl burda padşah ol mənim yerimdə, mən də vəzir olum, dolanax dana.

Dedi:

– Yox, ay İsgəndər, mən onu qəbul eliyə bilərəmmi? Mən onu öldürməsəm, qəbul eliyə bilmərəm axı. Mən gedəjəm qardaş, onu öldürəjəm, arxeyin ol.

Qardaşdılar da. O dünyada siğə qardaş görüşür bircə, deyir. Elə-belə qardaş görüşmür. Siğə qardaşın qüvvəsi nətərdisə, deyir, o dünyada onu görüşdürüllər. Orda qalır, babatdaşır, qüvvətdənir.

Bir gün gəlir, gejə gəlir ki, arvad yatıf. Yatılısını doğruyur yığır meşoğa, aparır məhlədə basdırır. Deyir, get, sənnən qutardıx.

Sabah açılır. Bir qoja kişi vardı. Bunu çağırtdırdı yanına. Dedi ki, bu padşahdan qavax olan padşah ölüfdü, yoxsa durur? – Atasın gəzir da indi bu. – O hardadı? Dedi ki, bala, qojaldığına görə onu padşahlıxdan çıxartdılar, o dey, padşahın alt evinin birin veriflər ona, arvadıynan ordadı. Üş-dört dənə davar-duvarı var, aparır otarır, gətirir, orda dolanır. Deyir:

– Get ona denən ki, padşah deyir sabah günorta ona qonağam.

Vəzir gəldi dedi ki, əşi, padşah deyir ki, sabah günorta ona qonağam. Kişi qaldı məhətdəl. Arvadı çağırdı:

– Ay arvad, padşah belə-belə deyir. Bizim nəyimiz var, biz padşaha nətər qonaxlıx verək? Padşah tək gəlmiyəjəh, başında nə qədər adam var.

Dedi:

– A kişi, deyir deyir da. Daa nağarax. Gətir çəpişin birin kəs. Qoja adamlarıx da, güjümüz ona çatır. Bişirəh, bax burda – o vaxdı elə yerdən otururdular, – qapıda bir çinar ağajı vardı, onun da kölgəsinə döşəyi, yorğanı tökəh, gəlsin orda yesin-işsin, çıxsın getsin. Daa nağarax.

Sabah günorta bunnar nizamlandı, padşah vəziri, vəkili, bir-iki ağsakqal götdü, getdi. Getdi ki, hə, hazırdı yer-yurd. Qavaxda aftafalar vardı. Gətirirdilər, əli yaxalıyırdın, silirdin, otururdun yeməyə. Bu kişi aftafanı əlinə aldı, məhrabanı da tulladı qoluna, gəldi, başdadı bunnarın əlinə su tökməyə.

Tökə-tökə gəldi, padşaha çatanda dedi ki, yox, yox, yox, ata oğulun əlinə su tökməz. Dedi:

– A bala, sənin vəzifən mənnən böyühdü, sən padşahsan. Nolsun mən ağsakqalam.

Dedi:

– Yox, yox, ata oğulun əlinə su tökməz.

Kişi arvadı çağırdı:

– Ay arvad, ay arvad, padşah məni qoymur, gəl, bunun əlinə su tök.

Arvad gəldi, aldı tökdü. Dedi:

– Hə, indi yuyaram.

Əlini yaxaladı. Otdular, yedilər, işdilər, qutaranda dedi ki, ata, məni tanımadın? Dedi:

– Yox, ay bala, sən kimsən?

Dedi:

– Ata, məni niyə tanımırsan? Bax, bu anamın sözüynən məni qoydun sandığa, apardın tulladın dənizə ha. Bax, mən sənin oğlunam da, həmən oğlanam, İsgəndərəm. Allah məni öldürmədi, gətdi çıxartdı gənə bura.

Kişi bir az ağladı. Başına-gözünə döydü. Nolajax. Dedi:

– Çəpiş-çüpüşü kimə verirsən ver, gəl çıx otur taxtda. Necə ki mən sağam sən əlini bir işə vurmuyassan.

Orda başdadı atasın saxlamağa. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də Musanın.

## 33. QURU KƏLLƏ

Bir kişi vardı, dənizin qırağında durmuşdu. Gördü ki, kimsə deyir ki, min qan eləmişəm, min birini də eliyəjəm. Kişi ayna-bayna baxdı, gördü heş kəs yoxdu da. Bu nədi belə? Ha dinşədi, dinşədi, gördü sudan gəlir. Suat[19] vardı. Yendi bu

[19] Suat – çaydan su götürmək üçün istifadə edilən eniş, torpaq hissə

suatdan başdadı suya baxmağa. Gördü bir quru insan kəlləsidi, su gətirir. Su elə allahdan olan kimi buna tərəf gəldi, bunu tutdu. Baxdı ki, bir insan kəlləsidi. Dedi: "Qupquru kəllədi, nə qan eliyəjəh innən belə. Sən öl, bunu aparajam un kimi eliyəjəm". Bir daş altdan, bir daş üsdən, bunu un kimi elədi, yığdı bir torbaya, dedi:

– Elə görüm, innən belə nə eliyəssən.

Köhnə dam idi, apardı bunu qoydu tirin üsdünə. Kişinin də bir arvadı vardı, bir də bir qızı. Öyey idi qızı. Arvad analığ idi. Dolanmırdı da qıznan, döyürdü. Bir dəfə bu, qızı döydü. Arvad sənəyi götdü, getdi suya. Qız dedi ki, atam deyirdi ki, o zəhərdi, ona əlinizi vurmuyun. Dururam səni, onnan bir az atam ağzıma, öləm, çıxam gedəm, bu nə yaşamaxdı? Durdu, ordan torbanı götdü, bir az tökdü ovcuna, tulladı ağzına. Torbanı qoydu yerinə, gəldi otdu. Fikirrəşif ki, mən öləjəm da, atam deyirdi zəhərdi. Ha gözdədi, gözdədi, ölmədi. Ə, bu nətər hak-hesabdı? Axı, atam deyirdi bu zəhərdi, dəymiyin ona. Ölmədi, amma heş kəsə də bildirmədi.

Aradan dörd ay keşdi. Qızın qarnı yavaş-yavaş qalxdı. Uşax bunun qarnında tərpəndi. Onnan bu, uşağa qalmışmış. Analığı bir axşam kişiyə dedi ki, heş qızınnan xəbərin var? Dedi:

– Noluf aaz qızıma?

Dedi:

– Nolajax, bu gün-sabah başını alçax eliyəjəh. Dey, qarnı burnunda.

Kişi qaldı belə məhətdəl. Baxdı ki, düz deyir, qızın qarnı yekədi. Arvad çölə gedəndə dedi:

– A bala, sənin anan da mənəm, atan da mənəm. De görüm, səni kim belə eliyif?

Dedi:

– Ata, maa, vallah, heş kəsin əli dəymiyif. Axı, sən dedin ki, o zəhərdi, ona əlinizi vurmuyun. Anam məni döydü,

mən də canımnan bezmişdim. Onnan götdüm bir az atdım ki, öləm, ölmədim. Maa nə oldusa, onnan oldu.

Kişi o saat bildi ki, hə, əngəl onnandı. Arvada dedi ki, qız doğmamısan, sənin nə dərdə qalıf mənim qızım nədi. Namusu da mənimdi, özü də mənimdi. İşin yoxdu mənim qızımnan.

Vaxt gəldi çatdı, qızın bir oğlu oldu. Oğlan günü-günnən yekəlirdi. Kişi də tək idi, ayrı bir oğlu yoxudu. Sevinirdi bu gedənin olduğuna. Kişinin bir ala inəyi vardı. Bunu aparırdı uşaxlarnan otarırdı, gətirirdi. Diribala idi da.

Bir gün oranın padşahı vəzirə deyir ki, vəzir, get bir balığ al gətir, günorta bişitdirəh yiyəh. Vəzir də getdi bazardan bir balığ aldı, qoydu badnosa, gətdi padşahın qabağına qoydu. Dedi:

– Gör xoşuna gəlirmi?

Padşah da dedi ki, vəzir, bu balıx dişidi, erkəhdi? Belə deyəndə balıx güldü, hopbandı düşdü badnosun içinə.

– Ə vəzir, bu nə hak-hesabdı? Balıx da gülərmi?

Dedi:

– Padşah sağ olsun, mən nə bilim? Mən də sənin yanında döyüləmmi?

Dedi:

– Yox, vəzirsən sən, bunu tapmalısan.

Dedi:

– Onda maa möhlət ver, gedim şəhəri, kəndi gəzim, görüm bilən adamı tapırammı.

Vaxt aldı, gəldi. Bu kişinin bir maydan atı vardı. Maydan da boğaz idi. Sabah ertə gəldi ki, gedə, soraxlıya. Bir çay axırdı belə, xeylağ iri çaydı. Uşaxlar da çayın bəri üzündə dirədöymə oynuyurdular. Vəzir atı çaya vurdu, at büdrədi. Ata bərk qamçı vurdu, çıxdı qırağa. Salamməlöykü. Bu gedə tez salam verdi buna. Dedi ki, əşi, o atı niyə heylə vurdun? Dedi:

– Bala, ata qamçı vurallar da.

Dedi:

– Qulunun gözün tökdün. Atın qarnında qulunun gözün tökdün.

– Ay bala, heylə şey olmaz. Ata şallax vurallar da.

Dedi:

– Atının doğmağına üş gün qalıf. Sən mənim sözümü eşit. Boğaz atdı, heş bunu minif getmə. Bir üş gün gözdə, doğsun. Gör balasının gözü kordu, yoxsa yox.

Qayıtdı. Üş gün gözdədi, at doğdu. Baxdı ki, qulunun gözü tökülüf. Dedi:

– Bu nə bildi bunun gözünün töküldüyün?

Durdu ayrı bir at mindi, genə getdi. Genə getdi orda görüşdü onnan. Gördü bir ala inək var, boğazdı, yatıf. Dedi:

– Ə, bu inək kimindi?

Dedi:

– Bizimdi. Elə bircə inəyimiz var.

Dedi:

– Bunun qarnında balasının nişanın deyə bilərsən mana?

Dedi:

– Niyə demirəm, deyərəm.

– Hə, gəl de görüm.

– Quyruğu aladı, döşü aladı, dırnağı aladı.

Dedi:

– Atan var.

Dedi:

– Hə.

Dedi:

– Get atanı çağır bura.

Gəldi kişini çağırdı, apardı. Tanıyırdılar da bir-birilərini. Vəzir dedi ki, kişi, bu inəyin qiymətin de, bunu burda kəsdirəjəm, ətin də verəjəm sana.

Dedi:

– Ay vəzir, görmürsən boğazdı bu inək.

Dedi:

– Elə onunçün kəsdirirəm dana. Sənin pulunu verəjəm.

Vəzirdi, nə deyəjeydi. İnəyi kəsdirdi, balasını qarnınnan çıxartdı ki, bu gedə nə nişan deyif hamısı var. Gədə dedi:

– A vəzir, o inəyi də hayıf elətdirdin. Sən siftə gələnnən mən bilirəm sən nəyin dalınca gedirsən, hara gedirsən.

Dedi:

– Hara gedirəm, a bala?

Dedi:

– Mən bilirəm da. Məni apar padşahın yanına, balıxlar nəyə gülüfdü deyim.

Kişiyə dedi:

– Gedəni ver mana. And olsun Allaha, buna beyjə görmədiyi qulluğu eliyəjəm. Sabah aparım, mənim canımı padşahdan qutarsın.

Dedi:

– Getsin.

Gedəni götdü gəldi, buna yaxşı qulluğ elədi. Sabah götdü getdi. Getdi ki, padşah da oturuf, balıx da elə isdolun üsdündədi, heş kəs yemiyif. Salam-kalamdan sorasına dedi ki, padşah sağ olsun, bu vəziri niyə çox incidirsən?

Dedi:

– Vəzirdi da, o tapmalıdı. Sən bilirsən bu balığın nəyə güldüyünü?

Dedi:

– Hə, bilirəm, niyə bilmirəm. Sən vəziri göndərmədin get balıx al gətir? O da getdi, aldı gətdi. Soruşdun ki, balıx erkəhdi, dişidi. Balıx güldü, qalxdı düşdü ora. Heylədimi?

Dedi:

– Hə.

Dedi:

– Balıx bilirsən nəyə gülüf? Sənin bir qızın var, yanında qırx dənə kənizi var, hamısı oğlandı. Balığ ona güldü ki, qızının dərdin çəkmir, on dənə oğlan kəniz işdiyir ona, balığın erkəh-dişiliyinin dərdin çəkir.

Dedi ki, vəzir, bu nə danışır? Dedi:

– Padşah sağ olsun, yəqin bir həqiqət var da.

– Dur yığ onnarın hamısını bir evə.

Vəzir yığdı onnarı evə. Qırx kəniz idi, bir də qız, qırx bir. Baxdı ki, hamısı oğlandı, buna kənizdih eliyir. Gəldi dedi ki, padşah sağ olsun, düz deyir. Dedi:

– Ged onnarın hamısının boynun vurdur.

Cəlladı çağırdı, içində də qız olmax şərtiynən bunun qırx birinin də boynun vurdurdu. Dedi ki, şah sağ olsun, mən belə məslahat bilirəm ki, buna yanımızda iş verərih, bilikli adamdı da, hara lazım olar göndərərih. Maaşın-zadın verək, gəlsin getsin gündə bura. Heylə də eliyillər. Ordaca maaşın alır, aparır verir atasına.

## 34. ADAMYEYƏN QIZ

Bir padşah olur. Padşahın da üç oğlu vardı, qızı yoxudu. Padşahın qardaşı var idi, qardaşının da üş qızı vardı. Bir gün azeyləndi[20] ki, Allah-taala, bu üç oğlun birinin yerinə maa bir qız verəydin dana. Nolardı, qızım da olardı. Allahın da buna ajığı tutur ku, sana üç oğul vermişəm, hələ bir qız arzuluyursan. Cənabi Cəbrayılı göndərdi ki, apar bu almanı ver ona, denən yarı bölsün, ayləsiynən yesin, Allah-taala ona qız kəramət eliyəjəh. Gətdi verdi.

Nəysə, arvadın uşağı oldu, qızı oldu. Eşitdilər ki, padşahın qızı oluf, ənamdan o qədər gətdilər ki, bir ev tutmurdu. Padşahın da döyləti, varı vardı dana. Üç oğlu idi, üç də nökəri

[20] Azeyləndi – gileyləndi

idi, mala baxırdılar. Bir gün padşah girdi malın içinə, gördü malın hamısı incəlibdi. Çağırdı nökərrəri:

– Ə, bu mal niyə bu avırdadı? Buna mən kişmiş verirəm, xurma verirəm. Heyvannar niyə qırılsın?

Dedi:

– Padşah sağ olsun, nə verirsən hamısın da veririh da, yemirih ha.

Dedi:

– Yox, bunu gejə oğurruyullar. Kişmiş, xurma yeməli şeydi da, bunu oğurruyullar, güdməh lazımdı. Güdün altınız da. Tapdınız, canız qutardı, tapmadınız, sizi öldürəjəm.

Bu nökərrər bir-bir qaroul çəkdi. Yornuğ adamdı dana, yatdılar, bir şey tapa bilmədilər. Padşahın üç oğlu var idi. İkisi yatdı, tapa bilmədi. Balaca oğlu dedi: "Əə, mən də tapmasam, atam öldürəjəh dana". Gətdi barmağını bir balaca çərtdi, yerinə duz basdı. Girdi qapının dalına, gözdədi. Gözdə, gözdə, gözdə, gejənin bir aləmində gördü həmən qız beşihdən çıxıfdı, oluf adamyeyən. Yekə bir şeydi. Külfədən girdi, malın qabağında olan kişmişi, xurmanı yedi, külfədən də çıxdı getdi. Bu dedi: "Sən öl, elə bizim ölən vaxdımızdı. Atama deyəjəm ki, vallah, ata, sənin qızındı, məni öldürəjəh onsuz da. Demiyəjəm, gənə bizi öldürəjəh. Yaxşısı budu deyim, qoy elə məni öldürsün da, qardaşdarımı öldürməsin".

Padşah çağırdı:

– A bala, gəl görüm nə gördün?

Dedi:

– Ata, onsuz da bilirəm məni öldürəssən, amma deyəjəm da, deməsəm olmaz.

Dedi:

– Niyə öldürürəm, a bala? De görüm.

Dedi ki, sənin bax, o qızındı. Yekəlir olur adamyeyən, gəlir malın qavağında nə var silir yeyir, gedir.

– Ə, sən nə danışırsan? Mən nəzirnən-niyaznan bir qız tapmışam, mənim qızım adamyeyən oluf? Cəllad!

Oğlanı çəkillər dar ağacına. Anası özünü yeyir-tökür dana, anadı. Vəzir deyir:

– Padşah sağ olsun, öldürmə onu. Anasının gözünün qavağında öldürmə. Çəkif o dey döşdərini yeyir orda. Sürgün elə, qoy sənin şəhərinnən çıxsın getsin, hara gedir getsin. Ya da ver cəllada, aparsın öldürsün, köynəyini qanına bulasın, gətirsin versin saa.

Çağırdı cəlladı, dedi:

– Bunu apararsan, mənim torpağımdan çıxardarsan, başını kəsərsən, köynəyini soyunduruf qanına buluyuf gətirərsən.

Bunu götdülər getdilər, apardılar bunun torpağınnan çıxartdılar. Cəllatdar biri-birinə dedilər ki, ə, bunu öldürməhnən bizə padşah nə verəjəh? Elə gəl köynəyini soyundurax, burdan bir heyvan alax, kəsəh, nə bilillər, qanı qandı dana. Köynəyini buluyax qanına, aparax. Yazıxdı, öldürmüyəh, buraxax, çıxsın getsin. Helə də elədilər. Bir heyvan aldılar, kəsdilər, bişirdilər, yedilər. Onun da köynəyini qanına buladılar. Dedilər ki, qardaş, da özün görürsən. Qayıtma, gəlmə ha. Gəlsən bizi də öldürtdürəssən, səni də öldürtdürəjəhdi.

Dedi:

– Gəlmərəm.

Düşdü yolun ağına. Ha burda, ha orda, getdi. Tanınmaz yerdi da. Bir meşənin içiynən gedirdi. Gördü bir inilti gəlir. Elə inildiyir, elə inildiyir, nətəri. Baxdı ki, bir aslandı, ayağına qələm girifdi. Şişif ayağı, olufdu nə boyda, inildiyir. Gedənin belində xançalı vardı. Sifdə qorxdu, soora dedi:

– Ə, elə bilərəm atam öldürüf məni. Sən öl, bunun ayağın deşəjəm.

Yıxılıf da, inildiyir, ayağ şişif. Yavaş-yavaş gedə xançalın ujun tikanın üsdünə vurur, qaçıf gizdənir. Bu isdi-isdi

durur, ağzın ora-bura atır. Kimi tapajax? İrini təmiz boşalannan soora deyir:

– Ay bəni-insan, bilirəm bəni-insansan. Çıx, dünyada nə isdəsən saa verəjəm.

Sifdə qorxdu. Soora özündə təpər tapıf çıxdı.

– Sən idin mənim ayağımı deşən?

Dedi:

– Bəli, mən idim.

Aslanın iki balası vardı. Göndərmişdi ki, adam tapa gətirə. Bunnar ayannan çıxdı, isdədi bunu yeyələr. Adı Məhəmməd idi. Ajıxlandı balalarına. Məhəmməd gördü ki, ə, bunnar elə qəşəh aslan balalarıdı ki. Dedi ki, versən bu balalarını ver maa, verməsən də sağ ol, çıx get.

Dedi:

– Dünyada bala şirin olur, ayrı şey isdə da, dünya malı nə isdəsən verim.

Dedi:

– Yox, neynirəm dünya malını.

And işmişdi ki, verəjəm da. Balalarının zinciri vardı, belə boynuna doladı, dedi:

– Sizin ixdiyarınızı verdim, gedin.

Məhəmməd buları götdü, düşdü yola. Ha burda, ha orda, gəldi şəhərin qırağında bir dam vardı. Gördü burdan tüsdü çıxır. Qərib adam idi da, tanımırdı. Getdi onun qapısına:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Bir qarı çıxdı:

– Ay oğul, kimsən, yaxın gəl görüm.

Bu da getdi. Dedi:

– Ay nənə, qərib adamam, qalmağa yer gəzirəm.

Dedi:

– Gəl bəri.

Apardı evə, dedi:

– Bala, mənim də heş kəsim yoxdu, təkcə özüməm. Amma qazancımız-zadımız yoxdu da.

Gətdi bunu evə. Bir az arpa çörəyi vardı, verdi buna, yedi, qaldı burda. Dedi:

– Oğul, elə mən sənin ananam, sən də mənim oğlum. Sən azdan-çoxdan qazan gətir, mən bişirim, yeyəh, burda dolanax. Deyirsən heş kəsim yoxdu.

Heylə də elədilər. Bir müddət burda qaldı, bunun yanında. Gedirdi, aslan balalarınnan ov ovluyurdu, turac-murac tutuf gətirirdi, arvad bişirirdi, bu yeyirdi. Bir gün də gedəndə elə bunun atasının vilayəti yadına düşdü. Bədbaxt oğlu, bədbaxt. Bu gedənnən soora da qız yekəldi, dişdəri ağzında oldu belə. Daa bir inni-cinni qoymamışdı şəhərdə, hamısın yemişdi. Təkcə yaşıyırdı.

Nəysə, yadına düşdü atasının vilayəti, bekaf-bekaf qayıtdı evə. Qarı yazıx bunun səbəbinə dolanırdı dana.

– Ay oğul, noluf, yoxsa azarramısan, soyux dəyif?

Dedi:

– Yox, ana, atamın vilayəti yadıma düşüf, ora getməh isdiyirəm.

– A bala, hardansan?

Deyir:

– Filan yerdən.

– Ay bala, orda, deyir, bir əjdaha əmələ gəlif. Orda bir insan, heyvan – heş bir şey yoxdu.

Dedi:

– Ana, olmasa da, getməliyəm, elə yadıma düşüf.

Gətdi bu aslan balalarını damda belə bağladı. Bir dosdu vardı. Getdi o dosdunnan da bir at aldı. İki qoyun aldı kəsdi. Birini verdi qarıya, dedi:

– Qarı nənə, qoy başı altına, ye.

Birini də yığdı həmən qoyun dərisinə, bir qoyun dərisinə də kül yığdı, aşırdı ata, özü də mindi. Dedi:

– Qarı nənə, gördün ki, bu aslan balaları bir-biriynən dalaşıllar, ağızdarın gəmirir, aş burax, qorxma.

Atını mindi, düşdü yola. Gedəndə yolda bir çinar ağacı vardı, onnan bir çubux kəsdi atı vurmax üçün. Gethaget, gethaget, bir çeyillik[21] yer vardı, atın da qılçası batırdı. Çubuğun ujun artdadı, dik atın üsdünnən nətər saşdısa ora, çubux girdi palçığa. Allah-taala, deyir, adamın diləyin tez eşidirmiş. Dedi ki, Xudavənd-aləm, mən gəlincən bu çinar elə bir çinar olsun ki, yoğunnuğuna örkən dolanmasın, başı da ərşdə olsun. Deyir, gedir.

Görür şəhərdi, yerində durur. Görür ki, ə, sən öl, heş bir şey yoxdu. Nə mal var, nə quş var, nə it var, nə pişik var. Dedi: "Sən öl, anam deyən düzdü. Sözünə baxmadım anamın".

Adamyeyən qız da damda yaşıyırmış. Bir əlli metr qalmış qız tapbıltısını eşitdi atın. Çıxdı damın üsdünə. Gördü ki, gəlir atın belində. Tez çatdırdı:

– Bajın ölsün, qardaş. Demirsən bir bajı qoyuf getmişəm burda, bir yiyəsiz yerdə. Nə yaxşı məni yadına salmısan?

Dedi:

– Bildim ki, təksən, gəldim da, bajı.

Əlacı nədi, nə desin. Gedillər, damın qapısına çatanda deyir ki, düş atdan, aparım hörüklüyüm gəlim. Aj idi, aparır atın qılçının birini yeyir, gəlir.

– A bajın ölsün, qardaş. Atın üş qılçalı idi?

Dedi:

– A bajı, at üç qılçalı olar dana, neçə qılçası olajax.

Əlacı yoxdu, qorxusunnan, nağarsın. Nəysə, bekara dayanır. Bir də:

– Gedim atın hörüyünü dəyişim gəlim.

---

[21] Çeyillik – bataqlıq

Gedir bu qılçın, o qılçın, cəmdəyin yeyif qutarır, gəlir.

– Bajın ölsün, qardaş, elə piyadamı gəlmisən?

Dedi:

– A bajı, mənim atım vardı minim gəlim?

İndi deyir ki, bajın ölsün, a qardaş, çoxdandı səni görmürəm. Bir bəri uzan, baxım görüm sənin canında bitdən-sirkədən nə var.

Dedi:

– Ay bajı, düzü-dünyanı yemisən, atamı-anamı yemisən, da heş-zad qalmıyıf. Bir atı indicə bu saat yedin. Mən də sənin loxmanam dana. Getginən bir az su gətir. Bir əl-üzümüzü yuyax, danışax bir xor, onnan soora gənə ye da.

Tez durur bu, bir güyümü vardı, güyümü götürüf gedəndə – gedə də bij idi ey, – dedi:

– Ay bajı, bunu neynirsən?

Deyir:

– Su gətirim da.

– A bajı, onun suyun işməh olmaz.

– Bə nədə gətirim?

– Ələhdə-xəlbirdə.

Dəli şeydi dana. Ələyi-xəlbiri götürür, xeylağ da su aralıdı, gedir. Bu ayna gedən kimi bu durur əti aşağıdan asır, külü də yuxarıdan asır, çıxır qaçır. Qız da ələyi basır, xəlbiri çıxardır, ələyi basır, xəlbiri çıxardır. Xeylağ yubanır orda. Ələhdə-xəlbirdə su gələr? Ajığı tutur ki, ayıb olsa da, ağzına s…m, bu saat səni parçalıyajam. Özün çatdırır ki, bunu yesin. Gəlir ki, evdə yoxdu. Ora-bura, yuxarı baxır ki, cəmdəh ordan asılıdı. Bir dəfə ağzını atır, qoyunun cəmdəyi gəlir bunun ağzına. Deyir:

– Oh, qardaşımın yağlı döşü ürəyimə dəydi.

Baxır ki, biri də var. Bir də ağzını atanda kül təmiz tökülür bunun gözünü-başını doldurur. Başdıyır gözünü ovmağa. Gedə qaçır, dala baxa-baxa qaçır. Bu da gözün birtəəri

avır, çıxır damın belinə. Boynu da dönmürdü, gərəh gedə mətəyə çateydi, soora qayıdıf baxeydi. Yolda belə dönüf baxa bilməzdi. Görür kü, qardaşı qaçır. İri paçalı şeydi. Addımının birini burdan, birini ordan qoyur. Gedə görür ki, ə səni, budey çatır, məni parçalıyajax. Allah-taala adamın diləyini, deyir, tez eşidirmiş o vaxdı. Deyir:

– Allah-taala, qannım gəldi, yer ayrılsın girim yerə.

Deyilənə görə, yer belə ayrılır, gedə özünü atır ora, başının tükünnən bir az qalır çöldə. Qız gəlir qırtmıxlıyır başının tükün, deyir:

– Bu saat gedif atamın külüngünü gətirif, səni qazıf, çıxardıf yeyəjəm.

Tərpənir külüngü gətirməyə. Boynu dönmürdü, geri baxa bilmirdi. Gərəh gedəydi mətəyə. Bu gedən kimi, hökmüilahi idi, gedə çıxdı qaşdı. Bu da getdi damın belinə çıxdı ki, qardaşı qaçır.

– Ə, mənim əlimnən hara qaçessən?

Bir də qayıdır. Bir də çatdıranda gedə bir qayalığa çıxır. Genə görür kü, bu dey gəldi çatdı. Deyir:

– Ay qaya, Allahın hökmüynən ayrıl, girim içinə. Qannım gəldi, məni yeyəjəh.

Qaya ayrılır, girir içinə. Qız genə gəlir qırtmıxlıyır. Deyir ki, a səni belə-belə eliyim, bayaxdan torpax idi, çətin idi. İndi qayadı, külüngnən vuruf dağıdıf səni yeyəjəm. Genə gedir. Oğlan çıxıf genə qaçır. Gədə həmin çinara çatanda görür ki, çinarın ucu-bucağı yoxdu ey. Başı qəlbi, divi də yoxdu. Gedə özünü çatdırır bu çinara, qız da özünü çatdırır. Deyir:

– Ay çinar, Allahın hökmüynən başını əy aşağa, qannım gəldi, məni yeyəjəh.

Çinar başını əyir aşağı, gedə minir, qaldırır. Qız gəlir deyir ki, qardaş, düş aşağı. Gedə bu çinarın uzunnuğun, yoğunnuğun görür, deyir: "Ə, bu nağarajax". Deyir:

– Hara düşüm, aaz, düşüm məni yeyəsən? Ölsən də düşmərəm.

Deyir:

– Ə, bu çinar hayıfdı, bunu maa kəsdirmə, düş aşağı, səni yeyim gedim. Qorxuram, zənən xeylağıyam.

Deyir:

– Düzü dünyanı sən yemisən, hamı sənnən qorxur, sən kimnən qorxursan?

Nə qədər elədi, düşmədi. Bunun ağzı sən demə almazmış. Çinara bir bayannan ağzın atır, bir ayannan ağzın atır. Gedə görür ə, çinar altında sirkələnir. Deyir ki, ayə, sən öl, bunu kəsəjəh. Amma gedə yaxşı balaban çalan idi. Dedi ki, a bajı, a bajı, bir dayan. Dedi:

– Nədi, qutar ey, tələsiyirəm.

Dedi ki, bajı, mən yaman balaban çalanam. Səni də yaman oynağan deyillər – heç oynamağın-zadın görmüyüf ey, – mən balaban çalım, sən də oyna, mən də yavaş-yavaş düşüm aşağı.

– Hə, tez ol düş.

Dəlidi da. Dingildiyir gədə. Aslan balasının da birinin adı Dartan idi, birinin adı Yırtan idi. Balabanda onu çağırır gedə. Qız da elə bilir hava çalır. Qarı görür ki, sən öl, aslan balaları bir-birinin ağzın qanatdı. Açır buraxır. Balabanın səsinə aslan balaları gəlir. Qız deyir ki, düş ey, tez ol düş, toz gəlir, qorxuram.

– Aaz, – deyir, – mən də bir loxmanam da, qoy gəlsin, onu da ye.

Aslan balaları gəlif buna çata-çatda balabanı ağzınnan çıxardır.

– Dartan, elə dartıf dağıdarsan, bir damcı qan yerə düşməsin. Yırtan, elə yırtıf dağıdarsan, bir damcı qan yerə düşməsin.

Küçühlər bunu parçalıyır, dartıf dağıdıf yeyillər. Bunun birinin dodağınnan bir gilə qan düşür çinarın yarpağının üsdünə. Oğlan gördü ki, küçühlər yedi. Düşdü bu küçühlərin ağzın-burnun sildi. İndi bu küçühləri çağıranda yolnan bir kişi yeddi dəvə ləli-cəvahir aparırdı. Bu görür ki, kimsə balabanda Dartan hay, Yırtan hay çağırır.

Gedə küçühləri alır yanına, gedəndə görür ki, deyir:

– Bajın ölsün qardaş, məni qoyuf getmə. Dar yerdə gərəyin olaram.

– Əyə, bunu küçühlər gözümün qabağında yedi. Bu nətər oldu?

Qayıdır oranı gəzir ki, yarpağın üsdünə bir damcı qan düşüf. Bükür dəsmalına, qoyur yan civinə, gedir, daa səs-küy olmur. Gedir bu dəvəçiyə çatanda dəvəçi görür ki, gəlir. Qəşəh də küçühlərdi. Deyir:

– Qardaş, sənnən bir şərt kəsəjəm. Mən sənin küçühlərinin adını tapsam, sən oları mənə verəssən, – balabanda bilif da Dartannan Yırtan çağırır, – sən mənim dəvəmin yükün tapsan, dəvəni yük qarışıx saa vermiyən kişi döylü. Verif saa çıxıf gedəjəm.

Dedi:

– Yaxşı. De görüm mənim bu küçühlərimin adı nədi?

Balabanda örgənmişdi da. Dedi:

– Birinin adı Dartandı, birinin adı Yırtan.

Dedi:

– Hə, düz tapdın.

Dedi:

– Bə mənim yüküm?

Bu dedi yükün taxıldı, parçadı, nə bilim nədi, nədi. Dedi:

– And olsun Allaha, yox, tapa bilmədin.

Küçühləri də bağladı arxadakı dəvənin dalına. Bir az aralaşmışdı, civinnən dilləndi.

– Bajın ölsün qardaş, niyə bekaflıyırsan. Çağır denən dəvənin yükün tapmışam. Ləli-cəvahirdi yükü.

Çağırdı:

– A qardaş, dayan, dayan. Tapmışam yükünü.

– Nədi?

– Ləli-cəvahir.

Dedi:

– Hə, tapdın.

Dəvəni sarvanıynan verdi buna. Götdü getdi anasının evinə. Dedi ki, ana, sən düz deyirmişsən. Öldürdüm getdi, dur gedəh. Qarının da nəyi vardı? Qarını da qoydu dəvənin birinin belinə, götürdü gəldi dədəsinin vilayətinə. Dedilər, səni, filankəsin yeddi ildi gedən oğlu gəlif çıxıf, atasının yurdunda padşahdı. Hamı qayıdır gəlir. Şəhər olur gənə həmən şəhər, başdıyır burda yaşamağa.

## 35. ŞAH ABBASLA MƏLEYKƏ

Şah Abbas bir dəfə gedir ki, bir cinnən bir məleykə mübahisə eliyillər. Məleykə düzün tərəfidi, cin də əyrinin. Bir dalda yerdə gejə cəhləşirdilər. Şah Abbas da getdi çıxdı bunnarın üsdünə. Məleykə dedi ki, tərpənmə, Şah Abbas gəldi, şərtimizi kəsəjəh. Görəh sənin sözün düzdü, yoxsa mənim sözüm. Gəldi çıxdı. Görüşdülər-elədilər. Dedi:

– Şah Abbas.

Dedi:

– Hə.

Cin gözəgörünməyən bir şeydi dana. Şah Abbasın girdi qəlbinə, dedi ki, ayə, mənim sözümü de, qorxma, mənim sözümü de. Harda dara düşsən, orda sənin yanındayam. O söz nədisə, cəhli çəkirdilər. Məleykə dedi ki, Şah Abbas, mənim sözüm düzdü, bunun sözü düzdü? Dedi:

– Cinin sözü düzdü.

Cin, axı, bunun qəlbinə girif. Cinin sözü düzdü deyəndə bu məleykə atıldı düşdü: “Ə, mənim düz sözümü qoyuf gedif cinin tərəfini saxlıyırsan?” Dedi:

– Şah Abbas, madam ki cinin sözünü dedin, and olsun Allaha, gündə bir dənə erkəh, bir tikəsi də kəsilmiyəjəh ha, tiyanda qızartdırıf, qomşuğa salıf, şəhərin başında çinar ağacı var, o çinardan asdırıf gedərsən. Elədin, canın qutardı, eləmədin, sənə cəza verəjəm.

– Ə, – dedi, – heylə şeyə nə var, hasand şeydi.

Bunnar aralaşdılar. Cin gəldi Şah Abbasın yanına. Dedi ki, qorxuf eləmə, harda çətinniyin olsa, bax, belə tükü-tükə vuran kimi yanında hazıram.

Getdilər. Şah Abbas tapşırmışdı poverə, gündə bir heyvanı qızardıf aparıf asıf gəlirdi. Bu poverin də bir oğlu vardı, xəsdə idi. Heş-zad yemirdi, eləmirdi. Pover əti qızardırdı, aparıf gündə asırdı, gəlirdi. İndi bir gün də qızardanda bunun oğlu gəldi çıxdı bura. Dedi:

– Ata, onnan bir tikə kəs ver maa.

Dedi:

– Bala, onu verə bilmərəm. Şahın tapşırığıdı, onun tikəsi kəsilməli döylü.

– Əşi, – dedi, – bir belə tikə kəs ver maa, nola, tamırım gedir ona.

Dedi:

– Yox, verəmmərəm.

Nə qədər elədi, vermədi.

– Ə, – dedi, – bu ətdərdən tulluyum bura qızarsın, ye da.

Dedi:

– Yox ey, onnan ver.

Xəsdənin tamehi pis olar da, atalar deyif. Vermədi. Gedə durdu aralıda, gözdədi. Dedi:

– Qoy görüm atam onu neynir.

Baxırdı. Gördü qızartdı, qəşəh saldı meşoğa, aldı dalına, şəhərin ortasıynan getdi. Bu da düşdü bunun dalına, getdi. Dedi: "Onu hara aparıf qoysa, onnan bir tikə yeyəjəm". Kişi apardı bunu asdı çinardan, çıxdı gəldi. Tapşırıx heylə idi. Gələn kimi məleykə gəldi ordan götdü. Gedə əlini atırdı belə, məleykə götdü. Sallana-sallana getdi. Gedə də düşdü meşoğun dalına. Yavaş-yavaş, yavaş-yavaş, axşama getdi bir cəzirədə bir evə çıxdı ki, məleykələr burda yaşıyır. Meşoğu addatdılar içəri. Axşam idi. Gedə də getdi kəsdi darvazanı. Döydü, döydü, döydü, məleykənin biri gəldi ki, bir oğlandı. Xəsdə oğlandı, sapsarı saralıf.

– Nədi qardaş, nə isdiyirsən?

Dedi:

– Vallah, mənim qalmağa yerim yoxdu, gejədi, məni beyjəlih qonax saxlıyın.

Dedi:

– Qoy gedim baş məleykəyə deyim, gəlim.

Getdi dedi. Dedi:

– Hə, göt gəl, çöldə qalmıyajax ki.

Bunu apardılar. Baş məleykə buna dedi ki, oğlan, biz məleykə cinsiyik. Bizdə söz üş dəfə olar, üşdən artıx demərih. Onnan soora onun cəzası nədi onu verərih. Bu ətdən də gətdilər qoydular buna. Yaxşı yedi, nəfsi sındı. Söypət-zad da elədi, ayan-bəri. Bu ona dedi ki, oğlum, dur ayaxlaş, yer qayırsınnar, get yat. Bu durmadı utandığınnan. Bunnar hamısı qızdı dana. Nəysə, iki dəfə, üş dəfə, durmadı. Məleykənin ikisinə dedi ki, bunu alın qənədinizə, aparın Şah Abbasın arvadının yanına qoyun, gəlin.

Məleykələr bunu aldılar qənətdərinə, Şah Abbasnan arvadı yatmışdı dana, gətdilər qoydular arvadın yanına. Heş nə gədənin xəbəri oldu, nə arvadın xəbəri oldu. Yatdı burda sabahatan.

Sabah kəniz gəldi ki, sən öl, xanımın yanında bir oğlan yatıf. – "Ə, bu hardan gəlif girif bura? Şah bilsə məni dara çəkəjəh". Oyanmıllar. Nə arvad oyanır, nə bu oyanır. Yuxu tutuf yatıflar. Kəniz dedi ki, mən bunu şaha deməsəm, olmuyajax. Desəm də, mana sual-cavaf, hardan gəlif girif bura. Mən nə bilim hardan gəlif. Dedi ki, deyim da. Deməyim yaxşıdı.

Getdi şaha dedi ki, hal-qəziyə belə-belə. Şah sağ olsun, xanımın yanında bir oğlan yatıf, amma bilmirəm hardan gəlif, nətər gəlif. Elə səhər duruf görürəm ki, ordadı. Dedi:

– Get çağır, durğuz gətir yanıma.

Gəldi bunu durğuzdu. Dedi:

– Gəl gedəh, şah səni çağırır.

Gətdi Şah Abbasın yanına. Dedi ki, ə, oğlan, sən ora hardan gəlif girmisən. Bu gedə başına gələni nağıl elədi Şah Abbasa ki, gəldim atamın yanına, ətdən isdədim, vermədi. Apardı çinardan asdı. Onu da vallah, məleykələr apardı. Mən də getdim, orda maa üş dəfə dedi dur, yeri qayırsınnar, mən də durmadım. Daa onnan soora huşum başımda olmadı.

Hə, Şah Abbas bildi ki, bu məleykənin əngəlidi.

– Əyə, onnarın olajağı hansı tərəfdədi?

Gədə yerin dedi. Şah Abbas bir gün atı mindi getdi. Dedi, gedim bir onnan görüşüm, görüm nətərdi. Amma aşbaz cəmdəyi gündə aparıf çinardan asırdı. Getdi axşama çıxdı ora. Darvazada durdu döydü, gəldi məleykə. Dedi ki, məni bu axşam qonağ eliyin. Bunu qonağ elədilər. Bu məleykəni tanımadı, amma məleykə bunu görən kimi tanıdı da. Nəysə, çörəhdən, sudan soora bu məleykə getdi otdu mənim kimi bekaf-bekaf. Dedi:

– Şah Abbas, məni üş dəfə danışdırassan. Əgər danışdırdın, canıı qutardın. Danışdırmadın, cəmdəyin birin də artırassan, iki cəmdək eliyəssən.

Dedi:

– Yaxşı, nə olar. Onda icazə ver çölə çıxım, gəlim.

Çıxdı, evin böyründə – tük dəsmalın arasında idi, – tükü tükə vuran kimi cin hazır oldu.

– Şah Abbas, nədi?

Dedi:

– Ə, bu məleykə görmürsən mənnən əl çəkmir. Deyir ki, gərəh məni üş dəfə dindirəsən.

Dedi:

– Ə, o hasantdı, onun dərdin çəkmə sən.

Dedi:

– Nətər hasantdı. Bekaf-bekaf oturuf, mən nə deyim ki, o dinsin?

Dedi ki, sən get otur. Mən qavaxca girəjəm stolun üsdündəyi lampaya, soora girəjəm sımavara, soora da girəjəm sənəyə. Oturanda denən: "Ay lampa". Mən hay verəjəm saa. Denən görürsən da, bu məleykə mənnən əl çəkmir, deyir gərəh məni danışdırasan.

Lampa dedi:

– Şah Abbas, mən bir söypət eliyəjəm, sən eşit.

Dedi:

– Nədi?

Dedi ki, bir kişi vardı, vaxdı tamam idi. Kişinin üç oğlu vardı. Kişinin də üş yüz tümən pulu vardı. Oğlannarın çağırdı yanına, dedi: "Bala, mən öləjəm, alın hərənizə yüz tümən pul verim. Mənnən soora elə bir şey alın evinizdə yadigar qalsın mənnən". Kişinin də bir qardaşı vardı, onun da yaxşı bir qızı vardı. Gədələrə vermədi qızını. Götdü getdi İrana.

Nəysə, bu kişi öldü, bunu götdülər kəfin-dəfin elədilər. Balaca qardaş bir az cüvəltarax idi, dedi: "Ə, atamızın vəsiyyətin yerinə yetirəh da. Gedəh alax". Böyüh qardaşa dedi: "Qavaxca sən get al". Böyüh qardaş getdi çıxdı bazara. Hərrəndi, hərrəndi, baxdı ki, bir xalça satıllar. – "Bu nağarır?" Dedi ki, bu, üç aylıx yolu üş günə aparır. Bunun dilin-sirrin də buna örgədillər.

Bu, alır yüz tümənə, götürür gəlir. İndi ortancıl qardaşa deyir ki, sən get. Bu da gedir hərrənir, hərrənir, görür bir bədənnəmə güzgüdü, bunu satıllar yüz tümənə. – “Bu nağarajax?” Dedi: “Duanı oxuyassan, isdədiyin qohumunu, evladını saa gösdərəjəh”. Bunu da bu alır gətirir. Soora balaca qardaş gedir. Bayax dediyim kimi, aftafa-ləyən olur, onda gülab suyu olur, nə olur, insanı dirildir. Bu da yüz tümən olur, bu da bunu alır gətirir. Gətirillər evə. Ortancıl qardaşa deyir ki, güzgünü gətir, ayəsini oxu, görəh həmin qız dururmu. Bu gətirir ayəsini oxuyur, baxıllar ki, əmisi qızı ölüf, təzə ölüf. Böyüh qardaşı deyif ki, sən bilirsən da dilini, gəl gedək. Bu da aftafa-ləyənin götürür, oturullar xalçaya, yallah. Gedillər ki, yuada götürüllər. Görüşüf eliyillər. Əmisinə deyir ki, əmi. Deyir: “Hə”. Deyir: “Əmi, bunu sağ vaxdı bizə vermədin, indi bunun ölüsün də bizə vermiyəssən?” Kişi də elə bilir meyidi götürməyə-zada deyir. Deyir: “A bala, niyə verminrəm, nətər isdiyirsiniz götürün”. Bu balaca qardaş çıxardır hamını çölə. Bilirdi da dilin-sirrin. Ayəsin oxuyur, bu sudan car eliyir, qız axsırıf qalxır.

Cin Şah Abbasdan soruşur ki, indi qız qardaşdarın hansına çatajax. Şah Abbas deyir ki, ortancıl qardaşa çatajax. Deyəndə məleykə ordan dillənir, – axı ortancıl qardaş onu diriltmiyif, balaca qardaş dirildif, – deyir:

– Niyə ortancıl qardaşa çatsın? Qızı dirildən balaca qardaşdı, ona çatmalıdı.

Deyir:

– Hər kimə çatır çatsın, əsas odu dindirdimmi səni.

Məleykənin bərk ajığı tutur, deyir:

– İkinci dəfə də dindir.

Gənə üzünü çöyürür sımavara:

– Ay sımavar, Allahın hökmüynən mənnən danış. Bu məleykə mənnən ağzın əyif.

Sımavar deyir ki, Şah Abbas sağ olsun, iki qardaş vardı. Biri evli idi, biri subaydı. Bu evli qardaş o birini çox dannıyırdı, işdəmirdi-eləmirdi. Bir günnəri dalaşdılar iki qardaş. Dalaşanda böyüh qardaş yıxdı balaca qardaşın başın kəsdi. Başın kəsənnən soora bu, öz-özünə qəhərrəndi ki, dalımın arxası idi gənə, mən niyə onun başını kəsdim. Fikirrəşir, fikirrəşir, öz başını da kəsir. Dedi: "Da bunnan soora niyə yaşıyıram".

Böyüh qardaşın arvadı da duruf baxırdı. Baş ayna düşür, bədən də burda. Gəlin gördü ki, iki siçan, köhnə ev idi, ordan çıxdı, dalaşdılar, biri o birinin başın üzdü. Baş burda qaldı, bədən orda qaldı. Siçan getdi. Bir azdan soora gördü ki, siçan ağzında nəsə çiyniyir – otdu. Nə otudursa, çiynədi, çiynədi, çiynədi, yumuşaltdı, gətdi qoydu bədənə, başı ora qoyan kimi yapışdı, dirildi. Qız da həmin qayda ilə qardaşdarının başını bədəninə yapışdırdı. Amma tələsdiyinnən ərinin başını qaynının bədəninə, qaynının başını ərinin bədəninə qoydu.

Sımavar soruşdu ki, indi qadın hansına çatajax? Şah Abbas dedi ki, bədənə çatajax. Məleykə dedi ki, yox, baş hardadısa, ona çatmalıdı, baş bədənin padşahıdı. Bu dəfə də məleykəni dindirdi.

Məleykənin indi lap ajığı tutdu, peşman-peşman otdu. Qayıtdı sənəyə dedi ki, ay sənəh, Allahın hökmüynən mənnən danış. Cin indi sənəhdən danışır. Deyir ki, Şah Abbas sağ olsun, bir dülgər vardı, bir dərzi vardı, bir də bir molla. Üçü ticarət eliyirdilər. Yükə qaroul çəkmək üçün gejəni üş yerə bölmüşdülər. Qaroul çəkirdilər. Axırıncı gejə idi. İndi qavaxcan dülgər qaroul çəkdi. Bekaf dayana bilmədi da. Götdü bir kadın fiquru düzəltdi taxdadan. Düzəltdi söykədi yükə. Gəldi dərzini durğuzdu: "Dur, vaxt tamamdı". Dərzi durdu. Gördü ə, yükə bir adam söykənif. Qarannıx gejədi dana. Getdi əlini vurdu, gördü taxdadan düzəldilif. Bildi ki, bunu dülgər düzəldif. Bu da maşını qoydu qavağına, bir dəst qəşəh kadın paltarı tikdi,

geydirdi buna. Söykədi yükə, gəldi mollanı durğuzdu. Daa sabah açılırdı, sübh namazı idi. Molla durdu, səni öl, bir kadındı. Gəldi əlini vurdu, gördü taxdadı. Gördü ki, sənətkarrar öz sənətini isbat eliyiflər də. Namazın qıldı, üzün çöyürdü Allaha ki, xudavəndi-xalıq, onnar öz sənətdərin sübut eliyiflər. Buna bir can ver, mən bunnarın yanında xəjalətli olmuyum. Allah mollanın sözüynən ona can verdi.

İndi bunnar üçü də qalxdılar, savaxdı. Dülgər dedi mənimdi, dərzi dedi mənimdi, molla dedi mənimdi. Ay Şah Abbas, hansına çatajax?

Dedi:

– Dülgərə, – deyən kimi məleykə ordan dilləndi. Düzün tərəfinədi axı. Dedi:

– Ə, quru taxtaya nə çatır? Quru taxtadan qayırıf qoyuf ora da. Buna can verən var axı. Mollaya çatmalıdı.

Dedi:

– Əşi, hər kimə çatır çatsın, dindirdimmi səni üş dəfə? Qutardıxmı sənnən da?

Dedi:

– Hə, Şah Abbas, get. Sən Şah Abbassan ki, Şah Abbassan. İsdəmirəm o heyvanı, da gətirmə.

Ordaca Şah Abbas durur atını minir, çıxır gəlir.

## 36. PADŞAH OĞLU

Bir padşah olur. Padşah ölür, bir oğlu qalır. Qabaxda nəsildən-nəsilə imiş ey padşahlıx. Bunu padşah qoyullar. Bu, torpağını tanımırmış da haradı. Cavan oğlan idi. Padşah olannan soora bir at minir, deyir gəzəjəm da torpağımı, görüm qranitsam hardan haradı, örgənim. Gəzə-gəzə, gəzə-gəzə, gəzə-gəzə gəlir elat yoluna. Dağa gedən yolun qırağında görür yaxşı göy çiməndi. Atı buraxır bura, bir az uzanır, bir az

danışır öz-özünə. Nəysə, bu susduyur. Durur deyir: "Bir görüm buralarda nə tapıram". Gedir, qavağına bir quyu çıxır. Əyilir baxır ki, görüm su varmı, nədi, nə quyusudu. Əyilir baxır. Yuxarı çıxanda bu, tilsimə düşür. Olur bir yaxşı gəlin. Olur arvad xeylağı. Özünə baxır ki, ə, sən öl, mən arvad olmuşam. Bu nə işdi mənim başıma gəldi? Gəldi otdu. At da otduyur. Bayaxdan kişi idi, indi arvatdı.

Elatın dağ yolu idi. Padşah da şikardan gəlirdi vəziriynən. Gəldilər bunun üsdünə düşdülər.

– A bajı, burda niyə oturmusan?

Dedi:

– A qardaş, elat gedif. Atım yoruluf, bir az atımı dincəldəjəm, gedəjəm.

Gördülər ki, yaxşı gəlindi dana. Dedi ki, biznən gedək.

Dedi:

– Yox, mən siznən hara gedim?

Axı bu bayaxdan oğlan idi, indi arvad oluf. Bunu məjbur atına mindirdilər, aldılar yedəyə, götdülər getdilər. O da padşah idi, bir də vəzir idi. Padşah subay idi. Apardı padşah bunu qoydu evə. Bajısı-zadı vardı. Dedi ki, a bajı, get onun yanına, gör icazə versə, kəbinin kəsdirim, qəşəh gəlindi. Getdi buna dedi. Bu da dedi ki, padşahlarda qırx gün möhlət olur, maa qırx gün möhlət versin, soora deyərəm. Dedi, bəlkə, dalınca gələn olar.

Qırx gün gəldi keşdi. Kimdi bunun dalınca gələn? Nəysə, icazə verdi. Mollanı gətdilər, kəbinini kəsdirdilər. Başdadı bunnan yaşamağa. Bunun bir oğlu oldu bunnan. Yaşıyırdılar.

Bir gün nətər oldusa, bunun atasının vilayəti yadına düşdü, başdadı ağlamağa. Yoldaşı gəldi, dedi:

– Ay qız, niyə ağlıyırsan, nəyin əysikdi? Hər şeyimiz var, Allaha şükür.

Dedi:

– A zalım oğlu, heş demirsən sən kimsən, hardan gəlmisən, nəçisən. Daşdan-qayadan yaranmamışam ha. Mənim də atam-anam var.

Dedi:

– Var, gedəh da. Mən nə bilim? Gəjavə bəziyəh gedəh, ya elə belə gedəh. Nətər deyirsən, gedəh.

Dedi:

– Yox.

Axı bu gedəndə oğlan idi. Dedi:

– Heş kəs lazım döylü. Bir sən, bir mən, bir də bu uşağım. Adama bir at minəh, gedəh.

Adama bir at mindilər. Oğlu da bu doğmuşdu dana, aldı qucağına, düşdülər yola. Dedi ki, sən məni götdüyün yerə qədər apar, ordan da ayna mən səni. Gəldilər düz həmən yerə. Düşdülər orda. Gəlin bilirdi quyunun tilsimli olduğun. Atdarı buraxdılar, bir az otdular. Ərinə dedi bir hərrən gör buralarda sudan-seldən varmı, uşağa da verəh, özümüz də içəh. Bu durdu yavaş-yavaş, – bu da baxırdı, – hərrənə-hərrənə gəldi çıxdı quyunun üsdünə. Əyildi quyuya, baxıf qalxanda bu da oldu arvad. Getdi bunun yanına, dedi:

– Aaz, başıma belə bir iş gəlif.

Dedi:

– Heş-zad olmaz. Gəl uşağın yanında otur, gedim mən ora bir də baxım, bəlkə Allah irast salar da.

Durdu bu getdi gəzdi. O quyuya baxanda oldu oğlan. Bir yaxşı oğlan oldu. Gəldi dedi ki, uşağı al qucağına. Uşağı al qucağına, al qucağına. Nağarajax, arvad xeylağıdı. Atı mindilər, aldı qucağına. Ordan da ayanı bu tanıyırdı da. Götdü gəldi.

Bay, padşahın neçə ildi gedən oğlu gəlif çıxıf. Yeməhişməh, ayan-bəri. Başdadı bu burda padşah oğludu dana, padşahlığını eləməyə.

Bir gün dedi ki, vəzir, dəlləyi götür, gedək baş-gözümüzü qırxdırax, hamamlanax. Dəlləh oldu, vəzir oldu, bir də bu şah oldu. İndi hamama gedirdilər. Yola bir təsbeh düşmüşdü. Bunu padşah da gördü. Təsbeh çox yaxşı təsbeh idi. Padşah arrandı götürməyə ki, mən padşaham, əyilim yerdən təsbeh götürüm? Götürmədi. Vəzir də gördü. Vəzirin də ürəyinnən keşdi, amma padşahdan qorxdu ku, padşahın maa ajığı tutajax. Axı demədi götür. Bunnar keçəndə dəlləh gəldi daldan. Dəlləyə nə sorğu-sual? Əyildi götdü, qoydu civinə. Bunu vəzir də gördü, şah da gördü. Şah dedi elə yaxşı oldu onun götdüyü. Bir kələhnən əlinnən alaram. Yaxşı təsbehdi.

Gəldilər evə. Şah dedi ki, ə vəzir, dəlləyi qoyma gedə. Denən gedəh çaydan-zaddan içəh. Görəh təsbehi ala bilirihmi onnan. Gəldilər, çayı qoydular ortaya. Şah dedi ki, ə dəlləh, bu təsbehi mən də gördüm, götürmədim. Sən niyə götdün onu? Dedi:

– Sən şahsan, arranmısan götürməmisən, mən niyə götürmüyüm? Dəlləh adamam. Vəzir də sənnən qorxdu, götürmədi. Mən niyə götürmüyüm? Qalsın orda?

Dedi:

– Yox ey, yaxşı elədin götdün. İndi adama bir söypət eliyəjeyih. Kimin söypəti düz çıxsa, təsbeh ona qalajax.

Dedi:

– Yaxşı, eliyəh. Şah sağ osun, qavaxca sən elə.

Şah mən elədiyim söypəti elədi. Belə getdim tilsimə düşdüm. Bax, o uşağı mən doğmuşam, mənim oğlumdu. Bu da ərim idi. Soora bu arvad oldu, mən kişi oldum. Aaz, heylədimi?

Dedi:

– Hə.

Bu bir az pərdəli oldu da, inanmalı olmadı. Vəzirə də “qatır vəzir” deyirdilər. Dedi:

– Hə, nolar, indi də vəzir söypət eləsin.

Vəzir də dedi ki, camaat maa "qatır vəzir" deyir. Bilirsinizmi? Mənim bir arvadım idi, bir özüm. Mən də burda vəzir idim. Gündə bura gəlirdim. Gəlirdim, gedirdim. Gejə arvadnan bir yerdə yatırdıx. Gejənin bir vaxdı gördüm buz kimi arvad girdi yanıma. – "Arvad, hardan gəlirsən, niyə buz kimisən?" Dedi: "Çölə çıxmışam".

Bir gejə, iki gejə, beş gejə. Ə, belə şey olmaz. Bu nətər işdi. Bir gejə yatmadım. Özümü vurdum yuxuluğa, xorul-dadım. Gördüm arvad durdu yanımdan çıxdı. Arvad yanımdan çıxanda bir az gözdədim, mən də bunun dalınca. Yolnan, daldasıynan gethaget şəhərin ortasınatan getdih, bu döndü bir qapıya. Mən də tez getdim başda abışka vardı, ordan baxıram. Gördüm ki, ə, burda üç oğlan var, iki dənə də gəlin var. Bunnar süpürrəşillər, oynaşıllar. Mənim arvadım içəri girəndə biri yerinnən qalxdı, buna bir qapaz qoydu ki, çəpəl, axşamnan səni gözdüyürəm, hardasan? Bu da dedi ki, gərəh kişi yata, gələm da. Kişi yatmamış nətər gəlim? Dedi ki, bunu maa deyə bilmirsən, sənə bir ayə örgədəm? Oxuyuf vurasan kişinin kürəyinə, daş desən, daş olajax, heyvan desən, heyvan olajax. Gedəndə də oxu vur, olsun adam. Bu ayəni, deyir, mən götdüm. Gözümün qavağındaca arvadnan oynadılar-elədilər. Dağılan vaxdı mən tərpəndim arvatdan qavax. Gəldim girdim yerimə. Arvad gəldi. Genə buz kimi, çöldən gəlif. – "Arvad, canın niyə buz kimidi?" Dedi: "Ə, çölə çıxmışdım dana". Dedim: "Hə, yaxşı eləmişdin, gəl". Uzandı arvad yanıma. Ağlıma gəldi qatır düşdü. Ayəni oxudum, dedim arvadım olsun qatır.

İndi arvad olur, qardaş, qatır. Günüz olanda alıf yedəyimə bağlıyıram bax ora, axşam da olanda aparıram arvad eliyirəm, orda dolanırıx. İsdiyirsiniz durum oxuyum, qatır eliyim, görün.

Şah dedi:

– Ə, da dedin da, bildih. Dəlləh, sən de görüm nə deyirsən?

Dəlləh də dedi ki, mənim Allahdan əhdim vardı. Təhratsız əl qavına çıxmırdım. Bir dəfə, deyir, dağ yeri idi, gəlirdim. Birdən tutdu da pəşom. Ha yüyürdüm, ha yeridim özümü suya çatdıram. Gördüm bir balaca alaçığ var, bunun qavağında bir aftafa var. Aftafanı belə-belə elədim ki, hə, içində su var. Bunun içindəki də deməynən ayrı şeymiş. Tez gəldim. Əl qavına çıxmışam da. Bunu tökdüm belə özümü yuyam, bəri çəkəndə ayın-oyunum əlimdə gəldi. Ə, bu nə iş idi, ay Allah, başıma gəldi? Bu nətər şeydi? Gördüm bir cüt göyərçindi qonuf ora. Deyir: "Ə, bu filankəsdi. Ayın-oyununu yerinə qoyuf bir də carrasa özün, bitər yerinə". Mən də tələsdiyimdən alt-üsd qoymuşam. Bıy, soora baxıram ki, səyf qoymuşam. Da təzdən fırrıyıf düzəltməh olmaz.

Padşah deyir ki, ə, heylə şey olmaz.

Deyir:

– İndi siz də kişisiniz, mən də. İcazə ver, açım, bax.

Açır özünü gösdərir padşaha. Padşah görür, sən öl, ə, bu düz deyir, elə heylədi. Həmi özünü padşaha gösdərir, – padşaha özünü gösdərməh zarafat şey döylü ey, – həmi də təsbehi alır.

## 37. MƏLİK MƏHƏMMƏD

İki qonşu olur seyidnən (Seyid Yusif ağanı nəzərdə tutur – top.) mənim kimi. Kasıb olullar. Gedif odun gətirif satıf dolanırmışdar. Özdərinə də odun gətirirmişdər, dallarında gətirirmişdər. Sözdü dana. Yoruluflar, bir yerdə oturuflar. Bu qonşusu deyir ki, ə, Allahın altında elə olardı, gedeydim ki, qavım-qaşığım hamısı qızıl oluf, ujunnan tutuf xaşdıyeydim, heş bu odun şələsini aparmıyeydim. O birisin də ayləsi boyluydu. Bu da dedi: "Ə, Allahın altında qırx oğlum oleydi, işdiyərdilər, mən də papağımı dolayı qoyuf yeyif-yateydim orda". Allah o vaxdı eşidirmiş insannarın diləyini.

Duruf gəlillər evə. Ayrılıllar hər kəs öz evinə. Allahdan qav-qaşığının qızıl olmasını diliyən gəlir ki, sən öl, qapıda olan qavlar hamısı qızıldı. İçəri girir ki, evində olan da qızıldı. Tez süpürrüyüf basır sandığa, görən olmasın.

O birsinin də arvadı həmli idi. Gəlir görür, sən öl, hadıxlar yığılıf başına, arvad bir ujdan doğur, bir ujdan da hadıxlar bəliyif yığıflar ora. İndi bu özü arzu eləmişdi Allahdan dana. Əlini qoyur qapının burasına[22]. Baxır ki, səni öl, uşax doludu, qırx uşaxdı. Öz-özünə deyir ki, ə, mən heş arvadnan özümü saxlıya bilmirdim, mən bunu nətər saxlıyım? Yaxşısı budu başımı götürüm çıxım gedim. Qolunda bir bazubəndi vardı. Aşdı ha belə tulladı arvadın üsdünə, dedi:

– Mən getdim.

Dedi:

– Ə, hara gedirsən, bir belə tifağın yiyəsisən.

Dedi:

– A qardaş, mən onu saxlıya bilmərəm.

Nəysə, başını götdü, başdadı getməyə. Düşdü ha belə yol gedəndə gördü bu tərəfdən bir gedə gəlir. Gözdədi, gəldi çatdı. Salam kalam.

– Ə qardaş, hara gedirsən?

Dedi:

– Nə bilim ey, başımı götürüf çıxıf gedirəm.

– Nədi, noluf ey?

Dedi:

– Ə, dolana bilmirəm dana, külfət də məni basıf, dolana bilmirəm. Tərk edif çıxıf gedirəm.

Dedi:

– Ə, elə mən də sən gündəyəm, gəl bir yerdə gedəh, qardaş olax.

[22] Qapının çərçivəsini nəzərdə tutur.

Belə-belə yeddi qardaş oldular. Yeddisi də bu dərtdən oldular. Getdilər, bu şəhərin səmtində meşə vardı, meşəyə çatanda Məlik Məhəmməd dedi ki, da burdan belə hara gedəjeyih ey. Yeddi adamıx, burda bir damka qayırax meşənin içində, gündə adama bir şələ odun aparax satax, gətirəh elə bir yerdə də yeyəh-içəh, burda dolanax. Helə də elədilər. Yerdən qazdılar, bir damka qayırdılar, girdilər içinə. Gündə altısı gedirdi, odunu aparırdı satırdı, biri qalırdı çörəh hazırrıyırdı.

Biri qalmışdı. Aşı bişirif dəmə qoymuşdu ki, indi odunnan gələjəhlər dana. Yuxu tutuf yatar. Özü bir qarış, sakqalı iki qarış bir kişi gələr bu yeməyi yeyər, çıxar gedər. Təmiz yeyər, heş nə qalmaz. Qardaşdar gələr:

– Ə, gətir görəh nə bişirmisən.

Qazanın ağzın açar ki, nə var. Heş-zad yoxdu.

– Ə, bunu mən bişirif qoymuşdum bura, bunu kim gəldi yedi, mən görmədim?

Nəysə, təzdən bişirif yedilər. Belə-belə o biri qardaş, o biri qardaş, axıra Məhəmməd qaldı. Məhəmməd də qazanı bişirdi qoydu, amma əvvəlkilər bir-birinə demiyif başımıza belə iş gəlif. Bu Məhəmməd də bişirdi, hazırradı qoydu, gəldi otdu. Fikirri idi da, yata bilmədi. Elə gözünün altınnan baxırdı, fikirrəşirdi. Gördü ki, qapıda sakqalı özünnən uzun bir kişidi. Gəldi girdi içəri. Girən kimi qazanın ağzın aşdı, başdadı yedi təmiz. Dinmirdi. Durdu bu çıxanda bu da bunun dalınca çıxdı. Meşənin içiynən getdihləri yerdə yoxa çıxdı. Getdi yoxa çıxan yerə baxdı ki, bir quyu var, boyu bir qarış düşüf quyuya. Ha baxdı, ha baxdı, divini görə bilmədi. Quyu çox dərin idi. Qayıtdı gəldi. Gəldi bişirdi, hazırradı. Qardaşdar gəldi.

– Ə qardaş, mənim başıma belə iş gəldi.

O dedi ə, mənimkinə də gəlif, bu dedi, mənimkinə də gəlif. Dedi:

– Ə, bə niyə demirsiniz?

Dedi:

– Vallah, nə biləh, demədih da.

Dedi ki, durun çatıları götürün, onun yerini bilirəm. Gedəh çatını bağlıyax uj-uja, düşəh aşağı, görəh o kimdi, nəçidi, hara getdi?

Gəlillər. Qavaxcana böyüh qardaşa bağlıyıllar. Bir az sallıyanda çığırır ki, ə yandım, məni çəkin, ə yandım, məni çəkin. Bunu çəkif çıxardıllar. Heş biri girə bilmir. Məhəmməd deyir ki, ə, mən nə qədər yandım desəm məni çəkmiyin. Buraxın, gedəjəm, görüm nədi, orda nə var. Bunu salladılar. Aşağı düşdühcə isdi yalov kimi bunu vurur, çığırır:

– Ə yandım, məni çəkin.

Hara çəkillər? Da özü demişdi da. Buraxıllar, gupbultuynan gedir düşür quyunun divinə. Bura da olur dev məkanı. İndi bu getdi düşdü bura. Baxdı ki, ə, həmən kişi oturuf odey orda. Dev başını qoyuf qızın dizinin üsdünə. Qız da elə ağlıyır, elə ağlıyır, elə ağlıyır, nətəri. Gəldi bu qızın yanına. Dedi ki, a bajı, niyə ağlıyırsan?

Dedi:

– A qardaş, yeddi ildi məni bu devlər gətirif, bax ha belə bunnara qullux eliyirəm.

Dedi ki, deyillər devin canı şüşədə olur. Heylə bir şey var burda?

Dedi:

– Hə, odey ha. Orda bir şüşə var, içində də göyərçin. Bax, mənim dizimin üsdə olan devin canı ondadı. Əyəm şüşəni qırıf göyərçini öldürsən, devi elə bil ki, öldürmüsən.

Bu da cavan oğlandı dana. Onu qırdı deyilənə görə, göyərçini öldürdü, dev öldü. Qız devin başını tulladı yerə, durdu ayağa. Üsdünü-başını çırpdı gəldi:

– Ay qardaş, nə yaxşı gəldin, Allah səni maa yetirdi. Mən yeddi ildi burda dustax qalmışam.

Getdi o kişinin yanına. Salamdan-kalamdan soora dedi:

– Əşi, sən gəldin orda mənim bişmişimi yedin. Mən də sənin dalınca gəlmişəm. İndi mən nətər eliyim burdan çıxım. Mən saa yaxşılıx eliyif yeməh vermişəm da. Sən də maa yaxşılıx eylə, yolun-yorğasın gösdər, mən çıxım işıxlı dünyaya.

Dedi:

– Qardaş, hər cumadan-cumaya iki dənə qoş gəlir qiblə tərəfdən. Biri qaradı, biri ağ. Bax, görürsən o şiş dağı, o dağın başına çıxassan, gözdüyəssən cuma gününü. Qoşdar ikisi də cüt gəlir. Qara qoçun belinə düşdün, bir belə də dərinə gedəssən, yox, ağ qoçun belinə düşdün, səni çıxardajax işıxlı dünyaya.

Kəndir ordan sallaxlıydı. Qardaşdarı kəndiri çəkmiyif. Bu qıza dedi ki, gəl səni verim çəksinnər, soora da məni çəkəjəhlər. Dedi:

– Ə, ehtibar eləmə. Məni görsələr səni çəkmiyəjehlər. Gəl burdakı qızıldan-zaddan götür, səni çəksinnər, sən də məni çək.

Dedi:

– Yox, mən ora çıxıf bir də bura düşə bilmərəm. Mən çıxaram, sən də gəlmərsən.

Bu minvalnan gədə qızı kəndirə bağladı, qardaşdarı çəkdi. Çəkdilər ki, bir dünya gözəlidi. O dedi mənimdi, bu dedi mənimdi. Altı qardaş burda qalmışdı axı. Qız dedi ki, mən heş bir kəsə gedən döyüləm. Mənim nişannım içəridədi, havaxt gələjəh, mən ona gedəjəm.

İndi qız bunnarın çörəyin-suyun qayırırdı, bunnar aparıf odun satıf gətirirdi.

Qardaş, saa xəbər verim Məhəmmətdən. Məhəmməd getdi çıxdı dağın başına cuma günü. Gözdədi, gözdədi, gözdədi, gördü ki, qoçun ikisi də cüt gəlir. Orda dağın başında durmuşdu da. Elə dağın döşünnən bəri gələndə bu sıçradı ki, ağ qoçun belinə düşə, düşdü qara qoçun belinə. Bir belə də yazığı apardı dərinə. Getdi bir cəzirədə bir düzə düşdü. Baxdı

ki, şəhər görükür. Tanımır, bilmir. Durdu yavaş-yavaş, yavaş-yavaş, dedi: “Gedim bir insan tapım, danışım, görüm nə var burda, neyniyim mən”. Getdi ki, şəhərin qırağında bir damka var, burdan tüsdü çıxır. Yavaş-yavaş getdi qapıya.

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Bir qarı çıxdı. Dedi:

– A bala, kimsən?

Dedi:

– Ay ana, bir adamam dana.

Deyir:

– Gəl da, gəlmisən, gəl bəri.

Bunu arvad aparır evə. Çörəh-zad qoyur. Bu yeyir-eliyir. Deyir:

– Oğul, kimsən, hardan gəlif, hara gedirsən?

Deyir:

– Ana, elə caleyvətən canımdı, burda da qərib bir adamam. Heş kəsi tanımıram.

Dedi:

– A bala, mənim də heş kəsim yoxdu. Gəl elə sən mənim oğlum ol, mən də sənin anan. Sən azdan-çoxdan tap gətir, mən də bişirim yeyəh, burda dolanax.

Gejə gedə qaldı burda. Susunnan yandı gedə.

– Ay ana, mana su.

Dedi:

– Bala, su problemdi, su yoxdu. Burda bir bulağımız var, onun da ağzını əjdaha kəsif, buraxmır. Gündə bir adam aparıf tulluyullar ağzına, o yeyincə qannı su gəlir, camaat götürür. Mən də qoja adamam, götürəmmirəm. Su tanımıram.

Bu, gejə susunnan alışdı, yandı. – “Ə, mən nətər eliyim?” Harda idi su? Sabah açıldı. Sabah da padşahın qızını aparıllar verəllər ona. İki-üş metr qalmış əjdaha onu çəkirmiş yaxınına.

Camaat da su götürürmüş. Aftafası, sənəyi olan götürüf gedir, daa su axmırmış ey. Yeyincə nə su gəlirmişsə, o imiş. Deyir:

– A bala, odey aparıllar, padşahın qızını aparıllar. Mən də vallah, gedə bilmirəm, qoja arvadam.

Dedi:

– Ay ana, onda maa qav ver, mən gedim.

Arvadın bir aftafası vardı, verdi buna, götdü getdi. Gətdi ki, camaat karvan-karvan gəlir, qızı da qatıflar qavaxlarına aparıllar. Getdi qız buna yaxınnaşanda ağladı dana, can şirindi. Elə ağladı, elə ağladı, nətər. Bu tez çıxdı camaatın içinnən, aftafanı apardı verdi qıza, dedi:

– A bajı, sən aftafanı saxla, su gələndə bunu dolduruf verərsən mənə. Mən sənin əvəzinə gedim.

Tanımıllar bunu. Bu getdi. Xançalı vardı. Xançalı tutdu belə qavağına, getdi. İki metr qalmış əjdaha özü bunu çəkir kamına. Çəhdi-çəhdi, xançal bunu kəsə-kəsə getdi. Qannı su gəldi. Camaat götdü, elə bildi su kəsiləjəh dana. Xançal əjdahanı yardı ortadan, əjdaha öldü. Camaat elə qannı sudan götdü qorxusunnan tez. Suyun dalı gəlir dana. Duruldu su, gedə də aftafanı doldurdu, götdü gəldi. Bunu burda tanıyan yoxdu, bilmillər ki, kimdi, nəçidi. Gəldi qarının evinə. Suyu gətdi verdi, qarı da alqış elədi ona. Dedi ki, qarı nənə, daa su gələjəh innən belə. Get sən də götü.

Padşahın qızını qaytardılar apardılar. Dedi:

– Noldu?

Dedi:

– Hal-qəziyə belə-belə. Bir oğlan çıxdı, qızın əvəzinə getdi, əjdahanı öldürdü.

Padşah dedi ki, o hardadısa, onu tapın gətirin mənim yanıma. Həm padşahın qızını azad eliyif, həm də suyun ağzını açıf.

Gəzdilər, gəzdilər. Bu da qarının damxasında idi dana. Hərrəndi iki nəfər gəldi çıxdı ora. Dedilər, ə, nolar qoja arvad

olanda. Bura da baxax da, bəlkə, burda olar. Getdilər ki, bir oğlandı, uzanıf yatıf.

– Ə, qardaş, dur ayağa.

Durdu.

– Səni aparajeyih padşahın yanına.

Dedi:

– Ay qardaş, mən qərib adamam, padşahnan mənim nə işim var? Padşaha mən nə pisdih eləmişəm? Oğurrux eləməmişəm, bir şey eləməmişəm.

Dedi:

– Yox ey, çağırır səni.

Bunu götdülər gəldilər.

– A bala, sən idin o əjdahanı öldürən?

Dedi:

– Hə, mən idim.

Dedi:

– Oğul, mənim qızımı da azad eləmisən, camaatı da suynan təmin eləmisən. Nə isdəsən saa verəjəm.

Dedi ki, şah sağ olsun, mən burda qərib adamam, mən işıxlı dünyadan gəlmişəm. İndi güjün çatırsa, məni ora çıxart. Onu isdiyirəm sənnən. Ayrı var-döylət, qızıl nəyimə lazımdı. Padşah da bir az fikirrəşdi, dedi ki, mən ora bunu nətər çıxardım. Dedi:

– Oğul, burda bir böyüh çinar var. Orda bir tutuquşu var. Onun da balalarını ildə əjdaha yeyir. Get onun balaların əjdahadan azad elə, o səni çıxarda bilər. O da sənnən nə isdəsə, gəl, mən verim.

Getdi çinarı gösdərdilər buna. Şəhərin başında yekə çinar idi. Divi kölgə idi, otdu, uzandı burda. Baxırdı belə çinara. Gördü ki, başında yuva var, tutuquşunun balaları içində. Birdən gördü çığırışıllar. Baxdı ki, əjdahadı, dolana-dolana çinara çıxır. Xançalı əlində idi. O saatdarı vurdu öldürdü

bunu, doğradı, verdi quşun balalarına. Bunun biri də əjdahanın ətini dilinin altında saxladı anasına. Tutuquşu gəldi, böyüh quşdu. Balaları öz dillərində dedi ki, bax, orda yatan oğlan əjdahanı öldürdü, doğradı, gətdi verdi bizə. Yedih ana, saa da saxlamışam dilimin altında. Quş qənədin çaldı, yendi bunun yanına. Gəldi bunu durğuzdu. Bu durdu yerinnən. Padşah demişdi, axı, tutuquşu səni aparajax. Dedi:

– Oğlan, mən neçə ildi balaya həsrətəm, bu əjdaha qoymurdu. İndi maa sən bala vermisən. Mənnən isdə görüm nə isdiyirsən, saa verəjəm.

Dedi:

– Sənnən heş zad isdəmirəm. Mən bura adamı döyüləm. Mən işıxlı dünyadan gəlmişəm, məni ora çıxart.

Dedi:

– Paho, böyüh xarc lazımdı ona.

Dedi:

– Nə xarc? Nə desən, mən verəjəm.

Dedi:

– Qırx tulux maa su gətirəssən, – tulux da heyvan dərisinnən olurdu, – qırx da cəmdəh. Qənətdərimin üsdünə yığessan, oturessan ortada. Mən səni çıxardajam. "Qa" deyəndə ət verəssən, "qu" deyəndə su verəssən.

Dedi:

– O hasantdı, gətirərəm.

Durdu gəldi padşahın yanına. Dedi:

– Maa bu şeylər lazımdı.

– Bu saat.

Padşahın əlində çətin döyüldü. Hazırratdı, gətdi ağacın yanına. Tutuquşu yendi, bunu yığdı qənətdərinin üsdünə, gedə də otdu, ya Allah, qalxdı göyə. "Qa" deyəndə ətdən kəsif tulluyurdu ağzına, "qu" deyəndə su verirdi. Da bir dəfə də ət tullasa bunu çıxardajeydi, ət qutarmışdı. Gədə gözdüyürdü ki, ət

isdiyəjəh də. Əlacı kəsildi, kök adam idi, tez yançağının ətin kəsdi, tulladı bunun ağzına. Bu gördü şirindi, dilinin altında saxladı. İnsan əti şirin olur. Bunu işıxlı dünyaya çıxartdı. Dedi:

– Məhəmməd, axırda maa tulladığın əti hardan almışdın?

Dedi:

– Ət olmadı, yanbızımdan kəsdim.

Qan götürüf ağzı belə. Qaytardı, deyir, qoydu yerinə. Ağzının lağabınnan[23] vurdu, hökmü-ilahi idi, sağaldı. Həmən yerdən bunu çıxartmışdı. Bu durdu yavaş-yavaş alaçıxlarına gəldi ki, heş kəs yoxdu. Elə bir qızdı burda. Görüşdülər, elədilər. Dedi ki, Məhəmməd, xəyalını qəti dolandırma, sənin yanınnan nətər gəlmişəmsə, heyləyəm. Qardaşdarın bir-birini qırdı mənim üsdümdə, heş birinə vnimaniya verməmişəm. Səni gözdüyürdüm.

Dedi:

– Lap yaxşı.

Qardaşdarı gəldi. Görüşdülər-elədilər. Da bu ayləlidi da. Buların yanında qala bilməz axı. Dedi ki, qardaş, indiyətən bir yerdə çörəh yemişih, bir-birimizə həmd durmuşux. İndi mən ayləliyəm. Siz burda gənə qalın, mən ayləmi götürüm gedim şəhərə. Bir yer tapım, orda ayləmnən dolanım.

Durdu aylәsini də götdü, gəldi şəhərə. Gəldi ki, camaat o qədər yığılıf padşahın evinin qavağına. Birinnən xəbər aldı:

– Ay qardaş, bu nə yığıncaxdı belə?

Dedi:

– Padşah ölüfdü, padşahlıx quşu uçurdullar. Kimin başına qonsa, onu padşah qoyajaxlar.

Bu da getdi arvadıynan bir tərəfdə durdu. Qərib adamdı da, heş kəsi tanımırdı. Quşu ordan uçurdanda quş gəldi qondu bunun başına. Ayə, bu nətər hak-hesab oldu? Bunu tanıyan yox idi. Hərə başına bir qapaz vurdu:

---

[23] Lağabınnan – tüpürcəyindən

– Ə, sən kimsən gəlif bura çıxmısan? Sənnən bizə padşah olar?

Dedi:

– A qardaş, mən nağayrım? Burda durmuşam, quşdu, gəlif qonufdu.

Quşu götürdülər, dedilər:

– Quş karıxıf.

Üş dəfə quşu uçurtdular, gəldi qondu onun başına. Daa üşdən artıx olmazdı. Bunu qoydular burda padşah. Arvadı da yanında burda başdadı padşahlıx eləməyə.

Sənə xəbər verim bunun oğlannarınnan. Qırx dənə oğlu var idi. Xəbər verdilər oranın padşahına ki, filan yerdə qırx dənə uşax oluf, saxlıya bilmillər. Padşah sağ olsun, kömək elə, uşaxlar yekəlsin, sabah müharibəyə göndərərsən, başqa bir yerə göndərərsən da. Padşah gətdi buna inəh də verdi, adam da təyin elədi, çörəyin də verdi, bunnar yekəldilər. Daa yekə oğlan idilər. Bunun biri dirədöymə oynuyurdu, qavax bizim oynadığımız kimi. Biri-birini vurdu ağlatdı, dalaşdılar. Buna yetim dedi.

– A yetim, sən nə qızmısan!

Bu da bunun xətrinə dəydi. Heç uşaxlıxdan atasını görmüyüf axı. Gəldi evə ağlıya-ağlıya. Anası dedi:

– A bala, niyə ağlıyırsan?

Dedi:

– Ay ana, mənim atam yoxdu?

Dedi:

– Niyə yoxdu, ay bala, var. Atasız uşax olar?

Dedi:

– Bə mənim atamı öldürdülər, özü öldü, nejoldu?

Dedi:

– Oğul, atan əhd eləmişdi Allahdan. Gəldi baxdı qapıdan habelə, gördü qırx dənə oğlu oluf. Dedi mən bunu saxlıya

bilmərəm. Başını götdü, çıxdı getdi. Kim bilir hardadı. Ölüf, qalıf, neçə il keçif.

Deyir:

– Atamdan heş bizə bir yadigar qalmıyıf?

Dedi:

– Bir bazubəndi vardı, aşdı verdi maa, getdi.

Böyüh oğlu dedi:

– Ana, o bazubəndi ver maa.

Aldı bazubəndi vurdu qoluna, getdi padşahın yanına. Dedi:

– Padşah sağ olsun, bilirsən da bizi sən saxlamısan. Qırx dənə qardaşıx biz. İndi atamızı gəzməyə gedəjeyih. Bizim hərəmizə bir at ver, gənə gətirif özünə verəjeyih.

Əmr elədi. Bunnarın hərəsinə bir at verdilər. Mindilər, bazubəndi də götdülər, başdadılar kəndbəkənd, şəhərbəşəhər soraxlamağa. Gəldilər çıxdılar bura. Böyüh qardaş dedi:

– Ə, padşah bilər atamın harda olduğunu. Qavaxca padşahnan danışax, tapmasax soora gedif qoja kişilərdən-zaddan soruşarıx.

Gəldilər çıxdılar bunun yanına. Dedilər:

– Padşahnan işimiz var.

Padşah dedi:

– Hamınız bir dərdə gəlmisiz?

Dedilər:

– Hə.

Dedi:

– Onda böyüyünüz kimdisə gəlsin, danışax.

Böyüh qardaş getdi.

– Nədi oğul, xeyirdimi?

Mən dediyim kimi dedi: “Belə olmuşux, atam bizi tərk edif gedif” – deyəndə bildi ki, bununkudu dana. Dedi:

– Bəs atanızdan heş sizə nişana-zad qalmıyıf?

Qolundakı bazubəndi gösdərdi, üsdünə yazılmışdı da adı. Dedi:

– Oğul, o mənəm. Sizi saxlamağın dərdinnən başımı götdüm getdim.

Dedi:

– Ata, biz indi yekəlmişih, hərəmiz bir kişiyih. Da sana padşahlıx nə yaraşır gedif onnan-bunnan cəhli vurasan. Gəl ayləni də götür, gedəh.

Bunnarın hərəsi bir at mindilər, gəldilər. Gəldi kişi arvadnan da görüşdü. Dedi:

– A kişi, bəs bir belə uşağı mənim yedəyimdə qoyuf niyə qaşdın?

Dedi:

– Ay arvad, gördüm saxlıya bilmiyəjəm dana. Sənnən özümü saxlıya bilmirdim, qırx uşağı nətər saxlıyım odun şələsi satmaxnan? Ona görə çıxdım getdim.

Ordan kişi heç hara getmir. Oturur, uşaxlar qazanıf gətirir, bu yeyir. İki arvadnan da kef eliyir. Allah diləyin eşitmişdi dana.

## 38. QARAÇUXASINI YATIRAN ŞƏXS

Bir padşah olur, yaxşı padşah olur. Qonağı çox olur. Vəzirə deyir:

– Vəzir.

Deyir:

– Hə.

Deyir:

– Vəzir, gəzirsən da bu şəhəri. Maa elə bir adam tap savatdı olsun, söypət-zad bilən olsun, mənim qonağımı yola salsın. Daa mən bezmişəm danışmaxdan. Heylə bir adam tap gətir maa. Yeməh-işməyini də, xaşdamağını da burdan aparar.

Vəzir də yerin bilirdi. Bir savatdı hajı vardı. Haja gedif gəlmişdi. Getdi bunun yanına. Dedi:

– Hal-qəziyə belə-belə, padşaha belə bir adam lazımdı. Mən elə səni məsləhət bilirəm da. Savatdısan, Haja gedif gəlmisən. Ehtiyacın olan nədisə padşahdan gətirərsən.

Dedi:

– Qardaş, mənim ehtiyacım yoxdu. Bir arvadımdı, bir özüm. Nökərim var, qoyunum var, yaxşı malım var. Heş nəyə ehtiyacım yoxdu.

Dedi:

– Yoxdu, yoxdu da. Gəl orda padşahnan axşamatan otur, danış, ye-iç, axşam da çıx get.

Bunu götdü getdi padşahın yanına. Padşah buna dedi:

– Hər gün gəl mənim yanıma. Amma elə gələssən ki, sabah çörəyimi də sənnən yeyəjəm, axşam gedəndə də çörəyimi sənnən yeyəjəm, gedəssən. Daa mən sənnən bir yerdə olajam.

Bu da dedi ki, yaxşı. Padşah da dedi ki, nəyə ehtiyacın olsa – pul, mal, nə isdəsən apararsan. Dedi:

– Heş-zad maa lazım döylü.

Bu, gündə tezdənnən gəlirdi, padşahnan bir yerdə çörəh yeyirdi, gələn qonaxnan danışırdı, söypət eliyirdi, axşam da çörəh yeyif gedirdi. Bir dəfə də padşahın qonağı gəldi. Bir az tez oldu, gejəyə qalmadı. Çörəh-zad yedilər-elədilər. Padşaha dedi ki, padşah sağ olsun, da innən belə çörəh yemiyəjeyih ha. Axşam çörəyini yedih da qonağnan. Mən bir az tez gedim. Dedi:

– Nolar, get, amma sabah tez gəl.

Bu durdu gəldi. Darvazasın döyəndə arvad gəldi. Uşağı yox idi. Elə bir arvad idi.

– Kimsən?

Dedi:

– Aaz, mənəm, qapını aç.

Dedi:

– Sən həmişə bu vaxdı gəlmirdin axı, indi nətər oldu bu vaxdı gəlmisən?

Dedi:

– Qonax-zad oldu da, çörəh yedih, daa bir də çörəh yemiyəjeydih, onçün gəlmişəm.

Dedi:

– Onda qaş get maa bir dənə qoyun başı al gətir qəssabdan, onnan soora qapını açım, gəl.

Bu da dedi:

– Bizim sürümüz var. Mən gedif qəssabın qapısında durum ki, maa qoyun başı ver? Qoy axşam qoyun gəlsin, birin kəsəh, ətin də ye, başın da ye.

Dedi:

– Yox ey, gərəh qəssab kəsən ola.

Allahın işinə bax. Bu da dedi ki, da vaxt keçifdi, sabah tezdən gedif alıf gətirəjəm. Dedi:

– And iç.

And indi moddan düşüf. Bu and içir ki, Allah hakkı, imam hakkı, sabah tezdən gedif alıf gətirəjəm. Dedi:

– Baş üsdə.

Qapını aşdı, gəldi. Yedilər, danışdılar, yatdılar. Bu sabah tezdən durdu. Saat səkgizdə gedif orda padşahnan çörəh yeyəjəhdi, ora getməlidi. Bu tezdən durdu getdi ki, gedim alım gətirim, verim, gedim. Getdi ki, bağlıdı qapı. Bir az gözdədi, qəssab gəldi. Dedi:

– Qardaş, mənə bir qoyun başı ver.

Dedi:

– Vallah, dünənnən qalmıyıf, bir azca gözdə, qoyun gəlsin, kəsim verim.

İndi bu arrandı da, varrı adamdı, gəlif burda qəssabın yanında durmağına. Şəhərin qırağı belə meşə idi, bizim meşə

kimi. Dedi, gedif bir az orda hərrənim, onnan soora qayıdıf gəlim da. Onatan hazır olar.

Bu getdi. Haja gedif gəlmişdi, yaxşı da bilihli idi. Getdi, habelə meşəyə çıxanda gördü ki, bir dəsdə adamdı qumun içində təpih döyür saldat təpih döyən kimi. Bulanıflar toza. Bir dəsdəsi də yatıf qumun içində. Bir dəsdə də qəşəh belə geyimli-kejimli, papaxlı oturuflar göy çiməndə, söypət eliyillər. Öz-özünə məhətdəl qaldı ki, ə, bu nətər işdi? Getdi o papaxlıların yanına. Dedi:

– Olar, sizə bir sual verim?

Dedi:

– Nədi?

Dedi:

– Niyə siz burda kef eliyirsiniz geyimli-kejimli, onnar da təpih döyür qumun içində, bir dəsdə də orda yatışır?

Dedi:

– A kişi, biz insannarın baxdıyıx, qaraçuxasıyıx. Görürsənmi bizim geyimimizi? Biz o bəylərin, padşahların qaraçuxasıyıx. Daa onnar var-döylətə möhtac döylü, ona görə burda kef eliyirih.

Dedi:

– Bəs o yatannar?

Dedi:

– Onnar da zır kasıblardı. Çörəh tapmır da yeməyə, yatıflar, qaraçuxası yatıf.

– Bəs o saldatdar?

Dedi:

– Onnar da orta, varrı adamlarınkıdı.

Dedi:

– Mənim qaraçuxam harda olar?

Dedi:

– Varın nə qədərdi?

Dedi:

– Bir belə qoyunum var, bir belə malım var.

Dedi:

– O təpih döyənnərin içindədi. Get çağır, gələjəhdi.

Getdi qıraxda durdu belə. Bunnar da bulanıfdı toza. İsdi gün. Çağırdı. Çağıranda bir oğlan çıxdı gəldi bunnarın içinnən. Xoş-beş. Baxdı ki, toza-torpağa bulanıf da, biyavır vəziyətdədi. Dedi:

– Ə, özünü niyə bu hala salmısan?

Dedi:

– Bə neyniyim? Mən bu hala düşməsəm, axı sənin heşzadın olmaz.

– Ə, – dedi, – mənim sürüynən qoyunum var, malım var. Özünü niyə bu kökə qoymusan, ə? Ə, bəri gəl, bəri gəl.

Bunun qolunnan tutuf apardı yatannarın yanına. Dedi:

– Yat burda, dincini al, dincəl, ölürsən.

Dedi:

– Ayə, məni yatırtma. İşin ağır keçəjəh, məni yatırtma.

Dedi:

– Heş-zad olmaz mənə. Varım var, özüm də padşahnan yeyirəm, içirəm, kef eliyirəm.

Dedi:

– Nə deyirəm.

Bunun qolunnan özü tutdu, gətdi yatırtdı orda. Burdan qutardı gəldi ki, başı alsın, götürsün gəlsin. Gəldi ki, hazırdımı? Dedi:

– Hazırdı.

Başı götdü əbanın altına belə qoydu, gəldi. Deməli, bu gejikif. Padşah bunu gözdüyür çörəhdən ötəri, çörəh yemir. Yasoullardı, iki-üş dəfə gəlif, bunu tapmıyıflar. İndi bu darvazaya çatanda yasoullar çatdı bura.

– Ə, sən sabahdan hardasan? Sənin dalınca üş dəfə gəlmişih. Padşah ajınnan ölür orda, səni gözdüyür.

Dedi ki, gəlirəm, bu saat evə dəyif gəlirəm. İsdiyirdi başı arvada verə, gələ da. Bunnar bir-birin tanıyırdı dana, orda olmuşdular. Deyəndə bunun qolunnan tutdular, dedi:

– Bu nədi? Bunnan bizə də ver da.

Baş, budey, domba duruf burda.

– Ə, yox, heş bir şey döylü, bu saat gəlirəm.

Qoymadılar getməyə. Tutdular, bunun burasını (söyləyici əynindəki paltarın ətəyini göstərir – top.) qaldırdılar ki, bir insan başıdı. Dedi:

– Ə, sən sabahdan elə bunnan ötəri gəlmirsən?

Deməli, bu padşah başqa padşahın vilayətinnən torpağ almışdı, orda qoşunu vardı, həm də qoşun başçısı vardı. Bu həmən sərkərdənin başıdı. Tanıyıllar dana.

– Ə, elə bunnan ötəri gəlmirdin?

Bunun qolunu daldan burdular, bağladılar, apardılar. Dedi:

– Padşah sağ olsun, sabahdan üş dəfə getmişih. Gedif sərkərdəni öldürüf, başın götürüf gəlif.

– Ə, nə danışırsan?

Dedi:

– Vallah.

– Ə, mənim orda qoşunum var, mən oranı ona tapşırmışam.

Gətdilər başı qoydular padşahın qabağına, bunun da gözünə heylə görükdü. Ə, bunu verin dar ağacına. Bu da neçə ildi bunnan çörəh yeyirdi. Nə qədər yalvardı-elədi, dedi:

– Yox, sən xəyanət eləmisən mənə, ölməlisən.

Dedi ki, padşah sağ olsun, mana ikicə dəyqə, üşcə dəyqə vaxt ver, gedim-gəlim. Əgər inanmırsan mənim gəlməyimə, yasoullardan qoy mənnən getsin.

Nəysə, iki yasoulu buna qoşdu, dedi:

– Ə, yalvarır, iki dəyqəyə bu hara gedəjəh, bunnan gedin gəlin.

Bu ordan qopan pramoy ora, meşəyə. Özü yatırdıf axı qaraçuxasını. Gəldi ki, yatıf da orda. Getdi tez onun qolunnan tutdu:

– Ə, başına dönüm, qalx ayağa, padşah məni öldürür.

Dedi:

– Ə, hara qalxıram, özün məni məjburi yatırtmadın? Sən öl, qalxmaram.

Yalvardı, yapışdı, öpdü, neynədi, nağardısa, bunu durğuzdu. Qoşdu bu təpih döyənnərə, qayıtdı gəldi.

– Gəldin?

– Hə, gəldim.

– Ə, bunu verin kəndirə.

Dar ağacının divinə gedəndə baxdılar ki, həmən o sərkərdə belədən gəlir: atdı gəlir, indi padşahnan nə işi varsa. O, bu dedi ki, ə, gəldi çıxdı bu. Bəs deyillər bunun başı kəsilif. Apardılar padşahın yanına. Gördü ki, həmən adamdı. Dedi:

– Ə, bu nətər olur? O başı bura gətirin görüm.

Gətdilər başı qoydular padşahın qabağına. Baxdı ki, qoyun başıdı.

– Bıy, ə bu nətəri işdi? Deyək, mən kor oldum, bəs bu camaat necə. Hamı kor olmadı ki?

Dedi ki, padşah sağ olsun, mən axı heylə iş eləmərəm. Mənim güjüm çatmaz sərkərdəni gedəm öldürəm. Neçə ildi sənnən bir yerdə çörəh yeyirəm, səni ona and verdim, məni bağışdamadın. Da sənnən qutardım, get özünə ayrı adam tap.

– Ə, saa zarafat eliyirdim.

Dedi:

– Yox ey, nə zarafat, ə. Dar ağacının divində kəndiri də boğazıma saldırmışdın.

Nə mümkün elədi, olmadı. Padşahdan aralaşdı, çıxdı getdi. Dedi:

– Arvad, Allah üsdünə od töhsün, bir başdan ötəri getmişdim.

## 39. ÜÇ QIZ

Bir kişi olur. Kişinin də arvadı ölür, üç qızı qalır. Gedir bir ayrı arvad alır gətirir. Arvad qızdarnan dolanmır, gündə dalaşıllar. Qızdar da yekə qızdardı. Arvad kişiyə deyir ki, a kişi, ya bu qızdarını birtəri elə, ya mənim kağızımı ver, çıxım gedim. Dolanmıram da, gündə dava, gündə dava. Kişi də görür ki, vallah, arvadsız dolana bilmədi, getdi arvad aldı. Fikirrəşdi ki, elə yaxşısı budu bu qızdarı azdır, çıxsın getsinnər hara gedillər.

Qoz bağı vardı, çox böyüh bağ idi. Bir tərəfi gedirdi Şah Abbasın vilayətinə dirənirdi, mal toolasının dalına dirənirdi. Qızdara dedi:

– A bala, dağarı, toxmağı götürün, gedəh qozduğa. Mən çıxım çırpım, siz də yığın, gətirəh.

Dağarı, toxmağı götdülər, getdilər. Kişi çıxdı ağaca, çırpdı, qızdar da yığdı. Qoz da adamı susdadan olur. Bir az yeyənnən soora dedi:

– Ata, susunnan yandıx, buralarda su var?

Kişi yalannan buları azdırmax üçün dedi:

– A bala, buraynan belə gedin, qabağınıza çıxajax su.

Su varıdı qabağına çıxa? Qızdar qoşuldu bir-birinə meşənin içiynən gedən kimi kişi dağarı, toxmağı asdı ordan. Küləh vuranda toxmağ dağara dəyif tıkqıldıyırdı. Qızdar elə bilirdi atası orda qoz çırpır. Kişi düşdü qaşdı, çıxdı gəldi.

Çöl görməmiş qız uşağı, nə qədər getdilər tapmadılar. Qayıtdılar gəldilər həmin ağacın divinə. Gördülər ki, ə, atası

nə gəzir, atası yoxdu. Otdular ağacın divində. Bir az ağlaşdılar. Tanımırdılar heç haranı. Qız uşağıdı dana, çıxmıyıflar çölə-bayıra. Gejə düşdü, qaldılar elə ağacın divində. Sabahatan qaldılar ağacın divində. Sabah açılanda – balaca bacıları bir az bijəltərəh idi, – dedi:

– Ay bajı, burda oturmaxnan bizi kim gəlif aparajax? Gəlin elə meşəynən çıxax gedəh, bir tərəfə çıxajeyih də.

Düşdülər meşəyə, ağzı yuxarı gethaget, gethaget, gethaget, gəldilər çıxdılar Şah Abbasın mal toolasına. Baxdılar ki, yaxşı tooladı. Düşdülər külfənin ağzına. Axşam idi. Şah Abbas da gəlmişdi mala baxsın. Gördü ə, külfənin ağzınnan səs gəlir. Gəldi külfəyə yaxınnaşdı, qulağın dirədi ora, gördü əyə, kadın səsidi. Dinşədi-elədi, gördü üş nəfərdilər. İndi böyüh bajı Allahdan arzu eliyir ki, Allahın altında elə məni vəzirin oğlu aleydi, günüm yaxşı keçeydi da, çörəyim, suyum oleydi. Ortancıl da dedi ki, Allahın altda məni vəkilin oğlu aleydi, bajı, elə bu şəhərdə yaşıyeydih bir yerdə. Mənim də varım-halım oleydi. Bu balaca qız da dedi ki, a bajı, siz onu arzuladınız, mən də bir şey arzuluyajam.

– Nə arzuluyassan?

Dedi:

– Allahın altda o qədər varım oleydi ki, Şah Abbas mənim paltarımı aleydi qoluna, aparardı hamama, gətirərdi.

Gör Şah Abbasdan nə qədər yuxarı isdiyir ey. Şah Abbas bunun üçün də eşitdi. Gəldi evə. Adam göndərdi, dedi:

– Ə, orda üş nəfər zənən var, gedin onu gətirin.

Getdilər gətdilər. Baxdı ki, üş dənə qız uşağıdı. Dedi:

– Qızım, külfənin ağzında Allahdan nə arzu eliyirdiniz onu bir də burda deyin görüm.

Bunnar bir az qorxdu. Axı pis alqış eliyif balaca qız. Dirəndi üsdərinə. Böyüh qız dedi ki, Şah Abbas sağ olsun,

söz idi da danışdıx orda. Dedim ki, Allahın altda məni vəzirin oğlu aleydi, günüm yaxşı keçeydi, çörəyim, suyum oleydi.

Dedi:

– Bala, bəs sən nə arzuluyurdun?

O da dedi:

– Mən dedim ki, məni vəkilin oğlu aleydi, elə bajımnan bir şəhərdə oleydim.

Çağırdı vəziri, vəkili. Dedi:

– Bunu sən öz oğluna alessən, bunu da sən alessən.

Ağzı nədi almıya, şahdı. Balaca qıza dedi ki, qızım, sən nə arzuladın? O da bir az qorxdu. Dedi:

– Qorxunnan ölmə ey, nədən qorxursan? Sənə heş kim bir söz deyə bilməz, Allahdan arzuluyursan.

Dedi:

– Vallah, Şah Abbas sağ olsun, söz idi dana, danışırdım. Dedim ki, o qədər varım oleydi, Şah Abbas məni hamama aparıf-gətireydi, – deyəndə Şah Abbas dedi:

– Hə, lap yaxşı arzuluyursan.

Çağırdı vəziri, vəkili, bu qızdarı verdi onnarın oğluna. Kiçih qıza dedi:

– Bala, vallah, sənin arzunu mən yerinə yetirə bilmərəm. Sənin gərəh mənim varımnan çox varın ola ki, mən sənin paltarını hamama aparam. Ona mənim güjüm çatmır, get Allah versin.

Bu düşdü yolun ağına: ağlıya-ağlıya, qız uşağı. Gethaget, gethaget, getdi bir düzdə gördü bir bina var, ev var. Getdi bir çökəh yer vardı, burdan keşdi içəri:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Axşam düşür. Nə qədər çağırdı, gördü hay verən yoxdu. Getdi qapıya. Qapını basan kimi qapı açıldı. Girdi gəzdi, gördü heş kəs yoxdu, amma ev doludu, nə isdəsən var. – Kişiyə gərəh Allah verə ey, yüyürməhnən döylü. – Gördü hər şey var, özü

də ajmışdı. Sımavarı doldurdu, qaynatdı. Bişmiş bişirdi, yedi qarnın doyurdu, gəldi otdu, görə indi axırı nolajax, kim gələjəh? Buranın da yiyəsinin adı Məhəmməd idi. Bu da tilsimkar idi. Günüz olanda ilan donuna düşürdü, gedirdi. Axşam olanda gəlirdi donun dəyişirdi, olurdu oğlan. Məhəmməd ilan donunu dəyişdi gəldi ki, bir qızdı oturuf.

–Ağız, sən hardan gəlmisən bura?

Dedi:

– Hal-qəziyə belə-belə.

Dedi:

– Hə, yaxşı eləmisən. Elə Allah səni maa yetirif, məni də sənə. Görürsən bu evlər hamısı doludu. Qızıldı, gümüşdü, nə bilim var-döylət. Sən gördün ki, mən ilan donunda gəldim. Tilsimkaram. Mənim sirrimi heş kəsə vermiyəssən. Əyəm mənim sirrimi aşsan, elə burdaja quru yurtda qalassan. Bular hamısı tilsimdən düzəlmə şeydi.

Dedi:

– Vermiyəssən ki?

Dedi:

– Yox.

Başdadılar burda dolanmağa. Bir gün bir dənə dərviş gəldi, qəsidə deyirdi bunun qapısında. Bu apardı dərvişə bir kisə qızıl verdi. Dərviş sevinə-sevinə götdü, hərrəndi gəldi Şah Abbasın qapısına. Şah Abbas arvada dedi ki, ay arvad, dərviş gəlif, apar ona qəpih ver. Qara qəpihlər olurdu. Arvad aparıf bu qəpihdən verəndə dərviş dedi ki, buna bax ey, sən allah, Şah Abbasın adı dünyanı götürüf, bir qız xeylağı maa bir kisə qızıl verdi, Şah Abbas da maa qara qəpih verir. Bunu arvad getdi dedi Şah Abbasa. Dedi:

– Vallah, verdim, heş götürməh isdəmirdi. Dedi ki, bir qız xeylağı maa bir kisə qızıl verdi, Şah Abbas maa qəpih verir.

– Ay arvad, yüyür onu saxlat.

Çağırdı saxlatdı. Dedi:

– Ə, o kim idi sana bir kisə qızıl verif? Dərvişə, sayıla bir kisə qızıl verəllərmi?

Dedi:

– Şah Abbas sağ olsun, verdi da o. Qəsidə dedim qapısında, gətdi bir kisə qızıl tulladı.

Bu, məhətdəl qaldı ki, bir kisə qızıl verəllər sayıla? Dedi:

– Onun evi-eşiyi hardadı?

Bu, yerin dedi. Şah Abbas bir gün durdu, atını mindi, dedi:

– Gedim görüm o nətər adamdı. Nə qədər varı var ki onun, dərvişə qızıl verir.

Durdu gəldi, axşama çatdı ora. Qapını döyən kimi qız gəldi. Amma aradan çox keçifdi. Şah Abbas qızı tanımadı, qız Şah Abbası tanıdı.

– A bala, məni beyjəlih qonağ eliyə bilərsənmi?

Dedi:

– Niyə eləmirih, düş gəl.

Amma qız da elə elədi ki, guya Şah Abbası tanımır. Apardı buna yaxşı yeməh-işməh. Yedilər, işdilər. Bir qız idi, bir də Şah Abbas, Məhəmməd hələ gəlmiyif. Dedi ki, dayı, mən hamama getməliyəm, isdiyirsən burda otur, isdiyirsən mənnən gəl hamamın yanında oturarsan. Şah Abbas da dedi: "Ə, məni burda kimdi tanıyan". Qız paltarını yığanda dedi:

– Bala, paltarı ver maa, mən götürüm.

Qız paltarını tulladı bunun qucağına, getdilər. Allahdan arzu eləmişdi axı. Gör Allah bunun arzusun nətər yetirir? Götdü apardı. Qız getdi girdi hamama çimməyə, bu da qapıda gözdüyür. Şah Abbas kimi adam qızı gözdüyür. Çimdi-elədi, yaş paltarını da genə Şah Abbas aldı qoltuğuna, gəldilər. Qız hələ özünü tanıtmır. İndi başdadılar söypətə. Axı bunun əri gələsidi. Məhəmməd gəldi ordan baxdı ki, bir kişidi oturuf.

Çıxmadı. Evdə adam olanda üzə çıxmırdı ki, tilsimini bilələr. Gejə bunnar yatdılar. Sabah duruf gedəndə qız dedi ki, buna bildirim da. Dedi ki, Şah Abbas, məni tanımadın?

Dedi:

– Yox.

– Kimsən, a bala, sən?

Dedi:

– O bajılarımı ki verdin vəzirin oğluna, vəkilin oğluna, maa dedin ki, get, sənkini Allah versin. Bax, həmən qız mənəm. Mənim o qədər varım var, Allah verif.

Dedi:

– Hə, saa dedim ki, get, sənkin Allah versin, mənim güjüm çatmır. Lap yaxşı. Gedim bajılarına deyim yerini-yurdunu, gəlsin görüşün.

Gəldi Şah Abbas bunun bajılarına dedi ki, bajınızın varı o qədərdi ki, təpəsinnən yuxarıdı. Gedin görüşün, filan yerdədi. Bunnarın uşaxları da olmuşdu. İki bajı ikisi də qoşuldu bir-birinə, gəldi bunun evinə. Qapını aşdı ki, bajılarıdı. Görüşdülər-elədilər, gəldi otdular. Bular baxdılar ki, bura ayrı adam gəlmir. Dedilər ki, ay bajı, heş bura adam gəlmir. Sən kimnən olursan ki burda?

Dedi:

– Ay bajı, nəyinizə lazımdı, tək oluram. Bu ev mənim, eşih mənim. Əyəm varınız yoxdusa, nə isdiyirsiniz götürün, çıxın gedin. Mən kimnən oluram, nətər oluram, ona qarışmıyın.

Üş gün qaldılar burda. Yedilər, işdilər, danışdılar. Məhəmməd gəlirdi, görürdü bular burdadı, çıxmırdı, qayıdıf gedirdi. Üç günnən soora bular gedəsi oldu. Böyüh bajısı əl çəkmədi ki, sən kimnən olursan gərəh bizə deyəsən. Nətəər biz bajıyıx? Dərdini maa demiyəssən kimə deyəssən? Bu boynu qırılmış da aşdı dedi. Dedi:

– Ərim belə tilsimkardı. İlan donunda gedir, gələndə bax burdan çıxır.

Çıxdığı yeri gösdərir. Deyir, bajı bajının altına it küçüyü qoyur, yalan döyül ey. Heylələri var. Bunnar gedəndə böyüh bajı həmən dəməyin ağzına almaz tulluyur. Almazı tulluyur, çıxır gedir. Məhəmməd ilan donunda gəlirdi. Gələndə almaz onun burasınnan tutdu. Kəsdi, qanadı. Başını çıxartdı belə, arvadına dedi ki, mənim sirrimi saa demədim vermə. Niyə verdin mənim sirrimi? Mən getdim, qaldın düzün ortasında. Çıxdı getdi. Tilsimdən düzəlmiş şeydi. Qızı da yuxu tutdu, yatdı. Bir vaxt qalxdı ki, gün günorta olufdu, ev nə gəzir, eşih nə gəzir. Hamısı tilsimdən olan şeydi, yoxa çıxıf. Bir başına vurdu, bir g…nə vurdu. Ağladı, sızdadı, nolajeydi.

Ağlıya-ağlıya durdu düşdü yolun ağına. Yolnan gedirdi bir meşənin içiynən. Məhəmməd çıxdı bunun qabağına. Dedi:

– Aaz, niyə ağlıyırsan?

Yıxıldı bunun əlinə-ayağına, üzünnən öpdü, gözünnən öpdü. Səni and verirəm Allaha, imana, məni tərk etmə. Dedi:

– Saa demədim mənim sirrimi vermə, niyə verdin?

Dedi:

– Qanmamışam, bilməmişəm. Bir də vermərəm.

Təzdənnən Məhəmməd buna tilsimnən bir ev tikdi, yığdı içinə. Aradan bir az keçəndə bajıları dedi ki, aaz, gedəh bir də bajımıza dəyəh. Deyilənə görə, gəlif qapını açanda görüf bajılarıdı, ağajı götürüf qavıf. Deyif:

– Gedin, sizin kimi bajı mənə lazım döyül.

Bajılarını da qavdı. Məhəmmədnən otdu burda ömürrüh.

## 40. EVİ ARVAD TİKƏR

Genə bir keçəl olur, onun da bir anası olur. Ana-bala dolanırdılar. Odun-zad aparıf satıf gətirirdi. Padşahın imarətinin qabağınnan yol gedirdi bazara. Keçəl buraynan gedif gəlirdi. Bir gün qıznan atası oturmuşdu küləfirəngidə. Keçəl gedəndə Allah padşahın konluna insaf saldı dana. Dedi:

– Ə, o keçələ denən gət odunu tök odunnuğa, gəl bura.

Çağırdı apardı, odunu tökdü odunnuğa, getdi. Gətdi buna bir az qızıl verdi. Dedi:

– A bala, apar bunu bir az əlində xaşdıx elə, yazıxsan, o odunu daşıma. Mən görürəm gündə gedirsən.

Bu da kasıf adam idi dana. Bunu gətdi o şeyə verdi, bu şeyə verdi, yoxu idi heş nə, pul qutardı. Gənə pul qazanmalıdı axı. Gənə getdi bir şələ odun götdü, gəldi padşahın qapısınnan keçəndə, padşah qızınnan durmuşdu, dedi:

– Aaz, buna bax ey, kopoğluna dünən-sırağayın verdim ey xaşdıx. Dedim ki, apar əlinə maya sal. İndi gənə odun daşıyır.

Qız dedi ki, ata, onu heylə bilmə. Dedi:

– Nətər bilmə? Əlimnən vermişəm.

Dedi:

– Onun evdə anası varsa, anasıdı, arvadı varsa, arvadıdı. O bekaradı, keçəl bekara döylü. Evi kadın dolandırar. Onun kadını hansıdısa, pisdi.

Nəysə, bu ata-bala, o da Allahdandı, cəhləşdilər. Cəhləşəndə qız dedi:

– Ata, sən məni ver ona, maa heş-zad da vermə. Mən keçəlin evini sənin evinnən yaxşı eləməsəm, onda nə deyərsən, deyərsən.

Amma qız yaxşı kalağayı toxuyurdu. Biri yüz tümən idi. Gejədə birin toxuyurdu. Atası evinnən sapların götdü, elə atasının ajığına getdi keçələ. Keçəlin bir damı vardı. Dedi:

– Keçəl, baxma sənin kişi oluf, mənim arvad olduğuma. Sən mənim sözümnən gedəssən. Mən nə desəm, o olajax.

Keçəl dedi:

– A xanım, sən nə deyirsən, o olsun.

Keçəlin də canınnandı. Gejə otdu bir dənə kalağayı toxudu. Dedi:

– Keçəl, bunu götür apar bazara. Yüz tüməndi ha, aşağı verme. Ver pula, çörəhdən, yavannığdan al, pulun qalanını da gətir.

Keçəl apardı. Çatan kimi yüz tümən verdilər. Bir az yağdan-yavannığdan aldı gətdi. Bu toxudu, o apardı satdı. Xeylağ da pul yığmışdılar. Bir gün də kalağayını satmışdı, əlində idi pul. Gördü ki, Bəhlul üş dənə kül komalıyıf.

– Ay kül alan, ay kül alan.

Gəldi bunun yanına keçəl. Dedi ki, ə, nə satırsan?

Dedi:

– Bu külü.

– Neçəyə verirsən?

Dedi:

– Yüz tümənə.

Bu, əlindəki pula baxdı, külə baxdı. Dedi: "Ə, bunu verəjəm buna, padşahın qızı məni dannıyajax". Dedi: "Allaha pənah". Yüz tüməni verdi buna. Bu külü sovurdu göyə. Dedi ki, səbirri qul arzusuna çatar.

Dedi:

– Elə bu?

Dedi:

– Bu azdı?

– Ə, – dedi, – pulu maa ver. Mən də deyirəm görəm nə deyəjəh.

– Satmışam, təzdən hara verirəm.

Çıxdı gəldi. Vermədi. Gəldi, utana-utana xanıma dedi ki, belə bir iş görmüşəm. Yüz tümən verif bir söz almışam: Səbirri qul arzusuna çatar.

Dedi:

– Keçəl, yaxşı sözdü, əzbərrə sinəndə saxla.

Qız buna daa bir söz demədi. Bu elə hey əzbərriyirdi. Sabah bir də getdi. Gördü gənə satır. Qız buna bir söz demə-

diyinə dedi: "Sən öl, bir də alajam, görüm nə deyir". Soruşdu neçəyədi. Dedi: "Yüz tümənə". Verdi. Dedi:

– Nədi?

Dedi:

– Sənnən soruşsalar ki, dünyada nə göyçəh olur, denən ki, könül sevən göyçəh olur. Könlün nəyi sevsə, o saa göyçəhdi.

Gənə peşmannadı ki, ə, yüz tüməni verdim buna, indi nətər eliyim. Gəldi gənə xanıma dedi. Dedi:

– Keçəl, yaxşı sözdü, yadınnan çıxarma, lazım olar sənə.

Qız savatdı idi da, padşah qızı idi. Bu sözdəri saxladı qəlbində. Keçəlin evinin yanında düşərgə yeri vardı, həmişə tacirrər düşüf gejə orda qalırdılar, səhər gedirdilər. Keçəl də kalağayını erkən satıf gəlmişdi. Çıxdı bu tacirrərə tərəf. Bir tacir düşmüşdü ora. Bu tacir buna dedi ki, qardaş, maa bir adam lazımdı, qan pulun verəm, özümnən aparam. Ölər ölər, qalar gələr. Özü ağırrığında qızıl verəjəm. İndi nə bilim yeddi ilə gələjəm, beş ilə gələjəm, on ilə gələjəm, onu deyə bilmərəm. Bu bunun başına batdı. Gəldi padşahın qızının yanına. Dedi:

– Xanım, belə bir iş var. İndi mən ağır adamam da, xeylağ qızıl eliyəjəh. Nolajax, gələjəm, Allah qoysa. Gedim, qızılı alım, gətirim verim sana, mən tacirnən gedim.

Dedi:

– Özün bil. Mən sənə nə get demirəm, nə də qal.

Dedi:

– Yox, getməh isdiyirəm.

Bu getdi özü ağırrığında qızılı aldı gətdi. Xanıma verif halal-hümmət eliyəndə dedi:

– Yox, keçəl, heylə döylü. Sənnən mən həmliyəm. Daqavor yazajam, sən də qol çəkəssən, mən də. Getdin ayna, bəlkə, on ildən soora gəldin, mənim uşağımın on yaşı oldu. Gəlif deyəssən hardan aldın.

Daqavor kağızın yazdı, bir surətin keçələ verdi, bir surəti də qaldı bunda. Keçəl qoşuldu tacirə, getdi. Gethaget, gethaget bir yer vardı, sucax yer idi. Orda da bir quyu varıydı. Bunnar heylə qan pulu verirdilər, aparırdılar, salırdılar ora, çıxmırdı. Ona görə qan pulu verirdi. Köş düşdü, getdilər quyunun başına. Dedilər:

– Gəl düş bura, su çıxart.

Bunu salladılar ora. Bu gupbultuynan getdi düşdü ora. Ora düşən kimi bunu bir oğlan tutdu, dedi: "Gəl bəri". Dedi:

– Nədi?

Dedi:

– Gə bəri, deyəjəm saa.

Bunu apardı. Bir qapı aşdı. Dedi:

– Görürsən bu meyitdəri?

Dedi:

– Hə.

Dedi:

– Bax, bunnar bura düşənnərdi. Sual verirəm, cavaf vermir, öldürüf tulluyuram. İndi saa da sual verəjəm, cavaf verməsən, səni də öldürüf bura tulluyajam.

Keçəl bir az qorxu çəhdi. Bunu apardı ayrı bir evə. Baxdı ki, insan yekəlihdə bir qurbağadı, barının küncündə duruf. Dedi ki, o ölənnərin hamısına sual vermişəm, cavaf vermiyif. Saa da verəjəm, tapbasan, səni öldürəjəm. Ancax tapsan, daa sənə nə hörmət eliyəjəm mən bilirəm.

Dedi:

– De da, bilsəm deyəjəm.

Dedi:

– Dünyada nə göyçəh olur?

Yüz tümən verif orda almışdı. Tez yadına düşdü söz. Dedi:

– Könül sevən göyçəh olur, – deyəndə qurbağa tilsimə düşmüşmüş, tilsim sındı, qurbağa gözəl bir qıza çevrildi. Bunnar qujaxlaşdılar. Dedi:

– Oğlan, mən yeddi ildi ona həsrətəm. Bax, o tilsimə düşüf qalıf orda. Kimə deyirəm, heş kəs demir ki, könül sevən göyçəh olar. O bir kəlmə sözdən ötəri o yeddi ildi qalıf orda. İndi gəl sudan ver, çəhsinnər.

Qavaxca çəkə bilmirdilər da. Sudan polnu verənnən soo-ra getdi yeddi dənə qarpız gətdi. Qoydu quyunun ağzına, dedi:

– Sən çıx, mən soora verəjəm, amma bunu heş kəsə gösdərmə. Pasılka elə göndər evə, vermə heş kəsə.

Bu çıxır, bu da qarpızdarı verir. Deyir:

– Sən maa hörmət eləmisən, mən də saa hörmət eliyirəm.

Qarpızdarı çıxardı. Orda adresin yazır, göndərir arvada. Özü tacirnən gedir. Gedir, indi neçə ilə gəlirsə genə bunu salır. Beş qarpız da indi buna verir. Deyir:

– Sən mana çox hörmət eləmisən. Bu yeddi ilin hörmə-tidi mən sənə elədiyim. Amma verdiyim qarpızdarı heş kəsə vermə.

Bunu çıxardanda tacir dedi ki, ə, gətir birin kəsəh yeyəh da bunun. Dedi:

– Yox, mən saa qarpız boşdu döyüləm.

Götdü gəldi. Bunun arvadı padşah qızı idi. Getdi bir usda tapdı gətdi. Dedi ki, bax, mən kadın xeylağıyam, heç haranı tanımıram. Mənə atamın evinnən yaxşı ev tikəssən. Pulunu mən verəjəm, sən get tap, al, gətir, qayır, usdasan. Keçəl gəlincə yaxşı ev tikdirdi, hasar çəkdirdi, mal-qoyun aldı, nökər tutdu. Ha belə dolanırdı.

Bir gün tacirrər axşam gəldilər düşdülər keçəlin evinin böyrünə. İndi ürək dayanmır axı. İsdiyir bir gedə evinə baxa. Keçəl bu axşam qaroul çəkəjeydi, onnan soora qutarajeydi. Ürəyi dayanmadı, dedi:

– Gedim dəyim gəlim, görüm arvad nağarır?

Gəldi gördü ki, ay qardaş, padşahın evinə çıxıf. Bunun evi dam idi. Bura Mustafanın evidi, burda da mənim evim olmalıdı. Mənim evim döylü axı. Ora-bura hərrənir, gəlir qaroulçunu tapır. Deyir:

– A qardaş, bura kimin evidi?

Dedi:

– Padşahın qızının, – deyəndə bildi ki, bunu arvadı tikdirif. Dedi:

– Maa icazə ver, beşcə dəyqə ora dəyim gəlim.

Dedi:

– Ora dəyəndə nolajax səə?

Dedi:

– Elə bir gözümnən görüm, gəlim də.

İcazəsini aldı, çıxdı ora. Bu gedənnən soora bunun bir oğlu olur. Çıxır baxır ki, arvad da yatıf, yanında bir oğlan da yatıf. Xançalı sıyırır, isdiyir ki, girə bunu öldürə. Deyir: "Nəhlət sənə şeytan, axı mən yüz tümən pul vermişəm. Səbirri qul arzusuna çatar. Səbr eliyim, sabah gələrəm, onnan soora öldürərəm". Öldürmür. Çıxır gedir.

Gejə çəkir qaroulunu, təhvil verir, sabah da gəlir. Beş dənə də qarpız gətirir. Görüşüllər-eliyillər. Baxır ki, yekə oğlandı. Soruşur bu kimdi? Daqavor kağızını çıxardır, gösdərir ki, öz oğlundu. Evi tikdirif hazır, atasının evinnən yaxşı, özünün də bir oğlu. Deyir ki, o qarpızın birini gəl kəsəh. Qız deyir ki, o yeyiləsi qarpız döylü. O göndərdiyin qarpızdarnan tikdirmişəm bu evləri. Onnar hamısı ləldi.

– Aaz, nə danışırsan?

Deyir:

– Vallah hə.

Keçəl fikirrəşdi ki, gör o mana nə hədiyyə eliyif. Deyir ki, keçəl, evi tikdirif qutarmışam, nökərin, hər şeyin. İndi saa

bir söz deyim. Mən o vaxdı saa gələndə atamnan bir şərtim vardı. Mən dedim ki, evi arvad tikər. Atam dedi, aaz, nə arvad tikər? Kişidi tərəfxaşdıx eliyir. İndi adam göndər, atamı qonağ çağır. Denən yeznən səni qonağ çağırır.

Qasid gedif deyir. Bu da vəziri, vəkili götürür gəlir. Keçəli başa salır. Keçəl qanmırdı dana, kəntçi adam idi. Dedi:

– Keçəl, sən qavaxda dur atam gələndə, oğlun sənnən geridə dursun, mən də gədədən geridə durum. Atam gələndə qavaxca sən görüş, soora nəvəsiynən görüşsün, onnan soora da mən görüşüm.

Heylə də elədilər. Stolu qurmuşdular, getdilər otdular. Yedilər, işdilər, söhbətdəşdilər. Gəlin gəldi, dedi ki, ata, ağlın nə kəsir bu işdən? Dedi:

– Nə iş, a bala?

Dedi:

– Mən axı o vaxt keçələ şərtnən gəlmişəm. Mən deyirdim evi arvad tikər, sən deyirdin yox əşi, arvad tikməz, kişi tikər. Görürsən, bu evləri mən tikdirmişəm ey, keçəlin xəbəri yoxdu. İndi mənim sözümə gəlirsənmi?

Dedi:

– Hə, bala, düz deyirsən, evi arvad tikər.

Düz də deyir da. Biz indi özümüz görürüh. Gedif beş kilo ət alıf gətirirsən, arvad var ki, iki dəfə bişirir. Amma elə arvad var ki, beş kilo əti on gün bişirir. Evi arvad tikər.

## 41. ƏZRAYILLA YOL YOLDAŞI OLAN ŞƏXS

Biri qardaş olur Azreyilnən. Gedib orda-burda qalıllar. Deyir:

– Sabah çıx filan yerə, mən də gələjəm, gedək.

Heylə-heylə görüşə-görşə gedirmişdər. Buna deyir ki, ə, qardaş. Deyir:

– Hə.

Deyir:

– Daa qardaş olmuşux da. Mənim canımı havaxt alassan? Maa deyə bilərsən onu?

Dedi:

– Qardaş, sənin canını evlənəndə alajam, qoymuyajam əlin ələ dəyə. İnnən belə yüz il evlənmə, sənə dəymiyəjəm. Havaxt ki, evləndin, qoymuyajam əlin ələ dəyə.

İndi bu gəlir evə. Buna deyillər ki, ə, vaxtın keçir. Atası deyir, anası deyir, dayısı deyir. Deyir ki, mən evləmiyəjəm.

– A bala, vaxdın keçir, niyə evlənmirsən? Daa qoja kişisən.

Deyir ki, ay ana, mən evlənsəm Azreyil canımı alajax. Dedi:

– A bala, mən verərəm canımı sənin yerinə. Azreyil sənin yanına gələndə göndər gəlsin, mənim canımı alsın. Mən verəjəm canımı.

Dayısı deyir ki, mən verərəm canımı, atası deyir mən verərəm. Nəysə, qızışdırıllar, bu, birin alır. Birin alır gətirir. Daa Azreyil demişdi dana. Qoymur əli ələ dəyə, kəsir başının üsdünü.

– Surəni oxu, vaxdın tamamdı.

Deyir:

– Ya Azreyil, anam dedi ki, mən verərəm canımı sənin yerinə.

Dedi:

– Gedim görüm verərmi?

Gedir. Arvad Azreyili görəndə qorxusunnan özün batırır. Azreyil deyir ki, gəlmişəm oğlunun yerinə sənin canını alam. Deyir:

– Yox, yox, Azreyil, hər kəsin öz vaxdı var. Mən vermirəm canımı.

Bir də gəlir gədənin yanına. Gədə indi də deyir:

– Dayım deyir mən verərəm.

Azreyil gedir, heş kəs vermir bir söznən. Qayıdır gəlir. Deyir həmdi-surəni oxu, canını alajam, vaxdın tamamdı. Deyir:

– Qardaş, o həmdi-surəni oxuyuf qutarıncan mənim canımı almıyessən ki?

Dedi:

– Yox, almıyajam.

Bu başdıyır oxumağa. Bir-iki kəlməsin deyir, daa demir.

– Ə, tez ol de, canı alajam.

Deyir:

– Əşi, demiyəjəm. And işmisən ki, oxuyuf qutarıncan almıyajan. Qalanın da on ildən soora oxuyajam. And işmisən. Alırsan al, almırsan alma.

Bu da and içif da. Almır canını. Onnan soora Allah-taala ona yüz il ömür verir. Deyir, dəymə. İndi kələynən də qutarmağ olur ey.

## 42. ŞAHA BEL BAĞLAMA

Bəhlul külü komalamışdı belə, satırdı. Allahverdi xan vəzirnən də Şah Abbas hamama gedirdi. Vəzir gəldi bunun yanına. Bildi ki, bunda bir əngəl var dana, külü komalıyıf oturuf böyründə. Dedi:

– A Bəhlul, o nədi?

Dedi:

– Küldü, satıram yüz tümənə.

Vəzir savatdı adam idi, çıxartdı verdi. Dedi:

– De görüm, bax bu kül nə olajax?

Dedi:

– Bu kül o adamın başına ki, şaha ehtibar eliyə.

– Bəs bu?

– Bu kül də o adamın başına ki, arvada sirr verə. Kişi olan sirrini gərəh arvada vermiyə.

– Bəs bu?

Dedi:

– Bu kül də o adamın başına ki, öz qohum-əqrabasını qoyuf yadı irəli çəkə, vəzifəyə qoya.

İndi bu gəlir Şah Abbasın yanına. Deyir:

– Ə, o dəliynən nə danışırdın?

Dedi :

– Əşi, heş-zad, elə-belə.

Daa bir söz demədi Şah Abbas buna. Gəldilər. İndi bu kül alıf axı. Üş yüz tümən pul verif. Fikirrəşdi ki, mən bunu nətər sınıyım. Vəzir idi da. Şahın da bir sevimli qoçu vardı, əl qoçu idi, elə qapıda-bajada hərrənirdi. Fikirrəşdi ki, şahın qoçunu gətirim, görəh şah bir qoşdan ötəri maa nağarajax. Neçə ildi buna vəzirrih eliyirəm. Həm də gətirəjəm, arvada deyəjəm ki, şahın qoçudu, arvad, birdən ağzınnan çıxar ha. Kəsəjəm yeyəh.

Axşam işdən çıxanda bir az gej çıxdı, qarannıx düşdü. Qoş elə orda hərrənirdi da. Buynuzunnan tutdu gətdi. Yolda heş yadına düşmüyən bir qohumu vardı. Heş yadına düşmüyüf. Bu, bunun qavağına çıxdı. Dedi:

– Ə, bir dayan.

Dayandı. Dedi:

– Ə, bu qoçu verirəm sana, şahın qoçudu, apar. Şah bunnan ötəri bilirəm məni asdırajax. Gördün ki, məni asıllar, onda get qoçu gət, burax camaatın içinə.

Gəldi özünün heyvanı çox idi dana. Birini kəsdi, arvada dedi ki, bu şahın qoçudu ha, arvad. Elə tamehim keşdi buna, gətdim kəsdim. Birdən ağzınnan çıxa, deyərsən qonuma-qonşuya.

Dedi:

– Əşi, demərəm, niyə deyirəm, dəli deyiləm ha.

Bir-iki axşam keçənnən sora... Bu da gündə saraya gedir dana. Şahın qoçu yoxa çıxıf. Ora qoç, bura qoç, tapılmadı. Allahverdi xan vəzir axşam gəldi evə. Bir keçi bulantısı elədi, ar-

vadı möhkəm döydü. Dedi, görüm açır sirri. Möhkəm ey, belə ustatdan gəlmə döydü. Ayannan arvad qayıtdı ki, bu da o döyül şahın qoçunu gətirif kəsif, yeyif, qızıf düşəsən mənim canıma. Bunu qonşu eşitdimi? Şah da qoçu gəzir. Xəbər çatdı ki, bəs qoçu Allahverdi xan vəzir oğurruyuf. Vəziri çağırdı, dedi:

– Ə, qoçu sən aparmısan? Mən burda üş gündü qoş gəzirəm. Mənim qoçumu niyə aparmısan?

Dedi:

– Şah sağ olsun, vallah, gedəndə qavağıma çıxdı, dedim heyvandı dana, apardım kəsdim. Mən kəsmişəm.

– Ə, sən dəlisən, nəsən? Cəllad, cəllad!

– Əşi, bir heyvannan ötəri məni asdırmıyassan ha. İkisin verim dana.

Dedi:

– Əşi, sən mana xəyanət eləmisən ey. Sabah da ayrı cür xəyanət eliyəssən mana. Sənin boynunu vurdurmalıyam.

Bunu çəkdilər dar ağacının yanına. Kəndiri tulladı xirtdəyinə. Can şirindi dana. Axı tapşırmışdı məni asanda gətir. Tez bu da getdi erkəyi gətdi buraxdı camaatın içinə. O dedi: "Ə, padşahın erkəyi burdadı". Bu dedi: "Ə, padşahın erkəyi burdadı". Bunu saldılar aşağı. Erkəh gəldi çıxdı dana, bunu öldürmədi. Şah çağırdı yanına. Dedi ki, ə, zarafat eliyirdim ey, elə bilirdin səni öldürərəm? Sən mənim vəzirimsən.

Dedi:

– Əşi, ölmüşdüm dana. Kəndir buramda döylüydü? Da öldürürdün da məni. Neçə ildi burda yoldaşıx. Xeyrinə, şərinə, camaatına xeyir verən mənəm. Məni niyə öldürürsən bir toğludan ötəri?

– Ə, yox, belə, filan.

Dedi:

– Yox ey, mən sənnən qutardım. Sənə vəzirrih eləmirəm.

Nə qədər şah elədi, bu, vəzirriyi götürmədi. Yaxşı qoyunu, malı var idi. Dağıtdı hamısını yadına düşmüyən qohumlarına. Ona bir-iki inək, buna beş qoyun, ona on qoyun. Nəyi vardısa dağıtdı qohumlarına. Dedi:

– Da mən innən belə heç aylə də qurmuyajam. Dünyanın axırı bu döylü?

Bu dəxl eylədi, çıxdı getdi. Getdi bir tacirə nökər oldu. Allahverdi xan kimi bir vəzir köhnə paltar geyindi, getdi bir tacirə dedi ki, gəlim sənin yanına maa bir iş ver, işdiyim. Dedi ki, mənim dəyirmanım var, işdədə bilirsənsə, verim işdət. Gəldi girdi, başdadı orda işdəməyə. Köhnə paltar, una-zada bulanıf. Kimdi tanıyan bu Allahverdi xandı. Orda dolanırdı.

Camaat kasıflıx tapdı, təzə vəzir dolandıra bilmədi. Camaat çox pis günə qaldı. Ağsakqallar gəldi şahın yanına ki, əşi, sən bu vəziri neynədin. Onu tap gətginən. Camaat hamısı kasıf düşüf.

Dedi:

– Əşi, mən nə bilim hara gedif? Hardan tapım gətirim?

Bir ağsakqal kişi vardı. Dedi ki, Şah Abbas sağ olsun, mən sənə bir məsləhət eliyim, onda taparsan.

Dedi:

– Nətər?

Dedi:

– O hardadısa, kasıf-kusuf adamın evində olmaz. O tacirin yanında olar, varrı adamın.

– Bə nağarım?

Dedi:

– Qoyun sürüsünü gətir meydana, tərəzini də qoy qavağa. Zonanda nə qədər tacir varsa çağır yanına. Hərəsinə bir heyvan ver. Çəkdir qafanda, ver. Beş kilo gələjəh, on kilo gələjəh, yüz kilo gələjəh. Adını yaz, qavağına da çəkisini yaz.

Denən apar qırx gün saxla, qırx günnən soora gətir. Artıx da gəlsə boynunu vurdurajam, əysih də. Həmin çəkini düz versin.

Heylə də eylədi. Bu tacirrər qaldı məhətdəl ki, qırx gün bunu saxlıyajam, kökələjəh, ot vermiyəjəm, arıxlıyajax. Mən nətər eliyim ki, qırx günnən soora həmən çəkini versin? Bekaf-bekaf bu tacir getdi dəyirmana. Dedi:

– Xozeyn, niyə bekafsan?

Dedi:

– Ə, demə, Allah evini yıxsın, padşah başımıza bir oyun açıf.

– Nədi?

Dedi:

– Belə-belə, bir heyvan verif ki, apar qırx gün saxla, qırx günnən soora gətir həmən çəkini versin. Artıx da gəlsə, boynunu vurdurajam, əysih də.

Bildi ki, bunnan ötəridi. Dedi:

– Əşi, o bekara şeydi, onu nə var saxlamağa.

Dedi:

– Nətər yanı? Qırx gün azdı? Bir ay on gün eliyir. Ya kökələjəh, ya arıxlıyajax.

Dedi:

– Qorxma, mən saxlıyaram. Get mana bir cüt canavar balasını ovçulardan al gət, bir də qoyunu gətir.

Gətirdi setka düzəltdi, canavar balalarını saldı birinə, qoyunu da birinə. Verirdi, yedirdirdi, axşama yaxın bir dəfə canavar balalarını buraxırdı bu setkanın içinə. Cumurdular ki, indi qoyunu yiyələr, bu da setkadadı dana. Qoyun tayfası da canavardan qorxuf ət tökən olur. Tutduğu əti tökürmüş. Qafan da yanında idi dana. Beş günnən bir, on günnən bir qoyurdu qafana çəkirdi, görürdü hə.

Qırxıncı gün idi. Gedəjeydilər, tacirrər aparajeydi. Bu da gəldi.

– Ə, dəyirmançı, vəziyyət? Heyvan nətərdi?

Dedi:

– Ə, düzdü, qorxma. Su verməmişəm heyvana. Günortayatan bu heyvan su içmiyəjəh. Ora gedəndə günorta sula, yarım kilo əysihdi. Yarım kilo su içəjəh. Qoy qapana, düz gələjəh.

Bu da heyvanı götdü gəldi ki, camaat yığışıf, qapan quruluf, çəkillər. Artıx gələni bir tərəfə yığıllar, əysih gələni bir tərəfə. Baxır ki, heş düz gələni yoxdu. Biri artıx gəlir, biri əysih gəlir. Şah deyif, cərgəyə yığıflar hamını. Bu da suladı, gətdi qoydu üsdünə, bununku düz gəldi. Bu sevindi ki, sən öl, mənimki düz gəldi. İndi padşah maa ənam verəjəh. Qapandar dedi ki, şah sağ olsun, tək bir nəfərinki düz gəlif. Qalanınkı gah artıxdı, gah əysih.

Dedi:

– O artıx gələni də burax getsin, əysih gələni də burax getsin. Düz gələni gətir mənim yanıma.

Bu dedi: "İndi mənim kefimdi dana. Mənimki düz gəldi".

Şah dedi:

– Ə, o heyvanı kim saxlıyıf, heylə düz gəldi?

Dedi:

– Heş kim, özüm saxlamışam.

Dedi:

– Bax, sana birinci dəfədən deyirəm, səni öldürəjəm, əyəm düzünü deməsən, boynunu vurdurajam. Düzü nədi, onu de maa.

Axı bu da ona and içif ki, sənin adını vermiyəjəm. Şah gördü ki, bu çox ayan-bəri eliyir, dedi:

– Ə, bunun boynunu verin kəndirə.

Kəndiri atdılar bunun boynuna, çəkdilər, xırtdaya-xırtdaya qaldı. Gördü ki, ölür dana. Əlini qaldırdı, saldılar aşağı. Dedi:

– De görüm kim saxlıyıf?

Bir də demiyəndə bir də saldı. Üş dəfə kəndiri bunun xirtdəyinə salanda gördü ki, da öldürəjəh bunu, əl çəkmir. Dedi:

– Əşi, mənim bir dəyirmançım var, o saxlıyıf.

Dedi:

– Bə bayaxdan deyirdin mən saxlamışam. Niyə boynuna almırsan?

Vəzirə dedi:

– Dur get, onu götür gəl.

Vəzir durdu bunnan gəldi. Allahverdi xan vəzir bilirdi ki, şah bunnan ötəri belə elyir. Vəzir gördü bu bir sifətdədi, – tanıyıllar da bir-birini, – köhnə paltar, un da vurufdu, heş tanımax olmur ki, bu Allahverdi xan vəzirdi. Dedi:

– Ay Allahverdi, gəlif bura niyə girmisən? Yekə kişisən, səni gəzməhdən yorulmuşam. Gəl, şah səni çağırır.

Dedi:

– Ə, şah məni neynir? Şah mənim boynumu vurdururdu bir toğludan ötəri. Mən gedif təzdənnən şaha vəzirrih eliyəjəm?

Dedi:

– Vallah, çağırır səni.

Götdülər gəldilər.

– Ə, hardasan Allahverdi xan vəzir? Səni gəzməhdən yorulmuşam.

Yalvar-yapış. Dedi:

– Şah sağ olsun, bir toğludan ötəri məni öldürürdün. Neynirsən məni? Mən sənə o qədər ki, xeyir verirdim, sən onu bilmədin.

Dedi:

– Yox ey, gəl vəzirriyi götür.

Baxdı ki, vəzifəyə qoyduğu adamlardı, buna gülüşüllər, özünün qohumları isə qalıf qıraxda. Fikirrəşdi ki, vəzirriyi götürüm, indiyətən yadıma düşmüyən qohumlarımı çəkim vəzifəyə, bunnarın da hamısını vurum salım, getsin, maa gülüşüllər.

Heylə də elədi. Başdadı öz qohumlarının hamısını işə qoydu, yaxşı var verdi. Ölüncə də evlənmədi.

## 43. KEÇƏL

Keçəl varıydı. Bir qardaşı vardı, bir də anası. Kasıb idilər. Odun şələsin aparıf bazarda satırdı, çörəhdən-zaddan alıf gətirirdi, onnan dolanırdılar. Bir günnərim keçəl apardı odunu satdı, dedi:

– Belim yağır olufdu, daa aparmıyajam. Bunu verəjəm çəkişə, bir də mıxa. Gedif padşahın xəzinəsini yarıf qızılı gətirəjəm, onnan dolanajam. Daa bəsdi, nə qədər odun daşımax olar.

Getdi. Çəkişi, mıxı apardı. Anasına dedi:

– Ana.

Dedi:

– Hə.

Dedi:

– Ana, vallah, odun daşımaxdan ölürəm. Elə beyjə gedəjəm padşahın xəzinəsinə. Allaha pənah.

Dedi:

– A bala, elə dolanırıx da burda. Padşah səni tutuf öldürəjəh, getmə.

Dedi:

– Yox ey, getməsəm olmaz.

Durdu meşoğu da götdü, getdi. Padşahın da xəzinəsinin dalı habelə yol idi. Xəzinə dolmuşdu, qızılı üsdən tökürdülər. Getdi mıxı çala-çala, çala-çala çıxdı. Qapağı vardı, qapağı aşdı, tullandı içinə. Qızıldan yığdı güjü çatan qədər, atdı yerə, mıxı çəkə-çəkə düşdü, qızılı götdü gəldi. Anası da qapıda duruf gözdüyür.

– A bala, gəldin?

– Gəldim.

– A bala, nə yaxşı səni tutan olmadı?

Dedi:

– Ay ana, nə bilim, qabağıma çıxan olmadı.

İndi bu nağardı? Getdi bir kankançı gətdi. Evdən bir yaxşı quyu qazdırdı. Elə qazdırdı ki, bilinmədi. Üsdünnən palazı-zadı saldılar, bilinmirdi. Qızıldan da xaşdadığı qədər götdü, qalanın atdı ora. Götdü qızıldan verdi mala, qoyuna.

Bunun qardaşı da kömək eləmir buna. Gedirdi, gəlirdi, deyirdi: "A qardaş, bəsdi da, uşaxlardan aralan, gəlginən qoyuna yiyə dur, mala yiyə dur. Axı belə şey olmaz". Bunu çox danıyırdı. Bir axşam da:

– Ə, daa bəsdi ey, daa bəsdi. Gedirəm mən də padşahın xəzinəsinnən gətirəjəm, daa sənin minnətinnən qutarajam. Məni az danna.

Dedi:

– Ə, sənin işin döylü, hər oğulun işi döylü. Gətirə bilməzsən.

Dedi:

– Gətirəjəm.

Gejə çəkişi, mıxı götdü, getdi. Yazıx ana. Ana da ağlıyır. Getdi. Gördü ki, bu gedir, dedi:

– Ə, gələndə mıxı çək, götür gəl, qoyma qala.

İndi bu da gözdüyür, anası da gözdüyür. Bu gəlməmişdən qavax, keçəl qızılı aparanda xəzinədar gəldi padşaha dedi ki, qızılı oğurruyuflar. Getdilər yoxladılar, baxdılar.

– Vəzir, nətər eliyək?

Vəzir dedi ki, padşah sağ olsun, o adam kimsə bir də gələjəh. Dadandısa, gələjəh. Gəl ora bir bojqa bal qoyax – qapının ağzına, bal adamı buraxmır. Düşsün içinə, qalsın orda. Onda tapajeyih.

Balı qoymuşdular ora. Qardaşı gəldi, qapağı belə araladı, tullandı. Elə bildi qızıldı da, qızılın üsdünə düşəjəh. Düşdü bu

bojqaya. Əlin belə vurdu ağzına ki, ə, baldı bu, şirindi. Bir az da yedi. İndi elə bildi çıxajax burdan. Paltarrı-zaddı düşüf bura. Nə qədər əlləşdi, burdan çıxa bilmədi. Əlacı kəsildi, qaldı orda.

Qardaşı gördü sabah açılır, gəlmədi. Anası dincəltmir:

– A bala, dur qardaşın dalınca get, sabah açılır.

Durdu gəldi. Gəldi ki, mıx çalınıfdı. Tez çıxdı:

– Ə filankəs, ə filankəs.

Dedi:

– Hə.

– Ə, niyə gəlmirsən, sabah açılır, görmürsən?

Dedi:

– Ə qardaş, bir bojqa bal var, düşmüşəm içinə, çıxa bilmirəm. Nə mümkün eliyirəm, çıxa bilmirəm.

Keçəl bilirdi ki, bal adamı buraxmır, bu çıxa bilməz burdan. Başın tükü varıdı, əlini atdı başının tükünnən tutdu, çəkdi bəri. Başını burdan (söyləyici boğazını göstərir – top.) kəsdi. Da indi bunun başın kəsməsə bunun anasın da öldürəjəhlər, bunu da öldürəjəhlər. Gördü ki, mümkün yoxdu da. Başsız bədəni də kim tanıyajax. Başnan tanıyıllar adamı. Başını götdü gəldi.

Sabah ertə xəzinədar gəldi ki, padşah sağ olsun, başsız bədən var. Başını kəsif aparıflar, bədən qalıf orda.

– A vəzir, nətərdi?

Vəzirrih də çətin şeydi ey. Deyir ki, şah sağ olsun, gət onu yuyax təmizdiyəh, aparax çarhovuzun üsdünə qoyax. Camaat, arvatdar ordan su aparır. Taxdın üsdünə qoyax, yanına da yasoul qoyax. Yiyəsi kim olsa, nə qədər olmasa ağlıyajax. Onda onu tutsunnar.

Apardılar taxdı qoydular çarhovuzun böyrünə, meyidi də uzatdılar onun üsdünə. Keçəl hərrənirdi dana. Gördü ki, meyidi qoyuflar ora. Gəldi dedi ki, ana. Dedi:

– Hə.

Dedi:

– Ana, gədənin meyidin aparıf qoyuflar çarhovuzun üsdünə. Ana ürəyidi, bilirəm yanessən, amma bilsələr ağlıyırsan, məni də öldürəjəhlər, səni də.

Bir bardaxları varıdı. Dedi ki, ana, bardağı götür get suya, camaat hamı ora suya gedir. Gedəndə qəti ağlıyıf eləmə, özü möhkəm saxla. Get bardağı doldur, qayıdanda yolda bardağı sal sındır. Qayıt habelə bax gedəyə sarı, meyidin görəssən da, ağla. Nəçənniklər səni tutanda ki, niyə ağlıyırsan, denən ay oğul, vallah, kasıb adamıx, bu bardaxnan su aparıram. Onu da saldım qırdım, su aparmağa qavımız yoxdu. Bir oğlum var, məni dannıyajax.

Bunu tutullar. Deyillər, ə, qoja arvatdı, burax, bardağı qırılıf onunçün ağlıyır. Burax getsin. Çıxdı gəldi. Da bunun yiyəsi bu idi, bu da ağladı. Meyid orda qaldı, qaldı. Günnən gün vurur, küləhdən küləh vurur. Meyid başdadı iylənməyə. Vəzir dedi ki, padşah sağ olsun, meyid iylənif, iy oranı götürüf, camaat su apara bilmir. Gəl o meyidi ordan götürəh, aparax bir yiyəsiz yerə qoyax.

Apardılar meşənin kənarında bir çadır tikdilər, bunu qoydular içinə. Yasoulların da birin tikdilər başına, aralıdan belə gözdüyüllər. Keçəl eşitdi ki, gedənin meyidin aparıflar. Getdi bir xotxola eşşəh aldı gətdi, bir az da daraxdan, sancaxdan, çaxırdan, araxdan. Ət bişirdi, ət götdü, yeməh götdü. İndi şəhərin içiynən gedir. Ay darağ alan, ay sancax alan. Uşaxlar-zaddar gəlir. Bu minvalnan ki, şəhərdən çıxsın. Getdi orda qaroul çəkənnərə çatanda dedi:

– Ə, yaxşı arağım var, yaxşı çaxırım var. Lazımız döyül?

Dedi:

– Nəyə lazımız döyül? Ajınnan qırılırıx burda. Bərdən gəl.

Getdi. Dedi:

– Keçəl, nisyə verərsənsə, ver bizə. Pulunu verəjeyih da, tanıyırıx bir-birimizi.

Dedi:

– Niyə vermirəm.

Keçəlin canınnandı ki, meyidi burdan götürsün. Tökdü bu araxdan-zaddan bunnarın qavağına. Yedilər-işdilər. Keçəl də eşşəyi bağladı çadırın ağzına. Bunnar möhkəm yedi-işdi. Gördü ə, sən öl, xorulduyullar. Biri bura aşdı, biri ora aşdı, arax bunnarı apardı. Tez durdu, eşşəyi götdü getdi. Meyidi yüklədi, bərk sarıdı. Anasına da tapşırmışdı. Eşşəyin balası qalıf evdə. Eşşəh anqıra-anqıra düz qapıya. Anası tez – ana ürəyidi da, – gəldi meyidi aşdı, apardı saldı o quyuya. Bu da yıxıldı bunnarın yanına, yatdı. Sabah açılanda bunun biri ayıldı. Ayılan kimi düz baxdı ki, meyid yoxdu. Bunnarı dümsühlədi ki, ə, durun, evinizi Allah yıxsın, padşah bizi qırajax, meyid yoxdu. Keçələ də bir təpik qoydu:

– Ə, sənin Allah evi yıxsın, gətdin bizi xataya saldın.

Keçəl də yerinnən duranda dedi:

– Mənim eşşəyimi neynəmisiz verin. Elə onnan ötəri məni çağırırdınız?

– Ayə keçəl, eşşəh nədi ey, bizi padşah qırajax.

Dedi:

– Niyə qırajax sizi?

Dedi:

– Biz burda meyid gözdüyürük.

Dedi:

– Ə, mənim meyidnən-zadnan nə işim var. Mənim eşşəyimin pulun verin, çıxım gedim.

Bu qarouş insanı götürüf gedən olur, heylə böyük olurmuş. Deyir:

– Ə, gedin deyin iylənmiş şey idi, qarouş gəldi, götdü getdi, əlimiz çatmadı.

Elə bu keçəlin sözüynən bunnar getdi padşaha dedi, qutardılar padşahdan. Gəldi ki, ana, neynədin meyidi? Dedi:

– A bala, saldım quyuya.

Dedi:

– Hə, dəymə, qoy dursun.

İndi bu keçəldən şəhləndilər, amma tapa bilmədilər. Padşah dedi:

– Vəzir, nə tədbir görək?

Vəzir neynəsin. Dedi:

– Mən də sənin yanındayam. Bilici quşun var, bilici ceyranın var, burax, kimin qapısına getsə, ondadı da.

Buraxdılar bu quşu da, ceyranı da, gəldi keçəlin qapısına. Çatan kimi başın kəsdi, tulladı quyuya. Tapa bilmədilər. Padşahnan vəzir danışanda qızı varıdı, dedi:

– Ata, tapa bilmədin?

Dedi:

– Yox, a bala, tapa bilmədim.

Dedi:

– Ata, meşə kənarında çadır tik, məni apar qoy ora. Elan yaz, vur şəhərə ki, kimin konlu mənim qızımı isdiyir, getsin yanına. Mənim yanıma gələndə mən nişana vurajam, onnan tapajam.

Helə elədilər. Padşahın qızıdı bu. Yasoullar hər tərəfin kəsif. İçəri girəni buraxıllar, çölə çıxanı buraxmıllar. Bu gəldi ki, elan yazılıf. Elanı qopartdı, əlində gətdi ki, padşah belə yazıf. Dedi:

– Ana, mən gedirəm ora.

Dedi:

– Əyə, bala, insaf elə, padşah səni öldürəjəh, yazığıx.

Dedi:

– Yox, getməsəm olmaz.

Tərpəndi getdi. Getdi ki, sən öl, cahıllar yığışıf bura, amma heş kəs yaxın gedə bilmir. Girdi qızın çadırına. Gördü üş-dörd oğlandı böyründə-başında yatışıf. Qorxusunnan kimdi

qıza dəyən. Çatan kimi bu qızın işin düzəltdi. Qızın işin düzəldəndə qız bunun bığının bir tərəfin qırxdı. Qırxanda, keçəl bij olar da, bunnan aralaşdı, gəldi uzandı bunnarın yanında. Əlini orasına-burasına sürtdü, gördü kü, bığının bir tərəfi yoxdu. Dedi:

– Hə, köpəh qızı, sən məni allada bilməzsən.

Durdu yatannarın hamısının bığının bir tərəfin vurdu. Qəfildən vururdu, elə bilirdilər milçəh yeyir. Sabah qız xəbər göndərdi ki, heş kəsi buraxmasınnar, tapmışam. Yığdılar hamını, cərgəyə düzdülər, qızı gətdilər. Ə, bu, birinin bığını qırxmışdı. Baxdı ki, beş-on dənə bığı qırxıx var. Dedi ki, noldu? Dedi:

– Bala, mən birinin bığını qırxmışdım, görmürsən neçə bığı qırxıx var?

Dedi ki, yox, ata, tapa bilmədim. Bilmədim, bilmədim. Gəldi dedi ki, vəzir, nə tədbir? Dedi:

– Padşah sağ olsun, köhnə qarılar olur. Bir qarı çağırax gətirəh, görəh nə deyir.

Amma keçəldən şəhləniflər, intaası sübut eliyəmillər. Qarını çağırdı, dedi:

– Qarı, bax filankəsdən şəhlənmişih, bir çarə qıl. Sənə özün ağırrıxda qızıl verəjəm əgər tapsan. Get gör tapa bilərsənmi.

Əlini qoydu g….ün üsdünə, dedi:

– Qarı nənən saa qurban, tapajam mən.

Dedilər:

– A qarı, ceyran da orda yoxa çıxıf, quş da orda yoxa çıxıf.

Dedi:

– Mən tapajam.

Getdi bu keçəlin anasını çağırdı: “Ay filankəs, ay filankəs”. Gəldi. Dedi:

– A bajı, sənin başına dönüm, mənim bir qızım var, bərk xəsdədi, ölümcüldü. Həkim ona ceyran əti buyuruf. Sənin də oğlun çölə-bayıra gedir da. Bəlkə, ola bir tikə verəsən, aparam verəm ona.

Dedi:

– Aaz, qoy görüm, gedə bir dəfə gətirmişdi.

Arvadın ağlı olmur da. Getdi bu ceyranın ətinnən bir az kəsdi, gətdi verdi bu qarıya. Elə qarı dokqazdan çıxanda keçəl gəldi.

– A qarı nənə, hardan gəlirsən?

Dedi:

– A bala, qızım naxoşdu, ceyran əti lazım idi. Gəldim anannan bir tikə aldım.

– Görüm, əşi, onu.

Aşdı baxdı.

– Əşi, orda nə var, bəri gəl. Onnan nolar. Gedəh çox verim.

Qarını apardı, başın kəsdi, tulladı quyuya. Ha gözdədilər ki, qarı gələjəh, qarı hara gəlir.

– Vəzir nə tədbir?

Dedi:

– Padşah sağ olsun, daa nə tədbir. Elan yaz vur şəhərə ki, o adam kimdisə üzə çıxsın, qızımı da verəjəm ona, toyunu da eliyəjəm.

Heylə elan yazdılar, vurdular şəhərə.

Keçəl gəlirdi. Gördü ə, elan var. Getdi oxudu, gördü belə-belə yazılıf. Dedi: "Sən öl, gedif deyəjəm mənəm. Padşahın qızın alajam. Padşah elanını pozmuyajax ha?" Gəldi anasına dedi. Anası dedi:

– A bala, kiri, səni öldürəjəh, kiri.

Dedi:

– Yox.

Bir dəst də paltarı vardı, geydi getdi. Vəzir-vəkil – hamı yığışıf ora.

– Salamməlöykü.

– Əlöykümət salam.

Dedi:

– Padşah sağ olsun, bu elanı sən yazdırmısan?

Dedi:

– Hə.

Dedi:

– O adam mənəm.

Dedi:

– O gedən şeylər səndədi?

Dedi:

– Hamısı məndədi.

Dedi:

– Vəzir, get.

Vəzir cəllatdan da bir-ikisin götdü, gəldi. Keçəl gəldi quyunun ağzın aşdı, hamısın bir-bir tulladı çölə. Baxdılar ki, hamısı bundadı. Dedi:

– Padşah sağ olsun, hamısı bundadı.

Dedi:

– Onda toyun tədarükün görün.

Keçəlin toyun elədi. Dedi:

– A bala, bir anandı, bir özün, damkanın içində olursan. Get, götür gəl bura ananı da, burda ol. Mən də qojalmışam, bu gün-sabah öləjəm, padşahlıx qalajax saa.

Bu anasını da gətirdi. Oldu bunun yeznəsi. Padşah bunu hara olsa göndərirdi.

Başqa bir padşah bu padşaha töhmət yazıf göndərdi ki, sənin boyunu yerə soxum, sənin yəhərin qannan dolsun, taxtın tarac olsun, kəndində bir oğru çıxdı, onu da tapa bilmədin, axırda qızını da ona verdin.

Keçəl gəldi evə. Evə gələndə gördü qayınatasının əlində bir kağız var.

– Əşi, o nə kağızdı?

Dedi:

– Bala, filan padşah maa töhmət yazıf.

– Maa ver görüm onu.

Aldı oxudu. Dedi:

– Sən darıxma. Onu lüt gətirif çıxarajam bu camaatın içinə. Dayan sən.

Getdi yeddi qoyunun dərisinnən bir kürk tikdi. Padşahın da qızılı çox, gümüşü çox. Qızıldan, gümüşdən tükə asdırdı. Bir də bir yaxşı sandıx qayırtdırdı, iri bir sandıx. O vaxdı fayton idi, maşın-zad yoxuydu. Faytonu çağırdı, dedi:

– Məni aparарsan filan padşahın evinə.

Gejə gəldi. Ürək lazımdı ey, zarafat döylü. Gejə gəldi çıxdı ki, darvazada qaroulçu var.

– A qardaş, məni buraxarsan, padşahnan işim var?

Dedi:

– Yox, gejə keçif, innən belə səni buraxa bilmərəm?

– Ə, – dedi, – beş dəyqə sözüm var, deyif gəlirəm, ala bu qızılı da qoy civə.

Kopoolun qızılı. Dedi:

– Amma tez çıx ha.

Dedi:

– Ə, bu saat çıxıram.

Getdi ki, padşah tuman-köynəkdə elə yatıfdı, nətəri, xorxahor. Kürkü yavaşcadan çıxartdı, saldı çiyninə. Getdi qapını aşdı, padşahın ayağının altında durdu. Bir dəfə sirkələndi, zınqrovun səsi göyə çıxdı. Padşah yavaşcadan gözünü aşdı, gördü Azreyil kəsif bunun başının üsdünü. Dedi:

– Ya Azreyil, heş mən balalarımnan görüşməmişəm. İcazə ver balalarımnan görüşüm, sora.

Dedi:

– Görüşdürəjəm sizi. Düş bu sandığın içinə.

Tuman-köynəhnən düşdü sandığın içinə, ağzını örtdü. Peysər şeydi, aldı qucağına, gəldi. Qoydu faytona, gətdi. Gejə elə heylə qaldı sandığın içində. Sabah ertə qayınatasına dedi ki, vəzirə denən meydana camaatı yığsın. Vəzir əmr elədi, camaat yığıldı meydana, gətdi sandığı qoydu ortaya. Dedi:

– Dur balalarınnan görüş. Deyirdin balalarımnan görüşməmişəm. Dur görüş.

Bu yavaşcadan başın belə qaldırdı:

– Ə, bura haradı?

Tanımır-eləmir, camaat da yığışıf. Sandıxdan başın çıxarda bilmir.

– Ə, dur uşaxlarınnan görüş dana.

Nağarajaxdı. Başın qoyur sandığa, götürüf aparır. Buna qəşəh bir dəst paltar geyindirir. Deyir:

– Bunu sən yazmısan?

Baxır ki, bunun yazdığıdı dana. Deyir:

– Hə, mən yazmışam.

Dedi:

– A kişi, bu beləydi ki, mən qızımı buna verdim. Mümkün döyüldü. Mən qızımı verdim, amma sənin özünü tuman-köynəh gətirif çıxardıf.

Təzdənnən ona bir fayton nizamlıyıllar, yola salıllar, çıxır gedir. Deyir:

– Get, qatırçının qatırın ürkütmə.

## 44. ARVADIN ELƏSİ DƏ VAR, BELƏSİ DƏ

Bir axşam Şah Abbas Allahverdi xan vəzirə dedi ki, dur şəhəri gəzəh, şəhərdə oğurrux oluf. Durdular küçənin biriynən ağzıaşağı gəldilər, ayağa çatdılar, bir də qayıtdılar. Bir üş-

dörd ev getmişdilər. Gördülər ki, bir gəlin xeylağıdı, qapıda var-gəl eliyir, gəzir ayna-bayna. Dedi:

– Vəzir, bir buna de gör bunun kişisi var bizi beyjə qonax eliyə?

Vəzir deyəndə, bu gəlin dedi ki, yox, biz qonax saxlamırıx. Budey, ağzı belə hamı kənd döyül, gedin birinin evində qalın dana. Dedi:

– Vəzir, burda bir əngəl var. Çəkil belə dala, bunu güdəh.

Bilikli adamlar idi dana. Çəkildilər bir daldaya. Gördülər ki, bunun əri gəldi. Cüt əkirmiş, qutarıf gəlif. Gəldi ulağızadı rahatdadı. Kişi girdi evə. Hava da bir az soyux idi. Tez apardı kişinin qavağına bir isdəkan çay qoydu bu gəlin. İçəridə dayanmır. Çıxır çölə, girir içəri. Çayı qoydu qavağına, – onda buxarı idi, ojax buxarıda qalanırdı, – çıxdı çölə. Bunnar da baxırdılar buna. Gördülər ki, baltanı götdü əlinə, girdi kişinin təpəsinə tarap bir balta vurdu. Kişini öldürdü, sürütdədi, apardı baxçada peyində basdırdı. Qayıtdı gəldi, gənə qapıda başdadı gəzməyə. Dedi:

– Vəzir, dinmə, səsini içinə çək, görəh bu işin axırı nolajax.

Bir az aradan keşdi, gördülər ə, boynu yoğun bir oğlan gəldi, öz evi kimi qapıdan girdi içəri. Görüşdülər. Dedi ki, aaz, kişi yatıf, yoxsa oyaxdı?

Dedi:

– Ə, kişi nə gəzir, kişini öldürdüm, getdi. Gedəh arxeyin kefimizi çəkəh.

– Aaz, nə danışırsan?

Dedi:

– Vallah, kişini öldürdüm, basdırdım.

Gedə bunnan qorxdu. Dedi:

– Yox, yox, qutardım sənnən.

Geri qayıdanda dedi:

– Ə, sənnən ötəri kişini öldürmüşəm, hara qayıdırsan? Gəl gedəh kefimizi çəkəh.

Dedi:

– Yox ey, sən öl, neynəsən getmərəm. Bu gün onu öldürən sabah da məni öldürəjəh.

Getmədi. Bunu bunnar gördü. Oğlan da çıxdı getdi. Şah Abbas dedi:

– Vəzir, bu qapıya bir xaş qoy, darvazaya.

Vəzirdə hər bir şey vardı. Çıxartdı darvazaya belə bir xaş qoydu, getdilər ağzıyuxarı. Gəzə-gəzə, gəzə-gəzə getdilər, qaldılar birinin evində. Gəlinin bir az ağlı başına gələndə dedi:

– Axşam iki dərviş gəlmişdi, qonağ eləmədim. Bir çıxım qapını-bajanı gəzim, bəlkə, ordadılar.

Gəlif darvazaya baxdı ki, darvazaya belə xaş qoyuflar. Dedi:

– Hə, taparsan?

Arvadın felmanınnan qaş qurtar ey. Getdi kömürü keçirtdi, gətirdi. Ağzı belə on dənə darvazanı kömürnən belə xaşdadı. Gəldi yıxıldı yatdı.

Kadının belə eləməyi Şah Abbasa çox ağır getdi. Dedi ki, kadın xeylağını qoymuyajam qala, hamısını qırajam. Açıldı sabah, dedi:

– Vəzir, dur get, onu götür gət.

Vəzir durdu, cəllatdarı götdü gəldi. Gəldi ki, bu bir darvazaya nişan qoymuşdu, indi beş-on darvaza xaşdıdı. Hansı olduğunu tapa bilmədi, gejə idi dana. Getdi dedi:

– Şah sağ olsun, yadında, mən bir darvazaya nişan qoymuşdum, indi gör neçə darvazaya nişan qoyuluf. Tapa bilmədim.

Şah Abbas Allahverdi xan vəzirə dedi ki, mən qırx günnüh səfərə gedirəm. Dayana bilmirəm, o gəlinin hak-hesabı məni çox incidir. Mən gəlincə bu şəhərdə bir dənə kadın qoymursan. Hamısının boynunu vurursan.

Bu getdi səfərə. Vəzir qaldı məhətdəl. Bir belə adamı nətər qırdırsın? Qırdırmasa da, özünü öldürəjəhdi. Durdu cəlladı götdü, gəldi bir evə ki, beş nəfər kadın var – qojalı, cavannı, qızdı. Əmr elədi ki, bunnarın boynun vurun. Əyə, bir şüvən qopdu, bir qiyamət qopdu, nətəri. Dedilər ki, Şah Abbas arvatdarı qırdırır. Şəhər əhli elə bil yasa batdı. Vəzir dedi:

– Dəymiyin. Qoy gəlsin məni öldürsün. Bir belə milləti qırmaxdansa, elə mənim ölməyim yaxşıdı.

Qırdırmadı, getdi evinə. Amma Allahverdi xan vəzirin bir qoja atası vardı. Çox qoja idi. Şah Abbasın da belə bir əmri vardı ki, əyəm mən sənnən iki yaş böyüyəmsə, sən məni eşitməsən, səə cəza veriləjəh. Heylə də bir əmri varmış. Vəzir də fikirrəşdi ki, şah gələndə bunu öldürəjəh. Elə ora uzanırdı üzüquyulu, bura uzanırdı.

Allahverdi xan vəzir gündə bir dəfə atasını yoxluyurdu. Gündə bir dəfə gedirdi otururdu atasının yanında, halın xəbər alırdı. Nə yemisən, nə işmisən, arvad yaxşımı baxır sana? Belə-filan danışırdı, çıxıf gəlirdi. Gündə bir dəfə. İndi üş gündü getmir atasının yanına. Gəlin aparıf çörəyin verəndə dedi ki, a bala, Allahverdi xan vəzir hanı, heş gəlmir mənim yanıma?

Dedi:

– Vallah, əmi, Allahverdi xan vəzir üzüquyulu qalıf. Heş nə çörəh yeyir, nə çay içir, nə danışır.

Deyir:

– Niyə?

Deyir:

– Nə bilim.

Dedi:

– Get ona denən ki, atan səni çağırır.

Gəldi dedi ki, Allahverdi, atan çağırır səni. Dur get, gör nə deyir.

Durdu getdi yanına, görüşdü-elədi.

– A bala, gəlin deyir ki, çörəh yemirsən, üzüquyulu qalmısan. Nədi, noluf?

Amma bu kişi də Şah Abbasın atasının vəziri oluf ha. Çox bilən kişi idi. Dedi ki, ata, hal-qəziyə belə-belə. Şah Abbasnan getdih, belə bir kadın gördüh. İndi maa da əmr elədi ki, kadınnarın boynunu vurdur. Çıxdı getdi. Mən də getdim bir evdə beş kadın vardı, boynun vurdurdum, qiyamat göyə çıxdı. Dedim elə onnansa məni öldürsün.

Dedi:

– Qorxma bala. Niyə qırırsan, Allah yaradıf onu. Şah gələndə denən atam qoymadı. Məni apar onun yanına, mən sözümü ona deyim.

Nəysə, bu gah qorxdu, gah qorxmadı. Gözdədi. Şah Abbas faytonnan gələndə gördü ə, sən öl, arvatdar sərbəst-sərbəst dolaşır. Ajığı tutdu: "Nətər bu mənim əmrimi yerinə yetirmiyif". Gəldi, taxda çıxan kimi çağırtdırdı yanına.

– Sana nə demişdim?

Dedi:

– Şah Abbas sağ olsun, özün bilirsən da mənim bir qoja atam var. Qoymadı. Dedi ki, məni apararsan şahın yanına.

Dedi:

– Get gətir görüm.

Gəldi atasını aldı qujağına, apardı. Dedi:

– Şah Abbas.

Dedi:

– Bəli.

Dedi:

– Sən bilirdin mən sənin atanın vəziriyəm? Sənin də belə qanunun var ki, elə o yaxşı qanundu, kiçih böyüyü eşitməsə, ona cəza verirsən. Mən qoymamışam kadınnarı qıra. İndi mən sana bir söypət eliyəjəm. Genə kadın durur, sən durursan, qırdır da.

Dedi:

– Nətər?

Dedi ki, mən sənin atanın vəziri idim. Özüm də qəni pəhlivan idim. Mənim qolumu qatdıyan olmuyuf. Camaatı mən təmin eliyirdim da, vəzir idim. Taxılı olmuyana taxıl verdirirdim, pulu olmuyana pul verdirirdim. Nə lazımdısa, mən eliyirdim. Gejə vəzirrihdən evə gələndə gəlirdilər, kətçi camaat idi da, çağırırdılar, dərdini deyirdilər, əlac eliyirdim, gedirdilər. Genə getdim, deyir, soyundum paltarımı, çörəhdən-zaddan yedim, söykənmişdim, gördüm darvaza döyülür. Darvaza döyülən kimi durdum əbamı saldım çiynimə ki, çıxım görüm kənt camaatınnan kimdi da, niyə gəlif. Arvadım qoymadı. Dedi: "Belə hara çıxırsan? Sən paltarını geyin, xançalını qurşa belinə, mən atını yəhərriyif gətirərəm". – "Ay arvad, kənt camaatınnan olajax, qoy görüm kimdi". Dedi: "Yox". Paltarımı geyindim, deyir, xançalı vurdum belimə, çıxdım ki, arvad atı yəhərriyif gətirif. Üzəngini basdı, deyir, mindim. Arvad darvazanı aşdı, baxdım ki, bir qara paltar adamdı atın belində. Buna "salamməlöyküm" deyəndə, dedi ki, nə salamməlöyküm ə, atı dalımca sür. – "Ə, mən qəni pəhlivanam, mənim qolumu kim qatdıya". Sür, sür. Sürdüm.

Getdih, deyir, şəhərdən çıxdıx. Şəhərdən çıxanda mən dedim: "Ə, mən bunun dalına düşüf hara gedirəm? Mən qəni pəhlivanam, təpəsinə bir xançal vurum, ölsün". Şah Abbas, xançalı çəkdim belimdən, aldım əlimə. Atı qamçıladım, buna çatdım, ayağımın biri üzəngidə bunun təpəsinnən bir xançal. Qayıtdı maa dedi ki, əyə, yekə kişisən, adın-sanın var, vəzirsən. Niyə uşax-uşax iş tutursan? Atı dalımca sür. – "Bıy, əyə mənim xançalım buna dəymədi?" Sür, sür. Genə sürdüm.

Bir xeylağ sürənnən soora dedim, əlbət xançal yaxşı tutmuyuf dana. Bir də buna bir xançal çəkəndə mana ajıxlandı. Mana ajıxlandı ki, yekə kişisən, sana bayax dedim ki, adın-sanın var, niyə uşağ iş tutursan, ə? Dalımca atı sürəmmirsən? "Allah, sən saxla" deyif sürdüm. Sürdüm, amma bunnan qorxdum. İki

dəfə xançal çalmışam. Getdi girdi bir meşənin içinə. Dedi ki, sənin evini də tanıyıram, özünü də tanıyıram. Qaşsan səni öldürəjəm. Burda düş. Bax, mənim atımın tərkindəki bir xurcun qızıldı. Burda düş, atı da verirəm sana. Burda dur, məni gözdə. Bir kora işığ gəlir meşənin içinnən. Bax, mən gedəjəm o işığ gələn yerə. Orda mənim düşmannarım var, onnan vuruşmağa gedirəm. Mana sənin səsin lazımdı. Onnar bilsin ki, mənim dalımca adam gəlir. Sənə ayrı şey demirəm. Dur burda, mənim ordan nərəm gələndə mənə səs ver. Denən gəldim, vur gəldim. Mən sənin səsinə onnarı qırajam. Getdi deyir. Bunun atını aldım saxladım. Özüm-özümə deyirəm: "Ay allah, qaçajam, yerimi bilir, yurdumu bilir. Gəlif məni öldürəjəh. Mən nətər eliyim?" Qaşmadım.

Deyir, otdum gözdədim, gözdədim, bir azdan soora gördüm bunun səsi gəldi. Buna dedim: "Vur gəldim". Bərkdən çığırdım, üş dəfə səs verdim. Durdum gözdədim. Gözdədim, gözdədim, gördüm gəlir. – İndi bunu Şah Abbasa deyir ha, fikrinnən çıxarma. Gərəh söypəti düz götürəsən. – Şah Abbas sağ olsun, gəldi çıxdı. Baxdım ki, bir xaral başdı. Kəsif yığıf xarala, gətirif. Atı mindi, maa dedi onu qaldır ver. Əlimi atdım ağzına, mənim kimi adam zornan onu qaldırdım bunun qucağına verdim. Bir xeylax gəldi meşənin içiynən, orda saxladı, dedi:

– Atı da verirəm saa, bax, bu xurcunnan da bir qızıl, halalın olsun. Bunnan soora maa lazım döyülsən.

Başı götdü, deyir, bir xaral başdı. Bu, belə çıxdı, mən gəldiyimiz yolnan getdim. Bekara dayanmışdım. Birdən ağlıma gəldi ki, əyə, mən bunnan hal almamış hara gedim. Görüm bu kimdi, nətər adamdı, niyə belə eliyir? Şah sağ olsun, atı tez bağladım ağaca, bu getdiyi yernən getdim. Getdim ki, bura qavırsannıxdı. Bunun əmisi oğlu buna nişannı imiş. Əmisi oğlun düşmannar öldürüf. İndi bu əmisi oğlunun qanın almax üçün kömək gətirirmiş özüynən ki, elə səsin versin, onnan qorxsun, öldürsün. Deyir, başı tökdü qavırın üsdünə. Dedi ki,

əmi oğlu, qanı aldım, innən belə ölsəm, daa dərdim yoxdu. Xançalın götün qoydu qavırın üsdünə, isdədi üsdünə yıxıla, daldan bunu yığışdırdım. Qayıtdı baxdı mana, dedi ki, niyə çıxıf getməmisən? Sənə demədim, çıx get? Baxdım ki, bir arvad xeylağı. Dedim: "Ay xanım, bəs axşamnan bəri məni əsir-yesir eləmisəm, sənnən mən halı bilməmiş nətər gedim?" Dedi: "Mənim sirrimi heş kəs bilmirdi, sən bildin. İndi ixdiyarım keşdi sənin əlinə. Neyniyirsən elə". Mən deyir onu götdüm, gəldim evə, mollanı gətdim kəbinini kəsdirdim. Eşidirsən, deyir. Bax, Allahverdi xan vəzir həmin arvatdandı. Heylə də arvad var, Şah Abbas sağ olsun, belə də arvad var. İndi bir-iki kadınnan ötəri sən bu milləti niyə qırdırırsan? Sən yaratmamısan axı onu.

Onun sözüynən Şah Abbas Allahverdi xan vəzirə dəymədi.

Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də Musanın.

## 45. TACİR BƏHLUL

Bəhlul Danəndənin bir qardaşı vardı: Bağdadi-Xəlifə, padşah idi. Bu Bəhlul da qarğıdan at minirdi, nə bilim nə söylüyürdü, danışırdı, ona əysihlih gəlirdi. İki tacir alverə gedirdi. Padşah çağırdı yannarına. Dedi ki, ə, bu Bəhlulu da özüznən aparın, tanımadığınız bir şəhərdə qoyun, gəlin. Daa bu mənim canımı xirtdəyimə yığıf. Xəjalət çəkməhdən ölürəm. – Amma xəjalət də döyüldü ey, Bəhlul düz danışırdı, savatdı idi. – Bəhlula deyir ki, ə, Bəhlul, bu tacirrərnən sən də get da. Axşamatan burda bekar-bekar gəzirsən. Get, sən də satdığını sat, al gətir. Bəhlulun da ağlına batır, deyir:

– Qardaş, get deyirsən gedim, amma mən un aparajam.

Üyütdü, hazırratdı, yeddi qatır yükü unu hazırratdı. Tacirrər gedəndə Bəhlulu da apardılar. Getdilər, nejə bizim bu asfalta çıxan yolumuz kimi yolnan gedirdilər. Bir meşə vardı,

meşənin də o üzü dərya idi. Xeylağ getmişdilər. Üş-dörd gün yol getmişdilər. Tacirrərdən birinə dedi ki, biz qayıdanda bu yolu qayıdajeyih? – İndi hara getdiyini hələ bilmir də. – Dedilər: "Hə, senterni[24] yer buradı. Kim hardan gəlsə bu yola çıxajax, burdan gedəjəh". Yavaşcadan qatırrarı qaytardı meşəyə, dedi:

– Onda siz gedin, harda satırsınız satın, alın gəlin. Mən alverimi burda eliyəjəm, sizi də gözdüyəjəm.

Dedilər:

– Ə, Bəhlul, burda nə var? Şəhər yox, kənd yox. Quleybani yerdi.

Dedi ki, o sizə qalmıyıf. Mən sizə deyirəm hara gedif hardan gəlirsiniz? İntaası gələndə məni də burdan götürüf gedərsiniz. Qatırrarı qaytardı, yükün aldı. Bunnarın da biri dedi ki, ə, gəlin çıxıf gedəh ey, cəhənnəmə getsin. Getmir getməsin, duruf ona yalvarmıyajayıx.

Onnar getdi, bu qaldı burda. Aşdı qatırrarın yükünü. Allahdandı dana. Gətdi nağardı. Bu unnarın bir-bir ağzın aşdı, xamır elədi, tökdü dəryaya. Balıxlar yedi. Balıxlar az qaldı çölə çıxa. Qayırırdı, tökürdü, burdan yeyirdilər. Bir gün getdilər balıxlar padşahının yanına. Dedilər ki, bir oğlandı orda bizi yaman yedirdir. Da başımızdan yuxarı yeməh verif.

Balıxlar padşahı deyir:

– Siz ona nə verirsiniz?

Deyir:

– Vallah, bizim nəyimiz var nə verək ona.

Deyir:

– Madam heylədi, heylədi. Siz də xəzinədən adama bir qızıl götürün aparın, balıx çox, qızıl çox, tulluyun çölə, qoy onu götürsün.

---

[24] Senterni – mərkəzi

Balıxlar heylə elədi. Qızıldan gətdilər. Bəhlul gördü ki, balıx qızıl tulluyur çölə. Götdü qızıldan bir az komalıyannan sorasına ağlına gəldi ki, bunu mənim yanımda gəlif görən olsa, məni öldürüf əlimdən alar, yaxud tacirrər bilsə, gənə məni öl-dürəllər də. Gətdi bu malın peyininnən yığdı, balaca-balaca koka qayırdı, hərəsinin içinə bir-iki dənə ləl qoydu. Sərdi günün qabağına, qurutdu, yığdı meşoğa. Gətdihləri meşoğun hamısını heylə təzəhnən doldurdu, hərəsinin içinə iki ləl qoydu. Bir də gördü ki, tacirrər gəlir. Görüşdülər-elədilər.

– Ə Bəhlul, noldu, niyə qaldın burda? Nağardın, nə iş gördün?

Dedi:

– Alver elədim dana, nə iş görəjəm.

– Ə, burda alver var? Nə alver elədin? Nə aldın?

Dedi:

– Təzəhdi.

– Ə, – dedi, – sən öl, şah bizi biyabır elijəh, apar tök, neynirsən onu. Təzəh tapılmır orda?

– Ə, – dedi, – nə dərdinizə qalıf? Sizə deyirəm nə alıf nə gətirifsiniz? Mənim də alverim belə tutuf dana.

Qatırrarı yüklədilər, düşdülər yola, gəldilər. Hava soyux idi, yolda bular üşüdü. Həm də çörəh yeyəjeydilər. Dedi:

– Bəhlul, təzəhdən gətir bir ojax qalıyax, elə çörəh də qızdırax yeyəh, həm də qızınax.

Dedi:

– Ay qardaş, mənim alverimdi, onu pay verə bilərəmmi?

Dedi:

– Ə, orda o qədərdi, meşoxnan yığıf gətirif verəjəm saa dana.

Dedi:

– Yox, onda gəlin daqavorraşax.

Götürdü yazdı ki, filankəsə iki təzəh verdim, filankəsə iki təzəh verdim. Qol çəkdirdi bulara. Qaladılar, çörəh qızdırdılar.

Yedilər-elədilər, qızındılar. İçində qızıl var idi dana. Təzəh yandı, qızıl töküldü ora. Bunu da götdü Bəhlul. Onnar bilmirdi axı. Bəhlul götdü bunu da. Getdilər. Aralandılar, hər kəs öz evinə getdi. İndi Bəhlul da getdi.

Bayaxdan qardaşı axı bunu azdırmağa göndərif. Bağdadi-Xəlifə gördü ki, budu, Bəhlul gəlir.

– Ə qardaş, nədi alverin?

Dedi:

– Təzəhdi.

– Ə, – dedi, – Allah səni biyabır eləsin. Camaat gedir alqumaş alır gətirir. Təzəyi neynirsən, ə? Buralarda yoxdu təzəh?

– Ə, – dedi, – sənin nə dərdinə qalıf ey. Mən də heylə alver eliyirəm. Atamızın evinin birin ver mana, mən alverimi yığım ora.

– Ə, – dedi, – apar tök çölə, heş kəs görməsin.

– Ə, – dedi, – hara töküm çölə. Atamın evinin birin maa ver da, nolar.

Nəysə, birini verdi buna, bu təzəyi yığdı bura. Üş günnən soora tacirrər gəlirdi, padşahın daxodun[25] verirdi. Tacirrər gələndə bu da təzəyin birin götdü getdi. Dedi ki, qardaş, bunnar mana hərəsi iki təzəh boşdudu. Onu hesabladax, pulumu versinnər. Qardaşı da buna təpindi ki, ə, çıx get ayna, düzüdünya təzəhnən dolu döylü? Təzəyi belə qıranda ləlin ikisi sıçradı düşdü yerə. Baxdılar ki, iki ləl var burda. Dedi:

– Qardaş, mənim təzəyim bu təzəhdəndi. Hərəsinin içində iki ləl var. Dörd dənə ləl vermişəm bulara. Çağır hesablat, gör neçə eliyir.

Bu ləl qiymatdı ləl idi, dəryada olan ləl idi. Çağırdılar zərgəri, qiymat qoydu. Tacirrərin bu dəfə elədihləri alverin

[25] Daxod – vergi

hamısın padşah aldı verdi Bəhlula. Ləl heylə qiymatdı ləl imiş. Həm də padşah gördü ki, bu təzəyin içi ləldi.

– Ə Bəhlul, bunu nətər elədin?

Dedi:

– A qardaş, onu heylə eləməsəm, bunnar məni öldürüf əlimdən alardılar. Amma görəndə təzəhdi, heş kəs bir söz demir.

Ordan padşahın üzü gülür. Bu yeddi qatırın yükü ləldi. Onnan soora Bəhlulu çox isdiyir.

## 46. EŞŞƏK, SƏNƏ DEYİRƏM, QONAQ, SƏN EŞİT

Bəhlulun bir qonağı olur. Padşah da oğluna toy eliyirmiş. Bəhlula təhlifçi göndərir. Bəhlulun da qonağı var axı. Təhlifçiyə deyir ki, get padşaha denən ki, Bəlul deyir mənim qonağım da var, icazə verirsə gətirim. Təhlifçi gedif deyir. Deyir:

– Qonağını da gətirsin, nolar, toydu dana.

Gəlif deyir ki, qonağını da gətirsin.

Bəzi adam yansığ[26] olur. Görürsən pulunu, varını, evində olanını yoldaşına danışır. Bəhlul buna dedi:

– Ə, dost, toya gedirih. Sənnən bir söz soruşmasalar, deməynən ki, mənim bu şeyim var, o şeyim var. Bax, sana tapşırıram ha.

Bu da dedi:

– Nə dərdimə qalıf, yaxşı.

Getdilər otdular. Bəhlulnan ikisi bir oturmuşdu. Hər şeyi qoymuşdular, qarpızı da qoymuşdular. Padşah da ortaynan gedif gəzirdi, gəlirdi. Toy idi. Bunnar tərəfə pıçax qoymamışdılar ki, qarpızı kəsif yeyələr. Yaddan çıxmışdı. Biri dedi ki, kimin bıçağı var, bu qarpızdan kəsif yeyəh. Deyən kimi bu qonağın qızıldan bir pıçağı vardı, civinnən çıxartdı. Ağzını aşdı, vurdu qarpızın üsdünə. Padşah da gördü bu pıçağı. Gəzirdi də

[26] Yansığ – hər şeyi açıb deyən, varını-pulunu şişirdib öyünən.

ortaynan. Gördü bir qızıl pıçağdı, vuruflar qarpızın üsdünə. Götdülər qarpızı, kəsdilər yedilər. Vəziri çağırdı, dedi:

– Vəzir, gözdə gör o pıçağı kim civinə qoysa, onu gətir mənim yanıma.

Vəzir gözdədi, gözdədi, gözdədi, yedilər qutardılar. Pıçağı qonağ götdü, qatdadı qoydu civinə. Durdular, çıxanda vəzir bunu yedəhlədi ki, səni padşah çağırır.

– Ə qardaş, padşah məni neynir?

Dedi:

– Nə bilim, gedəh görək.

Bəhlul dedi:

– Ayə vəzir, o mənim qonağımdı. O beyjə bizdə qalajağ, sabah yola salajam. Neynir padşah onu?

Dedi:

– Valah, nə bilim.

Dedi:

– Onda mən də gedim da, mənim qonağımdı.

Dedi:

– Gə gedək.

Getdilər. Padşah gördü Bəhlul da bunnan gəlir. Bilirdi Bəhlul yaxşı söz deyə bilir. Dedi ki, a qardaş, o pıçağ mənim xəzinəmdə idi. Mənim xəzinəmdən o pıçağı oğurruyuflar, pıçağnan da barabar bir meşoğ qızılımı aparıflar. Sən aparmısan bunu, pıçağ səndədi. Bu nə qədər and içir. Nolajaydı. Vəzirə deyir:

– Apar sal onu zirzəmiyə.

Belə deyəndə Bəhlul deyir ki, şah sağ olsun, o mənim qonağımdı. Bu axşam o bizdə yatajağ. Sabah onu yola salajam. Mən yola salannan soora gələr bura, neyniyərsən, eliyərsən, amma indi mənim qonağımdı axı.

Dedi:

– Bəhlul, mən səni elə döyül tanımıyam. Sən onu aparessən, nəsə bir şey örgədessən. Ona görə qoymuram gedə.

Dedi:

– Heş-zad örgətmiyəjəm.

Nəysə, icazə verdi, qonağı götdü gəldi. Pıçağ da ordadı. Gəldilər otdular, yedilər, yatışdılar. Sabah duruf bunu yola salanda qarğı atı vardı, atı mindi, gedillər ikisi də. Qarğıya deyir öz-özünə:

– Ay qarğı, saa demədim ki, sənnən xəbər almasalar, demə belədi. Sənnən kim xəbər aldı ki, pıçağın varmı, çıxart. Özbaşına niyə çıxartdın? İndi padşah onun üsdündə səni dara çəkəjəh. Get, padşah desə pıçağı hardan almışdın, denən ki, bu pıçağnan mənim atamı öldürüf bunu da vurmuşdular onun sinəsinə. İndi bunu məclislərdə çıxardıram ki, görüm kim ona yiyə çıxır? İndi padşah sağ olsun, pıçağ sənindisə, mənim atamı sən öldürmüsən.

Padşah bilir ki, bunu Bəhlul örgədif.

– Ə vəzir, nə əngələ keşdih? Nətər olajağ bunun axırı? Get pıçağı da ver özünə, onu bir dilnən yola sal, çıxsın getsin. Xata bizdən uzağ olsun.

Gör ey. Sözü gərəh tapıf deyə biləsən ey.

## 47. DIZZ

Bir qonşu gedər bir qonşudan pul alar. O da inəyini təzə satmışdı, bir az pulu vardı. Çıxıf bazardan yenisini almağ isdiyirdi. Borc isdiyən qonşu deyir ki, gələn həftəyətən pulunu verəjəm. Nəysə, pulu alır, amma bazar günü, dediyi vaxt gətirmir. Borc verən gedir deyir ki, ə, mənim pulumu ver da, gedim inəh alım. Dedin axı gətirif verəjəm. Ə, bu gün verəjəm, sabah verəjəm. Borc alanın da bir qonşusu varmış. Deyir:

– O kimdi həftədə bir yol gəlir sənin üsdünü kəsir?

Deyir:

– Ə, onnan borş pul almışam, indi əl çəkmir. Gedir gəlir, gedir gəlir. Mən də düzəldə bilmirəm.

– Nə qədər almısan?

Deyir:

– Üş yüz maat.

Deyir:

– Gəl saa bir söz örgədim. Lap aparsın səni versin məhkəməyə. Mən deyən sözü de, məhkəmə səni azad eliyəjəh.

Deyir:

– Nə deyim?

Deyir:

– O, sənə gəlif deyəjəh mənim pulumu ver. Sən ona qəti demə ki, verirəm, vermirəm. Elə denən "dızz", əlini belə qulağının divinə apar. "Dızz" eliyəndə ona ajığ gedəjəh dana. Desə ki, adamsan, adam oğlusan, "dızz" nədi, mənim pulumu ver. Denən "dızz". Da ayrı söz demə.

Gəlir bu pulunu isdədihcə heylə deyir. Nəysə, olmur, aparır bunu verir məhkəməyə. Məhkəmə çağırır. Deyir ki, ə, bu kişinin pulunu niyə vermirsən?

Deyir:

– Dızz.

– Ə, adam oğlusan, insan oğlusan, dızz nədi? Kişinin pulunu almısan, niyə vermirsən?

Dızdan savayı bir söz demir. Axırda məhkəmə qayıdır o inəh yiyəsinə deyir:

– Ə, adam tapmırdın pul verəsən? Sən görmürsən bunun ağlı başında yoxdu.

O dıznan canını qurtarır.

# ƏLİ RƏMDAR OĞLU SÜLEYMANOV

**Əli Rəmdar oğlu Süleymanov** – 1932-ci il yanvarın 1-də Ağdam rayonunun Ətyeməzli kəndində anadan olub. Ailədə altı uşaq olublar: dörd qardaş, iki bacı. Atası Rəmdar Baxış oğlu mehtər olub. Əli kişinin dediyinə görə, yüklər dəmiryolu vasiyəsi ilə Yevlax rayonuna gələr, ordan da furqonlara, at arabalarına yüklənərək Şuşaya aparılardı. Həmin kirəkeşlər Ətyeməzli kəndinin yanında düşərgə salar, atlarını dəyişərdilər. Atası da həmin atlara qulluq edərdi. Atasını erkən yaşlarından itirdiyindən onu o qədər də xatırlamır. Yadında qalan odur ki, atası baramaqurduna şax qırmaq üçün çıxdığı gər ağacından yıxılaraq onurğa sütununu qırır və bir neçə saatdan sonra aldığı xəsarətdən dünyasını dəyişir.

Ərinin ölümündən sonra anası Humay Mirzə qızı Süleymanova altı uşaqla yalnız başına qalır. Anası mamaça olub və Ətyeməzli kəndində, eləcə də qonşu kəndlərdə qadın xəstəlikləri ilə bağlı ona müraciət edərdilər. Bundan başqa, anası zəhmətkeş qadın olub. Əli kişinin dediyinə görə, müharibə ilə əlaqədar kəndin əksər kişiləri müharibəyə getdiyindən onların işlərini də qadınlar görürdü. Onlar buğdanı biçər, dərzə vurar, vəlnən taxılı döyər, kürəklə onu sovurardılar. Buğdanı sovurmağı hər qadın bacarmazdı, amma anası bu işin öhdəsindən məharətlə gələrdi. Hətta yaxşı soruq atdığına görə neçə dəfə mükafata layiq görülüb.

Əli Süleymanovun uşaqlıq illəri çətinlik və məhrumiyyət içində keçib. Özünün dediyinə görə, bacısı orta məktəbi qurtarandan sonra klub müdiri təyin olunur. O vaxt dövlət qulluqçuları siyahıya alınaraq hər ailə üzvünə görə ona 400 qram buğda verilirdi. Bacısı dövlətdən daha çox buğda ala bilmək üçün anasını və qardaşlarını da öz üzərinə yazdırır və

hər ay 3,6 kq buğda yardım alırdı. Məhrumiyyət içində yaşamalarına baxmayaraq, anası həmin yardımı özünə götürməz, qonşulara paylayardı. Bacısı əlində yardım evə gələndə anası kisəni elə girəcəkdəcə pilləkənin üstünə qoyar və hər qonşuya ondan bir ovuc buğda verərdi. Əli kişinin dediyinə görə, elə vaxt olub o buğdadan özlərinə qalmazdı, anası hamısını qonşulara paylayardı.

Əli kişi məktəbdə oxuduğu illəri belə xatırlayır: "Qara rəngdə iki vərəqli dəftərimiz, ağ rəngdə yazan bir qələmimiz vardı. Həmin qələmlə dəftərdə ana dilindən tapşırıqları həll edər, sonra onu silərək riyaziyyatdan məsələləri yazardıq. Dərs kitabı da ancaq müəllimdə olardı. O, kitabı yaxşı oxuyan şagirdin birinə verərdi, o oxuyar, digər uşaqlar onu dinləyərdi". Əli Süleymanov üçüncü sinifə qədər məktəbə gedir. Özünün dediyinə görə, fikri bağda olardı ki, sığırçın yuvasını uçurdub onun çırpısı ilə axşam evdə ocaq qalasın. Tez-tez dərsdən qaçdığına görə, anası üçüncü sinifdən sonra onu məktəbdən çıxarır. O vaxdan Əli Süleymanov kəndin naxırına gedir.

Kəndin iki naxırçısı vardı. O biri naxırçı balaca Əlinin uşaq olmasından istifadə edib öz mal-qarasını da onun naxırına qatır, özü isə yalnız axşam naxır gələn vaxtı heyvanın qarşısına çıxırdı. Malın sayı çox olduğundan balaca Əli təkbaşına onların öhdəsindən gələ bilmir, axşama kimi heyvanların arxasınca qaçmaqdan əldən düşürdü. İki-üç il bu şəkildə naxıra gedəndən sonra bir axşam ağlaya-ağlaya evə gəlir. Camışı həyətə salmaq üçün darvazaya çıxan bir qadın Əlinin ağladığını görüb səbəbini xəbər alır. Əli naxırçı yoldaşının onun başına açdığı oyunu ona danışır. Qadının məsləhəti ilə səhər heyvanları naxıra aparanda dəyənəyin ucunu peyinə batırıb öz mallarına nişan qoyur. Naxırçı yoldaşı heyvanları onun naxırına qatıb gedəndən sonra qoyduğu nişanələr əsasında öz malını ayırır. O biri heyvanlar kolxozun əkininə girdiyinə görə qaro-

vulçu onları tutub pəyəyə salır. Əli dayının dediyinə görə, o gün yorğunluq hiss etmir, axşam fıştırıq çala-çala evə gəlir. Ondan sonra malı növbəyə qoyurlar: bir gün o, bir gün naxırçı yoldaşı novata gedir. Beləliklə, 1953-cü ilin oktyabrın 12-nə – orduya çağrılana qədər o, kəndin naxırına gedir.

Əli Süleymanov hərbi xidmətini Moskvada hərbi tikinti briqadasında çəkir. Briqadada işlədiyi müddətdə dəmirçi-santexnik ixtisasına yiyələnir. Dörd il hərbi xidmətdə olur, nizam-intizamına, işgüzarlığına görə təltif olunur. Əsgərlikdən qayıtdıqdan sonra uşaqlıq arzusunu həyata keçirir (özünün dediyinə görə, uşaq ikən kənddəki imkanlı adamların evinin tikilişinə, yonulmuş daşlara baxıb nə vaxtsa belə bir ev tikməyi xəyal edərdi). 1957-ci ildə Xaçın çayı üzərində bəndin salınması ilə əlaqədar böyük bir qəsəbə tikilir və Əli Süleymanov da orada fəhləliyə düzəlir. Əli kişi o dövrü belə xatırlayır: “Onda azərbaycanlı ustalar çox az idi. Bizim briqadakı ustaların dördü erməni idi, biri isə 1948-ci ildə İrandan gəlmə idi. Erməni ustaları mənim bənnalığa həvəsimi görüb bu işdən uzaqlaşdırmağa çalışırlar, ustalığın yaxşı sənət olmadığını, özümə başqa peşə seçməyi məsləhət görürdülər”. Erməni ustaların onu pisikdirməsinə baxmayaraq, o, fikrindən daşınmır və şərt kəsir ki, bir il onlara fəhləlik edəcək, nə iş tapşırsalar yerinə yetirəcək, əvəzində bir ildən sonra onu özlərinə şəyird götürsünlər. Bir il ərzində Əli Süleymanov təkcə fəhləlik etmir, erməni ustaların əllərinə fikir verməklə ustalıq sənətinin bir çox sirlərinə də yiyələnir. Bu işdə Cənubi Azərbaycandan olan usta da ona köməklik edir. Nahar fasiləsinə çıxanda həmin usta alətlərini ona verərdi, gələndə də əl işinə baxıb səhvini deyərdi. Əli Süleymanovun dediyinə görə, ustalıq sənətinin ilk sirlərini ondan öyrənir, məhz o, daşın oturacağını ona tanıdır, daşı necə yonmaq lazım olduğunu, sütunları qoymağın üsulunu öyrədir. Bir il bu cür işləyir. Bir ildən sonra er-

məni ustası aləti olmadığını bəhanə edib onu şəyirdliyə götürməkdən boyun qaçırır, amma tikinti briqadasının rəhbəri ona köməklik edir, onu alətlə təmin edir. Erməni ustasının əlinin altında işləmək onun üçün heç də asan olmur. Erməni ustası ona ancaq divar hörməyi tapşırır, evin tikilməsində həlledici rol oynayan sütunların qoyulması, künclərin tikilməsinə onu yaxın buraxmır. Bu çətinliyə baxmayaraq, o, ustalıq sənətinin sirlərinə tam yiyələnir, hətta tikintinin rəhbəri Məmməd Paşayev tərəfindən yüksək dərəcəylə mükafatlandırılır. Əli kişi mükafatlandırılmasını belə xatırlayır: "Bir gün Məmməd Paşayev görülən işləri yoxlamağa, yaxşı ustalara dərəcə vermək üçün tikintiyə gəlir. Mənə dedi ki, sənin haqqında eşitmişəm, yaxşı işçisən, səni buraxmayacağam. Sənə özüm göstəriş verəcəyəm, amma çalış özünü doğrult. Daha sonra mənə tapşırdı ki, bir dənə daşı yonub küncə qoyum. Daşı yonub yerinə qoyandan sonra mənə dedi ki, indi o daşın üstünə çıxa bilərsən? Mən dedim çıxaram. Hündürlüyü dörd metrə çatan divarın üstünə çıxıb bir ayağımı daşın üstünə qoyub o birini yerdən üzdüm". Hördüyü divarın möhkəmliyini görəndən sonra Məmməd Paşayev onu dördüncü dərəcəylə mükafatlandırmışdı. Əli Süleymanov 1978-ci ilə qədər usta işləyir, ondan sonra xəstəliyi ilə əlaqədar tikintidən uzaqlaşır və nəzarətçi işləyir.

Əli Süleymanov 1957-ci ildə əmisi qızı ilə evlənir. Bu nigahdan onların 7 övladı olur: 3 qızı, 4 oğlu.

Ağdam rayonunun işğalından sonra Ağdaş rayonunun Qumlaq kəndinə yaşayan bir tanışının evinə sığınır. Hər gün bu evdə on nəfər üçün yemək bişirilir və bütün bu xərclərin hamısı tanışının cibindən çıxırdı. Əli kişi ev yiyəsinə kömək olmaq üçün süpürgə düzəldib Bərdə bazarında satır və qazandığı pula evə ərzaq alır. Bir müddətdən sonra artıq ordan çıxmaq qərarına gəlir və o vaxtdan fermanın həyətindəki yardımçı tikilidə

məskunlaşır. Bu gün də Əli kişi həmin kasıb daxmasında kiçik oğlu və nəvələri ilə birlikdə yaşamını sürdürməkdədir.

## 48. FƏRASƏTLİ QARDAŞLAR

Bir kişinin üç oğlu olur, ayləsi, bir də özü olur. Kişi ovçuluxnan məşğul olurdu. Ovda da heylə bir gəlir yox idi. Dərinin birini yetmiş köpüyə alırdılar. Ovdan gələndə bu, çox korruxlanır, çox gəzir piyada, ayləni çətin dolandırır. Oğlannarı da iriləşifdilər, oğlannarı da gedir ova. Bular heş ov ovlamağın girəvəsini bilmillər harda durmax lazımdı, harda ovlamax lazımdı. Aylədə ehtiyac çoxdu. Fikirrəşir ki, aylənin xətrinə əyri yola düşsün.

Deyir, bir gün padşahın imarətinin yanınnan keçəndə görür ki, xəzinənin abuşkası açıxdı. Fikirrəşir ki, yəqin yaddan çıxıf qalıf ey açıx. Qarannıx düşmüşdü. Abuşkanın açıx qalması cəlb edir bunu. Deməli, abuşka açıxdı, oğurruğa gəlməh olar. Abuşkanın açıx olmasının mənası bu idi ki, oğrunu tutmax. Abuşkanın içərisinnən padşah dərin bir quyu qazdırmışdı insanın qurşağına qədər, içini də qırnan doldurmuşdu ki, oğru gəlif abuşkadan özünü atanda düşsün bura. Bunu yazıx kişi bilmirdi. Gəlir evə, oğlannarını yığır belə, deyir:

– Mən yaşamasam da olar, sizin yaşamağınız üçün padşahın xəzinəsinin abuşkası açıxdı, gedəjəm oğurruğa, bir az qızıldan-zaddan gətirim, siz yaxşı yaşıyın. Amma ola bilər ki, məni tutallar. Saat birəcən gəlməsəm, mənim dalımca gəlin. Deməh, ya tutulmuşam, ya da yüküm ağırraşıf.

Kişi durur, o vaxt patava oluf, patavasının qatmasını bərkidir, birdən-ikidən oğurruğa getməmiş adam, abuşkanı açıx görür, içəridə qızıllar hamısı işıx salır. Təntimiş adam, abuşkadan özünü atır. Atan kimi düşür quyuya, bircə çiyinnəri qalır çöldə bunun.

Oğlannarı gözdüyür, gəlmir, duruf gedillər. Görür kölgə düşür, deyir:

– Oğlannarım, sizsiniz, gəldiniz?

Deyir:

– Hə, gəldih.
Deyir:
– Ehtiyyatdı olun, mənnən təxminən yarım metr buyza qurudu. Mən elə vəziyyətə düşmüşəm ki, daa burdan çıxası deyiləm. Ya ölüb çıxajam, ya da qaldım burda.
Böyüh oğluna deyir ki, sən ayağı qoy çiynimə, keç xəzinəyə. Böyüh oğlu ayağını qoyur kişinin çiyninə, addıyır xəzinəyə. Ortancıla deyir:
– Sən də keç.
Kiçiyə deyir:
– Sən də keç.
Üçü də keçir. Deyir:
– Yığın, nə qədər yığırsız, yığın.
Nə qədər gücü çatır yığıllar. Qayıdanda böyüh oğluna deyir:
– Oğul, burda məni tutajaxlar, sizin hamınızı güllələyəjəhlər. Gedirsən başımı kəs, götür get, bilən olmasın ki, mən kiməm.
Deyir:
– Ata, onu mən eliyə bilmərəm.
Deyir:
– Onda keç.
Ayağını qoyur kişinin çiyninə, çıxır çölə. Ortancıl gəlir, ortancıla deyir:
– Oğul, sabahları məni burda tutajaxlar, biləjəhdilər sizin atanızam, sizi çox incidəjəhlər. Başımı kəs, götür get, cəsədimi tanıyan olmasın.
Deyir:
– Yox, ata, mən onu eliyə bilmərəm.
Bu da addıyır çölə çıxır. İndi kiçih gəlir. Kiçiyə deyir:

– Olar cəsarət etmədilər, sizin üçünüzü də asdırajax şah darvazanın bir tayınnan. Başımı kəs, götür get, tanıyan olmasın, apardığınızı dinc yeyin-için da.

Deyir:

– Yox, ata, mən onu eliyə bilmərəm.

Deyir:

– Yaxşı, keç.

Bu da keçir. Deyir:

– Getmiyin, dayanın.

Dayanıllar.

– Sabahları padşah məni burdan çıxartdırajax, parça-parça doğratdırıf aparıf düzə tullatdırajax ki, quşdar yesin, həm də mənim sahibim gəlsin ağlasın. Ağlıyanda bilsinnər ki, kimdi mənim yiyəm. Anana tapşır, birdən ora gələr ha! Heş biriniz gəlmiyin. Neçə gün cəsədim o çöldə qalsa, quzğunnar tikə-tikə eliyif aparsa, gəlmiyin.

Vəsiyyətini eliyir, deyir:

– Çıxın gedin.

Oğlannarı gedir. Sabah açılır, Allah hamının sabahını xeyirə açsın. Xəzinədar gəlir, hər gün yoxluyurdu, görür ki, qırın içində bir adam var. Padşaha xəbər göndərir ki, padşah sağ olsun, bir nəfər gəlifdi oğurruğa, xəzinənin yarısını da aparıflar, düşüf qalıf qırın içində. Deyir:

– Çıxartdırın, gətirin.

Çıxardıllar bunu burdan. Bunun başını kəsdirif, başı da üsdündə tullatdırır imarətinnən bir qədər aralı. Görüllər bunu. Arvad da görür, uşaxları da görür ki, kişini öldürüf atıflar ora. Heş birisi getmir. Burda söhbət cırlaşır, danışmax məqsədəuyğun deyil[27].

---

[27] Söyləyici məqsədəuyğun hesab etmədiyi bu hissəni danışmır, növbəti epizoda keçir.

Padşah biliciləri çağırır, deyir ki, sınaxdan keçirin bildiyinizi. Xəzinəni kim yarıf, tapın. Tapa bilmillər. Ağsakqalları çağırır, qarasakqalları çağırır, əmələ gəlmir. Əl atır ipəh qarılara, köpəh qarılara, burdan da bir şey çıxmır. Bunun, deyir, üş qızı vardı. Qızdar deyir:

– Ata, niyə narahat olursan, biz o oğruları taparıx.

Ortancıl qız gəlir qabağa, deyir:

– Ata, car vur, meşədə böyüh bir tala var, o talada mən əlli dəvə yükü qızılnan gejəliyəjəm. Heş kəs saat on ikidən soora çölə çıxmasın. Pusquda adam qoyarsan, oğrular gələndə tutallar.

Hətta, deyir, hasar da çəkilmişdi, hasarın qapısı da var idi. Qapıçı qapını bağlıyır, əlli dəvə yükü qızılı çəkir, tam yiyəsizdih idi. Bu talada bu, axşamlıyası olur. Qoşun talanı mühasirəyə alır, padşahın qoşunu ki, oğru gələndə tutsun. Sərvan – dəvənin yedəyini çəkən oturmuşdu dəvənin üsdündə, yuxluyurdu. Tez-tez dəvənin ipini çəkirdi ki, görsün dəvə burdadı. Dəvə getsə, o biri dəvələr də gedəjəh, qız da. Qız dəvədən gejədən xeylağ keçənnən soora düşür, ta yuxluyurdu. Deyir:

– Mən düşürəm.

Düşürüllər, yer salıllar, yatır. Arxası üsdə yatmışdı, ayın işığını qaytarırdı, o qədər gözəl idi. Gecədən bir qədər keçənnən soora qoşun gedir yuxuya. Bular hasardan keçillər içəri, camaata qoşulullar, bularnan deyif-danışıllar. Kiçih qardaş böyüyə deyir ki, gedif o qızı öpəjəm. Deyir:

– Ə, qırdırarsan bizi, qoy görəh.

Qız oyax idi. Oğlan yaxınnaşır, bir əlini bu üzdən qoyur, bir əlini o üzdən toxunmasın deyə, üzünnən öpəndə qızın əlində qayçı vardı, qayçıynan bunun bığının yarısını kəsir. Bu heş duymur. Qayıdır gəlir, deyir:

– Öpdüm, heş bilmədi.

Deyir:

– Nə bilmədi, ə, səni damğalıyıf ey, sənin xəbərin yoxdu.

Nağarax, nağarax? Qayçını götürüf nə qədər bığlı adam var bığının yarısını bunki fason kəsillər. Qızı ehmalca götürüf aşırdıllar dəvənin belinə, dəvənin kəndirini kəsif bir daşa bağlıyıllar. Dəvənin yedəyini çəkir, qalan dəvələr də dalınca ehmalca qapıdan çıxıllar. Dəvələr də çıxır, qız da, götürüf gedillər.

Sabah açılır, xəbər gedir padşaha ki, dəvələr də gedif, qız da gedif, amma oğruya nişanə vuruflar. Qapını açıllar, deyillər:

– Kimin bığı bütöydü çıxsın, kimin bığı paradı, qalsın.

Görüllər ki, hamının bığının parası kəsihdi. Padşah daha da hiddətlənir. Padşah nə qədər qoşun başçısı vardı, nə qədər əyannar, nə qədər ipəh qarı, nə qədər köpəh qarı var, hamısını yığır. Deyir:

– Yox ey, olar tapılmalıdı.

Bular axtarışda olsun, oğlannar qızı da götürüf gəlillər evə. Dəvələr tutular deyə doğruyullar hamısını. İndi beş dəvə, üş dəvə olur, mən əlliyə yaxın dəvə demişəm. Söhbətdə də əlliyə yaxın dəvə deyilif, bəlkə də, şişirdillər nağılda. Görünür, bəlkə də, əlli dəvə oluf, amma əlli dəvəni kim kəsə. Yığıllar pəyəyə ki, dəvələr çıxıf eliyər, görən olar. Qızı da kəbin eliyillər böyüh qardaşa, aylə qurur bunnan. Özdəri ovlarınnan məşğul olullar, analarına tapşırıllar ki, qapını açmırsan, evə adam buraxmırsan, çaaranda “evdə heş kəs yoxdu” sözünnən başqa bir kəlmə demirsən. Həyətə heş kəsi buraxmırsan.

Deyir, ova gedirdilər öz qaydaları üzrə. Gələndə də dəvələrin ətinnən bişirirdilər, yeyirdilər. Yeraltı dam var idi, damın tirlərinnən asmışdılar dəvələrin ətini ki, xarab olmasın.

Bir gün nəpəh qarılardan biri padşaha deyir ki, mən taparam o oğruları. Deyir:

– Sən oğruları taparsansa, tərəzinin bir gözünə sən özün qoyulajaxsan, bir gözünə də qızıl-gümüş qoyulajax. Bu qədər hakqın var tapsan.

Qarı tumanının balağını sancır. – Balağ sancardılar, indi olmasın. Tumanın ətəyini yığışdırardı qıvrax olsun deyə. – Sancır tumanı, düşür yola. Dəsmal çəkir, hönkürüf ağlıya-ağlıya kəntdəri başdıyır gəzməyə. Kim bunnan soruşur noluf, deyir:

– On səkgiz yaşında oğlum var, xəsdədi, ölür. Həkim ona dəvə əti buyuruf. Bircə tikə dəvə əti olsa, o sağalar.

Dolana-dolana gəlif çıxır bu oğruların həyətinə. Ana görür darvazanın dalında bir kadın ucadan ah-vay çəkif ağlıyır. Ürəyi yuxa idi ananın, dayana bilmir, yaxınnaşır qapıya, qapını açır, görür ki, bir qoja qarıdı.

– Ay ana, noluf?

Deyir ki, bəs bir oğlum var, on səkgiz yaşında, gözümün ağı-qarasıdı, ölür. Ona həkim dəvə əti buyuruf, bircə tikə olsa, ölməz. Ürəyinin yumuşaxlığınnan «yoxdu» deyə bilmir, deyir:

– Gəl, içəri.

Gəlir içəri qarı, uje görür ki, burda işıx uju var. Pəyələr bizdə yeraltı oluf. Uzun pəyə idi, iyirmi metr uzunnuğu. Bunu salır pəyəyə. Qarı içəri girəndə, qarıya bu səhnə lazım idi, görür ki, dəvələri şakqalıyıf asıfdılar. Deyir ki, a bajı, bu nədi?

Deyir:

– Aaz, heş kimə demə, padşahın qızı da, dəvələri də bizdədi, böyüh oğluma kəbin eləmişih, aylə quruflar. Bax, heş kimə demə ha! Nə qədər isdiyirsən sənə dəvə əti verim. Bir bud götür, apar.

Deyir:

– Neynirəm aaz, mənə bir tikə lazımdı.

– Yox, aaz, bir az da, bir az da.

Arvad tikə-tikə ətdən kəsir, canıyanannıx eliyir. Oğlannarın ovdan gələn vaxdı idi. Ovdan gələndə həmişə dokqazlarına baxırdılar ki, görəh bir hadisə olmuyuf ki. Qarı, deyir, çox tələsiyirdi, tez burdan getsin. Görüllər ki, qapı açıldı,

içəridən kadın çıxdı iti sürətlə. Binokulla baxırdılar, elə-belə görünməzdi, aralı idi. Böyüh qardaş deyir:

– İçəridən kimsə çıxdı, bərk getdi.

Bu, deyir, atın başını boşduyur. Atın başını keşmişdə kişilər saxlıyırdılar ki, at toxdax olsun. Atın başını buraxdı ki, at sərbəst getsin. Heş, deyir, bir dəyqə çəhmədi, arvadın başının üsdünü kəsdilər. Təxminən arvad bir on metr aralanmışdı evdən. Dedi:

– Ay ana, hardan gəlirsən, hayana gedirsən, kimsən, nəçisən?

Deyir:

– Allah bajımaköməh olsun, oğlum ölür, məni ləngitmə oğul, dəvə əti arzulayır. Bu evin yiyəsi verif ki, aparım verim, dirilsin.

Deyir:

– Ay ana, ver, baxım görüm nə verif?

Deyir:

– Budu.

Deyir:

– A qanmır o, axmax arvatdı, bir elə ətdən verdiyi ətə bax. Qayıt götür.

Arvad getməh isdiyir, bu qoymur.

– Ay oğul, bəsdi, başına dönüm.

Deyir:

– Aaz, adam qızısan, qayıt.

Qaytarır, elə içəri girən kimi qılışnan vurur. Qarı da getdi, gəlmədi.

Padşahın əlacı kəsilir, götürüf elan vurdurur. Elan verir ki, mən oğruları tapmıram, oğrular öz ayağıynan gəlif çıxsa, mən oları bağışdıyaram. Elanı oxuyuf oğlannar gəlillər. Üçü də gəlif deyillər:

– Dəvələri də biz aparmışıx, qız da bizdədi, xəzinəni yaran da bizih, orda qalan cəsəd atamızındı, qızıllar bizdədi-filan.

Padşahlar padşahı İranda oturururmuş. Bu deyir ki, baş padşahdan məktub gətirin ki, həqiqi oğrular sizsiz.

Örgənillər ki, padşah yatanda bu imarətdə yatır. Pusquda durullar ki, o nə cür gəlir, neçə nəfərnən gəlir. Görüllər ki, gejədən xeyli keçənnən soora bir nəfər pəhlivan bunu gətirdi. Qapının böyründə düymə var, düyməni basan kimi qapı açıldı. Keşdilər içəri, qapı örtüldü. Təxminən saat yarım çəhdi, onnan soora bu gələn şəxs çıxdı çölə, qapının düyməsini basdı, qapı bağlandı. Gejədən xeyli keçənnən soora bular da yaxınnaşıllar qapıya, qapının düyməsini basıllar, qapı açılır. Keçillər içəri. Beləcə otuz dokquz qapı açıllar, qırxıncı qapıda görüllər padşah burdadı, yatıf. Bular, deyir, zınqırov, tısbağa çanağı, şeytan çanağı, cındır-cundur paltarda böyüh qardaşı bəziyillər. Böyüh qardaş girir içəri, padşahın yatağının başında ayağını bərk vurur yerə, bu çanaxlar bir-birinə dəyif səs eliyir. Eybəcər bir gurultu əmələ gələndə padşah gözünü açır, görür başının üsdündə adama oxşamıyan bir şəxs var.

– Pismillah, pismillah, – deyir. Deyir ki, pismillah demə, o dünyadan gəlmişəm mən. Səni o dünyaya padşahların padşahı seçiflər, onçün gəlmişəm. Deyir ki, axı mənim vəzifəm var, taxtdayam, yerimi bir adama verməliyəm. Deyir ki, onda sabah saat on ikiyədək səə vaxt veririh. Vəzifəni təhvil verərsən, gələrsən filan meşəyə. Səni tabuta qoyallar, eşşəyin belinə sarıyallar, sən öz xoduna gələjəhsən o dünyaya. Oratan gətirif qoysunnar, getsinnər, sən qeybinnən gələssən. Belə təpiyini vurub yerə, qozalarını silkələdir, çıxır çölə.

Sabah açılır, padşah qəzəb donunu geyinir, çıxır taxta. Deməh, bilillər ki, nəysə bir dəyişiklih var. Padşah qəzəb donunu geyinir, yəqin, kiməsə ajığı tutuf. Çağırır bütün əyannarını, başqa ölkələrin padşahlarını, deyir:

– Məni o dünyada padşahlar padşahı seçiflər, getməsəm olmaz.

Bir nəfər qohumlarınnan öz yerinə seçir. Deməh, bir tabut düzəldir, hal-xoş eliyir, hallallıx eliyir, yerini təhvil verir, uzanır tabuta, deyir:

– Məni filan yerə qoyarsız, mən qeybimdən gedəjəm.

Tabutun ağzını mismarrıyıllar, eşşəyin üsdünə möhkəm sarıyıf qatıllar qabağına, iki nəfər oğrular deyən yerə qoyuf qayıdıllar. Oğrular ulağı qatıllar qabağına, gətirillər. Eşşəh getdihcə tabut yellənirdi. İçində əsniyir, deyir:

– Bəh-bəh-bəh, bu dünyanın yolları da yüyrühdü, yolları da yüyrühdü, – deyə-deyə gəlir. Gətirillər tabutu, padşahın taxtının qabağında tabutu qoyullar. Padşah deyir:

– Bu nədi belə?

– Sən demişdin kağız gətir, biz özünü gətirmişih.

Qapağı açanda padşah içəridən deyir:

– Burda heş kim hökm eliyə bilməz, buranın padşahlar padşahı mənəm – deyəndə baxır görür ki, bu ölkənin padşahı burdadı, tanıyırdı. Gəldiyi ölkənin padşahı deyir:

– Səni oğrular gətirif, ay zalım. Həqiqətən oğru olduxlarını isbata keçirməh üçün səni oğurruyuf gətiriflər.

Bu ölkənin padşahı oğlannardan birini vəzir qoyur, birini qoşun başçısı götürür, birini də vəkil götürür. Bu minvalla yaşıyıllar. Yaşıyannarı yaşasın, ölənnərə Allah rəhmət eləsin. Bunnan da nağıl bitir.

## 49. KEÇƏLLƏ KOSA

Bir gün Keçalnan Kosa səfərə çıxası olullar. Səfərə çıxanda yol azuqəsi götürüllərmiş. Yol nə qədər uzax olursa, buların azuqəsi qutarır. Yeməh qutarır, yaxınnaşıllar kəntdə bir öyə. Görüllər ki, dokqazda uşaxlar oynuyur. Kosa deyir ki, ay uşaxlar, bu öyün uşaxlarınnan var sizin aranızda? Tanımır axı. Bir uşax yüürə-yüürə gəlir. Deyir ki, əmi, mən bu öyün uşağıyam, nədi?

Deyir:

– Ataa adı nədi?

Deyir:

– Həsənqulu.

– Anaa adı nədi?

– Xanımca.

– Bajıı adı nədi?

– Sevil.

– Qardaşıı adı nədi?

– Həsən.

Bütün aylənin adını örgənir, uşağa deyir:

– Dur get, daa lazım döyülsən.

Qapını belə açır, açanda görür arvad təndirdə çörəh bişirir. Deyir:

– A Xanımca bajı, Həsənqulu dayı öydədi? – deyəndə arvad təəccüblənir. Bulara gəlif-gedən qonaxları tanıyırdı, bu təsadüfən gələn qonaxları tanımır. Həm də belə dəqiq danışdığı üçün deyir: "Yəqin, kişinin dosdarınnandı". Deyir:

– Gələr indi. Qapıda niyə durursuz, gəlin içəri, Həsənqulu dayı gələr indi.

Deyir:

– Xanımca bajı, bizə Həsənqulu dayı lazımdı.

Deyir:

– Gəlin da, gələjəh. Gəlin, gəlin.

Arvad çörəyin ikisini bişirif qoymuşdu, təndir çörəhnən dolu idi. Qonax gəldi, əl-ayağa düşür ki, tez bişsin. Qonaxlar keçir içəri, bu qonaxların altına döşəh qoymaxdan ötrü gəlir öyə, iki dənə də çörəyi götürüf gəlir. Çörəhləri sərir, buların altına mitəkgə qoyur, yasdıx qoyur. Keşmiş vaxdı yerdən oturallarmış, dirsəhlənif söykənəllərmiş, söhbət eliyəllərmiş. İndi bular arvad bişirif gəlincə hərəsi çörəyin birini yeyir, ajmışdılar. Keşmiş vaxdı, rəvayətə görə, qonax gələndə fətir bişirəllərmiş, bir də çolpa kəsəllərmiş. Arvad tez-tələsih bir

çolpa tutur, qonşuya kəsdirir, bunu burda hazırrıyır, soyutma eliyir. – Dədə-baba fətiri... Təndirin közünü qırağa kürüyüf soora fətiri yaxıf alta, soora közü yaxallarmış, fətir öz xoduna bişərmiş. Fətiri teyxa sütdən, şəkərdən yoğurallarmış. Fətiri həmişə bişirməzlərmiş ey. Fətiri ən əziz qonax gələndə bişirəllərmiş. – Bu fətirin hamısını hazır eliyir, aparıf təndirə yaxır, gəlif çolpanı qoyuf pörtdədir. İndi bular fikirrəşillər ki, kişi gələjəh, buları tanımıyajax axı. Arvad da tez-tez baxır:

– A bala, mən sizi tanımıram. Evlatdarım, siz kimsiniz?

Deyir:

– Həsənqulu dayının dosdunun uşaxlarıyıx.

Həsənqulunu heç bular görsələr, tanımazdar, Həsənqulu da buları tanımır. İndi fikirrəşillər ki, kişi gələndə biz özümüzü nətər tanışlıx verəh. İndi Keçal Kosaya deyir ki, bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– Həsənqulu dayı gələndə dalaşax, heş yadına düşməsin bizdən kim olduğumuzu soruşmax. Dalaşax, elə bizi aralaşdırmağın hayına qalsın. Bizi çölə çıxarmax isdiyəjəhlər ki, dalaşmıyax bir-birimizlə. Hansımız çölə çıxsax, içəridə qalan o çolpanı da, fətiri də götürüf çıxsın, qaçax gedəh.

Baxırdılar, gördülər arvad fətiri bişirif gətirif mitilin arasına qoydu. Qayda idi, mitilin arasına qoyurdular ki, isdi qalsın, o isdi hava fətirin içində çiylih qoymasın. Çolpanı da bişirif gətirdi qoydu yükaltının altına. – Mıxça çalırdılar, ağac qoyurdular üsdünə, qarşısına pərdə çəkirdilər, yük yığırdılar. Mitili, fərməci, sandığı, kimin nəyi vardısa yığırdılar üsdünə, altı qalırdı boş. Şor-pendiri, yavannığı onun altına yığırdılar. – Axşam düşür, arvad deyir:

– Həə, Həsənqulu dayınız gəldi.

Həsənqulu artırmaya çıxanda deyir:

– Arvad, deyəsən qonağın var.
Deyir:
– Yox, mənim qonağım döylü, sənin qonağındı.
Baxır, tanımır. Deyir:
– Aaz, bular kimdi?
Deyir:
– Dosdarının uşaxlarıdı.
Kişi gəlir girir, nə qədər baxır, tanımır bunnarı. Artıx qarannıx düşmüşdü. Kişi əl-ayağını yuyur, gəlir oturur. Bular da çörəhdən-zaddan yeyif, artıx yeməyə ehtiyac yoxdu. İndi bular yeməyi götürüf qaşmax isdiyillər. Kişi ayannan-bayannan söhbət eliyir, hərrənir söhbət gəlir soruşmağa ki, a bala, mən sizi tanımıram, hansı dosdarımın uşaxlarısız deyən kimi, Keçal Kosanın sağ tərəfində oturmuşdu, sağ əliynən Kosanın başına bir qapaz vurur.
– Kopoğlu, mən, dədəmin dosdunun öyüdü gəlmişəm, sən niyə gəlmisən?
Kosa da deyir:
– Kopoğlu özünsən, mən də sənnən gəlmişəm.
Dartma yaxam cırıldı, tutaşıllar. Arvad da baxır, kişi də. Deyir:
– Ay arvad, bular kimdilər, bular hardan gəldi çıxdılar bu öyə? Qonum-qonşunun yanında bizi biyabır elijəhlər ki, sizin öyünüzə qonax gəlir, qonax öyünüzdə dalaşır. Belə biyabırçılıx olar?
İndi birini arvad tutur, birini də kişi. O ordan hücum eliyir – cavan adamlardı, bular yaşdı, acizdirlər buların əlində. Kosa yavaş-yavaş dala durur ki, qapıdan bunu itəliyif çölə çıxarsınnar. Çölə çıxan kimi Keçal qapının cəftəsinnən dartır ki, açsın, arvad qoymur. Kişi də çöldə tutuf Kosanı. Qəfildən arvad qapını açıf çıxır çölə. Qapını bərk tutur, buraxmır. Qalıf indi Keçal içəridə. Kosa çöldən deyir:
– Tez ol, kopoğlu, tez ol, çıx!

Yəni yığışdır çıx ey, çolpanı, fətiri göt, çıx. İndi Keçal yekə fətirdi, fətiri harasına qoyur, sığmır. İçəridən deyir ki, yekəbaş, başı heç hara sığmıyan kopoğlu. Yəni, fətir yekədi. Parolu deyir ki, hara qoyuram görükür da. İndi yadına düşmür qırıxlamax. Kosa çöldən deyir ki, para-pırtıx, qarnı yırtıx kopoğlu, tez ol, çıx. Yəni qırıxla qoynaa-qoltuğaa doldur ey, deyir. Yadına düşür ki, ə, bunu qırıxlamax... Kəsir bunu qırıx-qırıx eliyir, doldurur cibinə, qoynuna, qoltuğuna. Çolpanı götürür. Qapını necə çəkirsə, arvad gəlir durur öyün ortasında. Çöldən tutmuşdu arvad, dəstəhdən. Çıxan kimi bu da kişinin sinəsinə bir yumrux, kişi bunu buraxır. Kosa qaçır, Keçal da onu qovalıyır. Kişi dallarıncan bir az gedir:

– A bala, a bala.

Görür getdilər, qayıdır gəlir, deyir:

– Ay arvad, bu nə bəla idi gəldi bizi tapdı?

Deyir:

– A kişi, nə bilim, çörəh bişirdiyim yerdə hər ikisi də gəldi, sənin adını çəhdilər, mənim adımı çəhdilər, uşaxların adını çəhdilər, dedim yəqin tanıyırsan.

Deyir:

– Aaz, hardan tanıyıram, yaxşı oldu getdilər. Qoy bizdən aralı getsinnər, qırsınnar orda bir-birini. Aaz, bəri gətir görüm.

– A kişi, nəyi gətirim, ey? Allah onnarın axırına çıxsın, yaxşı fətir bişirmişdim, çolpa soyutması eləmişəm, çıxıf getdilər, yemədilər.

– Aaz, cəhənnəmə yeməsinnər, gətir yeyəh.

Arvad əlini atır, fətir yoxdu, əlini atır qazana, çolpa yoxdu.

– A kişi, vallah, möcüzədi! Vermədim yeyələr, amma yoxdu, tapmıram.

Deyir:

– Aaz, səs eləmə, qoy bəla uzaxlaşsın, elə bu dava fətirnən çolpanın davası imiş.

Keçalnan Kosa fətirnən çolpanı götürüf bir qədər yol gedillər. Başqa bir şinniyə[28] çatanda buların gənə, deyir, çörəyi qutarmışdı.

Görüllər ölkənin padşahı yazıf yapışdırıf ki, mənə iki nökər lazımdı. Deyillər ki, gedəh bir-iki gün də nökərçilih eliyəh, özümüzü düzəldəh, soora yolumuza davam eliyəh. Elanı oxuyullar, görüllər yazılıf ki, bir nəfər lazımdı bir inəyi otarajax, bir nəfər də təhcə padşaha çay verəjəh, ayda onnux qızıl alajax. Fikirrəşillər ki, bunnan asan iş olar? Bir inəhdi da, quyruğunnan tut qabağa qat, otdasın, axşam da gətir. Bu birisi də fikirrəşir ki, padşahdı da, apar çayını ver, otur yanında, içəndə gəl birini də apar. Bu, asan işdi.

Gəlillər, deyillər ki, biz nökər ola bilərik. Padşahın qulluxçuları var idi. Mala baxan ayrıdı, çay gətirən ayrıdı, imarətin içinə baxan ayrıdı. Şərtdəşillər, Keçal inəyə gedəsi olur, Kosa çay verəsi olur. Bijdih işdədir ki, inəh ayna-bayna gedə bilər, amma padşah nağarajax, oturuf orda, aparıf bir isdəkan çayını verəjəh.

Səhər xəzinədar Keçalı çağırır ki, inəyin qapısını açıram, apar otar. İnəyin ordan çıxdığını Keçal görmür, o cür iti sürətlə çıxır. Bu minvalla bütün günü padşahın o teritoriyasını, sahəsini bu inəh gəzir. Padşah inəyidi, yediyi xurma, kişmiş, otu neynir. Gəzir, bu da bunun dalınca bütün günü yüürür. Bu burda inəyi otarmaxda olsun, görəh Kosa nağarır.

Padşah oturduğu otağa qalxmax üçün Kosa qırx pilləkən çıxırdı. Bir isdəkan – Səlyan isdəkanında çay götürür qırx pilləkən çıxır, aparıf padşahın qabağına qoyanda bir qonax gəlir. Padşah deyir:

– Çay gətir.

---

[28] Şinnik – kənd, oba

Bir isdəkan da dolduruf gətirir, bütün günü qırx pilləkəni çıxıf-düşür, çıxıf-düşür, çörəh yeməyə də imkanı olmur. Keçal da bütün günü yüürür. İkisinin işi bu fasondu. İndi axşam Keçal fikirrəşir ki, ə, sənə nə var, bir isdəkan çaydı da, qoy padşahın qabağına, özün də otur onun yanında. Bu da deyir ki, nə var, bir dənə inəhdi da, tut quyruğunnan, otar. Niyə getmədim mən? İndi işlərini dəyişməh isdiyillər. Kosa deyir:

– Keçal, işin nətərdi?

Deyir:

– Ə, nətər olajax, apardım inəyi sahəyə, tarlaya buraxdım, inəh axşamacan quyruğunu atıf belinə, yeyif yatıf, mən də uzanmışam. Pis elədim.

Deyir:

– Niyə?

Deyir:

– Ə, gərəh bir taburetka da götürərdim, kitab da götürərdim, oxuyardım, bekar orda qəribsəmişəm. Sənin işin nətərdi?

Deyir:

– Elə mənim işim də rahatdı. Bu gün axşamatan elə başımı qoyuf yatmışam. Nə var, padşahdı, qabağına çay qoyuf yıxılıf yatmışam da – deyəndə Keçal deyir:

– Kosa, gəlsənə işimizi dəyişəh?

Deyir:

– Dəyişəh deyirsən, dəyişəh da.

Dəyişillər. Keçalın indi bijdiyinə bax ey, Kosaya bir taburetka, bir kitab şəlliyif. Kosa getdi inəyə. Keçal da durub gəlir. Axşamatan qırx pilləkən aşağı-yuxarı çay daşıyır. İkisi bir gəlmir ey adamın. Birinin qabağına çay qoyur, elə başını qaldıranda biri gəlir. İndi axşam düşüf, hər ikisi işdən halıdır. Görüllər ki, çətin işdi, işdəməh mümkün döylü. Asand iş olsaydı, bu qullux yiyəsiz qalarmı? İndi deyir ki, gəl qaçax – Kosa Keçala deyir. Deyir:

– Bunun bircə yolu var, şərt kəsmişik axı, bizi öldürəllər, qaçax.

İndi qaçmağa başdıyanda deyir ki, ə, bilirsən nə var? Deyir:

– Yox!

Deyir:

– Səni, o inəh maa dağ çəkif, – Kosa deyir.

Kosa fikirrəşir ki, Keçalı inəyin yanında qoysun getsin, səhər bunu öldürsün padşah. Deyir:

– Nədi?

Deyir ki, inəyi kəsəh, ətinnən götürəh yolda yeməyə. Nə yeyəjeyih yolda? Pəyənin üsdündə baja var idi. Kosa Keçala deyir ki, sən gir. Uzun bir kəndir götürüflər. Kosa deyir, sən gir, Keçal deyir, sən gir. O, buna deyir, bu, ona deyir. Keçalı endirəsi olur. Keçal deyir ki, nəysə əməl var burda, bunu qoyuf gedəjəh. Kəndiri bağlıyır ortasına, bunu sallıyır aşağı. Keçal orda inəyi yıxır, qanrıf kəsir, dərisini soyur tələsik. Buddarını, bardon[29] var idi, bardona yığır. Deyir ki, kəsdin?

Deyir:

– Hə.

Deyir:

– Ətinnən qoy çuala, çəkim çölə, qıçalıyım, soora səni çəkim, gedəh.

İsdiyir əti götürüf gedə, bu orda qala. İndi bu nağarır? Budun birini də kəsir, ətini yığır çualın içinə, budu çöörür üsdünə, deyir:

– Hə, di çəh.

– Oldu.

Hıqhahıq Kosa bunu çəkir, içində də Keçal, üsdündə də ət, çıxardır. Çıxardan kimi kəndiri açıf tulluyur əynə, çualın ağzını belə eşif burmacdıyır ki, əlinə yaxşı yatsın. Atır dalına, deyir:

---

[29] Bardon – səbət

– Keçal, di qal orda.

İsdiyir ki, hava işıxlanınca bu ölkədən keşsin o biri ölkəyə ki, bunu tutmasınnar. O qədər gedir ki, gejəynən, hava işıxlananda, gün təzə çıxmışdı yerinə, keçir o biri padşahın torpağına. Keçəndə çuvalı qoyur yerə, alnının tərini silir, deyir ki, ay yazıx Keçal, bu gün sənin toyundu. Əti Keçal üsdünnən aşırır, deyir:

– Nə toydu, ə, toy eliyillər maa?

Baxıf görür ki, Keçal da gəlif.

Keçalnan Kosa həmişə söhbətlərində bir-birinə heylə dav gəlillər[30]. Söhbət burda qutarır. Ordan aynası hara gedir, nələr olur, məlumatım yoxdu.

## 50. ŞƏRİKLİ KÖMBƏ

Kişi, deyir, ölürdü, aman-zaman bir oğlu var idi. Oğlunu çağırır, vəsiyət eliyir. Deyir:

– Oğul, dəyirmana gedəndə heş bir kosanın dəyirmanında dən üyütmə.

Kişi bir gün ömrünü tapşırır gedir.

Oğlu bir gün dəyirmana gedəsi olur. Gedir dəyirmana, görür dört kosadı, yəni dört tükü var. Deyir:

– Hə, atam demişdi axı kosanın dəyirmanında dən üyütmə, gedim o biri dəyirmanda üyüdüm.

Gəlir ikinci dəyirmana, görür üç kosadı, üç tükü var. Gəlir o biri dəyirmana, görür iki kosadı, o birinə gəlir, görür bir kosadı. Deyir:

– Olmadı.

Keçir axırıncıya, görür zividi[31] kosadı. Deyir:

---

[30] Dav gəlmək – kələk gəlmək

[31] Zividi – tamam, başdan ayağa

– Gənə nisbətən gedim o dört kosanın dəyirmanında üyüdüm da, daa dəyirman yoxdu.

Gəlir dörd kosanın dəyirmanına dəni üyüdür. Dağarı var idi, dağarda aparmışdı. Dağar mal dərisinnən hazırlanmış qab idi. O vaxtdar meşoğ olmuyuf, mal dərisinnən tikif içində aparıllarmış. Bu da dağarda aparmışdı. Meşoğu əvəz eliyirdi. Dağar da yarım pud – səkgiz kilo tutardı. İndi dən orda üyünür, bular oturuflar, ortada ojax yanırdı. Su dəyirmannarının ortasında ojax olardı. İndi daşın birinin üsdündə Keçal oturuf, birində dəyirmançı Kosa oturuf. Kosa deyir:

– Keçal, gəl bir dənə tapmaca deyəh, kim tapmasa...

Kömbə bişirillər. Görürsən, kömbə yadıma düşmür, soradan yadıma düşür. Qayıtdım dala. İndi axşam düşüf, Kosa başdıyır ki, Keçal, gəlsənə kömbə bişirəh? Ojağın közünü qırağa sivirif kömbə yaparmışdar. Soora külnən üsdünü örtüf köz yığallarmış, kömbə bişərmiş. Deyir:

– Nolar.

Deyir:

– Onda unu sənnən, urvası mənnən – Kosa deyir Keçala. Deyir ki, bir dağar unum var, onnan da xamır yoğurajam. Urvası mənnən, unu sənnən. Deyir:

– Nolar, onda o dəyirmanın dalınnan iki ovuc un gətir.

Keçal gətirif iki ovuc un qoyur. İndi kosa yoğurur, suyunu o qədər tökür ki, xamır duru olur, un yığışmır bir yerə. Deyir:

– Yaxşı, indi urva lazımdı. Keçal, urva gətir.

Keçal gedir öz ununnan urva gətirir. Bu urva gətirdihcə Kosa sudan əlavə edir, olur duru. Nəhayət, un qurtarır, axırda dağarı gətirir. Dağarın gerisinnən belə tıkqıldadır, təmiz içini çırpır ki, daha mənim unum qalmadı.

Deyir:

– Gənə durudu, onda ordan sən maa iki qısma un gətir, sən maa iki abbası boşdu qalarsan.

Hələ xamır yoğurullar ey, borc başdadı. Keçal ordan iki qısma un gətirir, fətiri bişirillər. Fətiri bişirir, deyir, söykəyillər kötüklərə. Ojağı yekə kötüklərdən qalıyırdılar. Qıpqırmızı qızarıf, deyir, fətir. İndi heş birinin ixdiyarı yoxdu fətirdən kəsə yeyə. Kosa deyir:

– Keçal, püşk atax, görəh fətir kimə düşür.

Deyir:

– Atax.

Deyir:

– Keçal, de.

Deyir:

– Yox, sən de.

Kosa deyir indi. Deyir ki, getmişdim bağa. Bağda uşaxları mən qoydum, qayıtdım gəldim arana, həyətin meyvəsini yığmağa. Qozu çırpdım. Qozu çırpannan soora qayıtdım belə baxdım, gördüm qozun təpəsində bir qara qoz var. Yağmışdı, deyir, yer palçıx idi. Palçıx kəsəyini götürüf atdım, getdi yapışdı qozun təpəsinə. Orda böyüh bir sahə əmələ gəldi, mən çıxdım oranı şumladım, taxıl səpdim. Nəhayət, yaxşı taxıl bitdi. Çıxdım biçməyə. Elə çini götürüf biçməyə başdıyanda bir tülkü çıxdı. Çini atdım tülküyə, çin ilişdi tülkünün quyruğuna. Tülkü qaşdı, çin bişdi, mən yığdım. Tülkü qaşdı, çin bişdi, mən yığdım. Bax, Keçal, gətirdiyin un var ey, bax, o un həmin taxıldandı. İndi sən de.

Deyir:

– Mən də getdim bosdana. Bosdanda gəzirdim. Gördüm böyüh bir qarpız var. Əlimdə qəmə var, uzun bıçax. Bıçağı uzatdım ki, görüm yetişif, yoxsa yox. Bıçax getdi qarpıza. Əyildim bıçağı çıxartmağa, başım da girdi.

Deyir ki, ona nə var, bağlamasını açır. Deyir ki, gəlirsən öyə, görürsən qapı bağlıdı, haçarı götürüf salırsan qıfıl yerinə, açırsan, qapını itəliyən kimi qapı gedir, sən də girirsən içəri. Bu aşdı, amma Kosankı bağlı qaldı. Fətir də qaldı Kosaya.

Keçal durur sallana-sallana gəlir öyə. Anası gözdüyürdü ki, un gətirəjəh, çörəh bişirəjəh da. Öydə çörəh yox idi. Arvad görür ki, yazıx belə söylənə-söylənə dağar çiynində boş gəlir evə.

– Ay oğul, unun hanı?

Deyir:

– Köpəh qızı, iki abbası hələ boşdu qalmışam.

Sabahları tezdənnən kosa qapını kəsir.

– A bajı, keçal hanı?

Deyir:

– Öydədi.

– Deynən çıxsın.

Deyir ki, səhər gəl. Səhər-səhər, on gün-on gün uzadır, iki abbası tapmır buna verə. Nəhayət, bir gün deyir:

– Ana.

Deyir:

– Hə.

Deyir:

– Bu kopoğlu mənnən əl çəhmijəh, bəlkə, belə əl çəkə. Mən özümü vurajam ölülüyə, gələndə ağla, üzünü-gözünü, saçını yolginən ki, keçal ölüfdü. Qoy kopoğlu çıxsın getsin.

Bu uzanır, anası bunun üzünü ölü kimi örtür, guya ölüfdü. Kosa gəlir Keçalı çağırır. Deyir:

– Ay bala, başın sağ olsun, Keçal öldü beyjə. Yer getginən daa, Keçal ölüf.

– Hara gedirəm, ay ana! Bizim şərtimiz var.

Deyir:

– Nədi?

Deyir:

– Şərtimiz belədi ki, o öləndə mən onu yuyum, aparım basdırım, mən öləndə o yusun, aparsın basdırsın. İndi o ölüf, mən onu yuyuf, aparıf basdırmalıyam. Hara gedirəm?

Kosa böyüh qazan qoyur, qazanı suynan doldurur, ojax qalıyır. Ojağın üsdünə qazanı qoyur. Su, deyir, indi pakqapax qaynıyır. Keçal atdan-atdan baxır, görür ki, su qaynıyır. Anası gəlir, Kosanın eşitməyəcəyi səsnən deyir ki, a bala, dur, Kosa səni bişirəjəh.

Deyir:

– Ay ana, hardan alım iki abbasını verim, qoy nağarır qayırsın, dözərəm.

Kosa bunu lüt soyundurur, aparır yuqat taxtının üsdünə. Ayaxdan başdıyır şakqaşak qaynayan suyu düz başınacan tökür. Yuyur bunu, qəbirsdannıxda kümbəz varmış, aparır bunu qoyur kümbəzin içinə. Başdıyır buna qaroul çəhməyə. İnanmır da ölüf. Qaroul çəkəndə qırx nəfər qaçax gəlir. Hansı padşahınsa xəzinəsini talan eləmişdilər, kalan qızıl gətirmiş-dilər. Dolullar kümbəzə. Kosa da qıraxdan pusurdu, Keçalı da uzadıf kümbəzin ortasına. Bular gətirdihləri qızılı töküllər, belə bir əmbiz[32] əmələ gəlir. Bir dənə də əyri qılınc gətirmiş-dilər, qılıncı da qoyullar böyrünə. Qaçaxların başçısı başdıyır bölməyə. Bölür. Deyir, bu sənin, o sənin. Qırx yerə bölür. Birinə, deyir, bir qızıl çatışmır. Çatışmayanda bu qılıncı götü-rür əlinə, deyir ki, bu qılıncı verəjəm o bir qızılın əvəzinə, bu şərtnən ki, kim bu meyidin ortasınnan vurub kəssə, qılınc onunkudu. Keçal bilirdi ki, Kosa bunu pusur. Elə qılıncı qaldırıf endirməh isdiyəndə Keçal qəfildən çığırır:

– Kosa, qapını kəs.

Kosa qapını kəsdirəndə bu qaçaxlar gətdihləri sursatı da qoyuf qaçıllar. Qaçıf gedillər. Kosa girir içəri, indi ikisi bölür. Qaçaxların biri çox özünnən deyən imiş. Deyir:

– Qayıdım görüm bu nə hak-hesabdı.

---

[32] Ənbiz – qalaq, topa

Gəlir indi pusa-pusa. Görür iki nəfərdi, qızılı bölüllər. Qutarannan soora Kosa deyir:

– Keçal.

Deyir:

– Hə.

Deyir:

– Keçal, iki abbasını ver.

Qaçağın biri əyilif qapıdan belə baxırdı ki, görsün bular nə cür adamdı, keçalın gözü bunu almışdı, qəfildən əlini çalır, bunun papağını başınnan alır, tulluyur Kosaya. Deyir:

– Ala, bu da sənin iki abbasın.

Bu adam qaça-qaça gəlif o birilərinin yanına, deyir ki, ə, qəbirsdannıx əhli nətər dirilifsə, birinə iki abbası çatmamışdı, papağımı da aldılar verdilər ona, qaçın.

Sabah açılır, hər ikisi duruf qızıllarını, varlarını yığışdırıf gəlillər evlərinə.

## 51. MOLLA İLƏ KEÇƏL

Keçal camaatın malına gedirdi. Bir gün Keçal gətirif malı çayın qırağında arxaca qoymuşdu. Arvatdar paltar yuyurdu. Kəntdə qonum-qonşu paltar yuyuf gətirif suya çəkirdilər. Keçal oturuf qıraxdan baxır, arvatdar çırmanıf buratan, dizdən yuxarı. Mollanın arvadının bədəni Keçalın xoşuna gəlir. İşdəməmiş molla arvadı idi da! Nağarırdı ki? Bədəni dümağ, qəşəh, gözəl. Sabah Keçal getmədi naxıra. Malı da, adətən, arvatdar qoşardılar naxıra. İndi arvatdar gətirif malı qoşanda görüllər Keçal getmir. Keçalın gəlif anasını çağırıllar:

– Keçal hanı, niyə getmir mala?

Deyir:

– Keçal deyir getmiyəjəm mən.

– Aaz, niyə?

Deyir ki, Keçal deyir mollanın arvadı bir öpüş versin, gedim. Mollanın arvadına deyillər:

– Aaz, nə biləjəh molla, bir öpüşdü, ver getsin, qalmışıx malın əlində.

Deyir:

– Aaz, molla məni öldürər, sən nə danışırsan! Verə bilmərəm, bajı.

İki gün, üş gün, beş gün... Keçal mala getmir. Bu arvatdar yığışıllar mollanın arvadının başına.

– Aaz, topuğunnan-zadınnan bir öpüş ver, bu kopoğlu çıxsın getsin mala. Bir yer tap, orda ver, öpsün.

Deyir:

– Yaxşı, deyirsiz, deyirsiz, onun üzü qara olsun. Axşam deyin gəlsin girsin o toyuğun hininə, gedərəm qıçımdan, topuğumdan, bir yerimdən-zadımdan öpsün, təki getsin mala.

Deyir, Keçal gəlifdi erkənnən girif toyux hininə, gizdənif orda, arvadı gözdüyür ki, arvad gəlsin, öpsün. Mollaların hamısı arvadı gürgəliyəndilər[33], yəni tam sərbəst buraxmıllar. Molla axşam gördü, səni, arvad yaman əl-ayağa düşüf. İndi arvad tələm-tələsih düzəldir mollanın çörəyini, surfasını, çayını-zadını ki, tez getsin Keçalı yola salsın dana. Birdən p..un üsdü açılar, molla gedif toyuğa baxar, nağarar. Mollanın yanına tez surfa salır, çörəh qoyur, çayını gətirir, nə lazımdı qoyur. Molla görür, səni, həmişə bir saata surfa açılmırdı, indi arvad beş dəyqəyə surfa aşdı. Molla görür ki, arvad getdi, düşür arvadın dalınca. Görür arvad toyux hininə tərəf gedir, molla da gedir. Arvad çörüküf görür ki, molla gəlir, daa yaxınnaşa bilmir. Molla çatır:

– Arvad, burda nağarırsan?

Deyir:

---

[33] Gürgələmək – pusmaq, izləmək

– Heş nə, toyuğumuza baxırdım da!

Toyuğa baxıram deyəndə Keçal gizdənə bilmir. Molla baxır, görür Keçal toyuğun içində. Keçal da görür molla gəlir, bir saz xoruz varmış, xoruzu tutur, basır qoltuğuna. Molla gəlir:

– Ə, Keçal, burda nağarırsan?

– A molla, niyə ajığın tutur, xoruzumuz yad gəlif, onu tutuf aparıram.

– Ə, xoruzunuzun qabağında dura bilmirsən? Göt xoruzu da, rədd ol.

Mollaan bir xoruzunu da vuruf qoltuğuna götürüf gəlir.

İki gün belə keçir. İndi deyillər ki, aaz, noldu, sən bir yer tapıf bir öpüş verə bilmədin, bu gedə mala?

Deyir:

– Aaz, öy tikdirmişik istifadəyə verilməyif, indi-indi taxta döşətdirmişih, ora girmirih heç. Gəlsin girsin ora, yaxındı, elə bu öydən keçim o öyə, bir yerimdən öpsün, cəhənnəm olsun getsin mala.

Keçal gəlir girir öyə, arvad da bilir Keçalın gəldiyini. Tez mollanın çay-çörəyini verif keçir öyə. Arvad keçən kimi molla da bunun dalınca keçir ki, görüm arvad niyə belə eliyir. Keçal görür ki, molla gəlir. Keçal başdıyır öyün bu başınnan addımlamağa:

– Bir, iki, üç – addımlıya-addımlıya gedir o başa, qayıdır gəlir bu başa. Molla baxır, görür Keçal heş dayanmır, elə bir, iki, üç ölçə-ölçə gedir o başa, qayıdır gəlir.

– A Keçal, nağarırsan?

– A molla, ajığın niyə tutur, öy tikdirəjəm, deyirəm görüm neçə metrdi.

– A kopoğlu, gərəh mənim öyümün üsdündə tikdirəsən?

– A molla baba, ajığın niyə tutur, sənin öyünün üsdündə tikdirmə deyirsən, tikdirmərəm.

Gənə baş tutmur. Gənə beş-altı gün keçir, mala gedən yoxdu. Arvadı təmiz əldən salıllar, arvad axırda deyir:

– Aaz, mümkün döyül ey, bu kopoğlu imkan vermir. Gəlsin öyə, girsin yükün dalına.

Yükün qabağına da pərdə salardılar ki, yük görsənməsin. Ora sandıx qoyardılar, fərməc qoyardılar, mitil yığardılar, qabağına da pərdə tutardılar ki, bu əlamətdər görükməsin. Un çuvalı qoyardılar, hətta yükaltı olardı təxminən qırx santı yerdən hündür, mıxça çalardılar, üsdünə ağac düzərdilər.

Gözdüyür burda. Camış da təzə doğuf, balasını gətirif bağlayıfdılar yükün qabağına ki, kəlçə üşüməsin. Arvad girəvə axtarır ki, Keçalı yola salsın. Molla yerinnən durmuyuf hələ. Molla çığırır ki, ağız, peçi tez qala, üşüyürəm, dururam geyinəm.

– Yaxşı, yaxşı.

Qalamır. İndi girəvə axtarır ki, molla yorğanı başına bürüsün, nağarsın, bu, işini görsün. Molla hirsdənif:

– Donuz qızı, sənə demədim peçi qala!

Arvad odunu gətirif qoymuşdu, amma peçə yığmamışdı hələ. Odunun birini götürür atır arvada. Salva dəyir kəlçənin təpəsinə. Təpəsinə dəyən kimi kəlçə partdıyır. Molla görür, ə, kəlçə ölür, tez pıçağı çıxardıf boğazını kəsir, qoymur mırdar olmağa. Keçal görür, paho, iş uzandı, molla kəlçəni kəsdi, camaat yığışajax bura, ət almağa gələjəh. Bu, burda nağarsın? Keçal qəşəh durur, teşti götürür, teştin ağzını unnan doldurur çıxır qırağa, durur mollanın böyründə. Molla kəlçəni soyurdu, görür nəsə böyründə ayax var. Başını qaldırıf görür Keçal duruf başının üsdündə, əlində də teşt.

– Ə, Keçal, burda nağarırsan?

Deyir ki, molla baba sağ olsun, gördüm kəlçəni kəsirsən, pulumuz yox idi, un götürüf gəlmişəm ət almağa.

– Ə, mən indicə kəsmişəm. Ə, nə bilirsən kəsmişəm, un götürüf gəlmisən? Sənin unun gözəə girsin, sənə ət-zad satmıram, unuu götür, irədd ol!

– Molla baba, ajığın niyə tutur, satmırsan satma, unumu da götürüf çıxıf gedərəm.

Bir teşt də un burdan götürüf gəlir. Camaat tökülüf, nəhayət, tənbeh eliyif Keçalı göndərir mala.

## 52. ÜZLÜ QONAQ

Qış idi, dağ zonalarında qış aylarında iş olmur. Bununla əlaqədar olaraq dağ zonasınnan bir nəfər aran zonasında olan dosdunun evinə qonax gəlir. Fikirrəşir ki, yayda bu, taxılını bişdirəjəhdi, biçinçi axtarajaxdı, elə mən qalım orda, biçim. Sentyabrdan gəlif oturuf taxıl biçinini gözdüyür ey. Belə qonaxdan danış. Gəlir, nəysə.

– Salamməleyki.

– Əleykimətsalam.

Xoş-beş, filan. Qonaxdı gəlif, qonağa deməh olmaz ki, niyə gəlmisən. Bir ay sərasər qalır burda. Bu gələn günü kişi dəyirmannan gəlir. Kəli qoşullar arabaya, bir çual həşdat kilo buğda tutardı, unu kişi dəyirmannan gətirir. Deməh, qonax gələn axşamı arabanın dalını verir seyvana, düşürür qoyur taxtın üsdünə.

– Qonax, xoş gəlmisən, beş gəlmisən.

Görüşüllər bunnar. İndi bu həştad kilo nə qədər gedir, on beş gün gedir, bir ay gedir deyə bilmirəm. Bir axşam söhbət eliyillər, söhbət azalmışdı da. Bir söz deyəndə inamsızdıx yaranmışdı, keşmişdilər yalana. Ev yiyəsinin qonağa münasibəti bir az soyuxlamışdı, qonağın da həmçinin. Nəysə, bu minvalnan axşam olur, arvad daxil olur içəri, deyir:

– A kişi, sabah dəyirmana getməh lazımdı ey, unumuz qurtarıf.

Qonax indi iki ay qalıf, üç ay qalıf... Həşdat kilo un qutarıf deyəndə kişi deyir ki, yaxşı, arvad. Yadına düşür, mən o bir çual unu gətirif düşürəndə bizim qonax gəlif?

Deyir:

– Düşür.

– Nətər oldu bəs qutardı? – Yəni un qutardı, bizim qonax getmədi. – Hazırra – yəni taxılı xəlbirdən keçir, təmizdə, – səhər aparıf bir çual da üyüdərəm, eybi yoxdu.

Arvad gedir. İndi söhbət eliyillər. Söhbət qutarıf yalan-gerçəh, danışılanın çoxu inamsızdıxdan irəli gəlir. Ev yiyəsi deyir:

– Qonax, sabah getdiyin o yol hakqı, filan iş filandı.

Sabah getdiyin yol hakqı, yəni çıx get sən də, mənası budu. Qutarannan soora qonax deyir:

– Xozeyin, bax, indi dəyirmana gedəssən ey, səhər.

– Hə.

– Unu yığıf gətirəssən ey, bir çual.

– Hə.

– Bax, onun axır kökəsi hakqı, filan iş filandı.

Yəni onun axır kökəsinətən burdayam. İndi bu əlamətdərə keçiflər. Kişi daa bu qərara gəlif ki, qonax evdən çıxsın, qapını bassın bağlasın ey, içəri buraxmasın. Qonax da duyuf bunu, çıxmır.

Yaz açılıf da, taxıl bitif göyərif, taxıl başdıyıf baş aşmağa. İndi fikirrəşir ki, nağarım qonax çıxsın? Deyir:

– Hə, hopbanax.

Özü qərar verir ki, hopbandırım qonağı, qapının ağzına tərəf hopbansın, qapıdan itəliyim çıxardım çölə. Oturmuşdular. Deyir:

– Qonax.

Deyir:

– Hə.

Dinməzcə oturuflar, söhbət qutarıf. Deyir:

– Qonax, gəlsənə hopbanax?

Deyir:

– Əşi, qonax öy yiyəsinə tabedi. Sən nə deyirsən onu eliyəh, mən nə deyirəm saa.

Deyir ki, qonax, dur, ölçü vahidi qoy, hopbanax. Deyir:

– Vallah, qonax öy yiyəsinin nökəridi, nə desə eləməlidi. Nə deyirsən onu eliyim, amma ölçü vahidini özün qoy.

İndi ev sahibi durur evin ayax tərəfinnən başdıyır addımlaya-addımlaya düz gedif çıxır evin o biri başına, olur altı addım. Deyir:

– Altı addım oldu?

Ordan üç addım sayıf gəlir mərkəzə.

– Üç addım o tərəfə, üç addım da bu tərəfə, ortadımı bura?

Deyir:

– Hə.

Deyir:

– Dur gəl.

Gəlir. Deyir:

– Di hopban.

Qapı tərəfi gösdərir. Deyir:

– Ay ağa, sən nə danışırsan, sən dura-dura mən hopbanarammı? Ev yiyəsi sənsən, böyüh sənsən, sən hopban.

Bu yazıx da mənim kimi hopbana bilmirmiş heç. Canını dişinə tutur, ayağının ikisini də vuruf yerə hopbanır, qapıdan xeylağ bəri düşür. Ayağını bir addım qabağa atır ki, oranı ölçü təyin eləsin. Amma bərki ayağının üsdünə düşmüşdü. Bir addım qabağa atır ki, mən bura. Ayağı yerə düşən kimi, qabaxkı ayağının üsdünə qalxır. Gənə qapıya tam çatmır, qapıdan bəri düşür. Fikirrəşir ki, qonax bunu ötməh üçün bir

az irəli düşər. Qapıya yaxın olar, itəliyif çıxardar. Qonax da belə baxırdı, deyir:

– Sən ora?

Deyir:

– Hə.

Deyir:

– Nolar.

Qonax da ayağını cüt vuruf yerə sıçrıyır evin o başına.

– Yox, yox, yox, olmadı, olmadı, bu tərəfə.

– Ay rəhmətdiyin oğlu, ölçünü sən ölçmədin?

– Mən ölçdüm.

Deyir:

– Bölmədin?

Deyir:

– Böldüm.

– Orta döyül bura? Sən oyza hopbanmısan, mən buyza.

Yaz gəlir, bu deyir ki, ay ağa, gedif biçinçi tutmuyajaxsan? Bu qış mən də sizdə olmuşam da. Nə fərqi, taxılı mən biçərəm. Biçin də bilmir ey, bədbaxt oğlu. Heç taxıl biçməyi də bilmirmiş.

– Taxılı mən biçərəm, amma gedim uşağı da gətirim – oğlu varmış dağda. – Gedim götürüm gəlim, ikimiz biçəh da.

Uşağı gətirir ki, bəlkə, uşax bajarır, uşaxdan bir şey örgənsin. Bu da fikirrəşir ki, yaxşı oldu, gedif biçinci axtarmıyajam. Bütün qışı çörəyimi yeyif, hakqını da verəjəm, bir də gedif ikinci adam niyə gəzim? Bunun dilini-zadını başa düşürəm. Deyir:

– Nolar, get gətir.

Gedir oğlunu da götürür gəlir. Bayaxdan bir nəfər idi, indi oldu iki.

Bir gün taxıl yetişif, çıxıllar sahəni gəzməyə. Ev yiyəsi sahəni bulara tanıdır. Bu dərə mənimdi, o dərə mənimdi, yerləri gösdərir.

– Biçərsinizmi?

– Əşi, nə var, arı biçən kimi biçəjeyih.

İndi sabah biçinə gedillər. Deyir:

– Xozeyin, bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– Bizə bir balta lazımdı, bir də bir sijim.

Uzun çatıya sijim deyillər, beş metrdən az olmur uzunnuğu. Bu da iş adamıdı, baltanı gətirir, sijimi də, amma bilmir bunu neynir bu. Fikirrəşir ki, yəqin, lazımdı, isdiyir da. Gedəyə deyir:

– Götür sijimi də, baltanı da.

Götürüllər, kişi aparır buları.

– Hə, buranı biçin, mən də gedim yeməh tədarükü görüm, gətirim burda yeyin-için.

Kişi gəlir yeməh-zad hazırradır. Gəlir görür bu, kəmənd atır. Sijimin ujunu düzəldif bu atır, düşür bir sünbülün boğazına, gedə sünbülün kökünnən bir balta. Bunu görən xozeyin hirsdənir.

– Ə, bu nə biçim taxıl biçməhdi? Bu, kəməndlə nə vaxda biçər?

Görür ki, xozeyin gəlir, tez-tez atır:

– Ə, aşağıdan vur!

Yəni aşağıdan vur bir balta, iki balta. Kişi çatır:

– Ə, bir əlizi saxlıyın, nağarırsız?

Deyir:

– Nağarasıyıx, taxıl biçirih da!

– Ə, heylə taxıl biçəllər?

Deyir:

– Oğul, bilirsən nə var? Xozeynin ajığı tutur, sünbülü iki-iki tut, bir-bir gej olur da. Kəməndi elə atginən iki-iki düşsün kəməndə sünbül. Ağanın ajığı tutur.

Ağa görür səni bular biçinçi döyüllər, avara bir şeydilər. Deyir:

– İsdəmirəm sizin biçini.

Kakraz yaz açılıf, buna lazımdı gedif öz təsərrüfatı ilə məşğul ola. Deyir:

– Neynəyəh, ajığın tutur, tutsun da. Bişmə deyirsən, bişmərih.

Helə çıxıf gedillər.

## 53. YEDDİ KORUN NAĞILI

Yeddi kor yaşıyır bir yerdə, boş səhrada bir kümbəz vardı, o kümbəzdə axşamlıyırdılar. Gündüz olanda hər kor hərəsi bir kəndə gedərdi dilənməh üçün. Korun biri gəlir kəndə, oturmuşdu yolun qırağında. Ömrü boyu diləndiyi bütün pulları, əynində sırıxlı var idi, köhnə sırıxlı idi, sırıxlının pambığını çıxardıf yerinə pulu yığmışdı. Sırıxlı elə heylə pul idi. Hava isdi olduğu üçün yaxasını açmışdı. Bir kasıf olur, isdiyir ki, sırıxlını bunun əyninnən çıxarsın. Örgənif ki, sırıxlının içərisində pambıx yerinə puldu. Gedir bir küpə tapır, dopu deyirdilər o vaxdı. Xəsdəlih-zad dəyəndə qoyardılar o dopunun iki-üçünü, onunla da qutarıf gedərdi. Bu dopudan birini tapıf bu cır arını yığır içinə, ağzını sələliyir. Sələ mal-qoyun gönünnən olan şeydi. Sələynən bağlayır, gətirir. Kora deyir:

– A qardaş, a qardaş.

Ayannan gələndə ayağını yerə bərk vura-vura gəlir ki, guya qaçır bu. Gəlir deyir ki, məni hökumət hərriyir, tutajaxlar məni. Bu qazonnu şeydi, bunu burda saxla, bir azdan soora gəlif aparajam. Amanın günüdü, dəymə ha, gözdə,

oğurradarsan. Tap-tap ayağını yerə vura-vura bir az aralanır bir on metr, oturuf gözdüyür. Kor görür ki, tapbıltı da kəsildi, xışıltı da, bu dopunu verən adam getdi da, uzaxlaşdı yəqin. Tamah buna güc eliyir, deyir:

– Ağzını açım, görüm yeməli şeydisə barmağımı batırım qoyum ağzıma da.

Dopuda nə olar? Ya bal olar, ya da yağ. Bu baxırdı, görür ki, kor yavaş-yavaş əlini aparır dopuya tərəf, ağzını açır, sələni qaldırıf əlini içinə salanda arı qalxır sırıxlının içinnən darışır bunun bədəninə. Bu cır arı bunun bədəninə necə darışırsa bu birinci sırıxlını çıxarır. Orda sırıxlı yada düşürdü? Fırradır özünnən aralı. Elə o saat sırıxlını götürür kasıb. Bu bütün paltarını soyunuf tökür yerə, bunun çığırtısına küçədən keçən bütün camaat tökülür. Hamı bunun halına yanır. Başının tükünün arasına qədər arı dolur. Birtəəri bunu arıdan xilas eliyillər. İndi bu başdıyır paltarını yığmağa, çırpa-çırpa yığır. Maykasını tapır, köynəyini tapır geyinir, rubaşkasını tapır geyinir, nəhayət, keçir sırıxlıya. Sırıxlıya keçəndə sırıxlını tapmır. Gəzir, gəzir, ötənə deyir:

– Mən paltarımın birini tapmamışam, sən Allah, görün buralarda mənim paltarımın biri yoxdu ki?

Paltar nə gəzir, götdü getdi. Aparır qoyur öyə, gəlir. İndi əl çəhmir bunnan. Bu sağ əl çəhmir bu kordan ki, bunun axırına çıxsın.

Axşam düşür, kor durur söyə-söyə, qarğış eliyə-eliyə:

– Sənin küpə verən öyün yıxılsın, yurdun tari-mar olsun, bu nə idi, pulum getdi, canım getdi, malım getdi – danışa-danışa gəlir, çəliyini yerə döyə-döyə. Gəlir girir kümbəzə. Ajıxlanıf, heş nə qazanmıyıf. Hamıdan qabax gəlif, bu da bunun ardınca gəlif oturuf bunun böyründə. Elə bu söyür burda. Bu bilmirdi burda neçə kor var. Bir az aradan keşmişdi, görür ki, bir kor da gəldi. Bir az aradan keşdi bir kor da gəldi, yeddi kor oldu,

bunnan səkgiz nəfərdilər, oturuflar. İndi başdıyıllar söhbətə. Hərə öz dilənif gətirdiyinnən yeyir, taam eliyir. Bular bir yerdə qəşəh surfa açıllar, qəşəh yeyillər, yığışıllar. Bu başçıları deyir ki, bir söhbət eliyin.

– Nə söhbət?

– Hərə öz gördüyünnən, bu gün nə təsadüf eliyif onnan söhbət eliyin.

İndi birinci bu sırıxlı itirən kor başdıyır:

– Ə, nə söhbət elijəm, öyü yıxılsın namərdin.

– Noluf, nədi?

Deyir ki, əşi, ömrüm boyu diləndiyimi sizdən xəbərsiz, sizə deməmişdim, sırıxlının pambığını çıxardıf yığmışdım pambıx yerinə. Buyün bir namərd oğlu namərd gəldi, bir dopu gətirdi, dedi qazonnu şeydi, bunu saxla. Gedənnən soora tamah maa güj elədi, dedim görüm baldı, yağdı, nədi, barmağımı batırım qoyum ağzıma. Ağzını açan kimi arı məni süpürüf aldı. Paltarımı soyunuf tökmüşəm yerə, bir əni-müsibətnən arını özümdən uzaxlaşdırmışam. Yolnan ötən-keçən dəköməh eliyif, paltarın hamısını tapıf geyinmişəm. Sırıxlını tapmadım deyəndə başçı kor deyir ki, nağarmısan?

Deyir:

– Sırıxlının pambığını çıxardıf yığmışdım arasına.

Deyir:

– Sırıxlının pambığını çıxardıf niyə arasına yığırdın?

Deyir:

– Neyniyim ə, bə?

Deyir:

– Ə, torba tikif belə qoltuğuzun altına qoyuf içinə yığammırsız – deyəndə kor deyir:

– Görüm ə, nətər eləmisən?

Kor əlini gətirincə sağ əlini uzadıf pulu götürür torbadan. O biri deyir:

– Ə, yox, heylə niyə eliyirsiz? Papağızın qırağını qatdıyın, içinə yığın.

O biri deyir:

– Baxım görüm ə, nətər yığmısan?

Sağ onnan qabax əlini uzadır. Sağ bu minvalnan buların hamısının pullarını alır. Biri qurtdanır, görür pulu yoxdu, bilir ki, Həsənqulu idi da «görüm ə» deyən. Deyir:

– Ə, pulu bəri ver.

Deyir:

– Pul nədi, sən öl, almamışam.

O birisi baxıf görür bunun da pulu yoxdu.

– Ə, mənim də pulumu ver.

O bunu vurur, bu onu vurur, başdıyıllar davaya burda. Bu sağ da görür bunnarı. Qırıllar bir-birini. Başçı deyir:

– Dayanın ə, dayanın.

– Nolub?

Deyir:

– Dayanın ə, səbriniz, qərarınız olsun. Bizim içimizdə, sən öl, sağ adam var.

Yüürür qapının ağzını kəsir. Deyir ki, tutajağam bu saatdarı. Deyir ki, nətər tutajağıx? Deyir ki, mən paçamın birini buyza qoyajam, birini də buyza, sizsə gəlin bir-bir mənim paçamın arasınnan keçin çölə. Sayax, yeddi adamıx da, səkgizinci sağdı, sağı tutajağıx. Elə birinci sağ keçir. Sayır bir-bir, korun biri qalır dala. Tutullar, gupuyullar, döyhadöy olur.

– Ə, dədəm, nənəm sizə qurban, mən filankəsəm, mən də koram, məni öldürmüyün.

Nəfəsini kəsillər bunun. Biri deyir ki, ə, sağ birinci çıxıb da, kişini öldürmüyün. Sağı tuta bilmillər.

Nəysə, sağ indi öyə gəlir, pulları da yığır gətirir. Kəndin böyründə zibillih var idi, zibillihdən keçəndə görür ki, köhnə meşox var. Meşoğu götürür, fikirrəşir ki, gedirəm-gedirəm,

bir az da təzəh yığım aparım öyə, arvad-uşax ojax qalasın. Deyir, bu torbanı təzəhnən dolduruf dalına atıf gəlirdi. Qarannıx düşür, gələ bilmir. Yolun qırağında meşoğu qoyuf başının altına uzanmışdı, görür köç gəlir. Köç burdan keçəndə görür, səni, burda bir adam uzanıf, yasdığını da qoyuf başının altına. Fikirrəşillər ki, bura yaxşı yerdi, biz də burda axşamlıyax, səhər köçüf gedərih. Bunun böyründə düşməh isdiyəndə deyir:

– Bajıoğlu, bajıoğlu, mənimki qazonnu maldı. Malınızı mənimkinnən kənar eliyin. Mənə yaxın gəlmiyin, aralı durun.

İçərilərində bir qoçax varmış, ürəyində deyir onun anasını ağladıf beyjə onun qazonnu malını aparajam ey. Deyir:

– Kişiyə yaxın getməyin ə, aralıda tökülün.

Aralıda tökülüllər, bularınkı da hamısı ləl-cəvahiratdı. Gejədən bir az keçəndə bu başını qoyub meşoğun üsdünə, gözdüyür. Bilirdi ki, nəsə olajax. Görür ki, orda qoçağın biri qızıl meşoğunu sürüyə-sürüyə gətirir buna tərəf. Bu özünü yuxuluğa qoyur, qımıldanmır. Başını salır meşoğun üsdünnən yerə. Çəkir meşoğu, görür yüngüldü, deyir:

– Yəqin çəkidə yüngül, qiymətdə bahalı şey olar.

Qızıl meşoğunu qoyur bunun başının altına. Aparır qoyur təzəyi ora, meşoxların içinə. Yuxuya gedən kimi bu durur meşoğu götürür, tərpənir öyə. Heylə varranır, başdıyır yaşamağa. Kasıblığın daşını atır.

## 54. DÖYÜLƏN AXMAQ

Deyir, bir gün bir arvadın dosdu, aşnası var idi. Kişi bazardan gəlir, qazan alır gətirir evə. Deyir:

– A kişi, qazan aldın gətirdin?

Deyir:

– Aldım, gətirdim.

Baxır, deyir:

– Yaxşı qazandı, amma bir şeyi örgəndin?

Deyir:

– Nəyi?

Deyir:

– Qazan satannan örgəndinmi mən bunun içinə nə qədər duz tökməliyəm?

Kişi məhətdəl qalır. Deyir:

– Yox, arvad, yadıma düşmüyüf.

– Onda böyüh səyfə yol vermisən, get örgən, gəl.

Gəlir qazan satanın yanına, misgərin. Keşmişdə qazanı misgərlər düzəldirdi. Misgər görür ki, qazan satdığı kişi gəlif.

– A kişi, nə lazımdı?

Deyir:

– Başaa dönüm, arvad deyir ki, qazana nə qədər duz töküm?

Misgər başa düşür ki, arvad bunu evdən uzaxlaşdırıf. Belə baxır, deyir ki, kişi, bir belə (söyləyici bir ovcunu göstərir – top.), bir də bir belə (söyləyici iki ovcunu göstərir – top.). Yəni yarısınnan bişirəndə bir qısma, ağzınnan bişirəndə iki qısma. Bu da mənim kimi yaddaşdan zəyif imiş, yaddan çıxmasın deyə, bir belə, bir də bir belə deyə-deyə gəlir. Düzü-biyabannan gəlirdi, görür ki, bir cütcü yer şumluyur, toxum səpir. Bunun böyrünnən keçəndə salam əvəzinə deyir:

– Bir belə, bir də bir belə – eliyə-eliyə yadınnan çıxmasın deyə gəlir. Cütcü vedrəni qoyur yerə – o vaxt səbət oluf, heç vedrə də olmuyuf, cəvəran deyirdilər, vedrə ölçüsündə hörürdülər çubuxdan, – qarğa qovmax üçün ağac götürürdülər, ağacı götürür, tez gəlir:

– Kopoğlu, nə bir belə, bir belə deyirsən? Niyə qarğış eliyirsən?

Deyir:

– Başaa dönüm, bəs nə deyim?

Deyir:

– Belə şey görəndə denən ki, Allah bunnan bol eləsin, Allah buna bərəkət versin, Allah bunnan çox eləsin.

İndi bu gəlir.

– Allah bunnan çox eləsin, Allah bunnan bol eləsin – deyə-deyə gəlir yolnan. Görür bir yerdə vahsey-şahsey, bir kəntdə vur-çatdasın qopufdu. Gəlir deyir ki, Allah bunnan çox eləsin, Allah bunnan bol eləsin, həmişə bu gündə-filan. Bu səfər tutub burda möhkəm döyüllər. Deyir:

– Başınıza dönum, öldürmüyün məni, nə deyim, nə deyim?

Deyillər:

– Belə şey görəndə, deynən axır görəcəyiniz olsun, belə şeylər görmüyəsiniz, Allah sizə bir də belə şeylər gösdərməsin.

Gəlir, yolda görür bir kəntdə vur-çatdasındı. Girir mağara:

– Axır görəcəyiniz olsun, Allah sizə bu günü gösdərməsin.

Bu səfər də olan-qalan sümüyünü burda əzişdirillər. Deyir:

– Ə, məni öldürmüyün, bəs mən nağarım, neyniyim?

Deyillər:

– Belə şey görəndə qol götür oyna, papağıı tulla göyə.

Gəlir, indi görür bir kişi qabağında öküz gəlir. Papağını belə tulluyur, paltarını heylə tulluyur, öküz ürkür, yükü tulluyur. Öküz yiyəsi tutur bunu, qalanını da bu əzişdirir.

– Ə, məni öldürmə, bəs nağarım, nə deyim?

Deyir:

– Belə şey görəndə əlinə ot al, trü-trü elə.

Deyir, bu gəlir görür ki, bir kişi dalında ot şələsi gəlir. Otu yolur, uzadır, deyir:

– Trü-trü.

Kişi şələni qoyur yerə, deyir:

– Adamsan, adam oğlusan, filan-beşməkan.

– Ayə, məni öldürmə, bəs nağarım?

Deyir:

– Belə şey görəndə keç arxasınnan qaldır, qoyma düşməyə.

İndi gəlir, deyir, keşmişdə belə çayın kənarında arvatdar paltar yuyurdular. Gəlir arvadın birini dalınnan qaldırır, arvad başı üsdə düşür suya. Arvatdar yığışır bunu döyüllər. Deyir, möhkəm döyüllər. Deyir:

– Aaz, məni öldürmüyün, bəs mən nağarım, nə deyim?

Deyillər ki, belə şey görəndə kənardan qaç, gendən qaç, yaxın gəlmə.

Bir kəntdə gecə ev yarmışdılar, oğruları gəzirdilər. Komanı görəndə götürülür. Deyillər:

– Odey, oğru qaşdı.

Yüyürüllər, tutuf gətirillər, basıllar dama. Elə onnan bu da canını qutarır, arvad da.

## 55. TOYUQ OĞRUSU

Biri toyux oğrusu idi, toyux tuturdu. Daa qojalmışdı. Bir gün qohum-əqraba yığışır ki, bu, pis adətdi, bunu tərgit, daa yaraşmır səə, qocalmısan-filan, aylə adamısan, bunu tərgit, çıxsın getsin. Toyux tutmax sənin şəxsiyətə də yaraşmır.

Deyir:

– Yaxşı, bu günnən də tərgitdim.

Gəlir girir damın altına. Bir il keçir, o adamların bircəciyi qapını açıf bir manat uzatmır ki, apar get çörəh al. Qalır ehtiyac içində. Ayrı bir sənəti olmur, sənətini də tərgidif. Nəhayət, məjbur olur bir axşam çıxır səfərə.

Bu toyuxları da indi hamı yığır hinə, amma toyux əslində ağajda yatır, lap qışda. Əsas nar ağajında yatallar. Nar ağajının şahı qalın olur, yıxılmır. Bir də incil ağajıdı, çünki budaxları bir-birinə yaxındı.

Deyir, nar ağajında toyuxlar yatışmışdı. Gündüzdən gedir buranı bəlirliyir[34] ki, toyuxlar burda yatır. – Həmişə narı bizdə çəpərə yaxın əkərdih. Çəpəri də qaratikannan çəkərdih. Belə şəldən-şüldən, böyürtkənnən kimdə olsa, deyəllər ki, dul arvatdar belə çəkərdilər. Qaratikannan çəkilmiş çəpər, yaxşı mıxçalanmış, cavan qaratikan, ona yaxın getməh olmur, tikannarı iri olur. – Hə... Nar ağacı, toyuxlar da yatıf üsdündə. Bir ildi getmir, sənətini tərgidif, yadırğıyıf. İndi bilmir hardan, nə cür tutmax lazımdı. Söz verif ki, daa oğurruğa getmijəm. İndi gərəh elə tuta ki, bilinməsin. Əlini atır toyuğun birinə, "qığıl" eliyif uçur, qalxır yuxarı. O birsi, bu birsi, toyuxları tuta bilmir, hamısı dağılır. Biri düşür yerə, girir kola. Kola girəndə görür bunu. İndi toyux tutannar bilillər, toyuğu tutduxca özunü verir çəpərin dərinniyinə. Deyir, köynəyinin qolunu çiyninətən sivirib, polnu əlini salıb kola. Burda, deyir, it hürür. Barmağının uju toyuğun ayağına dəyir. Toyuğun da getməyə yeri yoxdu, daa dirənif. İt hürür, toyux yiyəsi ayılır yuxudan. Ev iki mərtəbəli idi. Tüfəngi, deyir, asılı idi abuşkanın sütununnan. Toyux yiyəsi tüfəngi götürüf yavaş-yavaş enir. Kişi gəlir. Bunu görəndə görür yox, tülküzad döylü, adamdı. Tüfəngi asır ağajdan, dəmir yavanı götürür, qoyur çiyninə, gəlir. Bu da başı aşağı çalışır ki, toyuğu tutsun. Durur bunun arxasında əlində də yava ki, duranda yapışdırsın bunun təpəsinə da. Nəhayət, toyuğun bir ayağını çətinlihlə tutur, çıxarır. Belə çönəndə görür ki, toyux yiyəsi dəmir yava da çiynində. Deyir:

– Nağarırsan?

Deyir:

– A başa dönüm, görürsən də nağarıram, niyə soruşursan? Bu zülümnən mən toyux tuturam, bu ağzı göyçəhlər də adımı qoyullar toyuğ oğrusu.

---

[34] Bəlirliyir – işarələyir, nişanlayır

## 56. NAŞI OĞRU

Deyir, biri heç oğurrux bilmirmiş. İsdəmiyənin biri götürüf milisə şikayət verir ki, bu şəxs oğurrux eliyir. İşdəmir-eləmir, heç hara getmir, hamıdan kefi-kök yaşıyır. Milis bunu çağırır, deyir:

– Səni tutajam.

Deyir:

– Niyə?

Deyir:

– Bəs sən nəynən yaşıyırsan? Oğurrux eliyirsən. Deyilənə görə sən oğurruxnan yaşıyırsan.

Deyir:

– Mən oğurrux bajarmıram, Allah yetirənnən dolanıram birtəəri, filan.

Deyir:

– Yox, sən oğurrux eliyirsən. Mütləq, bir heyvan gətirəjəhsən. Bir heyvan deyəndə quzu-muzu yox ey, erkəh. Bir erkəh gətirif verəjəhsən, canı qutarajaxsan, yoxsa tutularsan.

Deyir:

– Vallah, mən bajarmıram axı.

Deyir:

– Yox, gedəjəhsən, yalan deyirsən, sən oğrusan.

Naəlac qalır.

– Mənim heyvanım-zadım yoxdu.

– Yoxdu, get oğurra, gətir.

Bu, məjbur qalır gəlir, qonşusuna deyir ki, örgənmişəm filan yerdə iki dənə saz erkəh var. Gedəh oları çıxardax, bu köpəh oğlannarı mənnən əl çəhmir. Gedəh çıxardax, biri olsun sənin, biri də mənim. Mən tək gedə bilmirəm axı, bilmirəm yolunu.

İndi, deyir, bu gedir. Yoldaşına deyir:

– Külfədən gir, çıxart ver mana, mən də çıxardım, onnan soora əlinnən tutuf səni də çəkif çıxardım, götürəh gedəh.

O da heç oğurrux bajaran adam olmuyuf ey, məjbur oluf gedif. Tamah aparıf bunu da. İki mərtəbə ev idi, işıx yanırdı. Görür qoşalülə də ordan asılıf, evin yiyəsi də qəşəh taxtın üsdündə yatıf. Yaxınnaşıllar, qoyun pəyədədi, yeraltı oluf pəyə də. Pəyənin külfəsinnən dosdu deyir ki, sən gir, mən sənin əlinnən tutum endirim aşağı. Bu deyir, yox, sən gir. Nəhayət, kişi girəsi olur. Pəyə də çox dərin imiş. Bunun əlinnən tutur, dirsəyi dirənir torpağa, bunun ayağı genə çatmır yerə. Buraxır, g..ü üsdə dəyir yerə. Baxır görür ki, pəyədə bir at da var. Qoyunnar da burdadı. İndi qoyunun birini qalxızır, külfədən verir, çöldəki çəkir. Çəkir çıxardır çölə, bu səfər o birini qalxızır. O birini qalxızanda bu biri qoyunu – işdətmiyif da bu yolu, – buraxır. Bunu tutuf çəkəndə görür ki, o biri çıxıf ikinci mərtəbədə tarapbatarap məliyə-məliyə belə qaçır, belə qaçır. Deməh, bu qoyunu çəkif çıxarır, bunu da buraxır. Bu da məliyə-məliyə o biri qoyun tərəfə gedir. Çöldəki baxıf görür ki, kişi qalxdı, qalxan kimi də tüfəngi götürdü. O saat çöldəki qaçır. Bu qaldı pəyədə. Hopbanır düşür, hara çıxajax?

İndi qoyunnar çıxıfdı. Kişi gəlir. Pəyənin qapısında qıfıl varmış. Tüfəng əlində bir-iki güllə atır havaya. Gəlir görür ki, qıfıl yerindədi. Deməh, oğru içəridədi, külfədən girif. Oğru qoyunnarı külfədən çıxarıf. İndi qıfılı açır. İçəridəki nağarsın? Qaçır girir atın qarnının altına, görür yox, görünəjəh, işıxlar da yanır. Qoyunnar da gəlif durur pəyənin ağzında. Qoyun yiyəsi də qıfılı açır. Bu nağarsın? Təxminən otuz-qırx santı pəyənin girəcəyində qəlbi yer varmış. Uzanır burda ki, görməsin da, üsdünnən addıyıf keşsin. Qorxur, işdətməmiş adam. Bu adam da tələm-tələsih, işə düşmüş adam, qıfılı açır, itəliyir, qapı açılanda bu qalxır cumur buna. Ham-ham eliyir it kimi, başını salır iki qıçın altınnan ötürür pəyənin içinə. Tulluyur pəyənin içinə,

qapını çəkif rəzəliyir, çıxır qaçır. Qoyunnar düşür bunun dalına. İndi bu qaçır, qoyunnar da bunun dalınca. Bu fikirrəşir ki, hara gedim? İndi bu içəridən qoşalüllə atır, gurp, gurp, hay-küy salır, qapı rəzəlidi. Evin adamları qalxır, qonşular qalxır, kənd qalxır:

– Əyə, qoyma.

Partapart, athaat, gurpagurp. Bu kişi fikirrəşir ki, hara qaşsın aydınnıx gejə, gündüz kimi.

Pəyəni açıllar, kişi çıxıf çölə.

– Ə, noluf?

Belə-belə, iki qoyun çıxmışdı, pəyəni aşdım, nəysə bir şey cumdu mənə, it kimi hürdü, ağlagəlməz bir şey. Qapını çəkdi rəzələdi, qaldım içəridə. Qoyun da gedif, adam da.

İndi başdıyıllar gəzməyə. Deyir, qaratikannıx idi, aydınlı gecə, bu qaçır, iki qoyun da bunun dalınca. Qoyun heyvanı belədi, adamdan əl çəhməz. Bu, nəhayət, fikirrəşir ki, gedim qəbirsdannığa. Deyir, uçux bir qəbrə girir bu, qoyunnar da biri bu üzdə, biri də o üzdə durub qəbrin üsdündə. Başdıyıllar gəzməyə kolluğu, gurpagur, athaat, qəbirsdannıx kimin ağlına gəlir. Tapmıllar, camaat qayıdıf gedir kəndə. Bu durur, qoyunnarı da götürüf gəlir. Vəd vermişdilər ki, qoyunnarı oğurruyannan soora filan yerdə ayrılarıx. Gəlif görür qaçan yoldaşı gəlif duruf orda. Sual verir. İndi bu bölməlidi bunnan. Gör sual harda çıxır ey. Nə qədər çətin, mürəkgəb sualdı. Yoldaşın ixtiyarı var, səlahiyəti çatır ki, deyə biri mənim, biri sənin. İndi deyəjəh ki, vermirəm, gedif şikayət elijəh, ev yiyəsinə gedif deyəjəh. Deyir:

– Nolar, deyirsən, deyirsən, amma sənə düşmür. Sən məni qoyuf pəyədə qaşmısan. Heç olmasa, çəkif çıxardaydın da.

Deyir:

– Qoyunu niyə buraxırdın?

Heç ağlına gəlmir ki, ayağını bağlıya, gedə bilməyə. Bu oğurruğu mən də etməmişəm, mən də helə olaram. Amma söhbətdə eşitmişəm ki, nağarmax lazımdı. Birini verir buna, deyir:

– Yaxşı, it aparan olsun.

Birini aparır milisonerə, deyir:

– Çox əzab-əziyyətnən gətirmişih, bir yoldaş da aparmışdım özümlə, canım üçün, mənim özümə heş nə qalmır, mənnən əl çəkin. Sən mənim canım, sən sənin canın, sən dədənin goru, mənnən əl çəh, mən oğru-zad deyiləm. Bax, bunu da məjbur elədin, getdim oğurradım gətdim. Hələ bizi az qalmışdı tutalar. Tutsaydılar biyabırçılıx idi, kim buraxajaydı bizi? Mənnən əl çəh.

Deyir:

– Yaxşı, heyvanı apar evə.

Milisoner yanındakı yoldaşına deyir ki, doğurdan da, bu oğru imiş, bunu tutmax lazımdı. Oğru deyilsə, bu heyvanı hardan oğurradı gətdi bu?

Bu aparıf indi qoyunu verəndə baxıf görür ki, bunun qapısında bir əlli-altmış hinduşka var. Deyir:

– Ə, məni tutajaxlar onsuz da, elə bu hinduşkaları da oğurruyum.

Yolunu bilir da, qoyunnarı oğurruyanda örgənif. Gejə bir bardon da götürüf gedir bunun qırx dənə hinduşkasını oğurruyur, aparır hansısa bazarda tezdənnən satır. Milisoner bunu tutanda deyir:

– Canın üçün, hinduşkaları da mən aparmışam. Narahat olma, aparıf bazarda satmışam.

Bax, məjburiyət adamı bu cür şeylərə sürüklüyür.

## 57. PADŞAHIN BAŞ AĞRISI

Padşahın başının ağrısı tutur. Çağırır loğmanı. Loğman baxıf deyir ki, oğrunu tutun, onun başının dərisini soydurun, onun başının dərisinnən dəf düzəltdirin, o dəf çalınsın, sənin başının ağrısı keçif getsin.

Deyir, oğru qaçırdı, görür köhnə bir dəyirmandı. Dönür dəyirmana, görür dəyirmançı unnuxda un təmizdiyir. Tələm-tələsik içəri girir. Deyir:

– Noluf?

Deyir:

– Padşahın başı ağrıyır, loğman deyir bir dəyirmançı tapsın, onun başının dərisini soysunnar dəf qayırsınnar, çalsınnar, onun başının ağrısı kəsilsin.

– Bəs nağarım?

Deyir:

– Tez soyun paltarı.

Soyunur, – can şirin şeydi da, – paltarını verir buna. Bu da soyunuf tökür, paltarlarını dəyişillər. Dəyirmançının paltarında içəridən çıxır unnu-zaddı buların qabağına. Dəyirmançı da içəridədi ey. Bunnan soruşullar:

– Adam qaçırdı, nejoldu, onun dalınca gəlmişih?

Deyir:

– Dey, dey, içəridə.

Özü çıxır qaçır. Dəyirmançı içəridə bu sözdəri eşidir. Dəyirmanın daşdarını xam daşdardan hörürdülər, tilişkəli olurdu. İndi başını döyür o daşdara. Daş, deyir, bunun başının dərisini cırıx-cırıx eliyir.

– Sənnən də olsun, mənnən də olsun, sənnən də olsun, mənnən də olsun – deyə-deyə cırıxlıyır. İndi bular çatıfdılar, tutufdular bunu:

– A kişi, nolufdu, bir dayan.

Deyir:

– Yox, aldada bilməzsiniz.

Görüllər yox ey, cırıxlıyır izana[35] başının dərisini.

– A kişi, dayan, nə sənnən də olsun, mənnən də?

---

[35] İzana – tamam, başdan-ayağa

Deyir:

– Kiri, mənim elə başım yoxdu ki, dərisinnən dəf qayrıla, sənin padşahının da başının ağrısı kəsilə.

## 58. QOŞUNBASAN

Biri ulağı alıf gətirir, quyruğunu-qulağını kəsir, adını qoyur qoşunbasan. Bu ulağı işdətmir. Padşaha xəbər gedir ki, birinin qoşunbasanı var, qulağı yox, quyruğu yox, çox eybəcər bir şeydi, adam qorxur görəndə. Padşah bunu çağırır, deyir ki, o nə heyvandı saxlıyırsan, camaat vahimələnir? Deyir ki, qoşunbasandı. Ölkəmizin üsdünə qoşun gələndə onu basmaxdan ötrüdü. Padşah buna xüsusi maaş ayırır.

Qoşunbasana tumar vurur, sığallıyır, vaxdında gəzdirir, yemini verir. Bir gün ölkənin üsdünə başqa ölkənin padşahı hücuma keçir. Düzü-biyaban boş səhra idi, bərk qırğın gedir burda. Padşaha xəbər gedir ki, qoşunu qırdılar qutardılar, artıx məğlub olursan.

Deyir:

– Ə, kişini tapın, deyin ki, qoşunbasanı buraxsın, camaat qırılır.

Xəbər gəlir ki, qoşunbasan gəlir. Düşmən qoşunu da döyüş gedən zaman maydan at minifdi; həm qıvraq olur, həm də qaçağan olur, bərk qaçır. Əlaxüsus da, geri qayıdanda çox bərk qaçır. Düşmən qoşunu qayıdır geri, qaçıllar. Qoşunbasan da çoxdandı bağlanmış ulax olur, atın iyini alıf, bilmir hayandadı, başını tutuf düzün ortasında gah bu tərəfə qaçır, gah o tərəfə qaçır. Atın sidiyini, qoxusunu iyliyir. Bular, deyir, qaçıf böyüh bir dərədə gizdənmişdilər. Döyüşçülərdən biri, qoçağı, ürəklisi deyir ki, nə qoşunbasandı ey o, gedim görüm. Gedif, səni, onu vuruf öldürəjəm, nədi o? Qılıncı sivirir gedir. Heyvan görməmiş ulax atı görəndə yüürür üsdünə. Yüürəndə at da

ürkür götürülür. Götürüləndə, deyir, bu daldan çatır, sıçrıyır ata. Sıçrıyanda atın üsdündə patron-zad yığmax üçün xurcun vardı. Bunun qabax ayağının biri xurcunun bir gözünə, digəri o biri gözünə düşür, alə…i də salıb atın içinə. Nəysə, nəfəsini dərənnən soora düşür, başını dik tutuf yönü günbatan tərəfə. Daa dincəlif da. Gedəndə bu bərk sürür, çatır qoşuna, deyir:

– Əyə, durun qaçın. Sən öl, bir şey gəldi üsdümə, güjnən qaşdım. Elə bir şeydi ki, deyir, kopoğlunun malı ciblərimi yoxladı, gördü ciblərimdə bir şey yoxdu, əlini saldı xurcunu yoxladı, gördü bir şey yoxdu, atın içini də yoxladı.

Bunnan da bitir.

## 59. HEYVANLARIN DİLİ

Musa peyğəmbər idi, səyf eləmirəmsə, öküzü qoşmuşdu işə – cütə, yer şumlamağa. Öküzü işlədirdi, ulağı saxlıyırdı ziyarətə getməyə. Qoşmurdu, incitmirdi ulağı, hətta öküzə verdiyi yemin yaxşısını ona verirdi ki, əmələ gəlsin, kökəlsin. Bir axşam öküz yorulmuşdu. Sahibi qapını örtüb daldan qulax asırdı. Görür öküz çox sızıldıyır, otu yemir, yeyə də bilmir, yoruluf. İndi ulax soruşur öküzdən:

– A qardaş, niyə gileylənirsən?

Deyir:

– Yiyəmiz yaman zalımdı. Məni bu gün qoymuyuf qılçamı qatdamağa, işdəməhdən yorulmuşam, otu da ağzım tutmur yeməyə.

Deyir:

– Tutmur, yemə.

Deyir:

– Nağarım bəs?

Deyir:

– Yemə, özünü vur xəsdəliyə sabah qoşmasın səni.

Qurban olduğum peyğəmbər eşitmişdi söhbəti. Sabah gəlir, görür öküz yatıb, qoyduğu nə varsa hamısı qabağında qalıf. Ulağı götürüf aparır işdətməyə.

Bir gün belə, iki gün belə, ulax əldən düşür, yorulur da, iş getməlidi, işi dayandırmax olmaz. Həm də axşam gətirib salanda qulax asırdı ki, nə deyir, nə söhbət elijəh. Görür ki, bir axşam ulax gəlibdi, qoyulan otu da yemir, ağlıyır. Öküz soruşur indi:

– A qardaş, niyə ağlıyırsan?

Deyir:

– Ona görə ağlıyıram ki, mən burda təkcə qalajam, sənsiz nətər qalajam mən?

Deyir:

– Niyə tək qalırsan ki? Mən nətər olajam bəs?

Deyir:

– Bəs sahibim büyünnəri çöldə söhbət eliyirdi ki, neynirəm onu mən, xəsdədi, işə yaramır. Sabah aparıf verim onu ətdiyə mən.

Öküz deyir:

– Bəs mən neyniyim?

Deyir:

– Qabağaa qoyulan otun hamısını ye, sabah sahibin gələndə qıçına bir təpik də vur, bilsin ki, sən sağalmısan, səni ətdiyə verməsin, aparsın işdətsin.

Burda, deyir, qurban olduğum gülür, güləndə arvad soruşur ki, niyə güldün? Arvad bilmirdi da! Bu sirri aça bilməzdi, Allah tərəfinnən pay verilmişdi. Deyir:

– Ağız, mənnən nə isdiyirsən isdə, mənim nəyə güldüyümü soruşma.

Nə qədər yalvarır, nə qədər and verirsə, əmələ gəlmir. Bu isfariş eliyir arvadın qardaşına ki, gəlsin. Arvadın qardaşı gəlir. Arvadın qardaşına deyir ki, nəysə bir vergi olub məndə, indi

mən onu desəm qeybə çəkiləjəhdi, əl çəkmir. Qardaşı deyir ki, madam ki, əl çəkmir, onun bir əlacı var. Apar sal dama, xançalı çək boğazına, qutarsın bunnan. Öldür, canın qutarsın da. Qardaşı da çox yalvarıf-yaxarır ki, a bajı, nə işə qalıf.

İt deyir ağzını tutub göyə ucadan uluyurdu. Ordan xoruz soruşur ki, niyə uluyursan?

Deyir:

– Sahibimizi – bizə yem verəni ağamız öldürəjək.

İndi xoruz soruşur:

– Niyə öldürür, niyə öldürür?

Deyir ki, heyvannar danışırdılar, ulax heylə deyəndə gülməyi tutuf, onu arvad görüfdü. Deyir ki, sirri aç, görüm niyə gülürsən? Bu da aça bilməz. İndi xoruz ağlıyır. İt deyir:

– Niyə ağlıyırsan?

Deyir:

– Ağamızın ağlı azalıf.

Deyir:

– Niyə azalıf, nağarsın, neynəsin?

Deyir:

– Öldürməsin, döysün.

Bizim arvadnan gedirəm ora-bura qonax, deyirəm arvadı döymək lazımdı, deyəjək indi yenə döyməkdən danışır.

İt soruşur:

– Nə qədər döysün?

– O qədər döysün ki, o, anasının südünə and içsin ki, anadan əmdiyim süd burnumnan gəlsin, bir də sənnən soruşmujam. O vaxtadək döysün.

Deyir, salır tovlaya, o qədər döyür, döyür, deyir:

– Soruşmujam, Allah hakqı, soruşmujam.

Deyir:

– Yox ey, anaa südünə and iç.

Deyir:

– Anamdan əmdiyim süd hakqı bir də sənnən sorğu-sual eləmijəm.

Söyündühlərinnən it hürür, toyux qakqıldıyır, xoruz bannıyır, mallar içəridə mələşillər.

## 60. SÜLEYMANA QALMAYAN DÜNYA

Süleyman peyğəmbər hələ aylə qurmamışdı. Başqa bir ölkəyə bir illik səfərə çıxmışdı. Səfərdə ikən bunun qabağına gözəl bir qız çıxır. Bu qızı görəndə elə o saat vurulur ona. Qəlbində deyir: “Səfərimi başa vurum, qayıdanda bu qızla aylə qurajam”.

Səfərini bir ilə, iki ilə, beş ilə, nəysə, başa vuruf qayıdanda həmən yolu gəlir. Həmən yerdən keçəndə, deyir, bu boylanır, ora-bura baxır, axtarır. Bunun qabağına bir qarı çıxır, qoja qarı. Deyir:

– Oğlum, nəysə elə bil itirmisən, axtarırsan?

Deyir:

– Ay ana, heş-zad, elə-belə baxıram.

Deyir:

– Yox, nəysə sən gəzirsən?

Deyir:

– Hə, mən filan vaxdı burdan keçəndə bir qız gördüm. Vurulmuşam ona. Onnan aylə qurajam. Qərar vermişəm ki, aylə qurum. Onu gəzirəm, görüm bir də görə bilərəmmi?

Deyir:

– Gəzmə, oğlum, o qız mənəm. Mən bu dünyayam, – deyir, – bu dünya. Qocalıram, yenidən cavanlaşıram. Əgər sən mənə vurulmusansa, çıx kəntdən bir kilometr get. Yenərsən bir dərə var, o dərədə mənə uyannarın halına bax.

Bu, deyir, kətdən çıxır, görür ki, bir dərin dərə var. Dərəyə yenəndə görür ki, üş dənə insan, pəhlivan cəsədi var, bir dənə ənbiz, qızıl topası var. Aralıya baxır, görür uzaxda

bir dəvə otduyur. Fikirrəşir ki, ilahi, bu nə səhnədi? Qıraxda bir dəvə, burda üş pəhlivan yatır, bir topa qızıl, bir mejməyi də aş var. Fikirrəşir, bu nə səhnədi, bu nə oyundu. Bu belə olufdu.

Bu üş pəhlivan haranısa qarət eliyifdilər, bu dəvəni yüklüyüfdülər. Dəvənin üsdündə bu pulu, bu qızılı gətirifdilər, bir dərədə töküfdülər. Qərar verifdilər ki, bölsünnər. Bölmək zamanı ikisi bir oluf, biri bir. Fikirrəşillər ki, neynəyək? Bu yoldaşı öldürəh, bu ikimizin olsun. Ajmışdılar, deyir. Yoldaşı deyir ki, bunu bölə bilmijeyih. Yeməh tapax yeyəh, soora gənə burdadı da, bölərih. Bu yoldaşdardan birini ikisi göndərir ki, kəndə get yeməh gətir, yeyəh, onnan soora böləh. Bu gedir kəndə yeməh gətirməyə. Bu ikisi fikirrəşir ki, o gələndə nağarsınnar ki, onu öldürsünnər, bu qızıl buların ikisi arasında bölünsün. O yeməyə gedən adam fikirrəşir ki, nağarsın, nətər eləsin bu ikisini öldürsün, qızıl buna qalsın. Həyat belədi ey. Fikirrəşəndə həyat başdan-ayağa dərtdi, qəmdi.

Bəli, bu gedir aş bişirtdirir, üş nəfərrik, bir mejməyi. O vaxdı mejmada qoyallarmış. Hələ bir sini də var. Bir mejməyi aş, üsdü belə çolpalı-filanlı gətirir. Həmən dəvəni minif getmişdi. Dəvənin üsdündə gətirir. Gələndə yolda qərar verir ki, yeməyə zəhər qatsın. Olar yesinnər ölsünnər, qızıl qalsın buna. Bunnar qərar verir ki, gələn kimi onu vuruf öldürsünnər, soora yeməyi yeyif qızılı bölsünnər. Belə də olur.

Bu, aş qujağında gəlir. Dəvədən düşür, elə yeməyi alıf yerə qoyanda bunu daşnanmı, hansı alətnənsə vuruf öldürüllər. Deer hə, bunnan qutardıx. Yeməyimizi yeyəh, bölgümüzü böləh. Bu ikisi də aşı yeyir, bular da burda ölür. Dəvə qalır yiyəsiz, həmən dəvə. Yiyəsiz dəvədi, boş səhrada gedif otduyur. Mejməyidə qalıf yemək. Pəhlivannar ölüf, qızıl da qalıf ortalıxda. Odu ki, deyir, halına bax, dünyaya uyannarın halına bax. Dünyaya uyannarın aqibəti budu ey. Axırı heşdi. Nə var bu dünyada qalan şeydi. Bunu başa düşənnər, qanan-

nar, hiss eliyənnər mənimsiyiflər, amma azdı da. İsdər-isdəməz həyat elə şeydi ki, cəlb eliyir ey, qüvvə var ey, cəlbedici qüvvə. Kimsə ehtiyac üzünnən axtarır, bu cinayəti deyirəm ha, kimsə şöhrət üzünnən axtarır. Hər ikisinin aqibəti eynidi.

## 61. KOR CANAVARIN QİSMƏTİ

Çoban imiş, kəndin, deyir, qoyununu güdürmüş. Hər axşam qoyun yiyələri gəlillər ki, a kişi, mənim qoyunumun biri yoxdu. Səhəri gün o birisi gəlir ki, mənim qoyunumun biri yoxdu. Bu da deyir ki, nətər olur, mən qoyunu dağda-dərədə güdmürəm, düzənnih yerdi, qoyunun yanına gələn yox, gedən yox. Deyir:

– Yaxşı, yoxluyaram.

Səhər gənə qoyunu aparanda görür ki, dərəyə yaxınnaşanda bir dənə qoyun sürüdən ayrıldı, başdadı ayna getməyə. Dedi:

– Görəsən nə sirdi, bu, hara gedir?

Görür ki, dərədən düşdü. Gedir baxır, görür ki, dərədə bir canavar, qoyun da düşüf onun qabağına. Baxır görür ki, canavarın gözü kor. Deyir:

– Hə, ya rəbbi, dərədə kor canavara verə bilirsən, məə verə bilmirsən?

Sürünü qaytarır dala, camaatın qoyununu verir, deyir:

– Daa buyünnən mən çoban olmuram.

Ay aman, ay dad. Deyir:

– Əşi, yox.

Deyir:

– Dərdin-sərin nə?

Deyir:

– Heş nə.

Gəlir evə, arvadı deyir:

– A kişi, nə tez gəlmisən belə?

Deyir:

– Arvad, ojağın yanında məə döşəhçə qoy, mütəkgə qoy.

Gəlir oturur. Deyir:

– Noluf?

Deyir:

– Burdan tərpənən döyüləm.

Deyir:

– A kişi, acınnan ölərih biz. Dur get çobannıx elə, eləmirsən başqa bir işin qulpunnan tut.

Deyir:

– Yox.

Bir gün, iki gün, arvad görür ki, yox, vəziyət ağırdı, yeməyə heş nə yoxdu. Lapatkanı götürür gedir bir az, boyana kökü deyərih, balma kökü deyərih, bunnan-zaddan gətirsin, suda pörtdətsin yesinnər. Bir ağacın dibini lapatkaynan eşəndə görür ki, saxsı qab var. Arvad tərpədir, içi cınqıldıyır. Hiss eliyir ki, bu, qızıldı. Gəlir kişiyə deyir ki, a kişi, bəs ağacın dibində belə bir şey görmüşəm. Allah-taala bizə verifdi, dur gedəh onu gətirəh.

Deyir:

– Yox, mən orda isdəmirəm, bax burda, ojağın yanında isdiyirəm.

– A kişi, amandı.

Deyir:

– Yox.

Gəlir qonşuya deyir ki, qonşu, filan yerdə bir şey var, gəl gedəh onu qazax, onu götürüf gələh, paylaşax, böləh. Qonşu gedir, baxır görür ki, doğurdan da, qızıldı. Arvada deyir ki, qoy qalsın, indi götürmüyəh, bilər camaat, gejə götürərih.

Arvad deyir:

– Yaxşı.

Arvad gəlir evə. Qonşu hava qaralan kimi gedir xəlvətcə ordan götürür aparır evinə. Gətirir evə, deyir ki öz arvadına:

– Arvad, gəl gör nə tapmışam.

Açanda bir dəsdə arı uyuşuf bu kişini tas-tas eləməyə. Arvada deyir ki, arvad, tez onun ağzını bağla. Tez ağzını bağlıyıllar. Deyir:

– Zərəl yoxdu. Mən bunu bildim bu nədisə, bular mənə qurma quruf, bu qonşular. Arını yığıf bura, məə də deyir qızıldı. Gör indi mən buların başına nə oyun açajam.

Axşam daa hava qaraldımı, gəlif dal tərəfdən nərdivanı qoyur, buxovdan bu şeyi buraxır içəri ki, arı qoy düşsün buları evdə tas-tas eləsin. Buxovdan düşür, küpə partdıyır, qızıl tökülür burdan ora. Kişi deyir:

– Arvad.

– Hə.

– Bax, Allah verəndə beləcə verir. Mən bu ojağın qırağında isdiyirdim, burda da verdi.

Deyir:

– Səən bu hardan ağlaa gəldi?

Deyir:

– Nə ağlıma gəldi? Kor canavara dərəən dibində qoyun gətirə bilir, mən öydə oturduğum yerdə verə bilmir?

Yəni bir şeyi Allah verirsə, onu heş kəs, bəndə də ala bilməz. Verməsə, aləm yığışsa, ona hörmət eləsə, mənasızdı.

Deyir ki, birinin əlində alma varmış, düşür yerə. Yerə düşəndə yolnan ötən biri varmış, deyir ki, qismətin döylü. Deyir:

– Döylü?

Deyir:

– Yox.

Almanı götürür, silib deyir:

– İndi mən bunu yeyim, gör qismətimdi, ya yox?

Deyir:

– Oğul, ye, yesən qismətindi, yeməsən yox.
Yəni Allah verməsə, bəndə versə də, onun mənası yoxdu.

## 62. DİLİMİ MEHRİBANÇILIĞA ÖYRƏDİRƏM

Bir oğlan uşağı oduna getmişdi meşəyə. Tamah eliyir, çox doğruyur odunu, ulağa çox yüklüyür. Yağış da, deyir, yağmışdı, surunçax[36] idi. Gələndə, deyir, ulax... Yer çala-çökür idi, görünür, orda xəndək də oluf. Bu yerlərdə "qəndək" deyillər, bizlərdə "xəndək". Deməh, bu xəndəkdən keçəndə ulağın ayağı sürüşüf yıxılır. Uşax indi güjü çatası döylü bu ulağı qalxıza. Bu dəmdə padşah da vəziriynən çıxmışdı gəzməyə. Gəzməhdən qayıdanda gəlif burdan keçəndə görüllər ki, bir odun yüklü ulax yıxılıf yerə, uşax da boynunu qucaxlıyıf yalvarır:

– Dədəm sənə qurban, dur, nənəm sənə qurban, dur, başına dönüm, dur.

Padşah çönür vəzirə baxır:

– A vəzir, bu nə deməhdi, yalvarmaxnan heyvan qalxar?

Deyir:

– Padşah sağ olsun, özünnən soruşax.

Deyir:

– Soruş.

Deyir:

– Ay oğlan, yalvarmaxnan o ulax durandı o yükün altınnan?

Deyir:

– Əmi, bilirəm ey durmaz, amma mən dilimi mehribançılığa örgədirəm.

"Dilimi mehribançılığa örgədirəm" sözünü eşidəndə bu padşaha böyüh dərs olur ki, bu uşax dilini mehribançılığa örgədir, mən də kəsməhdən, öldürməhdən, asmaxdan danışıram. Vəzirə deyir:

---

[36] Surunçax – sürüşkən

– Düş, vəzir, atdan.

Düşür. Ulağın yükünü açıf qoyullar yerə, ulax qalxır, odunu yüklüyüllər. Uşağa deyir ki, o sözü hər gün gəlif mənə deyərsən, mənnən bir qızıl onnux alarsan. Yəni unutmuyum da o sözü, dilimi mehribançılığa mən də örgədə bilim.

Uşax gəlir, odunu boşaldır-eliyir. Anasına deyir ki, bu günnən mən oduna getmiyəjəm.

– Ay oğul, noldu?

Deyir:

– Mən bu günnən padşahın qonağı olajam, hər gün padşahın otağında oturajam, onun əyannarının söhbətinə qulax asajam, gündə mənə onnux qızıl verəjəh, dolanajağıx.

Bu sözü eşidəndə, paxıllığa gəlir bu söz, ağsakqal bir qonşu yatmışdı, deyir, aman-zaman bircə dənə qoja inəhləri vardı. Arvad girir içəri, bunu bərk silkəliyir.

– Qalx, – deyir.

Deyir:

– Nədi?

Uşax deyəndə eşidir də bu. Deyir:

– Qalx, sən də get, dilimi mehribançılığa örgədirəm de, sən də gündə bir onnux qızıl al.

Bu da qalxır, evdə tir-dirəh qalmır, hamısını yüklüyür ulağa, qatır qabağına. Padşahın imarətinin qabağınnan keçəndə ağacı ilişdirir ulağın qıçına, ulax yıxılır. Başını qucaxlıyır yalvarır. Deyir, padşah baxıf görür, ə, qoja bir kişi ulağı yüklü gedirdi, ağacı ilişdirif yıxdı, indi uzanıf böyründə. Qulluxçunun birini göndərir ki, gör orda nə oluf, bir xəbər gətir. Gedir, gəlir deyir:

– Padşah sağ olsun, qoja kişidi, yüklü olduğunnan ulağı yıxılıfdı, o da yanında uzanıf ağlıyır, yalvarır.

Deyir:

– Get, gətir onu bura.

Gəlif aparıflar. Deyir:

– Nağarırsan orda, ay qoja?

Deyir ki, ulağa yalvarıram dursun. Deyir:

– Ə, yalvarmaxnan ulax durar?

Deyir:

– Bilirəm ey durmaz, dilimi mehribançılığa örgədirəm.

Ordan cəlladı çağırır, deyir:

– Yüz dənə çubux kəsin.

Cəza tədbiri imiş ey bu. Yüz dənə çubuğu kəsif gətirir, qandalağı salır ayağına. Deyir ki, sən bu yaşında dilini indi örgədirsən mehribançılığa? O qədər döyüllər, döyüllər, sürüyüf aparıllar atıllar küçəyə. Yiyəsi gəlif sürüyüf aparır. "Paxılın goru cəhənnəmə" sözü burdan çıxır.

Uşax, deyir, gündə gəlir padşahın qulağına bu sözü deyif gündə bir onnux qızıl alırdı. Padşahın ən tərifli vəziri heç gündə on qızıl almırdı. Özü də tərs kimi vəzirə gösdəriş verir ki, sən verərsən bunun hakqını. Vəzir indi gündə bir qızıl buna hak verir. Bir gün uşax gələndə vəzir çıxır qabağına, deyir:

– Gəlmə. Gəlif padşahın qulağına söz demə.

Deyir:

– Niyə?

Deyir:

– Padşah deyir ki, o bir də gəlif mənim qulağıma söz desə onun boynunu vurdurajam. O, mənim qulağıma söz deyəndə tənəffüsünnən pis iy gəlir.

Uşax səhərisi gəlmir. Gözdüyür, gözdüyür, gəlmir. Vəzirdən soruşur:

– Bu uşax niyə gəlmir?

Deyir:

– O uşağı mən gördüm küçədə, deyir padşahın qulağınnan pis iy gəlir, ona söz deyəndə mən iyrənirəm.

Padşah qəzəblənir:

– Uşağı gətirin.

Uşağı tapıllar, gətirillər. Deyir:

– Niyə gəlmirdin iki gün?

Deyir ki, padşahı-aləm sağ olsun, mən gələndə vəzir mənə dedi ki, səən tənəffüsünnən pis iy gəlir. O gün də mən sarımsax yemişdim, bəlkə də, tənəffüsümdən gəlirdi o iy, ona görə gəlmədim. Vəzir mənə demişdi ki, guya sən mənim tənəffüsümdən iyrənirsən. Padşah görür ki, vəzir həmin sözü də gəlif ona deyif. Vəziri çağırır, deyir ki, bu günnən bunun hakqını artırdım. Sən verəjəhsən, gündə iki onnux qızıl verəjəhsən.

Vəzirin, deyir, pulu yox idi. "Qostbankda" pulu vardı. Bir gün pulu olmur verməyə, götürür qəbz yazır "Qostbanka" ki, "Qostbank" adıyla cəllada yazır ki, bu uşax ora çatan kimi boynunu vur. Uşax, deyir, tələsih əlində kağız gedirdi. Amma bu, vəzirin oğlu ilə dosdux edirdi. Vəzirin oğlu çıxır bunun qabağına, deyir:

– Hara gedirsən?

Deyir:

– Bu gün pulumu ala bilməmişəm, kağız veriflər, gedif verif pulumu alıf gəlirəm bu saat.

Dartıf zornan bu kağızı bunun əlinnən alır. Deyir:

– Ə, sən dayan, mən gedim alım gətirim.

İndi vəzirin oğlu götürür kağızı, gedir. Oxuyan kimi boynunu vurullar. Vəzir görür ki, sən öləsən, budey, uşax gəlir.

– A bala, noldu, dünən hara getdin?

Dedi ki, əmi, dünən mənə kağız yazıf verdiniz ey, gedirdim onu almağa, sənin oğlun çıxdı mənim qabağıma, o kağızı zornan mənnən alıf özü çıxdı getdi. İndi onnan gəlif çıxmıyıf, pulumu da gətirmədi. Vəzir duyux düşür ki, hə, uşağın boynun vuruflar. Onunçün deyillər, dərin qaz, gen qaz, özün düşərsən. Bunnan da söhbət bitir.

## 63. İNSAN NƏSLİNƏ ÇƏKƏR

Bir padşahın qızını başqa padşahın oğluna alıllar. Padşahların arasında dosdux oluf. Bunnar uzun-uzadı dosd oluflar, elə bilginən ki, dosdunun evladı olmurdu, bu dosdunun da xəbəri yox idi, uşax evinnən bir qız götürüf. – Bu uşax evinnən uşax götürənnər üçün xoşagəlməz söz olur. – Bilmiyif da uşağı götürəndə kimin uşağıdı. Oğlu olan padşah dosdunun evinə qonax getmişdi. Görür bunun evində bir uşax var, deyir:

– Qızdı, oğlandı?

Deyir:

– Qızdı.

Deyir:

– Bizim evdə də biri əmələ gəlif, oğlandı. Bular yekəlif həddi-buluğa çatanda – padşah oğlu padşah qızını alar da, gedif rəiyyətin qızını almıyajax – bu uşaxları evləndirərih, dosduğumuz çevrilər qohumluğa.

Nəhayət, vaxt gəlif çatır, gəlini gətirillər. Qırx gün-qırx gejə orda toy vuruluf, qırx gün-qırx gejə burda toy vurulajax. Padşah xanımına tapşırmışdı ki, elə adam qoy gəlinə nəzarət eləsin, görsün gəlinimiz nəynən maraxlanır.

Yol uzunu qabaxda qoşun gedir musiqi çala-çala, dalıynan dəvə dəsdəsi, at dəsdəsi gəlin aparıllar. Gəlif belə keçəndə görür arx axır, arxın qırağında da söyüd ağacı qəşəh sərinnih verir. Deyir, onun böyrünnən keçəndə gəlin belə baxır, deyir:

– Nə yaxşı sağanaxlıx var ey burda.

İndi fənərkadan-zaddan eliyillər, keşmişdə fənərka yox idi. Söyüd ağacı yaxşı əyiləndi. O qaraçılar söyüd ağacını yonurdular, nəzik eliyif, qatdalıyıf sağanax qayırırdılar. Ələyin böyürlərinə sağanax deyillər. Deyir ki, nə yaxşı sağanax var ey burda. Bu söz qalır bunun yadında.

Gedillər evə, toy qurtarır, hamı çəkilir gedir evinə. Padşahın imarəti, nəhqədər qonağı, nökəri – burdadı hamı. Surfası da

çox geniş açılardı. Deyir, surfa salınıf bərdən ayna, burda heç olmasa əlli-altmış qaşıx var idi. Nəhqədər boşqab, yeməh tököllər, yeyillər, musiqi çalınır, xanımlar rəqs eliyir, qulluxçular oynuyur, xidmətçilər xidmət eliyir. Bu gəlinin heş qaşqabağı açılmır. Padşah nəzarət eliyir, görür gəlin heş nəynən maraxlanmır, çox yad görünür buna bura. Xanımına deyir ki, qulluxçuya tapşır, gör bu nəynən maraxlanır. Padşahdan da böyüh aylənin gəlini olajaydı bu, biznən maraxlammır, qaynıyıb-qarışmır? – Adamlar çəkilənnən soora gəlin yığışdırmalıdır da surfanı. Babalardan adət belədir. İndiki gəlinnər deyillər yox, qaynana yığışdırmalıdı. Desinnər, eybi yoxdu, yığışdırar qaynana. – Qulluxçu gəlini güdür, görsün gəlin nəynən maraxlanır. Görür camaat çıxannan soora otaxda heş kəs qalmadı. Gəlin girdi bura, burdan iki dənə stol qaşığı, yəni bu böyüh qaşıxdan götürdü hər əlinə birini, başdadı stolun başına fırranmağa. «Hay it, hay it, hay it» eliyə-eliyə, qaşıxları da əlində oynada-oynada üş dəfə dövrə vurdu surfanın başına, bitirdi gəldi, qaşıxları stolun üsdünə qoyuf başdadı surfanı yığışdırmağa. Axşam olur, padşahın arvadı qulluxçunu çağırır:

– Bu gün nə gördün? Padşahın tapşırığıdı, bu gün cavab verməlisiz.

Deyir:

– Mən bir şey duymadım, bircə onu duydum ki, yolda söyüddühdən keçəndə sizin gəlininiz dedi ki, nə yaxşı sağanax çıxar bunnan. Belə bir söz işdətdi. Mən qorxdum sizə deməyə ki, cəzalandırarsız ki, gəlinimizə nəsə yapışdırır. Bu gün də iki dənə qaşığı götürdü, surfanın başına dal-dala üç dəfə «hay it, hay it» deyə-deyə fırrandı.

Padşaha dedilər ki, söyüddühdən keçəndə gəlin deyif nə yaxşı sağanaxlıxdı bu. Bu günnəri də iki dənə stol qaşığı götürüf əlinə, camaat çəkilənnən soora üş dəfə surfanın başına «hay it, hay it» deyə-deyə fırranıf, soora surfanı yığışdırıf.

– Allah, evimiz yıxılıf.

– Nədi?

– Gəlinimiz qaraçıdı.

Burda it də yoxdu, Qarabağda qaraçı əlində ağac kəndə girir. Eləsi olur iki əlində də ağac olur.

İndi ismariş eliyir ki, sizə qonax gəlirih. Vaxt gəlir, yığışıf gedillər. Söhbət əsnasında deyir:

– A dosdum, sizin qızınızda belə əlamətdər olufdu. Söyüddühdən keçəndə deyir ki, burda yaxşı sağanaxlıx var. Aparmışıx, biznən maraxlammır. Tapşırıx vermişəm ki, görsünnər nəynən maraxlanır. İki dənə stol qaşığı götürüf, dal-dalına solun başına fırranıf «hay it, hay it» deyə-deyə. Qaraçı tayfasına uyğun gələn əlamətdərdi.

Deyir:

– A qardaş, başına dönüm, o vaxdı mən onu uşax evinnən götürmüşdüm, yəqin qaraçılar gətirif qoymuşdular da, nə bilim.

Deməh, körpə uşax da yekələndə atasının, anasının işdətdiyi əlamətdəri işdədir. İrsi keçir buna deyillər.

## 64. ÇOBANIN HƏCC ZİYARƏTİ

Üş nəfər gedillər ziyarətə: biri çoban olur, ikisi savatdı. Bir kəndin ayağında gejə düşür. Bular gejə hərəsi bir evdə gejəliyir. Çoban bir evə düşür, görür ki, iki uşaxdı yatıf, arvad da qazanda nəsə qaynadır, bişirir. Uşaxlar durur:

– Ana, noldu, bişmədi?

– Bala, bu saat bişəjək, bir az gözdüyün.

Xeyli vaxt keçir, çoban soruşur:

– A xala, o nədi ki, mən gələnnən qaynıyır, o bişmiyif?

Deyir ki, a qardaş, vallah, heş nə yoxdu, daşdı, su töküf qaynadıram. Bu uşaxları aldadıram, görüm bular yatarmı? Bular da ajdı, yatmıllar. Çoban çox bərk dilxor olur. Deyir ki,

buralarda ferma, qoyun olan yer var? Təxminən deyir da, bir belə gedərsən. Çoban durur tərpənir, gedir fermadan bir qoyun oğurruyur, gətirir. Kəsir, tələm-tələsih soyur, verir bu arvada, deyir:

– Bişir.

Bişirir. Deyir, ilan vuran yatar, aj yatmaz. Bu uşaxlar hara yatır, ə. Deyir:

– A bala, durun yeyin.

Duruf yeyillər. Yeyənnən soora yatışıllar. Bu da burda gejəliyir. Səhər duruf düşür yola. Belə-belə gedif çatıllar. Bərk isdiymiş, koma-koma oturullar, görüllər çoban olan komanın üsdünə bulud kölgə salır. Qıraxdakılar baxıf deyir: «Səni, bulardan kimsə savabkar adamdı». O deyir mənimkidi, bu deyir mənimkidi, başdıyıllar sporraşmağa. Bu Məkkənin də sahibi gəlir.

– Nə spordu?

Deyir:

– Belə-belə, o deyir mənimkidi, bu deyir mənimkidi.

Deyir:

– Dağılışın, kimin başının üsdündə dursa, savab onunkudu.

Hərə bir tərəfə dağılır. Görüllər çobanın başının üsdə kölgə salır. Məkkə sahibi deyir ki, bununkudu, özü də bunu yolda qazanıf, bura gələndə qazanıf.

İndi heylə oğurrux da var, belə oğurrux da var.

## 65. QIŞIN DOSTLUĞU

Qışnan biri dosd olur. Çox söhbətdər olur aralarında. Nəhayət, baxıf görür havalar yavaş-yavaş soyuyur. Qışa deyir ki, xəbər elə, mən heyvan üçün ot tədarükü görməmişəm, odun tədarükü görməmişəm. Gələndə mənə deyərsən, mən hazırraşaram da.

Deyir:

– Yaxşı.

Bəli, vaxt keçir, payız gəlir çatır. Qışın gəlməyi başdıyır. Bir səhər durur görür ki, sağ tərəfdə hündür bir dağ var, ora qarrıyıf, qar yağıf. Aradan beş-on gün keçir, baxır görür ki, sol tərəfdə hündür bir dağ var. O dağa qar yağıf. Bir beş-altı gün keçif, duruf görür ki, arxa tərəfdə bir dağ var. O dağa qar yağıf. Elə yağıf yumurta boyda. Bir səhər də duruf görür ki, həyətə nətər qarrıyıfsa, qapını açır, qar doluf içəri. Qışı çağırır. Deyir ki, biz dosdux?

Deyir:

– Hə.

Deyir:

– Bəs sənə demədim ki, gələndə mənə xəbər elə, hazırraşım?

Deyir:

– Xəbər eləməyim nətər olur ki? Buynuzu olur xəbər eləməyin? Xəbər elədim da. O dağa yağdım, səə bildirdim ki, bax, yağdım bura. O dağa yağdırdım, səə bildirdim ki, qardı ha, qış gəlir. Arxadakı dağa yağdım, qarşıdakı dağa, daa yer qalmadı. Sən başa düşmədin ki, bir gün də sənin qapının ağzına qarrıyajaxdı? Daa bunnan yaxşı bildirməh necə olur?

Hə. Qış məlumatını helə dosduna verir.

## 66. ULAQ GƏLİR, KƏS QABAĞINI

Deyir, Molla Nəsrəddin oduna gedirmiş, yer də palçıx yerdi. Bizim yerlər dərə-təpə olduğu üçün dərə-təpəni təsvir eliyirih. Təpələri çıxanda, heyvanatın ayağı sürüşəndi, ona görə həmişə bizdə nallı oluf kəllər, öküzdər, atdar. Hə... Deyir, ulax çox çətin çıxırdı yoxuşu, yükü çətin gətirirdi.

Gənəşir[37] birinə ki, ə, mən nağarım ki, bu ulax yükü gətirəndə çətin gətirir, gej gəlir, yavaş gəlir. Bir az tez gəlsin. Deyir ki, ə, o naşatırı tanıyırsan?

Deyir:

– Hə.

Deyir:

– Onnan götür, o ulax belində yük gələndə gördün ki, yavaş gəlir, gələ bilmir, onda bir damcı quyruğunun altına damızdır. Onda tez gələjəh.

Gəlir, gəlir, naşatırı da götürüf. Gedif indi ulağı yüklüyüf meşədə, odunnan gəlir. Bu yoxuşu çıxanda, deyir, yağış yağmışdı, ulağın ayağı yerdə durmurdu. Hə... Fikirrəşir ki, mamentidi. Bir damcı salır ulağın gerisinə. Salan kimi ulax dözmür, götürülüf yoxuş yuxarı çıxır. Ulax götürülür, bu çatmır indi ulağa. Yüürür, yüürür, çatmır. Fikirrəşir nağarsın. Deyir, hə, qərar verir ki, bir damcı da özünkünə salsın. Bir damcı da özünkünə salır. Nətər yüürürsə, gəlir ulaxdan qabağa keçir. Evə çatır. Görür ki, arvad saj asıf çörəh bişirir. Deyir:

– Ay arvad, mən getdim, ulax gəlir, kəs qabağını.

## 67. ÖLÜ DƏ HALVA YEYƏR?

Molla, ağacı, deyir, başdan duruf ayaxdan kəsirdi. Bir nəfər də gəlir belə baxır. Deyir:

– Ə kişi, nağarırsan sən? Ağacın başında durmusan, kökünnən kəsirsən. Ağaj yıxılajax, yıxılıf öləssən.

Elə o saatdarı pışkını[38] da atır, düşür. Tutur xirtdəyinnən ki, sən mənim öldüyüm günü bilirsən. Bu da bilmirdi. Nə bilir yazıx. Çıxış yolu axtarır. Deyir:

– Meşəyə gedirsən oduna-zada?

---

[37] Gənəşir – məsləhətləşir

[38] Pışkı – mişar

Deyir:

– Hə, gedirəm.

Deyir:

– Gedəssən, ulağı yüklüyəssən odunnan, gələndə ulax üş dəfə yel buraxajax. Birincidə sənin əjəlin gələjəh, ikincidə canına çökəjəh, üçüncüdə uje bil ki, ölürsən da.

Molla belə də edir. Gedir oduna. Elə ədəti imiş odun gətirməh meşədən. Gedir meşəyə odun qırır, yüklüyür ulağa, gəlir. Çox yükləmişdi. Deyir, yoxuş idi yol. Çıxanda güjə düşür ulax, özünü yığışdıra bilmir, bir yel buraxır. Yel buraxanda, deyir, Molla ucadan əsniyir. Əsniyir, deyir ki, hə, gəlir əjəlim. Yoxuşun ortasına çatanda bir yel də buraxır ulax. Deyir:

– Hə, əjəlim bədənimə çökdü.

Yoxuşun başına çatanda birini də buraxır. Deyir:

– Hə, indi öldüm.

Tirtap uzanır. Elə orda da qalır. Guya öldü. Ulax gəlir qapıya, Molla gəlmir. Dalıncan gəlillər ayləsi, nə bilim, qohum-əqrəbası görəh nejoldu. Gəlif görüllər Molla yıxılıf ölüf. Götürüf aparıllar bunu evin bir tərəfində uzandırıllar, meyitdi da. Uzanıf indi bu. Üsdünə-başına da sorux-morux[39] çəkillər. Ölür burda. Başdıyır, da ədətimizdi, öləndə halva bişirillər. Halva qazanı, teşti ojağın üsdünə qoyuflar, halva bişir. İndi dürməh qayırıllar, bunun dəfnində qəbirsdannıxda paylıyajaxlar. Yığıllar bir tuj vedrələrə. Bu teşt də kakraz bu meyidin başının üsdündə oluf. İndi orda – çöldə büküllər, padnosa qoyuf gətirillər, burda yığıllar teştin içinə. Molla da başdıyır burda yavaş-yavaş yeməyə. Bu daşıyıf gətirən hər gələndə görür ki, ə, gətirir, elə az qalıf. Çıxır deyir:

[39] Sorux-morux – ağ mələfə

– A bajı, mən daşıyıram, nəysə orda dürməh yoxdu. Mən daşıdıxca elə bil nəysə yeyir. Elə bil bu ölü yeyir axı dürməhləri, – deyəndə o birsi deyir:

– Nə danışırsan, aaz. Ölü də halva yeyərmi?

Onda Molla başını qaldırır, deyir ki, mən yanı o qədər ölüyəm ki, iki bülüş, – yanı bükük deməhdi, – iki bülüş halva da yeyə bilmirəm?

## 68. MƏNƏ DƏ İNƏYİM QALDI

Molla inəyini aparır bazara, – lotular dedin yadıma düşdü, – qırx lotular, deyir, durmuşdular. Görüllər Molla inəyi gətirir. İndi fırıllax qurullar ki, Molladan inəyi müftəəlləzin alsınnar. Yanı pulsuz Mollanın inəyini əlinnən alsınnar. Gəlif çatır. Molla bulara çatanda biri qabağa gedir.

– Salaməleyki.

– Əleykimətsalam.

– Ay Molla, keçini hara aparırsan?

Deyir:

– Ay bala, sən keçi deyirsən de ey, sözüm yoxdu ona, amma mən bunu qapıdan çıxardanda inəh çıxartmışam. Bazara aparıram satmağa.

Deyir:

– A kişi, gözün cılıx-bılıx, yəni əyən-bəyən görür, dolaşıx görür. Keçidi ey bu.

Deyir:

– Ay oğul, nə deyirsən de. İndi keçidi, keçidi da, neyniyim, nə deyirsən?

Deyir:

– Əşi, bu keçini niyə bazara aparırsan? Elə sat bizə da.

Deyir:

– Alın, satım da.

Deyir:

– Neçəyə?

Deyir:

– Qiyməti özünüz qoyun, özünüz də alın.

Deyir:

– Ay Molla, bu çox, çox getsə, bazarda gedər qırx maata da. Bunu ver elə qırx maata bizə.

Deyir:

– Verdim.

Molla da lotuları tanıyırdı ey. Bilirdi buların fırıldağınnan bu çətin çıxajax, amma çıxajax. Deyir ki, yaxşı, qırx maata verdim sizə. Biri gəlir qabağa, deyir:

– Molla, bax, bu mən ölüm, onun bir maatın keç mana.

Deyir:

– Ay oğul, bir maatdan ötəri mən ölüm nədi, ayıfdı. Yaxşı, bir maatını keşdim sənə.

O çəkilən kimi o birsi gəlir:

– Molla, mən ölüm, nolar bunun bir maatın da maa keç.

Belə bu minvalla otuz dokquz maatını keçir. İndi qalıf başçısı, lotuların başçısı. Baş lotu gəlir. Deyir ki, a kişi, heç insafdı bunun hərəsinə bir maat keşmisən, nolar bir maat da məə keç da.

Deyir:

– Yaxşı, bir maat da sənə keçirəm.

İndi biri dözüm gətirmir, deyir:

– Molla, bəs qırx maat idi, hərəmizə bir maat keşdin, səə nə qalır?

Deyir:

– Ay oğul, heş-zad, maa da inəyim qaldı.

## 69. ONSUZ DA DÜŞƏCƏKDİM

Bir gün uşaxlar oynuyurdular. Bu itdə olan milçəyi heyvanata – ata, yaxud ulağa buraxanda olar çox şıllaxlıyan

şeydi. Olarınkın itə buraxanda it dincələn döylü ha. Hər heyvanatın özünün milçəyi var. Bular bir itin milçəyini buraxıllar ulağın bədəninə. Ulax, deyir, soncuxluyur, təpik atır uyza-buyza, Molla yıxılıf düşür. Gülüşüllər. Deyir:

– Nə gülürsünüz, onsuz da düşəjeydim.

## 70. MOLLA SƏNİN DAYINDI

Deyir, donuz dadanmışdı Mollanın çəltiyinə. Bu söhbətdər indiki mühitə uyğun gəlir. Çəltiyə dadanmışdı. Çəltiyi Molla yığırdı dəyəyə. Xam donuz gəlirdi bu vaxtdarı, uçuruf çəltiyi yeyif dağıdırdı. Molla gündüz oranı hörüf qayıdırdı, gejə donuz gəlirdi. Bu minvalnan tamam Mollanı donuz cana yığır. Molla arzuluyur ki, mən nağarım bu heyvannan hayfımı alım. Daa çəltik mındarranıf çıxıf sıradan. Ağlına gəlir ki, bir quyu qazım, donuz gəlsin düşsün quyuya, onda donuzdan hayfımı alım. Belə də eliyir. Deməh, o donuz haranı uçuruf gəlirdisə, onun içəri üzünnən dərin bir quyu qazır. Quyunun üsdünə qarğı çöplərinnən düzür, üsdünə də azacıx küləş atır. Donuz gəlir içəri keçəndə təpəsi üsdə düşür quyuya. Molla səhər gəlir görür ki, donuz quyuda. Hirsdi adam, ajığı tutmuş, ambarı dağıdıf. Donuz nağarsın? Götürür qarğıynan belə vurur, qarğı çatmır. O biri qarğını götürür vurur, çatmır. Qarğı nağarajax donuza. Birini də götürür vurur, ucu toxunur donuza. Donuz, xam donuz, xortulduya-xortulduya quyunun dibində dairə vurur, xortulduya-xortulduya, səs eliyə-eliyə. Molla bir də gətirir yoğun qarğı. Belə yendirir, vuranda çatmır. Bir az irəli durur vursun, çatmır. Bir az irəli durur, vuranda Mollanın ayağı sürüşür, düşür quyuya, donuzun yanına. Donuz xortulduyur, cumur Mollaya. Molla deer ki, – bayax dediyini demir, – indi deer ki, ay Allahın halal heyvanı, nə xort-xort edirsən. Molla sənin dayındı. O anbarda nə qədər

çəltih varsa, hamısı sənin payındı. Nə xort-xort edirsən, ay Allahın heyvanı. Yazıx Molla.

## 71. MOLLA İTƏ DUA YAZIR

Bir çoban olur, Mollanı sınamağ üçün deyir: «Molla dayı, üzdən irax, mənim bir köpəyim var, onu sağaltsan, əmliyi verəjəm saa». Mollanın da tamahı iti olur. Dua yazır itə. Deyir ki, sən günahımnan keç, günaha yazma, Allah.

Gözüm düşdü çobanın ətinə,
Dua yazıram itinə,
Allah, sən günahımnan keç.

Belə yazır. Deyir:

– Əmliyi ver.

Deyir:

– İt sağalajax?

Deyir:

– Hə, sağalajax.

İt sağalır. Mollanın ətə tamahı düşüb, itə dua yazıf.

## 72. LAHICLILARIN DUZ ƏKMƏSİ

İki qardaş olur. Görüllər ki, hamı taxıl, yonca, arpa əkif-becərir. Bunnar da qərar verir ki, nə əkilmirsə, onu əkəh. Yaddarına düşür ki, duz əkən yoxdu, duz əkəh. Yeri şumla-dıllar, duzu əkillər. Vaxt gəlif keçir, duz çıxmır. Hara çıxır ə. Fikirrəşillər, deyillər:

– Ə, bu il quraxlıx oluf, duz çıxmıyıf.

Gələn il yeri şumluyuf bir də əkillər. İndi qərar verillər ki, qaroolun çəhsinnər. Bəlkə də, oğru gəlif aparır, oğurru-yullar. İndi qarool çəkillər. Biri sahənin o başında duruf, biri bu başında. Hərəsinin də əlində bir tüfəh. O ayannan, bu da

bayannan şumu gözdüyüllər. Bu dəkqədə yekə milçəhlərdən biri vızıldaya-vızıldaya gəlif qonur şumun ortasına. Milçəh qonanda biri görür, o birisi görmür. Bu indi çağıra bilmir ki, milçəh uçar gedər. Fışdırıx verir. O biri ordan baxanda isdiyir deyə ki, gəlif da oğru. Milçəh ordan uçur düz qonur bunun alnına. Barmağıynan gösdərir ki, oğru burdadı, qonuf alnıma. – İnsannarın avamlığına misal çəkillər ey. – O da dizini qoyur yerə, tarap bunun təpəsinə bir güllə. Gəlif görür ki, paho, kişi ölüf, milçəh də uçuf gedif.

## 73. LAHICLILARIN ODUN YIĞMASI

Lahışdılar odun yığmağa gedillər. Buların qabağına odun yüklü ulaxnan bir kişi gəlir. Fikirrəşillər ki, nağarax ulağın beli qırılsın, bu kişi odunu apara bilməsin? Uşaxdı dana. Nağarax, nağarax? Nə yühləsinnər? Söhbətin dediyinə görə, biri bajarıxlı imiş. Deyir:

– Tapdım.

– Nə?

– Paltarımızı soyunax, doldurax torbaya, meşoğa, qoyağ ulağın belinə, sarıyax. Ulağa ağırrığ eləsin, öldürsün.

Paltarrarını soyunullar, yüklüyüllər ulağın belinə odunun üsdünnən. Ulax yiyəsinin də ürəyinnəndi ki, paltardı, aparıf geyinəjəh. Bular da gözdüyüllər ki, ulağın beli bu saat qırıla, bu saat qırıla. Ulax çıxıf gedir, beli qırılmır.

İndi hamısı çılpağ, odun yığıllar. Baxıllar ora-bura. Özünnən deyənin biri baxır, görür ki, hündür bir ağaşdı. Ağacın bir budağı gedif ey, quruyuf, qabığı tökülüf. Ağ buynuz deyillər ona. Oluf ağ buynuz. Fikirrəşir, deyir:

– Mütləx mən o qanadı qırmalıyam.

Qalxır ağaca, qanatnan tuta-tuta gedir, dartır, olmur. Yavaş-yavaş qanadın ujuna gedir, dartır, dartır, genə qanat qırılmır.

Geri də qayıda bilmir. Yoldaşının birinə deyir ki, gəl sən də tut mənim ayağımnan, dartax, ikimiz qırax. Bu minvalnan yeddi nəfər olullar, buların yeddisi də tutuflar ordan, sallana qalıflar, qanad da qırılmır. Birinci tutanın əli ağrıyır. Deyir ki, ə, siz mənim ayağımnan bərk tutun. Mən əlimə tüpürüm. Heylə olar yıxılır bir-birinin belinə. Odunsuz-zadsız qayıdıf gəlillər.

## 74. BAŞIN QOLTUQ GÖRMƏYİB

Qalayçı körüyünü atın üsdünə bağlamışdı, özü də oturmuşdu, misi getmiş qabları qalaylamağ üçün bir kəntdən başqa bir kəndə gedirdi. O biri kəntdə də tanıyırdılar, ildə bir dəfə, iki dəfə gedirdi. Bilirdilər ki, gələcəhdi nə vaxdsa, bu qalayı getmiş qazandı, ləyəndi, mejməyidi, hazır qoymuşdular. Deyir, gedirdi atın üsdündə, düzün ortasında gedirdi. Çoban da qoyunun yanında durmuşdu. Çobannarda adətdi yolun qırağında duruf gəlif-gedənnən papiros isdəməh. Durmuşdu, deyir, bu atdı gəlif keçəndə bunu saxlıyır.

– Salamməleyki.

– Əleykimətsalam.

Çox eybəcər çoban idi, erkəh qoyuna gedirdi. Erkəh qoyuna gedən çoban çox qanmaz sayılırdı. O annamırmış ki, insanın təpəsinə ağaşnan vursan, ölər. Bunu saxlıyır:

– Kimsən, nəçisən?

Deyir:

– Ay bala, qoy çıxım gedim yolumnan, salamını verdim, neynirsən, bir şəxsəm. O kəndə gedirəm, qalayçıyam. Qab qalaylamağa gedirəm.

Deyir:

– Qalaylamax nədi?

Deyir:

– Ağardıram. Qabları ağardıram, – deyən kimi çoban bunun yükünü aşırdır, salır yerə. Bu da yükün üsdünnən dəyir yerə, yıxılır. Deyir:

– Ay oğul, nə isdiyirsən?

Deyir:

– Mənim bu ağacımı qalayla.

Deyir:

– A bala, ağacı qalaylamağ olmaz.

Deyir:

– Demirsən qalayçıyam, mən sənə burda hardan alım qazanı, mənimki də ağaşdı da. Demirsən ağardıram, mənim bu ağacımı ağart.

Gərəh burda körüh qura, kömür közərdə, körühlüyə, soora ağarda. Ağac da yanajax, quru ağac. Deyir:

– Ay oğul, yanar ey ağac, qalay götürməz.

Olmur. Payasını qaldırır, deyir:

– Səni, boynu kökünə bir ağaş vuraram ağzın dəyər yerə. Qalayçı deyilsən, qalayla.

Ayna-bayna baxır,köməh axtarır. Görür ayanda bir kişi qoyun otarır. Deyir:

– Oğul, qalaylıyaram, o kişiyə bir sözüm var, deyim gəlim.

Körüyü də burda qoyuf qaça-qaça gedir kişinin yanına. Kişi görür ki, uşax atdını saxladı, yükünü aşırdıf saldı, kimisə incidir. Budaha, qaça-qaça gəlir.

– Noluf?

– A balam, bu uşax sənindi?

Deyir:

– Hə, mənim oğlumdu.

Deyir:

– Sənin oğlundu lap yaxşı. Çox olsun sənin oğlun, amma bu ağılda olmasın.

Deyir:

– Nədir?

Deyir ki, a kişi, quru ağaş heş qalay götürər? Mən qalayçıyam, yolumnan gedirəm kəntdərə qalay qalaylamağa. İndi yükümü də aşırtdı, məni də atdan saldı. Dirənif ki, bu ağacı qalayla. Kişi nə desə yaxşıdı?

– Ə, nə qanır, nə qanır ə. Çobandı, nə qanır, get ağart, ver əlinə.

Əlacı kəsilir, nağarsın ağsakqal belə deyəndə. Bunnan da güman yeri kəsildi. Qayıdır gəlir, körüyü qurur.

– A bala, vallah, yanajax.

Razılıx vermir, tutaşıllar. Bu deyir qalaylıya bilmərəm, bu deyir qalayla. Tutaşıllar, yazıx qalayçının başı keçir bunun qoltuğunun altına. Qalayçının başını nətər sıxırsa, qalayçı görür yox ey, başı əzilir, xırtıldıyır, deyir:

– Burax ə, burax ə, qalaylıyıram.

Əlacı kəsilir, başı əzilir axı. Körüyü qurur, indi ağacı soxur körüyün içinə. Qara tüsdü qalxır, çəkir qalaydan sürtür ki, birtəəri eləsin versin. Bir ayrı qalayçı keçirdi. Heş qalayçı deyildi ey, ağardanmış. Bu, əsl qalayçı idi. Soradan gələn qalayçı görür bu, ağacı soxur, çıxardır. Deyir:

– Ə, nağarırsan?

Deyir ki, ağaş qalaylıyıram.

Deyir:

– Ə, quru ağaş qalay götürər, Allah başaa xeyir eləsin. Sən nətər qalayçısan, sənin ağlın kəsmir ki, quru ağaş qalay götürməz?

Deyir:

– Başın qoltux görmüyüf, başın qoltux görə, görüm götürür, götürmür.

Bunnan da qalayçının söhbəti bitir.

## 75. QAZININ BÖLGÜSÜ

Deyir, ölkənin padşahının üç oğlu vardı. Vaxt gəlir, padşah əldən düşür, ölüm yatağına düşür. Oğlannarını çağırır, vəsiyət eliyir:

– Məni yaxşı dəfn eliyin, gələnə-gedənə yaxşı baxın, ağıllı olun, mülkümə yaxşı baxın, dağıtmıyın.

Vəsiyətini eliyir. Biri xəzinəyə gedir ki, harda qiymətdi şey var, onu götürsün, kiçih qardaşı qəbir qazmağa göndərillər. Bu da gedir eşşəh xəndəyinə oxşar bir şey qazır. Ortancıl qardaş gələn-gedəni qarşılıyır. Bu minvalnan kişini yola salıllar. Keçillər kişidən qalma mirası bölməyə. Bölüllər, düz gəlmir. Böyüh qardaş – böyükçülüh də var, – birinci bu gəlifsə, bu da qazanıf da. Soradan gələnnən bu bir döylü axı. Beş yaş o birilərinnən yekədirsə, beş yaş artıx qazanıf. Qoyuna gedifsə, beş quzu əmələ gəlif da bir qoyunnan, böyükçülühnən əlaqədar olarax böyüh qardaş özünə çox pay götürür. Ortancıl deyir məə də çox düşməlidi, kiçih deyir bəs mən nətər, filan. Bölə bilmillər. Çox götür-qoy edillər, buların böyüyü-kiçiyi yaxın gəlmir, buların bölgüsünə şərih olmur, bulara köməh eləmir. Nəhayət, qərar verillər ki, getsinnər qazının yanına, qazı bölsün. O vaxdı bölgünü qazı bölərmiş. Gəlillər qazının yanına. Qazı deyir:

– Xoş gəldiniz, beş gəldiniz, kimsiniz, nəçisiniz?

Deyillər, filan padşahın övlatdarıyıx, atamızdan qalan mirası bölə bilmirih aramızda, xayiş edirih onu bizə bölüf verəsən.

Deyir:

– Hə, başınıza dönüm, sadalayın görüm atanızdan sizə nə qalıf?

Başdıyıllar sadalamağa. Atamızdan bizə bir at qalıf, bir xəli qalıf, bir tapança qalıf, bir dəhrə qalıf. Bütün nəyi varsa, hamısını sadalıyır, sadalıyır, sadalıyır. Qutaranda deyir deyin. Deyir:

– Hə, qutardıx.

Başdıyır indi qazı bölməyə. Qarabağda danışılana görə bütün haça dilli atdar Şirvan zonasında oluf. Bu atdar ceyranı quzu kimi tuturmuş, yorulmax bilmirmiş, ceyrannan bərk qaçırmış. Nişanalarını deyirəm: ayaxları səkilli olur, uzun biləh, haça qulax, boynu nazik. Elə bu əlamətdər arıxlığı bildirir da. Deyir ey, dil nazik, bel nazik, tel nazik, denən bir quru cəsəddi da. İndi onun sözü olmasın, bu əlamətdər onun arıxlığını bildirir, amma bərk qaçan olufdular. Hətta deyillər hər qoçax onun üsdündə dura bilməzmiş. İndi gör bu atı qazı nə günə qoyur. Deyir:

– Şirvanski dayça – endirdi təmiz, təmiz qiymətdən saldı, – amerkanski tapança, iranski xalça, – xəlini xalçaya çevirdi, – qazı paluçayetsya.

Seşdi içinin yekələrini götürdü özünə. Hakk alır da, daa havayı bölmüyəjəh ki? İndi yetimin payını verir.

– Xorratski nehrə, – fikir ver ey nə boydadı bu, – dülgərski cəhrə, kuzniçeski dəhrə yetim paluçayetsya.

Gör yetimə nələr verdi. Bu, nəyə gəlir? Bir növ təlimdi ki, malını özün böl. Qarabağda deyillər ki, özgənin itirdiyi malı özgə bayatıynan axdarar. Tapar tapar, tapbaz ona əsər eləməz. Gərəh özün axtarasan malı. Bu da ona bənziyir. Malı bölə bilmədin, qazı da seşdi yarıyannarını özünə götürdü, içinin çürüyünü verdi səə.

## 76. SƏN SƏNSƏNSƏ, MƏN KİMƏM?

Camaat gəlif parkda oturur, duranda bir kişi özünü dəyişih salırmış. Bilmirmiş özü nədi, kimdi. Bu adamın hansı bunun özüdü. Nəysə, bir gün fikirrəşir, deyir ki, hə, deməli mən özümü tanımağ üçün özümə nişanə qoymalıyam. Gətirir indi bu bir dənə boranını qoyur torbaya, asır tokqasının böyrünnən. Gəlir parka, tokqadan da asılı boranı, balaca bir

boranı. Görünür yuxuluyurmuş da bu, duranda özünü dəyişih salırmış. Yatır bu. Yatannan soora özünə oxşar bir şəxs gəlir bunun böyründə oturur. Belə baxır, görür ə, bu, boranını belinnən asıf. Fikirrəşir, deyir:

– Ə, yaxşı oldu, bu boranını açım bağlıyım öz belimə, görüm duranda bu nağarajax.

Bunun belinnən boranı olan torbanı açır, bağlıyır öz qurşağına, yanı öz tokqasına. Bu oturuf indi bunun böyründə. Bu, yuxudan ayılır. Görür ki, böyründə bir kişi oturuf, boranı da onun belinnən asılıdı, bunun belində də yoxdu. Deyir:

– Baho, dəyişih düşdüm ey.

Fikirrəşir, deyir:

– A qardaş, mən mənəmsə, bəs sən kimsən? Yox, sən mənsənsə, bəs onda mən kiməm?

Orda boranıya görə deyir ha. Boranı bunun belinə bağlıydı, indi bağlanıf ora, dəyişih salır. Bilmir kim kimdi.

## 77. KİŞİSƏN, STOLUN HAQQINI VER

Pulu yoxdu birinin, bərk də ajmışdı Bakı kimi yerdə, şəhərdə. Fikirrəşir, yürünür, yürünür, pulu yox, ajıf özü də. Resdoranın iyi vuruf, dayana bilmir. Deyir:

– Əşi, gedif doyunca yeyəjəm, onsuz da döyüf buraxajaxlar dana. Da nəyim var, nə alallar?

Gəlir elə içəri girəndə yeməhləri mənim kimi yeməmişdi ey, adını da bilmirmiş. Oturan kimi afisiant gəlir.

– Nə isdiyirsən?

Deyir:

– Bax bu camaat nə yeyir onnan məə də ver.

Ə, camaat kefi kök adamdı, oturuf burda, qonaxlıx, konyak, arax, kabab, lülə qarışıf bir-birinə. Nə varsa stalovada afisiant hamısınnan yığır bura. Bu başdıyır həzin-həzin yeyir,

yavaş-yavaş təhcəjə yeyir. Fikirrəşir ki, nağarsın, bunun axırı nolajax. Trup deyincə yeyir ey. Tamam yeyir, araxdan, konyakdan da vurur. Doyannan soora qalxır ayağa, əlini vurur stola, deyir:

– Ə, nejə burda bir kişi yoxdu ey, ə – deyəndə stalova da dolu adamdı da. O, bunun üzünə baxır, bu, onun üzünə baxır.

– Ə, bu nə axmax danışır? Kişi yoxdursa, burdakı camaatın hamısı kişi döyül?

Nəysə, indi heş kəs cürət eliyif deyə bilmir ki, ə kişi, nə danışırsan sən. Bu bir də əlini vurur stolun üsdünə.

– Ə, nejə burda bir kişi yoxdu ey?

Bir oğlan qalxır, gəlir deyir:

– Kişi, əməlli danış, nejə yanı kişi yoxdu ə?

Deyir:

– Var, ay oğul?

Deyir:

– Niyə yoxdu ki?

Deyir:

– Hanı?

Deyir:

– Mən.

Deyir:

– Kişisən, babanın stolunun hakqını ver da.

Hindi bu sözdən soora kim vermiyə bilər?

## 78. QIRQOVUL DEYİB YEYİRƏM

Deer, ovçu ovdan gəlirdi. Bütün günü piyada gəzmişdi qoşalülə tüfəh çiynində. Çox yürünür, yürünür, əlinə ov keçmir. Nəhayət, qayıdır gəlir. Düzü-biyabandı, aşağı düşürdü, deyir. Bərk ajmışdı. Baxıf görür ki, yeri şumluyufdular. Taxıl səpiflər, qarğa gəlif tökülüf, ala qarğa. Qarğaların da növü var ey.

Qara qarğa, ala qarğa, dul qarğa. Qara qarğa yeməlidi, yeməh olar. Hə. Ala qarğa gəlif tökülür. Tüfəyi hərriyif atır, qarğanın biri qalır. Bunu götürür gəlir. Görür ki, belə sahənin qırağında nazik su axır. Fikirrəşir, daa yeriyə bilmir, bərk ajmışdı. Deyir:

– Elə bunu təmizdiyim suyun qırağında, yuyum-eliyim başını-gözünü. Şahtikannan-zaddan ojax qalıyım, bunu kabab eliyim, yeyim.

Deer, qarğanın başını kəsir. Tükünü-zadını yolur tökür, qarnını yarır, içini çıxardır. Ətini təmizdiyir, yuyur-eliyir. Şahtikan çöpünnən belə şişdər qayırır. Şahtikan yığır gətirir bir xeylax, ojax qalıyır. Başdıyır indi tikələri xırda-xırda kəsir taxır şişə, ojağa tutur, bişirir. Başdıyır yeməyə. Bu vaxt başqa bir ovçu gəlir. Bu da başqa səmtdən gəlirmiş. Görür ki, suyun qırağında ala qarğanın ayaxları, başı, tükü. Bu da kabab bişirir burda. Deyir:

– Ə, nağarırsan?

Deyir:

– Kabab bişirirəm.

Deyir:

– Nədən?

Deyir:

– Ə, gəlirdim, sən ölmiyəsən, bir dənə qırqovul çıxdı, atdım, çox idilər, qaşdı getdi, biri qaldı. İndi onu bişirif yeyirəm.

Dedi:

– Hanı ə qırqovul?

Dedi:

– Ə, deynə, ayağı-başı orda. İndicə kəsmişəm, heş tullamamışam.

Deyir:

– Qırqovul nədi, ala qarğadı ey o.

Deyir:

– Ə, sən ala qarğa bil, mən qırqovul deyif yeyirəm. Ad qoyulanda orda idin?

## 79. XƏRCİN NƏ ÇIXIR?

At ölmüşdü, aparıf yiyəsi tullamışdı çölə, dərənin birinə. Arığınnan ölmüşdü. Quşdar gəlillər indi bu leşin üsdünə. Dartışdırır kim nə bajarır yeməyə. Quşdar yeyillər. Ala qarğa özünü doyurur, saxsağan da doyur. İndi çıxıllar belə, leşdən beş-on metr aralanıllar, özdərini havaya verillər. Qarğa qənətdərini belə çalır, deyir:

– Arrrıxdı, arrrıxdı.

Saxsağan da qayıdır ki, xərrcin-xurrcun nə çıxır, xərrcin-xurrcun nə çıxır?

Yəni pul verirsən? Müftə şeydi də, yeyirih. Nağarax arıxdı. İndi lətifəsi bizdən uzax. A kişi, müfdə yerə danışıram. Sən məni elə bil imtahan eliyirsən.

## 80. ABDAL QASIMLA ERMƏNİ AŞIĞI

Saz aşığı erməni gəlir. Deyir ki, gedif Avdal Qasımı bağlıyajam. Avdal Qasım da, deyir, yolun qırağında qolunu yayıf söykənif ağaca. Erməni Avdal Qasımı görməmişdi, tanımırdı, amma eşitmişdi Qasım belə hazırcavab adamdı. Deer gəlif keçəndə Avdal Qasım görür ki, bir erməni çiynində saz kəndə tərəf gedir. Deyir:

– Ə, hara gedirsən?

Deyir:

– Qasım kirvənin yanına.

– Ə, nəyə gedirsən?

Deyir ki, gedirəm onu bağlıyajam.

Deyir:

– Nətər bağlıyajan? Bir de görüm, nə deyif bağlıyassan?
– Deyəjəm ki,

Əziziyəm, bəndə səni,
Salaram bəndə səni.
Qoymaram gələsən,
Bizim kəndə səni.

– Bəs onda Avdal Qasım dinməz durajax?
Deyir:
– Məə nə deyəjəh bu sözün qabağında?
Deyir:
– O da deyəjəh ki,

Əziziyəm bəndə səni,
Salaram bəndə səni.
Yıxaram harsınını,
Qoymaram kəndə səni.

Elə ordan da erməni qayıdır dala. Deyir:
– Ə, bunun çobanı belə danışanda indi gör Qasım nağarajax da. Gör mana nə deyəjəh?

## 81. İKİ AŞIĞIN DEYİŞMƏSİ

Bir aşıq çiynində saz, altında at... Atı o qədər sürür ki, at ajır. Həm tərriyir, həm yorulur. Məsafə uzağ olur. Yiyəsizdih, meşənin arasıynan gəlirdi. Yolun alt tərəfində çay axırdı, bu Kəlbəcərin yolu kimi. Üsd tərəfi meşə idi, tamam yiyəsizdih. Yolun qırağında yekə-yekə daşdar. Oranın camaatı ona çınqıl deyir. Daşın birini, onun hissələrini bir maşın götürməz. Bax, belə dağdan qopuf gəlif tökülmə daşdardı. Qopmasının da səbəbi ildırımın çaxması, yağışın yağması, günün qayanı korlamağı, çatdatmağı. Bular uzun işdərdi. Fikirrəşir, deyir ki, düşüm, elə yiyəsizdihdi. Özü də at yoruf məni. Bir az oturum dincəlim, at da bir az otdasın, soora yoluma davam eliyərəm. Düşür, de-

yir, çidarını[40] çalır, buraxır. At otduyur, özü oturuf bir daşın üsdünə, sazı da qoyuf böyrünə dincəlir. Bu dəmdə baxır görür ki, ey, aralıdan, bu gəldiyi səmtdən atdı gəlir. Atdı gəlir, gəlir, yaxınnaşanda görür ki, bir nəfər oturuf daşın üsdündə, dincini alır, atı da buraxıf, at otduyur. Bu səhnəni görəndə yadına düşür. Deyir ki, elə mən də uzax yol gəlmişəm, yaxşı oldu, həmsöhbət olarıx. Mən də düşüm, atın çidarını çalım, at otdasın, mən də oturum bir az dincəlim, soora bir yerdə yolumuza davam eliyərih. Bu da, bəli, gəlir düşür atdan. Atın çidarını çalır, atı buraxır. Buna yaxın bir daşın üsdündə oturur.

– Salamməlöykü.

– Əleykimətsalam.

Hər ikisi dinməzcə oturmuşdu. Bu soradan gələn aşıx qabaxca gələnnən soruşur ki, kimsən, nəçisən, hardan gəlif hara gedirsən? Cavab verir ki, aşığam, dağdan gəlif arana gedirəm, çalıf-çağırmağa, yəni oxumağa, çalmağa, şənnənməyə, qazanc eləməyə. Bəs sən kimsən? Cavab verən o birisinnən soruşur, soora gələnnən soruşur.

Deyir:

– Mən də aşığam. Dağdan gəlirəm, arana gedirəm çalıb-çağırmağa.

Deyir:

– Lap yaxşı.

Bu əvvəl gələn deyir ki, bilirsən nə var, bajı oğlu? İki qoçun başı bir qazanda qaynamaz. Gəlginən elə ikimiz də bir səmtə gedirih. Orda bizim sözümüz bir-birinnən düz gəlməz. Gəl burda bağlama deyəh. Kim kimin bağlamasını aça bilməsə, sazını alsın, o da qayıtsın dala. Qayıtsın getsin işinnən məşğul olsun, onnan aşığ olmaz. Aşıxlar arasında belə bir şərt var. Deyir:

– A bajı oğlu, qoy gedəh başımızı hərriyəh.

[40] Çidar – atın ayaqlarını bağlamaq üçün kəndir

Deyir:

– Yox ey, burda deyişəjeyih. Kim kimi bağlasa, bağlanan qayıtsın getsin da.

Deyir:

– Yaxşı.

İndi yiyəsizdih, dağın havası, meşənin havası. Su axır aşağıdan. İki kefi kök adam, saz oxuyannar. Bu aşıxlar sözdəri qurtaranda dalay-dalay deyillər. Bu dalay-dalay sözünü bunnar oxumağa başdamazdan da deyillər. Bəzən də lap ucadan deyillər ha. Ərə, gəl hey, ho dalay-dalay, ho dalay-dalay, ho dalay-dalay. İndi bular döörə vurullar belə. Bir-birinin arxasınca sazı çalıllar. Ho dalay-dalay, ho dalay-dalay. Uzun-uzadı dalay-dalay. Dalay nəyi gösdərir? Dalay buların heş birinin heş zad bilmədiyini gösdərir. Dalayın da əsl mənasını izah eləsən, dala qayıt deməhdi. Hə. İndi qabaxca gələn arxadakına deyir. De gəlsin. Deyir:

– Ə, yox, əvvəl sən gəlmisən, sən de, gəlsin.

Deyir:

– Onda deyirəm, gəlsin. Bağlamanın şərtini bilirsən. Dediyim bağlamanı aça bilməsən, sazı alajam, səni dala qaytarajam.

Deyir ki, – arxadakı cavaf verir ey, – dediyin bağlamanı bilməsəm, sazımı verif geri qayıdajam. Gərəh təsdiq eliyə ey. Yoxsa deyəjəh bilməmişəm, mən eşitməmişəm. Gərəh dilinnən deyəsən. İndi deyir:

– A dalay-dalay, ha dalay-dalay, – uzun-uzadı dalaydan soora deyir al gəlsin, deyirəm.

Yola bir sandıx düşmüşdü,
Yola bir sandıx düşmüşdü,
Yola bir sandıx düşmüşdü,

– Uzadır da bu sözü.

Tap görüm o sandığın içində nə vaaar imiş,
İçində nə vaaar imiş,

O sandığın içində nə vaaar imiş?

İndi başdıyır bu axdarır. Açajax bu yola düşən sandığı, sandığın içində nə var? Fikirrəşir, bütün kitabları tökür, mənim kimi boş kəllə, varaxlıyır oyza-buyza, tapa bilmir. İndi vaxt keçir axı. Görür uzandı, indi bu təkrar eliyir ki, tez ol de gəlsin, cavabı ver gəlsin, ver gəlsin. Bu tapa bilmir. Deyir ki, ə, sən yerin altınnan danışırsan – cavaf verir indi. Yerin altınnan danışırsan, göyün qatınnan danışırsan, o nədi, onu mən tapa bilmirəm, tapa bilmirəm.

Deyir:

Onda sazı qoy yerə, saz mənimdi,
Sazı qoy yerə, saz mənimdi.
Tapa bilmədin, tapa bilmədin.

İndi o cavaf verir, sazı əldən gedir. Deyir:

Ədə yanerəm, ədə yanerəm,
Saz gedir əldən, sazımı alersən.
De görüm o nə imiş?

Deyir ki:

O ki yola düşmüşdü
Spişka karofkası idi,
İçində spişka var idi.

Gör nəynən bağlıyır ey. Bağlamanın dərəcəsinə bax ey. Gülməlidi, həm də məzmununa bax. Gör nəyi tapbax çətindi. Sazını alır, qaytarır. Bununnan da buların deyişmələri bitir.

## 82. MƏNİ SUYA APARIN

Bir nəfər özünü çoxbilmiş hesab eliyir. Bədbaxlıxdı da bu. Qarşısındakını savatsız, biliksiz hesab eliyir. Bu savatsız, qammaz adamların işidi ki, qarşısındakını zəyif hesab eliyir. Mənim düşündüyüm belədi. İnsan odu ki, qarşısındakını, lap

savadsız da olsa, aciz adam da olsa, özünnən üsdün tutmasın. İndi isdiyir ki, bunu alçatsın. Deyir buna bir sual verəjəm, görüm o suala nejə cavab verəjəh. Bildiyi bu imiş ey. Özünü çoxbilmiş hesab eliyir, amma əslində heş-zad bilmir. Deyir ki, ay yoldaş, sənnən olar bir söz soruşum?

Deyir:

– Gözəl olar.

Deyir:

– Mən susamışam, isdiyirəm bir az mədəni danışım. Nə cür danışım? Deyim mana su gətirin, yoxsa mən su işməh isdiyirəm.

Deyəndə deyir:

– Heş birisi mədəni olmaz onun.

Deyir:

– Bə nə cür deyim?

Deyir:

– Hamısınnan yaxşısı odu ki, deyəsən ki, məni suya aparın.

## 83. MƏN ÇƏRDƏYİ ÇIXARDIB ATDIM

Kişi bazardan aş gavalısı alıf gətirir. Oğruluğunu, əyriliyini, düzdüyünü təyin etməh üçün sayır gavalını, görüm neçə gavalıdı. Yığır boşqaba, qoyur yükün altına. Axşam adət-miş çörəhdən soora həmişə meyvə yeyəllərmiş. – Mənim yaxşı yadıma düşür, uşax idim onda mən, çörəh yeyilənnən soora meyvə gəlirdi surfaya. – Yeməh gələn zaman gavalını qoyullar bir qırağa ki, yeməh yeyilənnən soora gətirsinnər. Gavalını da qoyanda uşağın biri görür. Bir dənə gavalını götürüf yeyir uşax. İndi axşamdı, yeməh yeyilif. Kişi deyir:

– Orda meyvə var, gətirin surfaya.

Gətirillər. Kişi sayır, görür gavalının biri əysikdi. Deyir:

– Gavalının biri əysikdi, əlli dənə olmalı idi, qırx doqquzdu. Birini kim alıf?

Heş kim boynuna almır. Deyir:

– Mən gavalını neynirəm ki, onsuz da yeyiləjeydi. Amma o gavalını kim yeyifsə, onun çərdəyinin uju çox şişdi. Əgər udufdusa, o çərdəh batıf onun mədəsini deşəjəh, – deyəndə uşax deyir ki, mən çərdəyi çıxardıf atdım.

## 84. DEYİNGƏN ƏR

Kişi, deer, həmişə arvadını töhmət eliyərdi. Töhmət, deyir, bu olardı ki, yeməhləri bəyənməzdi. Yarpax dolması bişirərdi, deyərdi bunun göyünü çox yekə doğramısan, ya ayranı çox turşdu. Bir günnəri ət alır gətirir. Arvad gətirir bozbaş bişirir. Kişi deyir:

– Aaz, mən bozbaş yemijeydim, bunu sən niyə kabab eləməmisən?

Gələn dəfə alıf gələndə kabab bişirir. Deyir:

– Yox, ey. Aaz, mənim ətimi tərg eləmisən, mən kifdə yeyəjeydim.

Üçüncü dəfə, deyir, gələndə kifdə bişirir. Deyir:

– Əşi, yox ey, mən qourma yeyəjeydim.

Belə-belə kişi arvadın təmiz canını yığır boğazına. Bir gün kişi ət alanda arvat qərar verir ki... Tərəziyə qoyulan ətin dini-bərəkəti də olmur. Yekəxana olmasın. Tərəziynən çəkilmiş ətdi da, yarım kilo, bir kilo, çox olsun iki kilo, alıf gətirif. İndi arvat bütün bişmişdərin hamısınnan bişirir ki, kişi hansınnan desə, ona versin. Hazırrıyır. Bütün bişmişdər hazırdı. Evi də süpürür, qab-qacağı silir, abışkanın şüşələrini silir. Nə varsa, təmizdiyir, süpürür. Görür kişi gəlir. Girir içəri, yan döşəyini salır. Yan döşəyi uzun döşəhdi. Mütəkgəni qoyur, yasdığı qoyur, kişi yaxşı uzansın. Ev-eşiyə baxır, hər şey səliqəli, qaydasında. Elə kişi seyvanda ayakqabılarını çıxardır ki, içəri daxil olsun. Arvat çönür belə, görür – körpə uşax var idi, –

uşax palazın küncünə təzəh qoyuf. Daa götürməh mümkün olmur, kişi gəlif çatıfdı. Palazın qulağının birini qatdıyıfdı üsdünə. Kişi gəlif keçir, gedir oturur. Oturan kimi arvad surfanı salır, bozbaşı gətirir.

– Yox ey, mən qourma yeyəjeydim.

Qourmanı qoyur.

– Yox, mən kabab yeyəjeydim.

Kababı qoyur. Bütün bişmişdərin hamısının adını çəhdihcə qoyur surfaya. Kişi hirssənir hindi. Söz tapbır deməyə. Nətər çaşırsa, ağlını Allah alır, özünnən asılı olmuyarax deyir:

– Yox ey, mən p.. yeyəjeydim.

Deyən kimi arvad palazın qulağını açır:

– Bu da p.., a kişi, yeməh isdirsən, ye.

## 85. BU GÜNÜN QABAĞINDA QAR DURAR?

Qış düşmüşdü, qar basmışdı, kəl, öküz, keşmiş vaxdın sözüdü. Hə. Birinin otu qutarır. Hələ yaz gəlmiyif, ot çıxmıyıf. Heyvan qalır aj. Durur gedir əmisi oğlunu, dayısı oğlunu, qardaşını – hamısını yığır bir yerə. Deyir ki, ə, mənim malım qırılajax, sizin də otuuz çoxdu. Camaat hamısı sizi qınıyajax ki, bax, hərəniz bircə şələ ot verseydiz, onun heyvanı yaza çıxardı. Köməhlih eləmədiniz, adamlığınız çatmır, filan-beşman. Bax, bu töhmətin altınnan çıxa bilmiyəjehsiz. Mənə ot verin bu heyvanıma verim, qırılmasın, çıxsın yaza. Deyillər ki, şərt kəsəh. Ot verəjeyih. Nə qədər özümüzə çatır, bir heylə verəjeyih, çıxsın yaza sənin heyvanın. Amma şərtimiz budu ki, biz o otu sənnən isdəmijeyih. Amma bu şərtnən ki, öz heyvanına ot yığğınan. Qış gələndə başdama dilənməyə.

Deyir, indi yay gəlifdi, ot çalınır. Artırmada həmən ot dilənən palazı saldırıf, döşəyin üsdündə uzanıf. Camaat gedir

ot çalmağa. Məən kimi, odey, oturuf. Birdən biri deyir ki, ə, bu tənbəl elə oturuf evdə gənə. Qışda gənə gəlif zəhləmizi tökəjəh ki, ot ver, ot ver. Gedəh onu da durğuzax, cəhənnəmə, getsin özünə ot yığsın da. İndi gəlillər. Birinin çiynində yava, birində dəhrə, birində, nə bilim, çalma. Belə qalxır oturur ki, hara gedirsiz, ə. Deyir ki, dur gedəh dana, qış gəlir ey, qar yağajax. Gedəh ot çalax.

Deyir:

– Ə, nə düşüncəsiz adamlarsız ey siz. Ə, bu günün qabağında qar durar?

Hə, bax, belə. Beləsi də var.

## 86. QOYDUM QAÇDIM

Biri oluf, qoldan zorruymuş. Həmişə dəyirmana dən aparanda birini əənə eliyirmiş, birini bəənə eliyirmiş, dəni üyüdüf tezcə gəlirmiş. Elə bil ki, qolunun güjünə güvənirmiş. Həməşə də evə gəlif çıxanda dədəsi bına deyirmiş ki, a bala, nətəri oldu belə tez üyüdüf gəldin? Deyirmiş ki, ay dədə, birini əənə elədim, birini bəənə, kimdi maa bir söz deyən. Orda bir kişi yoxuydu. Dədəsi də həmişə bına deyirmiş ki, bala, heylə demə, kişi var, qabağaa çıxmıyıfdı, irast gəlmiyif. Bir gün dalı q….nın biri qabağaa çıxajax. Belə-belə.

Bir gün genə dən aparır. Genə birini əənə, birini bəənə. Birinə də güj gəlməh isdiyəndə həmin adam əl atır bının yaxasına, bını tutur, belə qaldırır. Sən demə, bının şalvarının paçası cırığımış. Bı bını göyə qaldıranda dalının q… görükür. Bı deyir ki öz-özünə, sən öl, bı elə dədəm deyəndi. Dədəm deyən dalı q…. bıdı. Qoyur qaçır. Gəlir. Nə dən var, nə un var, heş nə yox. Elə canını götürüf qaçıf. Dədəsi deyir:

– A bala, nədi, noluf?

– Dədə, heş nə. Sən deyən dalı q… gəlmişdi, qoydum qaşdım.

## 87. TÜLKÜ TÜLKÜLÜYÜNÜ BİLDİRİNCƏ

Padşah loğmanı çağırır, deyir:

– Başım çox bərk ağrıyır, nağayrax?

Loğman deyir ki, bir dənə dəvə tapdır. Onu kəsdir, beynini bişirtdir, ye, başının ağrısı kəssin. Deyir tülkü qaçırdı meşədə, bərk qaçırdı. Pələng, şir çıxır bunun qabağına. Tülküyə deyir ki, hara qaçırsan. Deyir ki, padşahın başı ağrıyır, Loğman dəvənin beynini ona dərman deyifdi.

– Bəs sən niyə qaçırsan? Sən ki dəvə deyilsən, tülküsən?

Deyir:

– Ə, tülkü tülkülüyünü bildirincən dərisini boğazınnan çıxardıllar ey.

Hə, bax, belə qısa timsallar var.

# ABBAS MAHMUD OĞLU ABBASOV

**Abbas Mahmud oğlu Abbasov** – 1938-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndində dindar bir ailədə anadan olub. Babası Hacı Abbas həcc ziyarətində, ana babası məşhəd ziyarətində olub. Atası Mahmud kişi isə kəndin mollası olub. Dindar ailədə böyüdüyündən hələ kiçik yaşlarından dinə maraq göstərib, babasından, atasından Quranın müəyyən surələrini öyrənib. 1958-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai sinif müəllimliyi fakültəsinə qəbul olur. 1962-ci ildə ali təhsilini başa vurduqdan sonra Soltanlıya qayıdır və 30 ildən artıq Soltanlı kəndində ibtidai sinif müəllimi işləyir. İxtisasının müəllim olmasına, səkkiz kəndin metodisti işləməsinə baxmayaraq, əhali arasında müəllimdən daha çox molla kimi tanınır. Ona görə də hamı onu Molla Abbas deyə çağırır. Abbas kişinin dediyinə görə, atası dünyasını dəyişəndən sonra kənddə molla olmadığından yas yerlərinə gizlin gedib fatihə verər, Quran oxuyarmış. 1993-cü ildən sonra isə sərbəst mollalıq etməyə başlayır.

Abbas kişi ilə biz görüşəndə artıq onun 76 yaşı vardı. Doğma yurdundan didərgin düşmüş, Sabunçu rayonu ərazisində kiçik bir evdə məskunlaşmaq məcburiyyətində qalmışdır. Özünün dediyinə görə, Soltanlıdan çıxarkən əmlakından, varından, dövlətindən bir çöp belə çıxarda bilməmişdi. Bir oğlu müharibədə şəhid olmuş, digəri ikinci dərəcəli əlildir. Çəkdiyi bu müsibətlər, qayğılar onun yaddaşını tamam zəiflətmişdir. Halbuki gənclik illərində qeyri-adi yaddaşı olub. Bildiyi nağılları da həmin illərdə atasından eşitmiş və güclü hafizəsi sayəsində yadında saxlamışdı.

Abbas kişi universal bir adamdır. Müəllimlikdən, mollalıqdan əlavə, həm də sınıqçılığı, çöpçülüyü, tamadalığı bacarır.

Vaxtilə bir çox məclislərdə tamadalıq etmiş, əgər müraciət olunarsa, yaşının ahıl çağında belə yenə tamadalıq edə biləcəyini deyir. Abbas kişi həm də şair təbiətli bir insandır. Müxtəlif şairlərə məxsus 90-dan artıq şeir bilir, yeri gələndə özü də müəyyən şeirlər yazır. Nağıllarda da tez-tez şeirdən istifadə etməsi onun poeziyaya olan marağından qaynaqlanır.

## 88. İSGƏNDƏR ZÜLQƏRNƏ

İsgəndər Zülqərnə həddinnən artıq varrı, döölətdi adam olur, həm də çox insanpərvər olur. Bunun fikri oymuş ki, demək, bütün o yaşadığı ölkeynən bərabər, yoğun[41] ölkələrin də hamısın öz əlinə ala. Başqa mənada yox, yəni insaniyyətdiyin, mərifətdiyin, mədəniyyətin bildirə. Gəldikcən də yaxşı olur. Axırda bir günnəri yığır vəzir-vəkili, hamısın bir yerə. Deyir ki, mən dünyada yeganə adam olmağ istiyirəm. İndiyətən qazanmışam öz yerində. İndi mən istiyirəm ki, bir dəfə şimala, bir dəfə cənuba, bir dəfə şərqə, bir dəfə qərbə gedəm, orda məni tanımıyannar arasında da özümü göstərəm ki, belə bir insan var.

Bir gün bu yoldaşdarın yığır, deyir gedək cənuba. Beş-altı gün gələnnən soorasına bunlar çıxır böyük bir dağa, dağın da üstü böyük meşədi. Gəlir bırda durur, ta bırdan belə çıxmaq mümkün döyül. Nətər eliyəh, necə eliyəh? Vəzir-vəkil deyir:

– Qayıdax.

Deyir:

– Yox ey, bəs bu boyda yol gəlmişəm. İndi nə bilim o tərəfdə ölkə, vilayət, şəhər var, yoxdu?

Bınlar deyir:

– Bə neyniyəh?

İsgəndər deyir ki, kim çıxıb ordan maa bir xəbər gətsə, ona bir küp qızıl verəjəm.

İndi bir küp qızıl nə qədər qiymətdi olsa da, can hər şeydən üstündü dana. Hamı başın aşağı salır. Bir yetim oğlan varmış, atası, anası yox idi. Öz-özünə otduğu yerdə fikirrəşir, deyir: “Ya rəbbim, ya rəsulallah, atam yox, anam yox, bacım yox, qardaşım yox. Ölsəm də onsuz da həyatdan tək gedirəm, qalsam da. Qoy icazə alım, mən gedim axtarım. Tapsam da, gəlim deyim, tapbasam da”.

---

[41] Yoğun – yaxın

Bı gəlir İsgəndərin yanına. Əlin qaldırır, deyir:

– Hörmətli şahım, mən gedərəm.

Padşah deyir ki, a bala, gedif gələ bilərsən? Deyir:

– Hə.

Bı durur, bınlardan icazə alır, iki-üş saata qalxır dağın başına. Dağın başına qalxanda görür, o tərəfdə evlər, həyət-baca, məsələn, insannar... Bir az da irəli yeriyəndə görür meşənin qırağında bir nəfər oğlan mal, heyvan, qoyun otarır. Yaxınnaşır bına ki, bura haradı, kimdi, nədi? İndi nə bı bının dilin bilir, nə bı bının da. Bı dinmir. Belə deyəndə bı çoban ağacı götürür kü, bı yetimi vıra. Bı oğlan yerdən bir daşı götürür, nətəər belə atırsa, çobanın kürəyinə dəyəndə bı yıxılır. Yıxılanda yüyürür bının əlin də, qolın da daldan bağlıyır. Bağlıyannan soorasına deyir ki, çıxım gedim. Bir on, on beş metr aralanannan soora öz-özünə deyir: "Ə, mən dəliyəm, cinniyəm? Mən gediv orda deyəjəm belə bir şey tapbışam, onda mənə inanmıyajaxlar ha. Bəs mən neyniyim? Yaxşısı budu, bunu sürüyə-sürüyə aparım". Gəlir bını tutur, belə sürüyəndə, indi bı da candı axı, ağrıyır. İşarə eliyir ki, onsuz da hara deyirsən gedirəm dana. Əyaxlarımı aş, onsuz qolum bağlıdı da, gedəh. Gətirir bının əyaxların açır, qolunnan tutur, yavaş-yavaş gəlir.

Görür bəy-zad – bılar hamısı oturubdu. Deyir:

– Ağa, o tərəfdə ev də var, millət də var, dünya da var, mal, pul, var, devlət. Min dəfə də bizimkinnən yaxşıdı. Bıdı, bir nəfər də gətirmişəm.

Uje bırda padşah day atkaz eliyə bilmir. Deyir ki, indi neyniyək? Vəzir, vəkil deyir ki, padşah sağ olsun, indi oranın adamları kimdi bilmirik, xasiyyətin bilmirik. Gedəh evə, bı oğlanı yerri qızın biriynən evləndirəh, bınlardan uşağ olar. Uşağ böyüdühcən atanın da dilin örgənər, bizim də dilimizi, ananın da dilini dana. Bizə təkrar eliyər, bilərih ki, kimdi.

Götürüllər oğlanı da gəlillər, gələn kimi bir qıznan bını evləndirillər. Bınlar yaşıyana qədər deyir ki, padşah sağ olsun, hardeysə bir səkkiz, doqquz, on il lazımdı da bı uşağ orda böyüyə, neyniyə. Deyir:

– Onda gedəy şərqə.

Deyir:

– Yaxşı.

Gəlillər, şərqə çatanda böyük bir meşəyə çıxıllar. Deyir:

– Neyniyək?

Deyir ki, gəlib meşəni tapbışıx. Düşəh bı meşiyə təhlihdə. Kim ceyrannan, cüyürdən vırsa, gətirək bırda tonqal qalıyağ, böyük bir qonağlığ eliyək.

Bir ağacın dibinə yığılıllar, padşah özü təhcə düşür meydana. Bı meşə bını nətəər cəlb eliyirsə, bir də onda başın qaldırır ki, axşam saat beş-altıdı, hava qarannıxlıyır. Belə vaxtda geri qayıtmax mümkün dəyil. Qayıtsa, bını vəhşi heyvannar parçalıyar. Neyniyim, nejə eliyim? Meşədən qırağa çıxanda görür kü, bir çoban mal, qoyun otarır. Yaxınnaşır bına:

– Salamməlöykü?

– Əleykümsalam.

Deyir:

– A qardaş, kimsən, nəçisən?

Deyir:

– A kişi, mən ovçuyam. Gəlmişəm bura, indi qarannığa düşmüşəm. Sən harda yaşıyırsan?

Deyir:

– O dey, o görükən kəntdə.

Deyir:

– Olar, mən də gedim sənnən gejə orda qalım, səhər gələrəm?

Bı müsəlmanın ayrı şeyi olmasa da, bir-birinə inamı, hörməti var da. Deyir:

– Gedəh.

Bınlar gəlir. İndi bir az yol gedənnən soora baxır ki, yol uzaxdı da. Deyir:

– Ə, çoban qardaş, gəlsənə bı yola bir nərdivan salax, – deyəndə bı çoban öz-özünə deyir ki, ə, bu dəlidi, cinnidi? Bıra nərdivan salmaxçun nə qədər taxta, ağaj, mismar, kərpic, balta, insan lazımdı.

Tay dinmir. Bir az da gəlillər, gələnnən soora qabaxlarınnan balaca bir çay keçir. Bı çoban atı vurdu çayı keçə. İsgəndər indi qorxur axı belə yerdən keşməyə. Deyir:

– Çoban qardaş, gəlsənmi bıra bir körpü salax?

Gənə bı belə baxır, baxır. Deyir: "Ə, bu dəlidi, cinnidi? Bıra körpü salmaxçun nə qədər daş, ağac lazımdı". Genə dinmir. Ordan birtəhər keçillər, kəndə çatmağa iki-üç kilometr qalmış görür kü, böyük bir taxıl zəmisidi, sünbül bax belə-belə. Adam baxır, həvəsə gəlir. Deyir:

– Çoban qardaş, görəm bı taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh?

Çoban öz-özünə deyir: "Ə, bu dəlidi, cinnidi? Taxılı da biçməmiş yiyəllər?"

Nəysə, gəlillər, kəndə çatanda bının evi kəndin qırağındeymiş, gözünün də ağı-qarası bir qızı varmış. Deyir ki, o dey, o ev mənimdi, qapıdakı da qızımdı. Çağırıb ona deyəjəm. Sən get otur evdə, əl-üzünü yu, mən qoyunu, malı paylıyıb gəlim.

Çağırır qızın, deyir:

– Qızım, bir qonax var, onu qarşıla.

Bı gedir, evə çatannan soora qız su qızdırır gətirir, bının əlin-əyağın yuyur, süfrə açır. Atası hərrənif gəlir. Oturullar, Allah verənnən yeyif-eliyillər. – Onda belə ev döyüldü ey. Dam bajasıydı, doqquz metr eni, doqquz metr uzunu. – Çoban deyir ki, gedək. Gedəndə deyir ki, ovçu qardaş, – elə bilir

ovçudu dayna, – bağışda day kasıbın olanı bıdı da. Nə xoşa gəldi, nə xoşa gəlmədi? İsgəndər deyir:

– A kişi, evin yaxşıdı, amma bir azca bajası əyridi.

Dedi:

– Yaxşı, gedəh.

Çoban genə ürəyində dedi: "Ə, sənin nə borcuna baja əyridi, əyri döyül". Gətirdi, yolun yarısınnan bı dedi, mən meşənin qırağınnan gedəjəm, sən getginən. Gəldi çatdı yoldaşlarına. Gördü bılar ceyran-zad vırıflar, oturuflar, ojax-zad qalıyıflar. Hamısı da qorxusunnan əsir ki, padşahı itirmişik də. Görən bını canavar yedi, çaqqal yedi, öldü, qaldı? Padşahın gəldiyini görəndə hamısı üstünə yüyürür:

– A sən allah, harda qaldın, noldu, nağardın?

Dedi:

– Hava qaralmışdı deyə qayıda bilmədim. Bir çobana qonağ oldum, getdim onun evinə, ordan qayıtdım gəldim.

Bırdan deyillər gedəh. Deyir:

– Yox, bırdan belə evə qayıdajeyih.

Gəlir, evdə məsləhət edir ki, orda çobanın bir qızı var, mən ona vurulmuşam. Ona elçi getməlidi, mən onu alam. Durur bırdan vəzir-vəkili göndərir.

İndi bı çoban axşam gələndə qız deyir ki, dədə, o ovçu kim idi? Onu hardan tapbışdın? Deyir:

– Aaz, ovçu nədi, o gijin biriydi, ağlı çatmırdı.

Deyir:

– Nətər?

Deyir:

– Ay balam, yol gedirik, maa deyir gəti bıra nərdivan salax. Ordan deyir, gətir bıra bir körpü salax. Ordan gəlmişik, deyir, taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh? İndi də səhərə qədər yatıf, az-çox yeyif-içif, maa deyir ki, bajan yaxşı bajadı, bir əz əyridi.

Dedi:
– Dədə, o kimdisə mən tanımıram, dünyada onnan ağıllı, gözəl insan yoxdu.
Dedi:
– Nətəər?
Dedi:
– O çoban dəyilmiş, dövlət başçısıdı. Yolda yoruluf, saa deyif ki, gəl yola körpü salax. Yəni yorulduğuna görə bir söhbət eliyəh, söhbət adamın başın qarışdırır axı, gedif mənzilə çatax. Gəlib ordan keçəndə o saa deyə bilmiyif məni də götür. Utandığınnan deyib bıra körpü salax, yəni məni də al kürəyinə, apar da. Sən də fikir verməmisən. Gəlib burda deyib ki, bı taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh? Yəni bını əkən adam özü yiyəjəh, yoxsa padşaha verəjəh. Dədə, o baja deməkdə də, bajanı demirdi. Deyirdi, qızın yaxşı qızdı, heyif gözü çəpdi. İndi o harda olsa, maa, bəlkə, elçi göndərdi. İşdi, maa elçi göndərsə, denən, qızımın dərdi özündədi, özü cavab verər, nə desə, ona əməl eliyərəm.
Nəysə, aradan bir-iki gün keçir. Bir gün bı padşah götürür bılara bir vəzirdən, vəkildən elçi göndərir. Gəlillər. Deyir ki, bəs bu yaxınnarda sizə qonax gəlib. O gələn adam padşahdı, sizin qızınızı istiyir. Çoban deyir:
– Vallah, qardaş, düzdü mən qızın atasıyam, amma hər kəs özü-özünə cavab verməlidi. Qız özü cavab verər.
Gəldi qıza dedi ki, nə deyirsən? Qız dedi ki, siz padşaha deyin, mən ona bir şərtnən gedərəm ki, o əvvəlcə bir sənət örgənsin. Nə örgənir örgənsin, bir sənətin sahibi olsun. İkinci, ona məsləhət bilin ki, o, hara getsə, getdiyi istiqaməti maa desin və neçə günə gedif qayıdajax bunu bilim.
Dedilər:
– Yaxşı.
Dedi:

– Üçüncü şərtim odur ki, o padşaha deyin, harda çətinə düşsə, ordan adam göndərsin geri, bizə xəbər versin ki, padşah hardadı, hansı əzaba düşüb geri qayıda bilmir.

Dedilər:

– Yaxşı.

Vəzir-vəkil gəlib bunu padşaha deyəndə, dedi:

– Əşi, mən nə örgənim, neyniyim?

Bı vəzir, vəkil dedi:

– A kişi, biz örgənmişik, ən yüngül şey xalçaçılıxdı. Gəti belə bir şey örgən. İkinci də o getmək... O saa demir ki, hara gedirsən, niyə gedirsən, nəyə gedirsən dənə. Getdiyin istiqaməti deyəjəksən ki, ya şərqə gedifsən, ya qərbə. Bunnan hasant nə var. O birsi də ki, harda olsan öz zəhmətinnən özünü doğrultmalısan.

Nəysə, bınları örgənənnən soorasına xəbər göndərillər qıza ki, uje padşah hazırdı. Deyir, gəlsin aparsın. Nəysə, qızla evlənir.

Aradan bir-iki ay keçənnən soorasına deyir ki, biz çıxaq şimala tərəf, gedək o meşənin qırağına, gəzəh, ordan qayıdax gələk.

Durullar düşüllər yola, gəlillər bir dağın qırağınnan keçəndə, görüllər iki dağın arasında böyük bir binadı. Bir az yaxınnaşanda görüllər qabağına yazıblar ki, yeməkxana. Bı deyir ki, gedəh oturax, yeyəh-içəh. Gəlillər, oturullar, çay içillər, çörəh yeyib qutarannan soorasına, indi bu yeməkxananın yiyəsinə deyillər ki, biz birəz dincəlməh istiyirik. Deyir:

– Dincəlməyə yaxşı yerimiz var, gəlin bəri.

Bınları aparır salır padvala. Padvala salannan soora bınlar görür ki, padvalda nə qədər adam oturub, özü də hamı bax belə əsir, qupquru. Deyir ki, ə bala, bura nədi, noolub? Deyillər ki, siz nə iyinə gəlmisiz? Deyir ki, çayxanaya. Deyib ki, əşi, nə pivə, nə çay. Orda sizə yedirtdihləri bizim ətimizdi.

Bizi saxlıyıllar bırda, həftədə birimizi kəsillər, o gəlib-gedənləri razı salıllar. İndi sizi də gətiriflər ki, siz köksünüz də, ətdisiniz, sizi kəsələr. Deyəndə bı padşah qayıdır belə baxır: “Mən neyniyim, nağayrım?” Birdən sənəti yadına düşür. Bunların yanına adam gələndə deyir ki, padşaha denən ki, məni kəsib yedirtsə, nə qədər qazana bilər? Deyillər ki, məsələn, yüz manat. Deyir ki, padşaha denən, mən belə xalı toxuyuram. Xalı toxuyaram, yerin də deyərəm, aparıb satarsınız, ordan yüz yox, bəlkə, beş yüz, altı yüz manat pul alarsınız.

Gəlillər padşaha deyəndə, padşah deyir:

– Mən neynim, nağayrım?

Deyillər:

– Padşah sağ olsun, bını kəssən yüz manat götürəjeyih, amma bı ayda iki xalça toxusa, gör bizi nə qədər varrandırar.

Deyir:

– Yaxşı.

Gətirillər bını, bı sənəti qoyıllar qabağına, başdıyır toxumağa. İndi bı demişdi axı üş günnüh gedəjəm. Üş günün əvəzinə on üş gün olur, bınlar hələ geri qayıtmayıflar, xəbər-ətər yox. Bının arvadı bı adamlara – vəzirə, vəkilə, nökərə deyir ki, gedin bazara, harda xalı satıllarsa, neçiyə dediyinə baxmayarax o xalıları götürün gəlin, mən alıram. Bilir ki, bı belə ola bilər dana.

Gedillər, hərrənillər, görüllər üş-dörd nəfərdi, xalı satır.

– Ə, neçiyədi?

Deyillər:

– Həşdat manat.

Deyir:

– A kişi, gəlin bəri, bizim xanım sizə yüz manat verəjəh.

Bınları götürür, qapıya gələndə qız xalılara baxan kimi bilir ki, bıdı. Özü də adın yazıb da ora, adın üstünə hərifnən yazıb. Deyir ki, neçiyədi? Deyillər, belə-belə. Yüz manatdan pulun verir. Deyir ki, bınnan soora nə vaxt xalınız olsa, satmax

istəsəniz gələrsiz bıra. Bıları keçirir o tərəfə çörək yeməyə. Vəzirə, vəkilə deyir ki, padşah hardeysa bınların əlinin altdadı. Bınlar gedənnən soora düşün arxalarına, bınları gəzə-gəzə gedin görün hardeysa oranı yarın, padşahı götürün gəlin.

Bınları yedirdif yola salannan soora, beş-altı nəfər durur atdanır, arxadan bınları işarə eliyə-eliyə gəlillər, bınlar da gəlif çıxır bura. Görüllər ki, ay kabab yeyən, ay ət yeyən, nə bilim neyniyən. Bınlar çörəyi yeyənnən soora qalxıllar, ordakıların hamısını döyüllər, əllərin, qolların bağlıyıllar. Bağlıyannan soora deyir:

– Dustaxlar hardadı, yerin deyin?

Məjbur olıllar, yerin deyillər. Gediv açanda görüllər padşah o dey orda oturuf əsir. Deyir ki, padşah sağ olsun, səni tapdıx, dur gedəh. Gəlir evə. İndi bir müddət oturannan soora deyir, doğurdan da, bı arvad olmaseydi, indi mən batıb getmişdim də. Elə yaxşı ki, bı orda maa köməh elədi.

Bir müddət qalannan soorasına İsgəndər deyir ki, cənuba getdih, şərqə getdih, indi şimala gedəh. Durullar genə atdanıllar, gəlillər şimala. Bir-iki gün yol gedillər, axşamçağı bir də görür kü, meşədən bir ceyran çıxdı. Bərdən ayna qaçanda, bı yoldaşdarı istiyir ki, bını vıra. Onda da ən güjdü silah ox idi. Padşah deyir:

– Qılış da məndə, ox da məndə. Heş kim dalımca gəlməsin. Ceyranın dalıncan özüm gedəjəm. Vırdım, götürüb gələjəm, vırmadım, qayıdıf gələrəm.

Bı ceyranı qavır, qavır, gəlir bir təpədən aşanda görür kü, böyük bir çadırdı. Bı ceyran qaşdı girdi çadıra. Dedi, hə, indi gedib bırda tutaram. Gəldi, atı çöldə bağlıyannan soora, qılıncı sivirdi, içəri girəndə gördü ceyran nədi. Bırda bir qız oturuf ki, o nağılda, əfsanələrdə deyilir ey, aya deyir sən çıxma, mən çıxım, günə deyir sən çıxma, mən çıxım. Belə gözəldi. Dedi ki, ay qız, sən kimsən? Bırda nəəzirsən belə?

Dedi:

– Mən böyük bir padşahın qızıyam, atamgil həmişə gəzməyə-zada gedəndə məni də özdəriynən götürürdü. Gəlib burdan keçəndə çadır qurdular, tezdən qarannıxda durublar, özdəri yığılıf gedif, yaddan çıxıf mənim çadırım qalıf burda.

Dedi:

– Bəs mən də filan padşaham. Gələrsənmi səni alım?

Dedi:

– Vallah, alıram deyirsən al, mən etiraz eləmirəm. Amma indi sən məni aldın getdin, kimə sübut eliyə biləjəhsən ki, belə bir padşahın qızın almışam?

Dedi:

– Mən neyniyim?

Dedi:

– Get özünnən bir ağıllı, savatdı adam gəti, heç olmasa bir şahidin olsun böyründə ki, sən belə bir şey tapbısan.

Dedi:

– Yaxşı.

Bu qayıdır gəlir yoldaşdarın yanına. Deyir ki, ə, ceyranı tutmuşam, filan yerdədi. Bir nəfər mənimnən getməlidi, ceyranı götürəh gələh. Tanıdığı ağıllı adamın birin salır yanına, qayıdıf gəlillər bıra. İndi çadıra çatmağa iyirmi metr qalmış, birdən bının ağlına gəlir ki, ya rəbbim, ya rəsulallah, indi bəlkə bı kadın yatıfdı. Gediv içəri girməh düz döyül dana. Bı oğlana deyir ki, sən dayan bırda, mən gedim, görüm nətərdi vəziyyət, soora səni çağırım, birrikdə götürək gedəh.

Vəzir qalır, bı gəlir çadırın qapısın açanda görür kü, bırda bir qoja arvad oturub, həşdat-doxsan yaşında, danışa da bilmir. Deyir ki, a-a-ay bala, sən k-k-kimsən? Dedi:

– Ay nənə, mən bırda qız qoydum getdim ey?

Dedi:

– O-o-o q-q-qız mənəm.

Dedi:

– Nətəər sənsən?

Dedi:

– Elə fikirdi də qojaldıf, mən burdayam.

Nəkqədər eliyir, ayan-bayan. Deyir ki, oğul, o ceyran da mənəm, o qız da mənəm, bı qoca da mənəm. Mən Allahın yolçusuyam. Belə deyəndə, dedi:

– Onda sənnən bir şey xayiş eliyim. De görüm mən neynəsəm daha da varrı, dövlətdi ola bilərəm?

Dedi ki, yaxşısı budu, heş kimə qoşulma dana, özün öz əqlinnən istədiyin kimi istifadə eliyə bilərsən. Dedi:

– Ana, mən nə qədər yaşıya bilərəm?

Dedi:

– Sən hardeysa qırx, əlli il yaşıya bilərsən.

Dedi:

– Mən nətər eliyə bilərəm ki, ölmüyüm də, qalım.

Dedi ki, bı tərəf meşədi, o tərəf meşədi, amma o tərəfdə Diri dağı var. O Diri dağın altında dirilik suyu var. O sudan gətirə bilsən, bir sən yox, ən böyük dəvədi, fildi, nə cür böyük canlı olursa olsun, o öləndə onun ağzına bu dirilik suyunnan bircə damcı atsan, o dirilər, qalxar ayağa. Səni də saxlıyan bıdı. Gediv ordan gətirə bilsən, ömrü boyu yaşıyarsan.

Dedi:

– Yaxşı.

Gəldi çıxdı çölə. Gördü vəzir oturuf. Vəzir dedi:

– Gedəh?

Dedi:

– Yox, xoşum gəlmədi danışığınnan. – Tay demir nədi dənə. – Qayıdax gedək.

Gəldi yoldaşdarına çatanda, dedilər, ağa, belə-belə. Dedi:

– Yox, qayıdajeyih vətənə.

Qayıtdılar vətənə. Bı fikirrəşdi. Çox fikirrəşənnən soorasına dedi, cənuba getdim, şərqə getdim, şimala getdim, indi bı tərəfə – qərbə gedəjeyih. Belə bir dağ var, o dağın altına. İndi mən heş kimi aparmıram, kimin xoşu gəlirsə maa bir yeddi-səkkiz nəfər lazımdı, özümnən aparım. Orda suyu tapsam, götürəh gələh.

Bir kişinin gözünün ağı-qarası bir oğlu varıdı. Bu gəldi axşam dedi:

– Ay ata, məni bağışda, yoldaşdarım filan yerə gedir, mən də gedirəm.

Dedi:

– Hara gedir?

Dedi:

– Belə-belə.

Dedi:

– Get o padşaha denən, məni də götüsün, mən də gedim.

Dedi:

– Ay ata, axı sən yaşdı adamsan.

Dedi:

– Yox, get de.

Gəldi, padşaha deyəndə, padşah dedi:

– Yox, o yaşda adam olmaz.

Dedi:

– Onda padşaha denən, məni qəbul eləsin, ona iki-üş kəlmə sözüm var.

Nəysə, padşah dedi:

– Buyursun içəri.

Gəldi içəri. Dedi:

– Nədi?

Dedi:

– Padşah sağ olsun, siz gedirsınız yerin altındakı dirilik suyuna. Yerin altındakı su iki-üş yerdeysə, amma yerin

üstündə gör neçə milyon, milyardlıx su var. Özü də getdiyin yerdə bu suynan o suyun tamı bir deyil. Bırda su var kirri sudu, bırda var turş sudu, nə bilim ajı sudu. Eləcə də yerin altında var. İndi siz gedif orda o dirilik suyun nətər tapa bilərsınız? – deyəndə, padşah qaldı belə.

Dedi:

– Nətər tapa bilərəm?

Dedi:

– Hər saldata bir dənə balıx tutdurun, onlar o balığı aparallar, orda salallar suya. Hansı suda balıx dirilsə, demək dirilik suyu odı da, onı götürsünnər.

Dedi:

– Yaxşı.

Dedi:

– İkinci, getdin suyu tapdın, o suyu nətər gətirəssən? Civaa yığassan, yoxsa əlində?

Dedi:

– Hə, düz deyirsən, bəs mən neyniyim?

Dedi:

– Hər saldata dəridən bir dənə tulux düzəlt, həm təmiz olsun, həm də büksünnər qoysunnar civlərinə. Harda tapsalar, o sudan dolduralllar tuluğa, götürüb gələllər. İkinci, adam hələ yerin üstüynən gedəndə sağın-solun tanıyammır. Yerin altıynan getdilər, soora qayıdıf çıxa bilmiyəjəhlər axı.

Dedi:

– Neyniyim?

Dedi:

– İki nəfər daş, zəncir götürsün. İçəri girif bir on beş, iyirmi metir irəli gediv orda dayansınnar. Adamlara da vaxt ver ki, məsələn, bir saat, iki saat gəzin, qayıdın. Onlar qayıdanda həmin adamlar zəngi vırsın, zəngin səsinə onlar qayıdar ora, ordan çıxallar, götürüb gələrsən.

Dedi:

– Ağıllı fikirdi.

Nəysə, dedi, getməyimizə bir on, on iki gün qalıf. Gətdi həbelə bınların hərəsinə bir tulux düzəltdi, hərəsinə bir balığ gətdi, nə bilim orda yoldaş oldılar. Gəldi bı Diri dağına çatanda dedi ki, belə-belə gedirsınız, məsələn, dörd saat sizi gözdüyəjeyih. Dörd saat hardan tapdız, gətirirsiz, ordan gəlirik.

Bınlar indi ikisi sağa, ikisi sola gedillər. İkisi də gəlir. Bir yerdə bınların qabağına su çıxır. Baxıllar belə. Biri deyir:

– Ə, bırda şırıltı var, qəşəh sudu.

O biri deyir, ə, baxım görüm. Bu balığı çıxardır, elə belə suya əlin uzadanda balığ bının əlindən sivrilir. Deyir:

– Ə, dirilik suyu bıdı.

Deyir:

– Qoy mən də bir baxım görüm.

Bı da balığı gətirif salanda bının da əlindən gedir. Deyir:

– Hə, tapbışıx, gəl tuluxları doldurax, gedəh.

Tuluxları doldurullar, şəlliyillər kürəhlərinə. Bir az gələnnən soora bı yoldaşın biri deyir ki, ə, indi biz hara gedirik? Bəlkə, gəldiyimiz yerə getmirik, ayrı yerə gedirik. Gəl oturağ dincələh, zəngi nə vaxt vırsalar, o dəmirin səsinə gedərik. Bınlar oturullar. İndi bınlar neçə gündü yol gəlif yorulub, səhərdən bırda yol gəzillər ağır tuluğ da çiyinlərində. Oturduğları yerdə birdən yuxu tutur bınları.

Bı dirilik suyunun sahibi eşitdiyimə görə qızıl quşdu. Bu quş özü yoxmuş, balası bırdeymış dana. Bı qızıl quş yuvasına gələndə görür balası ağlıyır. Dedi:

– Nədi?

Dedi:

– Belə-belə. İki dənə insan gəlmişdi, həbelə sudan hərəsi bu qədər götürdü getdi. Ona görə ağlıyıram.

Dedi:

– Hansı tərəfə getdilər?

Dedi:

– Bı istiqamətə.

İndi bu uça-uça gəldi. Gördü bınlar oturublar, belə yatıblar. Arxadan qondu, tuluğun ikisin də dimdiyiynən deşdi. Demək, tuluğda bir qıram su qalmır e. Su hamısı axıb gedənnən soora indi zəngin səsi gələndə bınlar ayıldı qalxdı. Qalxanda gördülər ə, yüngül qalxdılar axı. Belə baxdılar ki, tuluxlar bekardı. İkisi də ağladı. Dedilər, ə, indi biz getsək, padşah bizi öldürəjəh. Neyniyəjeyih, nağarajeyih? Biri dedi, a kişi, gedəh də. İndi yalvararıx ki, ay padşah, bilməmişih cırılıfdı. Gələn səfər gələndə genə getdiyimiz istiqamətnən gələrih, axtarıb taparıx.

Nəysə, gəldilər. Çölə çıxanda gördülər hamı oturub. Dedilər:

– Nooldu?

Bınlar olduğu kimi dedi.

– Padşah, səni allatmırıx, suyu tapmışdıx, tuluğu da doldurmuşdux. Yolda yuxuya qalmışıx, quş tuluğu deşib, bütün su axıb gedib, – deyəndə padşah dedi, eybi yoxdu, neyniyək, gedəh, bir müddətdən soora bir də qayıdıf gələrih.

Bılar bir xeyli gedənnən soorasına gəldilər bir meşənin qırağınnan keçəndə, gördülər ki, həddinnən artıx yağışdı, küləhdi. Neyniyəh, nağayrax? – Orda bir şey yadımdan çıxdı. O arvad bınlara bir kəlmə də demişdi ki, sən dirilih suyunu tapassan, amma onnan işməh sənə qismət olmuyajax. Sənə taxtadan bir ev tikəjəhlər, onun altında canını tapşırassan. – Taxdadan bına bir yuva düzəltdilər, özdəri bir yerə, padşah da gedir bıra. Uzanannan soorasına bir az aradan keşmişdi, bir də gördü qapıdan içəri bir nəfər girdi. Qayıdır:

– Sən kimsən ə, bıra niyə girmisən?

Dedi:

– Ə, danışma, mən gəlmişəm sənin canını alam.

– Sən kimsən mənim canımı alasan?
Dedi:
– Mən cənabi Əzrayılam, mən can almağa gəlmişəm.
Dedi:
– Bəs sən mənim canımı ala bilməzsən.
Dedi:
– Nəyə görə?
Dedi:
– Nə vaxtı mənim üstümdə taxtadan, ağajdan ev tikilsə, onda ala bilərsən.
Dedi:
– Onda bir gözünü belə aş bax.
Baxanda görür kü, üstü də, altı da taxtadı. Belə baxdı, baxdı, dedi, qadan alım, onda icazə ver, o nökəri, naibi çağırım, iki-üş kəlmə sözüm var, onlara deyim. Bı səsdədi bınları:
– Gəlin bıra.
Gəldilər:
– Ağa, nədi, ağa, nədi?
Dedi:
– Ə, oturun, səs eləməyin.
Dedi ki, mən burda keçinəjəm. Mənim gözümün ağı-qarası bir anam var. Mənim meyidimi qabax aparsaz, anamın ürəyi partdıyar. Əvvəlcə, bir dəstə yetim uşaxlardan göndərin, onın dalınca bir dəstə yaşdı adam göndərin, onın dalınca bir dəstə qoyun göndərin, dalınca bir dəstə mal-heyvan göndərin, soora mənə çatanda mən gözü açığ öləjəm. Anama deyin ki, bunun bizə məsləhəti var. Harda gözü yumulsa, orda dəfn eliyəjeyih.
Tez bının canın alır Əzrayıl. Bunu götürüllər, düşüllər yola. Uşax yığıllar, nə bilim qoca, bir az da at, heyvan-filan. Anası ağlıyanda deyillər ki, oğlunun vəsiyəti var ki, onun harda gözü yumulsa, orda dəfn eliyəjeyih. Neyniyəh? Deyillər, qoyax tabuta, gəzdirəh, görəh harda gözü yumulur.

İki gün, üş gün, bunu nə qədər gəzdirillərsə, gözü yumulmur ki, yumulmur. Bınlar da yorulub əldən düşüb, yayın istisi. Görüllər aşağıda böyük bir çinar ağacı var. Bı çinar ağacı harda olsa, onın dibində bulağ olur, su olur. Gəlillər çinar ağacına çatanda görüllər bırda bir çobandı – yaşdı adamdı qoyun otarır, oturubdu bırda. Bılar gələndə bı dedi:

– Nədi, noluf? Niyə ağlaşırsız?

Dedi:

– Əşi, sən nə bilirsən e.

Dedi:

– Heç olmasa bir kəlmə deyin.

Deyillər ki, bəs hal-qəziyə belə-belə. Çoban torpaxdan bir damcı İsgəndərin gözünə atan kimi bının gözdəri yumulur. Hamısı qalır məhətdəl. Deyillər ki, neyniyəy? Biri deyir ki, ə, torpax torpaxdı dana, aparağ anasının yanında dəfn eliyək də, bıra neyçün gətiririk. Gətirillər ordan anasının yanına. Başa salıllar ki, ay ana, oğlun uşağı, yetimləri tabutun qabağınca göndərmişdi ki, ana, gör mən həyatımda yetimlərə nə qədər hörmət eliyirəm. Qocaları göndərmişdi ki, qocalara nə qədər hörmət eliyirəm. Malı-heyvanı göndərdi ki, ana, gör mən nə qədər varrı adamam, nə qədər varım, pulum var. Nə qədər imkansız adamlara köməy eliyirəm. Ölümün qarşısını almax mümkün olsaydı, bular alardı. O torpağın mənası odur ku, yəni bütün cannının hamısının əvvəli torpaxdan əmələ gəlir, axırı da torpağa qismət olajax. Bınnan belə neyniyim yox, elə bırda öz qəbirsannığımızda yer qazırıx, basırırıx. Onıynan da orda qazıb basdırıllar.

## 89. ÜÇ VƏSİYYƏT

Bir varrı, dövlətdi ata olur, həddən artıx malı, pulu, varı-dövləti olur. Gözünün ağı-qarası bircə oğlu olur. Bunu qənimət bilir, bu uşağı elə böyüdür ki, ancaq ye, iş, de, gül, gəz, oynaginan. Bir gün bu kişi elə bir vəziyyətə düşür ki...

Baxır ki, ta köçür. Köşməh məqamı gələndə birdən ağlına gəlir ki, ya rəbbim, ya rəsulallah, bəs mənim bu qədər malım, pulum, varım, dövlətim, qızılım. Gözümün ağı-qarası olan bu oğlumu mən belə örgətmişəm. İndi mən ölənnən soora qoşulajax yoldaşdarına, mal da gedəjəh, pul da gedəjəh, var da, dövlət də. Mənim adımı batırajax, mən neyniyim? Yanında oturannara deyir ki, xayiş eliyirəm çıxın çölə, oğlum görün ordadımı, çağırın, ona bir söz deyəjəm. Bunlar çıxır çölə, çıxannan soorasına oğlun çağırıllar. Gəlir, deyir:

– Ay ata, nədi? Ay ata, nədi?

Deyir:

– Ay bala, mən ölürəm.

– Ata, nə danışırsan?

Deyir:

– Bunu saxla, sohranın işidi.

Dururlar. Deyir:

– Eliyərsən, eləməzsən öz işindi. Sənə üş dənə vəsiyətim var.

Deyir:

– Nədi?

Deyir:

– Birinci vəsiyətim odur ku, mən ölənnən soorasına, yoldaşdarın töküləşəjəh, qırx gün yeyib-içib soora durajaxlar dana. Qırx çıxannan soorasına görəssən bir günnərisi yoldaşdarın gəldi ki, gedəh çay içəh, çörəh yiyəh. Onda sən onlara etiraz eləmə. Denən, gedin, mən də gələjəm. Oğul, babalım boyuna, babalım boyuna, içmə sən. Amma olara denən gedin sabah saat on ikidə filankəsin evində qonaxlıx düzəldin, mən də gələjəm. Sən onlara on iki de, oğul, genə deyirəm babalım boyuna, babalım boyuna, özün saat ikidə get.

Deyir:

– Yaxşı.

Deyir:

– İkinci vəsiyəm odur ki, babalım boyuna, babalım boyuna, qumar oynama. Oynasan qumarı hər yerinnən qalxannan, bilənnən yox, qumarın ən məşhur ustası kimsə, axtar tap, onuynan oyna. Üçüncü vəsiyətim odur ku, oğul, birdən əlin aşağı düşdü... Məndə də olurdu. Nə qədər varrı-dövlətdi adam olasan, gətirdiyin vaxt olsa da, itirdiyin vaxt da olur da. Əlin aşağa düşsə, heş yerə getmə. Gəl evimizə yaxın bir yerdə oturginən, gələn qohumlara, dostlara, tanışdara əl aç, sana kömək eləsin. İşdi, onnar da sana kömək eləməsə, oğlum, dördüncünü deyirəm, babalım boyuna, babalım boyuna, orda bir zəncir asmışam, görürsən? Babalım boyuna gəlib ordan özünü asıb öldürməsən.

Dedi:

– Yaxşı.

Allah cəmi ölənnərə irəhmət eləsin. Bu ata irəhmətə gedir. İrəhmətə gedəndə oğlan görür kü, dostdarı gəldi. Gəlif oturullar, qırx gün bunlar çay içir, çörəh yiyir. Biri qabı qoymağa, biri nə bilim nəyə. Qırxınnan bir dörd-beş gün keçənnən soora... İndi nə qədər ərköyün böyüsə də, ata həsrəti ayrıdı da. Deyir:

Dara düşsək arxamızda
Bir möhtəşəm dağdır ata.
Daim yanan, alovlanan,
Sönməyən ocağdır ata.

İşıq saçar yolumuza,
Qüvvət verər qolumuza,
Yurdumuza, elimizə
Arxadır, dayaqdır ata.

O, layiqdir məhəbbətə,
Bu qüvvətə, əzəmətə.
İnsanlığa, sədaqətə
Əbədi mayakdır ata.

Mayak dənizdə gəmiyə yol göstərən işıqdı, həyatda övlada yol göstərən işığ atadı. İndi bı o qədər həvəsdidi, maraxlanır, qalıb belə. Bir də görür kü, atasının qırxınnan beş-altı gün keçir. Axşamçağı görür yoldaşdarı gəlir. Ağlına gəlir ki, atamın qırxı da çıxıf, bunlar nə əcəb gəlif? Gəldilər:

– Salamməleyküm.

– Əleykümətsalam.

– Ə qardaş, nədi?

Dedi:

– Allah ataa irəhmət eləsin, – bı da qırx yeddi gündü oturuf dana, – gedəh eynimizi açax, bir şey eliyəh, – deyəndə, atasının sözü yadına düşdü. Əlin saldı cibinə ki, bınlara pıl verə. Dedilər:

– Ə, ayıbdı, biz sənnən bir şey istiyirik? Sən niyə belə eliyirsən?

Dedi:

– Onda gedin, sabah saat on ikidə qonaxlıx təşkil eliyin Kərimgildə, mən də gələjəm.

Bunlar getdi. Səhər açıldı. Allah hamınızın qarşıdan gələn səhərlərinizi xeyirə aşsın. Bu yatdı, durdu. Getdi malı-heyvanı qaytarıb gətirdi, sahat on ikidə gəldi evə. Allah verən loxmadan-tikmədən yeyənnən soora uzandı yatdı. Yatdı, saat ikidə ayıldı, dedi:

– Hə, atam deyən vaxdı, durub gedim görüm.

Gəldi gördü bunlar gözdüyüflər, görüflər bu gəlmiyif, başdıyıflar vırıflar[42]. Baxdı kı, bını tanıyan yoxdu. Biri vırıb birinin çənəsin əzif, birinin gözü tökülüf, birinin qolı sınıb. Belə baxdı, baxdı, dedi:

---

[42] Vırıflar – içki içiblər

– Hə, ata, Allah sənə qəni-qəni irəhmət eləsin. Mənə on iki deyil, ikidə get deyib ki, iki saatdan soora içkinin əlamətin görüm. Toba sənə bu günnən içki.

Onnan soorasına gəldi. Aradan bir neçə gün keçənnən soora dedi, gedim bu qumarı örgənim. Gəldi birinə dedi, mən məşhur qumar oynuyanı gəzirəm. O dedi mən döyüləm, bu dedi mən döyüləm. Sizin kimi hörmətdinin biri dedi:

– Ə bala, qumarbaz bulağın üstündə oturubdu. Ora getsən, onu taparsan.

Gəldi, gördü bir nurani kişidi, oturub, amma qapqara qaralıb. Əynində bir dəst paltar var, üstdən bir put darı töhsən altdan çıxmaz. Cırıx-cında, özü də qəm dəryasında. Salam da verdi, bı dinmədi. Bir az qalxannan soora bı kişi belə başın qaldırdı, gördü bir cavan oğlandı. Dedi:

– A bala, nədi, niyə durmusan?

Dedi:

– Heç əmi, oturmuşam dayna, sənin yana gəlirdim.

Dedi:

– Nəyə?

Dedi:

– Gəlmişəm mənə qumar örgədəsən.

Dedi:

– Bala, neçə yaşın var?

Dedi:

– İyirmi yeddi, iyirmi səkkiz.

Dedi:

– Ay bala, saa yaramaz, çıx get.

Nəkqədər elədisə, bı əl çəkmədi. Dedi:

– Bala, evim filan yerdədi. Sabax gələrsən bizə, mən səni örgədərəm.

Səhər açıldı, Allah qarşıdan gələn səhərlərizi xeyrə aşsın. Bu durdu gəldi bura. Gəldi gördü kü, kişi oturufdu, bunu

gözdüyür. – Onda həbelə evlər yoxudu, dam evləri vardı ey, doqquz metrə eni, doqquz metrə uzunu, onnan olardı. – Dedi:

– Gəldin?

Dedi:

– Hə.

Qumarı dəyəsən indi kartnan oynuyullar, o vaxtı aşıxnan oynuyurdular. Dedi:

– Bala, qumarı nəynən oynuyullar?

Dedi:

– Nə bilim.

Dedi:

– Neçə aşığnan?

Dedi:

– Bilmirəm.

Dedi:

– Neçə irəngnən?

Dedi:

– A kişi, bilsəydim sənin yana nəyə gəlirdim? Ona görə gəlmişəm ki, məni örgədəsən.

Dedi:

– İndi mən onları əlimdə belə oynadajam. Görürsən aşığların biri ağdı, biri sarı, biri qırmızı, biri göy, biri yaşıl. Burdan atajam damın bajasınnan qırağa. Deyəjəm, ağ aşıx böyrü üstə duruf, qırmızı aşıx yanı üstə, sarı asıx başı üstə duruf. Get, mən dediyim kimi düzülübsə, onda bil ki, mən ustadam, gəl səni örgədim. Düzülmüyüfsə, mənnən ustad olmaz.

Dedi:

– Yaxşı.

Bı dediyi kimi elədi, atdı. Bı damın bajasına çıxdı, getdi gördü ki, – necə ki qabax əmr verəndə saldat düzülmürdü, – bı da dediyi kimi düzülüb. Belə baxdı, baxdı, dedi:

– Qurban olum səni yaradan ustad əllərə, gör nə gözəl sənətdi, gedim örgənim.

Gəldi dedi:

– Əmi, necə demişdin, heylə düzülüb. Xayiş eliyirəm ki, məni örgət.

Dedi:

– Oğul, neçə yaşın var?

Dedi ki, məsələn iyirmi yeddi. Dedi ki, mənim də var əlli yeddi. Əlli yeddi ildi mən bunu oynuyuram, örgənirəm. Amma yadında qalsın ki, qumar oynuyanın axırı çöldə aj qarına uzanandı. Mənnən sənə əmanət.

Dedi:

– Əmi, Allah ömrü uzun eləsin, canı sağ eləsin. Toba saa bu günnən qumar.

Qumara da nifrət elədi. Gəldi bir gün də keçənnən soora dedi: "Gedim bu əl açmağı örgənim". Gəldi qohum-qardaşın getdiyi yolun üstə durdu. Gördü biri gəlir. Dedi:

– Burda niyə oturmusan?

Dedi:

– Ə, qahım, maa min manat pul ver.

Dedi:

– Ə, pulum vardı, axşam gədə götdü getdi toya.

Gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Ə, qahım, maa beş yüz manat pul ver.

Dedi:

– Ə, canın hakqı, qız padruqasıgilə gedirdi, verdim ona.

Aradan bir az keşdi, gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Qalx maa bir iyirmi manat pul ver.

Dedi:

– Canın hakqı, pulum yoxdu. Elə iyirmi manatım vardı, onu da verdim anama qonax gedirdi.

Axırda gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Maa bircə abbası pul ver.

Dedi:

– A vijdansız, mənim bir abbasım olseydi, gedib verərdim para çörəyə, alardım, gətirif yeyərdim. Sənin kimi oğula verməzdim ki, o cür atanın adın batırasan, nəsli bu kökə salasan.

Dedi:

– Hə, gedim indi özümü asım.

Gəldi evə, atası dediyi zəncirin yanına. Əyağın altda bir dayanacax qoydı, qalxdı bı zənciri keçirdi boğazına. Boğazına keçirənnən soorasına ağlına gəldi, dedi: "Ay canım, mən çimməmişəm ey. Gedim yuyunum, özümü pak eliyim, gəlim". Düşdü getdi, çimib qutarıb gələnnən soora, dedi: "Ata, Allaha agahdı ki, sənin yana üzü qara gəlmirəm, dedikləri örgənif gəlirəm. Gəlmişəm özümü asam". Əyağının altda bir dayanacax qoydı, ordan düşüb boğulsun dana. Dayanacax getməynən bunun tap yerə düşməyi bir oldu. Bir də belə baxdı, başın qaldırdı, gördü bu boyda qızıl, üstündə də bir kağız. Aşdı oxudu, gördü atası yazıf ki, oğul, mən sənə üş nəsihət verdim. Onlardan nəticə çıxartdınsa buna ehtiyacın yoxdu, çıxartmasan babalım boyuna, babalım boyuna, bınnan soora bunu götürüb mənim adımı doğrultmasan. Dedi: "Həə, Allah saa irəhmət eləsin, ata. Bunuynan da mən qumara da tööbə eliyirəm, piyanıskalığa da tööbə eliyirəm, başqasına əl aşmağa da".

Ata malın götürdü getdi. Üş qulplu saxsı küp olurdu, onnardan ikisin aldı gətdi. Birinə atasının pulun yığdı. Birin də

aşdı, dedi: “Atamın varı da var, dövləti də. Mən kişi kimi qazanıb buna yığajam”.

Ona görə də, misal gəlir ki, ağıllı adam atasının adın batırmaz, adın uca tutar.

## 90. MOLLA VƏ ÇOBAN

Bir molla qonşı kənddən ölü götürür. Qayıdıf evə gələndə, qabağına bir çinar ağacı çıxır. Həmişə çınar ağacının dibində bulaq olur da. Gəlir burda oturır, əl-üzün yuyuf qutarannan soorası başdıyır namazın qılmağa. Qurani-kərimdə də belə bir ayə var ki, bir adam namaz qılırsa, onu dindirməy olmaz. Amma içəri girəndə biri özünnən asılı olmuyaraq salam verirsə, o bir dəfə əleykə deyib soora namazı davam eləməlidi. Ona görə də, salam vermir. Peyqumbər gəldi, bırda gördi bir nurani kişi namaz qılır. Gözdədi, namazı qılıb qutarannan soora, istiyir ki düşə yola, dedi:

– Ə, qardaş, kimsən, nəsən? Hardan gəlib, hara gedirsən?

Dedi:

– Mən də sənin kimi bir mollayam.

Peyqumbər dedi:

– Mən sən deyən mollalardan deyiləm, Məhəmməd peyqumbər əleyhsalamam, Allah-taalaynan dilləşməyə gedirəm.

Dedi:

– Ya peyqumbər, mən də otuz ildi mollalığ eliyirəm, mənim yerim behiştin hansı guşəsindədi?

İştaha bax ki, cənnəti yox, behiştin hansı guşəsindədi deyir. Dedi:

– Yaxşı.

Dedi:

– Nə vaxt qayıdarsan?

Dedi:

– Çinarın kölgəsi ora düşəndə qayıdaram.

Peyqumbər əleyhsalam onnan aralanır, bir xeyli gedənnən soora gördü kü, dağın divində bir dənə çinar ağacı var. Bir dənə oğlan malı, qoyunu otarıf gətirif yığıf bura. Oğlan çay içirdi, başın qaldırır, görür bir nurani kişi gedir. Yüyürdü bunun qabağın kəsdi, dedi:

– Əmi, səni and verirəm yeri-göyü yox yerdən xəlq eliyən bir Allaha, gəl bir iskan çay iç, soora get.

Dedi:

– Ay bala, mən elə Allahın yanına gedirəm.

Dedi:

– Allaha and verdim də.

Bı gəldi oturdu bir iskan çay işdi. Uşax da qutarannan soora dedi ki, əmi, kimsən? Dedi:

– Mən Məhəmməd peyqumbər əleyhsalamam, Allahnan dilləşməyə gedirəm.

Dedi:

– Ya peyqumbər əleyhsalam, sənə qurban olum, mən də yetim oğlanam. Birinin qoyunun otarıram, birinin malın, birinin quzusun. İmkan olmuyanda da, məsələn, birinin çörəyin oğurruyuram, birinin toyuğun oğurruyuram. İndi gör mənim yerim cəhənnəmin hansı guşəsindədi?

Dedi:

– Yaxşı.

Nəysə, peyqumbər əleyhsalam gəldi, Allah-taalaynan dilləşdi. İndi bu hansı niyyətə gəlmişdi, öz niyyətdərin danışdı, Allah-taala bını nə məqsədə çağırmışdı onları soruşannan soora gördü peyqumbər dayandı. Qutarannan soorasına bu durdu ki, yola düşə. Öz-özünə fikirrəşdi ki, gətdiyim niyyətdərin hamısını çatdırdım, çatdırmadım? Gəldi bu mollaynan bu uşax düşdü yadına. Peyqumbərin yadına indi düşürsə, peyqumbəri də yaradan Allahdı, mollanı da yaradan Allahdı, uşağı da yaradan Allahdı. Buların nə düşündüyün də bilər də. Dedi:

– Ya peyqumbər, niyə dayandın?

Dedi:

– Ya Allah, qadan alım, gələndə mənim qabağıma belə bir molla çıxdı, bu sözü dedi. Bir çoban da çıxdı, bu sözü dedi. Mən onlara indi nə deyim?

Dedi:

– Onlara deyərsən ki, Allahın başı qarışığ idi. Balaca iynə var ey, o iynənin deşiyinnən iki dənə dəvə keçirirdi. Gələn səfər gələndə deyərəm.

Nəysə, peyqumbər əleyhsalam ordan aralandı, birinci bu uşax yüyürdü bunun qabağına.

– Ağa, dedin?

Dedi:

– Dedim, bala?

Dedi:

– Nooldı?

Dedi:

– Bala, Allahın başı qarışığ idi, beş-altı günnən soora gedəjəm.

Dedi:

– Nağarırdı?

Dedi:

– O balaca iynə var e, o iynənin deşiyinnən iki dənə dəvə keçirirdi, – deyəndə uşax iki dizdərin qoydu yerə, üz tutdu Allaha:

– İlahi, sənə qurban olum, səndə elə güj-qüvvə var ki, ordan iki yox, iyirmi dəvə də keçirə bilərsən.

Burdan qayıtdı gəldi, indi molla çıxdı qabağına. Dedi:

– Nooldu?

Dedi:

– Allahın başı qarışığ idi, gələn səfər deyərəm.

Dedi:

– Nədi?

Dedi:

– Balaca iynə var ey, onun deşiyinnən iki dənə dəvə keçirirdi.

– Əşi, çıx get işi gör. Yox, bu boyda deşikdən iki dənə dəvə keçirirdi.

Nəysə, bu da qaldı. Aradan bir müddət keçənnən soora peyqumbər əleyhsalam getdi Allahnan dilləşəndə, dedi:

– Dedin?

– Dedim.

– Nə dedi?

Dedi:

– Uşax belə dedi, molla belə. İndi de görüm bunun hansının yeri cənnətdi, hansı cəhənnəm?

Dedi:

– O mollanın yeri qır qazanıdı, uşağın yeri cənnətdi.

Molla bayannan mollalığ eliyir, bayannan da Allahın kəlamın yerinə yetirmir. Ona görə deyir:

Oxuyub hər elmi alim də olsan,
Həyatın mənasın biləsən gərək.
Əməkdə, əməldə, xeyirdə, şərdə,
Yaxşını, yamanı görəsən gərək.

Çoxları fikirdən yorğunam deyir,
Çoxları eşqidən solğunam deyir,
Çoxları xalqına vurğunam deyir,
Əməllə imtahan verəsən gərək.

Xaspolad sevinir ellər güləndə,
Xalqın güzəranın yaxşı görəndə.
Vətən uğrunda yeri gələndə
Döyüş meydanına girəsən gərək.

## 91. ÜÇ MƏSLƏHƏT

Bir dəfə zəlzələ olur. O zəlzələdə neçə evlər-filan dağılır. İyirmi, iyirmi beş yaşında bir oğlan yuxudan ayılır, baxır ki, zəlzələdə bınların evi-eşiyi uçub, atası, anası, bacısı, qardaşı – ümumiyətnən hamısı ölüb. İndi bu uşax beş-on gün oturdu, buları dəfn eliyənnən soora fikirrəşdi: "Ya rəbbim, ya rəsulallah, bəs ata yox, ana yox, bacı yox, qardaş yox, var yox, pul yox. Mən neyniyim? Baş götürüm gedim, hardasa bir adama imkan olsa, mal otararam, nökər olaram, dolanaram.

Bu uzun müddət yol gəldi. Xeyli gələnnən soorasına tay gördü ki, heydən düşüf da, tərpənə bilmir. Fikirrəşdi mən neynim, nağayrım? Otdu bir yerdə, bir şəhərin girəcəyində. Gördü bir qoca kişi dilənir. Dedi: "Bırda kim məni tanıyır, gedim mən də dilənim, bir az nə toplasam onnan dolanaram". Gəldi otdı. Onda başın qaldırdı ki, uje gün batır, hardeysa bu üç abbasıya qədər pul yığıb. O vaxt da pulun elə qiymətdi vaxtıdı kı, bir abbasıya karrı bir erkək almağ olardı. Bu küçənin birinnən aşdı, ikincini aşanda dedi, gedim da, çay-çörəh yeyim. Gördü bir dənə qoca kişidi, hava da küləhli, çəliyi də tutub əlində, ayaqüstə dura bilmir. Deyir:

– A-a-ay Allahı sevənnər, balalarım qırıldı, mənə kömək.

Belə baxdı, baxdı, dedi:

– Ya rəbbim, ya rəsulallah, mən iki gündü acam, iki gün də ac olsam ölmərəm. Mən genə bir yerdə yatıram. Gör bu nə kökə düşüb ki, gəlib belə deyir.

Gəldi dedi:

– Əmi, nədi, noolıb, niyə durmusan?

Dedi:

– Ay bala, iki-üş balam var, hamısı ajdı. Bir loxma tapammıram, aparıb verəm, ajınnan ölməyələr.

Dedi:

– Əmi, səni and verirəm Allaha, buyur, bax bu üç abbasının üçün də verirəm saa. Bir ay yox, üç ay o balaların yiyər də, içər də, dolanar da.

Dedi ki, oğul, dayan. Dedi:

– Nədi?

Dedi:

– Səni bu gün maa kimsə qismət elədi, mənim də güjüm dilimə düşür də. Dayan, sana üş kəlmə söz örgədim.

Dedi:

– Nədi?

Dedi:

– Oğul, mənnən sənə əmanət, getdin gördün bir adam elə bir vəziyyətə düşübdü ki, bunu öldürüllər də. Sənnən iki şeyin müqayisəsin soruşanda onun birinə yaxşı, birinə pis demə. Ya ikisinə də pis de, ya ikisinə də yaxşı de.

Dedi:

– Yaxşı.

Dedi:

– İkinci vəsiyəm odu ku, getdin elə bir yerə düşdün kü, gördün sən öləjəhsən də. Onda üş dəfə nəhlət oxu, soora sən yerinə gələrsən. Getdin gördün elə adam bazarda elə şey satır ki, ona hamı gülür. Onda o dediyinnən bir az artıx ver, onun satdığın al, amma aldığın şeyi atmaginan, özündə saxla. Vaxt olar o saa qismət olar. Soora bir də oğul, məsləhətim budu, gördün bir yerdə əlinnən elə bir xata çıxajax ki, o ölümnən nəticələnəjəh. Onda üş dəfə şeytana lənət elə, özü saxla. Ola bilsin ki, o elədiyinnən də artıx cəza verə bilərsən, ola bilsin ki, o elədiyinin qarşısında günaha batarsan da, bala.

Dedi:

– Yaxşı.

Nəysə, bunnan aralandı. Bir az da gələnnən soora gördü meşənin qırağında bir dəstə adamdı oturub: mal, qoyun, var,

dövlət. Oturublar, hamısı əli belə qoynunda qəm dəryasındadı. Gəldi salam verdi, heş bunu dindirən olmadı. Otdu. Bir az oturannan soora yaxınnaşdı sizin kimi hörmətdi adama. Dedi:

– Qardaş, baxıram, içinizdə xəstə yox, ölən yox, bir şey yox. Sən allah, niyə belə hamınız qəm dəryasına batmısınız?

Dedi:

– Pis adamın üzü qara olsun. Yoldaşdarımıza vedrəni, səhəngi vermişdik bağla dəvənin cihazına, düşəndə bir yerdə su götürərik. İndi o da vedrəni nətəər bağlıyıbsa, vedrənin arxası yırtılıb, bura da quyudu da, quyudan su çəhməyə imkanımız yoxdu.

Dedi:

– Ağaaz kimdi?

Dedi:

– Neynirsən?

Dedi:

– Ona denən məni salsın quyuya, mən vedrəni lığlıyım, doldurum, çəkin.

İndi gör bu nə günə düşüb kü, bu boyda padşahın oğlu, bu qədər varı-dövləti, hamısı zəlzələdə batıb, indi bı bir qarın yeməyə görə quyuya düşməyə razıdı.

Nəysə, gətdilər bunu saldılar quyuya. Bu suyun lığın yığdı, vedrəni lığladı, doldurdu. Bunlar çəkənnən soorasına gördü kü, burda – bu quyunun altında belə də yol var, belə də. Yavaş-yavaş bir az irəlilədi, bir də gördü ayağı büdrədi, yıxıldı. İbişkanı çaldı, gördü üş dənə cavan oğlandı, bir-birinnən qoçağ, iyid. Üçün də öldürüblər, meyidi yerdədi. Bu, dəhşətdi şəkildə gəldi qapının ağzında bir az durdu, gördü vedrə tıkqıldadı. Genə lığladı, bunnar çəkənnən soora dedi, indi bu tərəfə gedim. Genə bir az getdi, bir beş-altı addım getmişdi, burulanda gördü işıx gəlir. Məhətdəl qaldı bu nə olar? Burulanda gördü kü, bir dənə gözəl, nağıllarda, əfsanələrdə

deyilir e, gözəl bir qızdı oturubdu, bir oğlan da başın qoyub bunun dizinin üstə, qız bunun başın belə sığallıyır. Qız səsə başın qaldıranda gördü kü, bir nəfər gəlir. Əliynən belə elədi ki, qayıt qaç. Bı istədi dönə, əyağı düşdü suya, suyun şırıltısına oğlan qalxdı. Qılıncı çəvirdi, dedi:

– De görüm burda nəəzirsən?

Dedi:

– A qardaş, vallah, təsadüfən gəlmişəm.

Dedi:

– Ə, kəlmə-şəhadəti oxı.

Nəkqədərə elədi, dedi:

– Ə, kəlmə-şəhadəti oxı, bu saat süründürəjəm.

Dedi:

– Ay qardaş, vallah, mənim günahım yoxdu.

Dedi:

– Onda saa bir sual verəjəm, sualıma cavab verdin, səni boşlıyajam, verməsən yox.

Dedi:

– Nədi?

Əl atdı sudan bir qurbağa götdü, dedi:

– De görüm bu qız gözəldi, yoxsa bu qurbağa, – deyəndə bu öz-özünə dedi ki, ə, bu dəlidi, nədi. Bu gözəllikdə qızı gör nəyə oxşadır. Bir az fikirrəşəndə birdən bı kişinin sözü yadına düşdü kü, iki şeyin müqayisəsi olanda birinə yaxşı, birinə pis demə də. Ya ikisinə də pis, ya ikisinə də yaxşı de. Dedi:

– Qardaş, ikisi də gözəldi.

Dedi:

– Nətər gözəldi? Bu gözəllikdə qız bu qurbağadan gözəldi?

Dedi:

– Qardaş, ədaləti pozma. Bu qızı da yaradan bir Allahdı, qurbağanı da yaradan bir Allahdı. O özünə görə gözəldi, o da

özünə. Mənim nə ixtiyarım var deyəm bu yaxşıdı, o pis? – deyəndə bu oxudu, qurbağa bu qızdan da gözəl qız oldu. Dedi:

– Anan namaz üsteydi, səni öldürmədim. Bunnan qabağ üç oğlan gəlib, onların üçün də orda öldürmüşəm. – Yadına düşdü ki, orda ölənnər kimdi. – İndi saa hörmət eliyirəm. Burdan çıxannan soora bu quyudan gün çıxan tərəfə yox, gün batan tərəfə əlli addım gedərsən, orda bir sakqız ağacı var, o sakqız ağacın gün batan tərəfinə yox, gün çıxan tərəfinə iki addım gəlib yeri qazarsan, orda bir balaca mücrü var, onu götür, get dolan.

Dedi:

– Yaxşı.

Gəldi quyunun ağzına, gördü vedrəni sallıyıblar. Vedrəni lığladı, onlar çəkənnən soorasına ipi saldılar, oğlanı çıxartdılar. Gördülər ki, bəyaxkı oğlan deyil, qapqara qaralıb, yazıx bax belə əsir.

– Ə, noolub sana, noolub sana?

Dedi:

– Hamısı qorxudandı da, neynim.

Tay demədi nədi. Bıllar çay-çörəyi uje hazırrıyıblar. Gətdilər, bı da oturub yeyib qutarannan soora dedilər ki, qoşul bizə, gedək. Bu bəyaxkı vəziyyət olsa, qoşulardı, amma indi qızıl söhbəti var axı. Dedi:

– Qardaş, çox sağ olun. Mən burda yetiməm, mal-heyvan otarıram. Gedirəm o tərəfə, görüm kim var onuynan gedəm.

Bunlar gedənnən soora, təmiz aralanannan soora durdu addımın saya-saya gəldi bu ağacı tapdı. Bunnan da iki metr addıyannan soorasına balaca bir dəmir parçası tapdı, qazdı. Qabağına torba nədi, – qızdarı ərə verəndə sandıx verillər ey, – gördü belə bir sandıxdı. Sandığı aşdı baxdı, gördü burda iki put, üş put qızıl var. Dedi:

– İlahi, şükür saa.

Tez bunnan bir az yığdı cibinə, sandığın ağzın bağladı yığdı yerinə, üstün də örtdü, bir az da otdan-zaddan yığdı ki, gəlib başa düşməsinnər. Şəhər yaxın idi də, özün saldı şəhərə. Şəhərə salannan soorasına getdi birinci dəlləyə üzün-başın qırxdırdı. Ordan getdi çay-çörəh yeyənnən soora gəldi, dedi gedim özümə yurd tutum. Gəldi bir yaxşı üş-dörd otaxlı ev aldı. Alannan soorasına bir səhər... İndi sizdə də olur, olmur. Qabaxda bir həvgə olurdu, bir də xurcun olurdu. Getdi bunun birin aldı gətdi, qızılları yığdı buna. Gətdi üstünə otdan-zaddan qoydı da, guya ot adıynan. Gətirdi boşaltdı, qayıtdı. Belə-belə, belə-belə qızılı gətirdi, hardeysə üş-dörd put qızıldı. Bu qızılı yığannan soora başı qarışdı alverə, bir də onda baxdı ki, hardeysə bir ton yarım, iki tona qədər də qızılı var. Dedi: "Hə, demək ki, Allahdan gələcəydi". Gedim indi bir dəfə də alverə, qayıdıf gəlim, yığım gedim evə. Görüm arvad durursa, arvadı da götürüm gəlim, uşağı da götürüm gəlim, elə burda dolanax.

Uzun müddət gedənnən soorasına gəldi çıxdı bir şəhərə. Alver eliyib qutarannan soorasına döndü bazara ki, nə lazımdı ala. Gördü bazarın bir tərəfinə camahat yığılıf, ha-ha-ha gülüllər. Yaxınnaşdı ki, bu nədi. Getdi gördü bir atmış, yetmiş yaşında qoja arvatdı, oturubdu, əli də belə əsir. Əlində bir pişik tutub:

– A-a-ay pişik alan, ay pişik alan.

Hamı da gülür ki, pişik nədi? Pişiyi satallar? Gəldi dedi:

– Nənə, neçəyə verirsən?

Dedi:

– Bir abbasıya.

O vaxtı da bir abbasıya bir karrı erkək almağ olardı. Belə baxdı, baxdı, gəldi bu kişinin sözü yadına düşdü. Gətdi abbasını verdi, dedi:

– Ana, dur get, sən allah, neçə il yaşasan bu sənin bəsindi də, dolanarsan.

Bu pişiyi gətirdi uşaxlara verdi ki, bunu qoyun setkaya, dəvənin üstünə qoyun, yedirdin. Yeri gələr apararam evə, lazım olar. Ordan çıxdılar yola. Bir neçə gün yol gələnnən soorasına bir şəhərdə meşənin qırağınnan keçəndə gördü kü, bir bulağın üstündə bu şəhərin bəyi ov ovluyuf, gəlib oturublar burda yeyələr. Burdan keçəndə bı yerri bəy bunları qonax dəvət elədi. Bu müsəlmanda bir-birinə hörmət var dana. Gəldilər, oturannan soorasına çörəy ortaya gələndə gördü bir dörd-beş nəfər oğlan, hərəsi əlində bir ağaj bunları dövrəyə aldı. Bu belə baxdı, bu belə. Sakitcə dedi:

– Niyə qorxursan, noolub?

Dedi:

– Ay qardaş, bizə bir loxma vermisən, bu nədi?

Dedi:

– Qardaş, onnan dəyil e. Bu çörəyi ortaya qoyanda yer altında balaca heyvannar var, çıxıf əlimizdən alır.

Heş demə bular da siçan, yarasa imiş. Bunlar da pişiyin nə olduğun bilmir. Belə deyəndə birdən ağlına gəldi, dedi:

– Ə, get o pişiyi gətir bura.

Dedi:

– Qoy hamı otursun, qorxmuyun.

Dedi ki, nədi? Gətirəndə gördü balaca bir pişikdi. Dedi:

– Ə, bu nədi, bu neyniyə bilər?

Dedi:

– Sənin nə işin var, xayiş eliyirəm hamınız oturun.

Bunlar hamısı oturannan soora pişiyi boşdadılar. Pişiy qurbağaları burda, siçanları orda yeyir. Hardeysə bir kilo yarıma qədər ağırrığı vardı, yarım kilo da burdan artdı. Padşah dedi:

– Qardaş, amanın günüdü, bunu neçəyə verirsən, ver maa.

Dedi:

– Ə, nə danışırsan, bunu mən verə bilmərəm, bu çox bahadı.

Dedi:

– Nə təhər?

Dedi:

– Onu qırx özü ağırrığında qızıla almışam.

Bir az fikirrəşdi, dedi:

– Ə, qırx nədi, lap əlli özü ağırrığında qızıl verərəm.

Gətdi mına bir meşok da qızıl verdi, pişiyi verdi bılara. Demək, bir meşok da bırdan qazandı dana. Ordan gəldi. Gəldi öz şəhərlərinə. Evə çatanda gördü arvadı yeri süpürür, bir cavan oğlan da yüyürür bunu öpür qaçır, öpür qaçır. Bu hirsdəndi, – onda da ən güjdüsü ox idi da, – oxı hazırradı ki, bu oğlanın kəlləsinə vıra. Çəhdi, çəhdi, elə boşlamağ istiyəndə birdən kişinin sözü yadına düşdü: "Getdin elə yerdə gördün əlinnən bir xata çıxajax, o saa ziyan da gətirə bilər, xeyir də gətirə bilər. Ona görə xatanı saxla, get onu örgən. Ola bilsin ki, onnan da pis vəziyyətdə onu öldürərsən. Ola bilsin ki, elədiyin xataya peşman olarsan ki, bu olmasın". Dedi: "Qoy qalsın, gedim örgənim. Belə olannan soora bunu nəinki öldürərəm, lap tikə-tikə doğruyaram".

Gəldi. İndi oğlan aralaşıb, arvad da süpürür. Arvad belə başın qaldıranda gördü kü, əri gəlir. İndi on beş il, on altı il keçsə də, əri ərdi də. Yüyürdü bunuynan qucaxlaşıb öpüşənnən soorasına dedi ki, nədi, nolub? Dedi:

– Aaz, mən gedəndə saa demədim ki, mənnən başqasına yaxınlıx vermə?

Dedi:

– Ayıb deyil?

Dedi:

– Aaz, nətər, orda görmədim?

Dedi:

– Ayıbdı. Bəs sən gedənnən hamilə dəyildim? On yeddi yaşında oğlumdu də.

Belə deyəndə baxdı, baxdı, dedi ki, ilahi, o kişi burda olsa, onun ayağın yuyub kirin içərdim. Yüz dənə maldan da, puldan da, milyon tonnan da vacib övlatdı. Allaha şükür, övladım sağ qalıb. Onnan soora oturub yeyib-içənnən soora, dedi:

– Arvad, bu qədər qızılım var, gedək ora.

Dedi:

– Hər quşun öz yuvası, hər dananın öz balası, hər insanın öz vətəni şirindi ozünə.

Dedi:

– Onda gedib qızılları yığıb, götürüb gələrəm.

Gəldi oğlun da götdü, iki dənə güjdü at, iki dənə dəvə aldı. Dəvənin ikisinə qızılların hamısın, üstünə də yorğan-döşəhdən atdı, götürdü gəldi. Qabaxkınnan iki dəfə artıx başdadı yaxşı dolanmağa.

## 92. YETİM OĞLAN

Bir ölkədə güjlü zəlzələ olur. Bu zəlzələdə çox adam batır. Bir oğlan evdə yoxuymuş. Bu evə qayıdıb gələndə görür ki, – Allah heş kəsə göstərməsin, – buların evləri dağılıb. Ata, ana – hamısı batıbdı, mal, heyvan-filan. Əlacı kəsilir, fikirrəşir, mən neyniyim, nağayrım? Fikirrəşir ki, ya rəbbi, ya rəsulallah, ata yox, ana yox, mal yox, qoyun yox, dövlət yox. Gedim hardasa bir varrı adam tapım, ona nökər olum, birtəhər dolanım.

Durur çıxır öydən. İki-üş gün yol gedənnən soora gəlir bir şəhərə. Üç-dörd kilometr qalmış, görür böyüh bir çinar ağacıdı. Bu çinar ağacı tarixən müqəddəs sayıldığına görə, çinar ağacının dibində əksər halda bulağ olur, su olur. O suyun, o kölgənin xatirinə yolnan keçən, orda mal-heyvan otaran, kimi namaz qılmax xatirinə, kimi çörəh yeməh xatirinə gəlir ora. Bura yaxınnaşır ki, gəlib burdan keçib-eliyən olar, oturar çörəh-zad yeyər, mən də bir loxma yeyərəm də. Gəlir

görür ki, bir nurani kişi namaz qılır. Namaz qılan adamın namazının arasını kəsmək olmaz. Namazın arasın belə kəsərdilər ki, gələn adam bir dəfə salam versə, o bir dəfə əleyki deyif namazın qıla bilər. Ona görə bu namazın qılıf qutarannan soorasına durdu ki, yola düşə. Dedi:

– Əmi, qadan alım, başına dönüm, kimsən, hardan gəlib hara gedirsən?

Dedi:

– Nədi, neynirsən, ay bala?

Dedi:

– Belə-belə, başıma belə bir hadisə gəlib. Zəlzələdə valideyinlərimi itirmişəm. İndi varrı-dövlətdi bir adam gəzirəm ki, gedim ona nökər olum, məni dolandırsın.

Dedi:

– Bala, mən sən deyənnərdən döyüləm.

Dedi:

– Kimsən?

Dedi:

– Mən Məhəmməd peyqumbər əleyhsalamam, Allah-taalaynan dilləşməyə gedirəm.

Dedi:

– Ya peyqumbər, sənə qurban olum, bəs o Allahdan soruş, gör mənim taleyim, vəziyyətim necə olajax da.

Dedi:

– Yaxşı.

Dedi:

– Nə vaxt qayıdarsan?

Onda da saat-zad yoxuydu axı. Peyqumbər əleyhsalam başın qaldırdı, gördü bu ağaşdan on beş metr aralı bir qara daş var. Dedi:

– Ağacın kölgəsi ora çatanda mən qayıdaram.

İndi peyqumbər əleyhsalam gedənnən soora bı durdu, bulağın qırağında həməköməci, əvəlih, yaxşı belə göy otdar olur. Bulardan bir az yığıf yeyir. İndi uzax yoldan gəlmiş adam, uzanır, bını yuxu tutur, yatır. Peyqumbər əleyhsalam gəlir Allah-taalaynan görüşür. İndi hansı məqsədə gəlmişdi məqsətdərin söylüyür, Allah bunu hansı niyyətə çağırıf buları söylüyənnən soora, öz-özünə fikirrəşir ki, görüm sözdərin hamısın dedim, demədim. Uşax yadına düşəndə dayandı. Bunun yadına indi düşürsə, uşağı peyqumbərnən görüşdürən də Allahdı dana. Dedi:

– Ya peyqumbər, niyə dayandın?

Dedi:

– Ya Allah, gələndə bəs belə bir uşax qabağıma çıxdı, dedi Allahdan soruş, gör onun kitabında mənim adım var?

Dedi:

– O uşağın adı var, amma taleyi pışdı. Yəni həyatı yoxdu.

Peyqumbər əleyhsalam burdan aralandı. Nəysə, gəldi, bu uşağa çatmağa bir-iki kilometr qalmış fikirrəşdi ki, ya rəbbim, ya rəsulallah, indi bu uşax məni hansı həvəsnən, hansı marağnan, hansı sevincnən gözdüyür. Yaxşısı bıdı ki, heç burdan getmiyim, uşax da məni görməsin, soora da təsadüfən görəndə deyərəm yadımnan çıxıb.

Dağın o tərəfinnən gedəndə bı dəmdə uşax yuxudan ayılır. Baxdı ki, kölgə bının dediyi daşdan bir santı, iki santı da irəli gedib. Dedi: "Ya rəbbim, ya rəsulallah, yəqin peyqumbərin yadınnan çıxıf. Çıxım dağın başına, görüm, birdən o yannan gedər". Qalxdı, gördü dağın o tərəfinnən gedir. Yüyürə-yüyürə gəldi. Dağdan yenməynən dağa qalxmax bir döyül, həm də cavan yerişiynən yaşdı yerişi bir döyül. Çatdı bına. Dizin qoydu yerə, dedi:

– Ya peyqumbər, sənin başına dönüm, sənə sifariş eliyən oğlanam e. Dedin?

Dedi:

– Dedim.

– Nə dedi?

Dedi:

– Ay bala, sənin adın var, amma...

Ammanı gözdəmədən uşax iki dizdərin qoyuf yerə üz tutur Allahın dərgahına: "İlahi, şükür varlığa, unudulmamışam" (Söyləyici həyəcanlandığı üçün söhbətə bir-iki dəqiqə ara verir – top.). Bı dəmdə peyqumbər əleyhsalama Allahdan nida gəldi ki, uşağa denən sənin qismətin bayax and işdiyin yerdədi. Get daşın altını qazginən, taparsan. Belə deyəndə peyqumbər əleyhsalam fikirrəşdi ki, Allah-taala maa dedi ki, bunun adı var, amma talehi yoxdu. İndi də deyir, getsin o daşın altını qazsın. Yəqin bu o mənada qazdırır ki, min bir əzab-əziyətnən öldürsün dana. – Amma bunun nə ixtiyarı var Allahın kəlamını deməyə. – Dedi:

– Bala, sənin qismətin bayaxkı daşın altındadı, get oranı qaz.

Uşax gəldi bir dəmir parçası tapdı, yavaş-yavaş qazdı. Daşı götürüb qırağa qoyannan soora gördü qabağında bir qapı açıldı. Yavaş-yavaş qazdı, qapını açanda gördü burda böyük bir binadı, hardeysa burda qırx, əlli ton qızıl var. Tez bunnan bir az yığdı cibinə. Qapını bağladı, daşı qoyuf yerinə üstün örtənnən soora bir az otdan-zaddan yığdı. Şəhər yaxın idi dana, özün verdi şəhərə. İnsan hər bir əzab-əziyyətə dözsə də, ajdığa dözə bilmir dana. Özün verdi yeməkxanaya, çay işdi, çörəh yedi, burdan getdi üzün-başın qırxdı, ordan getdi özünə bir dəst bəyyana paltar aldı. Ordan gedif hamamlanıf, çimif qutarannan soora fikirrəşdi ki, indi mən neyniyim, bını necə daşıyım? Onda da ən güjdü minih dəvə idi. Dedi, gedif qırx dənə, əlli dənə dəvə tapım, bını aparım. Soora fikirrəşdi ki, mən elə bil ki, qırx dənə dəvə tapdım, qırx dənəni idarə

eləməyə gərək həşdat dənə də adam ola. Bı həşdat adam bilsə ki, bı qırx ton qızıldı, yolda məni tikə-tikə doğruyuf qızılı götürəjəhlər. İkinci bir cəhətdən də, apardım ora, ata yox, ana yox, qardaş yox, hara yığım? Deməh, bını Allah-taala maa qismat eliyibsə, gedim elə həmən ağacın dibində özümə bir bina tikim, gəlif gedənnərə də hörmət eliyərəm.

Gəldi bırda özünə nökər-naib tutdu. Deməh, o vaxdı ən güjdü bina bəyin, xanın olur da. Dedi, filan bəyin evi kimi mənə elə bir ev tikirsiz ki, məşhur olsun dana. Evi tikif qutarannan soora bı bir meşox qızıl çıxartdı, ustalara verdi ki, günbatannan başdıyırsız işə, gecə yarıya qədər bı binanı ləl-cəvahiratnan bəziyirsiniz, bı da sizin qismətiniz, götürün, gedin. Bılar bəziyif gedənnən soora, indi bir yaxın padşah tezdən durur ki, sübh namazın qıla. Çıxanda gördü ki, gün belədən çıxıb, amma belədən elə bir şafaq gəlir ki, adamın gözü qamaşır. Öz-özünə fikirrəşdi ki, bı nə ola? Onda da ölkəni idarə eliyən vəzir-vəkil olur da. Çağırdı:

– Vəzir, vəkil, bıra gəl.

Gəldilər ki, ağa, nədi? Dedi:

– Gün hardan çıxır?

Dedi:

– Ağa, nə tez yadınnan çıxıb? Gün belədən çıxır da.

Dedi:

– Bir belə baxın.

Bılar belə baxanda indi bıların gözü qamaşdı axı. Qamaşanda dedilər:

– Ağa, bağışda, icazə ver gedək, ordan bir xəbər gətirək.

Altı-yeddi nəfər yığıldı, içində yaşdı da, cavan da. Gəldilər gördülər ilahi, bı elə bir binadı ki, padşahın binası bının yanında heş bir şeydi. Başdan ayağa ləl-cavahiratnan bəzənib. Gəldilər həyətə. Gördülər heş kim yoxdu, bir cavan oğlandı. Bayax dedim ki, Allahın min bir kalamı var, birinci

kalamı salamdı da. Düşman da olsa, gərək salam verəsən. Bına salam verdilər. Dedilər:

– A bala, bı ev kimindi, yiyəsi kimdi?

Dedi:

– Ev mənimdi, yiyəsi də mənəm. Neynirsiz ki?

Dedilər ki, səni padşah çağırır. Qapını bağladı, düşdü bıların yanına. Bı cavanın biri bılardan qabax yüyürə-yüyürə gəldi. Padşaha dedi ki, padşah sağ olsun, orda belə bir binadı, hansı ki onun yanında sənin binan heç nədi. Yiyəsi də cavan bir oğlandı, gətiririk. Cavan deyəndə padşah sevindi ki, cavan təkəbbürlü olar. Mən danışdıraram, maa cavab qaytarar, bını döyərəm, ya tutaram, ev də qalar maa, yurd-yuva da.

Gəldi, bı qapıya çatanda işarə elədilər ki, padşah budu. Bı irəli yeriyif, iki dizdərin qoyuf yerə, üz tutuf Allahın dərgahına bına elə bir tərzdə salam verdi ki, bunun ixtiyarın əlinnən aldı. Dedi:

– Oğlum, bilirsən səni niyə çağırmışam?

Dedi:

– Padşah sağ olsun, mən kiməm biləm, deyərsiz bilərəm.

Dedi:

– Mənim gözümün ağı-qarası bir qızım var, səni çağırmışam o qızı saa verəm.

Dedi:

– Qıza da qurban olum, öza da qurban olum. Verirsən ver, al deyirsən alım.

İndiki toylar iki-üç saat çəkər. Ondakı toylar qırx gün çəkir dana. Qırx gün toy eliyənnən soora, gətirdi qızını dolandırdı ojağın başına, bına xeyir-dua verəndə, birdən ağlına gəldi ki, ya rəbbim, ya rəsulallah, mən bının bir səjdə salamına vuruldum qızımı verdim bına. Axı mən bilmirəm bının milliyyəti nədi, axı mən bilmirəm bının özünnən başqa qohumu, ata-anası var, yoxdu. Axı mən bilmirəm ki, bı binadan başqa

bının varı-dövləti, cah-cəlalı var, ya yoxdu. İndi həsrət çəkib ağlıyanda, qız dedi:

– Ata, niyə ağlıyırsan, mənim günahım nədi?

Dedi:

– Ay qızım, mən belə səyf eləmişəm.

Dedi:

– Ata, sən səyf eləmisən, bəs mənim günahım nədi?

Dedi:

– Qızım, gedərsən, bir az yaşıyannan soora örgən gör bının milliyəti nədi, örgən gör bının özünnən başqa qohumu, qardaşı var, yoxdu? Örgən gör bı binadan başqa bının varı-dövləti, cah-cəlalı var, ya yoxdu?

Dedi:

– Yaxşı.

Nəysə, gəldilər. Altı-yeddi ay yaşıyannan soora, bir gün yastığa baş qoyanda bı atanın sözü qızın yadına düşür. Qız qəfil yönün yana çevirəndə bu oğlan dedi:

– Ay qız, biz ər-arvadıxsa, yönü mənnən niyə çevirirsən? Ər-arvad döyülüksə, bir yastığa niyə baş qoyuruq?

Dedi:

– Biz nətər ər-arvadıq ki, yeddi aydı bırda yaşıyırıq, sən maa demirsən ki, sənin milliyətin nədi?

Dedi:

– Əstafrullah, qanım qanından, canım canınnan, mən də sənin kimi Məhəmməd ümməti, müsəlman əhliyəm.

Dedi:

– Bəs maa demirsən axı, sənin özünnən başqa qohumun, övladın var, yoxdu?

Dedi:

– Qız, mənim qohumum, övladım Allahdı, ona qurban olum. Yerdə də sənin atannan başqa heş kimim yoxdu.

Dedi:

– Yaxşı, maa demirsən axı, görüm bı binadan başqa sənin varın-dövlətin, cah-cəlalın var, ya yoxdu?

Dedi:

– Bala, var-dövləti gündüz xəbər alallar, gejə vaxdı yorğan-döşəyin içində saa nə deyim? Yat, səhər ayılarsan, deyərəm.

Yatdılar, səhər açıldı. Allah sizin də həmişə səhərinizi xeyirə açsın. Bı tezdən durdu, qız yerinnən durmamış özün verdi indiki dilnən desək mağazaya. Əvvəlcə kley aldı, iki-üş metr ağ aldı. Gəldi, qız yönü ayna durduğu yerdə ağı doladı bədəninə, kleylədi. Bı qayıtdı ki, biz ər-arvadıxsa, sən məni niyə bağladın? Dedi:

– Biz nə qədər ər-arvad olsax da, sən axşam mənnən söz soruşdun, mən də söz verdim sənə var-dövlətin yerin deyəjəm.

Arvad nə qədər ağıllı olsa da, kişi öz sirrin arvada verməməlidi. Ona görə ki, arvadın ürəyi uşağ ürəyi kimidi dana, tez allanıb onu satar dana. Ona görə oğlan sirrin vermədi. Bının qolunnan tutub yeriyəndə, qızın gözü görməsə də, padşah qızıdı da, hər şeyi bilir. O saat bildi ki, varın yerin buna demir. Addımını saydı ki, görsün neçə addım gedir. On beş addım gedənnən soorasına dedi, dayan. Bını oturtdu, yeri qazdı. Qapını açannan soora gətirdi qızın əlinnən tutdu, saldı içəri. Dedi:

– Qız, gözün görmür, amma padşah qızısan, əlinin hissiyatıynan var-dövləti bilərsən?

Dedi:

– Hə.

Gətirdi, bı, qızılnan oynadı, oynadı. Dedi:

– Bunnarı oynatmax üçün bizə bir gün vaxt lazımdı. Daldan gəlif qapını açallar, səni də öldürəllər, məni də. İndi hiss elədin ki, varımdı?

Dedi:

– Hə.

Gəldi bını çıxartdı. Qapını bağlıyannan soora, daşı qoyub yerin itirənnən soora on beş addım gəlmişdisə, indi qızı yüz əlli addım aralıdan hərrədi gətirdi. Qız gördü bırda da izi itirdi. Gəldi atasına sifariş elədi ki, ata, bizi qonaq çağırarsan? Ata o saat hiss elədi ki, qız nəysə bir şey örgənif dana. Bıları qonax çağırdı. Camaat oturdu, yeyib-içib durub gedənnən soora keşdi o biri evə, qızı çağırdı. Dedi:

– Qızım, noldu?

Dedi:

– Ata, hal-qazıya belə-belə.

Dedi:

– Hə, demək bı ağılda da mənnən üstündü ki, sirri arvada vermiyib.

Deyir, sirri vermə bacaa, bacının da bacısı var. Gəldi, dedi:

– Oğul, bilirsən səni niyə çağırmışam?

Dedi:

– Ateyi-mehriban, mən kiməm ki, biləm. Deyərsən, bilərəm.

Dedi:

– Müasir dövrdə belədi də, ata rəhmətə gedəndə onun yerinə oğlu vəzifəni götürməlidi. Mənim də o qızdan başqa heç bir kəsim yoxdu. Başa düşən üçün yeznə elə oğuldu. Bugünnən bı ölkənin yiyəsi olajaxsan sən, idarə eliyəjəhsən.

Dedi:

– Ateyi-mehriban, mən qələt eliyərəm sənin yeraa keçəm.

Dedi:

– Üzün ağ olsun ki, mənə ata deyirsən. Atanın başın oğul uca edər. Oğul olan yerdə qızı içəri keçirmək olmaz.

Gətirdi bını öz yerinə ağa qoydu. Bı bir müddətə elə bir yurd-yuva, ev-eşik qurdu ki, insanların elə bir hörmətin qazandı ki, ağanın başın uca elədi. Bunuynan da Allahın yolun davam elədi.

## 93. ÜÇ ÖLÜM

Bir dənə padşah olur. Bu padşahın iyirmi-otuza yaxın dəvəsi olur, iki yüzə yaxın qoyunu olur, yüzə yaxın malı olur, varı-dövləti, bağı-baxçası, üş dənə də arvadı olur, heş birinnən züriyəti olmur. Bir günnərisi bı, dağın başına çıxıb belə baxanda öz-özünə fikirrəşir: "Ya Rəbbim, ya rəsulallah, bəs bı qədər mal, pul, var-dövlət, qızıl, gümüş... Səhər bəs mən kəlləmi qoydum yerə, bılar kimə qalajax?" Belə həsrətnən baxanda vəzir-vəkil gördü ki, ağa nətər baxır. Dedilər: "Ə, ağa fəxr eliyir ey, bı qədər mal, pul, var-dövlət". Gəldilər dedilər:

– Ağa, bax gör nə qədər bağ-baxça...

Dedi:

– Qutardız?

Dedi:

– Hə.

Dedi:

– Yaxşı, səhər bı ağa başını yerə qoydu, bılar kimə qalajax?

Belə deyəndə bılar da həsrət keçirdi. Dedi:

– Ağa, icazə ver, gedək adama bir dənə baxıcı tapax, götürəh gələh, o baxıcı gəlsin, baxsın, görsün bu arvatdarın hansı birinnən sizə züriyət olajax. İşdi, olmasa, gedəh başqasın alax.

Dedi:

– Yaxşı.

Bılar getdi, bir on gün gəzdilər. Hərəsi elə bir baxıcı tapdı ki, ta bıların dediyində səhv olmur. Gətirdilər. Bı baxıcılar dedilər ki, bizi neynirsiz? Dedi, sizi bı məqsədə çağırmışıx, bizim ağanın üç arvadı var, heş birinnən züriyəti olmur. Baxın görəh bının hansınnan züriyəti ola bilər. İşdi, olmasa, ayrısın alsın.

Dedi:

– Onda ağa arvatdarıynan bir yerdə olsun evdə, biz bir-bir girəh yoxluyax.

Bının biri girdi içəri, belə baxdı-baxdı, dedi:

– Ağa, xətraa dəyməsin, vallah, dana. Üç yox, lap otuz arvad alasan, sənnən züriyət yoxdu. O de, o qıraxkı arvad var ey, onnan bir oğlun olajax. On yeddi yaşına çatanda gündüz saat iki tamamda ilan çalajax, öləjəh.

Dedi:

– Get.

İkinci girdi içəri. Baxdı, baxdı, bı da həsrətin ötürdü. Dedi:

– Nədi?

Dedi:

– Ağa, xətraa dəyməsin, üç yox, üç yüz arvad alasan, sənnən züriyət yoxdu. O de o qıraxkı arvad var ey, onnan bir oğlun olajax. On yeddi yaşına çatanda gündüz saat iki tamamda ağaşdan yıxılıb öləjəh.

Üçüncünü çağırdılar. Bı da baxdı, baxdı, bı da həsrətin ötürdü. Dedi:

– Nədi?

Dedi:

– Ağa, xətraa dəyməsin, üç yox, üç min arvad alasan, sənnən züriyət yoxdu. O de o qıraxkı arvad var ey, onnan bir oğlun olajax, on yeddi yaşına çatanda gündüz saat iki tamamda suda boğulub öləjəh.

Bı da gedənnən soora vəziri-vəkili çağırdı, dedi:

– Vəzir-vəkil, bının üçü də dedi ki, bı arvatdan başqa züriyətin olmuyajax. Üçü də dedi, bir oğlun olajax, üçü də dedi, on yeddi yaşına çatanda öləjəh, üçü də dedi, saat ikidə öləjəh. Amma biri dedi ilan çalajax, biri dedi ağaşdan yıxılajax, biri dedi suda boğulajax.

Dedi:

– Ay ağa, təki sənin övladın olsun, on yeddi yaşına çatsın, bütün şəhəri qaldırarıx ayağa, onu basarıx bağrımıza, özümüz ölərik ki, qoymarıx ona bir şey ola.

Nəysə, gəldi bı arvatdan bının bir oğlu oldu. İndi bı uşax böyüdühcə, bu da həsrətdi də. Bir gün baxdı gördü ki, uşağın on yeddi yaşının tamam olmağına iki gün qalır. Çağırdı:

– Vəzir-vəkil.

– Ağa, nədi? Nə deyirsən, neyniyək?

Dedi:

– Ə, nə deyirsən yox ey. Səhər yox, biriyün onların dedihləri vaxt tamamdı, uşağın on yeddi yaşı tamam olur.

Deyəndə bılar da həsrət ötürdü. Genə vəzir dedi:

– Ağa, onda da saa demişdim, indi də deyirəm dənə. Bütün şəhəri qaldıraram ayağa, gələrik onu basarıx bağrımıza, özümüz ölərik ki, qoymarıx ona bir şey ola.

Nəysə, əmr verdilər, bütün şəhər əhli həmin gün yığıldı. Vəzir çıxdı bir hündür yerə, dedi:

– Ey millət, görürsünüz, göydə Allah, yerdə bizim padşahdan başqa qüvvəmiz yoxdu. Bının bir oğlu var, bu gün saat iki tamamda bir hadisə olmalıdı. Kim onu bağrına basıf keçirsə, ona bir küp qızıl verəjeyih. Bütün şəhər əhlini yeddi gün pulsuz yeyib-içməyə, deyib-gülməyə dəvət eliyəjeyih.

İndi kimi qızılın xatirinə, kimi yeyib-işməyin xatirinə, kimi vəzirin xatirinə, kimi padşahın xatirinə, kimi bu uşağın xatirinə, kimi tutduğu yolun xatirinə o basır bağrına, bı basır bağrına. Bir də baxdılar ki, iki tamama bir dəyqə, iki dəyqə qalıf-qalmıyıf. Hamı əlin qaldırdı göyə: “İlahi, şükür sənin varlığa, vaxt keçir”. İndi bu uşax da başın qaldıranda belə baxdı ki, çarhovuzun qırağında bir armud ağacı var, üstündə bir armud var. İndi bı nətəri bıların əlindən çıxırsa, on yeddi yaşında uşax, özü də kefnən böyüyən. Bıların əlinnən nətər qalxdısa, çıxdı ağaca, əlini uzatdı ki, armudu dərə, heş demə armudun üstə ilan varmış, uşağın barmağınnan çaldı. Çalan kimi gup suya. Baxdılar ki, düz iki tamamdı. İlan çaldı, ağaşdan yıxıldı, suda boğuldu. Allahın yazısına pozu olmaz.

## NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ*

207A Eşşək və öküz – № 59
280B* Qənaətcil qarışqa – № 15
294* = AT 335 Qışın dostluğu – № 65
300 Suyun qabağını kəsmiş əjdaha – № 37
301B Güclü adam və onun yoldaşları –№ 37
315A Adamyeyən qız – № 34
400*A Pəri qız qayınanasının yasında qəribə hərəkətlər edir – № 4
432 Oğlan ilan cildində – № 39
449 Gül və Sənavər – № 36
451B* Yeddi qardaş, bir bacı – № 1
460* Qaraçuxasını yatıran şəxs – № 38
460C* Bəxtini oyatdıqdan sonra kasıbın şansı gətirir – № 11
465C O dünyadan xəbər gətirmək – № 2
514* Cins dəyişmə – № 36
517 Quş dili bilən İskəndər – № 32
559 Danışmayan qız – № 35
653A Ən qiymətli hədiyyə – № 35
661* Xarrat, dərzi və kimyagər – № 35
670 Ovçu Pirim – № 59
679* = AT 875D Balıqların gülməsi – № 33
750B* İbadət yaxşıdı, yoxsa səxavət – № 7
750K* Comərd qəssab – № 8
750* İynənin ulduzundan dəvə keçər? – 90
760**A Ofsanata düşən tikə – № 9
763 Qızıl üstündə bir-birini öldürürlər – № 60

---

* Süjetlərin adları və nömrələri "Azərbaycan nağıllarının süjet göstəricisi" (Bakı: Elm və təhsil, 2013) əsasında verilmişdir. Süjet adlarından sonra nağılın topludakı nömrəsi göstərilmişdir. Topludakı nağılların böyük əksəriyyətinin həmin kitabda qarşılığına rast gəlinir, yalnız bir süjetin qarşılığı yoxdur, həmin süjet haqqında da göstəricinin sonunda əlavə məlumat verilmişdir.

777** Bacı həsrəti – № 10
782** İsgəndər özünü yer üzünün yeganə hökmdarı sayır – № 88
798* Dünya qarısı – № 60, 88
806* İsgəndər o dünayda – № 88
807*B Qəhrəman o dünyada – № 2
827* Çobanın Həcc ziyarəti – № 64
831C Torpaq hərisi – № 31, 88
834A Kor canavarın qisməti – № 61
834** Altı şahılıq ruzu – № 92
845A* Gənc özünə ölüm arzulayır – № 13
875D Yola nərdivan salaq – 88
875İ* Tərli bədən və soyuq su – № 3
878*A Əlimə su tök – № 6
878*B Kiçik qız Şah Abbasın onun hamam boxçasını götürməsini arzu edir – № 39
881 Böhtanlanmış arvad – № 4
882 Qadının sədaqətliliyi üstündə mərc – № 3
888A Baftaçı Şan Abbas – № 88
895* Şah Abbasın qadınları qırdırmaq istəməsi – № 5, 44
910A* İçki məclisinə dostlarından sonra get – 89
910B Üç ağıllı məsləhət – № 91
911 Arvada sirr vermə, böyüklərlə dostluq etmə, özgədən dost tutma – № 42
922** Toğlunu qurda göstərmək – № 42
929* Dilimi mehribançılığa öyrədirəm – № 62
934A Üç ölüm – № 93
934* İskəndərin ölümü – № 31
934G* İlanla gələn əcəl – № 7
950 Usta və şəyirdi – № 43, 48
976*A = AT 1169 Dəyişik düşmüş baş – № 35
976*B Tərs düşmüş sünnət – № 36
981 Qocaların öldürülməsi – № 14

986 Tənbəl ər – № 40
997* İnsan nəslinə çəkər – № 63
1000 Hirslənməmək sazişi – № 12
1199 Sonsuz dua – № 41
1120 Kosa (ağa) keçəli çaya atmaq istəyir – № 12
1132 Nökərdən qaçma – № 12
1202 Naşı biçinçi – № 52
1240 Molla oturduğu budağı kəsir – № 17, 67
1313A Molla ölümü haqqında deyilənlərə inanır – № 17, 67
1341A Tövlədən qaçış – № 56
1406A* Təsbeh kimə çatmalıdır? – № 36
1441B Mollanın arvadına aşiq olmuş keçəl – № 51
1502*A Qayınana və gəlin – № 22
1502*B İz eşşəyin, feil gəlinin – № 20
1525G Oğru Əzrayıl qılığında – № 43, 48
1525N Keçəllə kosa bir-birinə hiylə gəlirlər – № 49
1525S* Keçəllə kosa padşahın inəyini oğurlayırlar – № 49
1525V* Fətir oğrusu – № 49
1535* Ləl qiymətinə təzək – № 45
1537 Cansız bədən – № 12
1539G* Qoşunbasan – № 58
1542A* Təqibdən qaçan keçəl – № 57
1577 Yeddi kor – № 53
1618* Kim uzağa tullanar? – № 52
1654 Keçəllə kosa qəbirstanlıqda – № 50
1696 Döyülən axmaq – № 54
1892 Xoruzun belində qoz ağacı bitir – № 50
1920 Yalan yarışı – № 50
1960D Nəhəng meyvə (kələm, qarpız) – № 50

"Toyuq oğrusu" nağılının "Azərbaycan nağıllarının süjet göstəricisi"ndə qarşılığı yoxdur.

# BAŞLIQLAR

**Ön söz ........................................................................... 3**
**Narış İsa qızı Bayramova ........................................... 16**
1. Narxatın ................................................................ 20
2. Üç qardaş .............................................................. 31
3. Tacir oğlu ............................................................. 43
4. Huri qızı ................................................................ 53
5. Şah Abbas və Həsən Qara ........................................ 68
6. Sarı donlu qız ....................................................... 81
7. Savabın xeyri ......................................................... 89
8. Həzrət Əli ilə qəssab .............................................. 95
9. Xeyrül-əməl .......................................................... 99
10. Bacı həsrəti ........................................................ 100
11. Baxtını gəzənin nağılı ........................................ 103
12. Santır ................................................................. 104
13. Əzrayılla yoldaşlıq edən şəxs .............................. 113
14. Hər kəsin əməli öz qarşısına çıxar ....................... 114
15. Süleyman peyğəmbərlə qarışqa ............................ 116
16. Molla və eşşəyi ................................................... 117
17. Molla özünü ölülüyə vurur .................................. 122
18. Özləri öz dərmanını bilirlər ................................. 123
19. Halıma bax, ay Mahmud ...................................... 124
20. İz eşşəyin, fil gəlinin ........................................... 126
21. Altı daş, üstü aş .................................................. 127
22. Yaman dərddi, bacı ............................................. 129
23. Yerin-göyün ağırlığı ............................................ 130
24. Atın üzəngisinə çıxan qan .................................... 131
25. Saili borcdan qurtaran Əli .................................... 133
26. Gəlin qayası ........................................................ 135
27. Axtamar gölü ...................................................... 135
28. Qotur gölü .......................................................... 136
29. Aşığam, vətən sarı ............................................... 137
30. Beyləqan və Biləsuvar haqqında ........................... 138

**Musa Şükür oğlu Bayramov ............................................... 140**
31. Şah İsgəndər ............................................................ 144
32. Quş dili bilən İsgəndər ............................................... 148
33. Quru kəllə ................................................................ 159
34. Adamyeyən qız .......................................................... 164
35. Şah Abbasla məleykə ................................................. 174
36. Padşah oğlu .............................................................. 181
37. Məlik Məhəmməd ...................................................... 186
38. Qaraçuxasını yatıran şəxs .......................................... 198
39. Üç qız ...................................................................... 205
40. Evi arvad tikər .......................................................... 211
41. Əzrayılla yol yoldaşı olan şəxs ................................... 218
42. Şaha bel bağlama ...................................................... 220
43. Keçəl ....................................................................... 227
44. Arvadın eləsi də var, beləsi də ................................... 237
45. Tacir Bəhlul ............................................................. 244
46. Eşşək, sənə deyirəm, qonaq, sən eşit ......................... 248
47. Dızz ........................................................................ 250

**Əli Rəmdar oğlu Süleymanov ............................................. 252**
48. Fərasətli qardaşlar .................................................... 257
49. Keçəllə Kosa ............................................................ 265
50. Şərikli kömbə ........................................................... 273
51. Molla ilə Keçəl ......................................................... 278
52. Üzlü qonaq ............................................................... 282
53. Yeddi korun nağılı .................................................... 287
54. Döyülən axmaq ......................................................... 291
55. Toyuq oğrusu ............................................................ 294
56. Naşı oğru ................................................................. 296
57. Padşahın baş ağrısı ................................................... 299
58. Qoşunbasan .............................................................. 301
59. Heyvanların dili ........................................................ 302
60. Süleymana qalmayan dünya ....................................... 305
61. Kor canavarın qisməti ............................................... 307
62. Dilimi mehribançılığa öyrədirəm ............................... 310

63. İnsan nəslinə çəkər....................................................314
64. Çobanın Həcc ziyarəti...............................................316
65. Qışın dostluğu.........................................................317
66. Ulaq gəlir, kəs qabağını ............................................318
67. Ölü də halva yeyər? .................................................319
68. Mənə də inəyim qaldı...............................................321
69. Onsuz da düşəcəkdim ..............................................322
70. Molla sənin dayındı..................................................323
71. Molla itə dua yazır ....................................................324
72. Lahıclıların duz əkməsi............................................324
73. Lahıclıların odun yığması .........................................325
74. Başın qoltuq görməyib..............................................326
75. Qazının bölgüsü .......................................................329
76. Sən sənsən, mən kiməm? .........................................330
77. Kişisən, stolun haqqını ver........................................331
78. Qırqovul deyib yeyirəm ............................................332
79. Xərcin nə çıxır?.........................................................334
80. Abdal Qasımla erməni aşığı .....................................334
81. İki aşığın deyişməsi...................................................335
82. Məni suya aparın.......................................................338
83. Mən çərdəyi çıxardıb atdım .....................................339
84. Deyingən ər...............................................................340
85. Bu günün qabağında qar durar? ...............................341
86. Qoydum qaçdım........................................................342
87. Tülkü tülkülüyünü bildirincə ...................................343

**Abbas Mahmud oğlu Abbasov...........................................344**
88. İsgəndər Zülqərnə ....................................................346
89. Üç vəsiyyət ..............................................................362
90. Molla və çoban .........................................................370
91. Üç məsləhət ..............................................................374
92. Yetim oğlan ..............................................................382
93. Üç ölüm ....................................................................391

**Nağılların süjet göstəricisi.................................................394**

**Usta söyləyicilərin repertuarı,**
**I kitab.**
Bakı, “Elm və təhsil“, 2015.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Zəfər Fərhadov**

Kompyuterdə yığan:
**Səfa Əliyeva**

Korrektor:
**Elnarə Əmirli**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 25 ç/v
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.